ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 30
(II HİSSƏ)

BAKI – 2022

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 30 (II hissə). Bakı, 2022, 254 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Əziz Bəşir oğlu Məmmədov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**İzzət Əşrəf oğlu Rüstəmov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Rövşən Əli oğlu Cavadov,** psixologiya üzrə fəlsəfə doktoru, dosent, BDU
**Zeynəddin Camal oğlu Hacıyev**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Bəxtiyar Həmzə oğlu Əliyev**, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Hikmət Əbdul oğlu Əlizadə**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor, baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

## FƏLSƏFƏ

# ARQUMENTASİYANIN XARİCİ STRUKTURU

***b/m. Allahverdiyev Azər,***
***BDU-nun fəlsəfə kafedrası***
***azer1958@mail.ru***

***Açar sözlər:*** arqumentasiyanın strukturu, arqumentasiya sxemi, sadə arqumentasiya, mürəkkəb arqumentasiya, ümumi (çoxsaylı) arqumentasiya, tabesiz arqumentasiya, tabeli arqumentasiya.
***Ключевые слова:*** структура аргументации, схема аргументации, простая аргументации, сложная аргументации, множественная аргументация, сочинительная аргументация, подчинительная аргументация.
***Keywords:*** argumentation structure, argumentation scheme, simple argumentation, complex argumentation, multiple argumentation, coordinative argumentation, subordinative argumentation.

Xüsusi ədəbiyyatda arqumentasiyanın xarici strukturu və arqumentasiyanın daxili strukturu anlayışları nəzərdən keçirilir. Adətən, arqumentasiyanın xarici strukturu arqumentasiyanın strukturu anlayışı ilə, arqumentasiyanın daxili strukturu isə arqumentasiya sxemi anlayışı ilə göstərilir. Aydındır ki, arqumentasiyanın strukturu və arqumentasiya sxemi anlayışlarını eyniləşdirmək olmaz, onlar fərqli anlayışlardır.

Arqumentasiyanın strukturu, bir qayda olaraq, iki cür başa düşülür, 1) irəli surulən tezisi (nəzər nöqtəsini) əsaslandırmaq üçün gətirilən arqumentlərin əlaqəsi üsulu kimi, 2) tezisi möhkəmləndirmək üçün gətirilən arqumentlərin birləşdirilməsi variantları kimi. Bu yanaşmalar arasında elə bir fərq yoxdur, onlar bir-birini , demək olar ki, təkrarlayırlar.

Arqumenyasiya sxemi dedikdə, arqument (arqumentlər) ilə tezis arasındakı əlaqə nəzərdə tutulur. Əslində, arqumentasiya sxemi anlayışı arqumentasiyanın məntiqi forması anlayışı ilə üst-üstə düşür. Arqumentasiyanın təhlili prosesində mühüm məsələlərdən biri onun strukturunun müəyyənləşdirilməsidir. Bu təhlil müxtəlif məqsədlərlə aparıla bilər, məsələn, nəzər nöqtəsinin necə müdafiə olunduğunu müəyyən etmək üçün; arqumentasiyanın keyfiyyətini qiymətləndirmək üçün; ayrı – ayrı arqumentləri və mürəkkəb arqumentasiyada onlar arasında əlaqələri aşkar etmək üçün; arqumentasiyanın mümkün tənqidini proqnozlaşdırmaq üçün və s.

Arqumentasiyanın strukturunda, bir qayda olaraq, iki komponent (tərkib hissəsi) fərqləndirilir.

1) tezis (nəzər nöqtəsi);
2) arqument (arqumentlər).

Bunlardan başqa, arqumentasiyanın tərkibində həm tezisi (nəzər nöqtəsini), həm də arqumentləri göstərən sözlər, ifadələr - indikatorlar da yer alır.

İndikatorlara misal olaraq – fikrimcə, mənə elə gəlir ki, hesab edirəm ki, beləliklə, ki, deməli, çünki, ona gorə ki, bu səbəbə görə, ona görə də, belə ki, birincisi, ikincisi və s. kimi sözləri, ifadələri göstərmək olar.

Tezisin (nəzər nöqtəsinin) əsalandırılması məqsədilə gətirilən bütün arqumentlər məcmusuna arqumentativ diskurs deyilir.

Nəzər nöqtəsi (tezis) arqumentasiyanın obyektini təşkil edir. Arqumentasiyanı təşkil edən mülahizələr toplusu hansısa bir nəzər nöqtəsinə aid olur. Nəzər nöqtəsi insanın müddəaya münasibətini ifadə edən rəyidir. Bu baxımdan nəzər nöqtəsinin strukturunda aşağıdakıları göstərmək olar.

- propozisiyadan ibarət olan müddəanı;

- insanın həmin müddəaya münasibətini göstərən ifadəni.

Nümunə: “ Mən əminəm ki, müasir dövrdə ali təhsili olmayan insan uğurlu karyera qura bilməz”.

Burada propozisiyadan ibarət olan müddəa –“ müasir dövrdə ali təhsili olmayan insan uğurlu karyera qura bilməz” - mülahizəsidir.

İnsanın həmin müddəaya münasibətini göstərən ifadə - “mən əminəm ki“- ifadəsidir.

Nəzər nöqtəsini müəyyənləşdirə bilmək üçün nəzər nöqtəsinin indikatorları (göstəriciləri) adlandırılan ifadələrə diqqət yetirmək vacibdir.

Belə bir arqumentasiyanı nəzərdən keçirək. “10 ədədi cütdür. O, 2-yə bölünür”. Bu arqumentasiyanı iki cür interpretasiya etmək olar.

“10 ədədi cütdür (tezis), ona görə ki, o, 2-yə bölünür (arqument)”.

Bu arqumentasiya prosesində nəzər nöqtəsi (tezis), onu dəstəkləyən arqumentdən əvvəl ifadə edilir. İndikator daha əvvəl ifadə edilmiş nəzər nöqtəsinə aiddir. Arqumentasiyanin təqdim edilməsinin bu cür düzülüşü reqressiv adlanır və buna reqressiv arqumentasiya deyilir.

“10 ədədi cütdür (arqument) , ona görə də o, 2-yə bölünür (tezis)”.

Bu halda isə əvvəldə arqument və yalnız bundan sonra onun dəstəklədiyi nəzər nöqtəsi (tezis) gətirirlir. Burada indikator özündən sonra gələn nəzər nöqtəsinə aiddir. Bu cür düzülüş proqressiv adlanır və buna proqressiv arqumentasiya deyilir.

Kommunikativ dialoq prosesində arqumentləşdirilən tezis, bir çox hallarda müəyyən nəzər nöqtəsi kimi qeyri-aşkar formada təqdim olunur. Bu halda nəzər nöqtəsinin müəyyənləşdirilməsi arqumentasiyanin qavranılmasinda atılan ilk addım olmalıdır.

Yuxarıda qeyd olunduğu kimi arqumentasiyanın strukturunun müəyyənləşdirilməsi arqumentasiyanın təhlililndə ən vacib məsələlərdən biridir.Arqumentasiyanın strukturu müxtəlif çətinlik səviyyələrində olur. Bu, tezisin (nəzər nöqtəsinin) əsaslandırılması üçün iştirakçılarln gətirdikləri arqumentlərin sayından və arqumentlər arasındakı münasibətlərdən (əlaqələrdən) asılıdır.

Arqumentlərin sayından asılı olaraq arqumentasiyanın iki növü göstərilir, 1) sadə arqumentasiya, 2) mürəkkəb arqumentasiya.

Sadə arqumentasiya elə arqumentasiyadır ki, burada tezisin əsaslandırılması bir arqumentə söykənir. Bu halda arqumentasiya sadə struktura malik olur və onun bir cümlədən ibarət olması da mümkündür. Əsas məsələ - cümlədə nəyin arqument, nəyin isə tezis (nəzər nöqtəsi) olduğunu müəyyənləşdirməkdir.

Mürəkkəb arqumentasiya iki və daha çox arqumentdən ibarət olan arqumentasiyadır.

Arqumentlər arasındakı münasibətlərin xarakterindən asılı olaraq mürəkkəb arqumentasiyanın iki növü fərqləndirilir, 1) ümumi (çoxsaylı) arqumentasiya , 2) tərkibli arqumentasiya.

Ümumi (çoxsaylı) arqumentasiya iki və daha çox müstəqil arqumentdən ibarət olur. Ümumi arqumentasiyanın arqumentləri bir-birindən asılı olmur və onlar müddəanın əsaslandırılmasında bərabərhüquqlu sayılırlar. Nəzəri cəhətdən belə hesab etmək olar ki, ümumi arqumentasiyanın hər bir arqumenti irəli sürülən müddəanın əsaslandırılması üçün yetərlidir. Lakin daha inandırıcı olsun deyə, bir neçə arqumentin əlavə edilməsi məqsədəuyğun sayılır. Belə bir nümunəni nəzərdən keçirək:

“O, yol hərəkəti qaydalarını pozub (tezis), belə ki. qarşı yola çıxıb (arqument 1), işıqları yandırmayıb (arqument 2), qırmızı işıqda yolu keçib (arqument 3)”. Göründüyü kumi buradakı üç arqumentin hər biri ayrı – ayrılıqda tezisin əsaslandırılması üçün yetərlidir.

Digər bir nümunə:

“Siz mənim qardaşımla BDU-nun tibb fakültəsində təhsil ala bilməzdiniz (tezis), çünki, əvvəla, mənim qardaşım yoxdur (arqument 1), ikincisi isə BDU-da tibb fakültəsi yoxdur (arqument 2)”. Buradada iki arqumentdən hər biri ayrı – ayrılıqda

Tərkibli arqumentasiya bir-birilə qarşılıqlı əlaqədə olan iki və daha çox arqumentdən ibarət olur. Arqumentlər arasındakı qarşılıqlı əlaqənin xarakterinə görə, tərkibli arqumentasiyanın özünün iki növü göstərilir, 1) tabeli arqumentasiya, 2) tabesiz arqumentasiya

Tabeli arqumentasiya elə mürəkkəb arqumentasiyadır ki, burada hər bir sonrakı arqument özündən əvvəlki arqumenti dəstəkləyir. Burada arqumentlər arasında şaquli əlaqə olur və onlar özünəməxsus zəncir formalaşdırırlar. Bu zəncirdə irəli sürülən tezis arqument tərəfindən dəstəklənir, həmin arqument digər arqumentlə münasibətdə tezis rolunda çıxış edir və s. Nümunə gətirək.

"Əli təqaüd almır (tezis), çünki imtahan balları çox aşağıdır (arqument 1), buna səbəb isə onun çoxlu dərs buraxması və az çalışmasıdır (arqument 2)".

Burada arqument 1 tezisi dəstəkləyir, lakin həmin arqument arqument 2 ilə münasibətdə tezis rolunda çıxış edir, yəni arqument 2 də arqument 1-i dəstəkləyir.

Digər bir nümunəyə müraciət edək:

"Yaxşısı budur, mən evə gedim (tezis), çünki çox yorulmuşam (arqument 1), demək olar ki, iyirmi dörd saatdır ayaq üstdəyəm (arqument 2), ona görə də sizə heç cür kömək edə bilməyəcəyəm (arqument 3)".

Ədəbiyyatda bu cür arqumentasiyanı ardıcıl mühakimə də adlandırırlar. Burada müddəanın əsaslandırılması bir-birinin ardınca gələn bloklardan ibarət olur. Birinci arqument kifayət qədər inandırıcı olmadıqda onu möhkəmləndirmək üçün ikinci arqumentdən istifadə edilir. Bu arqument də əsaslandırma tələb etdikdə, üçüncü arqument gətirilir və s.

Tabesiz arqumentasiya elə mürəkkəb arqumentasiyadır ki, burada arqumentlər qarşılıqlı asılılıq münasibətində olurlar. Onlardan hər biri öz-özlüyündə zəruri olsa da, yalnız birlikdə, məcmu halında tezisi dəstəkləyə bilirlər. Burada arqumentlərdən hər biri tezisi qismən dəstəkləyir. Onlar arasında üfüqi əlaqə olur. Arqumentlər qarşılıqlı asılılıq münasibətində olduqlarına görə onlardan birinin itirilməsi arqumentasiyanı zəiflədir, onu əsassız edir.

Qeyd etmək lazımdır ki, tabesiz arqumentasiyada arqumentlər arasındakı asılılıq müxtəlif formalarda olur. Asılılıq formalarından biri ondan ibarətdir ki. ikinci arqument birinci arqumentlə baglı olan iradları istisna edir və onu daha da möhkəmləndirir. Nümunə:

"Bu yay biz istirahət etməyə xaricə getməyəcəyik, məzuniyyətimizi Xəzər dənizinin sahilində bağ evində keçirəcəyik (tezis), çünki həkimlərin fikrincə, oranın iqlimi uşağın xəstəliyinin müalicəsində xeyirlidir (arqument 1), bundan başqa, maliyyə durumumuz da qaydasında deyil (arqument 2)".

Burada birinci arqumentlə bağlı belə bir irad irəli sürmək olar ki, xaricdəki istrahət yerləri də uşağın müalicəsinə kömək edə bilər. Lakin ikinci arqumentin gətirilməsi belə bir iradın meydana çıxmasının qarşısını alır. Başqa bir nümunə gətirək.

"Evdə yeməyə bir şey yox idi (arqument 1) və bütün mağazalar da bağlanmışdı (arqument 2), ona görə də biz restoranda şam etməli olduq (tezis)".

Bu arqumentasiya bir tezis və iki müxtəlif arqumentdən ibarətdir və arqumentlər yalnız birlikdə, məcmu halında tezisi hərtərəfli şəkildə dəstəkləyirlər. Tezis rolunda "biz restoranda şam etməli olduq" mülahizəsi, arqument 1 qismində "evdə yeməyə bir şey yox idi" mülahizəsi, arqument 2 qismində isə "bütün mağazalar bağlanmışdı" mülahizəsi çıxış edirlər.

Arqumentlərin tabesiz əlaqəsi həm də onunla səciyyələnir ki, onların ardıcıllığını (sırasını) dəyişmək olar və bu zaman tezisin əsaslandırılmasında heç bir dəyişiklik baş vermir. Deyilənləri yuxarıdakı arqumentasiyaya tətbiq edək.

"Bütün mağazalar bağlanmışdı və evdə də yeməyə bir şey yox idi, ona görə də biz restoranda şam etməli olduq".

Göründüyü kimi arqumentasiyanın məzmununda heç nə dəyişmir.

Tabesiz arqumentasiyada arqumentlərin tezisi dəstəkləmə (əsaslandırma) səviyyələri müxtəlif ola bilər. Məsələn, mümkündür ki, arqumentlərdən biri tezisi 50 %, ikincisi 40 %, üçüncüsü isə 10 % əsaslandırsın.

Ümumi arqumentasiyada bir neçə müdafiə xətti olur və onlardan biri təkzib edildikdə, digərləri müdafiənin (əsaslandırmanın) davam etdirilməsini təmin edirlər. Tabesiz arqumentasiyada yalnız bir əsaslandlrma xəttindən istifadə edilir və onun hər hansı bir hissəsinin yerində olmaması, ümumilikdə əsaslandırmanın nisbətən zəifləməsinə səbəb olur. Tabeli arqumentasiyada isə bir arqumentin keyfiyyətli (tutarlı) olmaması, bütövlükdə arqumentasiyanın dağılmasına gətirib çıxarır.

Arqumentasiyanın strukturunu müvafiq sxemlər qurmaqla müəyyənləşdirmək mümkündür. Bunun üçün aşağıdakıları yerinə yetirmək vacibdir,

a) arqumentasiyada yer alan tezisi (nəzər nöqtəsini) və arqumentləri müəyyənləşdirmək;
b) arqumentasiyanın sadə və ya mürəkkəb olduğunu aydınlaşdırmaq;
c) arqumentasiya mürəkkəb olduqda, onun növünü müəyyənləşdirmək;
d) xüsusi yazılış qaydasından və metodikadan istifadə etməklə arqumentasiya sxemini qurmaq.

## ƏDƏBİYYAT


1. Важнейшие концепции теории аргументации. Пер. с англ., науч. ред. А. И. Мигунов. СПб.: СПбГУ, 2006.
2. Зайцев Д. В. Теория и практика аргументации. М.: 2017
3. Ивлев Ю.В. Основы логической теории аргументации // https://iphras.ru/uplfile


## ARQUMENTASİYANIN XARİCİ STRUKTURU

***Allahverdiyev Azər***

## XÜLASƏ

Məqalə arqumentasiya nəzəriyyəsi və praktikasının mühüm problemlərindən birinə - arqumentasiyanın xarici strukturunun təhlilinə həsr edilmişdir. Arqumentasiya strukturunun tərkib komponentləri fərqləndirilir. Sadə arqumentasiya, mürəkkəb arqumentasiya, çoxsaylı arqumentasiya, kompozisiya arqumentasiyası və subordinasiyalı arqumentasiya kimi arqumentasiya növləri nəzərdən keçirilir.

## ВНЕШНЯЯ СТРУКТУРА АРГУМЕНТАЦИИ

***Аллахвердиев Азер***

## АННОТАЦИЯ

Статья посвящена одной из важных проблем теории и практики аргументации – анализу внешней структуры аргументации. Выделяются составные компоненты структуры аргументации. Рассматриваются такие виды аргументации, как простая аргументация, сложная аргументация, множественная аргументация, сочинительная аргументация и подчинительная аргументация.

## EXTERNAL STRUCTURE OF ARGUMENTATION

***Allahverdiyev Azer***

**SUMMARY**

The article is devoted to one of the important problems in the theory and practice of argumentation - the analysis of the external structure of argumentation. Components are distinguished - components of the argumentation structure. Such types of argumentation as simple argumentation, complex argumentation, multiple argumentation, compositional argumentation and subordinative argumentation are considered.

# ANTİK ELMİ PROQRAMLARIN YARANMASI

***Aldostov Güloğlan Faiq oğlu***
***BDU-nun II kurs magistrantı***
***guloglan_777@mail.ru***

***Açar sözlər:*** Pifaqorçuluq, reinkarnasiya, atomizm, sistemli fəlsəfə, metafizika, idealizm və materializm.
***Ключевые слова:*** Пифагореизм, реинкарнация, атомизм, систематическая философия, метафизика, идеализм и материализм.
***Keywords:*** Pythagoreanism, reincarnation, atomism, systematic philosophy, metaphysics, idealism and materialism.

Fəlsəfəni bütün elmlərin və biliklər sisteminin mənbəyi hesab etmək olar. Onun məqsədləri, mahiyyəti, başlama tarixi, həll etdiyi problemlər və dəyərləri haqqında çoxlu sayda məqalələr və elmi tədqiqatlar vardır. Fəlsəfə müxtəlif suallara cavab verməyə çalışdığı üçün onun çoxlu sayda qolları və cərəyanları əmələ gəlmişdir. Fəlsəfə sonsuz sayda suallardan və bu suallara xeyli cür müxtəlif cavablardan ibarətdir. Fəlsəfədə qarşıya qoyulmuş sualın tam cavabı da, yoxdur və filosoflar bu suallara müxtəlif prizmalardan baxaraq, cavablandırmağa çalışırlar.

Fəlsəfənin yaranma tarixində də bəzi mübahisələr mövcuddur. Bəzi alimlər fəlsəfənin Qədim Şərqdə, xüsusilə Hindistanda, digərləri isə Yunanıstanda yarandığını qeyd edirlər. Əslində, fəlsəfənin yaranma tarixi dəqiq məlum olmasa da, insanlar ilk dəfə şeylərin təbiəti və hadisələrin səbəbləri haqqında düşünməyə başladığı anı fəlsəfə elminin tarixi başlanğıcı hesab etmək lazımdır. Fəlsəfənin ilk dəfə Yunanıstanda yaranıb yaranmamasından aslı olmayaraq yunan fəlsəfəsinin elmin yaranmasında, insanların dünyagörüşlərinin dəyişməsində və fəlsəfənin hal-hazırki vəziyyətə gəlməsində böyük rolu danılmazdır.

İlkin yunan fəlsəfəsində mühüm cərəyanlardan biri - əsası Pifaqor (Pythagoras,təxminən m. ö. 570 - 490) tərəfindən qoyulan pifaqorçuluq idi. Onun nümayəndələri b.e.ə. təqribən 540-ci ildən başlayaraq cənubi İtaliyanın yunan koloniyalarında yaşayırdılar. Riyazi nəzəriyyələri ilə məktəblərdə tez-tez adı çəkilən Pifaqor, fəlsəfə tarixində çox mühüm yeri olan bir mütəfəkkirdir.

Pifaqorun fəlsəfəsini anlamaq üçün onun riyaziyyatla əlaqəsini araşdırmaq lazımdır. Pifaqor böyük riyaziyyatçı idi. Onun məşhur “Pifaqor teoremi”adlanan düzbucaqlı üçbucağın hipotezi ilə katetlərinin nisbəti qanundur (2,s 342-342). Cüt və tək ədədli rəqəmlər haqqında riyaziyyat təlimini, rəqəmlərin həndəsi anlamı nəzəriyyəsini də Pifaqor kəşf etmişdir. Riyaziyyat və fəlsəfə arasındakı bu ənənə əsrlər sonra Dekart və Leybnits kimi adlarla davam etmişdir.

Pifaqorçular fəlsəfədən gündəlik həyatda sadəcə biliyə çatmaq üçün deyil, praktik həllər istehsal etmək üçün də istifadə etməyə çalışırdılar. Pifaqorun ideyaları bir çox məqamlarda mistikaya yaxın idi. Ona görə də, sonralar onun məktəbinin ənənələrini yeni-platonçu filosoflar davam etdirmişdilər. Pifaqor bir sıra mənəvi və əxlaqi prinsiplər də irəli sürmüşdür. Onun təliminə görə insanlar yetkinliyə doğru inkişaf etməlidir. Buna da yalnız gözəlliyə, eləcə də faydalı şeylərə yönəlməklə çatmaq mümkündür. Məhz, pifaqorçular Yunanıstanda ilk dəfə “kamil insan” ideyasını irəli sürmüşdülər. Bu da sonralar başqa dinlərdə və fəlsəfi təlimlərdə təkrarlanmışdır. Pifaqora görə kosmosun gözəlliyi yalnız mənəvi cəhətdən yetkin və intizamlı insan üçün açılır. Həyatın mənası da, kosmosun ahəngdarlığının insan həyatında əks olunmasıdır.

Pifaqor həm də ruhların bir bədəndən başqasına köçməsinə (reinkarnasiyasına) inanırdı (3, s30). Onun fikrincə, hər şey müəyyən vaxtdan sonra dünyaya yenidən gəlir və əslində yeni olan heç nə yoxdur. Ruh günahların ağırlığına görə bədəndə qalmağa məhkumdur. Məqsəd də onu

bədəndən azad etməkdir. Buna görə də, mənəvi həyat yaşamaq üçün ət və paxla kimi bəzi qida məmulatlarından çəkinmək lazımdır (2,s351-352). Burada isə qeyd etmək lazımdır ki, Pifaqorun bu kimi yanaşması ilə hind dünyagörüşü arasında bənzərliklər vardır.

Pifaqorçular sadəcə olaraq gizli bir təriqət kimi fəaliyyət göstərmirdilər. Onlar zaman-zaman siyasi hakimiyyəti ələ keçirməyə cəhdlər ediblər. Bu vəziyyət gələcəkdə birçoxlarının öldürülməsinə səbəb olmuşdur. Pifaqorun da bu üsyanların birində öldürüldüyü deyilir. Onların fikrincə, cəmiyyət hakimiyyətsiz yaşaya bilməz. Bu baxımdan da ən yüksək hakimiyyət tanrılara məxsusdur. Onlara hamı ibadət etməlidir. Tanrılardan sonra hökmdarlar, hörmətli insanlar, valideyinlər və ən sonda qanun aliliyi gəlir. Beləliklə, hakimiyyət iyerarxik sistemlə qurulmalıdır. Pifaqorçular siyasi olaraq dəqiq iyerarxik quruluşlu cəmiyyətin tərəfdarı idilər. Bununla bağlı olaraq belə bir ümumi qeyd də irəli sürək. Uzunmüddətli təhsili və əxlaqi keyfiyyətləri tələb edən filosoflar çox vaxt təsdiq edirlər ki, cəmiyyət iyerarxik olaraq nizama salınmalıdır. Xüsusi olaraq qeyd olunur ki, cəmiyyətin bilikli üzvləri daha böyük diqqətə və imtiyazlara malik olmalı, cəmiyyəti onlar idarə etməlidirlər. Pifaqorçuların təlimində cəmiyyətə iyerarxik nöqteyi-nəzərdən yanaşma ilə ruhun xilası (salvation) barədə təlim arasında da həmçinin bir əlaqə də mövcud idi ki, bu da asketik həyat tərzini, fəlsəfi və riyazi biliklərin mənimsənilməsini nəzərdə tuturdu.

Pifaqorun və onun ardıcıllarının kosmoqonik baxışlarına görə, hər şey 4 ünsür: od, su, yer və havadan yaranmışdır. Yer isə kürə şəklindədir (2,s348). O sonsuz və əbədi boşluqdan yaranıb, o boşluqla nəfəs alır. Bunun nəticəsi olaraq dünya genişlənir və daralır. Bu səbəbdən məkan, zaman, göy cisimləri və onların hərəkəti yaranır. Dünyanın mərkəzində od, baş tanrı Zeusun məbədi və təbiətin qanunu (“fatum” və ya “loqos”) durur. Sonra isə oddan yaranmış və onun ətrafında fırlanan yer, planetlər və ulduzlar gəlir.

Pifaqorçuların təlimi Platonu heyran etmişdi və sonradan, intibah dövründə isə (Demokritin təlimi ilə yanaşı), eksperimental təbiətşünaslığın təşəkkülündə görkəmli rol oynamışdır.

Qədim filosoflar daha çox dünyanın nədən yaranması, varlığın mahiyyətinin nədən ibarət olması kimi suallara cavablar axtarırdılar. Eramızdan əvvəl V-ci əsrdə yaşamış Demokrit göstərirdi ki, varlıq sadə və bölünməz fiziki vahiddən – atomlardan ibarətdir (1,s38). Demokritin geniş bilikləri vardı. O, özünə müasir olan elmlərin əksər sahələrində məhsuldar olaraq işləmişdir. Onun maraq dairəsinin genişliyini göstərmək üçün onun bir sıra əsərlərinin adlarını sadalamaq kifayətdir – “Böyük Diakosmos”, “Təbabət elmi”, “Ölümdən sonra olacaqlar” barədə, “Təbiətin quruluşu” barədə, “Dünya Nizamı” və “Təfəkkürün qaydaları” haqqında, “Ritm və harmoniya” haqqında, “Poeziya” haqqında, “Əkinçilik” haqqında, “Riyaziyyat” haqqında, “Düzgün nitq və anlaşılmayan sözlər” barədə, “Ahəngdar olan və ahəngdar olmayan hərflər” haqqında və.s. Demokritin əsərlərindən 200-dən 300-ə qədər fraqment saxlanılmışdır. Müəyyən mənada bu çoxdur, amma Demokritin böyük yaradıcı fəaliyyəti müqabilində biz onun əsərlərinin nisbətən kiçik hissəsinə malikik. Biz öz şərhlərimizdə Demokrit haqqında həm də ikinci dərəcəli əhəmiyyətə malik informasiyalardan da çıxış etməli olacağıq. Bizim şərhlər, elə buna görə də, onun baxışlarının bir rekonstruksiyası olacaqdır.

Demokritin atomizmi məhz onun sadəliyi ucbatından dahiyanədir. İlk başlanğıcların yalnız bir şəkli mövcuddur – kiçik bölünməz hissəciklər. Onlar boşluqda hərəkət edir və onların hərəkətini müstəsna dərəcədə mexaniki səbəblər müəyyənləşdirir. Demokritə görə, təbiət özünün bütün zənginliyində və mürəkkəbliyində, nəhəng "bilyard oyununa" bənzəyir. Burada boşluqda dolaşan maddi hissəciklərin sonsuz miqdarı iştirak edir. Bu hissəciklərin bütün yerdəyişmələri onların qarşılıqlı toqquşmaları ilə şərtlənir. Boşluq Demokritdə yoxluqla eyniləşdirilir və yoxluq varlığın müqəddəm şərti kimi vurğulanır. (Bu hipotez Parmenidə və onun eleyli ardıcıllarına aşkar olaraq ziddir).

Atomizmin məğzi bir sxem vasitəsi ilə təsvir oluna bilər. Bu sxem özündə iki sualı - nə və necə mövcuddur suallarını - və onlara verilmiş cavabları birləşdirir.

| Sual | | Cavab |
|---|---|---|
| (Nə?) | 1 | Kiçik bölünməz hissəciklər |
| | 2 | Boşluq |
| (Necə?) | 3 | Mexaniki determinizm |

Kiçik maddi hissəciklər fiziki olaraq bölünməz (yunanca, atomos) hesab edilir. Onların xassələri müstəsna dərəcədə kəmiyyət xarakteri daşıyır, yəni bu xassələri sadə riyazi anlayışların köməyi ilə təsvir etmək olar. Bunlar - ölçüyə yatımlılıq, forma, ağırlıq və ilaxırdır, rəng, dad, qoxu, ağrı və.s. deyildir

Atomlar son dərəcə kiçikdirlər, hissi olaraq qavranıla bilmirlər. Beləliklə, hisslərlə qavranıla bilən obyektlərin (ev, daşlar, balıq və.s) izahı yalnız düşünülə bilən, prinsipial olaraq hislərlə qavranıla bilməyən mahiyyətlərin köməyi ilə baş verir.

Bütün atomlar eyni materialdan ibarətdir. Amma onlar forma və ölçülərinə görə fərqlənirlər, forma və ölçülər ayrıca götürülmüş hər bir atom üçün isə daimidir. Müxtəlif atomlar müxtəlif formaya malik olduqları üçün, onlardan bəziləri bir-birləri ilə asanlıqla, digərləri isə çətinliklə birləşirlər. (Bu halda kimyanın valentlik problematikası ilə bir analogiyanı da görmək olar). Şeylər o zaman yaranırlar ki, atomlar "birlikdə ilişirlər". Bu, o səbəbdən baş verir ki, mexaniki toqquşmalar bəzən toplumların yaranmasına aparıb çıxarır və atomlar bu toplumlarda bir-biri ilə birləşə bilirlər. Şeylər o zaman yox olurlar ki, onları təşkil edən atomlar bir-birindən uzaqlaşırlar. Atomların hərəkəti, Demokritin fikrincə, ilahi və ya insani zəkadan asılı deyildir. Hər bir şey bilyard oyunundakı kürələr kimi mexaniki olaraq baş verir. (Demokrit, əlbəttə ki, bilyard daşları ilə bağlı analogiyadan istifadə etməmişdi).

Beləliklə, təbiətin yunan fəlsəfəsinin daxili inkişafı substansiyanın və dəyişikliyin ən uğurlu izah modelinin qurulmasına gətirib çıxardı. O, müasir kimyəvi nəzəriyyəni son dərəcə xatırladır. Amma yunanlar öz nəzəriyyələrini təsdiq etmək üçün eksperiment keçirmirdilər (eksperiment hipotezi antik yunanların zamanında aşkar bir anaxronizm olardı). Elə buna görə də, atomizm onlar tərəfindən təbiət haqqında digər təlimlərlə yanaşı nəzərdən keçirilmişdir. Beləliklə, çoxları Aristotelin təbiət fəlsəfəsini Demokritin təbiət fəlsəfəsindən daha üstün tuturdular. Bu səbəbdən də, heç də təəccüblü deyildir ki, Aristotel son nəticədə, hissi olaraq müşahidə olunan şeylər – torpaq, su, hava və od – haqqında söhbət açdığı halda, Demokrit də hissi müşahidəyə yatmayanlar barədə söhbət açmışdır.

Şübhəsiz ki, fəlsəfə tarixinin ən böyük adlarından biri Platondur. O, təkcə fəlsəfədə deyil,o cümlədən,din və mədəniyyət kimi bir çox sahədə həm qərb, həm də şərq mədəniyyətinə dərindən təsir edən,tarixdə nadir insanlardandır. Bu uğurda onun müəllimi Sokrat və tələbəsi Aristotel də var idi və bu üç böyük filosof bəşəriyyət tarixində mühüm iz qoyub. Daha sonra görəcəyimiz Aristotel kimi Platonun fəlsəfəsi də "Sistemli Fəlsəfə" və ya "Sistem Fəlsəfəsi" adlanır. Bu adların verilməsinin səbəbi, demək olar ki, bütün fəlsəfi mövzularda fikirlər çıxarmaları və onları ardıcıl bir sistemə salmalarıdır. Həqiqətən də Platon da, Aristotel də fəlsəfə tarixində bir çox filosoflardan fərqli olaraq tək bir mövzuya deyil, bir çox sahələrə diqqət yetirmiş və orada orijinal əsərlər yazmağa nail olmuşlar.

Pifaqorçuların təlimi Platonu heyran etmişdi və sonradan,intibah dövründə isə (Demokritin təlimi ilə yanaşı), eksperimental təbiətşünaslığın təşəkkülündə görkəmli rol oynamışdır.

Platon Sirakuzadan başqa, cənubi İtaliyaya da səyahət etmiş və burada pifaqorçularla tanış olmuşdu. Onlarla görüş ona, görünür ki, çox ciddi təsir göstərmişdir. Onları Platonla aşağıdakı ümumi baxışlar birləşdirirdi: 1) riyaziyyat bütün şeylərin daxili mahiyyətidir; 2) dünya dualistikdir və bu da ideyaların həqiqi varlığının və ideyaların bir kölgəsi olan hissi varlığın bölgüsü ilə ifadə olunur; 3) ruh ölməzdir və bir bədəndən başqa bədənə köçürülür. Platon və

pifaqorçular həm nəzəri elmə, həm dini mistisizmə və həm də asketik əxlaqa eyni dərəcədə maraq göstərirdilər.

Platon özündən öncəki filosoflardan fərqli olaraq hər şeyin əsasını hər hansı bir maddədə deyil, ideyada görürdü (4, s455-466). O, hissdən yüksəkdə duran dəyişməz və əbədi ideyalar aləmi ilə dəyişilən, keçici xarakter daşıyan hissi şeylər dünyasını fərqləndirməyi irəli sürmüşdür (1, s39). Fərd və ya obyekt haqqında ideya yoxdur. Ümumilikdə insan ideyası var. Eynilə bağdakı ağac yox ümumilikdə ağac ideyası var. Platonun diqqət yetirdiyi başqa bir məsələ hərşeyin ideyası olub olmaması məsələsidir. Onun fəlsəfəsinə görə ideyalar mükəmməl və düzgün şeylərdir. Bu,onların "yaxşı"bir şey olmasını vacib edir. Ortaya belə bir sual çıxır ki, pislik çirkinlik ideyaları varmı? Bunlar məhfumlar olsa da, mahiyyət etibarı ilə yaxşılıq və kamilliyi ehtiva etmir. İdeya öz təbiətinə görə pis ola bilmədiyi üçün belə varlıqların ideyası ola bilməz. Lakin bu məsələ bu gün də mübahisəli mövzudur.

Platon öz fəlsəfəsində dövlət və cəmiyyət məsələlərinə də böyük əhəmiyyət vermişdir. Bu məsələlər əsasən insan və ruh fəlsəfəsi aspektində açıqlanır. O hesab edirdi ki, insanlar yetkin cəmiyyəti fərdi şəkildə qura bilməzlər. Ona görə də, dövlətə və qanunlara ehtiyac vardır. Ancaq dövlət öz vəzifəsini yerinə yetirmək üçün ideala yaxın olmalıdır. Bu məqama çatmaq üçün isə idarəçilik üsullarının və qanunun müəyyən tələblərə cavab verməsi lazımdır.

Platon ideya anlayışını gündəlik həyata,yəni dövlətə uyğunlaşdırır. Onun fikrincə "ideal"dövlətə çatmaq vacibdir. O, həyatında bunun üçün bir çox cəhdlər etsə də, uğur qazana bilməyib. Zamanla bu ideal dövlətin olmadığını görüb, siyasi fəlsəfədəki fikirlərini bir az dəyişdirmişdir. Bu dəyişikliyi "Dövlət", "Dövlət adamı" və "Qanunlar" kitabında görmək olar. Şübhəsiz ki, onun ən mühüm əsəri və bəlkədə tarix boyu ən çox oxunan əsərlərindən biri olan "Dövlət", Platonun siyasi fəlsəfəsinin əsas mənbəyidir. Lakin zaman keçdikcə bu fikirləri biraz yumşaldaraq "Dövlət adamı"nı yazdı. Bir müddət sonra isə "Qanunlar" kitabında bu xətti davam etdirmişdir. Ancaq bilmək lazımdır ki, "Qanunlar" Platonun ölümündən sonra nəşr olunub və filosofun son nəzarətindən keçməyib.

Ümumiyyətlə, Platon insanları üç təbəqəyə bölmüşdür. O, əkinçi, əsgər, idarəçi kimi müxtəlif təbəqələrdən ibarət bir cəmiyyət təsəvvür edir. (5,s253) Onun fikrincə, hər bir sinif əlindən gələni etməlidir ki, dövlət qüsursuz fəaliyyət göstərsin.

Platon ruh haqqında da düşünmüş və onu bədənə qarşı qoymuşdur. Platona görə tam bir mənəvi maddə olan insan ruhu ölümsüzdür. Platon pifaqorçu təliminin təsirlərini daşıyan ruhçuluq anlayışından istifadə edərək, ruhu həqiqi biliyə çatmağın əsası hesab edir, ruhla ideyalar arasındakı əlaqəni miflərin köməyi ilə izah edirdi. Platonun ruhla bağlı fikirlərinin diqqət mərkəzində ruhun ideyalar aləminə münasibəti dayanırdı.

Platon ruhun üç funksiyalı və ya üç hissədən ibarət olduğunu deyirdi. Platona görə ruhların *ağıllı, qəzəbli* və *nəfsi* səviyyələri vardır. Ağıllı səviyyə insanı ideyalar aləminə yaxınlaşdırır, onun mənəviyyatının əsasında durur və onu həmişə xeyirə yönəldir. Qəzəbli səviyyə onu nizamlayır və çətinliklərə qarşı dözümlü edir. Nəfsi səviyyə isə insanı maddi aləmə bağlayır, onu geriyə çəkir və ideyalar aləmindən uzaqlaşdırır. Durumdan asılı olaraq insanlarda bəzən ağıllı, bəzən qəzəbli, bəzən isə nəfsli səviyyə üstün olur (6, s22-25).

Qeyd etmək lazımdır ki, Platon reinkarnasiyaya da inanırdı. O hesab edirdi ki, öz əməllərinə görə insan gələcək həyatda müxtəlif bədənlərdə yeni həyat qazanacaqdır (7,s38). Ancaq, yetkinlik səviyyəsinə çatmış ruhlar əbədi olaraq bu dünyadan ayrılır və ideyalar aləmi ilə qovuşur.

Eramızdan əvvəl 384-322-ci illərdə yaşamış Aristotel onlarla müxtəlif sahələrdə öz fikirlərini ortaya qoyaraq həm fəlsəfənin,həm də elmin inkişafına kömək etmişdir. Onu təkcə öz baxışlarını deyil, həm də əvvəlki bilikləri bir araya gətirmək baxımından ilk fəlsəfə tarixçisi, hətta ilk elm tarixçisi kimi də görmək olar. Aristotel qədim dünyanın ən böyük filosoflarından biri olmuşdur.

Onun elmi fəaliyyəti nəticəsində qədim yunan fəlsəfəsi ən parlaq dövrlərini yaşaya bilmişdir. O, ilk dəfə insan düşüncəsinin bütün sahələrini əhatə edən fəlsəfi sistem yarada bilmişdir; məntiq, təbiət, metafizika, ontologiya, əxlaq, dövlət, ritorika, poetika və s. sahələrinə aid əsərlər yazmışdır

Aristotel olduqca məhsuldar filosof idi. O, müəllimi kimi, demək olar ki, hər bir mövzuda öz fikirlərini ifadə edir və onları ardıcıl bir sistem üzərinə yerləşdirirdi. Bu səbəbdən həm Platon, həm də Aristotel "Sistem Filosofları" kimi də tanınırlar. Aristotelin çoxlu əsərləri zamanımıza gəlib çatmışdır. Bundan başqa Aristotelin fəlsəfi düşüncələri onun tələbələrinin və başqa yazarların əsərlərində də verilmişdir. Bir sıra tədqiqatçılar ehtimal edirlər ki, onun müəllifliyi ilə tanınan bəzi əsərlər ola bilsin Aristotelin deyil, başqa müəlliflər tərəfindən yazılmışdır. Aristotelin fizikası bugün eyni adlı elmin xəbərçisidir.O,fizikada təbiəti öyrənib.

Bundan əlavə, bu kitabın birinci hissəsində Parmenid, Empedokl, Anaksaqor, Demokrit kimi adların fəlsəfələrini araşdırmışdır. Bu hissə fəlsəfə tarixini bilmək üçün ən yaxşı mənbələrindən biridir. Eynilə digər kitabı "Metafizika" (Böyük Alfa)-nın birinci fəslində də özündən əvvəlki filosofların fikirlərini çatdırır. Aristotel "metafizika" sözünü birbaşa işlətməsə belə, mənaca bu anlayışın əsasını qoyan ilk filosof kimi tanınmışdır. Metafizika fəlsəfənin predmeti olaraq təbiətüstü aləmlə bağlı problemlər haqqında təsəvvürlərdir. Metafizika həm də dialektikaya qarşı durur. Metafizikanı fəlsəfənin predmeti kimi ilk dəfə fəlsəfi ədəbiyyata daxil edən və onun ilkin anlamını verən də, Aristotel olmuşdur.

Müstəqil bir varlığa sahib, hərəkət edən,mövcud olub yox olan şeyləri fizika elmi araşdırır. Metafizik isə onları daha ümumi və mücərrəd şəkildə olan varlıq kimi öyrənir. Platon üçün ən mühüm elm riyaziyyat olduğu halda, Aristotel üçün ilk fəlsəfə yəni Metafizika idi. Ancaq burada bir məqama diqqət yetirək. Bu gün metafizik məsələlər gündəlik həyatda nisbətən mücərrəd və daha az dəyərli hesab olunur.

Fəlsəfə tarixinin iki əsas cərəyanı olan idealizm və materializm Platon və Aristotel dövründən bəri bir-bir ilə rəqabət aparır. Platon şübhəsiz ki, idealizmin ən böyük adlarından biridir. Aristotel üçün materialist ifadəni tam təsbit edə bilməsək də, onun cərayanı yönləndirdiyi dəqiqdir. Aristotel Platonun ideyalar haqqında təlimini tənqid etmişdir (8,s19-22). Onun "Platon mənim dostumdur, ancaq həqiqət dostluqdan üstündür" kimi məşhur kəlamı da vardır. Aristotelə görə ideyalar və gerçək dünya bir-birindən fərqli məkanlarda mövcud ola bilməz. Çünki, bir şeyin kölgəsi başqa məkanda deyildir. Onların hər ikisi bir yerdə olmalıdırlar. Ona görə də, onlar birlikdə vəhdət təşkil edirlər.

Aristotel təbiət fəlsəfəsindən xüsusilə "Fizika" kitabında bəhs edir. Onun fikirincə dünyada gördüyümüz hərşey hərəkət halındadır. Onun anlayışına görə hərəkət təkcə bir yerdən başqa yerə köçmək deyil, həm də kəmiyyət və keyfiyyət dəyişikliyini ifadə edir. Bu hərəkəti izah etmək üçün dörd fərqli səbəbi araşdırmaq lazımdır. Səbəbiyyət haqqında Aristotel təlimi də böyük əhəmiyyət kəsb edir. O, dörd əsas səbəbi bir-birindən fərqləndirir: maddi səbəb, formal səbəb, fəal səbəb, son və ya məqsədli səbəb. Aristotel yazır ki, maddi səbəb birinci materiyada, onun xarakterində mövcuddur, bu elə materiyanın özüdür. Deməli, maddi səbəb potensial (imkan) səbəb kimi çıxış edir. Formal səbəb bir fəal prinsip kimi forma ilə birləşir, materiyadan (potensial varlıqdan) "həqiqi reallıq", mahiyyət yaradır. Fəal səbəb hərəkətin mənbəyi və imkanın gerçəkliyə çevrilməsi prosesi ilə birləşir. Son və ya məqsədli səbəbi Aristotel yüksək qiymətləndirərək, göstərir ki, bu səbəb hərəkətin məqsədini və mənasını izah edir. Aristotelə görə, mövcudatın izahı və anlaşılması üçün həmin səbəblərin hamısını dərk etmək lazımdır, çünki onların hər biri müxtəlif əhəmiyyətə malikdir. Ona görə formal səbəb anlayışı daha mühüm əhəmiyyət kəsb edir, nəinki maddi səbəb. Aristotelin bu fikri özünü passiv materiya və fəal forma anlayışında aydın büruzə verir. Bütün bunlardan aydın olur ki, Aristotelin ontoloji baxışların da idealizmin və metafizikanın müəyyən elementləri olmuşdur. Bu özünü onun məkan

və zaman, son səbəb və məqsədəuyğunluq anlayışlarında aydın şəkildə göstərir. Ona baxmayaraq, xarici aləmin reallığı, birinci mahiyyətin (keyfiyyətin) əhəmiyyəti, ikincinin törəmə olması, hərəkətdə ziddiyyətlərin mövcudluğu haqqında onun mülahizələri sübut edir ki, Aristotel fəlsəfəsində gerçəkliyin materialist və dialektik anlayışlarının rüşeymlərini də büruzə vermişdir.

## ƏDƏBİYYAT

1. Zeynəddin Hacıyev "Fəlsəfə",2012
2. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.
3. Iamblichus. Life of Pyhhagoras or Pithagoric life / Translated by Taylor T. London: J. M. Watkins,
4. Платон. Собрание сочинений в 4-х томах. Том 3. М.: Мысль, 1994,
5. Государство / Перевод А. Н. Егунова. // Платон. Собрание сочинений в 3-х томах. Т. 3 (1). М.: Мысль, 1994
6. Alcinous. The Handbook of Platonizm / Translated by J. Dillon. Oxford University Press, 2002.
7. Федон / Перевод С. П. Маркиша. // Платон. Собрание сочинений в 4-х томах. Том 2. М.: Мысль, 1993.
8. Aristotle. Metaphysics / Translated by T. Taylor. London: Printed for the author by Davis, Wilks, and Taylor,

## ANTİK ELMİ PROQRAMLARIN YARANMASI

***Aldostov Güloğlan***

## XÜLASƏ

Fəlsəfənin yaranma tarixində də bəzi mübahisələr mövcuddur.Bəzi alimlər fəlsəfənin Qədim Şərqdə,xüsusilə Hindistanda, digərləri isə Yunanıstanda yarandığını qeyd edirlər. Əslində, fəlsəfənin yaranma tarixi dəqiq məlum olmasa da,insanlar ilk dəfə şeylərin təbiəti və hadisələrin səbəbləri haqqında düşünməyə başladığı anı fəlsəfə elminin tarixi başlanğıcı hesab etmək lazımdır. Fəlsəfənin ilk dəfə Yunanıstanda yaranıb yaranmamasından aslı olmayaraq yunan fəlsəfəsinin elmin yaranmasında, insanların dünyagörüşlərinin dəyişməsində və fəlsəfənin hal-hazırki vəziyyətə gəlməsində böyük rolu danılmazdır. Bu məqalədə "fəlsəfə nədir" və "antik yunan fəlsəfəsi"nin mərhələləri, bu dövrdə yaşayan və fəaliyyət göstərən önəmli filosofların və məktəblərin çox mühüm fikirləri, kəşfləri haqqında məlumat verilir.

## СТАНОВЛЕНИЕ АНТИЧНЫХ НАУЧНЫХ ПРОГРАММ.

***Алдостов Гулоглан***

## АННОТАЦИЯ

И в истории возникновения философии существуют некоторые споры. Некоторые учёные отмечают возникновения философии в Древнем Востоке, особенно в Индии,а остальные в Греции. Несмотря на то, что дата появления философии точно не известна, момент когда люди впервые начали задумываться над природой вещей и причинами

событий следует считать как начало появление истории философской науки. Независимо от того, что философия впервые возникла в Греции или нет большая роль греческой философии в возникновении науки, изменении мировоззрении людей и приход философии в нынешнее положение неоспорима. В этой статье даются сведения о том, что «что такое философия?» и этапы «античной греческой философии», важные мнения, живщих и выступающих в этот период видных философов и школ и их открытий.

## THE EMERGENCE OF ANCİENT SCİENTİFİC PROGRAMS.

***Aldostov Guloghlan***

### SUMMARY

There are also some disputes about the history of the creation of philosophy. Some scholars point out that philosophy originated in the Ancient East, especially in India, and others in Greece. In fact, although the exact date of the creation of philosophy is not known, the moment when people first began to think about the nature of things and the causes of events is the historical beginning of the science of philosophy.  should be considered.  Regardless of whether philosophy first appeared in Greece or not, the great role of Greek philosophy in the creation of science, in the change of people's worldviews, and in the development of philosophy to its present state is undeniable.  This article provides information about "what is philosophy" and the stages of "ancient Greek philosophy", very important ideas and discoveries of important philosophers and schools who lived and worked in this period.

# ПРОБЛЕМЫ БЕССМЕРТИЯ ЧЕЛОВЕКА (ФИЛОСОФСКИЙ ЭКСКУРС)

***Фараджева Фидан Фарид кызы,***
***доцент кафедры истории философии и культурологии БГУ***
***fidanff65@mail.ru***

***Ключевые слова:*** бессмертие, жизнь, смерть, постгуманизм.
***Açar sözlər:*** ölümsüzlük, yaşam, ölüm, posthümanizm.
***Keywords:*** immortality, life, death, posthumanism.

Проблема бессмертия человека всегда рассматривается в неразрывной связи с проблемой его жизни и смерти, образуя органичное триединство. Это триединая проблема искони привлекала внимание людей и волновала их, занимая сердцевину каждого мировоззрения, особенно философского и религиозного, которые изначально оппонировали друг другу, предлагая свои версии её решения. Их противостояние сохраняется и теперь, хотя критерии демаркации между ними становятся — на мой взгляд, совершенно неоправданно — все более размытыми и неопределёнными. Современная литература и происходящие дискуссии по данному вопросу дают немало примеров этому.

Различение рассматриваемых аспектов триединой проблемы жизни, смерти и бессмертия человека с превалирующим акцентом на последней её составляющей имеет достаточно прозрачное основание: в первом случае речь идёт о наиболее общих вопросах, не имеющих прямого отношения к религии; во втором — непосредственно связанных с нею. Разумеется, грань между философско-антропологическим и религиоведческим аспектами рассматриваемой проблемы относительна, но она всё же позволяет сориентироваться в соответствующей проблематике.

Тайна жизни и смерти до сих пор является неразгаданной, несмотря на торжество научно-технического прогресса. Осознавая свою телесную смертность, человек всегда стремился найти источник бессмертия или максимального продления жизни, что отражено во многих сказках и мифах, легендах и эпосах. К волшебным источникам, способствующим продлить жизнь, относятся молодильные яблоки и живая вода, амброзия и амрита, хаома и эликсир бессмертия.

Цари и герои, боги и демоны, – все хотят жить вечно: Гильгамеш отправляется за цветком бессмертия на дно мирового океана, Геракл похищает волшебные яблоки Гесперид, Гаруда крадет амриту у нагов, Иван-царевич едет за тридевять земель в тридесятое царство за живой водой и молодильными яблоками. Несбывшиеся мечты о телесном бессмертии отчасти компенсируются верой человека в загробную жизнь. Абсолютно во всех верованиях существует культ предков. Герои античных произведений Орфей, Одиссей и Эней спускаются в загробный мир для общения с умершими родственниками и друзьями. В сказаниях о нартах, «Старшей» и «Младшей Эдде», «Калевале» также имеет место быть общение живых и мертвых.

Первый подход в его идеалистической интерпретации («линия Платона») убедительно иллюстрируется на примере диалога Сократа с Кебетом в «Фе-доне» [1, с. 335—364]. В сложившихся во времена Сократа классово-антагонистических условиях человеческого бытия этот знаменитый древнегреческий мыслитель пытался обосновать тогда ещё только зарождающийся оптимистический (точнее — псевдооптимистический) взгляд на природу смерти как «отрешение души от тела», т. е. представление о бессмертии души. Такой взгляд, в конечном счёте и по существу, был призван придать некий смысл нараставшей

бессмыслице бедствий и страданий людей как своего рода подготовка к их посмертному воздаянию в трансцендентном мире. Сократ, по сути дела, переносил на западноевропейскую почву представления восточных религий о метемпсихозе, или реинкарнации. Кебет, напротив, отстаивал традиционные взгляды, согласно которым душа смертна и разрушается вместе с гибелью тела (так считали, например, саддукеи, да и вообще подобного рода представления были характерны для мифологического мировоззрения), хотя сам Кебет выражает явное желание принять именно сократовскую точку зрения. Таково было веление времени. Между тем до возникновения христианского вероучения, принципиально неприемлющего представления о переселении душ, оставалось ещё четыре столетия.

Материалистическое направление в философии («линия Демокрита») наиболее значимо выражена по рассматриваемому вопросу в античности Эпикуром в его учении о принципах прекрасной жизни. Во-первых, этот древнегреческий мыслитель-атомист считал необходимым, чтобы человек был свободным от страха перед богами. Он считал, что боги существуют как бессмертные и блаженные существа, но они обитают в межмирьях и в дела своих миров не вмешиваются, а значит и в дела людей, так что бояться их нет никаких оснований. Во-вторых, разъясняя суть своего нравственного учения, Эпикур писал: «Итак, когда мы говорим, что удовольствие есть конечная цель, то мы разумеем не удовольствие распутников и не удовольствия, заключающиеся в чувственном наслаждении, как думают некоторые, не знающие или не соглашающиеся, или неправильно понимающие, но мы разумеем свободу от телесных страданий и от душевных тревог» [2, с. 211].

Вместе с тем он утверждал, что «нельзя жить приятно, не живя разумно, нравственно и справедливо, и наоборот, нельзя жить разумно, нравственно и справедливо, не живя приятно» [2, с. 212]. В-третьих, человек, по убеждению Эпикура, должен быть свободен, и это главное в данном случае, от страха перед смертью. Неоправданность подобных переживаний он обосновывал тем соображением, что человек лично со своей собственной смертью, по существу, не встречается, ибо все наши радости и огорчения воспринимаются через ощущения, а смерть есть их отсутствие, так что пока человек есть, т.е. ощущает, живёт, смерти ещё нет, а когда смерть его настигает, человека уже нет, он не воспринимает происходящего. В этом есть несомненный резон, который люди далёкие от религии, разделяли всегда, разделяют и сегодня.

В то же время Эпикур полагал, что человек жаждет бессмертия именно вследствие страха перед смертью, т. е. если бы человек перестал бояться смерти, то и бессмертие стало бы для него чем-то внешним, необязательным, излишним. С такого рода доводами, разумеется, трудно согласиться. Во-первых, человек, пусть и не со своей, но со смертью всё же встречается — родных, близких и дальних, и она, как правило, приносит ему горе и страдания чего в случае достижения личного бессмертия просто не было бы. Во-вторых, смерть разрушает планы, делает цели недостижимыми, отнимает радость жизни и её удовольствия. Одних перечисленных её издержек», как представляется, вполне достаточно, чтобы люди, и без страха перед смертью, возжелали бы реального личного бессмертия.

Начиная с древнекитайского философа-материалиста Ян Чжу (ок. 440—360 до н. э.), приверженцы этого философского направления были непоколебимо убеждены в том, что старение и смерть являются неотвратимым следствием действия непреложных законов природы.

Христианство, низвергнув античный космоцентризм, провозглашает духовное бессмертие. Тем не менее идея телесного воскресения является квинтэссенцией

Христианства. Чудо о воскрешении Лазаря выступает наиболее значимым чудом, совершенным Христом в своей земной жизни. А само Воскресение Христа есть провозглашение новой телесности. Данная телесность является более тонкой, но именно в ней после всеобщего воскресения из мертвых будут вечно пребывать люди.

П. Гольбах, французский материалист XVIII в., исходя из представления о том, что всё в природе необходимо, делал, в частности, такой вывод: «Если жизнь благо, если необходимо любить её, то столь же необходимо покинуть её; и разум должен приучить нас принимать с покорностью веления рока» [3, с. 154]. Столь же фаталистическое мировоззрение, по существу, разделял и немецкий философ-материалист Л. Фейербах. Он считал, что естественная смерть, т. е. «та смерть, которая есть результат законченного развития жизни» [4, с. 298], не является бедой. Злом, с его точки зрения, является только преждевременная смерть.

А другой немецкий философ-материалист Л. Бюхнет, как бы подводя такого рода убеждения к общему знаменателю, утверждал: «Не размышление, а лишь упрямство, не наука, а лишь вера могут поддерживать идею личного бессмертия» [5, с. 46]. В подобных суждениях в то время также был немалый резон, ибо наука, действительно, не открывала ещё никаких перспектив в данной области, а фантазиям на сей счёт они были чужды. И всё-таки эти представители материалистического направления в философии серьёзно ошиблись, проявив чрезмерную категоричность. Впрочем, у приверженцев такого мировоззрения речь о бессмертии человека тоже заходила, но лишь в аллегорическом смысле этого понятия, как увековечивания себя в делах, потомках и их памяти. Однако это уже другая тема.

Таких же убеждений, по существу, придерживались и основоположники диалектико-материалистической философии. Ф. Энегельс, например, считал банальностью, что каждый человек должен умереть. Он же рассматривал жизнь как самоотрицание, а смерть — как её необходимый результат [6, с. 610]. Однако вместе с тем ими был высказан ряд важнейших и ценнейших положений, прежде всего, методологического характера, которые впоследствии сыграли несомненно позитивную роль в разработке современной концепции практического бессмертия человека и его реального воскрешения, которая осуществляется преимущественного как раз с позиций диалектико-материалистической философии (противоречивость процесса жизни, историчность законов природы и общества, возможность на основании их знания планомерно заставлять действовать эти законы для достижения человеческих целей и т. п.).

Достойной воспреемницей идей философского оптимизма в решении рассматриваемой проблемы современная концепция практического бессмертия человека и его реального воскрешения. Опираясь на такие достижения прежде всего научно-технического прогресса, как клонирование человека, расшифровка его генома, регенерацию стволовых клеток, успехи нанотехнологии, так называемой «загрузки» и многие другие, её разработчики убедительно обосновывают реализуемость перспективы победы над смертью при сохранении оптимальных характеристик телесной и духовной жизнедеятельности человека.

Əsas psixi funksiyalar (hiss, təfəkkür,və intuisiya) sayəsində şüur öz istiqamətini alır. Intuisiyanın özəlliyidə məhz ondan ibarətdir ki, o, idrakda şüursuz şəkildə iştirak edir, başqa sözlə desək, onun funksiyası irrasionaldır. Qavrayışın digər funksiyalarından fərqli olaraq, intuisiya onların bəziləriylə oxşar xüsusiyyətlərə də malik ola bilər. Məsələn, hiss və intuisiyanın çoxlu oxşar cəhətləri var. Ümumiyyətlə, bunlar qavrayışın bir-birini kompensasiya edən iki funksiyasıdır, yəni düşünmək və hiss etmək kimi özünü göstərir.

Elmi intuisiya anlayışının təbiətini öyrənərkən ilk öncə ondan başlamaq lazımdır ki, intuisiya qeyri-rasionallığın təzahürü kimi xarakterizə olunsa da, onu yalnız daxili görmə anlayışı ilə məhdudlaşdırmaq olmaz. Intuisiya təfəkkürün rasional fəaliyyətində dərk etmək kimi mühim

mərhələ hesab olunur. Beləliklə, intuitiv və rasional idrak yalnız müstəqil və bir –birindən asılı olmayan idrak elementi deyildir. Bu idrak elementlərinin təzahür xüsusiyyətlərini müəyyən etmək lazım olduqda onlara nisbi müstəqillik verilə bilər.

Son zamanlarda bir çox tədqiqatçılar idrakda rasional və irrasionalın rolunun aydınlaşdırılması ilə əlaqədar idrak fəaliyyətinin effektivliyi probleminə müraciət edirlər. Hazırda elm adamları yeni anlayışların, əsərlərin yaranmasında insan şüurunun qeyri-rasional təbəqələrinin daha çox rol oynadığına inanırlar. Idrak prosesini öyrənən tədqiqatçılar idrakın rasional tərəfi ilə yanaşı, onun təxəyyül, fantaziya, intuisiya kimi komponentlərinidə nəzərə alırlar.

Cəmiyyətin inkişafında yeni informasiya mərhələsinə keçid ilə əlaqədar intuisiyanın rolu yenidən nəzərdən keçirilir.Artıq indiki reallıqda idrak fəaliyyətinə yeni orijinal anlayışların yaradılması kimi keyfiyyətcə yeni konsepsiyalar lazımdır. Bu baxımdan intuisiya insanın idrak qabiliyyətini genişləndirə, onu yeni səviyyəyə qaldıra bilər. Beləliklə, intuisiyanın qnoseoloji mexanizmlərinin təhlili, elmi biliklərdə rolunun aydınlaşdırılması, baş vermə meyarlarının müəyyənləşdirilməsi zərurəti yaranır. Idrak fəaliyyətinin təhlili aşağıdakı nəticəyə gətirib çıxarır: məntiqi təfəkkür intuitiv biliyə müxalifət kimi qəbul edilməməlidir. Idrak fəaliyyəti yalnız induktiv və ya deduktiv düşüncə prosesində baş verə bilməz.

Idrak prosesində idrak prosesinə yaradıcı təkan verən elmi intuisiya mühim yer tutur. Rasional və intuitiv idrak arasındakı sıx qarşılıqlı əlaqə elmi kəşflər və ixtiralar üçün zəmin rolunu oynayır. Bu barədə məşhur fransız fiziki A.Puankare “ Elm və metod” kitabında yazır: “Məntiq yoluyla sübut edilir, intuisiya yoluyla icad edilir” (1).

Intuisiyanın müxtəlif növləri vardır və bunlar subyektin fəaliyyət spesifikasından asılı olaraq fərqlənirlər.

Idrak prosesində nümayiş olunan yeniliyin xarakterinə görə intuisiya 2 yerə ayrılır: evristik və standarlaşdırılmış intuisiya. Evristik intuisiya prinsip etibarı ilə yeni biliyin, hissi yeni qneseolojı obrazların formalaşması ilə bağlıdır. Bu baxımdan demək olar ki, evristik intuisiya standartlaşmış intuisiyadan mahiyyətinə görə fərqlənir.

Evristik intuisiya elmdə intuisiyanın təzahürü hadisəsidir. Bir neçə elmi sahə var ki, orada intuisiyanın mahiyyətinin dərk edilməsi qnoseologiya və ontologiya çərçivəsinə sığmır. Evristik intuisiya mücərrəd anlayışların və əyani obrazların qarşılıqlı əlaqəsinə əsaslanan idrak prosesidir. Evristik intuisiya sayəsində hissi təsvirləri və ya anlayışları sintez etməklə tamamilə yeni təsvir və anlayışlar yaratmaq mümkündür. Evristik intuisiyanın bu tərifi onun epistemoloji aspektini ifadə edir. Anlayışlar və duyğu təmsilləri həmişə bir-birindən fərqlidir. Onları birləşdirən ara keçidlər yoxdur. Evristik intuisiya, sensor və konseptual münasibətlər sahəsində kombinatorika metodlarına əsaslanan rasional dərketmədə intuisiyadır.

A.S.Karmin və E.P.Xaykin evristik intuisiyanı konseptual və eydetik intuisiyaya bölürlər. Bu iki növ intuisiya sensor və məntiqi elmi biliklər arasındakı əlaqə formalarıdır. Elmi fəaliyyətin konkret sahələrində elmi intuisiyanın fəaliyyət mexanizmi müxtəlif formalarda ola bilər. Qneseologiyada eydetik intuisiya məlum anlayışlar əsasında yeni obrazların yaranması kimi başa düşülür. Eydetik intuisiyaya misal olaraq alman kimyaçısı F.Kekule tərəfindən benzol molekulunun quruluşu haqqında irəli sürdüyü əyani təsəvvürünü göstərmək olar.Benzol molekulunun quruluşu ona yuxuda quyruğunu dişləyən ilan şəklində gəldi. Bu görüntü ilə Kekule benzol molekulunun halqa quruluşunu kəşf etdi. Eydetik intuisiyaya başqa nümunə kimi 17-ci əsrin ingilis fizioloqu olan Vilyam Harveyin qan dövranı kəşfini göstərmək olar. Bu misallar təxəyyül və təfəkkürə əsaslanan eydetik intuisiya fəaliyyətini göstərir.

Konseptual intuisiya isə məlum obrazlar əsasında yeni anlayışların formalaşması prosesidir. Bu intuisiyaya misal olaraq Hamiltonun fəaliyyətində kvaterion haqqında anlayışın və ya Pauli fəaliyyətində neytrino haqqında anlayışın tətbiqini misal göstərmək olar

Konseptual intuisiyanın bariz nümunəsi Johannes Kepler tərəfindən planetlərin elliptik trayektoriyasının kəşfidir (1609). İ.Keplerin yeni konsepsiyası artıq məlum olan məlumatlar əsasında yaranmışdır. Yuxarıdakı misallar təsdiq edir ki, daxili idrak prosesinin xüsusiyyətlərini öyrənməklə yeni biliklərin kəşfinə aparan elmi tədqiqat prosesini daha yaxşı başa düşmək olar. Nəticə etibarı ilə elmi fəaliyyətin rasional-metodoloji tərəfi alimin intellektinin idrak xüsusiyyətlərinin, xüsusən də bilik subyektinin şəxsi intuisiyasının xarakterik xüsusiyyəti ilə tamamlanmalıdır.

İntuitiv qabiliyyət, bir qayda olaraq, tədqiq olunan problemlə bağlı kifayət qədər məlumat olmadıqda qərar qəbul etmək zərurətindən yaranır. Tədqiqatçının intuisiya imkanları onun peşəkar hazırlığı ilə bağlıdır. Beləki peşəkar hazırlığı aşağı səviyyədə olarsa intuisiya imkanları azalır. Intuisiyanın yaranması üçün öyrənilən mövzu haqqında dərin bilik tələb olunur. İntuisiya şüursuz mexanizmə malikdir. Bununla belə, o, mövzu haqqında əvvəllər əldə olunmuş biliklərə əsasıanır. Bununla bağlı olaraq McGill universitetinin professoru Mario Bunqe qeyd edir: “Ümumi qavrayış və intuisiyanın digər formaları problemlərin hərtərəfli təhlili nəticəsində, səbrin və çox vaxt fədakar işin mükafatı kimi yaranır”. İntuisiyanın məhsulu ağıl və təcrübə ilə sınaqdan keçirilməlidir.

Rasional vasitələr ilə həll yolu tapılmadıqda, şüuraltına əsaslanan fərqli yanaşma ortaya çıxır. Intuitiv həll, adətən şüuraltında insanın şüurlu fəaliyyətini məhdudlaşdıran qadağaların və blokların fəaliyyətini dayandırması nəticəsində yaranır. Tapılan həllin şüur sahəsinə keçid anı “fikir parıltısı” kimi yaşanır.Qərarın heç bir yerdən yaranması hissi formalaşır.

İntuisiyanı mücərrədliyi, vasitəsizliyi ilə səciyyələndirmək və belə bir ümumi rəyə gəlmək olar ki, intuisiya qeyri-şüuri inikas formalarından biridir və spesifikliyi ilə seçilir. Intuisiya subyektin anlama ilə bağlı olan fəaliyyətinin üzə çıxmasının qeyri-şüuri inikas formasıdır. O, təfəkkürdə əvvəllər qazanılmış zəruri informasiyaların yenidən işlənməsidi və ümumiləşdirilməsidir. Qeyri-şüuri surətdə əldə olunan informasiya beynin neyron qatlarında saxlanılır, sonra isə şəraitdən və tələbatdan asılı olaraq aktual informasiya subyekt tərəfindən dərk olunmadan üzə çıxır.

İntuitiv bilik prosesində insan yalnız prosesin başlanğıcından və sonundan, yəni tərtib edilmiş problemdən və onun həllindən xəbərdar olur. Problemin həllinin tapılması prosesi şüuraltında gizlənir. Əgər rasional təfəkkür prosesi problemin qoyulmasından həllə doğru irəliləyiş mərhələlərinə bölünə bilirsə, intuitiv təfəkkür prosesində bunu etmək mümkün deyil. Çunki bu, idrak prosesinin başlanğıcdan son noqtəsinə ani bir sıçrayışdır. Buna görədə tarixdə intuisiya çox vaxt müqəddəs bilik kimi qəbul edilirdi.

## ƏDƏBİYYAT


1. Ə.Məmmədov, V.İsmayılov, F.Məmmədov. «Rasionallıq və qeyri rasionallıq». Bakı, «Elm», 2010, 880 səh.
2. А. Эйнштейн. «Сборник научных трудов». М.: Наука, 1967, т. 4, с.572
3. Бунге М. Интуиция и наука. М: Прогресс, 1967., с214
4. Быков Г.В. Август Кекуле. Очерк жизни и деятельности. М: Мысль, 1964., 337 с.
5. Интуиция и научное творчество. Аналитический сборник . М:ЮНИОН, 1981., 362 с.
6. Луи де Бройл: По тропам науки. М.: Мысль, 1962., 424 с
7. Налгаджян А.А. Некоторые психологические и философские проблемы интуитивного познания. М. 1972, 271 с.
8. Пуанкаре А. О науке. М: ИЛ,2002., 404 с.

# İNTUİSİYA VƏ ONUN MAHİYYƏTİ

***Əliyeva Fidan***

## XÜLASƏ

Fəlsəfə tarixində intuisiya problemi aktual mövzulardan biri olmuşdur. Bu fenomenin hami tərəfindən qəbul olunmuş vahid bir izahı olmadığından intuisiya problemi fəlsəfə üçün daim aktual olaraq qalmaqdadır. Intuisiyanın təbiətini və mahiyyətini aşkarlamaq çətin olsa da, bu və digər aspektdən müxtəlif elm sahələrinin mütəxəssisləri onu tədqiq etmişlər. Bu mənada problemin tədqiqinə həsr olunan ədəbiyyatın sayı durmadan artmaqdadır. Bu da öz növbəsində intuisiya fenomeninin yenidən mənalandırılması zərurətini ortaya qoyur. Bu məqalə elmi biliklərdə qeyri-rasional proses kimi formalaşan intuisiya fenomeninə həsr edilmişdir.

## СУЩНОСТЬ ИНТУИЦИ

***Алиеава Фидан***

## АННОТАЦИЯ

В истории философии проблема интуиции была одной из актуальных проблем. Поскольку общепринятого объяснения этого феномена не существует, проблема интуиции остается актуальной для философии. Хотя природу и сущность интуиции раскрыть трудно, специалисты из разных областей науки изучали ее с этой и других сторон. В этом смысле постоянно увеличивается количество литературы, посвященной изучению проблемы. Это, в свою очередь, выявляет необходимость переосмысления феномена интуиции. Данная статья посвящена феномену интуиции, формирующемуся как нерациональный процесс в научном познании.

## THE ESSENCE OF INTUITION

***Aliyeva Fidan***

## SUMMARY

In the history of philosophy, the problem of intuition has been one of the topical problems. Since there is no generally accepted explanation for this phenomenon, the problem of intuition remains relevant for philosophy. Although it is difficult to reveal the nature and essence of intuition, specialists from various fields of science have studied it from this and other sides. In this sense, the amount of literature devoted to the study of the problem is constantly increasing. This, in turn, reveals the need to rethink the phenomenon of intuition. This article is devoted to the phenomenon of intuition, which is formed as an irrational process in scientific knowledge.

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANDA SİYASƏT ELMİNİN BANİSİDİR

***Babayev Elvin Əliyar oğlu***
***BDU-nun Şərqşünaslıq fakültəsi, İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin elmi işçisi***
***babayevelvin90@mail.ru***
***Mehdiyeva Səbinə İsgəndər qızı***
***İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin əməkdaşı***
***sabina.1980@inbox.ru***

***Açar sözlər***: Müstəqillik; xarici siyasət; şəxsiyyət.
***Ключевые слова:*** Независимость; внешняя политика; личность.
***Keywords:*** Independence; foreign policy; identity

Heydər Əliyev – müasir və müstəqil Azərbaycanın banisi, yaradıcısı, qurucusu, xalqımızın ümummilli lideri, dahi və müdrik şəxsiyyət, dünya şöhrətli siyasətçi. Ulu Öndərin atdığı hər bir tarixi addımı bilavasitə bir amala – Azərbaycan dövlətinin və xalqının müstəqillik məfkurəsinin yaradılmasına yönəlmişdi. Əbəs deyil ki, bu dahi şəxsiyyət Azərbaycan xalqı, ölkəmizin müstəqilliyə qovuşması uğrunda canını, sağlamlığını belə əsirgəməyib, bu yolda nəinki özünün, hətta ailə üzvlərinin həyatını təhlükədə qoymaqdan çəkinməyib və biz, bu tarixi məqamların təhlilini apardıqca hər dəfə yeni şərəf səhifəsini açmış oluruq.

Azərbaycan xalqının qan yaddaşına daxil olan 20 Yanvar faciəsi zamanı, demək olar ki, müqəddəratı həll olunmuş xalqının səsinə hər kəsdən əvvəl səs verən məhz bu dahi şəxsiyyət – Ulu Öndər Heydər Əliyev oldu. O zaman Ümummilli Liderimiz Moskvada, Kremldə xüsusi nəzarət altında olsa da, hadisələrdən dərhal sonra, 1990-cı ilin yanvarın 21-də ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gələrək, bu qanlı təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri ən sərt şəkildə ittiham etdi, qoşunların Bakıdan çıxarılması tələbini irəli sürərək, bütün dünyaya qanlı yanvar olayları ilə bağlı səs saldı. Məhz Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, bu addımı atdı, hər şeydən əvvəl Vətən, xalq qarşısında öz vətəndaşlıq və milli mövqe missiyasını həyata keçirdi və bu yolda hətta canını əsirgəməyəcəyi gerçəkliyini ortaya qoymuş oldu.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması, müstəqilliyin və dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çətin və mürəkkəb işləri həyata keçirməyə başladı və bütün bunlar əməli şəkildə reallaşdırıldı. Qısa müddət ərzində qanunsuz silahlı dəstələr və separatçı qüvvələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, müharibədə uzunmüddətli atəşkəsə nail olunmaqla erməni təcavüzü dayandırıldı. Məhz bu siyasətin həyata keçirilməsi ilə dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla, müstəqilliyin möhkəmlənməsinin və ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. İlkin çətinliklər geridə qoyulduqdan və ölkə üçün çox zəruri olan ictimai-siyasi sabitləşməyə nail olunduqdan sonra demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi, dövlət aparatının möhkəmləndirilməsi və yüksək iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması, cəmiyyətdə yeni davranış norma və prinsiplərin yaradılması, yeni – açıq və demokratik vətəndaşlığın formalaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, həyat qabiliyyətli dayanıqlı xarici siyasət modelinin yaradılması istiqamətində əməli işlərə başlanıldı. Azərbaycanın demokratik dəyərlər əsasında

dayanıqlı inkişafını təmin etmək istiqamətində Ulu Öndər Heydər Əliyev tərəfindən atılan ən mühüm addımlardan biri də müstəqil Azərbaycanın yeni Konstitusiyasının qəbulu oldu.

Ulu öndər Heydər Əliyevin qarşısında qoyulan əsas vəzifələrdən biri də xarici siyasət prioritetləri, eləcə də beynəlxalq münasibətlərin qurulması məsələsi idi. Belə ki, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ ilə, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə ilə, müsəlman - islam dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. Qısa müddət ərzində bir çox ölkələrlə qarşılıqlı səmərəli əməkdaşlıq quruldu. Balanslaşdırılmış xarici siyasət sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirməyə başladı. Ulu Öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və digər sənədlər, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini verməyə başladı.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu, Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Dahi siyasətçi olan Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Onun rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edildi, 100-dən çox Fərman və Sərəncam imzalandı, 30-a yaxın Dövlət Proqramı təsdiq edildi. Azərbaycanın o zamankı məhdud imkanlarını nəzərə alan Ulu Öndər Heydər Əliyev iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab edirdi. Ümummilli lider neft və qaz hasilatının artımına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərinin aradan qaldırılmasında əsas vasitələrdən biri kimi baxırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların sərmayələrinin cəlb olunmasını strateji zərurətə çevirmişdi. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından dərhal sonra xarici investorlarla neft müqavilələri üzrə fəal danışıqlara başlandı və çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi. 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Sonradan haqlı olaraq "**Əsrin müqaviləsi**" adlandırılan bu saziş, həqiqətən, müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu. "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və dahi, böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü oldu.

Ümummilli Lider Heydər Əliyevin düşünülmüş iqtisadi siyasəti nəticəsində müstəqil Azərbaycanda makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlanıldı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı.
Ulu Öndər Heydər Əliyev aqrar siyasətə də böyük önəm verir, bu istiqamətdə islahatların həyata keçirilməsi üçün müvafiq tədbirlər görürdü. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildən başlayaraq, iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi, sovxoz və kolxozlara məxsus torpaqların, mal-qaranın və əmlakın kəndlilərə paylanması, qiymətlərin sərbəstləşdirilməsi və s. tədbirlər aqrar bölmənin inkişafına təkan verdi, kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri aparıldı, yeni sahələr yarandı, məzmunca fərqli

münasibətlər formalaşdırıldı. Məhz Ümummilli Liderin təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara uzunmüddətli vergi tətillərinin verilməsinə başlandı.

Ulu Öndər Heydər Əliyevin diqqət yetirdiyi sahələrdən biri də özəl sektor idi. Belə ki, ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayan Ulu Öndər Heydər Əliyev deyirdi: "**Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur**".

Ümummilli Lider Heydər Əliyevin ölkənin gələcək inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrdən biri də ölkə regionlarının tarazlı və davamlı inkişafının təmin edilməsi oldu. Ulu Öndər Heydər Əliyev Azərbaycanın davamlı inkişafı baxımından regionların inkişafını və bölgələrdəki potensialdan səmərəli istifadəni vacib hesab edirdi. Regionların inkişafı istiqamətində qəbul edilən mühüm qərarlar və bu qərarlardan doğan vəzifələr ardıcıllıqla həyata keçirilir, artıq əsas diqqətlərdən biri də paytaxtımızdan bölgələrimizə doğru yönəlməyə başlandı. Çətinliklərə baxmayaraq, Ulu Öndər Heydər Əliyev tez-tez rayon və bölgələrimizə səfərlər edir, aparılan işlərlə yaxından maraqlanır, əhali ilə yaxından təmaslarda olur, problemləri dinləyib, onların yerindəcə həll edilməsinə tapşırıqlarını verirdi.

Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başladı. 1995-2003-cü illər ərzində ümumdaxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard ABŞ dolları həcmində investisiyanın qoyulması təmin olundu.

Bu gün azərbaycançılıq həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideyaya çevrilmişdir. Ümummilli lider bütün dünyada yaşayan soydaşlarımıza bu ideya ətrafında birləşməyi təlqin edir və bildirirdi ki, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etməkdən ibarətdir. Ulu Öndərimiz xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlamış, Azərbaycan diaspor cəmiyyətlərinin problem və qayğılarına böyük həssaslıqla yanaşmışdı.

Ulu Öndər Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsinin ətraflı müzakirəsinin zəruriliyini nəzərə alaraq 2001-ci ilin may ayının 23-də xüsusi Sərəncam imzaladı, həmin sərəncama uyğun olaraq 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya azərbaycanlılarının I qurultayı soydaşlarımızın azərbaycançılıq ideyası ərtafında sıx birləşməklə təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etdi. Bu addım diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Ulu Öndər Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" Fərman imzaladı. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar verdi. Dövlət komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Bu gün Ulu Öndərimiz bizim aramızda cismən olmasa da, onun önəmli, əbədi ideyaları hər birimizin qəlbində yaşamaqdadır. Eyni zamanda, bu ideyalar məhz onun layiqli davamçısı, siyasi varisi, Prezident İlham Əliyev cənabları tərəfindən uğurla, qətiyyətlə, məqsədyönlü şəkildə reallaşdırılmaqdadır. Azərbaycan xalqı da əbədiyaşar liderinin ideya və arzularını Cənab Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməklə yaşadacaq, həyata keçirəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1999;
2. Heydər Əliyev, Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. "İrşad" İslam Araşdırmaları Mərkəzi. Bakı, 1999, səh. 47;
3. İlham Əliyev, Milli-mənəvi sərvətimizlə bağlı fikirləri, Bakı, 2016;
4. Mehriban Əliyeva, Milli-mənəvi sərvətimizlə bağlı fikirləri, Bakı, 2017


## HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANDA SİYASƏT ELMİNİN BANİSİDİR

***Babayev Elvin, Mehdiyeva Səbinə***

### XÜLASƏ

Məqalədə Ümilli Liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətindən, o cümlədən azərbaycançılıq ideologiyasının mühüm xüsusiyyətlərindən bəhs olunur. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması, müstəqilliyin və dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çətin və mürəkkəb işləri həyata keçirirdiyi dövrlər haqqında şərh olunur.

## ГАЙДЕР АЛИЕВ ЯВЛЯЕТСЯ ОСНОВАТЕЛЕМ НАУКИ ПОЛИТИКА В НЕЗАВИСИМОМ АЗЕРБАЙДЖАНЕ

***Эльвин Бабаев, Мехтиева Сабина***

### АННОТАЦИЯ

Статья посвящена общественно-политической деятельности нашего Общенацио-нального Лидера Гейдара Алиева. В частности, обсуждаются важные черты азербайджанской идеологии. С первых дней прихода к власти Общенациональный Лидер Гейдар Алиев ведет трудную и комплексную работу по установлению общественно-политической стабильности в стране, укреплению независимости и государственности.

## HAYDER ALIYEV IS THE FOUNDER OF SCIENCE POLITICS IN INDEPENDENT AZERBAIJAN

***Elvin Babayev, Mehdiyeva Sabina***

### SUMMARY

The article is devoted to the socio-political activities of our National Leader Heydar Aliyev. In particular, important features of the Azerbaijan ideology are discussed. From the first days of coming to power, National Leader Heydar Aliyev has been carrying out difficult and complex work to establish socio-political stability in the country, strengthen independence and statehood.

## SOSİOLOGİYA

# DAHA YÜKSƏK ZİRVƏLƏRƏ DOĞRU İRƏLİLƏYƏN AZƏRBAYCAN-TÜRKİYƏ TƏRƏFDAŞLIĞI VƏ ƏMƏKDAŞLIĞI

***İzzət Rüstəmov, professor,***
***Sosiologiya kafedrası,***
***Bakı Dövlət Universiteti***

***Açar sözlər:*** Azərbaycan, Türkiyə, siyasi və iqtisadi münasibətlər, əməkdaşlıq və tərəfdaşlıq.
***Ключевые слова:*** Азербайджан, Турция, политические и экономические отношения, сотрудничество и партнерство.
***Keywords****:* Azerbaijan, Turkey, political and economic relations, cooperation and partnership.

Azərbaycan-Türkiyə qardaşlığının və dostluğunun tarixi çox zəngin və qədimdir. Bu maraqlı və çox dəyərli mövzuya hər iki ölkənin alimlərinin, tarixçi və siyasətçilərinin, o cümlədən filosof və sosioloqlarının xeyli sayda əsərləri, monoqrafiya və kitabları həsr olunmuşdur, kinofilmlər çəkilmiş, yazıçı və şairlərimiz Türkiyə-Azərbaycan dostluğu və qardaşlığını əks etdirən yüksək siyasi mənalı bədii tablolar yaratmışlar. Türk xalqının böyük oğlu Mustafa Kamal Atatürk Türkiyə-Azərbaycan dostluğu və qardaşlığının siyasi-fəlsəfi mənasını bu sözlərlə ifadə etmişdir: "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir". Dünya siyasətinin nəhəngi, zəngin təfəkkür sahibi, ulu öndər Heydər Əliyev "Bir millət, iki dövlət" sözləri ilə Türkiyə-Azərbaycan münasibətlərinin, qardaşlıq və dostluğunun, birliyinin əsil siyasi-fəlsəfi konsepsiyasını yaratmışdır. Azərbaycanın dəyərli mütəfəkkir şairi Əhməd Cavadın 1914-cü ilin dekabr ayında Gəncə şəhərində yazdığı "Çırpınırdı Qaradəniz" şeiri Türkiyə-Azərbaycan dostluğu və qaraşlığının çox qiymətli bədii tablosudur. Şeirdən bir parçanı nəzərinizə çatdırıram:

Çırpınırdı Qaradəniz,
Baxıb Türkün bayrağına!
"Ah! ... deyərdim, heç ölməzdim
Düşə bilsəm ayağına.

Əhməd Cavadın "Fırtınalar dursun yana, Salam Türkün bayrağına!, yaxud "Qurban Türkün bayrağına!!!" poetik ifadələri bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Türk dünyasının böyük oğlu, müasir güclü, qüdrətli Türkiyənin əsil yaradıcısı prezident Rəcəb Tayyib Ərdoğan istər Türkiyədəki çıxışlarında, istərsə də Azərbaycana səfərləri zamanı Türkiyə-Azərbaycan dostluğu və qardaşlığından bəhs edərkən Azərbaycanın mütəfəkkir şairi, bütün türk dünyasının sevimlisi olan unudulmaz Bəxtiyar Vahabzadənin aşağıdakı şeirinə dönə-dönə müraciət edir:

Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət.
Hər ikisi Cumhuriyyət,
Azərbaycan-Türkiyə.
Bir ananın iki oğlu,
Bir ağacın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan-Türkiyə.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı, eyni zamanda tərəfdaşlığı və əməkdaşlığı çox mürəkkəb və ziddiyyətli olan müasir dövrümüzün ən aktual mövzusudur. Bu mövzu aktuallığı ilə yanaşı, kifayət qədər geniş və əhatəlidir. Azərbaycan-Türkiyə münasibətlərinin araşdırılması və elmi təhlili ilə məşğul olan müxtəlif ixtisas sahibləri səsləndirdiyimiz mövzulardan irəli gələn

konkret məsələlərin şərhi shəsində öz qələmlərini işə sala bilərlər. Mən isə bu yazımda Azərbaycan-Türkiyə münasibətlərinin araşdırılması ilə bağlı bir sıra tarixi məqamlara ötəri olaraq toxunmaqla əsas diqqəti problemin məntiqi-konseptual şərhinə yönəldəcəm...

İndi istərdik Azərbaycan-Türkiyə münasibətlərinin tarixindən bəzi hadisələri yada salaq. Tarixdən yaxşı məlumdur ki, Birinci Dünya müharibəsi dövründə bir sıra dünya gücləri (dövlətləri) birləşərək Osmanlı imperiyasını məhv etməyə, Türkiyəni parçalamağa çalışırdılar. Tərəflər arasında qanlı müharibə gedirdi. Vətənpərvər qüvvələr Türkiyənin müdafiəsinə qalxmışdılar. “Çanaqqala” döyüşü indi öz əzmi və tarixi ilə xatirələrdə daimi yaşamaqdadır. Azərbaycan könüllüləri türk qardaşlarını tək qoymadılar, onlarla birlikdə ümumi düşmənə qarşı vuruşdular. Bu müharibədə xeyli sayda Azərbaycanlı həlak oldu. Mən bununla əlaqədar böyük Azərbaycan şairi Əhməd Cavadın “Çırpınırdı Qara dəniz” şeirinə bir qədər əvvəl müraciət etmişdim. Onun şeirindəki “Fırtınalar dursun yana, Salam Türkün bayrağına!” misraları, yaxud “Çırpınırdı Qara dəniz, Baxıb Türkün bayrağına!”, “Yol ver Türkün bayrağına!” poetik ifadələri bu gün də özünün siyasi-fəlsəfi gücünü saxlamaqdadır. Elə əslində indiki, müasir dövrümüzdə də təkrar edə bilərik: “Yol ver Türkün bayrağına!”.

Yerinə düşər burada Böyük Mustafa Kamal Atatürkün “Çanaqqala” döyüşləri zamanı əsgərlərə müraciət edərək dediyi tarixi sözləri yaa salaq: “Mən sizə eməyi əmr edirəm! Bu sözlər öz vətəni, torpağı uğrunda, ölkəsinin müstəqilliyi, suverenliyi uğruna mübarizə aparan hər kəs üçün unudulmaz və yadda qalan olmalıdır. Əlbəttə, Atatürkün indi səsləndirdiyi sözlərində bilavasitə ölməkdən söhbət getmir, Vətən uğrunda qətiyyətlə, son nəfəsinə qədər vuruşmaqdan, lazım gələrsə, canını fəda etməkdən gedir. Nahaq yerə deyilməyib ki, “Torpaq, uğrunda ölən varsa, vətəndir!”.

Bir az qabağa qaçaraq deyə bilərəm ki, Azərbaycanın fədakar oğulları 30 il müddətində erməni işğalı altında inləyən öz torpaqları, şəhər və kəndlərini öz qanları, canları hesabına mənfur erməni işğalçılarının tapdağından azad etdilər. Bu son vaxtlarda da dünyanın 50 güclü ordusu sırasında olan Müzəffər Ordumuz Ali Baş Komandan, cəsur sərkərdə, “dəmir yumruq” konsepsiyasının müəllifi, hörmətli Prezidentimiz İlham Əliyevin komandanlığı altında ermənilərin Kəlbəcər, Zəngilan, Laçın, Daşkəsənlə dövlət sərhəddində törətdikləri irimiqyaslı təxribatlarının qarşısını qətiyyətlə aldı, düşmənin çoxlu sayda canlı qüvvəsi, hərbi texnikası, digər döyüş obyektləri, postları və s. darmadağın edildi, müxtəlif bəhanələrlə iki ölkə arasında sülh müqaviləsindən yayınan erməni faşist xuntasına ağır zərbə vuruldu. Əlbəttə, bu son əməliyyatlar zamanı itkilərimiz də oldu, müəyyən sayda əsgər oğullarımız, hərbi qulluqçularımız şəhid oldu, öz qanları-canları ilə doğma Azərbaycana sadiq olduqlarını ifadə etdilər.

İndi bir qədər də keçmişə qayıdaq. Son dövrdə Azərbaycan-Türkiyə qaraşlığının xüsusi vüsət alığını və intensivləşiyinə nəzərən yada sala bilərik ki, 1918-ci ilin 15 sentyabrında Qafqaz İslam Ordusu Nuru Paşanın və general Əliağa Şıxlinskinin komandanlığı altında doğma Bakımızı ermənilərdən və bolşeviklərdən azad etdi. Bu şanlı hadisənin, zəfərin 104-cü ili 2022-ci il 15 sentyabrda tamam oldu. Birgə tariximizin ərinliyinən gələn bu zəfəri müasir Türkiyə-Azərbaycan qardaşlığı səlnaməsinə dəyərli töhfə hesab edirəm.

Qəlbimizi riqqətə gətirən bir hadisəni də xatırlamaq yerinə düşər. Bu da Naxçıvanın blokadada olduğu bir şəraitdə Naxçıvanla Türkiyə arasında “Ümid körpüsünün” çəkilməsidir. Bu, nəinki Türkiyə-Azərbaycan dostluğunun rəmzi idi, eyni zamanda iki nəhəng şəxsiyyətin – Heydər Əliyev və Süleyman Dəmirəlin şəxsi dostluğunun bəhrəsi, ifadəsi idi. Xatırladaq ki, o vaxtlar Heydər Əliyev Naxçıvan Ali Sovetinin sədri vəzifəsində çalışırdı.

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi-torpaq iddiaları irəli sürməsi, torpaqlarımızın 20%-ni işğal etməsi, o cümləən Ermənistanda yaşayan həmdaşlarımızı öz ev-eşiklərindən qovmaları Azərbaycanda 1 milyona qədər məcburi köçkünün və qaçqın ordusunun meydana gəlməsinə səbəb olmuşdu. Bu qədər böyük əhalinin ərzaq və mənzil problemini həll etmək lazım

idi. Gənc Azərbaycan dövlətinin imkanları hələ çox məhdud idi. Belə bir şəraitdə Türkiyə bizi tək qoymadı.

Artıq Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gəlmişdi, Azərbaycan Respublikasının Prezidenti idi. Türkiyənin ali şəxsləri birinci növbədə Prezident və Baş nazirləri: Süleyman Dəmirəl, Tansu Çiler, Məsud Yılmaz və digər yüksək dövlət mənsəbləri Bakıya səfər edir, qaçqın və məcburi köçkünlərin məskunlaşdıqları yerlərə gedir, onlarla görüşür, onlara ürək-dirək verirdilər. O vaxtlar mən Azərbaycan Respublikası Baş nazirin humanitar işlər üzrə müavini vəzifəsində çalışdığımdan gələn qonaqları müşayiət etməli olurdum. Yaxşı yadımdadır ki, hörmətli Süleyman Dəmirəl Bakı Dövlət Universitetinin tələbə yataqxanasında məskunlaşmış məcburi köçkünlərlə görüşdü. Sözsüz ki, Heydər Əliyev də görüşdə şəxsən iştirak edirdi. Tansu Çilər Neft və Kimya İnstitutunun Tələbə Şəhərciyində məcburi köçkünlərin çox izdihamlı bir kütləsi ilə görüşdü. Əlbəttə, Heydər Əliyev də burada idi. Deməyi zərurət sayıram ki, bu görüşlər zamanı bir qayda olaraq Azərbaycana humanitar yardım gətirilirdi. Məsələn, Süleyman Dəmirəl Bakıda olarkən Azadlıq meydanında bir neçə iri yük maşını dayanmışdı və "Qızıl Ay" təşkilatının göndərdiyi iri həcmli humanitar yardım nümayiş etdirilirdi. Əlbəttə, qardaş Türkiyənin Bakıda daimi fəaliyyət göstərən təşkilatları da vardı.

19994-cü ilin 20 sentyabrında şəxsən Heydər Əliyevin iştirakı ilə imzalanmış və onun dahi zəkasının bəhrəsi olan "Əsrin müqaviləsi" Azərbaycan-Türkiyə tərəfdaşlığının inkişafına xüsusi, intensivləşdirici təkan verdi. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin uğurla çəkilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi və hazırda fəaliyyət göstərməsi, TANAP bu dediklərimizə misal ola bilər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bütün dünyada söz sahibi, böyük diplomat kimi tanınır. Onun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə yüksək səviyyəli şəxsi münasibətləri, bir-biri üçün dost-qardaş olmaları nəinki Azərbaycan xalqı üçün yüksək məni töhfə və ərmağandır, eyni zamanda bütün türk xalqları üçün ölkə rəhbərləri arasında xoş, mehriban münasibətdir. Açığını deyim, Ərdoğanın Azərbaycana səfərləri nəinki intizarla gözlənilir, eyni zamnada toy-bayram kimi qarşılanır. Eynilə də hörmətli Prezidentimizin Türkiyəyə səfərləri sevinclə, xüsusi alqışlarla qarşılanır. Belə təsəvvür yaranır ki, İlham Əliyev sanki öz doğma evinə gəlib.

44 günlük II Qarabağ savaşı böyük Zəfərlə qurtardı. Dünyanın ən güclü orduları sırasında möhkəm yer tutan ordumuz Ali Baş Komandan, cəsur sərkərdə, "Dəmir yumruq" ideyasının müəllifi İlham Əliyevin rəhbərliyi altında 30 il müddətində erməni faşist xuntasının tapdağı altında qalan torpaqlarımızı azad etdi. İlham Əliyevin 4 saat müddətində 4 dildə dünyanın əksər ölkələrindən gəlmiş media nümayəndələrinə bu böyük qələbənin sirləri şərh olundu. İndi bir çox ölkələrdə hərbi məktəblərdə və kolleclərdə 44 günlük zəfərin sirləri öyrənilir.

Necə oldu ki, alınmaz Şuşa qalası iri hərbi texnikadan istifadə edilmədən təkcə xüsusi təyinatlıların gücü ilə erməni işğalçıların əlindən alındı. Bununla əlaqədar təşkil olunan şənliklərdə, birinci növbədə Şuşada keçirilən tədbirlərdə Rəcəb Tayyib Ərdoğan öz ailəsi ilə şəxsən iştirak etdi, Bakıda Azadlıq meydanında həyata keçirilən "Zəfər paradı"nı İlham Əliyevlə birlikdə qəbul etdi, xalqımızın, ordumuzun, türk əsgərlərinin şəninə tarixi sözlər söylədi. Bu parad iki ölkənin, iki əziz qardaşın dostluğunun, əməkdaşlığının xüsusi nümayişi idi.

Mən cəsarətlə deyə bilərəm ki, Rəcəb Tayyib Ərdoğanın qələbə münasibətilə Azərbaycanın Milli Məclisində söylədiyi Azərbaycan-Türkiyə dostluğunun yenilməz gücünü nümayiş etdirən siyasi manifest idi. Daha bir nümunəyə müraciət etmək istərdim. Yenicə istifadəyə verilən Beynəlxalq Fizuli Hava Limanının səmasını iki nəhəng "Qartal" şığıyaraq yardı – Prezidentimiz, Ali Baş Komandan, cəsur sərkərdə İlham Əliyevin gəldiyi Azərbaycan təyyarəsi və Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın və nümayəndə heyətinin gəldiyi təyyarə. Bəli, həmin gün "Fizuli" hava limanının rəsmi açılışı idi. Böyük fərəh hissi doğururdu qısa müddətdə tikilib, başa

çatdırılan hava limanı artıq sərnişin qəbul edir. Yüksək səviyyədə keçirilən açılış mərasimindən sonra İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Zəngilanda tikilməkdə olan Zəngilan hava limanının ərazisinə baxmağa getdilər.

44 günlük qələbədən danışarkən istər Türkiyədə və istərsə də Azərbaycanda keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin böyük rolunu unutmaq olmaz. Türkiyə Prezidentinin "Ermənistan ağlını başına yığ, Azərbaycan tək deyil, biz Azərbaycanın yanındayıq" sözləri nəinki ermənilərə, eyni zamanda Azərbaycana bəd gözlə baxacaq hər hansı bir digərinə ciddi xəbərdarlıqdır.

2021-ci ilin 15 iyununda İlham Əliyev və Rəcəb Tayyib ərdoğan tərəfindən imzalanmış "Şuşa Bəyannaməsi" Azərbaycanla Türkiyə arasında tərəfdaşlığın və əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirən çox qiymətli bir sənəddir. Burada qeyd olunur ki, Bakı və Ankara əsgəri-siyasi, iqtisadi sahələrdə əməkdaşlığını iki ölkənin Prezidentlərinin şəxsində birbaşa təsdiq etdilər. "Şuşa Bəyannaməsi"ndə xüsusi olaraq diqqətə çatdırılır ki, iki dövlətin torpaq bütövlüyünə, müstəqilliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə ölkələr bir-birini qorumağa təminat verirlər.

Bakıda "Xəzər"in sahilində böyük təntənə ilə, Şövqlə keçirilən "Teknofest" festifalı Türkiyə-Azərbaycan tərəfdaşlığı və əməkdaşlığı sahəsinə xüsusi töhfədir. Azərbaycan və Türkiyə təyyarələrinin, pilotsuz uçuş aparatlarının, "Bayraqdarlar"ın səmada yazdıqları dostluq və qardaşlıq "rəsmləri" uzun müddət xatirələrdən silinməyəcək. Bu yaxınlarda Türkiyənin Antaliya şəhərində keçirilən İslam Həmrəylik oyunları, hörmətli Prezidentimizin oraya dəvətli olması, Türkiyə və Azərbaycan idmançılarının birgə çıxışları Türkiyə-Azərbaycan əməkdaşlığında strateji xəttin dönməz və davamlı olmağını təsdiq edir. Bu ilin 6 sentyabrında Bakıda keçirilən və çoxlu sayda ölkələrin iştirak etdiyi Müdafiə Sənayesi sərgisi də xüsusi diqqət çəkir. İlham Əliyevin də qatıldığı bu ən müasir silahlar, döyüş robotları, pilotsuz uçuş aparatları nümayiş etdirilirdi. Türkiyə və azərbaycan da öz silahlarını sərgiyə təqdim etmişdilər. Əlbəttə, bu cür sərgilərin təşkili hərbi gücümüzün nümayiş etdirilməsi baxımından olduqca əhəmiyyətlidir.

Məlumdur ki, Türkiyədə Rizə-Artvin hava limanının açılış mərasiminə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də dəvət olunmuşdu. Onun dəniz içərisində yaradılmış bu möhtəşəm hava limanının açılışında söylədiyi nitqindən bəzi parçaları oxucuların diqqətinə çatdırmaq istərdim. Belə ki, İlham Əliyev çıxışında toxunduğu bir sıra məqamlar Türkiyə-Azərbaycan münasibətləri, tərəfdaşlığı və əməkdaşlığının mahiyyəti haqqında aydın təsəvvür almaq üçün olduqca əhəmiyyətlidir. İlham Əliyevin çıxışı tədbirdə böyük coşqu və alqışlarla qarşılanmışdır.

İlham Əliyev: "Biz dünya miqyasında bir-birinə yaxın olan ölkələrik və ölkələrimiz çox sınaqlardan keçib və keçməkdədir. Keçən il qədim və tarixi şəhərimiz Şuşada Türkiyə ilə Azərbaycan arasında ortaq "Bəyannamə"nin imzalanması əlaqələrimizi ortaqlıq səviyyəsinə yüksəltdi. Biz həm dostluq, həm qardaşlıq, həm də bundan belə rəsmən müttəfiqik. Bu qardaşlıq siyasəti bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik. Bu gün sizinlə bərabər olmaq mənim üçün böyük xoşbəxtlikdir. Bu gün Azərbaycan Prezidentinin bu mərasimdə iştirakı Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür".

Daha sonra İlham Əliyev II Qarabağ savaşından və Türkiyənin köməyindən danışaraq qeyd etmişdir: "Savaşın ilk saatlarından son anına qədər əziz qardaşım Rəcəb Tayyib Ərdoğan yanımızdaydı, qardaş Türkiyə xalqı yanımızdaydı. İkinci Qarabağ savaşı bizim müştərək, şanlı tariximizdir, 30 illik işğala son verdik. Savaşın ilk günündə dəyərli Cumhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil! Türkiyə Azərbaycanın yanındadır" ifadəsi bir çoxu üçün ciddi xəbərdarlıq oldu. Savaşın son dəqiqəsinə, Şuşa şəhərində Azərbaycan bayrağı dalğalana qədər Türkiyə yanımızda durdu, bizə arxa, dəstək oldu. Azərbaycan xalqı bu qardaşlığı heç bir zaman unutmaz və unutmayacaq.

İlham Əliyev çıxışının sonunda Türkiyənin dünya çapında güc mərkəzinə çevrilməsini, Ərdoğanın dünya miqyasında nüfuzlu söz sahibi olmasını, onun ölkə daxilində böyük layihələr həyata keçirdiyini də nəzərə çatdırır.

Türkiyə-Azərbaycan tərəfdaşlığı və əməkdaşlığı mövzunu bir yazıda tam əhatə etməyin mümkünsüz olduğunu nəzərə alaraq sonluqda bir sıra ümumiləşdirmələr etmək istərdim. Qeyd etmək yerinə düşər ki, Türkiyə və Azərbaycanın dövlət başçılarının yüksək dostluğu və qardaşlığı hər iki ölkənin dövlət qurumlarının və rəhbərlərinin, konkret olaraq Xarici İşlər Nazirlərinin, Parlamentlərinin, Müdafiə nazirləri arasında xoş münasibət və əlverişli abu-hava yaratmışdır. Türkiyə parlamentinin üzvü, Türkiyə-Azərbaycan parlament qrupuna daxil olan, Bakı Dövlət Universitetində şəxsən tanış olduğum Şamil Ayrımın əməyini yüksək qiymətləndirirəm. Onun xalqlarımız arasında dostluq və qardaşlığın təbliğinə həsr etdiyi əməyi xüsusilə təqdir edirəm.

Yəqin artıq hamıya məlumdur ki, bu ilin 12 sentyabrından 13 sentyabra keçən gecə Ermənistan Kəlbəcər, Zəngilan, Laçın, Daşkəsən dövlət sərhəddində iri miqyaslı hərbi təxribat törətmişdir. Rəsmi məlumata görə Azərbaycanın müzəffər ordusu 7 saat davam edən əməliyyat nəticəsində düşməni geri oturtmuş, onun çox sayda canlı qüvvəsini məhv etmiş, bütün hərbi obyektlərini darmadağın etmişdir. Bu qələbə Azərbaycanın son dövrdə nail olduğu çox böyük zəfər qələbəsidir. Azərbaycan xalqının böyük dostu Rəcəb Tayyib Ərdoğan Ankarada çox böyük izdiham qarşısında çıxış edərək Azərbaycanın yanında olduğunu bir daha təsdiq edib. Ərdoğan bu günlərdə Özbəkistanın Səmərqənd şəhərində fəaliyyətə başlamış Şanxay Əməkdaşlıq forumunda çıxış edərək demişdir ki, Azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu bütün dünyaya çatdırırıq. əlavə etməyə dəyər ki, İlham Əliyevin parlaq çıxışı, nüfuzlu, zabitəli davranışı Sammitdə xüsusi abu-hava yaratmışdır.

Hesab edirəm ki, bu məsələnin daha ətraflı şərhini bilavasitə mütəxəssislərin, xüsusilə də iqtisadçılarımızın sərəncamına versək, daha münasib olar. Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev arasında mövcud olan və artıq yenilməz həqiqətə çevrilmiş dostluq və qardaşlıq eyni zamanda türkdili dövlətlər arasında birliyin, həqiqi cazibənin yaradılması üçün bir nümunə, həm də stimul olacaqdır.

## ƏDƏBİYYAT


1. İkitərəfli münasibətlər: Azərbaycan-Türkiyə münasibətləri // https://ankara.mfa.gov.az/
2. Azərbaycan-Türkiyə münasibətləri daha da möhkəmlənir// Azərbaycan.- 2010.- 19 may.- S. 1.
3. Türkiyə-Azərbaycan münasibətlərinin tarixi və inkişaf yolu // https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2022
4. Əzəli və əbədi Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır // https://genprosecutor.gov.az/az/post/3892


# DAHA YÜKSƏK ZİRVƏLƏRƏ DOĞRU İRƏLİLƏYƏN AZƏRBAYCAN-TÜRKİYƏ TƏRƏFDAŞLIĞI VƏ ƏMƏKDAŞLIĞI

***İzzət Rüstəmov***

## XÜLASƏ

Azərbaycan və Türkiyə arasında əlaqələr çoxşaxəli və genişdir. İnvestisiya qoyuluşu mövcud imkanlarla ölçüldükdə, yüksək səviyyədədir. Azərbaycanın xeyli sayda şirkəti Türkiyədə və Türkiyənin şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Azərbaycan və Türkiyə arasında dövlət

səviyyəsində əlaqələr, siyasi-hərbi münasibətlər, mədəni əlaqələr yüksək səviyyədədir. Türkiyə hazırda bütün dünyada xüsusi güc mərkəzinə çevrilmişdir.

## АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОЕ ПАРТНЕРСТВО И СОТРУДНИЧЕСТВО ПРОДВИГАЮТСЯ К ЕЩЕ БОЛЬШИМ ВЫСОТАМ

***Иззет Рустамов***

## АННОТАЦИЯ

Отношения между Азербайджаном и Турцией многогранны и обширны. Инвестиции находятся на высоком уровне по сравнению с имеющимися возможностями. Большое количество азербайджанских компаний работает в Турции, а турецкие компании работают в Азербайджане. Отношения между Азербайджаном и Турцией на государственном уровне, военно-политические отношения, культурные отношения находятся на высоком уровне. Турция сейчас стала особым центром силы во всем мире.

## AZERBAIJANI-TURKISH PARTNERSHIP AND COOPERATION ARE MOVING TO EVEN GREATER HEIGHTS

***Izzet Rustamov***

## SUMMARY

Relations between Azerbaijan and Turkey are multifaceted and extensive. Investments are at a high level compared to the available opportunities. A large number of Azerbaijani companies operate in Turkey, and Turkish companies operate in Azerbaijan. Relations between Azerbaijan and Turkey at the state level, military-political relations, cultural relations are at a high level. Turkey has now become a special center of power throughout the world.

# ПРОБЛЕМА ДЕЙСТВЕННОСТИ МЕЖДУНАРОДНОГО ПРАВА В СОВРЕМЕННОМ МИРЕ

***Халилова Фарах,***
***д.ф. по социологии, кафедра социологии***
***БГУ pionkaran@mail.ru***

***Açar sözlər:*** beynəlxalq hüquq, beynəlxalq əməkdaşlıq, qloballaşma, sosial kapital
***Ключевые слова:*** международное право, международное сотрудничество, глобализация, социальный капитал
***Keywords****:* international law, international cooperation, globalization, social capital

Условия, в которых функционирует современное мировое сообщество, имеющие место быть явления и процессы, в том числе возникающие противоречия и конфликты, всё более подводят нас к необходимости осознания единства судеб человечества и развития и задействования механизмов по обеспечению мирного сосуществования всех людей на нашей планете. События, происходящие в последнее время, всё более убеждают в том, что, несмотря на создание и развитие международно-правовой базы для сотрудничества, имеются серьезные проблемы в деле обеспечения действенности системы международного права.

Так, например, согласно недавнему заявлению председателя Военного комитета НАТО Роба Бауэра (май 2022г.) акт Россия-НАТО, подписанный в 1997 г., не может ограничивать продвижение альянса на Восток. Согласно ему «Акт НАТО — Россия все еще здесь. Но его содержание не будет сдерживать нас при реализации наших планов. На данный момент общее мнение на политическом уровне таково, что мы не убиваем [соглашение], но оно не остановит нас от необходимых с нашей стороны действий» [3].

Глава МИД Российской Федерации Сергей Лавров заявил в своем недавнем интервью (сентябрь 2022г.) о том, что США должны отказаться от идеи мирового господства: «Американцы фактически растоптали международное право и существовавшие десятилетиями неписаные табу в дипломатической практике. Вопреки геополитическим реалиям, США пытаются “подмять” под себя остальных членов мирового сообщества, заставить всех жить по “правилам”, которые сами же и выдумывают» [4].

Президент Азербайджана И.Алиев в своем выступлении на международной конференции «Южный Кавказ: развитие и сотрудничество», состоявшейся 29 апреля 2022 года в столице Азербайджана городе Баку, отвечая на вопрос участницы – представительницы Украины, отметил, что международные документы не имеют действенности, чему подтверждением является тот факт, что, несмотря на существующие четыре резолюции Совбеза ООН от 1993 года (822, 853, 874, 884), предполагающие незамедлительное освобождение оккупированных земель Азербайджана и вывод вооруженных сил Армении из Карабаха, их реализация осуществилась активными военными действиями азербайджанской стороны, итогом чего стало подписание мирного договора по окончании Второй Карабахской войны.

Международное право - социально-исторический феномен, возникновение и развитие которого связано, в первую очередь, с необходимостью обеспечения условий для оптимального существования и развития как конкретного социума, так и всего человеческого рода. Изменения, происходящие в социуме, неизбежно диктуют необходимость в развитии системы международного права, что подтверждается его неоднократной трансформацией на протяжении всей истории развития человечества.

Можно проследить эти изменения, рассмотрев основные этапы развития международного права. Не вдаваясь в подробности относительно вопроса возникновения и развития международного права, отметим, что основные ключевые моменты его развития могут быть обозначены выделением следующих основных периодов, среди которых период древнего мира (до крушения Западной Римской империи в 476 г. до н.э.), период с 476 г. до н.э. до 1648г., отмеченный заключением Вестфальского мирного договора, период с 1648г. до времени проведения Гаагских конференций в начале 20 века (1899, 1906-1907), период после Гаагских конференций мира до учреждения ООН и развития современного международного права [1; 2].

Существенные изменения, происходившие в развитии общества и такой его составляющей как международное право, естественно, привели, в свою очередь, к формированию той ситуации, которая сложилась в мире сегодня.

Но, несмотря на имеющиеся изменения, всегда актуальным остается вопрос, связанный с реализацией международного права на практике и обеспечением его действенности. Как показывает практика социальной действительности, обеспечение действенности международного права – весьма серьёзная и сложная проблема. Для более глубокого понимания данной проблемы следует проанализировать факторы, препятствующие реализации международного права в реальности. Среди данной категории факторов можно отметить следующие:

1. Отсутствие общепланетарного альтруистического уровня сознания и соответственно чрезвычайно высокий, «зашкаливающий» уровень эгоистического мышления человечества.
2. Большая дистанция (разрыв) между ценностями и нормами различных культурных систем, представленных в мире.
3. Существенное различие показателей экономического и военного потенциала различных стран и регионов, что открывает возможности для манипулирования ситуацией в собственных интересах.
4. «Нездоровые» приоритеты в ценностно-культурных системах различных обществ (излишний акцент на материальных ценностях, усложнение жизни навязыванием лжеценностей, безразличие к ценности человеческой жизни и т.д.).
5. Неразвитость социального капитала в его международном измерении и т. д.

Соответственно можно обозначит факторы противоположного характера, обеспечивающие действенность международного права. Среди них следует отметить следующие:

1. Выход за рамки эгоизма и, соответственно, эгоистического восприятия мира, и повышение уровня альтруистического сознания и мышления.
2. Сокращение дистанции, а значит и недопонимания между различными культурными системами.
3. Адекватное определение приоритетов в ценностной иерархии различных культурных систем.
4. Осознание общности судеб человечества и соответственно поиск и реализация на этой основе реальных механизмов, обеспечивающих налаживание здоровых контактов между людьми.
5. Осознание необходимости формирования и развития международного социального капитала как необходимого фактора, сдерживающего неадекватные реакции на те или иные обстоятельства и стороны жизни и т.д.

Очевидно, что рекомендации по увеличению степени действенности международного права будут направлены на субъективную и объективную стороны этого вопроса,

которые, безусловно, связаны между собой. Естественно, что без усилия воли международных акторов никакого развития в этом направлении быть не может. Но также естественно ожидать, что без соответствующих условий это также невозможно. Среди множества различных условий (социально-культурных, экономических, политико-правовых и т.д.) особо следует отметить надлежащее развитие международного социального капитала, что необходимо для адекватного развития всего человечества и является весьма непростой задачей, особенно если учесть достаточно высокий уровень эгоистичности сознания большинства международных акторов. Международный уровень развития социального капитала предполагает развитие и усиление кооперации между разными обществами (в том числе акторами международного уровня), включающее формирование социально востребованных и приемлемых, направленных на реальное социальное развитие норм и ценностей.

Должное задействование международного социального капитала, естественно, требует наличия соответствующего механизма его формирования и реализации, что в свою очередь, предполагает наличие определенных условий и ресурсов, среди которых можно перечислить следующие:

- особенности текущей ситуации в мире (уровень экономического развития и сотрудничества между разными странами, возможности и качество культурного диалога и т.д.);
- текущий уровень сознательности международных акторов, уровень их зрелости, готовности к международному сотрудничеству на благо всех людей, всего человечества, наличие соответствующей интеллектуально-моральной и духовной компетенции. Важно отметить, что наличие данного ресурса не является уделом «избранных» и важно также для остальной части человечества;
- наличие соответствующей мотивации, реального желания и воли к сотрудничеству;
- один из важнейших ресурсов – информационно - технологический. Информационно-технологическая основа глобализации, несмотря на все имеющиеся негативные проявления, создаёт благоприятную почву для продвижения в сфере международного сотрудничества и, соответственно, обеспечения большей действенности международного права и т.д.

Следует подчеркнуть, что, несмотря на усилия, предпринимаемые многими учеными, исследователями и практиками в направлении обеспечения действенности международного права и мира на земле, реальность остаётся реальностью - она далеко не идеальна. Социум всегда сталкивался и продолжает сталкиваться с разного рода многочисленными вызовами и угрозами, что никак не означает, что мы не должны двигаться дальше, несмотря на имеющиеся трудности и препятствия. Человечество призвано и должно постепенно выходить за рамки природной ограниченности и реализовывать свой истинный потенциал, который, конечно же, нам, по крайней мере многим из нас, не до конца и даже во многом не ясен. Естественно, что этот процесс происходит не без боли. Но в этом и заключается парадокс жизни и её смысл – идти, не понимая многого, как бы « ощупывая» реальность и параллельно пытаясь развивать себя, чтобы в итоге «превзойти себя», чтобы выйти на качественно новый уровень жизни. В итоге, либерально-идеалистическая парадигма, делающая акцент на доминирующей роли международного сотрудничества, в том числе в вопросе обеспечения действенности международного права, несмотря на достаточно суровые реалии жизни, всё же оказывается более реалистичной, чем самый жесткий реализм.

## ЛИТЕРАТУРА


1. Валеев Р.М., Курдюков Г.И. Международное право. 2010 М.: Статут
2. Пронюк Н.В. Современное международное право. 2010, Изд-во КНТ
3. http://tass.ru/mezhdunarodnaya-panorama
4. https://lenta.ru/news/2022/10/08/lavrov/


## ПРОБЛЕМА ДЕЙСТВЕННОСТИ МЕЖДУНАРОДНОГО ПРАВА В СОВРЕМЕННОМ МИРЕ

***Халилова Фарах***

### АННОТАЦИЯ

В статье анализируется проблема обеспечения эффективности международного права в глобализирующемся современном мире. Автором рассматриваются сущность, особенности и проблемы эффективности международного права, факторы, влияющие на эту сторону общественной жизни.

## BEYNƏLXALQ HÜQUQUN QÜVARLILIĞI PROBLEMİ MÜASİR DÜNYADA

***Xəlilova Fərəh***

### XÜLASƏ

Məqalədə müasir qloballaşan dünyada beynəlxalq hüququn effektivliyinin təmin olunması problemi təhlil olunur. Müəllif beynəlxalq hüququn effektivliyinin təmin olunması probleminin mahiyyyətini və xüsusiyyətlərini, burada mövcud ziddiyyətləri, sosial reallığın bu aspektinə təsir edən amilləri araşdırır.

## THE PROBLEM OF THE VALIDITY OF INTERNATIONAL LAW IN MODERN WORLD

***Khalilova Farah***

### SUMMARY

The problem of the insurance of the efficacy of international law in the globalizing modern world is analyzed in the article. The essence, characteristics, and problems of the efficacy of international law, factors affecting this aspect of social life are considered by author.

# BEYNƏLXALQ TERRORİZMİN NÖVLƏRİ

***Qasımov Zülfüqar İlqar oğlu***
***BDU-nun II kurs magistrantı***
***zulfuqar.qasimov.1998@gmail.com***

***Açar sözlər:*** beynəlxalq terrorizm, terrorun növləri, qlobal təhlükə,dini terror.
***Key words:*** international terrorism, types of terrorism, global threat, religious terrorism.
***Ключевые слова:*** международный терроризм, виды терроризма, глобальная угроза, религиозный терроризм..

Dünyada elə sosial, siyasi, iqtisadi problemlər var ki, bu problemlər həm dövləti, həm də cəmiyyəti narahat etmişdir. Qeyd etmək lazımdır ki, bu problemlər ilk əvvəl insanlardan asılı olmayaraq formalaşırdısa, sonralar bu amillər insan əli ilə yaradıldı. Səbəbi isə odur ki, cəmiyyətdə sinif anlayışı, təbəqələşmə kimi meyarlar meydana çıxdı. Artıq insanlar bir-birinə hökm etmək, sərvətlərini artırmaq, hakimiyyətini qorumaq üçün digər cəmiyyət üzvlərinə təsir edirdi.

Zaman keçdikcə insaların yaratdığı və cəmiyyətləri narahat edən anlayışlar daha qəddar hal almağa başladı. Bunların içərisində xüsusi əhəmiyyət daşıyan, bütün dövrlərdə rast gəlinən və cəmiyyəti narahat edən təsir vasitəsi terrordur. Terrorun meydana gəlməsi qədim zamanlara təsadüf edir. Lakin bu anlayış indiki mahiyyətindən çox fərqli idi.

XXI əsrdə dünya nizamında baş verən dəyişikliklər, eləcə də, qloballaşma tendensiyasının daha da sürətli bir hal alması bəzi anlayışlarda ciddi dəyişikliklərə gətirib çıxardı. Bu anlayışlar artıq əvvəlki məzmununu, ifadə etdiyi dəyərlərdən uzaqlaşaraq yeni bir məna kəsb etməyə başlamışdır. Belə bir situasiya cəmiyyətin hər bir sahəsində, yəni sosial, siyasi, ictimai və s. sahələrində özünü göstərir. Lakin siyasi-ictimai həyatda olan anlayışlarda bu proses daha sürətli şəkildə gedir.

Müasir dünyada öz əvvəlki mənasından uzaqlaşan və istər cəmiyyətlərin, istərsə də, dövlətlərin daha çox diqqətində olan anlayış terrorizm anlayışı və onun yaranma səbəbləri, nəticələri, maliyyələşməsi və növləri ilə bağlı məsələlərdir. Bu anlayış tarixən mövcud olsa da, dövlətlər tərəfindən çox da əhəmiyyət verilməyən bir məsələ olmuşdur.

Beynəlxalq terrorizm çağdaş dövrümüzdə ciddi bir sosial-siyasi problem kimi dünya birliyi ölkələrini dərin narahat etməkdədir. Çünki terror dövlət təhlükəsizliyinə, milli birliyə və sosial-siyasi nizam-intizama ağır zərbə vuran bir siyasi alətdir. Bəli, terrorizm müasir sivilizasiyada siyasi proseslərə yön verən, siyasi manipulyativ təsir mexanizmi hesab edilir. Çünki tarixi proseslərin gedişində də dünya terrorun bir çox hallarda dövlət tərəfindən dəstəkləndiyinin şahidi olmuşdur. Məsələn, Almaniyada hakimiyyətə gələn Adolf Hitler öz rəqiblərini aradan qaldırmaq üçün siyasi terrordan istidafə etmişdir. Keçmiş Sovetlər birliyində də dövlət terrordan bir sıra məqsədlər üçün alət kimi istifadə edib. Belə ki, keçən əsrin 30-cu illərində “ mədəni inqılab” adı altında milli ziyalıların, ictimai xadimlərin repressiyalara məruz qalması dövlət terrorunun ən bariz nümünəsidir. Sonralar bu siyasəti “ nümünə” götürən Çində dövlət terrorizminə əl atmışdır. Həmin dövrlərdə bu proseslərə terror aktı demək qeyri-mümkün idi. Çünki rəhbərlər öz etdiklərinə terror adı verməmək üçün bunu mədəni inqılab kimi qələmə verirdilər.

Terror əvvəlki dövrlərdə lokal anlayış kimi istifadı edilirdi. Çünki dövlətlər terrorun dünya üçün təhlükəli olma ehtimalının aşağı olduğunu bildirirdi. Lakin terrorun qlobal səviyyədə narahatlıq doğuran məsələ olması SSRİ-nin süqutundan sonra meydana çıxdı. Artıq terror lokal deyil, beynəlxalq səciyyə daşımağa başladı.

Beynəlxalq terrorizmi digər terrorlardan fərqləndirən ən başlıca əlamət onun qlobal səciyyə daşımasıdır. Artıq terror təkcə bir dövlətin problemi deyil, ümümilikdə dünya çapında olan hər bir dövləti narahat edən bir problemdir. Çünki qloballaşma şəraitində dövlətlərin iqtisadi, siyasi, sosial və mədəni inkişafı bir-birindən asılı olan bir prosesdir. Bir ölkədə baş verən neqativ hadisələr digər ölkələrin də daxili məsələlərində problemlərin formalaşmasına gətirib çıxarır. İkinci amil isə burada beynəlxalq təşkilatlar, beynəlxalq hüquq tərəfindən qəbul edilmiş insan və vətəndaş hüquq və azadlıqlarıdır. Beynəlxalq terrorizm bu anlayışa zərbə vuran ən böyük təsirlərdəndir. Məsələn Suriya, İraq və digər şərq ölkələrində baş verən proseslər həmin bölgədə yaşayan insanların hüquqlarını kobud sürətdə pozur.

Beynəlxalq terrorizmin müxtəlif növləri mövcuddur. Bu növlərin formalaşması həyata keçirilən terrorun kəsb etdiyi çalarlardan asılıdır. Belə ki, terrorun dini, siyasi, iqtisadi, ideoloji, daxili və ya xarici, kiberterrorizm, kimyəvi terrorizm, mədəni terrorizm, bioloji terrorizm və s. kimi növləri var. Bu növlər içərisində ən geniş yayılmışı və müasir siyasi ədəbiyyatda məşhur olanı dini terrorizmdir. Dini terrorizm dini çalarlara malik olan, cəmiyyətdə müəyyən dini fərqliliklərə sahib insanların və ya qrupların təşkil etdiyi və digər dinlərə mənsub insanların məhv edilməsi üçün realizə edilən terror aktlarıdır.

Dini çalarlı terrorizmi anlamaq üçün terrorizmin məqsədlərinə baxmaq lazımdır. Bu məqsədlərin ilki və ən təhlükəlisi olan, yeni və daha yaxşı bir dünya düzəni qurmaq məqsədi ilə dünya düzənin yıxmaq, rassional düşüncə və müzakirələri ortadan qaldırmaq üçün müraciət edilən “qiyamət terrorizmi”dir. Bu terrorizm həm ənənəvi dinlərdə, həm də dəyişən məzhəblərdə görülə bilər. İsraildəki aşırı sağ Guş Eminium, Yaponiyadakı Aum Şinrikyo təriqəti bu tərz terrorizmə nümünə ola bilər [1. s.39-40].

Dini beynəlxalq terrorizmin həyata keçirilməsi dini idarəçiliyin qurulması ilə əlaqədardır. Bu terror təşkilatları çalışırlar ki, cəmiyyətdə digər dinlərin nümayəndələrini sıxışdırsınlar, qanuni dövlət hakimiyyətini tam formada və ya müəyyən ərazilərdə devirərək öz hakimiyyətlərini qursunlar. Onların öz məqsədlərini icra etmək üçün cəmiyyətdə mövcud olan dini birlikləri hədəf alır, dini qarşıdurma yaradırlar. Çünki din cəmiyyətlərin, insanların əsas idarəedilməsi, insanları öz ideyaları arxasınca aparmaq üçün çox əlverişli bir amildir. Dini çalarlı beynəlxalq terrorizm dini icmaların, birliklərin çox olduğu ölkələrdə geniş yayılmışdır. Dini terrorun dini-ideoloji terrordan fərqləndirilməsi çox vacib amildir. Bəzən bu iki anlayışı eyniləşdirərlər. Əslində isə bunlar ayrı-ayrı anlayışlardır. Dini terrorizm dini “xilas etmək”, din qardaşlarını qorumaq və ya dini müdafiə etmək üçün aktiv münaqişələrə cəlb olunaraq, silahlı əməliyyatlarda iştirak edərək və din yolunda həlak olmaq üçün aparılan mübarizədə fəal iştirakdır. Yaxın Şərqdə gedən müharibələr dini terrorun əsas məqamıdır. Belə ki, İŞİD tərəfdən vuruşan şəxslərin aktiv silahlı əməliyyatlarda iştirakı dini terrordur. Ancaq müxtəlif dünya ölkələrində dini təbliğatla məşğul olmaq, İŞİD-ə haqq qazandırmaq üçün aparılan siyasi, ictimai mübarizələr isə dini-ideoloji terrordur. Bu terrorda aktiv silahlı əməliyyatlar olmur.

Beynəlxalq terrorizmin digər bir növü iqtisadi terrordur. Bu terror fəaliyyəti dövlətin və ya cəmiyyətin iqtisadi subyektlərinə yönəlir və iqtisadi resurslara sahib olmaq üçün müxtəlif provakasiyalar həyata keçirilir.

Terrorizm əslində iqtisadi deyil, siyasi bir problemdir. Ancaq siyasət, iqtisadi siyasətlərin formalaşdırılması vasitəsilə iqtisadiyyata təsir etməkdədir. Əgər bu siyasətlər ədalətsizliyi, gəlirlərin fərqlənməsin və yoxsulluğu ortaya çıxarır və ya artırırsa, insanlar bu siyasətdən təsirləndikləri üçün bu insanların siyasətçilərə qarşı səsləri daha yüksək çıxmağa başlayacaq. Bundan dolayı doğrudan bir təsir olmamasına rəğmən iqtisadi şərtlər ilə terrorizm arasında bir əlaqə mövcuddur [5. s.106].

Beynəlxalq terrorizm bir çox hallarda iqtisadi çalarları ilə fərqlənir. Belə ki, terror təşkilatları iqtisadi əlaqələri dağıtmaq, mövcud iqtisadi strukturu dağıtmaq və s. məqsədlərlə terror

fəaliyyətini həyata keçirir. Bir çox hallarda isə iqtisadi imkanları əldə etmək, idarə etmək üçün fəaliyyət də icra edilir. İŞİD-in və digər təşkilatların şərqdə neft hasilatına əl qoyması və satışını həyata keçirməsi iqtisadi terrorun ən vacib nümünəsidir. Dünya ölkələri bu cür təşkilatlardan neft alması qanunidirmi? Əslində bu sualın cavabı aydındır. Bu cür terror təşkilatlarından neft alınması həmin təşkilatın fəaliyyət göstərdiyi ölkənin beynəlxalq səviyyədə hüquqlarının pozulması və iqtisadi zərərin vurulmasıdır. Ancaq neft idxalını həyata keçirən ölkələr bu məhsulu terrorçulardan almaqla həm ucuz xammal ehtiyacını ödəyir, həm də təşkilata iqtisadi yardım etmiş olur.

Yaxın Şərqdə neft bazalarını və ya neft quyularını ələ keçirən İŞİD dünya bazarlarına ucuz və gündəlik müəyyənləşdirilmiş normalardan artıq neft ixracı dünya bazarında neftin qiymətətinin kəskin ucuzlaşmasına səbəb olurdu. Hətta bəzən neft qiymətləri 40-45 dollar arasında dəyişirdi.

Digər ölkələr üçün strateji əhəmiyyət daşıyan infrastrukturlar, o cümlədən neft yataqları və bazaları terrorçuların hədəfinə çevrilib.Bu məsələdə dünya gücləri isə həssaslıq nümayiş etdirirlər, çünki neft hələ də onlar üçün asılılıqda olduqları bir məsələdir. ABŞ və Rusiya, eləcə də digər neftdən asılı olan ölkələr bu məsələnin tənzimlənməsi üçün müvafiq tədbirlər görürlər. Verilən məlumata görə, neft daha çox siyasətə meyilli bölgələrdə toplanmışdır. Neft yataqlarına sahib ölkələrdə son 30 ildə baş verən müharibələr və terrorlar bunu sübut edir. Üstəlik, bir çox ölkələr, xüsusilə də, Səudiyyə Ərəbistanı neft qurğularına İŞİD-in nəzarət etməsi səbəbilə bir sıra problemlərlə qarşılaşıb. Dünyada 20 böyük neft hasil edən ölkədən 7-si Yaxın Şərq regionunda və Afrikada terrorun olduğu bölgədədir. Üstəlik, OPEC-ə üzv ölkələr, neft hasilatını 60-65% həyata keçirən ölkələr də eyni təhlükələri yaşamaqdadır [3. s. 72-73].

Əslində ərəb ölkələrində terrorun geniş yayılmasınn əsas səbəbi neft amili və ya karbohidrogen ehtiyatlarının zənginliyi ilə əlaqəlidir. Çünki həmin ərazilərdə baş verən hadisələrə dini çalarlara malik terror aktı adlandırmaq bu siyasətin pərdələnməsi üçün atılan addımdır.

Terrorun növlərindən biri də sosial problemlərlə əlaqəli olan və onun əsasında formalaşan sosial terrorizmdir. Sosial çalarlara malik olan terror fəaliyyətinin əsas səbəbi cəmiyyətdə olan sosial problemlər, urbanizasiya, şəhərləşmənin yanlış istiqamətdə inkişafı, yoxsulluq, işsizlik və s. hesab edilir.

Əsas məsələ isə urbanizasiya və demoqrafik inkişafı bərabər səviyyədə ələ almaq lazımdır. Sürətli demoqrafik artım səviyyəsi, xüsusilə, gənc oğlanların artımı daha çox olması bir çox problemləri meydana çıxarır. Demoqrafik partlayış yüksək səviyyədə urbanizasiyaya səbəb olmaqla bərabər işsizliyi də yaradır. Başqa bir ifadə ilə desək, sürətli əhali artımı şəhərlərə köçü və işsizliyi artırmaqdadır. Urbanizasiya nəticəsində ortaya çıxan işsizlik və yoxsulluq yeni bir insan nüfüzunun ortaya çıxmasına səbəb olmaqla və bu da terrorist fəaliyyətinin ortaya çıxmasına səbəb olmaqdadır. Urbanizasiyanın nəticəsində yaranan bərabərsizlik, işsizlik və yoxsulluq kimi faktlar insanları cinayətə itələməkdədir, bunun qarşılığında terrorizm formalaşmaqdadır [2. s.752].

Hər bir ölkədə sosial ədalətin formalaşdırılması və düzgün inkişafı həmin ölkədə siyasi sabitliyi təmin etməyə, ictimai qaydaların, nizam-intizamın qorunmasına xidmət edir. Belə ki, insanların gəlirləri arasında fərqin böyük olması həmin cəmiyyətdə sosial narazılığı artırır və sosial partlayışı şərtləndirir. Yəni insanlar dövlətin sosial-iqtisadi siyasətindən narazı olduqları üçün ona qarşı çıxmağa başlayırlar, hakimiyyətini tanımırlar.

Beynəlxalq terrorizmin növlərindən biri ideoloji terrorizmdir. Bu formada olan terrorizm cəmiyyətə öz ideologiyalarını yeritmək, hakimiyyətə ideoloji təsir etmək üçün mübarizə aparırlar. Adətən bu terrorizm növünün iki istiqamətini fərqləndirirlər:

1. Siyasi ideologiyalar- bu ideologiya dövlətlərdə mühafizə çəpərinin yaradılması məqsədilə həyata keçirilir. Belə ki, dövlət öz ideologiyasını və ya dövlət siyasətini mühafizə etmək məqsdilə siyasi-ideoloji terrora əl atır.
2. Dini ideologiya- bu ideologiya isə dini motivli ideologiyaların yayılması üçün həyata keçirilən terrordur.

Terrorizm bir ideologiya deyil. Fəqət terrorizm spesifik, şiddətli və fərqləndirici zorakılıq fəaliyyətinı əhatə edən bir taktikadır. Bu taktika fərqli ideoloji məsələləri içində əhatə edən terrorizm tərəfindən əsaslandırılır. Terrorçular onları idarə edən ideologiyalara səmimiyyətlə inana bilirlər. Bu ideologiyalar onlara aşılanır ya da beyinləri yuyulur və hətta terrorçular fəaliyyət üçün həyatlarını qurban vermək üçün könüllü olurlar [4. s. 29].

Siyasət və terror anlayışları bir-birini tamamlayan anlayışlardır. Beynəlxalq terrorizmin əsasında siyasi maraqlar, siyasi baxışlar dayanır. Beynəlxalq terroru siyasətsiz, siyasi maraqsız təsəvvür etmək mümkün deyil. Çünki hansı ölkədə ki, terror törədilir həmin ölkə ilə bağlı beynəlxalq güclərin siyasi maraqları mövcuddur.

Ölkədəki rejimin oturuşmamış olması, hökümət təsirlərinin yetərincə olmaması, köhnə rejimin təsirlərinin mövcudluğu, hökümət güclərinin bəzi qrupların maraqları üçün istifadə olunması, mövcud siyasi partiyaların ideologiyaları arasında dərin uçurumlar, siyasi partiyalar arasında çəkişmələrin uzlaşmazlığa çevrilməsi, yaşama, cəza və təsir tədbirlərinin və dövlət orqanları arasında qüvvətli fikir ayrılığının formalaşması, hökümət ixtilaflarının xroniki hala gəlməsi, dövlət quruluşlarının dəyişilməsi, fərqliliklərin artması, iqtidarın dövrün tələblərinə özünü uyğunlaşdırmaması və dövlətin bacarıqsız, inancsız, cəsarədən uzaq və fəzilətdən yoxsul bir siyasi kadr ilə idarəedilməsi terrorizmə müraciət edilməsi asanlaşdıran səbəblər olaraq aşkar edilir [6. s. 142-143].

Siyasi terrorizm dövlətin hakimiyyəti zəif olduqda, təsir mexanizmləri yetərli səviyyədə olmadıqda meydana çıxır. Qeyd edək ki, siyasi terroru dəstəkləyənlər bir çox hallarda xarici dövlətlər olur. Çünki ölkədə mövcud hakimiyyət həmin dövlətlərin istədiklərini yerinə yetirmədikdə, tabe olmadıqda həmin şəxslərin “ cəzalandırlması” üçün siyasi terrordan istifadə edilir. Siyasi rəqiblərin aradan qaldırılması və siyasi həyatda dəstək qazanmaq üçün də siyasi terror ən əsas alət rolunu oynayır.

Ümumiyyətlə, terrorun növlərindən danışarkən bu növlərin dövlətlərdən və ya cəmiyyətlərdən asılı olaraq fərqləndiyinin şahidi oluruq. Çünki dünyada elə bir cəmiyyət yoxdur ki, orada insanların hüquqları və azadlıqlar tam təmin edilsin və ya ölkədə sosial, siyasi, iqtisadi və ya digər problemlər olmasın. Terrorçu cəmiyyəti yaxşı analiz edərək bu nöqsanları tapır və ondan məharətlə istifadə edərək insanları öz tərəfinə çəkməyi bacarır. Bir çox hallarda isə terrorun növ fərqliliyi cəmiyyətdə siyasi savadlılığın çox aşağı olması səbəbilə baş verir. Dünya ölkələrinin isə terrorla mübarizəsi bu cəmiyyətlər nəzərə alınmaqla həyata keçirilməlidir. Əfsuslar olsun ki, müasir dünya bu bəla ilə mübarizədə yanlış yolu seçib. Dövlətlər terrorla deyil, terrorçu ilə mübarizə aparırlar. Bu isə terrorun artmasına səbəb olur və sivilizasiyanı məhvə aparır.

## ƏDƏBIYYAT

1. Gregg, H.S., Defining and Distinguishing Secular and Religious Terrorism // Perspectıves On Terrorısm., 2014, №8, pp.36-51.
2. Newman, E., Exploring the “Root Causes” of Terrorism // Studies in Conflict & Terrorism., 2006, №29, pp.749-772
3. Santamaria, E.C., Consequences Of Terrorism On Oil And Tourism Industry Through Frequency And Time Frequency Domain. Navarra, 2018, 110 p.

4. Stepanova E., Terrorism in Asymmetrical Conflict Ideological and Structural Aspects SIPRI Research Report. New York: Oxford Unıversıty Press, 2008, 186 p.
5. Çınar B., The Root Causes of Terrorism // Metu Studies in Development., 2009, №36, s.93-119.
6. Türkiye Barolar Birliği., Türkiye ve Terörizm. Ankara: TBB Yayınları, 2006, s.634.

## BEYNƏLXALQ TERRORİZMİN NÖVLƏRİ

***Qasımov Zülfüqar***

## XÜLASƏ

Bu məqalədə müasir cəmiyyətləri narahat edən və insan sivilizasiyasının gələcəyini təhlükə altına alan beynəlxalq terrorizmdən bəhs edilmişdir. Eləcə də beynəlxalq terrorizmin növlərindən, onların xarakterik xüsusiyyətlərinin təhlili aparılmışdır. Terror elə bir siyasi, beynəlxalq problemdir ki, onun növlərini, növləri bir-birindən fərqləndirən əlamətləri bilmədən onunla mübarizə aparmaq heç bir müsbət nəticə verə bilməz.

## ВИДЫ МЕЖДУНАРОДНОГО ТЕРРОРИЗМА

***Гасымов Зульфугар***

## АННОТАЦИЯ

В данной статье говорится о международном терроризме, который беспокоит современные общества и угрожает будущему человеческой цивилизации. Также был проведен анализ видов международного терроризма и их характерных признаков. Терроризм является настолько политической и международной проблемой, что борьба с ним без знания его видов и отличительных признаков не может принести никаких положительных результатов.

## TYPES OF INTERNATIONAL TERRORISM

***Gasımov Zulfugar***

## SUMMARY

This article talks about international terrorism, which disturbs modern societies and threatens the future of human civilization. Also, an analysis of the types of international terrorism and their characteristic features was carried out. Terrorism is such a political and international problem that combating it without knowing its types and distinguishing features cannot bring any positive results.

# AİLƏDAXİLİ MÜNASİBƏTLƏR VƏ KONFLİKTLƏR, ONLARIN YARANMA SƏBƏBLƏRİ, FAKTORLARI VƏ TƏZAHÜRLƏRİ

***Məmmədova Nuranə Nəriman***
***BDU-nun II kurs magitrantı***
***memmedovanr9@gmail.com***

***Açar sözlər:*** ailə institutu, ailədaxili münasibətlər, ailədaxili münaqişələr, psixoloji iqlim, sosial rollar.
***Ключевые слова:*** институт семьи, внутрисемейные отношения, внутрисемейные конфликты, психологический климат, социальные роли.
***Keywords:*** institution of the family, family relations, conflicts within the family, psychological climate, social roles.

Ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir. Ailə sosiologiya baxımından evlənmək və ya qohumluq xətti ilə gələn həyat birliyidir. Sözün kökü ərəb dilindən gəlir, mənası “dayanmaqdır". Bir-birlərinə dayanan, etimad edilən insanlar üçün işlədilir.

Ailə - nikaha, qarşılıqlı sevgi və hörmət hissinə, qan qohumluğuna, ümumi sosial-mənəvi dəyərlərə, normalara malik olan və əsas olaraq yeni nəslin yaradılması funksiyasını həyata keçirən kiçik sosial qrup və ya birlikdir. Qeyd edək ki, ailə tarixin inkişaf prosesinin məhsulu olub birdən yox, tədricən meydana çıxmış sosial hadisədir. Onun bugünkü formasına düşməsi üçün min illər mövcud olmuşdur. Tədqiqatçı alimlərdən Baxofen, Morqan və Engels ilk dəfə olaraq ailənin tarixi köklərini öyrənmiş və sübut etmişlər ki, ailə olduqca dəyişkən inkişaf yolu keçmişdir. Sorokin isə ilk dəfə olaraq ailələrin böhranından danışmış və bu sahədə ciddi elmi əsərlər yazmışdır.

Son dövrlərdə cəmiyyətin ən aktual problemlərindən biri ailə münaqişələridir. Ailə həm cəmiyyəti, həm də şəxsiyyəti formalaşdıran mühüm sosial institutdur. Hər adamın öz həyat məkanı vardır, bu digər insanlarla qohum, dost, qonşularla olan münasibətlərdir. Onlardan ən yaxınları ilə münasibət artıq bilavasitə belə düzülür; "ev", "ailə". Bura insanların yaşadıqları yerdir, yalnız burada onlar özünü yaxşı hiss edir. Ancaq ailə üzvləri arasında münaqişənin olması təbii hal kimi qəbul edilir. Yəni ailənin nə qədər xoşbəxt olmasına baxmayaraq münaqişə onun mühüm tərkib hissələrindən biridir. Çünki istənilən ailədə üzvlər arasında müəyyən maraqlar, fikirlər və mülahizələr toqquşur ki, bu da öz növbəsində ailə üzvlərinin bir-birinə qarşı durmasına zəmin yaradır. Onlar arasında münaqişələrin xarakteri, təzahürləri fərqlənir. Bəzi ailələr qarşılıqlı anlaşma, sülh şəraitində yaşasalar da, bəziləri ziddiyyətlərlə , qarşısıalınmaz çətinliklərlə üzləşirlər. Müxtəlif məsələlərdə qarşılıqlı anlaşmanın, razılığın olmaması ya nigahın dağılmasına, ya evliliyin xoşbəxt olmamasına gətirib çıxarır.

Ailə həyatı ilə bağlı problemlərin araşdırılması, öyrənilməsi həm nəzəri , həm praktik baxımdan çox mühüm əhəmiyyət kəsb edir. Bugünümüzdə ailə və nigahın dayanıqsızlığı, boşanmaların sayının artması ilə bağlı yaranan çoxsaylı problemlər demək olar əksər dünya ölkələri üçün xarakterikdir. Bu problem əsasən urbanizasiya prosesi və urbanizasiyanın doğurduğu intensiv dərəcəli miqrasiya ilə izah olunur. Digər tərəfdən boşanmaların sayının artmasına qadının sosial aktivliyinin və fəallığının yüksəlməsi, öz ayaqları üzərində durma istəyi təsir edir. Müsair ailə təsisatı indi özünün daha çətin və böhranlı dövrlərindən birini yaşayır. Artıq əvvəllər ailəni möhkəmləndirən dəyərləri, tərəflərin bir-birilərinə olan münasibətləri əhəmiyyətini azaldır. Artıq qadın həyat yoldaşından iqtisadi asılı olmaq istəmir. Əxlaqi, dini, hüquqi qadağalar əvvəlki qədər təsir gücünə malik deyil. Araşdırmalar və statistika göstərir ki, ailələrdə tərəflərin qarşılıqlı münasibəti getdikcə başqa müstəviyə - gərgin durumlara gətirib

çıxarır. Tədqiqatlara nəzər salsaq, boşanmalar tərəflərin ailədaxili münaqişələrinin artması və gərginliyin güclənməsi zəminində iki tərəfin də razılığı əsasında tək yol kimi ayrılıq görünür və bu, münasibətlərin kəskin pozulmasına gətirib çıxarır.

Müasir dövrə boşanmaların sayı getdikcə daha da artır. Bu proses xüsusilə gənc ailələrdə daha çox baş verir. Bəs bunun əsas səbəbləri nədir? Nə üçün yeni ailə quran gənclər qısa zamanda yollarını ayırmaq qərarına gəlir? Konfliktləri doğuran səbəblər nələrdir? Bunu iki hissəyə bölmək olar. Birincisi cütlüklərin ailə qurana qədər mövcud olan problemləridir. Məsələn, tərəflərin arasında yaş fərqinin, bilik-savad fərqinin mövcudluğu. Son zamanlarda erkən nikahların artdığı müşahidə olunur. Xüsusilə şəhərdən kənarda – rayonlarda ailələr qızlarını 16 yaşında evləndirir, onların təhsil almasının qarşısını alır. Bu, keçmişdən qalan "qız uşağı oxumaz, yaşı gəldi, qızı evləndir" kimi fikirlərin təzahürüdür. 16 yaşlı birinin 26, 36, 46 və s. Yaşlarında biri ilə ailə həyatı qurması kökündən yanlış atılmış addımdır. Çünki yaş fərqi insanların düşüncə tərzində, ailəyə yanaşmasında müəyyən fikir ayrılıqlarına gətirib çıxarır. Bu isə öz növbəsində gələcəkdə ailədaxili konfliktlərin artmasına səbəb olur.

Digər problemlər qrupu isə ailə qurandan sonra yarananlardır. Tərəflər evlənənə qədər bir-birilərini yaxından tanımır. Bu, daha çox valideynlərin istəyi ilə baş tutan evliliklərdə müşahidə edilir. Qadın kişinin və ya kişi qadının nələrinisə bəyənmir, onun davranışlarını həzm edə bilmir. Və yaxud da ailə qurmazdan əvvəl münasibətlər daha isti olur, evlilikdən sonra bir evdə yaşayan cütlüklər qısa zamanda bir-birilərindən sıxılır və artıq dözə bilmirlər. Bu isə münasibətin sevgi, hörmət üzərində qurulmamasının gətirib çıxardığı problemlərdəndir. Ümumilikdə ailədaxili konfliktlərin əsas səbəbini bir neçə qrupa ayırmaq məqsədə uyğundur.

İlk növbədə ailədaxili maddi-məişət problemləri gəlir. Bu, bir evdə yaşayan tərəflərin qısa müddət sonra yaşayış tərzlərində yaranan çətinliklər, maddi problemlərdir. Daha çox qadınlar həyat yoldaşlarının ailəni düzgün idarə edə bilməməsi, maddi durumun zəifliyi, tələblərin yerinə yetirilməməsi zəminində yaranır. Artıq problemlərin davamlılığı tərəfləri yormağa başlayır və tək yol kimi ayrılıq görünür.

Digər bir amil isə tərəflər arasındakı şəxsi münaqişədir. Tərəflərdən birinin qısqanclığı və ya laqeyd olması, kobudluq, bir-birinə şübhəli yanaşma şəxsi münaqişlərə səbəb olur. Xüsusilə kişilərin qadınlara kobud davranması son illərdə bütün dünyada böyük problemlər yaradır. Qadınların şiddətə məruz qalması ciddi narazılıqlar yaradır. Artıq Azərbaycanda da son zamanlarda kişilərin qısqanclıq və ya başqa bir məsələ üzündən qadınları öldürməsi, onlara qarşı kobud davranması xəbərlərinə tez-tez rast gəlirik.

Boşanmaya ən çox səbəb olan isə xəyanət məsələsidir. Qadının və ya kişinin bir müddət sonra münasibətdən sıxılması və özünə yeni bir həyəcan axtarması xəyanətə gətirib çıxarır. Eyni zamanda, qarşı tərəfdən istədiyi münasibəti görməyən, yoldaşı tərəfindən hörmətsizliyə, soyuq münasibətə məruz qalan qadın artıq xəyanətə əl atır. Bu, kişilər üçün də aşağı-yuxarı eynidir.

Tədqiqatçılar gənc ailədə xəyanətin laqeydlik, inciklik və peşmançılıq hissini qüvvətləndirdiyini xüsusi vurğulayırlar. Istər qadının, istərsə də kişinin xəyanəti ailədə dərin böhrana, qarşılıqlı inam hissinin itməsinə, ailənin dağılmaq təhlükəsi ilə üz-üzə qalmasına səbəb olur.

Hər bir ailədə konfliktlərin olması normaldır. Elə bir ailə olmaz ki, orada valideynlər arasında və ya valideyn ilə övlad arasında anlaşılmazlıq yaranmasın. Bu, təbii haldır. Əsas olan isə konfliktlərin müsbət mənada həll edilməsidir. Mübahisələrin tez həll edilməsi ailədaxili əlaqələrin sağlamlığından asılıdır. Tərəflərin bir-birini başa düşüb, hörmətlə yanaşması onlar arasında baş verən kiçik konfliktlərin qısa zamanda çözülməsinə səbəb olacaq. Yox, belə deyil və artıq tərəflər arasında kimin daha haqlı olması, kimin daha çox təsirə malik olması iddiası sonluqlar mənfi təsirini göstərəcək. Məsələn, mübahisə yaranıbsa, ilk növbədə bunun səbəbi öyrənilməli, qadın və kişinin bir-birini əvvəlcə dinləməsi əsasdır. Tez mühakimə etmək və "mən

haqlıyam" deyib, inadlaşmaq müsbət bir nəticəyə gətirməyəcək. Ailələrdə valideynlər arasında yaşanan gərginliklər uşaqlara da təsirsiz ötüşmür. Belə bir deyim var, övlad ailənin güzgüsüdür. Tarixə nəzərə salsaq, qəddar hökmdarlar hər biri erkən yaşlarında şiddətə məruz qalanlardır. Övlad evdəki konflikti görür və artıq beyninə həkk edilir. Kişinin qadına hansı tərzdə davranması, kobudluğuna öyrəşir və bunu normal hal kimi qəbul edir. Gələcəyin atası olacaq bu övlad da artıq həyat yoldaşına qarşı sərt davranacaq, valideynindən gördüyünü öz ailəsinə də tətbiq edəcək. Bu isə getdikcə qarşısıalınmaz bir prosesə çevriləcək. Burada uşağın böyük bir günahı yoxdur. O, özünü dərk edənə qədər şiddətin nə olduğunu anlamır. Lakin evində gördükləri ona "belə olmalıdır" kimi gəlir.

Konfliktlərin tez həll edilməsi üçün ilk növbədə tam əmin olmamış fikir yürütməmək əsasdır. Bununla yanaşı, tərəflər bir-birini dinləməli, mübahisənin real səbəbi araşdırılıb, öyrənilməlidir. Kimin haqlı olması yox, qadın və kişinin ortaq məxrəcə gəlməsi önəmlidir.

Boşanmaların artması və ailələrin dağılmasında hər iki tərəfin müəyyən dərəcədə günahı olur. Ölkəmizdə belə bir fikir yaranıb ki, boşanmanın günahı kişidədirsə, deməli o, spirtli içki içir, ailəsinə baxmır və maddi durumu aşağıdır. Bu, artıq demək olar hər boşanma mövzusunda ən çox yürüdülən fikirdir. Və yaxud da günah qadındadırsa, deməli o, övladlarına yaxşı baxmır, yoldaşına isti münasibət göstərmir və maddi durumdan narazı deyil, özünə daha yaxşı həyat axtarır. Bu kimi fikirlərin tez-tez yürüdülməsi artıq bu məsələdə psixoloji vəziyyəti gərginləşdirir. Bunlara baxmayaraq, statistikaya nəzər salsaq, görərik ki, boşanmaların 10 faizindən çoxu zorakılıqla bağlıdır. Şiddət hallarının artması da ölkəmizdə "qadına şiddətə son" adı ilə müxtəlif aksiyaların keçirilməsinə səbəb olub. Son olaraq Abşeronda 26 yaşlı kişi 16 yaşlı nişanlısının başını kəsərək öldürdü. Səbəb? Xəyanət! Oğlanın adaxlısından şübhələnməsi və onu ölümlə cəzalandırması. Burada artıq həm ailəquranadək problemlər, xəyanət, şiddət kimi problemlər əksini tapıb.

Ailə kişi ilə qadının ittifaqından başlasa da, onun əsasını, məzmununu övladlar və onların tərbiyəsi təşkil edir. Bir-birini sevən iki adamın qovuşması böyük xoşbəxtlikdir, lakin bu hələ tam ailə deyil. Tam ailə övladlar meydana gələndən sonra başlayır. Uşaqlar doğulduqdan sonra ər –arvad münasibətləri dəyişir, yeni keyfiyyət kəsb etməyə başlayır. Özlərini mənəvi, psixoloji və fiziki cəhətdən valideyn olmağa hazırlayan ər-arvad uşaq meydana gələndə çaşbaş olmur, bir sıra çətinlikləri səbirlə dəf edə bilirlər.

Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından biridir, valideynlərin isə həm mühüm, həm də müqəddəs vəzifələrindəndir. Ailədə, evdə yaşananlar həqiqətən uşağın inkişafına və onun psixi sağlamlığına uzun müddətli təsir göstərir. Və burada vacib olan yalnız uşaqla valideyn arasındakı qarşılıqlı münasibət deyil. Valideynlərin bir-birilə necə ünsiyyət qurması həmçinin uşağın həyatında əhəmiyyətli rol oynayır və onun həyatının bütün sahələrinə - psixi sağlamlığından tutmuş dərslərindəki uğurlara və gələcəkdə münasibətlərin qurulmasına da təsir göstərə bilər. Evdəki münaqişələr uşağa təsir göstərməyə də bilər. Lakin əgər vadileynlər tez-tez qışqırırlarsa, bir-birinə əsəbləşib, bir-birindən uzaqlaşırlarsa və danışmırlarsa o zaman uşağın problemləri yarana bilər. İngilis və Amerikalı elm adamlarının apardıqları tədqiqatlara görə konkliktli ailədə böyüyən uşaqların zəkası normal şəraitdə, normal ailədə böyüyən uşaqların zəka səviyyəsindən 8 bal aşağı olur. Mütəxəsislər zəka səviyyəsindəki 8 ballıq fərqin bir uşağın yaşıdlarından boyca 6 santimetr qısa olmasına gətirib çıxardığını bildirmişlər. Tədqiqatçılar konfiliktli ailədə böyüyən uşaqlarda stressin artdığını, bunun da beynin inkişafına mənfi təsir etdiyini qeyd etmişlər.

Böyük Britaniyada və digər ökələrdə uzun illər ərzində ailədə və inkişaf dövründə uşaqların davranışlarının uzunmüddətli müşahidələrinə əsaslanan tədqiqatlar onu göstərir ki, artıq 6 aylıq körpədə evdəki münaqişəli vəziyyət nəticəsində ürək döyüntüsü arta və kortizol stress hormonu inkişaf edə bilər.

Artıq məlumdur ki, uşaqlara ən böyük zərəri ailədaxili zorakılıq vurur. Lakin indi alimlər belə qənaətə gəliblər ki, uşaqlara zərər dəyməsi üçün valideynlərin hətta bir-birinin ünvanına aqressiya və hirs nümayiş etdirməsi zəruri deyil. Uşaqların mənəvi, davranış və sosial inkişafı valideynlər özlərinə qapanan zaman və bir-birinə daha az isti münasibət göstərən zaman daha da zəifləyir. Lakin bu heç də hamısı deyil. Valideynlər arasındakı pis münasibət təkcə uşaqlara öz təsirini göstərmir, həm də tədqiqatların göstərdiyi kimi mənfi təcrübə digər nəsillərə də ötürülə bilər. Alimlər qeyd edirlər ki, əgər uşaqlarımızın və gələcək nəslin normal, xoşbəxt həyatı olmasını istəyiriksə bu sikli kəsmək vacibdir.

## ƏDƏBİYYAT


1. Cəmilə Çiçək, Ailə dəyərlərini simvollaşdıran kultlar, Bakı: 2018- 46s.
2. Family and Family Life in Modern Azerbaijani Village, Baku: 2011- 137s.
3. Habil Qurbanov, Cəmiyyət və sosio-hüquqi problemlər , Bakı: 2018- 263s.
4. https://www.bbc.com/azeri/international-43689178
5. Sabir Gəncəli , Ailə: ensiklopedik toplu: Nəsillər, ailələr, talelər- Bakı: 2011-[78-79s.]


# AİLƏDAXİLİ MÜNASİBƏTLƏR VƏ KONFLİKTLƏR,ONLARIN YARANMA SƏBƏBLƏRİ, FAKTORLARI VƏ TƏZAHÜRLƏRİ

***Məmmədova Nuranə***

## XÜLASƏ

Ailə institutu cəmiyyət həyatının mühüm və ayrılmaz tərkib hissəsidir. Ailədə meydana gələn hər növ problemlər, konfliktlər cəmiyyət həyatına öz mənfi təsirini göstərir. Günümüzdə aktual olaraq boşanmaların, ailə , qısqanclıq zəminində baş verən bədbəxt hadisələrin şahidi oluruq. Bunların əsasında məhz münasibətlərin sağlam qurulmaması, bir-birini anlamama, maraqların, fikirlərin toqquşması, tərəflər arasında razılığın olmaması məsələləri durur. Bu da öz növbəsində ailələrin dağılması, konfliktlərin baş verməsi, həm tərəflər arasında , həm də uşaqlarda mənəvi-psixoloji travmaların yaranmasına gətirib çıxarır. Belə mənfi nəticələrlə qarşılaşmamaq üçün həmin münaqişələrin vaxtında düzgün təhlil edilməsi, onları doğuran səbəb və nəticələrin dəqiq müəyyənləşdirilməsi və aradan qaldırılması üçün üsul və vasitələrin tapılması vacibdir. Düzgün, sağlam ailə münasibətlərinin qurulması parlaq gələcəyimizin xəbərçisidir.

# МЕЖСЕМЕЙНЫЕ ОТНОШЕНИЯ И КОНФЛИКТЫ, ИХ ПРИЧИНЫ, ФАКТОРЫ И ПРОЯВЛЕНИЯ

***Мамедова Нурана***

## АННОТАЦИЯ

Институт семьи является важной и неотъемлемой частью жизни общества. Всевозможные проблемы и конфликты, возникающие в семье, негативно сказываются на жизни общества. В наше время мы наблюдаем разводы, семьи и несчастные случаи, которые происходят на почве ревности. В основе их как раз и лежат вопросы неустановления здоровых отношений, непонимания друг друга, конфликта интересов,

мнений, отсутствия согласия между сторонами. Это, в свою очередь, приводит к распаду семей, возникновению конфликтов, созданию душевных и психологических травм как между сторонами, так и между детьми. Во избежание таких негативных последствий важно своевременно анализировать эти конфликты, точно выявлять причины и последствия, которые их вызывают, и находить пути и средства их устранения. Установление правильных, здоровых семейных отношений – это предвестник нашего светлого будущего.

## INTERFAMILY RELATIONS AND CONFLICTS, THEIR CAUSES, FACTORS AND MANIFESTATIONS

***Memmedova Nurana***

### SUMMARY

The institution of the family is an important and integral part of the life of society. All kinds of problems and conflicts that occur in the family have a negative impact on the life of the society. Nowadays, we witness divorces and unfortunate events that happen in the family because of jealousy. At the basis of these are precisely the issues of not establishing healthy relations, misunderstanding each other, conflict of interests, opinions, and lack of agreement between the parties. This, in turn, leads to the disintegration of families, the occurrence of conflicts, and the creation of spiritual and psychological traumas both between the parties and children. In order to avoid such negative consequences, it is important to analyze these conflicts in a timely manner, to accurately identify the causes and consequences that cause them, and to find ways and means to eliminate them. Establishing proper, healthy family relationships is the harbinger of our bright future.

# ПРОБЛЕМА САМОРЕАЛИЗАЦИИ ЖЕНЩИН ПРЕДПРИНИМАТЕЛЕЙ

***Гурбанова Айтен Рамиз,***
***доцент Исмаилова С.А.***
***кафедра социологии БГУ***
***ayten.rg@gmail.com***

***Ключевые слова***: женщина, предпринимательство, предприниматель, гендерная дискриминация.
***Açar sözlər***: qadın, sahibkarlıq, sahibkar, gender ayrı-seçkiliyi
***Key words***: woman, entrepreneurship, entrepreneur, gender discrimination

На сегодняшний день в мире уделяется особое внимание предпринимательству.

Изучение предпринимательства впервые нашло себя в работе ирландско-французского экономиста Ричарда Кантильона (XVII-XVIII вв.), которая была основополагающей для классической экономики. Кантильон впервые определил этот термин в своём эссе «Природа торговли в целом» (Essai sur la Nature du Commerce en Général). Кантильон определил термин как лицо, которое платит определённую цену за продукт и перепродаёт его по неопределённой цене, «принимая решения о получении и использовании ресурсов, в то же время признавая риск предприятия» [2].

Большой вклад в исследование предпринимательства принадлежит известному исследователю А. Смиту(XVII-XIX вв.). По его определения предприниматель это есть собственник капитала, который ради реализации коммерческой идеи и получения прибыли идет на экономический риск. А. Смит утверждал, что либеральный подход к предпринимательству со стороны государства самый лучший – ни во что не вмешиваться и дать полную свободу «невидимой руке рынка»[1, 2с].

На сегодняшний день о желании начать свою предпринимательскую деятельность сообщают в мире по статистике каждый четвертый мужчина и каждая пятая женщина в мире. Страны с низким и средним уровнем дохода продемонстрировали самый высокий уровень предпринимательских намерений и деловой активности и были ближе к гендерному паритету, чем страны с высоким уровнем дохода.

Желание начать свой бизнес является одной из главных тенденций в мире. Основной мотивацией и для женщин и для мужчин является следующее: нехватка рабочего места и низкооплачиваемая работа.

Количество индивидуальных предпринимателей, действующих в Азербайджане, на момент января 2022 года составляло 1 168 921 человек. Из них 250 231 женщины и 918 690 мужчины. Женщины лидируют только в сфере образовательного предпринимательства. Основные же сферы предпринимательской занятости женщин охватывают сельское хозяйство, лесное хозяйство, рыболовство и торговлю.[5]

При углублённом изучении возможностей открытия и развития бизнеса с позиции мужчины и женщины, мы можем прийти к выводу, что во многих аспектах перед женщинами стоит больше преград на пути к предпринимательству.

В Азербайджанском обществе большая часть семейных обязанностей закреплена за женщиной. Уход за детьми может стать одной из причин, почему женщины не могут сфокусироваться на предпринимательской деятельности. Процесс создания и ведения бизнеса требует значительного количества времени, что может конфликтовать с семейными обязательствами. Необходим баланс жизни и работы. Этот вопрос может быть

решен путем обсуждения и деления семейных обязанностей с партнером. В случае, матерей одиночек важна поддержка государства с предоставлением услуг детских садов.

Другой преградой на пути женщин к предпринимательству является барьер финансирования капитала. Любому бизнесу важен первоначальный капитал. Источниками чаще всего служат сбережения и банковские кредиты. Также женщины могут получить капитал от государственных программ, самофинансирования и венчурных капиталистов. Перспективная бизнес идея, может облегчить процесс получения стартового капитала и помочь преодолеть финансовый барьер.

Женщины-предприниматели сталкиваются с трудностями, потому что они с меньшей вероятностью будут иметь связи, которые могут помочь им в запуске и поддержании бизнеса. «Связи» включают людей, которые обеспечивают наставничество, помощь и ценную информацию для предпринимателей. Мужчины, как правило, доминируют на самых высоких уровнях корпоративного руководства. Таким образом, меньше женщин могут дать ценный совет женщинам-предпринимателям. Женщины также сталкиваются с дискриминацией, которая возникает, когда клиенты дискриминируют фирмы, принадлежащие женщинам. Это связано с существующими в обществе предубеждениями об их профессиональных способностях.

Предпринимательство является одной из основных движущих сил экономического роста и развития в мире. Было проведено большое количество исследований по этой теме. Однако во многих случаях расследование носит общий характер, без учета гендерных аспектов. Женщины сталкиваются с другими проблемами и препятствиями по сравнению с мужчинами; следовательно, конкретные гендерные исследования в области предпринимательства могут помочь в развитии и совершенствовании женского предпринимательства. Поскольку в одних и тех же случаях результаты исследований могут быть прямо или косвенно использованы для улучшения или внесения поправок в политику управления, в некоторых случаях может оказаться полезным наличие большего количества доступных данных о воздействии.

## ЛИТЕРАТУРА

1. Гулин, К. А. Основы предпринимательства: учебное пособие / К. А. Гулин, А. Е. Кремин. – Вологда : ИСЭРТ РАН, 2017. – 106 с. http://library.vscc.ac.ru/Files/books/1501829171gulinkremin3.pdf
https://studmir.com/predprinimatelstvo-soderzhanie-ponyatiya-osnovnye-funkczii-i-vidy/

2. Richard Cantillon : pioneer of economic theory. — London: Routledge, 1992. 210 pages
https://www.worldcat.org/title/24628306

3. Enterprising Women in Transition Economies / Edited by F.Welter, D.Smallbone and N.Isakova //Ashgate, England, 2006. – 240 c.

4. Лапуста, М. Г. Предпринимательство : учебник / М. Г. Лапуста. – Изд. испр. – Москва : ИНФРА-М, 2020. – 384 с.

5. “Azərbaycanda qadınlar və kişilər” adlı statistik məcmuə, 2022 - https://www.stat.gov.az/source/gender/?lang=en

# ПРОБЛЕМА САМОРЕАЛИЗАЦИИ ЖЕНЩИН ПРЕДПРИНИМАТЕЛЕЙ

***Гурбанова Айтен***

**АННОТАЦИЯ**

Предпринимательство на сегодняшний день играет ключевую роль в обществе и относится к концепции развития и управления деловым предприятием с целью получения прибыли, принимая на себя риски. Предприниматели ищут перемены, реагируют на них и используют их как возможность.

В данной статье дается определение понятию предпринимательства, рассматриваются теоретические подходы ученых, изучавших данное понятия.

В целях изучения наиболее актуальных проблем женщин предпринимателей в Азербайджане рассматривается перечень преград на пути к успешному развитию, с учетом статистики количества частных предпринимателей в разбивке по полу и видам деятельности.

## QADIN SAHİBKARLARIN ÖZÜNÜ REALLAŞDIRMA PROBLEMİ

***Qurbanova Aytən***

**XÜLASƏ**

Sahibkarlıq bu gün cəmiyyətdə əsas rol oynayır və risk götürərkən mənfəət üçün biznes müəssisəsinin inkişafı və idarə edilməsi konsepsiyasına istinad edir. Sahibkarlar dəyişiklik axtarır, ona reaksiya verir və fürsət kimi istifadə edirlər.

Bu məqalədə sahibkarlıq anlayışı müəyyən edilir, bu anlayışı tədqiq etmiş alimlərin nəzəri yanaşmaları araşdırılır.

Azərbaycanda qadın sahibkarların ən aktual problemlərinin öyrənilməsi məqsədilə cins və fəaliyyət növləri üzrə fərdi sahibkarların sayına dair statistik məlumatlar nəzərə alınmaqla uğurlu inkişafa maneələrin siyahısı nəzərdən keçirilir.

## THE PROBLEM OF SELF-REALIZATION OF WOMEN ENTREPRENEURS

***Gurbanova Aytan***

**SUMMARY**

Entrepreneurship today plays a key role in society and refers to the concept of developing and managing a business enterprise for profit while taking risks. Entrepreneurs look for change, respond to it, and seize it as an opportunity.

This article defines the concept of entrepreneurship, examines the theoretical approaches of scientists who have studied this concept.

In order to study the most topical problems of women entrepreneurs in Azerbaijan, a list of barriers to successful development is being considered, taking into account the statistics on the number of private entrepreneurs by gender and type of activity.

# МЕЖДУНАРОДНЫЙ ТЕРРОРИЗМ КАК ГЛОБАЛЬНАЯ ПРОБЛЕМА СОВРЕМЕННОСТИ

***Фахраддин Фидан Натиг***
***магистрант II курса БГУ***
***fakhraddinfidan@gmail.com***

***Ключевые слова:*** глобализация, виды терроризма, международный терроризм.
***Açar sözlər:*** в статье рассматривается понятие и сущность международного терроризма, история, разновидности, причины возникновения и борьбы с ним.
***Keywords:*** globalization, types of terrorism, international terrorism.

Актуальность темы обусловлена тем, что международный терроризм в последнее десятилетие превратился в одну из глобальных проблем современности, дестабилизирующих обстановку в мире. К началу XXI века более чем в 70 государствах насчитывалось около тысячи групп и организаций, использующих в своей деятельности методы террора. Терроризм и экстремизм все больше угрожают безопасности стран и их граждан, влекут за собой значительные политические, экономические и моральные последствия, оказывают сильное психологическое воздействие на население, уносят жизни многих людей.

Эксперт по вопросам национальной безопасности Кямиль Салимов рассказал о борьбе Азербайджана с терроризмом.

Госдепартамент США в своем ежегодном отчете зафиксировал активное участие правительства Азербайджана в борьбе с терроризмом. В частности, в 2018 году в стране не случилось ни одного теракта. Созданию такой положительной ситуации поспособствовали местные правоохранители и службы безопасности. Они своевременно пресекали подобные преступления и привлекали подозреваемых. Параллельно активно велась борьба с лицами, финансирующими террористические группы и участвующими в боевых действиях за пределами Азербайджана. Однако, несмотря на все эти плюсы, есть проблема, решить которую пока Азербайджану не удается. Во многом потому, что некоторые представители международного сообщества, вместо того чтобы помочь с решением, пытаются ее замолчать.

Эту проблему обозначил заведующий кафедрой криминалистики и судебной экспертизы Бакинского государственного университета, эксперт по вопросам национальной безопасности, профессор Кямиль Салимов: «Сейчас для нас очень важно решить вопрос неконтролируемых территорий, который некоторые представители международного сообщества пытаются обойти стороной», - заметил он, напомнив, что в настоящее время азербайджанская сторона не может контролировать территории Нагорного Карабаха, в особенности ту часть, что прилегает к границе с Ираном.». В остальном же, по словам Салимова, Азербайджаном делается все возможное в борьбе с терроризмом. Его профилактика, укрепление границ, сотрудничество правоохранительных органов и спецслужб как между собой, так и с иностранными коллегами – все осуществляется на высоком уровне.

«И теперь проделанную нами работу отмечают и в США», - подчеркнул он.

Эксперт также указал, что за последние годы службами безопасности Азербайджана выявлены 900 граждан страны, вступивших в ряды запрещенной радикальной террористической организации "Исламское государство" (ИГ): более ста из них после возвращения домой осуждены за участие в незаконных вооруженных формированиях.

Это свидетельствует о том, что несмотря на попытку религиозного экстремизма распространиться в Азербайджане, азербайджанские спецслужбы и правоохранители его успешно контролируют [1].

Понятие «международный терроризм» возникло в 1970-х гг. Термин «государственный терроризм», изредка появлявшийся в ходе обсуждения, в частности, в ООН проблемы международного терроризма, был закреплен к середине 1980-х гг., особенно после принятия на 34-й сессии Генеральной Ассамблеи ООН резолюции «О недопустимости политики государственного терроризма и любых действий государства, направленных на подрыв общественно-политического строя в других суверенных государствах». Резолюция о политике государственного терроризма содействовала и содействует в известной степени предотвращению и ликвидации международных конфликтов, укреплению морально-политических заслонов на пути агрессии и войны.

В «Трактате по международному уголовному праву», под редакцией американских профессоров М. Бассиони и В. Нанди, говорится, что терроризм является международным преступлением, которое угрожает человеческому спокойствию и безопасности, оскорбляет всеобщую совесть и наносит ущерб человеческому достоинству.

По мнению Дж. Дугарда (ЮАР), международный терроризм - это насильственные акты, имеющие целью вызвать политические изменения, которые подрывают международные отношения и которые международное сообщество рассматривает как несовместимые с желаемыми нормами поведения. Дж. Дугард обращает внимание на террористические акты, направленные на подрыв международной политической системы, связей и противоречащие нормам международной морали и права. Профессор С. Агравала (Индия) считает, что наиболее удачным можно считать смешанное определение понятия «международный терроризм», включающее общую дефиницию и основные элементы преступления. По его мнению, необходимые элементы преступления международного терроризма - это угроза насилием или применение насилия, создающие условия опасности для невинных людей или населения в целом, и международный характер преступления. Ричард Клаттербак (Великобритания) идет по пути поиска конкретных террористических актов - захват заложников, угон самолетов, вымогательства, связанные с актами терроризма и международного терроризма.

ЦРУ США рассматривает международный терроризм как терроризм, осуществляемый при поддержке со стороны иностранного правительства или организации и/или направленный против иностранных граждан, организаций или правительства. В официальном документе конгресса США «Акт о борьбе с международном терроризмом» 1977 г. указывается, что акт международного терроризма нацелен на причинение ущерба или угрозы интересам либо направлен на получение уступок со стороны государства или международной организации.

Д.Б. Левин характеризовал международный терроризм как «убийство дипломатических представителей и вообще политических деятелей иностранных государств в целях усиления международной напряженности и раздувания политических и военных конфликтов».

К настоящему времени не существует общепринятого понятия международного терроризма, хотя учеными, специалистами, международными, региональными и правительственными организациями было предложено более ста вариантов дефиниции.

Сущность терроризма заключается в насилии с целью устрашения. Поэтому он выступает одним из наиболее жёстких вызовов современности и представляет опасность для выживания человечества. Выделяют несколько целей международного терроризма: революция, дестабилизация общества, политические уступки со стороны власти,

обретение независимости некоторой территорией, падение престижа власти, развязывание войны с иностранным государством.

Важная особенность международного терроризма — высокая степень его организованности. Сегодня на международном уровне действуют достаточно массовые и технически оснащённые террористические организации. Они представляют собой, по существу, международное террористическое движение [2].

Понятия терроризм и террорист появились сравнительно недавно. В дополнении к Словарю Французской академии 1798 года терроризм определяется как systeme, regime de la terreur. Согласно одному французскому словарю, вышедшему двумя годами ранее, якобинцы часто употребляли это понятие устно и письменно по отношению к себе — и всегда с положительным оттенком. Однако после 9-го термидора слово террорист стало носить уже оскорбительный смысл, превратившись в синоним преступника. Вскоре это понятие достигло берегов Британии. Достаточно вспомнить знаменитые слова Эдмунда Берка, написанные им в 1795 году, где он упоминал тысячи псов ада, именующихся террористами, которых натравили на французов. Слово терроризм в те времена применялось к периоду Французской революции между мартом 1793 и июлем 1794 года и означало правление ужаса. Впоследствии термин получил более расширенное толкование и стал означать всякую систему правления, основанную на страхе.

Систематические террористические акции начинаются во второй половине XIX столетия. С самого начала это течение разделилось на несколько вполне отчетливых рукавов. Так, в России революционеры вели борьбу с самодержавием в 1878-1881 годах, равно как и в самом начале XX столетия. Радикальные националистические группировки: армяне, ирландцы, македонцы, сербы пользовались террористическими методами в борьбе за национальную автономию или независимость. Затем, в 90-е годы прошлого столетия, анархисты повели пропаганду делом во Франции, Италии, Испании и Соединенных Штатах. Отдельные политические убийства в Италии и Франции вызывали большой общественный резонанс, хотя и не являлись частью какой-то общей стратегии. Что касается терроризма в Испании и Соединенных Штатах, то он обладал своей спецификой, поскольку пользовался поддержкой определенных групп населения.

Проблема международного терроризма связана с основными сферами жизнедеятельности мирового сообщества и отдельных стран: политикой, национальными отношениями, религией, экологией, преступными сообществами и т. д. Это нашло отражение в существовании различных видов международного терроризма. Члены групп, осуществляющих *политический* террор, ставят своей задачей достижение политических, социальных или экономических изменений внутри того или иного государства, а также подрыв межгосударственных отношений. *Националистический* терроризм преследует цели решения национального вопроса, который в последнее время приобретает всё больше характер сепаратизма в полиэтнических государствах. *Религиозный* вид терроризма обусловлен попытками вооружённых группировок, исповедующих ту или иную религию, вести борьбу против государства, где господствует иная религия или её направление. *Криминальный* терроризм формируется на основе какого-либо преступного бизнеса (наркобизнес, незаконный оборот оружия, контрабанда и т. п.) с целью создания хаоса и напряжённости — условий, в которых наиболее вероятно получение сверхприбылей. *Экологический* терроризм реализуют группировки, выступающие с помощью насильственных методов против научно-технического прогресса, загрязнения окружающей среды, убийства животных и строительства ядерных объектов. В последнее время в мире получил развитие такой новый вид терроризма, как *кибертерроризм* (электронный, компьютерный терроризм). Под ним понимают преднамеренную

мотивированную атаку на информацию, обрабатываемую компьютером, компьютерную систему или сети. Кибертеррористы под видом программ защиты распространяют вирусы, получая контроль над компьютерами полиции, больниц, аэропортов. Используя информацию в этих системах, они сбивают с курса самолёты, изменяют истории болезни пациентов, убивая таким образом людей.

К основным же причинам терроризма можно отнести:

обострение противоречий в политической, экономической, социальной, идеологической, этно-национальной и правовой сферах;

нежелание отдельных лиц, групп и организаций пользоваться принятой для большинства общества системой уклада жизни и стремление в получении преимуществ путем насилия;

использование террористических методов отдельными лицами, организациями, государствами для достижения политических, экономических и социальных целей.

В условиях постоянно нарастающей опасности, связанной с активизацией деятельности всевозможных экстремистских, неофашистских, религиозно-фанатических и националистических организаций, угрожающих миру и стабильности, международное сообщество обязано исходить из необходимости того, что борьба против этой угрозы является как бы живым организмом, который призван совершенствоваться и быть адекватным существующим и прогнозируемым вызовам и рискам. Если в вопросах борьбы с терроризмом будет доминировать так называемый принцип разных подходов, учитывающий конкретные геополитические приоритеты, тогда ситуация может выходить из-под контроля и в таком случае не исключена возможность наступления момента, когда дадут о себе знать серьезные кризисные явления в международных делах. В этом случае исправить положение будет чрезвычайно сложно.

Безусловно в борьбе против современного терроризма необходимы меры системного характера, которые, с одной стороны, препятствовали бы незаконному обороту оружия и наркотиков, а, с другой – выработали бы эффективный механизм по блокированию всевозможных источников финансирования террористических операций и др. Без всего этого любые меры против терроризма и его сегментов не могут быть успешными с точки зрения обеспечения всеобщего мира и стабильности [3].

## ЛИТЕРАТУРА

1. Калиничев, В.В. Права и свободы гражданина в условиях борьбы с терроризмом / В. В. Калиничев // Власть. - 2008. - № 2. - С. 56-59.
2. Грачев, С.И. Соединенные Штаты Америки и международный терроризм / С.И. Грачев, А.А. Корнилов, О.А. Колобов. – Н. Новгород: ИСИ ННГУ, 1998
3. Held D., McGrew A., Goldblatt D., Perraton J. Global Transformations. Politics, Economics and Culture. Oxford, 2000

# МЕЖДУНАРОДНЫЙ ТЕРРОРИЗМ КАК ГЛОБАЛЬНАЯ ПРОБЛЕМА СОВРЕМЕННОСТИ

***Фахраддин Фидан***

## АННОТАЦИЯ

В статье раскрывается понятие и сущность международного терроризма. В настоящее время проблема борьбы с международным терроризмом является исключительно актуальной. В статье дан анализ наиболее значимых подходов к определению данного явления. Значительное место

отводится рассмотрению истории международного терроризма, его разновидностей, причины возникновения и борьбы с ним.

## BEYNƏLXALQ TERRORİZM MÜASİRLİYİN QLOBAL PROBLEMİ KİMİ

***Fəxrəddin Fidan***

## XÜLASƏ

Məqalədə beynəlxalq terrorizmin anlayışı və mahiyyəti açıqlanır. Hazırda beynəlxalq terrorizmlə mübarizə problemi son dərəcə aktualdır. Məqalədə bu fenomenin tərifinə ən əhəmiyyətli yanaşmaların təhlili verilir. Beynəlxalq terrorizmin tarixi, onun növləri, baş vermə səbəbləri və ona qarşı mübarizənin araşdırılmasına mühüm yer verilir.

## INTERNATIONAL TERRORISM AS A GLOBAL PROBLEM OF MODERNITY

***Fakhraddin Fidan***

## SUMMARY

The article reveals the concept and essence of international terrorism. At present, the problem of combating international terrorism is extremely urgent. The article provides an analysis of the most significant approaches to the definition of this phenomenon. A significant place is given to consideration of the history of international terrorism, its varieties, the causes of its occurrence and the fight against it.

# DÜNYA SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ İNTERNET VƏ DİGƏR İNFORMASİYA TEXNOLOGİYALARININ TƏSİRİ

***Bayramova Aytən Altay***
***BDU-nun II kurs magistrantı***
***aytenbayramova83@gmail.com***

***Açar sözlər:*** internet, xarici siyasət, informasiya, beynəlxalq münasibətlər
***Ключевые слова:*** интернет, внешняя политика, информация, международные отношения
***Key words:*** internet, foreign policy, information, international relations

Məlumdur ki, bəşəriyyəti informasiya cəmiyyətinə aparan yol təməl sivilizasiya tarixindəki informasiya inqilabları yolundadır. Əsrlərin nəzarətindən çıxmağa və mövcud vəziyyəti təsəvvür etməyə çalışsaq, bu gün fərqli bir vəziyyətin olduğunu görərik. Daha dəqiq deyilsə, daxili və xarici siyasət arasındakı aydın sərhədlər yox olacaq. Tarixən mövcud olan dövlətlərlə beynəlxalq münasibətlərdə yeni aktyorların beynəlxalq münasibətlərdəki yeri və rolu barədə fikirlər dəyişir.

Hər dövr siyasi elmlərdə dinamik inkişaf edən, baş verəcək proseslərə çevik yanaşma və reaksiya tələb edən yeni bir problem ilə xarakterizə olunur. Müasir beynəlxalq münasibətlər mürəkkəb bir təbiətə və çoxşaxəli məzmuna malikdir. Beynəlxalq münasibətlər dünya siyasətinə, siyasi proseslərə və dövlətlərarası münasibətlərə təsiri olan bir sahədir. Dünya siyasətini beynəlxalq münasibətlərdə genişləndirmək üçün yaradıldığı və inkişaf etdirildiyi nəzərə alınmalıdır. Dünya siyasəti qədim dövrlərdən bəri mövcud olmasına baxmayaraq iyirminci əsrdə yeni bir elmi intizam olaraq formalaşıb [1].

Gözlənilmədən 1980-ci ildə İnternet bütün ölkələrin əksəriyyətini ələ keçirdi və müstəqil və açıq bir qlobal şəbəkəyə çevrildi. 2002-ci ildə İnternet istifadəçilərinin sayı 600 milyona, dünya əhalisinin 100% -ə çatdı və hazırda beş milyarddan çoxdur. Ötən əsrin 90-cı illərində İnternetin həm kütləvi, həm də ucuz rabitə vasitəsi kimi populyarlığı sayəsində, həm də maliyyə və ticarət şirkətləri, ticarət şirkətləri və bu şəbəkənin sürətli inkişafı başladı. Nəticədə, İnternetin dünyadakı sosial-iqtisadi vəziyyətə təsiri tamamilə dəyişdi. İnternet texnologiyaları həm yerli, həm də dünya bazarlarında rəqabət qabiliyyətini təmin edən əsas amil halına gəlir və çoxmillətli şirkətlər formalaşır [4].

İnternetin cəmiyyətə təsiri, ictimai rəylə manipulyasiya, habelə böyük insan qruplarını siyasi məqsədlər üçün idarə etmək qabiliyyəti xeyli artmışdır. KİV-nin və internetin sürətli inkişafının mənfi nəticələrindən biri də, nə qədər istənməsə də, yeni beynəlxalq münaqişə formalarının meydana çıxmasıdır. Buraya yeni qarşıdurmalar və informasiya, şəbəkə və hibrid müharibələr də daxil olmaqla müxtəlif formalı müharibələr daxildir.

Beynəlxalq münasibətlərin rəqəmsallaşması, diplomatlarının vətəndaşlar, müttəfiqlər və həmkarları ilə birlikdə siyasi hadisələrin onlayn görüşü keçirməsi deməkdir. Müasir dünyada dövlətlərin hakimiyyət resurslarını qiymətləndirərkən onların KİV sahəsindəki imkanlarını və yeni informasiya-kommunikasiya məkanındakı mövqelərini nəzərə almamaq düzgün olmazdı. Burada yeni tipli beynəlxalq ziddiyyət yaranır. Bu, bir dövlətin qlobal informasiya məkanında dominantlığa cəhd etməsində öz ifadəsini tapır ki, bu da öz növbəsində digərlərinin müqavimətinə və əks-təsirinə səbəb olur. Beləliklə, qlobal informasiya məkanına və milli suverenliyə, kibərməkana və dövlət hakimiyyətinə obyektiv olaraq müxalif qüvvələr formalaşır. Təsadüfi deyil ki, dünyanın bir çox aparıcı politoloqları və beynəlxalq münasibətlər üzrə mütəxəssisləri geosiyasi proseslərin məhz bu aspektlərinə xüsusi diqqət yetirirlər[8].

Diplomatik münasibətlərin sosial şəbəkələrdə geniş şəkildə işıqlandırılması beynəlxalq münasibətlər iştirakçılarının mediada əvvəlki dövrə nisbətən qarşılıqlı təsirini xeyli çətinləşdirir.

Eyni zamanda, diplomatik fəaliyyət sahəsində rəqəmsal texnologiyaların istifadəsi "yumşaq güc" siyasətinin həyata keçirilməsi üçün yeni imkanlar açır.

Xarici siyasət hədəflərinə çatmaq üçün rəqəmsal diplomatiyanın müxtəlif vasitələri müəyyən edilmişdir. Beləliklə, İnternetdə, məsələn, nüfuzlu siyasi rejimlərə qarşı mübarizədə informasiya axını yaradılan "Diplopediya" istifadə olunur. Və ya müxaliflərlə işləmək və qeyri-hökumət təşkilatları qruplarının yaradılması, xarici vətəndaşların mobil rabitə imkanlarının genişləndirilməsi və s. bunun üçün digər sosial şəbəkələrdən istifadə olunur.

Bu və digər mürəkkəb məsələlər - İnternetin beynəlxalq münasibətlərin qloballaşmasında rolunu müəyyənləşdirmək, dünya siyasətində təzahürünün əsas amillərini müəyyənləşdirmək, İnternetin rolunu nəzərə alaraq xarici siyasətin perspektiv istiqamətlərini müəyyənləşdirmək və s. mürəkkəb məslələrə çevrilir [2].

21-ci əsrdə İnternet 1990-cı illərə qədər hakim olan elmi, texniki və iqtisadi konteksti kökündən yeniləmiş və siyasi münasibətlərdə əhəmiyyətini misilsiz bir səviyyəyə qaldırmışdır. Bu, qlobal şəbəkəni müxtəlif ölkələrin geosiyasi maraqlarının mərkəzinə çevirdi. Bu gün İnternet dünyanın siyasi həyatında, demokratiya və vətəndaş cəmiyyətinin formalaşmasında və hər kəsin qlobal problemlərin həllində iştirak etmək imkanlarının artırılmasında mühüm rol oynayır. İnternet vətəndaşların məlumat əldə etməsini artıran yeni bir azad söz vasitəsi sayılır və bu səbəbdən də demokratik cəmiyyətlərin ideologiyası ilə uyğundur [5].

İnternetin yaranması ilə bəşəriyyətin yeni bir nəhəng, ucuz, əlçatan informasiya mənbəyi əldə etdiyini də qeyd etmək vacibdir ki, məlumat əldə etmək prosesi dəqiqə və ya saniyə çəkir. Bu gün İnternet müstəqil, fasiləsiz bir qlobal rabitə sistemidir. Buraya həm simli, həm də simsiz məlumat ötürülməsi üçün istifadə olunan elektron poçt, veb saytlar və digər rabitə vasitələri daxildir. İnternetdən istifadə vasitəsi kimi fərdi kompüterlər, mobil telefonlar, mobil kompüterlər və s. ixtisaslaşır. Texniki olaraq İnternet, ünsiyyət sistemi, protokol və hosting, serverlər, rabitə xətləri, peyklər və s. birləşdirən texniki vasitələr təmin edir.

Qloballaşmanın mahiyyəti millətlər və dövlətlər arasındakı münasibətlərin, qarşılıqlı asılılığın qəfil mürəkkəbləşməsi və genişlənməsidir. Qlobal miqyasda sosial inkişafın yeni mərhələsi, sosial münasibətlərin və sosial proseslərin yeni keyfiyyəti elm və texnikanın inkişafı ilə başladı. Amerikalı tədqiqatçı F.Fukuyamanın fikrincə, "Ucuz və hərtərəfli informasiyanın əldə edilməsi demokratiyaya dərin təsir göstərmişdi. Hökumətlərdən tutmuş korporasiya və həmkarlar ittifaqlarına qədər müxtəlif iyerarxiyalı qurumların informasiya üzərində nəzarəti daha da çətindir. Hətta artıq vəziyyət əksinədir. Qlobal iqtisadiyyatın informasiya əsrinə keçdiyi bir dönəmdə demokratik rejimlərin genişlənməsi faktı təəccüb doğurmur" [6].

KİV-nin inkişafı nəticəsində xarici siyasət strukturları və daimi ikitərəfli diplomatik nümayəndəliklərlə müasir diplomatiya modeli də yeni problemlərlə üzləşdi. Ümumiyyətlə qəbul edilmiş fikrə görə, dövlətlərarası çoxtərəfli diplomatiya modelinin çevrilməsindən qaçmaq mümkün deyil. 21-ci əsrdə diplomatiyanın parametrləri dəyişir və daha sürətlə dəyişməyə davam edəcəkdir. "Paradiplomacy" adlanan geniş bir yeni virtual diplomatik nümayəndəlik şəbəkəsinin tətbiqi və inkişafı xüsusilə narahat bir tendensiyadır. O mənada ki, separatçı rejimlər və beynəlxalq terror qrupları bu imkanlardan istifadə etməyə çalışa bilərlər. Virtual Xarici İşlər Nazirlikləri və virtual diplomatlar hədəf auditoriyasına gecə-gündüz xidmət göstərməyə hazırdırlar. [10].

Müasir İnternetin beynəlxalq münasibətlərin qloballaşmasında yeri və rolu elektron hökumətlərin yaradılması, müxtəlif elektron ticarət modellərinin inkişafı, geniş bir sıra dövlət və qeyri-hökumət aktyorlarının İnternetə cəlb olunması ilə müəyyən edilir. Eyni zamanda, İnternetin inkişafı, İKT-yə çıxışda əks olunan və siyasi, iqtisadi, sosial və açıq bərabərsizlikləri özündə əks etdirən "rəqəmsal uçurum və rəqəmsal partlayış" ın yaranmasına və ağırlaşmasına səbəb oldu. Beynəlxalq ictimaiyyət bu problemi Birləşmiş Millətlər Təşkilatı (BMT), G8 (G8),

beynəlxalq iqtisadi və siyasi biliklər çərçivəsində həll etmək üçün ciddi səylər göstərir. Beynəlxalq təşkilatlar səviyyəsində internetə verilən önəm də beynəlxalq əlaqələrə təsirinin son illərdə nə qədər artdığını göstərir [3].

KİV-nin zəif inkişafı dövlətin müasir inteqrasiya proseslərində, beynəlxalq əlaqələrin və iqtisadiyyatın inkişafında geridə qalmasına səbəb olur. İnternet dünya siyasi və iqtisadi arenasında təsiri birləşdirir, strateji hədəflərə çatmağa, milli təhlükəsizlik və geosiyasi məsələləri həll etməyə imkan verir.

KİV artıq dünya siyasətində əlaqələrin qurulmasında periferik bir qüvvə deyil, mərkəzi və güclü bir dəyişiklik mühərriki hesab edilə bilər. Qlobal elektron şəbəkələrin funksiyası yalnız dünya iqtisadiyyatını bərpa etmək deyil, həm də insanların dəyərlərini, şəxsiyyətlərini və sosial təcrübələrini kökündən dəyişdirməkdir. Əlavə olaraq, bu dəyişikliklər milli dövlətlərin sərhədlərində deyil, gözlənilməz transmilli rabitənin bütün səviyyələrində baş verir. Bu dəyişikliklər hər növ yeni iştirakçıların beynəlxalq siyasi arenaya çıxmasına imkan verir [7]. QHT-lər, diaspor icmaları, insan haqları müdafiəçiləri, qloballaşma əleyhinə tənqidçilər, jurnalistlər, yerli sakinlər və başqaları qlobal ictimai arenada söz sahibidirlər. Bununla birlikdə cəmiyyəti və işi gücləndirən bu texnologiya, eyni zamanda terror şəbəkələrinin və yeni müharibə formalarının meydana gəlməsini stimullaşdırır.

Yeni transmilli məlumat axınları beynəlxalq münasibətlərdə əsas gücün bəzi şərtlərini dəyişdirir. Əxlaqi qanunilik, məlumat mənbəyi kimi etibarlılıq və mədəni dəyərlər kimi yeni "yumşaq güc" növləri ön plana çıxır. Əvvəllər vacib sayılan qabaqcıl ölkələrin ənənəvi hərbi və maliyyə gücləri indi "yumşaq güc" və etimad yaratmaq siyasətləri ilə məhdudlaşır [9].

Yekun olaraq onu deyə bilərik ki, son onilliklərdə dünya ictimaiyyəti "qlobal dəyişikliklər" adlanan hadisələrdən təsirlənmişdir. Bunlar arasında informasiya inqilabı, informasiya sivilizasiyasının formalaşması, qloballaşma prosesləri və yeni beynəlxalq münasibətlər sisteminin formalaşması var.

Milli inkişafında qarşıya qoyulmuş hədəflərə çatmaq üçün hər bir dövlət bu proseslərin mahiyyətini və dinamikasını nəzərə almalı və müvafiq tədbirlər görməlidir. Beləliklə, sadalanan amillər hər ölkənin siyasi, iqtisadi, mədəni, elmi, texnoloji və s. bu sahələrdə fəaliyyətinin uğuru beynəlxalq münasibətlər sisteminin yeni reallıqları və onunla qarşılıqlı təsirləri nəzərə alınmaqla təmin edilə bilər [10].

## ƏDƏBİYYAT


1. Birsen Keskinbikçi. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Gazetecilik Anabilim Dali. Yeni Medya Ve Demokrasi İlişkisi: Yeni Medyanin Demokrasiyi İşlevselleştirme Potansiyeli Üzerine Bir Çalişma. İstanbul-2019.s62
2. By Paul Rothman. The Politics of Media Development. September 2015 p.9-11
3. Ece Zeren Aydınoğlu. Medya-Sivil Toplum Ve Demokrasi. s.3-5
4. Əli Həsənov. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanin Xarici Siyasəti.Bakı-2005.s.122-126
5. Elşad Həsənli. Qloballaşma şəraitində Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi və milli maraqlar. Bakı 2015.
6. İlham Mazanlı. KİV millətlərarası və dövlətlərarası münasibətlərin təkmlləşdirilməsi faktoru kimi. BAKI – 2014. S.410-413
7. Mehmet Toplu, Doç. Dr., Gazi Üniversitesi İletişim Fakültesi. Kamu Politikalarının Oluşumu Ve Uygulanmasında Medya/Sosyal Medya'nın Rolü. 2018. s.2
8. Mohammad Sahid Ullah. Free Media, Democracy and Democratisation: Experiences from Developing Countries. December 2009

9. Nelson Rosário de Souza. Media and Democracy: a Plural Approach. 2012. p138-142
10. Puja Mondal. Mass Media and their Role in Modern Times

## DÜNYA SIYASƏTININ HƏYATA KEÇIRILMƏSINDƏ INTERNET VƏ DIGƏR INFORMASIYA TEXNOLOGIYALARININ TƏSIRI

***Bayramova Aytən***

### XÜLASƏ

Bununla belə, milli və beynəlxalq siyasi məkanda inkişaf proseslərinə təsir göstərən əsas qüvvənin informasiya və kommunikasiya texnologiyaları olduğunu əminliklə söyləmək olar. Bu gün KİV faktoru və onun iqtisadiyyat, siyasət və beynəlxalq münasibətlərdəki çoxşaxəli dəyişiklikləri nəzərə alınmadan effektiv daxili inkişaf proseslərinə və ya beynəlxalq aləmdəki sürətli proseslərə vaxtında uyğunlaşmaq mümkün deyil.

Beynəlxalq münasibətlərin qloballaşması, yeni dünya düzəninin formalaşması hər bir müstəqil dövlətdən adekvat səylər tələb edir. Müasir müstəqil bir dövlət, mövcud "rəqəmsal uçurum və partlayış" ı aşmaq üçün lazımi addımları atmalıdır. Əks təqdirdə dünyada iqtisadi və siyasi maraqlarını təmin edə bilməyəcək. Bu məqsədlə yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı qəti addımların atılması, KİV-in və qeyri-neft sektorunun dövlət tənzimlənməsini stimullaşdırmaq, İnternetin, akademik dairələrin, qeyri-hökumət sahələrinin inkişafında fərdi təşəbbüslər göstərmək lazımdır. Mühüm məsələlərdən biri dərnəklərin fəaliyyəti ilə İKT infrastrukturunun daha da yaxşılaşdırılmasını təmin etməkdir.

Son illər Azərbaycan Respublikasının dövlət İKT siyasətində mühüm məsələlərdən biri də cari əsrdə dünyanın inkişaf tendensiyalarından irəli gələn tələblərə milli maraqlar nəzərə alınmaqla vaxtında cavab verməkdir. Ölkəmiz bu bölgədə liderdir.

## ВЛИЯНИЕ ИНТЕРНЕТА И ДРУГИХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ НА РЕАЛИЗАЦИЮ МИРОВОЙ ПОЛИТИКИ

***Байрамова Айтан***

### АННОТАЦИЯ

Однако можно с уверенностью сказать, что информационно-коммуникационные технологии являются основной силой, влияющей на процессы развития в национальном и международном политическом пространстве. Сегодня без учета медийного фактора и его многогранных изменений в экономике, политике и международных отношениях невозможно вовремя адаптироваться к эффективным внутренним процессам развития или стремительным процессам в международном мире.

Глобализация международных отношений и формирование нового миропорядка требуют адекватных усилий от каждого независимого государства. Современное независимое государство должно предпринять необходимые шаги для преодоления нынешнего «цифрового разрыва и взрыва». В противном случае она не сможет удовлетворить свои экономические и политические интересы в мире. Для этого необходимо предпринять решительные шаги по внедрению новых информационных технологий, стимулировать государственное регулирование СМИ и ненефтяного сектора, проявить отдельные инициативы в развитии Интернета, академических кругов и

негосударственных организаций. -государственные секторы. Одним из важных вопросов является обеспечение дальнейшего совершенствования инфраструктуры ИКТ посредством деятельности ассоциаций.

В последние годы одним из важных вопросов государственной политики Азербайджанской Республики в области ИКТ является своевременное реагирование на требования, вытекающие из тенденций развития мира в текущем столетии, с учетом национальных интересов. Наша страна является лидером в этом регионе.

## THE INFLUENCE OF THE INTERNET AND OTHER INFORMATION TECHNOLOGIES IN THE IMPLEMENTATION OF WORLD POLITICS

***Bayramova Aytan***

**SUMMARY**

However, it can be said with certainty that information and communication technologies are the main force influencing development processes in the national and international political space. Today, without taking into account the media factor and its multifaceted changes in the economy, politics and international relations, it is impossible to adapt in time to effective internal development processes or rapid processes in the international world.

The globalization of international relations and the formation of a new world order require adequate efforts from each independent state. A modern independent state must take the necessary steps to overcome the current "digital divide and explosion". Otherwise, it will not be able to satisfy its economic and political interests in the world. For this purpose, it is necessary to take decisive steps regarding the introduction of new information technologies, to stimulate state regulation of mass media and the non-oil sector, and to show individual initiatives in the development of the Internet, academic circles, and non-governmental sectors. One of the important issues is to ensure further improvement of ICT infrastructure through the activities of associations.

In recent years, one of the important issues in the state ICT policy of the Republic of Azerbaijan is to respond in time to the demands arising from the development trends of the world in the current century, taking into account national interests. Our country is the leader in this region.

# ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN TARİXİ-SOSİAL VƏ GEOSİYASİ KÖKLƏRİ

***Qurbanova Fidan Mətləb***
***BDU-nun II kurs magistrantı***
***fidan_qurbanova_2018@mail.ru***

***Açar sözlər*:** erməni məsələsi, qonaq statusu, deportasiya, soyqırım, vandalizm
***Ключевые слова*:** армянский вопрос, гостевой статус, депортация, геноцид, вандализм
***Key words*:** The Armenian issue, guest status, deportation, genocide, vandalism

Ermənilərin Dağlıq Qarabağı ələ keçirmək cəhdləri gəlmə və torpaqsız xalqın ərazi iddialarının əsas tərkib hissəsidir. Müxtəlif ölkələr gəlmə xalqların bu cür iddiaları ilə dəfələrlə rastlaşmışlar. Bu tarix üçün yeni bir hadisə deyildir. Ermənilər də Cənubi Qafqazda, o cümlədən, Azərbaycanda yaşamamış, bu ərazilərə sonradan və tədricən başqa ölkələrdən gəlmiş və yaxud gətirilmişlər. Qarabağda həmişə Azərbaycan tayfaları yaşamış və bu ərazi Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Qarabağ hər dövrdə bütöv ərazi vahidi olmuşdur. "Dağlıq Qarabağ" ifadəsi isə XX yüzillikdə Sovet Rusiyasının rəhbərliyi tərəfindən uydurulmuşdur. Qarabağ əraziləri qədim dövrdə "Arsax" adı ilə ( Arsax sözü qədim türk tayfaları olan sakların adı ilə bağlıdır və "igid sak", "ər sak", "sak kişisi" mənalarını verir) Albaniya dövlətinin tərkibində olmuşdur.

Albaniya dövləti müasir Azərbaycan Respublikasının ərazisi də daxil olmaqla, daha geniş torpaqlara malik idi. Albaniyanın qərb sərhədləri Göyçə gölündən keçməklə indiki Ermənistan deyilən ərazilərin böyük hissəsini əhatə edirdi . O dövrdə bu ərazilərdə erməni elementləri yox idi. Arsax-Qarabağ əraziləri daha sonra Ərəb Xilafətinin, bu dövlətin süquta uğramasından sonra isə Azərbaycan dövlətlərinin – Sacilər, Rəvvadilər, Eldəgizlər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilərin və Qarabağ xanlığının tərkibində olmuşdur. Qarabağ xanlığı 1805-cilin may ayında Rusiya tərəfindən işğal edilmişdir. Bu işğal kiçik fasilə ilə yəni, 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövrü istisna olmaqla, 1991-ci ilə qədər davam etmişdir. 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi, Qarabağ da daxil olmaqla ərazi bütövlüyü və suverenliyi dünya birliyi, komkret olaraq, Paris Sülh Konfransı tərəfindən tanınmışdır. O dövrdə Qarabağ bəzi mübahisəli ərazilərin içərisinə daxil olmamışdır. Həmin vaxt Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan qərb sərhədləri 2300 il əvvəl Albaniya dövlətinin dönəmində olduğu kimi yenə də Göyçə gölündə keçirdi.

Ermənilərin Cənubi Qafqaza köçürülməsi və "erməni məsələsi"nin həlli tədricən baş vermiş və Kiçik Asiyaya keçmişdir. İlk erməni dəstələri (özlərini hay adlandırırdılar) e.ə.VII-VI əsrlərdə Balkanlardan Kiçik Asiyaya, müasir Türkiyənin şərq vilayətlərindən birinə az miqdarda gətirilmiş və onlardan bir sıra təsərrüfat işlərində, əsasən də tikintidə qul kimi istifadə olunmuşdur. Tədricən çoxalan ermənilər həmin ərazilərdə bir neçə dəfə xırda dövlət qurumları yaratmağa cəhd etmiş, lakin davamlı bir qurum yarada bilməmişlər. Bu proses tarixən davam edərək XVIII əsrin əvvəllərindən etibarən daha da genişlənməyə başlayır, bunun əsas səbəbkarı isə məhz Rusiya olur. Onun əsas məqsədi Cənubi Qafqaz regionunu ələ keçirmək idi və bu işdə ermənilərdən əsas vasitə olaraq istifadə etməyə başlamışdır. Rusiya öz işini asanlaşdırmaq üçün Qarabağın Dağlıq hissəsindəki xristianlaşmış albanlara da "erməni məsələsi" nin tərkib hissəsi kimi baxırdı. Azərbaycana qarşı işğalçılıq müharibəsində rus ordusunun erməni əsilli zabitlərindən geniş şəkildə istifadə olunurdu. Rus ordusunun tərkibində hərbi əməliyyatlarda iştirak edən erməni zabitləri Qarabağda ermənilərin mövqelərini gücləndirmək üçün bütün vasitələrdən istifadə edirdilər.

İran-Rusiya müharibələri (1804-1813, 1826-1828-ci illər) və Türkiyə-Rusiya müharibələri 1806-1812, 1828-1829-ci illər) ermənilərin Qarabağa köçürülməsində həlledici rol oynadılar. Həmin müharibələrin gedişində Türkiyə və İranda yaşayan ermənilər öz dövlətlərinə xəyanət edərək, rus qoşunlarının tərəfinə keçdilər. Onlar arxa cəbhədə dəstələr yaradaraq, rus hərbi komandanlığının tapşırıqlarını yerinə yetirir, İran və türk ordularına arxadan zərbələr vurur, qiyamlar təşkil edir, müdafiəsiz qalmış dinc əhaliyə divan tuturdular. Bu erməni dəstələrini isə rus ordusu silahlandırırdı.

Ermənilərin Qarabağa köçürülməsi qədimdən burada yaşayan xristian albanların erməniləşdirilməsini sürətləndirdi və dönməz prosesə çevirdi. O vaxta qədər müstəqil fəaliyyət göstərən alban kilsəsi də 1836-cı ildə Rusiya hökumətinin qərarı ilə erməni kilsəsinə tabe etdirildi. Rusiya bir sıra məntəqələrdə, o cümlədən Qarabağın Dağlıq hissəsində erməni-xristian mövqelərini gücləndirmək üçün bütün XIX əsr ərzində köçürmə siyasətini davam etdirmişdir. XIX əsrin sonunda Cənubi Qafqazda ermənilərin sayı artıq 1 milyon 300 min nəfərə çatmışdı. Rusiyanın rəsmi mənbələrinin etiraf etdiyinə görə, onlardan 1 milyon nəfər "erməni köçü" nəticəsində gələnlər idi. Bu cür kütləvi axına baxmayaraq, Rusiya yenə də Qarabağ əyalətində ermənilərin çoxluğuna nail ola bilməmişdir. Ermənilər hələ də azlıqda qalırdılar.

XIX əsrin ikinci yarısında dünyada ciddi hadisələr baş verir, dövlətlər bir-birinə qarşı ərazi iddiaları qaldırır, dövlətlərarası ittifaqlar yaranırdı.Bu şəraitdə dövlətlər müxtəlif məsələləri ortaya ataraq, öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. "Erməni məsələsi" deyilən amil də ortaya bu dövrdə Rusiya və İngiltərə tərəfindən atılmışdır. Erməni kilsəsinin təşkilatçılığı ilə müxtəlif erməni heyətləri Avropa dövlətlərinə səfərlər edir, müxtəlif səviyyələrdə görüşlər keçirir, Türkiyə ərazisində hər hansı statusda qurumlarının yaradılması üçün dəstək qazanmağa çalışırdılar. Maraqlısı odur ki, onlar Türkiyənin heç bir vilayətində əksəriyyət təşkil etmədikləri halda belə bir istəyə düşmüşdülər. İlk olaraq Rusiya və İngiltərə "erməni məsələsi"ndən istifadə etməyə başladılar və faktiki olaraq "erməni məsələsi"nin müəllifləri də onlar oldular. Böyük dövlətlərin Berlin konqresində (1878-ci il), İngiltərə və Rusiyanın təşəbbüsü ilə "erməni məsələsi" gündəmə gətirildi və Türkiyənin üzərinə ermənilər yaşayan ərazilərdə islahatların keçirilməsi, onların kürdlər və çərkəzlərin hücumlarından müdafiə olunması ilə bağlı öhdəliklər qoyuldu.

Berlin konqresindən sonra İngiltərə və Rusiyanın rəsmi dairələri "erməni məsələsi"ndən geniş şəkildə yararlanmağa, Türkiyənin zəiflədilməsi üçün bir alət kimi istifadə etməyə başladılar. Onların planlarına uyğun olaraq ermənilər Türkiyənin içərisində təşkilatlar qurur, üsyanlar təşkil edirdilər. "Hnçak" və "Daşnaksütyun" erməni terrorçu təşkilatlarının yaradılması və ilk qanlı olaylar törətmələri bu dövrə təsadüf edir. Onlar İngiltərə, Rusiya hökumətləri tərəfindən silahlandırılır və Türkiyənin müxtəlif vilayətlərində üsyanlar təşkil edir, yerli dinc əhaliyə divan tuturdular. XIX əsrin sonlarında Fransa da erməniləri fəal müdafiə kompaniyasına qoşuldu. Böyük dövlətlər "erməni məsələsi"ndən kifayət qədər yararlandılar, ermənilər isə heç nəyə nail ola bilmədilər.

Türkiyə hökuməti milli maraqlarını müdafiə edərək erməni niyyətlərinin həyata keçirilməsinə imkan vermədi, bütün üsyanlar yatırıldı, günahkarlar cəzalandırıldı. Türkiyə hökumətinin ciddi müqaviməti ilə rastlaşan erməni kilsəsi və terrorçu təşkilatları nəzərlərini Cənubi Qafqaza, Azərbaycana, o cümlədən Qarabağa yönəltdilər. Bir az əvvəl buralara köçürülmüş erməni əhalisi artıq ərazi iddiaları üçün zəmin ola bilərdi. Bu vaxta qədər yerli əhali ilə dinc şəraitdə yaşayan, "qonaq statusu" na riayət edən, gəlmə olduqlarını bildiklərinə görə normal davranan ermənilər birdən-birə sərt və barışmaz simalarını göstərərək, iddialı tərəfə çevrildilər.

"Qonaq statusu" na əməl etməyən ermənilər XX əsrin əvvəllərindən etibarən Azərbaycanın tarixi torpaqlarından yerli əhalini sıxışdırıb çıxartmağa başladılar. Bu məqsədlə ermənilərin Azərbaycanda fəaliyyət göstərən terror təşkilatları 1905-ci ildə Bakıda, İrəvanda, Zəngəzurda,

Qarabağda və digər yerlərdə kütləvi qırğınlar törətdilər. 1905-ci ilin fevralında Bakıda başlayan qırğınlar 1906-cı ilə qədər davam etdi. Ermənilər Şuşa şəhəri ilə bağlı planlar qurur, azərbaycanlıları oradan tamamilə çıxarmaq istəyirdilər. Bu məqsədlə onlar 1905-ci ilin avqustunda Şuşada azərbaycanlıların yaşadıqları məhəllələrə hücuma keçdilər, yüzə qədər azərbaycanlı öldürüldü. Lakin, Əhməd bəy Ağaoğlunun yaratmış olduğu "Difai" partiyası müvəqqəti olsa da, erməni hücumlarının qarşısını alaraq onları geri çəkilməyə məcbur etmişdi. Ermənilər müvəqqəti olaraq, geri çəkilərək təşkilatlarını gücləndirməyə, daha radikal təşkilatlar yaratmağa, dəstələrini daha geniş miqyasda silahlandırmağa, yeni hücumlara hazırlaşmağa başladılar.

Birinci dünya müharibəsinin sonlarına doğru erməni terror təşkilatları Cənubi Qafqazda və ilk növbədə Azərbaycanda yenidən fəallaşdılar. Rusiya imperiyasının dərin siyasi və iqtisadi böhran içərisində olması, hər yerdə, xüsusi ilə də ucqarlarda hərc-mərcliyin hökm sürməsi ermənilərin əl-qol açmasına, qanlı olaylar törətməsinə şərait yaradırdı. Rusiyada hakimiyyət uğrunda mübarizə aparan siyasi qüvvələrin hamısı xristian amilini əsas götürərək ermənilərə siyasi və hərbi dəstək verirdilər. Yaxşı silahlanmış erməni terror təşkilatları bir sıra ərazilərdə, xüsusilə də Bakı, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvanda türk-müsəlman əhalisini sıxışdırıb çıxartmağa, həmin əraziləri nəzarətə götürməyə çalışırdılar. Məqsəd bu əraziləri dünya birliyinə guya erməni yaşayış məntəqələri kimi təqdim etmək idi. Onlar böyük dövlətlərin köməyi ilə həmin yerlərdə "erməni dövləti" yaratmaq ümidində idilər. Rusiya bolşevikləri Bakı erməni daşnaklarına arxalanırdılar. 1917-ci ilin noyabr – dekabr aylarında burada bolşevik-daşnak ittifaqı yarandı. Bu ittifaqa V.Lenin tərəfindən Qafqaza fövqəladə komissar kimi göndərilmiş S.Şaumyan rəhbərlik edirdi. Erməni silahlı dəstələri 1918-ci ilin əvvəlində türk-müsəlman əhalisinə qarşı kütləvi qırğınlara başladılar.

Erməni silahlı dəstələri o vaxta qədərki ən böyük qırğınları 1918-ci ilin mart ayında törətdilər. 1918-ci ilin martın 18-də 20 minlik erməni-bolşevik silahlı qüvvələri Şamaxıya daxil oldular və dinc əhaliyə divan tutdular. Erməni terrorunun ən dəhşətli göstəricilərindən biri 1918-ci ilin martın 30-dan aprelin 2-nə qədər Bakıda davam edən soyqırım idi. Mart soyqırımı nəticəsində 18 min dinc əhali məhv edildi. Eyni vaxtda Quba qəzasına daxil olan quldurlar 3 minə yaxın qubalını öldürdülər. Bir neçə gün ərzində erməni bolşevik terror dəstələri Bakıda, Şamaxıda, Qubada, İrəvanda, Zəngəzurda, Naxçıvanda, Qarabağda və digər yerlərdə 50 min nəfərdən artıq dinc əhalini qətlə yetirdilər.

1918-ci ilin may ayında Cənubi Qafqazda Azərbaycan türkləri və gürcülərlə yanaşı ermənilər də öz müstəqilliklərini elan etdilər . Şərqdə ilk demokratik respublika yaratmış Azərbaycan xalqı müstəqil dövlətçiliyini möhkəmlətməklə yanaşı ermənilərin erməni ərazi iddialarını da dəf etməli oldu. Ermənilər öz müstəqilliklərini Tiflisdə elan etmişdilər, lakin müstəqil dövlət qurmaq üçün nə əraziləri, nə də siyasi mərkəzləri var idi. Nəyin bahasına olursa olsun Cənubi Qafqazda erməni dövləti yaratmaq istəyən Antanta dövlətləri – İngiltərə, ABŞ, Fransa və digərlərinin təkidli xahişləri və təzyiqləri qarşısında Azərbaycan Xalq Cümhuriyyəti güzəştə getməli oldu. Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı ilə İrəvan şəhəri ətraf əraziləri ilə birlikdə öz dövlətlərini yaratmaq üçün ermənilərə verildi. Həmin qərarda bu xoşməramlı addımın müqabilində ermənilərin əsassız ərazi iddialarından imtina etməsi ilə bağlı şərt qoyulmuşdu. Erməni hökuməti də bu şərtlə razılaşmışdı. Az sonra Türkiyə hökuməti də həmin ərazilərdə erməni dövlətinin yaradılmasına öz razılığını verdi. Qədim Azərbaycan torpaqlarında erməni dövləti belə meydana gəldi.

Sovet hakimiyyəti dövründə ermənilərin ərazi iddiaları daha da genişlənirdi. 1987-ci ilin ikinci yarısından başlayaraq azərbaycanlılar Ermənistan və Dağlıq Qarabağda açıq şəkildə sıxışdırılmağa başlanılırdı. Bütün bu proseslər 1988-ci ilin noyabr-dekabr ayları ərzində 250 mindən artıq Azərbaycan türkünün öz yurdlarında deportasiya edilməsi ilə nəticələndi. Bu zaman

dinc əhaliyə qarşı amansız vəhşiliklər edildi.1989-cu il yanvarın 12-də M.Qorbaçovun qərarı ilə Dağlıq Qarabağ Azərbaycanın tabeliyindən çıxarılaraq birbaşa Moskvaya tabe edildi və Xüsusi İdarə Komitəsi yaradıldı. 20 Yanvar faciəsi, Xocalı Soyqırımı və digər bu kimi fəlakətlər ermənilərin Azərbaycan xalqına qarşı məkrli siyasətinin bariz nümunələri idi.

1992-1993-cü illərdə erməni təcavüzü daha da genişlənmiş və Azərbaycanın 20 %-dən çox torpaqları işğal edilmiş, əhali kütləvi şəkildə, amansızlıqla qətlə yetirilmiş, 1 milyondan çox Azərbaycan vətəndaşı öz torpaqlarından qaçqın edilmişdir. Azərbaycan torpaqlarını işğal edən Ermənistan uzun illər ərzində bu torpaqlarda vandalizm fəaliyyətini həyata keçirmiş, Azərbaycanın tarix və mədəniyyət abidələrini talan etmişdir.

## ƏDƏBİYYAT


1. "Xalq qəzeti", 3 dekabr 2009-cu il
2. İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər – Bakı: 2016 – 175 səh.
3. Məmmədov H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsi – Bakı: 2008 – 185 səh.
4. Məmmədov S, Məmmədov T. Qarabağ: mif və həqiqət – Bakı: 2021 – 480 səh.
5. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası – Bakı: 2002 – 312 səh.


## ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN TARİXİ – SOSİAL VƏ GEOSİYASİ KÖKLƏRİ

***Qurbanova Fidan***

## XÜLASƏ

Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğal etmiş və bu torpaqları sülh yolu ilə geri qaytarmaq istəmirdi. Beynəlxalq təşkilatlar, böyük dövlətlər məsələnin həllində heç bir ciddi addım atmırdılar. Əslində, işğalçı Ermənistan beynəlxalq hüquq normalarına uyğun olaraq bütün beynəlxalq təşkilatlardan xaric edilməli, beynəlxalq münasibətlərdən təcrid olunmalı və ona sanksiyalar tətbiq olunmalı idi. Lakin, beynəlxalq təşkilatlar, böyük dövlətlər bunu etmək istəmirdilər, əksinə işğalçı Ermənistana yardım göstərməkdə davam edirdilər. Bu səbəbdən, Azərbaycanın tək çıxış yolu müharibə yolu ilə öz torpaqlarını geri qaytarmaq oldu.

## ИСТОРИЯ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО КОНФЛИКТА – СОЦИАЛЬНЫЕ И ГЕОПОЛИТИЧЕСКИЕ КОРНИ

***Гурбанова Фидан***

## АННОТАЦИЯ

Армения оккупировала земли Азербайджана почти 30 лет и не хотела возвращать эти земли мирным путем. Международные организации и крупные государства не предприняли серьезных шагов для решения проблемы. По сути, в соответствии с нормами международного права оккупировавшая Армению должна была быть исключена из всех международных организаций, изолирована от международных отношений, и к Армении должны были быть применены санкции. Однако международные организации и крупные

державы не хотели этого делать, наоборот, продолжали оказывать помощь оккупирующей Армении. По этой причине единственным выходом для Азербайджана было возвращение своих земель путем войны.

## HISTORY OF ARMENIA-AZERBAIJAN CONFLICT – SOCIAL AND GEOPOLITICAL ROOTS

***Gurbanova Fidan***

**SUMMARY**

Armenia occupied the lands of Azerbaijan for nearly 30 years and Armenia did not want to return these lands peacefully. International organizations and big states did not take any serious steps to solve this issue. In fact, in accordance with the norms of international law, occupying Armenia should have been remove from all international organizations, isolated from international relations and sanctions should have been apply against Armenia. However, international organizations and major powers did not want to do this, on the contrary, they continued to provide comprehensive assistance to the occupying Armenia. Therefore, Azerbaijan`s only way out was to return its lands through war.

# РОЛЬ ТРУДА В СОЦИАЛИЗАЦИИ ЛИЧНОСТИ В СОВРЕМЕННОМ ОБЩЕСТВЕ

***Аразова Хаяла Ровшан***
***магистрант II курса БГУ***
***доц. Исмаилова С. А.***
***xeyale9898@inbox.ru***

***Ключевые слова***: труд, социализация, стадии социализации.
***Açar sözlər***: əmək, sosializasiya, sosializasiyanin mərhələləri
***Key words***: labour, socialization, stages of socialization

Непрерывное развитие социально-экономической сферы общества, приводит к противоречивости экономических и социокультурных факторов профессионально-трудовой социализации личности, это обязывает к рассмотрению противоречий социализации в связи и единстве с профессиональной ролью личности в современном обществе.

Термин «социализация», несмотря на его широкую распространенность, не имеет однозначного толкования среди различных представителей науки. Его интерпретация зависит от этнических, национальных, культурных и других особенностей общества. Но все учёные согласны в том, что социализация является таким процессом, где индивид адаптируется к обществу, происходит процесс взаимодействия индивида и общества (в рамках структурно-функционального направления Т. Парсонс, П. Сорокин, Р. Мертон, в рамках символического интеракционизма Дж. Мид, Д. Джексом, Л. Колберг, и др.)

По Г. М. Андреевой выделяются три основные стадии социализации: дотрудовую, трудовую и послетрудовую [1, 198с]. В качестве критерия для выделения стадий принято отношение к трудовой деятельности. А. И. Рофе считает труд – это созидательная, целенаправленная, целесообразная и полезная (легитимная и востребованная) деятельность человека по получению или созданию жизненных благ для удовольствия личных и (или) общественных потребностей[4,43]. По Н. И. Гвоздевой формирование всесторонне развитой личности является итогом воздействия на неё совокупности всех общественных отношений – трудовых, социальных и духовных [3, 29]. Как видим, понятие труд определенно связывает человека (личности) с обществом.

Поскольку разделение стадии социализации по Г. М. Андреевой является актуальным для нашей статьи, мы остановимся на данной интерпретации. На каждой из них действуют различные агенты социализации: на дотрудовой стадии ведущими являются семья, дошкольные детские учреждения, школа, для получающих высшее образование - вуз. Дотрудовая стадия охватывает период экономической неактивности индивида и стадией его усиленного накопления опыта для адаптации в обществе. На трудовой стадии главным социализирующим фактором признается окружение человека в контексте трудовой деятельности. По трудовому кодексу АР IV раздел, статья 89, полный рабочий день и его продолжительность, определяется в день 8 часов, а в неделю 40 часов трудовой активности[5]. Это достаточно чтобы считать, что трудовая деятельность активно влияет на работника.

Для данной стадии характерна контрастность взаимовлияния семьи семейных ролей и ценностей с профессиональными ролями, где трудовая стадия социализации подразумевает зрелый период личности. Создание семьи приходит на период возраста старше 18 лет и в Азербайджане по данным stat.gov.az охватывает 18-24 и 35 и выше значит охватывает период юности и зрелости, а значит, имеет место быть в период

трудовой социализации. Социализацию личности по отношению к труду, в трудовой стадии, можно рассматривать в таких аспектах как: 1) взаимодействие работника с его семьей; 2) взаимодействие работника в коллективе его сотрудников.

Для первого аспекта выделяются такие проблемы как:

1) нагруженность работой одного из членов семьи и ослабление его связи со своим супругом и (или) ребёнком

2) конфликты в семье ввиду напряженности и стрессовых ситуаций на работе

В результате роста таких проблем возрастает отдалённость членов семьи друг от друга и это является одним из причин почему семья как таковая теряет свою значимость в современном обществе.

Также мы должны рассматривать положительное аспекты взаимовлияния семьи и работника как:

1) увеличение роли значимости работника в семье как трудящегося и увеличивающего накопления семьи (роль кормильца);

2) увеличение мотивации трудящегося в успешности своей работы где мотивом является благополучие семьи.

Для второго аспекта, которого Г. М. Андреева выделяет как главный фактор социализации личности в трудовом периоде, выделяются такие проблемы как:

1) адаптационный период работника внутри коллектива;

2) адаптация работника к трудовой деятельности в условиях рыночной экономики.

Процесс адаптации работника внутри предприятий компаний, имеет важное значение и для работника, и для руководителя. При успешной адаптации работника растёт его успех на работе и во взаимодействии с коллективом, а для работодателя это означает развитие компании и экономия времени и ресурсов на других претендентов данной должности[2].

Тенденции современного периода социально- экономических отношений стремится к устранению противоречий между социальными и социально-экономическими факторами социализации личности. Значимость таких форм работы как работа через интернет, фриланс заключается в создании оптимального баланса между работой и семьёй. Но и такой режим работы имеет свои негативные стороны как отсутствие социальных гарантий; усилия для самомотивации и тайм-менеджмент; неравномерный доход[6].

Также следует отметить экономически неактивное население, где одним из категорий относящееся к нему, является часть населения добровольно отказавшихся от работы, лиц, чей уровень жизни позволяет заниматься домашним хозяйством – финансово свободные лица. В мире очень много примеров где люди имеющие достаточное накопление, выходят из работы и занимаются семьёй и домашним хозяйством. Это не значит, что трудовая деятельность больше не влияет на социализацию личности – она переходит на второй план, а семья занимает главное место (совместное ведение хозяйством). В данном случае важно для всех членов семьи осознавать свои роли и ожидания от них.

Далее в период старости личность переходит в послетрудовую стадию социализации. Для послетрудовой стадии рассмотрено адаптация личности к новым условиям своего существования в обществе (отсутствие трудовой деятельности, меньшая социальная востребованность, проблемы со здоровьем, часто - одиночество и т.д.). Несмотря на меньшую социальную востребованность в социально-экономической сфере общества, данный период обусловлен важностью для передачи опыта молодому поколению и усилению таким образом связи между поколениями. Некоторая часть населения что входит в данную группу, продолжают свою трудовую деятельность передавая и распространяя всему миру национальные и культурные деятельности (искусство, архитектура, художество, ткачество и т. д.)

И так, мы видим влияние труда на социализацию личности во всех периодах его жизненного цикла, отсутствие труда и трудовой деятельности влечет за собой проблемы личностного и общественного характера – депрессия, безработица – как всемирная проблема является тому доказательством.

**ЛИТЕРАТУРА**

1. Андреева Г. М. Социальная психология: учебник – 2003. – 229с. Электронная версия была использована в 01.10.2022 http://www.dou4sun.ru/files/File/biblioteka_andreeva-soc-psy.pdf

2. Ежукова И. Ф. Трудовая адаптация сотрудников: статья журнал КОНЦЕПТ – 2017. Электронная версия была использована в 30.09.2022 https://cyberleninka.ru/article/n/trudovaya-adaptatsiya-sotrudnikov

3. Социально-экономические проблемы труда в условиях интенсификации производства: Межвузовский сборник научных трудов – изд. Воронежский университет-1987 – 168с.

4. Рофе А. И. Экономика труда: учебник – 2-е изд., стер. – М.; КНОРУС, 2013 – 392с.

5. AR Əmək məcəlləsi https://e-qanun.az/framework/46943 электронная версия была использована в 30.09.2022

6. http://scientbook.com/article888 Человек в мире. Мир в человеке: актуальные проблемы философии, социологии, политологии и психологии: материалы XV Междунар. науч.-практ. конф. студ., асп. и молодых ученых (29–30 ноября 2012 г.). Раздел II. Социологические и политологические исследования / Перм. гос. нац. исслед. ун-т. — Пермь, 2012 электронная версия была использована в 02.10.2022

**РОЛЬ ТРУДА В СОЦИАЛИЗАЦИИ ЛИЧНОСТИ В СОВРЕМЕННОМ ОБЩЕСТВЕ**

***Аразова Хаяла***

**АННОТАЦИЯ**

В современном мире интеграция экономики страны в мировую систему, требует эффективного использования человеческого капитала, усиления профессионально-трудовой социализации. Недооценка данного процесса приводит к нехватке квалифицированных кадров.

**MÜASİR CƏMİYYƏTDƏ ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINDA ƏMƏYİN ROLU**

***Arazova Xəyalə***

**XÜLASƏ**

Müasir dünyada ölkə iqtisadiyyatının dünya sisteminə inteqrasiyası insan kapitalından səmərəli istifadə olunmasını, peşə-əmək sosiallaşmasının gücləndirilməsini tələb edir. Bu prosesin lazımınca qiymətləndirilməməsi ixtisaslı kadrların çatışmazlığına gətirib çıxarır.

**THE ROLE OF LABOR IN THE SOCIALIZATION OF PERSONALITY IN MODERN SOCIETY**

***Arazova Khayala***

**SUMMARY**

In the modern world, the integration of the country's economy into the world system requires the effective use of human capital, strengthening professional and labor socialization. Underestimation of this process leads to a shortage of qualified personnel.

# SOSİAL İŞ

# BMT-NİN UŞAQ HÜQUQLARI İLƏ BAĞLI QANUNVERİCİLİYİNƏ DAİR

***Zeynallı Səkinə Zeynal***
***AMİU-nun II kurs magistrantı***
***zeynallisakina@gmail.com***

***Açar sözlər:*** uşaq, hüquq, konvensiya, uşaq hüquqları, müdafiə, beynəlxalq, uşaq əməyi.
***Ключевые слова:*** ребенок, закон, конвенция, права ребенка, защита, международный, детский труд.
***Keywords:*** child, law, convention, child rights, protection, international, child labor.

Son illərdə uşaq hüquqlarının müdafiəsi beynəlxalq hüququn əsas aspektlərindən birinə çevrilmiş və kifayət qədər güc qazanmışdır. Ümumiyyətlə, demək olar ki, uşaq hüquqları bütün insan hüquqları ilə üst-üstə düşür, lakin onlar həmçinin uşaqların xüsusi həssaslıqlarına görə hüququ olan bir sıra xüsusi tədbirləri əhatə edir. Bir vaxtlar uşaqlar, evli qadınlar və əqli qüsurlu olanlarla yanaşı, fəaliyyət qabiliyyəti olmayan və buna görə də öz adlarına çoxlu sayda hüquqlara malik olmayan uşaqlar kimi təsnif edilirdilər. Qeyd etmək lazımdır ki, evli qadınlar və əqli qüsurlu olanlar xüsusi mühafizə tədbirləri üçün uyğun hesab olunurdu, uşaqlarda isə ümumiyyətlə müdafiə tədbirləri yox idi. Patria Potestas doktrinası kimi ən erkən qanunlar uşaqlara valideyn və adətən ata mülkiyyəti kimi yanaşırdı [12].

Millətlər Liqası beynəlxalq səviyyədə ilk səylərini göstərdi, yəni uşaqların hüquqlarının müdafiəsi ilə bağlı məsələləri həll etmək üçün komitə yaratdı, həmçinin 1921-ci ildə qadın və uşaqların satışını (1921-ci il tarixli Beynəlxalq Konvensiya), 1926-cı ildə köləliyi qadağan edən (Quldarlıq haqqında Konvensiya) konvensiyalar qəbul etdi. Liqanın Assambleyası tərəfindən 1924-cü ildə qəbul edilmiş Uşaq Hüquqlarına dair Cenevrə Bəyannaməsi dövlət öhdəlikləri baxımından deyil, "bütün millətlərin kişi və qadınları" tərəfindən bəyan edilən və qəbul edilən öhdəliklər baxımından formalaşdırıldı. Buna uyğun olaraq, "uşaq həm maddi, həm də mənəvi inkişafı üçün lazım olan vasitələri almalıdır" [1].

Uşaqların müdafiəsi üçün xüsusi tədbirlərdən bəhs edən ən azı 20 beynəlxalq sənəd var. Bunlardan bəziləri bunlardır: İnsan Hüquqları üzrə Amerika Konvensiyası (Maddə 19) [7], İnsan Hüquqları və Vəzifələri haqqında Amerika Bəyannaməsi [10], Uşaq Hüquqları Konvensiyası [8], Avropa Sosial Xartiyası [4], Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, İnsan Hüquqları [10 (Maddə 25(2))] və s.

Uşaq hüquqları ilə bağlı ən əhatəli müqavilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasıdır. Bu sənədin 1-ci maddəsində uşaq dedikdə on səkkiz yaşına çatmamış hər bir şəxs nəzərdə tutulur. Uşaq Hüquqları Konvensiyası uşaq hüquqlarının dörd aspektinə diqqəti cəlb edir, yəni [9]:

- uşaqların onlara təsir edən qərarların qəbulunda iştirakı;
- uşaqları ayrı-seçkilikdən, laqeydlikdən və istismardan qorumaq;
- uşaqlara zərərin qarşısının alınması;
- uşaqların əsas ehtiyaclarını təmin etmək.

Beynəlxalq Əmək Təşkilatının Konvensiyaları uşaq əməyi məsələsini ən geniş və tam şəkildə əhatə edir. Beləliklə, Beynəlxalq Əmək Təşkilatının Minimum Yaş Konvensiyası izah edir ki, məşğulluq üçün minimum yaş 15 yaşdır, inkişaf etməkdə olan ölkələr 14 yaşdan etibarən işə götürülə bilər. Yeniyetmənin sağlamlığına, təhlükəsizliyinə və mənəviyyatına xələl gətirə bilən,

təhlükəsi yüksək olan hər hansı növ işə qəbul üçün minimum yaş həddi 18 yaşdan aşağı olmamalıdır [5].

Silahlı münaqişənin təsirlərini məhdudlaşdırmaq üçün nəzərdə tutulmuş və həmçinin dövlətlərin silahlı münaqişə vəziyyətlərində uşaqları qorumaq və onlara qayğı göstərmək öhdəlikləri ilə bağlı müddəaları ehtiva edən Cenevrə Konvensiyalarına əsasən, uşaqların silahlı qüvvələrə cəlb edilməsi beynəlxalq humanitar hüququ pozur.

BMT-nin Uşaq Hüquqları Konvensiyası 15 yaşından kiçik uşaqların silahlı qüvvələrə cəlb edilməsini qadağan edir [10], lakin 1949-cu il Cenevrə Konvensiyaları I Protokolun 77-ci maddəsi 15 və 17 yaş arasında olan uşaqların beynəlxalq silahlı münaqişələrə cəlb edilməsindən qoruyur [6].

Qeyd etmək lazımdır ki, Uşaq Hüquqları Konvensiyasına uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair birinci Fakültativ Protokol uşaqların müdafiəsini gücləndirmək məqsədi daşıyır. O, həmçinin silahlı münaqişələrdə iştirak edə biləcək şəxslərin yaşını 18 yaşa qaldırır, qeyri-dövlət qüvvələrinin 18 yaşına çatmamış şəxsləri hərbi xidmətə cəlb etməməsi ilə bağlı müddəanı özündə əks etdirir [9].

Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə gəldikdə, beynəlxalq hüquq müəyyən edir ki, uşağın maraqları, hətta qanunla problem yaşayan uşaqlar üçün də vacib və üstündür [11].

CRC-yə 10 saylı Ümumi Şərh müəyyən edir ki, uşaqlara qarşı cinayət prosedurları yaşa uyğun və anlayışa əsaslanan şəkildə tətbiq edilməlidir. Cinayət törətməkdə təqsirli bilinən uşaqlar böyüklərdən ayrılmalıdırlar. Həbs şəraitinin müəyyən edilməsində uşaqların mənafeyi nəzərə alınmalıdır.

Avropa qanunvericiliyinə görə, dövlətlərin müəyyən təhsil sistemini təmin etmək öhdəliyi yoxdur, lakin dövlət təhsil verdiyi hallarda insanlara təhsilə çıxış imkanında ayrı-seçkilik etməməlidir.

Nəhəng irəliləyişlərə baxmayaraq, uşaq hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq sənədlər hələ də tam icra olunmayıb. Bir sıra ölkələrdə milyonlarla uşaq hüquqlarının pozulmasından əziyyət çəkməkdə davam edir, uşaqlar təhlükəli işlə məşğul olmağa, evlənməyə, müharibələrdə vuruşmağa sövq edilirlər. Belə hallar da uşaqlarda psixi və fiziki, həmçinin mənəvi sarsıntılara yol açır. Düşünürəm ki, bu səbəblərdən dolayı onlar öz uşaqlıqlarını yaşaya bilmirlər.

## ƏDƏBİYYAT


1. 26 sentyabr 1924-cü ildə Millətlər Liqası tərəfindən qəbul edilmiş Uşaq Hüquqlarına dair Cenevrə Bəyannaməsi. İnternet resursu http://souchastye.ru/wp-content/uploads/2014/05/Zhenevskajadeklaraziya-prav-rebenka-1924.docx
2. 30 sentyabr 1921-ci il tarixindən 31 mart 1922-ci il tarixədək Cenevrədə imzalanmaq üçün açıq olan Qadın və Uşaq Alverinə Qarşı Mübarizə üzrə 30 sentyabr 1921-ci il tarixli Beynəlxalq Konvensiya, İnsan Hüquqlarının və Azadlıqlarının Beynəlxalq Müdafiəsi, Moskva: Hüquq ədəbiyyatı, 1990-cı il.
3. 7 dekabr 1953-cü il tarixli protokolla düzəliş edilmiş Quldarlıq haqqında Konvensiya. Mövcud müqavilələr, sazişlər və konvensiyalar toplusu, yekun. SSRİ XVII və XVIII buraxılışları, M., 1960.
4. Avropa Sosial Xartiyası (03.05.1996-cı ildə Strasburqda qəbul edilmişdir). Beynəlxalq Müqavilələr Bülleteni, №4, aprel 2010-cu il.
5. Beynəlxalq Əmək Təşkilatının işə qəbul üçün minimum yaş haqqında 138 saylı Konvensiyası (Cenevrə, 26 iyun 1973-cü il). Beynəlxalq Əmək Konfransı tərəfindən qəbul edilmiş Konvensiyalar və Tövsiyələr. 1957-1990. T. II. Cenevrə.

6. Beynəlxalq silahlı münaqişələrin qurbanlarına dair 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarına I Əlavə Protokol (30 noyabr 1993-cü ildə düzəlişlə). İnsan Hüquqlarının və Azadlıqlarının Beynəlxalq Müdafiəsi, M., Hüquq ədəbiyyatı, 1990.
7. İnsan Hüquqları üzrə Amerika Konvensiyası (22 noyabr 1969-cu ildə San Xosedə bağlanmışdır). Beynəlxalq İnsan Hüquqları Aktları. Sənədlər toplusu. M. Norma-İNFRAM, 1998. S. 720-736.
8. Uşaq Hüquqları haqqında Konvensiya (BMT Baş Assambleyası tərəfindən 20 noyabr 1989-cu ildə təsdiq edilmişdir). SSRİ-nin beynəlxalq müqavilələr toplusu, XLVI buraxılış, 1993.
9. Uşaq Hüquqları Konvensiyasına kommunikasiya proseduru ilə bağlı Fakültativ Protokol Baş Assambleyanın 19 dekabr 2011-ci il tarixli 66/138 saylı qərarı ilə qəbul edilmişdir. Rusiya Federasiyasının Qanunvericilik Toplusu, № 6, 09.02.2009, m. 679.
10. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (BMT Baş Assambleyası tərəfindən 10.12.1948-ci ildə qəbul edilmişdir). Rus qəzeti 10.12.1998
11. Ümumi Şərh № 10 (2007) Yuvenal ədliyyədə uşaqların hüquqları CRC/C/GC/10, 25 aprel 2007-ci il. İnternet resursu: https://www.refworld.org.ru/type
12. Довлетмерзаева М.А. Юрисдикционные способы защиты прав детей в международном законодательстве / Поколение будущего: взгляд молодых ученых-2021. 2021. С. 305-309.

## BMT-NİN UŞAQ HÜQUQLARI İLƏ BAĞLI QANUNVERİCİLİYİNƏ DAİR

***Zeynallı Səkinə***

### XÜLASƏ

Bu məqalə beynəlxalq hüquqda uşaqların hüquqlarının və mənafelərinin qorunması ilə bağlı məsələlərin nəzərdən keçirilməsinə dair yazılmışdır. Məqalədə uşaqların hüquqlarının və mənafelərinin qorunması ilə bağlı beynəlxalq sənədlər araşdırılır, habelə uşaqların əsas hüquqları və onların bu hüquqlarının müdafiələri üzrə prinsipləri verilir.

## О ЗАКОНОДАТЕЛЬСТВЕ ООН О ПРАВАХ ДЕТЕЙ

***Зейналлы Сакина Зейнал***

### АННОТАЦИЯ

Данная статья написана на обзоре вопросов, связанных с защитой прав и интересов детей в международном праве. В статье исследуются международные документы, касающиеся защиты прав и интересов детей, а также основные права детей и принципы защиты этих прав.

## ABOUT THE UN LEGISLATION ON THE RIGHTS OF CHILDREN

***Zeinalli Sakina Zeinal***

### SUMMARY

This article is based on a review of issues related to the protection of the rights and interests of children in international law. The article examines international documents relating to the protection of the rights and interests of children, as well as the basic rights of children and the principles for protecting these rights.

# AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞI PROBLEMİ VƏ ONUN ÖLKƏDƏ YAYILMA SƏVİYYƏSİ

***Kərimova Gülcənnət Tofiq qızı***
***BDU-nun II kurs magistrantı***
***gulukerimova82@gmail.com***

***Açar sözlər:*** statistika, məişət zorakılığı, erkən nikah, zərərçəkmiş şəxs, cinayət hadisələri, cins bölgüsü
***Ключевые слова:*** статистика, насилие в семье, детский брак, потерпевший, место преступления, гендерное распределение
***Keywords*:** statistics, domestic violence, early marriage, victim, crime fact, gender ratio

Məişət zorakılığı istər dünyada, istərsə də Azərbaycanda vacib təhlükəsizlik məsələlərindən biri kimi daima müzakirə olunur.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən, məişət zorakılığı - yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə (məişət zəminində), aşağıdakı şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır:

• yaxın qohum olan ailə üzvləri (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlar;

• nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvad;

• qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslər, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslər;

• qanuni nikahda olmadan birgə yaşayan kişi və qadın, habelə onlarla birgə yaşayan yaxın qohumlar [1].

Cəmiyyətdə, bəzi iqtisadi sosial sferalarda məişət zorakılığı barədə maarifləndirmə zəif bəzən də yox dərəcəsindədir, bu da öz növbəsində zorakılıq hallarının qarşısının alınmasında əngəl yaradır. Bir çox qadın hətta məişət zorakılıöı ilə bağlı Qanunun mövcudluğundan belə xəbərsizdir. Və bu məlumatsızlıq qadınları istər ailədaxili zorakılıq zamanı öz hüquqlarını bilməsindən, bunu dilə gətirməsindən, istərsə də polis orqanlarına müraciətindən məhrum edir. Digər problem isə Azərbaycanda məişət zorakılığı məsələsi daha çox ailənin daxili məsələsi kimi qəbul olunur, az qala normal hala çevrilir, xüsusilə kənd yerlərində polisə müraciət edilsə belə, rəsmi olaraq cinayət hadisəsi kimi qeydə alınmır.

Hazırda hər 100 min qadına nisbətdə ailə münaqişəsi və məişət zorakılığı cinayətlərinə məruz qalmış qadınların sayı 17 nəfər təşkil edir. Bu rəqəm digər ölkələrlə, xüsusilə, inkişaf etmiş ölkələrlə, müqayisədə çox aşağıdır. Statistika göstərir ki, qanunun işlək olduğu Avropa ölkələrində belə, qadın hüquqları pozulur [4, s. 15-18].

Məişət zorakılığı ilə bağlı məlumat bankına daxil olan məlumatların təhlilinə görə, ötən il yarım ərzində Azərbaycanda məişət zorakılığına məruz qalan insanların 85,5 faizi qadınlar, 14,5 faizi kişilər olub. Araşdırmalar nəticəsində məlum olub ki, Azərbaycanda 2016-cı ildə 897 məişət zorakılığı ilə bağlı cinayət hadisəsi qeydə alınıb. Bunun nəticəsində 791 qadın, 4 yetkinlik yaşına çatmayan şəxs zərər çəkib, 29 qadın isə öldürülüb.

Rəsmi statistik rəqəmlərə görə, ötən il Azərbaycanda məişət zorakılığı ilə bağlı cinayət hadisələrinin sayı 2020-ci illə müqayisədə, 19 faiz artaraq 1500-ə yüksəlib. Məişət zorakılığına məruz qalmış şəxslərin 75-80 faizini qadınlar təşkil edib [3].

2021-ci il üzrə məişət zorakılığının Azərbaycanda yayılma səviyyəsi

Məişət zorakılığı (ailə münaqişəsi) zəmnində ümumi ölkə ərazisində 1499 cinayət qeydə alınmışdır. Onlardan 62 -i sərxoş vəziyyətində, 220 cinayət hadisəsi isə öncədən məhkumluq hayatı yaşamış və ya hüquq pozuntusuna yol vermiş şəxslər tərəfindən törədilmişdir. Statistika komitəsinin verdiyi məlumatlara əsasən - 45 qəsdən sağlamlığa ağır zərər vurma, 126 az ağır zərər vurma, 1202 yüngül xəsarət yetirmə, 7 əzab vermə, 6 öldürməklə və ya sağlamlığa zərər vurmaqla hədələmə halları müşahidə edilib. Məişət zorakılığı nəticəsində 59 qəsdən adam öldürmə faktı qeydə alınıb, 31 dəfə isə qəsdən adam öldürməyə cəhd edilib. Bu rəqəm ötən illərə nisbətdə xeyli aşağıdır. Belə ki, Daxili İşlər Nazirliyinin məlumatına görə, 2018-ci ilin təkcə 9 ayı ərzində məişət zorakılığı zəminində baş verən 678 cinayət faktı qeydə alınıb. Onlardan 35-i özünü öldürmə həddinə çatdırma ilə bağlıdır. Məişət zəminində baş verən cinayətlər nəticəsində 112 qadın özünü öldürüb. Onlardan 11 nəfəri azyaşlı qızlardır.

Statistikaya əsasən məişət zorakılığı cinayətləri nəticəsində zərərçəkənlərin ümumi sayı 1536 nəfər təşkil edir. Ümumi göstəriciyə həm şiddətə məruz qalan qadınlar, həm də kişilər daxildir. Qadınlar bu kateqoriyada üstünlük təşkil edir - 1205 nəfər. Onlardan 18 yaşadək uşaqlar 10 ( qızlar 3; oğlanlar 7), hamilə qadınların sayı isə 2 nəfər təşkil edir. Zərərçəkənlərin cins bölgüsündə, qəsdən adam öldürmə faktına əsasən, öldürülən şəxslərin faiz nisbəti qadınlarda 72,3 faiz, kişilərdə iso 27,7 faiz təşkil edir. Zorakılığa məruz qalmış qadınların faiz göstəricilərinə nəzər salsaq sağlamlığa ağır zərər vurma 54,2 faiz, az ağır zərər vurma 72,3 faiz, sağlamlığa yüngül zərər vurma 80,6 faiz, əzab vermə 77,8 faiz şiddət hallarına rast gəlinmişdir.

Erkən nikah doğurduğu fəsadlara və cəmiyyətə vurduğu ziyana görə dövrümüzün mühüm və aktual problemi olaraq qalmaqdadır. 2020-ci ilin yanvar-sentyabr aylarında erkən nikaha məcbur etmə ilə bağlı 17 cinayət işi olub. Ümumiyyətlə, Azərbaycanda 2012-2013-cü illərdə uşaq nikahlarının sayı 3 min 500-4 min civarında olubsa, indi bu rəqəm 350 civarındadır. Bu o deməkdir ki, uşaq nikahlarıının sayı 10 dəfə aşağı düşüb. 2019-cu ildə nikahları qeydə alınmış 18 yaşadək gəlinlərin sayı azalaraq 366, bəylərin sayı isə 1 nəfər olub. 2021- ci ilin statistikasına əsasən on səkkiz yaşadək gəlinlərin sayı 137 nəfər, bəylərin sayı isə 1 nəfər təşkil edir.

Erkən nikahlar nəticəsində dünyaya gələn uşaqların sayı isə 50 faiz azalıb. 2012-ci ildə bu rəqəm 4 min 800 idisə, 2020-ci ildə 2 min 300-dür. Ancaq bu o demək deyil ki, biz bu rəqəmlə kifayətlənməliyik. 2021-ci il üçün hər 1000 qadına( 15-19 yaşlı) düşən diri doğulanların sayı şəhərlərdə 19.6, kənd yerlərində isə 47,0 faiz təşkil edir [4].

Yaş və cins dinamikası: Əsasən 15-49 yaş arasında olan qadınlar daha çox zorakılığa məruz qalır. Zorakılığa məruz qalanların 20-25 %-i kişilər, 75-80 %-i isə qadınlardır. Yetkinlik yaşına çatmayanlar həyatlarının demək olar ki, bütün sferalarında məişət zorakılığı problemi ilə üzləşirlər. İstər şahidi olmaq, istərsə də zorakılığa məruz qalmaq hər bir yaş intervalında olan uşaqlara, hətta yeni doğulan körpələrə belə məhvedici təsir göstərir. Təəssüf ki, məişət zorakılığına məruz qalan uşaqların yaş kateqoriyası və cinsi barədə tam və dəqiq məlumatlar mövcud deyil.

Təhlil nəticəsində, zərərçəkənlərin yaşadığı ev təsərrüfatının gəlirləri ilə onların qadına qarşı zorakılığa məruz qalması arasında statistik baxımdan əhəmiyyətli korrelyasiya müəyyən edilməyib: sorğuya cəlb olunan və zorakılığa məruz qalan qadınların təqribən yarısı (44 faiz) orta gəlir səviyyəsinə malik olan ev təsərrüfatında yaşayırdı, qalanları isə demək olar ki, aztəminatlı (30 faiz) və yüksək gəlirli (26 faiz) ev təsərrüfatlarını təmsil edirdi. Əksər qadınların (86 faiz) uşaqları 18 yaşına çatmamışdır [3].

Məişət zorakılığının yayılma səviyyəsi bölgələrə üzrə müxtəlifdir. Əsasən cənub zonalarında bu hala daha çox rast gəlinsə də, müasir dövrdə Azərbaycanın demək olar ki, hər regionunda zorakılıq faktları qeydə alınıb. Gəlin 2021-ci il üçün zorakılığın regionlarda yayılma səviyyəsinə nəzər yetirək [2].

| 2021 | Məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkmiş şəxslər | Onlardan | |
|---|---|---|---|
| | | qadınlar | Yetkinlik yaşına çatmayanlar |
| Bakı şəhəri - cəmi | 551 | 469 | 6 |
| Naxçıvan Muxtar Respublikası | 3 | 3 | - |
| Abşeron-Xızı iqtisadi rayonu - cəmi | 175 | 143 | 1 |
| Dağlıq Şirvan iqtisadi rayonu - cəmi | 29 | 23 | - |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 95 | 71 | - |
| Qarabağ iqtisadi rayonu | 78 | 55 | - |
| Qazax-Tovuz iqtisadi rayonu | 81 | 60 | 1 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 81 | 60 | - |
| Lənkəran-Astara iqtisadi rayonu | 111 | 72 | - |
| Mərkəzi Aran iqtisadi rayonu | 108 | 87 | 2 |
| Mil-Muğan iqtisadi rayonu | 51 | 32 | - |
| Şəki-Zaqatala iqtisadi rayonu | 67 | 53 | - |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 7 | 5 | - |
| Şirvan-Salyan iqtisadi rayonu | 99 | 72 | - |

Statistikaya nəzər salsaq, görərik ki, gender əsaslı zorakılıq halları ən çox Bakıda qeydə alınıb. Bunun əsas səbəbi - baş verən halların rəsmi olaraq qeydə alınmaması, gizlədilməsi, zərərçəkənlərin susturulması, dırnaqarası ailə həyatının dağılmasının qarşısının alınması, hər nə qədər yanlış düşüncə olsa da övladlarının gələcəyini düşünmək adına, ictimai qınaq obyektinə çevrilmək qorxusu və sairədir. Təəssüf ki, regionlarda, xüsusuilə də kəndlərdə hüquq mühafizə orqanlarına müraciət etmək insanlar tərəfindən qəbuledilməz hala çevrilib, problemin uzanmasından, daha da böyüməsindən narahat olurlar. "El içində bizi barmaqla göstərəcəklər" – məhz bu cür düşüncə tərzi insanların həyatını məhv edir və tərbiyəvi - maarifləndirici işin aparılması zərurətini yaradır.

## ƏDƏBİYYAT

1. Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun, Bakı, 22 iyun 2010
2. Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/
3. Qanna Gerasimenko, BMTƏF/AQUPDK (2020) Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi yükü. Bakı, Azərbaycan, 83 səh.

4. Məişət zorakılığı hallarının qarşısının alınması istiqamətində Sosial işin tətbiqi Beynəlxalq elmi-praktiki konfransının materialları. Bakı, ADMİU 2021, __səh.
5. 2021-ci ildə məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərin cins bölgüsü https://stat.gov.az/source/gender/
6. Laura E. Andersin, Domestic Violence: Contemporary interventions and The rise of specialized domestic violence units, 2014, Virginia University.

# AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞI PROBLEMİ VƏ ONUN YAYILMA SƏVİYYƏSİ

***Kərimova Gülcənnət***

## XÜLASƏ

Məqalə Əsasən kişilər tərəfindən törədilən məişət zorakılığı barədə ümumi məlumat vermək məqsədilə yazılmışdır. Məqalə eyni zamanda Azərbaycanda baş verən zorakılıq halları, zərərçəkənlərin faizlə nisbəti, rəsmi olaraq qeydə alınmış faktların regionlar üzrə bölgüsü və zorakılığa məruz qalan uşaqlar barədə məlumatları özündə əks etdirir. Azyaşlı uşaqların eekən məcburi evləndirilməsi faktları və bu kimi halların ötən illərlə müqayisəsi baxımından məqalə böyük əhəmiyyət kəsb edir.

# ПРОБЛЕМА ДОМАШНЕГО НАСИЛИЯ И ЕГО РАСПРОСТРАНЕННОСТЬ В АЗЕРБАЙДЖАНЕ

***Каримова Гюльджаннат***

## АННОТАЦИЯ

Статья в основном написана для предоставления общей информации о домашнем насилии, совершаемом мужчинами. В статье также приведены статистические данные о случаях насилия в Азербайджане, процент жертв, распределение официально зафиксированных фактов по регионам, а также дети, подвергшиеся насилию. Это очень важная статья, поскольку в ней приводятся как факты о ранних и принудительных браках детей, так и сравнение таких случаев с предыдущими годами.

# THE PROBLEM OF DOMESTIC VIOLENCE AND ITS PREVALENCE IN AZERBAIJAN

***Karimova Gulcannat***

## SUMMARY

The article is mainly written to provide general information about domestic violence perpetrated by men. The article also includes statistics on cases of violence in Azerbaijan, percentage of victims, distribution of officially recorded facts by region, and children exposured to violence. The article also provides statistical data on cases of violence in Azerbaijan, the percentage of victims, the distribution of officially recorded facts by region, as well as children who have been subjected to violence. This is high – importance article because , it provides both - facts about early and forced marriages of children and comparison of such cases with previous years.

# QAÇQINLIQ VƏ MƏCBURİ KÖÇKÜNLÜK ANLAYIŞI, ONU DOĞURAN ƏSAS SƏBƏB VƏ AMİLLƏR

*Əliyeva Pərvin Mətləb qızı*
*ADMİU-nun II kurs magistrantı*
**eliyeva.pervin21@gmail.com**

***Açar sözlər:*** erməni təcavüzü, qaçqınlıq, məcburi köçkünlük, səbəb və nəticələr
***Ключевые слова:*** Армянская агрессия, беженцы, вынужденное переселение, причины и последствия
***Keywords**:* Armenian aggression, refugees, forced displacement, causes and consequences

Qaçqın və məcburi köçkünlüyü törədən səbəb və nəticələrin araşdırılması sosiologiya elminin prioritet sahələrindən biridir. Bu sahədə sosiologiya elmində bəzi qeydləri çıxmaq şərti ilə fundamental tədqiqat işləri aparılmamışdır.

Dövlətin qaçqın və məcburi köçkün olmuş şəxslərə yardım istiqamətində sosial siyasətindən danışarkən ilkin olaraq qaçqın və məcburi köçkünlük anlayışına aydınlıq gətirilməlidir. Qaçqın və məcburi köçkün leksemləri Azərbaycan dilində 1988-ci ildən işlənməyə başladı. Bu dövrdə Qərbi Azərbaycandan Bakıya və respublikamızın müxtəlif bölgələrinə çoxlu sayda - 250 mindən çox qaçqın və məcburi köçkün axını baş verdi. Qaçqın və məcburi köçkün anlayışlarına Azərbaycan Respublikasının qanun kitablarında aydınlıq gətirilməyə başlanıldı. Məsələn, 1992-ci ilin 22 sentyabrında "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikasının qanununda göstərilir ki, " Milliyyətinə, irqi və vətəndaşlıq əlamətinə, dini etiqadına, dilinə, habelə siyasi əqidəsinə, müəyyən sosial qrupa mənsubiyyətinə görə təqibə məruz qalması, həyatına, ailəsinə, əmlakına real təhlükə yaranması ilə əlaqədar daimi yaşadığı dövlətin onu müdafiə etməsindən istifadə edə bilməməsi, yaxud təhlükəyə görə bu müdafiədən istifadə etmək istəməməsi üzündən yaşadığı ölkənin hüdudlarından kənarda olan. Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslər Azərbaycan Respublikası ərazisində "qaçqın", Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçən şəxslər və ya başqa ölkədə daimi yaşayış yerini tərk etməyə məcbur olub Azərbaycan Respublikasına gəlmiş Azərbaycan Respublikasının vətəndaşları "məcburi köçkün" sayılır [5].

Azərbaycan respublikasında o şəxslər qaçqın hesab olunmuşlar ki, onlar erməni faşistlərinin amansız təcavüzündən xilas olma yolunu məcburi köçkünlükdə görmüş və 1000 illərlə yaşadıqları dədə-baba torpaqlarını tərk etməli olmuşlar. Qaçqın və məcburi köçkünlük anlayışı sinonim dubletlərdir və bu amansız olayla üzləşən soydaşlarımız öz doğma vətənlərində ermənilərin hərbi təcavüzü nəticəsində məcburi köçkün və qaçqın vəziyyətinə düşmüşdülər. Ümummilli liderimiz, Ulu öndərimiz, xalqımızın böyük xilaskarı Heydər Əliyevin vurğuladığı kimi, "XX əsrdə Azərbaycan tarixinin ən faciəli səhifələri qaçqınlıq və məcburi köçkünlərlə bağlı olmuşdur. Azərbaycanın geostrateji mövqeyi, zəngin təbii sərvətləri regionda maraqları olan qüvvələri azərbaycanlıların öz tarixi torpaqlarından zorla köçürülməsinə sövq etmiş. ermənilərin daha çox torpaq əldə etmək cəhdləri isə 1905, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə azərbaycanlıların öz yurdlarından didərgin salınması ilə nəticələnmişdir" [6;7].

Keçən yüzilliyin 80-cı illərindən etibarən sovet quruluşunda ideoloji yeniləşmələr özünü büruzə verirdi. 1985-ci ilin yazında Sov. İKP MK-nın plenumundan sonra keçmiş sovet cəmiyyətini dəyişdirən proseslər hərəkətə gəldi. Həmin proses əvvəlcə ölkənin sosial iqtisadi inkişafını sürətləndirmək adı ilə ortaya atılmışdısa, sonradan buna yenidənqurma adını verdilər. Aşkarlıq va demokratiya anlayışları insan təfəkkürünün inkişafına tədricən təsir göstərməyə başladı. İnsanların dünyagörüşündə əsaslı, köklü dəyişikliklərlə yanaşı cəmiyyətdə plüralizmə

fikir müxtəlifliyinə geniş meydan verildi. Müasir insanın həyatında fikir və dünyagörüşün müxtəlifliyi qüvvətləndi. Bu da tədricən çürüməkdə olan marksist-leninçi dünyagörüşünün iflasına gətirirdi. Beləliklə, cəmiyyətdə vahid, dəyişməz sosial, milli şüur əvəzinə, ümumbəşəri dəyərlərin roluna üstünlük verən şüur formalaşırdı. Qısa zaman kəsiyində demokratiya, aşkarlıq və yeni təfəkkür inkişaf etdikcə sovet qu ruluşunun eybəcərlikləri ortaya çıxır və sistem güclü şəkildə tənqid hədəfinə çevrilirdi. Sözdə müstəqil respublikalar hesab edilən, əslində isə 70 il Rusiyanın boyunduruğunda olan ölkələr müstəqilliyə can atırdılar. Yenidənqurma keçmiş sovet respublikalarında milli müstəqillik şüurunu oyatdı və onu sürətlə dirçəltdi. Bununla da sovet sisteminə daxil olan bütün respublikalar öz milli müstəqillikləri uğrunda hərəkata başladılar. Respublikalarda xalq hərəkatı genişləndikcə, möhkəm özülə və bünövrəyə əsaslanmayan SSRİ-nin laxlaması prosesi sürətləndi və nəticədə dağıldı. Amerika tənqidçisi K.Klark bunu zamanın yetirdiyi revanşist dalğa hesab edərək yazmışdır: "Bu, Rusiyanın tabeliyində olan dövlətlərin milli cismindən totalitar ideologiyanın iblislərinin qovulması prosesinin başlanğıcı idi" [1,s.26]. Bu dövrdə öz dövlət müstəqilliyinə yenidən qovuşan, daha doğrusu, onu bərpa edən respublikalardan biri də Azərbaycan oldu.

1988-ci ilin əvvəllərindən etibarən soydaşlarımız Qərbi Azərbaycandan - öz dədə-baba yurdlarından, doğma torpaqlarından kütləvi şəkildə qovulmağa başladı. Ermənistanda, daha sonra isə Dağlıq Qarabağda soydaşlarımıza qarşı etnik təmizləmə yürüyüşü geniş vüsət aldı. Bu dövrdə insan hüquqları kütləvi şəkildə pozulur, azərbaycanlılar öz dədə-baba yurdlarından qovulur, amansızcasına məhv edilirdi. "Bu xalqımıza qarşı elan edilməmiş müharibə, genosid siyasəti idi. Vətən üçün həlledici döyüşlər məqamı çatmışdı" [2,s.8]. Qaçqınlıq və məcburi köçkünlük anlayışı Azərbaycan mətbuat orqanlarına 1988 - ci ilin yanvar ayından başlayaraq daxil oldu. Bu dövrdən etibarən hər iki söz sinonim dubletlər kimi mətbuat orqanlarında işlədilməyə başladı.

Yaxın tariximizdən məlumdur ki, 1988-ci ilin yanvar ayından başlayaraq daşnak terror qrupları və təxribat dəstələri Ermənistan ərazisində zorakılıq aktlarına start verdilər. Qərbi Azərbaycandan ilk qaçqın dəstələrinin Azərbaycan-a axını başladı. 1988-ci ilin fevral ayında Daşnaksütyun partiyasının emissarları Xankəndinə gəlmiş. DQMV-nin Ermənistan SSR-in tərkibinə qatılması ilə bağlı imza toplamağa başlamışlar. Bu tələblə fevral ayının ortalarında mitinqlərə başlanılır, həmin ayın 21-də isə erməni-daşnak faşistlərinin təkidi ilə DQMV XDS-nin sessiyası keçirilir. Sessiyada DQMV-nın Ermənistana birləşdirilməsinə dair qərar qəbul olunur. Erməni-daşnak faşistlərinin 22 fevral 1988-ci il tarixdə azərbaycanlıların Əsgəran üzərinə dinc yürüş iştirakçılarından iki gənci güllələməsi, Sumqayıtda fitnəkarlıq məqsədi ilə soydaşlarını qətlə yetirmələri vəziyyəti daha da gərginləşdirir. Ermənistan ərazisindən azərbaycanlı soydaşlarımızın qovulması kütləvi xarakter alır.

Bu bədnam işin necə vüsət almasını tədqiqatçı Ə.Əroğlu belə xarakterizə edir: «Ermənistan SSR AS 15 iyun 1988-ci ildə DQMV-nin Ermənistan SSRİ-nin tərkibinə daxil olması barədə qərar qəbul etməsi bu işi daha da sürətləndirdi. Xankəndində mitinqlər və nümayişlərin səngiməsinə ara verilmir. DQMV XDS 12 iyul 1988-ci il tarixdə sessiya çağırır və DQMV-nin Azərbaycan SSR-nın tərkibindən çıxarılmasına dair qərar qəbul edir. Mərkəzin göstərişi ilə Azərbaycan SSR əhalisindən quş tüfəngi, məktəblərin hərbi kafedralarından və hərbi hazırlıq kabinalarından, respublika daxili işlər orqanlarından avtomat silahlar yığılır. Halbuki bu dövrlər erməni-daşnak faşistlərinin terror qrupları avtomat silahlarla təmin olunduğu bir dövr kimi xarakterizə olunur. 1988-ci il noyabr ayının 7-də "Qarabağ komitəsi" İrəvanın mərkəzi meydanında Daşnaksütyunun bayrağını qaldırır [3,s.241]. Bununla da azərbaycanlıların son nəfərinədək Ermənistan SSR ərazilərindən çıxarılmasına ümumerməni təşkilatları birgə qərar çıxarır. Erməni-daşnak faşistləri Azərbaycanda gərginliyi artırmaq üçün daha bir pozucu vasitəyə əl atırlar. Azərbaycanın kurort şəhəri olan Şuşanın havasını çirkləndirilməsinə səbəb olacaq

İrəvan Kanaker alüminium zavodunun Topxana meşəsində sexinin tikintisinə qərar verirlər. Ancaq bütün Azərbaycan ayağa qalxdıqdan, Gəncə şəhərində əhalinin hərbiçilərlə toqquşmasından, üç nəfər əsgərin həlak olmasından sonra bu qanunsuz tikinti 23 noyabr 1988-ci il tarixdə dayandırılır. 1988-ci ildə nəhayət zaman-zaman Azərbaycan türklərini məhrumiyyətlərə düçar edən erməni daşnak faşistləri son nailiyyətlərini həyata keçirirlər. Türksüz Ermənistan yaratmaq istəklərinə nail olurlar. 1989-cu ildən başlayaraq bütün güc və qüvvələrini Azərbaycan Respublikası ərazisinə yönəldirlər.

Nəhəng Sovetlər birliyinin dağılması, uzun sürən keçid dövrünün çətinlikləri, torpaqlarımızın iyirmi faizinin düşmən əlinə keçməsi, bir milyondan artıq günahsız, dinc soydaşımızın öz doğma yurd-yuvalarından didərgin salınması ötən əsrin 90-cı illərindən cəmiyyətdə sosial ziddiyyətlərin yaranmasına səbəb oldu. Sürətlə gedən təbəqələşmə nəticəsində cəmiyyətdə bir qrup son dərəcə imkanlı, firavan həyat sürənlər və buna tərs mütənasib olaraq, həyat şəraiti olduqca ağırlaşan yoxsullar ordusu yarandı. Ziyalıların, söz-sənət adamlarının güzəranı kəskin şəkildə ağırlaşdı. Ləyaqətli ziyalı insanlarımızı qaçqınlıq, didərginlik dəhşətli həyat sınaqları ilə üz-üzə qoydu... Təbii ki, bütün bu olaylar dəhşətli faciələr, sosial ziddiyyətlərin kəskinləşməsi Azərbaycan dövlət rəhbərlərinin diqqətindən kənarda qala bilməzdi. Qərbi Azərbaycandan qovulmuş məcburi köçkünlərin problemləri, həyat məişət şəraitinin həddən artıq pis vəziyyətə düşməsi Azərbaycanın paytaxtı Bakıda fasiləsiz mitinqlərə rəvac verdi. Sosial ziddiyyətlər ağlasığmaz dərəcədə dərinləşmişdi.

Qarabağ hadisələri və quruluş dəyişmələrinin təsiri nəticəsində yaranan, baş alıb getməkdə olan problemləri, sosial ədalətsizlik və kəskin ziddiyyətləri xalqımız çox gözəl şəkildə görürdü. Yurdunu yuvasını itirmiş, elindən-obasından ayrı düşmüş Qərbi azərbaycanlı soydaşlarımız acınacaqlı həyat tərzi sürürdülər. Azərbaycanda yaranmış hakimiyyətsizlik onların sosial problemlərini həll etmək iqtidarında deyildi. Acınacaqlı sosial ziddiyyətlər baş alıb gedirdi. İxtiyar sahibləri yalnız öz şəxsi mənafelərini güdür, cəmiyyətdə hökm sürən özbaşınalıqlar, qanunsuzluqlar tüğyan edirdi. Bir tərəfdən əzablar, ehtiyaclar, işgəncələr içində boğulan qaçqın, köçkün, kimsəsiz, imkansız, evi eşiyi olmayan, bir qarın çörəyə möhtac olan soydaşlarımız, bir tərəfdən isə get-gedə sürətlə varlanan, yaranmış vəziyyətdən istifadə edərək özlərinə hər cür rahatlıqla təmin edilmiş həyat şəraiti quran, müxtəlif modelli xarici maşınlarda şütüyən alverçilər, xalq vətən sevgisindən uzaq olan insanlar ordusu yaranmağa başlamışdı. Bu azmış kimi 1993-cü ildə bu olaylara Qarabağdan qaçqın və məcburi köçkün vəziyyətinə salınmış soydaşlarımızın problemləri də əlavə olundu. Onlar da respublikamızın müxtəlif bölgələrinə səpələnərək evsiz-eşiksiz, səfalətli vəziyyətə düşdülər. Ötən əsrin 88-93-cü illər arasındakı ictimai-sosial mənzərə təxminən bu cür idi. Nə yaxşı ki, millətə, xalqa arxa duran, dayaq olan tapıldı. Bu xilaskar ulu tanrının xalqımıza bəxş etdiyi Ulu öndərimiz Heydər Əlirza oğlu Əliyev oldu. Onun hakimiyyəti illərində sosial ziddiyyətlər tamamilə öləzidi. İnsanlar arasında doğmalıq, bərabərçilik prinsiplərinə riayət olunmağa başladı, mənəm-mənəmlik, dərəbəylik edənlərə dərs verildi. Qanunsuz silah gəzdirənlər islah əmək koloniyalarına göndərildi. Hakimiyyət sosial bəlalarının diaqnozunu düzgün təyin etdi, sosial bəlalardan qurtuluş yolunu müdrik rəhbərimiz, xalqımızın ağsaqqalı Heydər Əliyev doğru-düzgün göstərdi. Bu müdrik siyasətçi sosial ziddiyyətlərin törənmə səbəblərini çox gözəl bildiyindən milləti sosial bəlalardan xilas etməyə müvəffəq oldu.

Azərbaycan xalqı iki əsr bundan öncə başlamış və müxtəlif illərdə, eyni zamanda 1988-1994-cü illərdə bir daha təkrarlanan, daha doğrusu erməni- daşnak faşistləri tərəfindən törədilən qətliamların dəhşətini son dərəcə ağrılı bir problem kimi yaşamalı oldu. XIX əsrin ilk illərindən üzü bəri imperiya qüvvələrinin dirijor çubuğu ilə hərəkətə gətirilən və himayə olunan erməni-daşnak faşizminin vəhşiliyi və vəhşanəliyi iyrənc və amansız bir kabus kimi 30 il vətənimizin başı üstdə dolaşdı və bu amansız dolaşmalar ictimai-siyasi həyatımıza məcburi köçkünlük və

qaçqınlıq anlayışlarını gətirdi. İkinci Qarabağ müharibəsi-Vətən müharibəsində "Dəmir Yumruq" əməliyyatı ilə başda Ali Baş Komandanımız cənab İlham Əliyev olmaqla vətən oğullarımız ayağa qalxdı. Qarabağ torpaqları 3000-ə qədər şəhidimizin müqəddəs qanı ilə suvarıldı. Erməni faşist daşnaklarının "Dənizdən-dənizə" erməni dövləti yaratmaq ideyası məhv edilərək tarixin arxivinə göndərildi. Bu barədə tədqiqat işimizin müvafiq paraqraflarında geniş bəhs edəcəyik.

Ermənilər xəstə bir millətdirlər. Vaxtı ilə hind qaraçıları qismində İran və Türkiyə ərazilərinə gələn ermənilər sonradan bu dövlətlərdən də torpaq iddiasına düşdülər, sonradan Azərbaycanın qərb və Qarabağ bölgələrində rus imperiyasının köməkliyi ilə yerləşdirildilər. Tarixdə «erməni xəstəliyinin» mövcudluğu, onun etiologiyası, patogenezi, klinik formaları və gedişi haqqında yazılı məlumatlar və araşdırmaların aparılması XVII əsrdən başlayır. Elə həmin dövrlərdən də tibb aləmində bu xəstəlik elmi tədqiqat obyektinə çevrilib. Bu sahədə görkəmli alimlərdən H.Holler, Y.Şohar, M.Pare, T.Lehman, Y.Pednad, S.Saqal, Y.Tarayev, V.Nosov, O.Veneqradov və başqaları çalışmışlar. Bu xəstəliyə «vaxtaşırı xəstəlik» adı da verilib. Həkimlərin qənaətinə görə bu xəstəliyə ancaq erməni millətindən olan adamlar tutulur. Bu xəstəliyə tutulan başqa millətdən olan pasiyentlərin nəsil şəcərələri sahəsində aparılan araşdırmalar zamanı onların da ermənilərlə qan qohumluğu olması aşkar edilmişdir. Bu xəstəlik əvvəllər özünü 4 klinik formada qarın, döş, oynaq ağrıları və qızdırma şəklində göstərirdisə, sonuncu yüzillikdə bu xəstəliyin 5-ci ruhi-əsəb forması da üzə çıxmışdı.

“Tarixi «erməni xəstəliyinin» bu millətin genlərində mutasiya etməsi - bu növ xəstəliyə keçməsi, sözsüz ki, Daşnaksutyun partiyasının yaranması və onun erməni xalqının həyatında oynadığı mənfur rolun nəticəsi kimi özünü göstərir. Bu forma daşnak isteriyası kimi xarakterizə olunur. Bu forma «erməni xəstəliyinin» ən təhlükəlisidir. Əsas klinik əlamətləri patoloji yalançılıq, özünə vurğunluq ideyaları, təqibetmə sayıqlaması, imperiativ sayıqlamalar, «erməni sadizmi», məkr və hiyləyə aludəçilik, avantüristlik, təhlükəli və fitnəkar həmlələrə meyillik, dolanbac hərəkətlərə vurğunluq şəklində özünü büruzə verir”[4,s.38].

Qaçqınlıq və məcburi köçkünlük anlayışı özündə nələri ehtiva etdirir? Bu anlayışı izah etmək üçün Dağlıq Qarabağdan və onun ətraf rayonlarından qaçqın və məcburi köçkün vəziyyətinə salınmış soydaşlarımızın yaşayış tərzinə nəzər salmaq lazımdır. 30 il müddətində dövlət rəhbərliyimiz tərəfindən saysız-hesabsız sərəncam və fərmanların verilməsinə baxmayaraq hələ də sınıq-salxaq yük vaqonlarında, qışlaqlardakı mal-qara tövlələrində, yol kənarlarındakı torpaq qazmalarda, çadır şəhərciklərində, fin qəsəbələrində, məktəbli düşərgələrində, uşaq bağçalarında, klub və yataqxanalarda, ümumiyyətlə, yaşayış üçün nəzərdə tutulmayan ictimai malikanələrdə və tikintisi yarımçıq qalmış binalarda ağır, dəhşətli və məşəqqətli həyat tərzi keçirməyə və məhv edilməyə məhkum olunmuş qaçqın və məcburi köçkünlərimiz vardır. 30 il müddətində əlbəttə dövlətimiz, respublikamızın müxtəlif bölgələrində müasir mənzillərlə təmin etməsinə baxmayaraq bu problemin həlli vəziyyəti 40%-dən çoxu deyildir. Qaçqın və məcburi köçkünlərin mənzil şəraitlərinin yaxşılaşdırılması barədə verilən fərman və sərəncamlara uyğun yerinə yetirilməsinə baxmayaraq hələ də bu sahədə problemlər qalmaqdadır.

## ƏDƏBİYYAT


1. Кларк К. Историко-филологический журнал АН Армянской ССР. Ереван, 1983, № 4, стр 8,16
2. Mehrəliyev E. Müharibə və ədəbiyyat. Bakı: Azərnəşr, 2000, 227 s.
3. Əroğlu Ə. «Erməni-daşnak faşizmi və Azərbaycan». «Təhsil», Bakı, 2007, 410 s.
4. Vəliyev İ. Dünya susur, tarix susmur. Bakı: Gənclik,1994, 432 s.
5. https://e-qanun.az/framework/7750

6. https://e-qanun.az/framework/2822
7. http://idp.gov.az/az/care/parent/21

## QAÇQINLIQ VƏ MƏCBURİ KÖÇKÜNLÜK ANLAYIŞI, ONU DOĞURAN ƏSAS SƏBƏB VƏ AMİLLƏR

*Əliyeva Pərvin Mətləb qızı*

### XÜLASƏ

Keçən əsrin 80-ci illərinin sonlarında sovet ittifaqı rəhbərliyində təmsil olunan ermənilər SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Azərbaycan SSRİ-nin tərkibində 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin qopardılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçdilər. Erməni şovinistləri bu dövrdə müxtəlif mətbu orqanlarda guya Dağlıq Qarabağın tarixən Ermənistan torpağı olduğu barədə iddiasız və cəfəngiyat fikirlərlə çıxış etməyə başladılar. 1987-ci ilin sonlarından Ermənistan SSR-in müxtəlif bölgələrindən soydaşlarımız öz doğma torpaqlarından qəddarlıqla deportasiya olunmağa başladılar. Qərbi Azərbaycanın (indiki Ermənistan) Amasiya, Ararat, İcevan, Yeğeqnadzor, Meğri, Sisyan, Gorus, Qukark, Vardenis, Noyemberyan və s. şəhər və rayonlarından Ermənistanda yaşayan 250 mindən çox soydaşlarımız qovuldular. Qarabağın 7 rayonunda isə bu prosesə 1990-ci ilin əvvəllərində başlanıldı. Məqalədə bu acı və faciəli prosesdə yaranmış qaçqınlıq və məcburi köçkünlük anlayışlarına aydınlıq gətirilir və onun acı nəticələrindən danışılır.

## ПОНЯТИЕ БЕЖЕНЦА И ПРИНУДИТЕЛЬНОГО ПЕРЕМЕЩЕНИЯ, ОСНОВНЫЕ ПРИЧИНЫ И ФАКТОРЫ, ВЫЗВАННЫЕ ЭТИМ

*Алиева Парвин*

### АННОТАЦИЯ

В конце 80-х годов прошлого века армяне, представленные в руководстве Советского Союза, воспользовались ослаблением центральной власти СССР и предприняли целенаправленный ход по отделению в составе образованной в 1923 году Нагорно-Карабахской автономной области. Азербайджанской СССР и объединить ее с Армянской ССР. В этот период армянские шовинисты стали выступать в различных СМИ с непритязательными и бессмысленными идеями о том, что Нагорный Карабах исторически является землей Армении. С конца 1987 года наших соотечественников из разных регионов Армянской ССР стали жестоко депортировать с родной земли. Западный Азербайджан (ныне Армения) Амасия, Арарат, Иджеван, Ехегнадзор, Мегри, Сисян, Горус, Гукарк, Варденис, Ноемберян и др. Более 250 тысяч наших соотечественников, проживающих в Армении, были изгнаны из своих городов и районов. В 7 районах Карабаха этот процесс начался в начале 1990-х годов. В статье уточняются понятия беженца и вынужденного переселения, возникшие в этом горьком и трагическом процессе, и рассказывается о его горьких последствиях.

## THE CONCEPT OF REFUGEE AND FORCED DISPLACEMENT, THE MAIN CAUSES AND FACTORS THAT CAUSED IT

***Aliyeva Parvin***

**SUMMARY**

At the end of the 80s of the last century, the Armenians represented in the leadership of the Soviet Union took advantage of the weakening of the central power of the USSR and made a purposeful move to separate the Nagorno-Karabakh Autonomous Province established in 1923 within the Azerbaijan USSR and merge it with the Armenian SSR. During this period, Armenian chauvinists began to speak in various media outlets with unpretentious and nonsensical ideas that Nagorno-Karabakh was historically the land of Armenia. From the end of 1987, our compatriots from different regions of the Armenian SSR began to be brutally deported from their native land. West Azerbaijan (now Armenia) Amasia, Ararat, Ijevan, Yeghegnadzor, Megri, Sisyan, Gorus, Gukark, Vardenis, Noyemberyan, etc. More than 250 thousand of our compatriots living in Armenia were expelled from their cities and regions. In 7 districts of Karabakh, this process was started at the beginning of 1990. The article clarifies the concepts of refugee and forced displacement that arose in this bitter and tragic process and talks about its bitter consequences.

# NATAMAM AİLƏLƏRİN FORMALAŞMASINDA AİLƏDAXİLİ MÜNAQİŞƏLƏRİN ROLU

***Eminova Aytac***
***ADMİU-nun II kurs magistrantı***
***aytaceminova 1997@mail.ru***

***Açar sözlər:*** Evlilik, ailə, natamam ailə, ailədaxili münaqişələr, xəyanət, qısqanclıq.
***Ключевые слова:*** Брак, семья, неполная семья, внутрисемейные конфликты, измена, ревность.
***Keywords****:* Marriage, family, incomplete family, intra-family conflicts, betrayal, jealousy.

Son dövrlərə diqqət yetirsək görərik ki,qloballaşma,inkişaf, inteqrasiya və şəhərləşmənin aralıqsız şəkildə dəyişməsi cəmiyyətdə əsas faktor olan ailə dəyərlərinə birmənalı şəkildə təsir edir.Nəticədə insanların psixoloji gözləntiləri və həmin dövr üçün aktual tələbləri dəyişir.

Qeyd etmək lazımdır ki,bütün dünyada evlilik və ailə ifadələri arasında möhkəm bir əlaqə var və həmçinin bu əlaqələrə cəmiyyətlər tərəfindən müxtəlif yanaşmalar irəli sürülmüşdür.Bəzi tətqiqatçıların fikrinə görə bu cəmiyyət tərəfindən qəbul olunan 2 cinsin birgə yaşayış formasıdır. Bəzilərinə görə isə iki insanın öz iradəsinə və birgə yaşama istəklərinin qanunlara uyğun həyata keçirilməsidir.Evlilik irəli sürülmüş fikirlərdən asılı olmayaraq dərk edilmiş,doğmalıq münasibətləri üzərində qurulmuş fəaliyyətin məhsuludur və xüsusi şərtləri var. Bu şərtlərin müəyyən edilməsi və dəyişməsi isə hər xalqın, hər etnosun, hər millətin və hər bir dövlətin qanunlarından aslıdır.Lakin bir ortaq nöqtəsi vardır ki, o isə evliliyin ortaq müqaviləyə əsaslanmasıdır. Əsasən ailə həyatı qurmağa addım atan zaman bu prosesin birinci mərhələsini əhatə edən həyat yoldaşını düzgün seçmək,evlilik forması və evlənmək yaşı cəmiyyətdən cəmiyyətə və hətta eyni cəmiyyətdəki fərqli gəlir, mövqe, təhsil, dini inanc, mədəniyyət və yaşayış yerindən asılı olaraq dəyişir.

Evlilik mərhələlərini belə qeyd etmək olar: tanışlıq, söz, nişan, nikah və toy. Hər bir cəmiyyətin sosial mədəniyyətinə,adət ənənələrinə uyğun olaraq bu mərhələlər həyata keçirilir. Ailə həyatı qurmağa hazırlaşan şəxslər ailə quraraq daha firavan yaşamaq, xoşbəxt gələcəyə doğru bəzi istəkləri planlaşdırır.Məsələn övlad sahibi olmaq, birgə təsərrüfat qurmaq, onu idarə etmək, tənha qalmamaq, ortaq bir hayatı davam etdirmək və s.bu kimi gözləntiləri olur. Lakin, ailə münasibətləri ilə evlilik həyatına dair gözləntilər arasında yaranan uyğunsuzluq evliliyin sonlandırılması ehtimalını artırır. Ailədə xoşbəxtliyin əsas meyarlarından biri "Mən" və "Sən" faktorunun “biz” ola bilməsidir .Əgər ailə hissiyatı xoşbəxt olmağı öz üzərinə götürürsə səadət öz ayaqları ilə həmin ailəyə varid olacaqdır. O ki, qaldı “Mən” lərin “Bizə” dəyişməsi bu, qadın və kişinin ailə quruluşundan, ailə sistemindən, içində olduqları vəziyyətə uyğun rolları mənimsəmə və qarşılıqlı dərketmədən asılıdır.Bəzən isə fərdlər ailə münasibətlərində elə hallarla qarşılaşırlar ki, insanların birgə yaşayışı davam etdirməsi mümkün olmur və bu zaman həyat hər iki tərəf üçün dözülməz hala gəlir.

Ailə məhfumundan gözləntilərin qarşılanmaması bu zaman yaranan kəskin dəyişikənlik ilk öncə gizli ziddiyyətləri daxili konfliktləri yaradır, sonra isə açıq münaqişələrin yaranmasına səbəb olur.Problemləri həll etməyə çalışmamaq, susaraq daha böyük problemlərin yaranmasına, həll edilə bilməyən münaqişələrin meydana gəlməsi isə boşanmanın bir ehtimal olaraq tərəflərdən birinin, ya da hər ikisinin düşüncəsində yer almağa başlaması ilə nəticələnir.Baxmayaraq ki, bütün evliliklərin qurululmasında əsas ideya bu evliliyin sona qədər davam etdirilməsi,2 cinsin arasında olan sevgi bağları ilə ailə qurumunun daha da

möhkəmləndirilməsidir.Lakin müəyyən məqamlarda isə boşanma ailə birliyini sona çatdıran əhəmiyyətli bir qərar və ictimai bir fakt kimi gündəmə gəlir.

Boşanmanın yaratdığı fəsadlar isə təkcə bir ailənin yox, bütün cəmiyyətin probleminə çevrilir.Hal hazırda danılmaz faktlardan biridə odur ki, insanların əksəriyyəti ailə həyatından narazıdır və özlərini xoşbəxt hesab etmirlər. Əgər ailə həyatında xoşbəxtlik yoxdursa, razılaşın ki, işdə olan heç bir uğur sevinc gətirə bilməz. Çox vaxt ailə ilə, yaxınlarla olan münasibətlərdəki problemlər bizi həm psixoloji həm fiziki cəhətdən yorur və qarşımıza qoyduğumuz məqsədlərə çatmağımıza, normal həyat tərzi sürməmizə əngəl törədir. Hətta özünütəkmilləşdirmə ilə ciddi məşğul olan adam belə heç də həmişə öz ailə həyatında nəyi isə yaxşılığa doğru dəyişdirə bilmir. Bəzən problemləri həll etməyə çalışmağa başlayanda ailə həyatını yaxşılaşdırmağa doğru nə isə etməyə arzu yarananda yaxınlarla ailə münasibətləri daha da pisləşir, hətta bəzi zamanlarda tamam ayrılmaqla nəticələnir [3, 23].

Ailə dövlətin özəyidir, insan üçün olduqca böyük əhəmiyyət kəsb edən bir mühitdir. Ailənin dağılması insan həyatinin mənasız və məqsədsiz yaşanmasına gətirib çıxarır. Ailə cəmiyyət daxilində özünəməxsus qayda-qanunları və qapalı həyat tərzi ilə seçilən, doğmalıq münasibətləri üzərində qurulmuş insan qrupuna aid qurumdur. İnsanın şəxsiyyət kimi formalaşmasında ailə (insanın doğulduğu ailə - valideyn ailəsi, insanın qurduğu ailə- reproduktiv ailə adlanır) mühiti başlıca rol oynayır.Qəlibləşmiş ailə mühitindən kənarda qalan xüsusiyyətlər toplusu isə insanlarda natamamlıq komplekslərinin yaranmasına səbəb olur.Natamamlıq kompleksi – insanlarda mən imicinin olmaması,başqalarından əskik olma ilə bağlı fikirlərin formalaşmasına səbəb olan psixoloji və emosional hisslər toplusudur.Bu kompleksdən əziyyət çəkən insanlar özlərini cəmiyyətə yararsız fərd hesab edir.

Sosial qavrayışın, özünü inkişafın zəifləməsi özünüqiymətləndirmənin aşağı olması depressiyalar, psixoloji gərginliklər və digər psixoloji narahatlıqlar yaradır, ağırlaşmalar isə suisid hallarına səbəb olur. Natamamlıq komplekslərinin daşıyıcılarında asosial davranış halları müşahidə olunur. Məsələn, kimisi ifrat utancaqlıqdan əziyyət çəkir, kimisi isə ifrat üsyankarlıq nümayiş etdirir və s [5.9s]. Psixoloji rahatlığı insan yalnız sağlam ailə mühitində yaşamaqla əldə edə bilər. Bunun üçün valideynlər ilk növbədə ailə mühitinin lazımi şəkildə təşkil etməlidir. Hazırda bütün dünyada ənənəvi ailə modeli böhran yaşayır. Böhranın mövcudluğu fikri qeyd-şərtsiz qəbul edilir.

Bu baxımdan, müxtəlif cəmiyyətlərdə böhranı doğuran səbəblər, ailə dəyərlərinin tənəzzülü prosesləri hansı mərhələdədir?nə dərəcədə dərindir?çıxış yolları haradadır? və s. suallara cavab axtarışları intensiv şəkil alıb. Dağılmış ailələrin yaratdığı fəsadlar həm ailə başçılarının, həm də onların övladlarının psixoloji durumuna ağır zərbə vurur. Ailənin dağılmasının əsas səbəblərindən biri davamlı həll edilə bilməyən münaqişələrin mövcudluğudur.Ümumən isə münaqişələri dörd kateqoriyada izah edirlər: 1. Sosial münaqişələr; 2. Şəxsiyyətdaxili münaqişələr; 3. Ailə daxili münaqişələr; 4. Beynəlxalq münaqişələr. Münaqişələr həm sosial, həm də psixoloji hadisədir.

Münaqişələrin mahiyyətini izah edərkən iki əsas məsələyə diqqət yetirmək lazımdır:ilk öncə qeyd etmək olar ki, münaqişələr tərəflərin toqquşmasıdır.Buraya bütün canlı və cansız təbiətdə baş verən hadisələr yəni dərk edilməmiş münaqişələr aid edilir.İkincisi isə insanlarla ünsiyyətdə və cəmiyyətdə fəaliyyət zamanı yaranan münaqişələrdir hansı ki maraqların, dünyagörüşlərin toqquşmalarını buna misal gətirə bilərik və bu münaqişələr dərk edilən münaqişələrdir.Münaqişə fəaliyyət prosesində baş verən, münasibət subyektlərinin neqativ xarakterli emosiyalarla müşayiət olunan mühüm əhəmiyyətli ziddiyyətlərin həlli üsuludur. Münaqişələr cəmiyyətdə maddi; mənəvi ;psixoloji problemlər yarandıqda formalaşır və geniş miqyaslı problemlərə səbəb olur.

Cəmiyyətin bir parçası olan ailə də isə son zamanlarda münaqişəli vəziyyətlərin yaranması isə göz ardı edə bilməyəcəyimiz dərəcədə kəskin xarakter almış və ailələrin bir çoxu münaqişələrin mərkəzinə çevrilmişdir. Bəzən isə adi küsüşmə, deyişmə, ağızlaşma və s. nəticəsində ailə münaqişələri həddini aşıb daha kəskin səciyyə daşımağa başlayır. Bunları nə ilə izah etmək mümkündür? Ailədə münaqişələrin olması zəruridirmi? Görəsən elə ailə vardırmı ki, orada münaqişə olmasın? Ailə dəyərlərinin sarsılması, mübahisələr, zorakılıq halları, xəyanət, qısqanclıq ailədaxili münaqişələrin yaranmasının başlıca səbəblərindəndir. Evlilikdə şəxsiyyətlərarası əlaqələrdə hər hansı bir anlaşılmazlıq, uyğunsuzluq və ya mübahisə nəticəsində ortaya çıxan interaktiv proses sonradan şəxsiyyətlərarası rəqabət formasında üzə çıxır.

Evlilikdə münaqişələr cütlərdən (ər-arvad cütlüyünün) birinin digərinin maraqlarına müdaxilə etməyə başladığı zaman özünü göstərir. Cütlər arasındakı uyğunsuzluq, anlayışsızlıq, qeyri-müəyyənliyə dözümsüzlük, münasibətlərə və həyat yoldaşına laqeydlik, məsuliyyətdən qaçma, empatik məhdudiyyət, başqasına aşıq olma və evlilik müddətində romantik əlaqələrdən qaçma ziddiyyət yaradan əsas amillərdir. Qərb tədqiqatçıları sübut edir ki, son dövrlərdə ailə münaqişələrinin yaranmasının əsas subyektiləri qadınlardır. Onların,ziddiyyətli davranışlarının əsas səbəbi isə maddiyyat, tərəflərdən birinin evlilikdən kənar əlaqələri, alkoqol və ya narkotik maddələrdən istifadə, qumar və ailə üzvləri ilə qarşılıqlı münasibətlərinin (valideynləri ilə) aşağı olmasıdır. Kişilər üçün isə ziddiyyətli hərəkətlərin səbəbi qısqanclıq və qadının əlavə xərc tələblərinin bitməməsidir.

Qisqanclıq qeyri-şüuri fərziyyələrin təhrikilə yaranan, natamamlıq komplekslərinin tərkib hissələrindən biri olan emosional halətdir.Astenik va stenik formali neqativ əhvalların yaranmasına səbəb kimi qısqanclıq hallarını qeyd etmək olar və bu halın qarşısı alınmadıqda isə şiddətli formaya keçərək depressiyalara, hətta affektlərə də çevrilə bilir. Qisqanclığın ifrat dərəcəsi isə insanın özünə, qısqanılan şəxsə qarşı, qısqanılan subyektin qısqanılmağına səbəb olan subyektə qarşı qəsd hadisələri ilə nəticələnə bilər. Qısqanclıq bioloji (anadangəlmə) instinkdir.Bioloji instinkt kimi qisqanclıq qarşı tərəfi və ya qarşı tərəf üzərində nəzarəti, nüfuzu itirmək, eləcə də xəyanətlə üzləşmə qorxusudur.(5.29S) Qısqanclıq sanki insan ağlını dondurur, düzgün addım atmağa qoymur və bu hal yaşandıqda ətrafda baş verən hadisələrə məntiqi deyil, emosional qiymət verilir.Qeyri-şüuri hisslər olan qısqanclığın qarşısının alınması insan təfəkkürünün yüksək səviyyədə inkişafından asılıdır.

Qısqanclığ əsasən qısqanan tərəfin qısqanılan tərəfə olan davranışında qabarıq formalarda hiss etdirilir.Məsələn,ittihamlı kinayəli ünsiyyət;kobud biganə və ya küskün rəftar tərzi;şübhəli davranış və baxışlar; yeni geyim tərzinə və ya saç düzümünə qarşı iradların deyilməsi; telefon danışıqlarının dinlənilməsi, gediş-gəlişə nəzarətin artması qadağaların qoyulması və ya güdmə halları, partnyorunun ictimai mühitlə əlaqəsinə qarşı çıxma, istirahət gəzintilərinin və ya pəncərə-eyvandan seyr etmənin əleyhinə olmaq və s aid etmək olar. Lakin qisqnclıq adlandırılan bu patoloji halların meydana gəlməsinin müəyyən səbəbləri var.

Məsələn: sevgili kimi tərəf müqabilinin tələbatlarını ödəyə bilməmək; öz fizioloji görünüşü ilə barışmayıb bunu kompleks halına gətirmək, tərəf müqabilin görkəminin ətrafdakıların diqqətini çəkməsi, qısqananın qısqanclığına əsas verən fərziyyələrinə uyğun həyat tərzinin olması; qısqananın ünsiyyət dairəsində qısqanclığına əsas verən fərziyyələrinə uyğun həyat tərzi keçirən insanların olması;səksəkəli-vasvasalı və eqoistik xarakterin olması; vaxtilə yaxınlar tərəfindən xəyanət zədəsinin yaşanması.İnsanların çoxu belə fikirləşir ki, qadınlarla müqayisədə kişilər daha çox qısqancdır.

Çünki kişilər qısqanclıq halı keçirdikdə destruktiv davranış tərzini tez birüzə verir və bunu ətrafdakı insanlara da hiss etdirməkdən, göstərməkdən çəkinmirlər. Lakin qadınların bir çoxu isə bu halı özlərinə belə izah edib qəbul etməkdən boyun qaçırırlar və yaxud yaxınları ilə bölüşməyə üstünlük verir və ya heç bölüşmürlər də (bunu ayıblı hesab edirlər).Aparılan müşahidələr və

keçirilən sorğulardan belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan ailələrində xanımlar öz həyat yoldaşlarını daha çox qısqanırlar [5, 30]. Belə bir aksioma mövcuddur ki bir çox hallarda kişinin öz xanımına xəyanəti bağışlanan hesab olunur, qadının xəyanəti isə dəhşətli bir günah hesab edilir və cəmiyyət tərəfindən birmənalı şəkildə bu hal qınaq obyektinə çevrilir.

Bu xəyanət heç bir halda şüurlu və şüursuz şəkildə bağışlanan hesab edilmir. Gender bərabərliyi kontekstindən çıxış edənlər bunu qətiyyətlə doğru hesab etmir və həm qadının həm də kişinin bərabər şəkildə məsuliyyət daşıdığını vurğulayırlar. Xəyanətin motivləri müxtəlif olsa da nəticə birdir - ailənin dağılma təhlükəsi! Xəyanət nə qədər ciddi-cəhdlə gizlədilsə də, ailədaxili münasibətlərə dolayısı ilə hökmən təsir edir [5, 49]. Xəyanət təbii ki nəticəsiz qalmır.Bu hal ailədə boşanma riskini artırır,psixoloji rahatlıq pozulur (stressli həyat yaşanır); ailə konfliktlərinin sayı çoxalır ;ailəyə müxtəlif xəstəliklərin daxil olma riski artır, ailənin sosial statusuna zərbə vurulur, valideyn-övlad münasibətləri pozulur xəyanət zərbəsi yaşayanın suisidlə bağlı düşüncələrinin artması və ya suisid cəhdləri baş verir, xəyanətkarın və onun məşuqəsinin (məşuqunun) psixi va ya fiziki sağlamlığına zərbə vurmaq məqsədli hərəkətlərə yol verilir, xəyanətkarın qətlə yetirilməsi ilə bağlı risk yaranır, psixi travmalı, kompleksli uşaqların sayı artır.

Belə halların qarşısının alınması xəyanətin baş verməsinə qarşı profilaktik tədbirlərə biz vaxtaşırı xəyanətlə bağlı risk ehtimallarını dəqiqləşdirmək və bu ehtimallara səbəb olan faktorları aradan qaldırmaq;tərəf müqabilinin psixoloji xüsusiyyətlərini dərindən öyrənmək və ona uyğunlaşmaq;ailədə yüksək psixoloji sakitlik mühiti yaratmaq; - tez-tez ailə gəzintiləri təşkil etmək;ailənin perspektivi ilə bağlı pozitiv söhbətlər aparmaq, bezikdirici qısqanclıq səhnələrinə yol verməmək; - seksual münasibətlərin sevgidən qaynaqlandığını hiss etdirmək aiddir.Ailənin qorunub saxlanılması ailə məsuliyyətnin dərkindən çox asılıdır. Xəyanətə yol vermək ailəni dağılmaqla üz üzə qoymaq deməkdir [5, s.50]. Bütün bu faktorlar natamam ailəni meydana gətirən başlıca səbəblərdir. Digər önəmli məsələlər kimi Ailə ilə bağlı məsələlər də bütün dövrlərdə cəmiyyətin əsas diqqət mərkəzində olmuşdur. Xüsusən də son dövrlərdə cəmiyyəti narahat edən əsas məsələlərdən biri Natamam ailələrin formalasması müasir sosial-demoqrafik ailə tipinə çevrilməsidir.Natamam münasibətlər, həmçinin qədim dövrlərdən bəri formalaşan ana-ata-övlad münasibətlər sisteminin dağılmış kiçik qrupunu natamam ailə hesab bilərik. Hal hazırda cəmiyyətimizi narahat edən əsas məsələlərdən biri natamam ailələrin çoxalmasıdır və bu artımın bir çox səbəbləri var: bunlardan ən əsası qeyri-normal münasibətlər sferasından asılı olaraq ailə həyatında cinslər arasında yaşanan qeyri normal munasibətlərdir. Buna misal kimi aşağıdakıları göstərmək olar:

-cinslərarası münasibətlərin və əxlaq qaydalarının deformasiya olunması; -nigahaha qədər cinsi əlaqələrin olması; -ailədə ənənəvi rolların (kişi, qadın) dəyişilməsi; -nəsilartırma funksiyasının "qeyri-populyarlığı"; -gənclərin ailə həyatına hazırlıqsızlığı; -nigah partnyoruna qarşı yüksək tələblərin qoyulması; -alkoqolizm və narkotik maddələr; Buna misal kimi aşağıdakıları göstərmək olar:-cinslərarası münasibətlərin və əxlaq qaydalarının deformasiya olunması;-nigahaha qədər cinsi əlaqələrin olması;-ailədə ənənəvi rolların (kişi, qadın) dəyişilməsi; - nəsilartırma funksiyasının "qeyri-populyarlığı"; - gənclərin ailə həyatına hazırlıqsızlığı; - nigah partnyoruna qarşı yüksək tələblərin qoyulması;-alkoqolizm və narkotik maddələr;

Natamam ailələrin yaranmasının bir neçə mənbələrini qeyd edirlər.Bunlardan ən məşhuru boşanma nəticəsində ailələrin natamam ailələrə çevrilməsidir .Dünya miqyasında boşanan ailələrin sayı durmadan artmaq üzrədir. Boşanmanın ən əsas səbəbləri kimi, alkoqolizm, xarakterlərin düz gəlməməsi və xəyanətdir .Bu faktlarda daha çox diqqəti cəlb edir ki, əksər vaxtlar boşanmaya qərarı qadınlar verir. Erkən yaşda qurulan ailə həyatları da uzunömürlü olmur. Natamam ailələrin yaranmasının bir səbəbi kimi kişilərin orta ömürlərinin qısalmasıdır.

Natamam ailələrin qarşılaşdığı problemlər tam ailələrə nisbətdə daha çox olur (i). Natamam ailələrin yaranmasının qarşısını almag həmçinin boşanma saylarının nisbətən aşağı endirilməsi üçün bəzi proflaktik tədbirlərin görülməsi zəruridir Hansı ki bu tədbirlərdər biridə gənclərin ailə həyatına doğru şəkildə hazırlanmasır.

Çoxsaylı tədqiqatlardan görünür ki, möhkəm, sabit və xoşbəxt ailə gənclərin ailə həyatına uğurla, sistemli, məqsədyönlü və fasiləsiz hazırlanmaları şəraitində yarana bilər. Ailə həyatına hazırlıq anlayışı sosial-mənəvi, psixoloji, pedaqoji, sosial-vətəndaşlıq, təsərrüfat-iqtisadi, tibbi ve fizioloji-gigiyenik hazırlığı əhatə edir.Ailə həyatına sosial-mənəvi hazırlıq vətəndaşlıq yetkinliyi (yaş, tam orta təhsil, peşə, mənəvi şüurun səviyyəsi), iqtisadi müstəqillik ve sağlamlıq kimi mühüm məsələləri özündə birləşdirir. Vaxtında nikah ittifaqına girmək ər-arvad arasındakı münasibətlərin səmərəliliyinə son dərəcə müsbət təsir göstərir. Respublikamızda kişi və qadınlar üçün nikah yaşından artıq bəhs etmişik. Qanunda nəzərdə tutulduğu kimi, ailəni qızlar da, oğlanlar da 18 yaşında qura bilərlər, lakin tibbi baxımdan nikah bağlamaq üçün ən münasib yaş qızlar üçün 20-22, oğlanlar üçün 23-28 yaşdır (bu, kişi orqanizminin tam yetkinliyə gec çatması ilə əlaqədardır).

görünür ki, uğurlu ailələrdə qadınların yalnız 43%-i, uğursuz ailələrdə isə 69%-i 21 yaşına qədər nikaha daxil olub. Araşdırmalar həm də göstərir ki, 21 yaşına qədər kişilər arasında nikahın pozulması həmin yaşda nikah bağlanma hallarından 2,2 dəfə çoxdur. Deməli, ailənin uğurlu olmasına, ər-arvadın ailə həyatına uyğunlaşmasına əlverişli şərait yaradan əsas məsələ onların yaş nisbətidir [1, 179] Ailə həyatı qurarkən maddi vəziyyət və ayrıca mənzilə sahib olmaq da çox vacib məsələ kimi qarşıda durur. Gənclər bu barədə də düşünməlidirlər. Maddi həyat şəraitinin lazımi səviyyədə olma ması evdə söz-söhbətə, mübahisələrə səbəb olur və münaqişəli şərait yaradır. Bütün bunlarla yanaşı, kiminsə «qoltuğuna sığınan», yaxud kirayədə yaşayan ailə, ər-arvad və uşaqlar son dərəcə böyük əziyyət çəkirlər [1, 181].

Ailədaxili münaqişələrin digər bir səbəbi ailənin düzgün şəkildə idarə olunmaması,tərəflərin bunu bacara bilməmişdir. Ailə üzvlərinin necə gəldi özlərini aparmalarına yol verila bilməz. Bu mənada tarixən Azərbaycan ailələrində qayda-qanun olmuşdur. Ailə hökmən idarə olunmalıdır. Nuklear ails (yalnız ganc or-arvad və uşaqlardan ibarət ailə) şəraitində bu rəhbərliyi kişi öz üzərinə götürür, qadın da onun yaxın köməkçisi olur. Yaxud har ikisinin əlbir fəaliyyəti ilə ailə idarə olunur. Mürəkkəb ailə (ata ailəsi və gənc ailənin birgə, bir mənzildə, bir evdə mövcud olduğu) şəraitində vəziyyət bir qədər başqa cür olur, bir sıra hallarda gənc ailə üçün problemlər yaranır. Bu tipli ailədə hər iki ailəni gənc ərin atası idarə edir. Ata rəhmətə gedibsə, yaxud ayrılıbsa, bu vəzifəni oğlan anası yerinə yetirir. Yaxud evin ağsaqqalı yoxdursa, ailədə idarəetməni, evin təzə evlənmiş övladı həyata keçirir. İstənilən vəziyyətlərdə bir sıra hallarda bu iki ailənin üzvləri arasında söz-söhbət baş qaldırır [2, 260].

Ailə necə idarə olunmalıdır? Bilirik ki ailədə həm qadının həm kişinin müəyyən rol bölgüsü olur və ər ilə arvadın vəzifələri onların rol bölgüsü kimi də qeyd olunur?Biz millət olaraq hüquqi dövlət şəraitində yaşayır və sivil dövlətdə fəaliyyət göstəririk. Ailə cəmiyyətin əsası və insanlığın akademiyasıdır.O,dövlətin himayəsindədir və ər-arvadın hüquqları və vəzifələri Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə tənzimlənir. Məhz bu qanuna əsasən Ailə üzvlərinə münasibətdə zorakılıq halları, bir-birinin hüquqlarının pozulması halları pislənilir və qanunla cəzalandırılır. Ailə münasibətlərində ər və arvad eyni hüquqlara malikdirlər.

Müasir dövrdə da kişinin qadına xoşagəlməz münasibəti, onu özünün xidmətçisi gözündə görməsi,öz vəzifələrini yerinə yetirməməsi,bütün yükü qadının üzərinə atması, fiziki,psixoloji və zorakılığın digər növlərini tətbiq etməsi yolverilməzdir. Bizim Azərbaycan mühitində qəbul olunub ki, ailənin başçısı kişidir lakin qadın da onun yaxın köməkçisi, sirdaşıdır. Elə bir ailə yoxdur ki problemlə qarşılaşmasın. Ailənin bütün problemlərinin onlar tərəfindən məsləhətləşmələr əsasında həll edilməsi tədqirolunandır. Ailədə liderliyə can atma bütün

idarəçiliyi öz əlinə alma, ailə başçısı olmaq uğrunda mübarizə, ailə ixtilafları ilə nəticələnir. Bu və buna bənzər mübarizə və mübahisələrdən qaçmaq lazımdır [2, 260-261].

**Nəticə.** Sonda onu qeyd eləmək olar ki,tarixin hər bir mərhələsində ailə cəmiyyətin inkişafında mühüm rol oynamışdır.Bu gün də əhəmiyyətli məsələlərdən biri insanın kamilləşməsində və onun şəxsiyyətə çevrilməsində ailənin rolunun əvəzedilməzliyi və öz aktuallığını qoruyub saxlamasıdır. Cəmiyyətin və dövlətin tərəqqisində xüsusi rolu olan ailə öz bütövlüyünü qoruyub saxlamaqdadır.Statistikaya əsasən hal-hazırda ölkəmizdə iki milyondan çox ailə vardır. Dövlət və cəmiyyət bu ailələrin sağlamlığı, xoşbəxtliyi, rahatlığı,firavanlığı üçün məsuliyyət daşıyır. Ailə Azərbaycan xalqı üçün qiymətli sərvətdir və hər zaman ailə dəyərlərini, ailə ləyaqətini hər şeydən uca tutmuş,bu sərvəti qorumag milli adət-ənənəmizə çevrilmişdir. Ailəmizi təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirməli, gənc nəsli sağlam ruhda tərbiyələndirməliyik. Milli-mənəvi dəyərləri xalqımızın ən böyük sərvəti hesab edən Ulu Öndər Heydər Əliyev dönə-dönə bütün çıxışlarında bu dəyərlərin qorunmasının vacib olduğunu qeyd edirdi. Müstəqil dövlətimizin ali sənədinin – Konstitusiyanın müəllifi olan Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən etmişdir. Eləcə də, 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur.

## ƏDƏBİYYAT


1.Abbasov Akif Nurağa oğlu.Milli Əxlaq və Ailə etikası. Dərslik-Bakı Mütərcim. 2015.-324

2.Akif Nurağa oğlu Abbasov Ailə Pedoqogikası Ali məktəblər üçün dərslik-Bakı Mütərcim. 2019.-272 səh

3.Yaşar Əhmədov. Validə Ağamalıyeva Ailə xoşbəxtliyinin fəlsəfəsi. SkyG. Bakı. 2017. 474 səh

4.Salamov K.B Ailə psixologiyası dərs vəsaiti.Bakı .Gənclik nəşriyyatı.2021 səh 364 5.Qurbanova Lamiyə Ailənin psixoloji problemləri və Həlli yolları Sumqayıt Bilik nəşriyyatı - 2013. 240 səh

6.http://psixologiya.net/?p=526


## NATAMAM AİLƏLƏRİN FORMALAŞMASINDA AİLƏDAXİLİ MÜNAQİŞƏLƏRİN ROLU

*Eminova Aytac*


**XÜLASƏ**

Məqalədə ailə, ailədaxili münaqişələr, natamam ailə və onun yaranma səbəbləri, insanlarda natamamlıq kompleksinin formalaşması, xəyanət, qısqanclıq və boşanma motivləri geniş şəkildə təhlil edilmişdir.


## РОЛЬ ВНУТРИСЕМЕЙНЫХ КОНФЛИКТОВ В ФОРМИРОВАНИИ НЕПОЛНЫХ СЕМЕЙ

*Эминова Айтадж*


**АННОТАЦИЯ**

В статье широко анализируются семья, внутрисемейные конфликты, неполная семья и причины ее появления, формирование у людей комплекса неполноценности, мотивы измены, ревности и развода.


## THE ROLE OF INTERFAMILY CONFLICTS IN THE FORMATION OF INCOMPLETE FAMILIES

*Eminova Aytaj*


**Summary**

In the article, family and intra-family conflicts, incomplete family and its causes, formation of incompleteness complex in people, motives of betrayal, jealousy and divorce are widely analyzed.

# SUİSİDAL VƏZİYYƏTİN YARANMASININ SƏBƏBLƏRİ VƏ MOTİVLƏRİ

***Arixova Nəzrin Mobil qızı***
***BDU-nun II kurs magistrantı***
***nazrin.arixova.00@gmail.com***

***Açar sözlər:***intihar, intiharın səbəbləri, suisidal vəziyyət, şəxsiyyət faktorları, mühit faktorları, intiharın fərdi mənası, intiharın motivləri, antisuisidal baryer.
***Ключевые слова:*** суицид, причины суицида, суицидогенная ситуация, факторы личности, факторы среды, личностный смысл суицида, мотивы суицида, антисуицидный барьер.
***Keywords:***suicide, suicide reasons, suitsidogenny situation, factors of the personality, environment factors, personal sense of a suicide, motives of a suicide, anti-suicidal barrier.

İntihar motivlərinin şərhi mütəxəssisin hansı konsepsiyaya (məktəb, istiqamət) etibar etdiyindən asılı olaraq dəyişə bilir. Məsələn, valideynini itirmiş şəxsdə intihar düşüncələri müxtəlif məktəb nümayəndələri tərəfindən müxtəlif yollarla şərh edilə bilər. Psixoanalitik suisidal aktivlikdə günahkarlıq hissi və şüuraltında yerləşən ölüm arzusunun təzahürünü görür. Bir neçə seansdan sonra, psixoanalitik mütləq şəkildə şəxsin uzaq keçmişində onun aqressiv davranışını izah edən səbəbi tapacaqdır. Biheviorist intiharı- insanın normal həyat fəaliyyəti üçün zəruri olan kommunikativ, yaşayış və digər bacarıqlarını möhkəmləndirən stimullardan məhrum olmasına reaksiya kimi qəbul eliyəcək. Ekzistensialist suisidal aktivliyin əsasında insanın öz varlığının mənasını itirməsi və ya ekzistensial seçim qarşısında dərk etmədiyi həyəcan, məsuliyyət tələb edən və müstəqil həyat qorxusunu görəcəkdir.

İntiharın bütün bu "klassik" şərhlərinə qarşı insanın özünün təsvir etdiyi vəziyyəti diqqət mərkəzində saxlayan fenomenoloji istiqamət qoyulur. Fenomenoloqu insanın öz vəziyyətini, öz daxili aləmini necə təsvir etdiyi maraqlandırır. Fenomenoloqun əsas məqsədi – insanı anlamaqdır (onun problemini izah etmək deyil). Yəni məqsəd insana düşdüyü böhranlı vəziyyəti təsvir etməyə, öz narahatlıqlarını, hadisələrə olan münasibətini ifadə edə bilmək üçün düzgün sözləri seçməyə kömək etməkdir. İntihar mövzusuna gəlincə, bu o deməkdir ki, fenomenoloq böhran vəziyyətinə mümkün olan ən geniş ölçüdə, fenomenoloqun öz həyati konsepsiyalarına zidd olan fikirləri belə inkar etmədən və klientin yaşantılarında özünü göstərməyən cəhətlərə toxunmadan təhlil edir. Bu cür çoxölçülü yanaşma intiharın təkcə hamıya görünən tərəflərini deyil, həm də onun hamıdan gizlədilən, lakin suisidal motivasiya üçün əhəmiyyətli olan şəxsi motivlərini də açmağa kömək edir.

Suisidal vəziyyət – insanın həyati fəaliyyətinin əhəmiyyətli sferasında yaranan və önəmli ehtiyaclarının ödənilməsinə mane olaraq həyatdan imtina etmək qərarına təhrikedici faktor rolunu oynayan böhran vəziyyəti və ya problemdir.

Aydındır ki, bütün böhranlı vəziyyətlər suisidal deyil. Belə olması üçün o bir sıra cəhətlərə malik olmalıdır: çıxılmaz, dəyişilməz və keçirilə bilməyəcək kimi hiss verməlidir. Suisidal vəziyyətdə insan özünün bütün onun üçün əhəmiyyətli hesab etdiyi, yönəldiyi müsbət perspektivlərini, istiqamət və məqsədlərini tükədir. Gələcək haqqında planlar, praqnozlar qaranlıq və güvən verməyən, qarşıya qoyulan məqsədlər isə əlçatmaz görünür. Buna görə də belə vəziyyət insanı intihara sürükləyir.

İnsanın əhəmiyyətli olan ehtiyaclarını pozan, suisidal vəziyyətin baş verə biləcəyi aşağıdakı sahələr mövcuddur (cədvəl 1).

Aydındır ki, bu və ya digər suisidal vəziyyətin əhəmiyyəti insanın yaşından asılıdır (cədvəl 2).

Suisidal vəziyyətin "gözlə görünən", "xarici" səbəbləri əksər insanlarda eyni ola bilər, lakin onlardan yalnız bir hissəsi intihara cəhd edir. Bu o deməkdir ki, insanlar belə böhran

vəziyyətlərinə fərqli reaksiyalar verirlər. İstənilən, hətta çox məhdud çıxı seçimi olan susidal vəziyyətdə belə müxtəlif tərəflər seçmək mümkündür. İnsanın həmişə geniş, çeşidli variantlar arasından seçim etmək imkanı olduğu halda bəzi insanlar intiharı seçirlər. Bu da o anlama gəlir ki, suisidal vəziyyəti daha da ağırlaşdıra biləcək və ya ona qalib gəlməyə kömək edə biləcək başqa, daha az gözə çarpan "fon" faktorları mövcuddur. İndi biz mənfi fon faktorlarını nəzərdən keçirəcəyik, müsbət fon faktorlarından isə anti-intihar baryerindən danışarkən bəhs edəcəyik.

Cədvəl 1. Suisidal vəziyyətlər

| Sahə | Suisidal vəziyyət |
|---|---|
| Şəxsiyyətlərarası | Yaxın insanın itirilməsi, münaqişə, təktərəfli sevgi, cinsi problemlər, günahlandırma, təhqir olunma, yalnızlıq |
| Ailə | Həyat yoldaşının və ya qohumların ölümü, ailədaxili konfliktlər, xəyanət, boşanma, ailədaxili şiddət |
| Sağlamlıq | Sağalmaz xəstəlik (xərçəng, QİÇS, əqli pozuntu və s.), güclü və aradan qaldırıla bilinmyən fiziki ağrı, əlillik, anadangəlmə patologiya, xarici görünüş qüsurları |
| Peşə | İş yerinin itirilməsi, vəzifənin aşağıya endirilməsi, iş yerində münaqişələr, uğursuzluqlar- buraya həmçinin dərs problemlərini və müəllimlərlə olan münaqişələri də aid etmək olar |
| İqtisadi | Məişət çətinlikləri, maddi resurslardan məhrumolma, iflas etmə, iqtisadi böhran, təbii fəlakətlər |
| Sosial | Sosial statusun kəskin dəyişməsi, cəzalanma və biabır olma qorxusu, sosial izolyasiya, azadlıqdan məhrum olma |
| Ruhi-ekzistensial | Həyatın gözləntiləri doğrultmaması, məyusluq, inamın olmaması, ruhi böhran, "postsovet sindromu" |

Cədvəl 2. Müxtəlif yaş qruplarına görə suisidal vəziyyətlər

| Yaş | Suisidal vəziyyət |
|---|---|
| Uşaq | Valideynlərlə münaqişənin törənməsi, valideynlər arasında boşanma, valideynin ölümü |
| Yeniyetmə | Xoşagəlməz yaşıdlar, qarşılıqsız sevgi, istənməyən hamiləlik |
| Gənc | Şəxsiyyətlərarası problemlər, şəxsi uğursuzluqlar, fərdin böhranı |
| Yetkin | İş yerində uğursuzluq, ailəvi problemlər |
| Yaşlı və qoca | Həyatın mənasının itirilməsi, sağlamlığın itirilməsi, köməksizlik |

Fon faktorları – mövcud böhran (suisidal) vəziyyətin həlli üçün insana çıxış yolu kimi yalnız intiharı saxlayan, başqa həll yollarının seçilməsinə mane olan və ya ümumiyyətlə onları aradan çıxaran fərdi faktorlar və ya xarici təsirlərdir.

Bu fon faktorları gözəçarpan olmaya bilir, lakin ola bilər ki, insan sadəcə onlarla üzləşmək və ya onlar haqqında danışmaq istəməsin. Bununla belə, bu faktorlar çox təbii şəkildə və hiss olunmadan suisidal vəziyyətin sonrakı gedişini müəyyən edir.

İnsanların davranış seçimlərini məhdudlaşdıran fon faktorlarını iki əsas qrupa ayırmaq olar (cədvəl 3).

Cədvəl 3. İntiharın fon faktorları

| | |
|---|---|
| **Şəxsiyyət faktorları** - insanın fərdi xüsusiyyəti | · Resurs faktoru: psixoloji, əxlaqi, maddi və digər resursların aşağı səviyyədə olması, kəskin azalmış həyat enerjisi, |

| | |
|---|---|
| ilə bağlı olan daxili faktorlar | temperamentin "zəif" tipi.<br>· Təcrübə faktoru: müsbət təcrübənin olmaması və ya hər hansı problemin həlli zamanı mənfi təcrübənin mövcudluğu.<br>· Özünüqiymətləndirmə faktoru: aşağı özünüqiymətləndirmə, mənfi həyat ustanovkaları, dəyərsizlik hissi, öz gücünə və qabiliyyətlərinə inamsızlıq. |
| **Mühit faktorları** - insanın mikro və makrososial mühiti ilə bağlı olan daxili şərtlər və vəziyyətlər | · Ünsiyyət faktoru: digər insanlarla ünsiyyət qurma imkanının olmaması.<br>· Dəstək faktoru: çətin yolu şəxiyyətə ən az zərərlə arxada qoymağa kömək edəcək, lazimi anda öz şəxsi resurslarından istifadə edərək onları psixoloji, maddi və ya digər dəstəklə təmin edə biləcək insanların olmaması.<br>· Sosio-mədəni faktor: sosio-mədəni mühitin dəyərləri, adət və normaları, cəmiyyətdəki iqtisadi-siyasi vəziyyət. |

Bu faktorlara, eyni zamanda, spirtli içki və psixotrop maddə sərxoşluğu, şüurun dəyişkən vəziyyəti və qeyri-adi şərait kimi təsadüfi faktorları da əlavə etmək olar. Beləliklə, suisidal vəziyyətdə kifayət qədər geniş davranış variantı olmasına baxmayaraq, insanlar mövcud "fon" faktorlarından – daxili və ya xarici – asılı olaraq özləri üçün daha uyğun davranış formasını seçirlər.

Suisidal davranış- bu təkcə şəxsiyyətin bu və ya digər vəziyyət, hallara reaksiyası deyil, eyni zamanda onun şəxsi seçimidir. İntihar zamanı təkcə onun səbəblərini yox, eyni zamanda teleoloji aspektlərini, yəni intihar motivlərini görmək vacibdir. İntihar edən şəxs qarşısına qoyduğu məqsədə çatmaq üçün intiharı vasitə kimi seçən fərd qədər yaranmış vəziyyətin "girovu" olmur. Beləliklə, intiharın həm səbəbləri ("nəyə görə"), həm də məqsədləri ("nə üçün")var. V. Frankl öz "İnsan məna axtarışında" kitabında yazır: "Hətta intihar edən şəxs belə mənaya – həyatın mənasına inanmasa da, ölümün mənasına inanır" [6, s. 236].

İntiharın motivləri – intihar edərkən şəxsin əsas tutduğu məqsəddir, bu məqsədlər onun intihar cəhdini əsaslandırır və ona məna qatır.

Səbəb aspektləri (intihar doğuran vəziyyətlər və fon faktorları) insanı məhdudlaşdırır, onun hərəkətlərini müəyyət edir. Bunun əksinə olaraq, teleoloji aspektlər (motivlər) isə böhran vəziyyətini genişləndirir. İntihar bu qapalı və dözülməz məkandan çıxış yolu kimi hiss olunur. N. Berdyaev intiharla bağlı əsərində yazırdı: "İnsan öz canını almaq istəyir, yalnız o, ona görə öz canını almaq istəyir ki, özündən çıxa bilmir, özünə qərq olur. O, özündən ancaq özünü öldürərək çıxa bilər. Özünə qapanmış həyat isə dözülməz bir əzabdır" [2, s. 93].

İntihar doğuran hadisələr – bu şəxsiyyətin həyati dəyərlərinə güclü zərbələrdir, lakin intihara gətirən qərar daha çox bu hadisələrə cavabdır, əxlaqi seçim aktıdır, nəinki reaksiya. İnsan intiharı seçdiyi zaman bu davranışda təkcə şəraitlə istiqamətlənən bir hərəkət və ya sadəcə "intihar" görmür, eyni zamanda özündə mənfi və müsbət mənəvi məna daşıyan müəyyən insan münasibətlərini, onlarda qiymətləndirmə və fikir oyadan müəyyən davranış forması görür.

İntiharın teleoloji aspektləri ilə əlaqədar olaraq intiharın şəxsi mənası kateqoriyasına əsaslanan suisidal aktivliyin motivlərinin təsnifatını nəzərdən keçirmək lazım gəlir. V.A. Tixonenko motivlərin aşağıdakı növlərini ayırır [4]:

1. Etiraz. İntihar davranışının "etiraz" forması münaqişə vəziyyətində onun obyektiv üzvü subyektə qarşı düşmən və ya aqressiv mövqedə dayanan zaman ortaya çıxır, intiharın mənası isə obyektiv üzvə neqativ təsirdir. İntiqam- etirazın bir forması olub düşmən olan mühitə konkret ziyanın vurulmasıdır. Belə davranış formaları özünü yüksək özünüqiymətləndirmə və

özünüdəyərləndirmə zamanı, heteroaqressiyanın avtoaqressiyaya çevrilməsi mexanizminin fəaliyyətə keçməsi ilə şəxsiyyətin aktiv və ya aqressiv mövqeyini göstərir.

2. Çağırış. "Çağırış" tipli intihar davranışının mənası mövcud vəziyyəti dəyişmək məqsədi ilə kənardan gələn yardımları aktivləşdirməkdir. Lakin bu zaman şəxsiyyətin mövqeyi nisbətən daha az aktiv olur.

3. Yayınma. "Yayınma" (cəza və əzabdan) intiharları zamanı münaqişənin məğzi – yüksək özünədəyərin müqavimət göstərdiyi şəxsi və bioloji mövcud olma təhlükəsindədir. Bu intiharın mənası mövcud təhlükəyə dözümsüzlükdən özünü məhv etməklə qaçmaqdır.

4. Özünücəzalandırma. "Özünücəzalandırma" dedikdə "şəxsin daxili aləminə etirazı" başa düşülür; u zaman insanın daxili məni iki rolu ifadə etməyə başlayır: Mən – hakim və Mən – məhkum kimi.Bununla belə özünücəzlandırma intiharlarının mənası şəxsin daxili məninin tutduğu mövqelərə görə dəyişir: "özündəki düşməni məhv etmək" (hakim mövqedən çıxış edərək) və "günahın yuyulması" (məhkum mövqeyindən çıxış edərək).

5. İmtina (etmək). Əgər əvvəlki 4 tipdə intiharın məqsədi ilə bu fəaliyyətin motivi fərqlənirdisə (bu da intihar davranışlarını fəaliyyət kimi təsnif etməyə imkan verirdi), "imtina" intiharlarında məqsəd və motiv arasında gözəçarpan fəqlilik müəyyən etmək mümkün deyil. Başqa sözlə desək, motiv həyatdan itina etmək, məqsəd isə özünü həyatdan məhrum etməkdir.

Beləliklə, intiharı müəyyən funksiyaları yerinə yetirən hərəkət forması kimi nəzərdən keçirmək olar. Bu tam mənasız və lazımsız əməl deyil, onda tam konkret fərdi məna (funksiya) var, əks halda bu hərəkət ümumiyyətlə baş verməzdi. İntihar motivi anlayışı tədqiqatçının diqqətini aydın olmayan irrasional (yarımistik və patoloji) sferadan uzaqlaşdıraraq, rasional və əsaslandırılmış olan məqsədə yönəldir. Aşağıda intiharın əsas funksiyaları (motivləri, məqsədləri, mənası) göstərilmişdir (cədvəl 4). Onlar həm affekt halında baş verən intihar hallarında, həm də rasional özünəqıyma halarında öz ifadələrini tapırlar.

Cədvəl 4.İntiharın funksiyaları

| | |
|---|---|
| Xitam funksiyası<br>— özünü dözülməz fiziki hissiyyatlardan, emosional narahatlıqlardan, mənəvi əzablardan qurtarmaq | Özünücəzalandırma, günahkarlıq hissi, utanma hissi, itkinin öhdəsindən gəlməyin mümkünsüzlüyü, üz döndərilmə hissi, lazımsızlıq hissi, aşağı özünüqiymətləndirmə, həyatın mənasının itirilməsi, sağalmaz xəstəlik, fiziki iztirablar, ətraf aləmi öz varlığından azad etmək, qurtarmaq |
| Təsir funksiyası<br>— konkret əhatə dairəsinə, cəmiyyətə, bütövlükdə dünyaya təsir | Digər insanların hərəkətlərinə etiraz: ətrafa mənəvi ziyanın vurulması, intiqam; diqqəti öz probleminə çəkmək arzusu; ətrafdakılara dünyanı dəyişmək üçün bir şeylər etməyə çağırmaq; intihar hər hansı dəyişiklik olsun deyə verilən qurban kimi; intihar digərlənin yaşaması üçün verilən işarə kimi |
| Təqlid etmə funksiyası<br>—digər insanı və ya personajı təqlid edərək onunla eyniləşmək | Başqa insanı və ya bədii qəhrəmanı təqlid etmək; kütləvi intihar; özünü dini obyektlə, mifoloji obrazla eyniləşdirmək; "altruist intihar" |

Biz intiharın funksiyalarından danışarkən, intiharın əslində hər hansı məqsədə çatmaq üçün bir vasitə olduğunu nəzərdə tuturuq. Lakin bununla yanaşı intiharın ekzistensional motivlərindən də danışmaq olar. Belə ki əgər birinci halda intihar edən insan bununla hər hansı nəticəyə gəlmək istəyirsə ("Əgər mən ölsəm, onda..."): o kimisə düşünməyə vadar etmək istəyir, o kimdənsə qisas almaq istəyir, o özünü qurban verərək kimisə xilas edir; ikinci halda insan bu dünyada yaşamaq, mövcud olmaq istəmir, çünki onda heç bir məna görmür ("Daha yaşamaq istəmirəm").

Bir qayda olaraq, hər bir intihar hadisəsində həm vasitə kimi, həm də ekzistensial motivlər özünü göstərir. Onlardan biri insan tərəfindən dərk olunaraq "səbəb" kimi alqılanır, digəri isə ya dərk olunmur ya da gizlədilir. Məsələn, əgər insan bildirirsə ki, o bu hərəkəti ilə nəyi isə sübut etməyə çalışır, istisna deyil ki, onunla söhbətin gedişində həyatının ümumiyyətlə çox dəyərsiz və mənasız olduğunu qeyd edəcəkdir. Digər insan iddia edə bilər ki, ona yaşamaq maraqsızdı və ona bu həyatdan heç nə lazım deyil, lakin danışıq zamanı onu böhran vəziyyətinə gətirib çıxaran yaşayış şəraitindən söz açacaqdır; eyni zamanda ümid edə bilər ki, öz hərəkəti ilə ətraında olan bəzi insanların ona qarşı olan fikirlərini dəyişəcək.

Başqa sözlə, intihar motivlərinin diqqətli təhlili zamanı "intihar dairəsi" yaranacaq ki, burada da bir motiv digərini düzgün sayır.

İnsanı özünüməhvə istiqamətləndirən intihar tendensiyalarına qarşı "antisuisidal baryer" mövcuddur [3].

Antisuisidal baryer – insana intihar vəziyyətinin öhdəsindən gəlməyə kömək edən resurs faktorları toplusudur; bu insanın fərdi xüsusiyyətləri, onun imkanları və sosial əlaqələri, onun qəbul etdiyi dəyər və ənənələr, eyni zamanda dini adətlər və digər intihar vəziyyətini intiharla həllə mane olan resurs və vəziyyətlər.

Antisuisidal baryer faktorlarını iki qrupa bölmək olar: daxili (şəxsiyyət resursları) və xarici (mühit resursları). Məsələn, psixoloji dəstək verə biləcək insanların sayı xarici faktor, yaşamaq arzusu isə daxili faktordur.

Geniş yayılmış daxili antisuisidal faktorlar bunlardır: ölüm, ağrı və mümkün əzab qorxusu; bilinməzlik qorxusu; "özünüqoruma instinkti"; intiharın fiziki və estetik olaraq xoşagəlməzliyi və onun nəticələri; ailənə və ətrafdakılara qarşı hiss olunan borcluluq duyğusu; yaxınlarının narahatlığına səbəb olmaq istəməmək; başlamış olduğu işin məsuliyyəti və tamamlanmamış planların olması; intiharın heç bir işə yaramayacağı hissi; bütün düşmənlərə inad, nə olursa olsun qalib olmaq arzusu; dini qadağalar, intiharın günah olması ilə bağlı təsəvvürlər; cəmiyyətdə intihara qarşı münasibətin mənfi olması qınaq qorxusu yaradır, intiharın biabrçı əməl kimi, zəiflik və psixi anormallıq kimi qiymətləndirilməsi qorxusu və s. Nəhayət, demək olar ki, əsas antisuisidal baryer həyata qarşı olan təbii sevgi və maraqdır.

Başqa sözlə desək, adi insanlarda intihar tendensiyalarına mane olan faktorlar, böhran vəziyyətdə olan insanlar üçün də eyni rolu oynayırlar. Lakin bu halda ölmək istəyi ilə ansuisidal baryer arasındakı daxili ziddiyyət çox kəskin olur, buna görə də, əksər antisuisidal baryerlər bu ziddiyətə dözməyib dağıla bilər (tərəddüd olunaraq dəyərsizləşdirmə). Eyni zamanda, qeyd etmək olar ki, antisuisidal baryer intihar cəhdləri zamanı belə ounla qalaraq, E. Şneydmanın da qeyd etdiyi ikili ("lehinə və əleyhinə") xarakterik vəziyyəti yaradır [5].

Beləliklə, insanı suisidal aktivliyə yönəldən səbəbləri daha dərindən anlamaq üçün onları dörd qrupa bölmək lazım gəlir:

1. Suisidal vəziyyətlər – Susidal aktivlikdən əvvəl baş verən, onu tətikləyən, ona təhrik edən faktorlar.
2. Şəxsiyyət faktorları – "daxili" fon faktorları, insanın fərdi xüsusiyyətləri, onu yaranmış problemin həlli kimi intiharı seçməyə yönəldən şəxsi reaksiyalar.
3. Mühit faktorları – "xarici" fon faktorları, ətraf aləm faktorları, insanda suisidal vəziyyəti ağırlaşdıran, onun alternativ həll tapmasını məhdudlaşdıran xarici şərait və vəziyyət.
4. İntiharın motivləri – intihar nə üçün baş verir, onun məqsədləri, funksiyaları və mənası.

Bütün bu faktorlara qarşı antisuisidal baryer dayanır. Belə olan halda, intihar suisidal vəziyyətdən çıxış yolu, birincisi, digər yolların seçilməsində daxili və xarici maneələr mövcud olduqda, ikincisi, ölüm insan üçün əsaslı funksiya yerinə yetirdikdə, yəni insanı inihara sürükləyən xüsusi motiv yarandıqda, üçüncüsü, insanda mövcud olan antisuisidal baryer suisidal aktivliyin qarşısını ala biləcək qədər güclü olmadıqda kimi hallarda özünü göstərir.

## ƏDƏBİYYAT

1. Банщикова Е.Г. Философские и методологические основы психопатологического анализа суицида / Русский Медицинский Сервер; 24.01.2002.
2. Бердяев Н. О самоубийстве (психологический этюд) // Суицидология: Прошлое и настоящее: Проблема самоубийства в трудах философов, социологов, психотерапевтов и в художественных текстах. М.: Когито-Центр, 2001. С. 89–113.
3. Нуллер Ю.Л., Михаленко И.Н. Аффективные психозы. Л.: Медицина, 1988. 264 с.
4. Тихоненко В.А. Жизненный смысл выбора смерти //Человек.1992.№ 6. С. 19–29.
5. Шнейдман Э. Душа самоубийцы. М.: Смысл, 2001. 315 с.
6. Frankl V.E. Der Mensch vor der Frage nachdem Sinn. Munchen: Piper, 1979,311 s.

## SUİSİDAL VƏZİYYƏTİN YARANMASININ SƏBƏBLƏRİ VƏ MOTİVLƏRİ

***Arixova Nəzrin***

## XÜLASƏ

Bu məqalədə suisidal aktivliyin səbəblərinin təhlilinə kompleks yanaşma təhlil olunmuşdur. Bu da özündə aşağıdakı komponentləri əhatə edir: intihar vəziyyəti, şəxsiyyət faktorları, mühit faktorları, intiharın motivləri və antisuisidal baryer. Məqalədə yaş qruplarına görə suisidal vəziyyətlərə nəzər salınmış, suisidal aktivliyin yaranma səbəbləri, onu yaradan motivlər araşdırılmışdır.

## ВОЗНИКНОВЕНИЕ СУИЦИДАЛЬНОЙ СИТУАЦИИ: ПРИЧИНЫ И МОТИВЫ

***Арихова Назрин***

## АННОТАЦИЯ

В данной статье проанализирован комплексный подход к анализу причин суицидальной активности. Сюда входят следующие компоненты: суицидальная ситуация, личностные факторы, факторы среды, суицидальные мотивы и антисуицидальный барьер. В статье рассмотрены суицидальные ситуации по возрастным группам, исследованы причины суицидальной активности и ее породившие мотивы.

## THE EMERGENCE OF A SUICIDAL SITUATION: CAUSES AND MOTIVES

***Arikhova Nazrin***

## SUMMARY

The integrated approach to the analysis of the reasons of suicidal activity is presented in article. This approach includes the following components: suitsidogenny situation, factors of the personality, environment factors, motives of a suicide, anti-suicidal barrier. The article considers suicidal situations by age groups, examines the causes of suicidal activity and its motives.

# MULTİKULTURALİZM SOSİAL SİYASƏTİN PRİORİTETİ KİMİ

***Babayeva Nigar İlham qızı***
***BDU-nun Sosial iş kafedrasının müəllimi***
***b_nigar@yahoo.com***

***Açar sözlər:*** multikulturalizm, sosial siyasət, multikultural siyasət, etnos, tolerantlıq, rasizm
***Ключевые слова:*** мультикультурализм, социальная политика, мультикультурная политика, этнос, толерантность, расизм
***Keywords:*** multiculturalism, social policy, multicultural politics, ethnos, tolerance, racism

Multikulturalizm anlayışı çox da qədim tarixə malik deyil. Multikulturalizm anlayışı XX əsrin II yarısında - 1960-cı illərdə Kanadada yaranmışdır. Termin olaraq 1970-ci ildə elmi ədəbiyyata daxil edilmişdir. The Harper Colins sosiologiya lüğətində (1991) Multikulturalizm anlayışına belə bir tərif verilir: "Multikulturalizm – bir çox cəmiyyətlərin xüsusiyyəti kimi plüralizmin mövcudluğunun etiraf olunması və inkişafı deməkdir. Multikulturalizm mədəni müxtəlifliyin, məsələn azlıqların dilinin müdafiəsi məsələsini öz qarşısına qoyur. Eyni zamanda o, azlıqların mədəniyyəti ilə əsas mədəniyyətin qeyri-bərabər münasibətlərini nəzərdə saxlayır". Stenford Ensiklopediyasında isə belə qeyd olunur ki, Multikulturalizm məfhumuna bütün həssas qruplar–afro-amerikanlılar, qadınlar, cinsi azlıqların nümayəndələri, şikəstlər və s. aid edilsə də, multikulturalizmin tədqiqatçılarının əksəriyyəti adətən bu məfhuma etnik və dini azlıqları təşkil edən immiqrantları (mühacirləri) (məs. Qərbi Avropada müsəlmanları), milli azlıqları (məs.

Katalonları, baskları, uelsliləri, kvebeklilləri) və yerli xalqları (məs. Şimali Amerikadakı yerli xalqları, Yeni Zellandiyadakı maoriləri) daxil edirlər. Multikulturalizm sözü ingilis mənşəli söz olub, tərcümədə çoxmədəniyyətlilik (multi-çox, culturalism- mədəniyyət) deməkdir. Çoxmədəniyyətlilik dedikdə birdən çox mədəniyyətin eyni bir cəmiyyətdə, tək bir siyasi vahiddə birgə yaşaması nəzərdə tutulur. Multikulturalizm anlayışının təməlini müxtəlif mədəniyyətlərin qarşılıqlı hörmət və tolerantlıq çərçivəsində bir yerdə olması və inkişaf etməsi təşkil edir. Multikulturalizm etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin bir siyasi modelidir. Multikulturalizm siyasətinin alternativi yoxdur. Multikulturalizmin siyasi modeli yaranmamışdan əvvəl assimilyasiya, izolyasiya və aparteid siyasətlərindən istifadə olunurdu.

Beynəlxalq aləmin tolerantlıq və multikulturallıq mənzərəsi heç də ürəkaçan vəziyyətdə deyil. Bu gün dünya dövlətləri iki qütbə ayrılmışdır: multikulturalizm və tolerantlığı dəstəkləyənlər, multikulturalizm modelinin iflasa uğradığını bəyan edənlər. Multikulturalizm siyasi modelini dəstəkləyən dövlətlər azdır. Təəssüflər olsun ki, multikulturalizm siyasi modelini dəstəkləməyənlər hegemon və super güc dövlətlərdir. Multikulturalizm siyasi modelininin iflas etdiyini elan edən dövlətlərdə intolerantlıq, rasizm, ksenofobiya, islamofobiya meyilləri sürətli şəkildə inkişaf etməkdədir.

Sivil və humanist bir ölkə olaraq ilk dəfə Kanada multikulturalizm siyasəti yürütməyə başlamışdır. Kanadada etnik əhalinin sayı son 40 ildə artmış, daha çox mədəni müxtəliflik yaranmışdır. 1971-ci ilin oktyabr ayında Kanada rəsmi olaraq multikulturalizm siyasətini qəbul etdi. Bununla da dünya tarixində çoxmədəniyyətli siyasəti qəbul edən ilk dövlət kimi iz qoydu. Ölkənin inkişafında immiqrasiya böyük rol oynayır. Bu gün Kanadada əhali artımının yüzdə əllisindən çoxu immiqrasiya sayəsində baş verir. Kanadada 200-dən çox etnik qrup birlikdə yaşayır. 40-dan çox mədəniyyət Kanadanın etnik nəşrində təmsil edilir. Kanada əhalisinin əsasını aborigenlər- sayı 2%-dən az olan hindu tayfaları, iki Avropa xalqı olan ingilis və fransızlar təşkil edir. Dünyanın hər yerindən daha yaxşı həyat tərzi axtaran miqrantların miqrasiyası ilə Kanada əhalisinin sayı artmaqdadır.

1971-ci ilin oktyabr ayında mulikulturalizm Kanadanın rəsmi ideologiya siyasəti olmuşdur və bu siyasət "Bir millət, iki dil, bir çox xalqlar və mədəniyyətlər" şüarını yaratdı. 1972-ci ildə multikulturalizm üzrə xüsusi idarə yaradılmışdır və 1990-cı ilin ortalarına qədər hökumətin tərkibinə nazir daxil idi, hansı ki, multikultural problemlərin çözülməsinə dair məsuliyyət daşıyırdı. 1988-ci ilin multikulturalizm aktına görə çoxmədəniyyətli istiqamət Kanadanın rəsmi siyasəti elan olundu. Sonuncu aktda deyilirdi ki, "Kanada hökuməti irqi, milli, kanadalıların etnik müxtəliflikləri və dini əqidələrinə Kanada cəmiyyətinin fundamental xüsusiyyətləri kimi baxır və multikulturalizm siyasətini kanadalıların irsi multikultural istiqamətinin qorunub saxlanılması və inkişafı üçün bu prosesdə onların iqtisadi, sosial, mədəni və siyasi sahələrdə bərabər imkanların əldə edilməsi üçün keçirir. Dövlət Amerikanın "əridici qazan" kimi tanınmış assimilyasiya siyasətini rədd etmiş və mədəni mozaika cəmiyyətinin qurulması üçün zəmin yaratmışdır. [2, s103]

Türkiyə də müasir dövrün multikultural ölkələrindən sayılır. Bu gün Türkiyəni ən çox miqrant qəbul edən ölkə hesab etmək olar. Türkiyə qəbul etdiyi qaçqınların sayına görə dünya dövlətləri arasında liderdir. Dövlət qaçqınlara qarşı açıq qapı siyasəti həyata keçirir. Münhendə Təhlükəsizlik sammitində çıxış zamanı Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu belə bəyan etmişdir: "2005-ci ildən 2014-cü ilədək Türkiyədə qaçqınların sayı altı dəfə artıb. Biz artıq bu problemin öhdəsindən təkbaşına gələ bilmirik. Qaçqınların məskunlaşdırılma proqramına və miqrasiya üzərində nəzarətə böyük ehtiyac duyulur. Biz Suriyadan 2 milyon 500 min, İraqdan isə 200 min qaçqın qəbul etmişik. Son günlər Suriyadan daha 10 min nəfər Türkiyə sərhədlərinə axışıb. Türkiyə hökuməti qaçqınların qəbuluna indiyədək 10 milyard dollar sərf edib və açıq qapı siyasətini davam etdirir", deyə M.Çavuşoğlu bildirib.

XXI əsrin hegemon dövlətlərdən biri olan Amerikada cəmiyyətin multikultural səviyyəsi çox aşağıdır. Amerika dedikdə insan ağlına ilk olaraq daim zülmə və haqsızlığa məruz qalmış qaradərililər gəlir. Rasizmin beşiyi olan Amerikada daim irqi ayrıseçkilik olmuş insanlar dərilərinin rəginə görə aşağılanmışdır.

Uzun əsrlərdən bəri Amerika rasizmin beşiyinə çevrilmişdir. Rasizm isə əsrlərdir Amerikanın bəlasıdır. ABŞ-da irqi ayrıseçkiliyin əsası dörd əsr əvvəl qoyulmuşdur. Yüzlərlə qula malik olan 55 ağdərili 1787-ci ildə ABŞ-ın ilk konstitusiyasını hazırladı. Həmin dövrdən rasizm Amerikada leqallaşdı.

Keniya əsilli qaradərili Barak Obama 2008-ci ildə ABŞ-da prezident seçkilərində qalib gələn zaman yalnız amerikalılar deyil, bütün dünya ictimaiyəti düşünürdü ki, Amerikada rasizmə son qoyulacaq. Lakin B. Obamanın hakimiyyətdə olduğu illərdə baş verən Ferqüsson və Baltimor hadisələri ABŞ demokratiyasının iç üzünü bir daha göstərdi.

Rasizmin vətəni olan Amerika indi də antimiqrasiya siyasəti yürüdür. Lakin bu antimiqrasiya siyasətinin xüsusi özəlliyi vardır. Amerikanın yürütdüyü bu siyasətin özəlliyi ondan ibarətdir ki, qadağa yalnız müsəlman ölkələrindən gələn miqrantlara aid edilir. Amerika prezidenti Donald Trampın miqrasiya ilə bağlı qadağası müsəlman ölkələri olan İraq, İran, Liviya, Somali, Sudan, Suriya və Yəməndən olan qaçqınlara aid edilir.

Rasizmin möhkəmləndiyi Amerikada bu gün ksenofobiya, islamofobiya da geniş yayılmışdır. Amerika siyasətinin əsasını islamofobiyanın təbliği təşkil edir.

Bir milyard əhalisi olan Çində də etnik azlıqlara qarşı münasibət ürək açan vəziyyətdə deyil. Çinin şimal qərbində Sincan Uyğur Muxtar bölgəsində yaşayan türk kökənli uyğurlar etnik separatizmdən əziyyət çəkirlər. Çin tez-tez uyğurlara qarşı qətliam törədir. Uyğurlar Çin hakimiyyətindən din və vicdan azadlığının təmin olunmasını, ana dilində təhsil və nəsil artırma məhdudiyyətinin aradan qaldırılmasını istəyirlər. Dünya Uyğur Konqresinin sədr müavini Seyid Tümtürk açıqlamalarının birində belə demişdir: "Çində türklərə qarşı diskriminasiya siyasətinin pik həddə çatmışdır. Şərqi Türkistanda Çin hökuməti qadağaları və təhdidedici siyasəti ilə uyğur

türklərini sındırmağa çalışır: “Doğu Türkistan dedikdə göz önünə qətliam, edam, insan haqlarının pozulması, zülm, işgəncə gəlir. Lakin dünya bu zülmə qarşı səssiz qalıb”.

Cənub Şərqi Asiyada yerləşən Myanma dövlətində yaşayan müsəlmanlar da etnik və dini diskriminasiyadan əziyyət çəkirlər. Myanma radikal buddistlərin vətənidir. Burada yaşayan buddistlər zaman-zaman müsəlmanlara qarşı qətliamlar törətmişdirlər.

Myanmada rohincalara qarşı təqiblər 2012-ci ildə yenidən gərginləşib, müsəlmanlarla buddistlər arasında toqquşmalar nəticəsində 102 min rohinca Rakhayn ştatını tərk edib. Rohincaların kəndləri yandırılır, evləri yerlə-yeksan olunur, onlar döyülür, öldürülürlər. BMT-nin rəsmi hesablamalarına görə, indi Cənub-Şərqi Asiya ölkələrində 453 min qaçqın rohinca var.

Amerikadan fərqli olaraq bir necə Avropa dövləti multikulturalizm siyasətinin iflasa uğradığını rəsmi şəkildə bəyan etmişlər. İlk olaraq Almaniya kansleri Angela Merkel multikulturalizm siyasətinin iflasa uğradığını bəyan etdi. Merkel çıxışında demişdi: “Bizim hal-hazırda yan-yana yaşamağımızın və özümüzü bundan xoşbəxt saymağımızın əsasında dayanan konsepsiya artıq işləmir”.

Almaniyadan sonra 2011-ci ildə Böyük Britaniyanın baş naziri D.Kameron və Fransa prezidenti multikultural cəmiyyət qurmağın mümkünsüz olduğunu deyərək multikulturalizm siyasətindən imtina etdilər.

Niderland baş nazirinin müavini Maksim Verxagen, Avropa Şurasının baş katibi və Norveçin keçmiş baş naziri Turbörn Yaqland, Belçika və Avstraliyanın keçmiş baş nazirləri İv Leterm və Con Hovard, eləcə də digərləri sonralar oxşar bəyanatlarla çıxış etmişdilər.

Bununla da Qərb dövlətləri ölkə ərazisində yaşayan və yeni gələn miqrantlara iki seçim yolu verirlər ya assimliasiyaya məruz qalmalısınız ya da bizim ölkəni tərk etməlisiniz.

Lakin Qərbin uğursuz təcrübəsi multikulturalizm siyasətinin tənəzzül etdiyini deməyə əsas vermir. Qərbin uğursuz multikulturalizm siyasətinə Azərbaycanın uğurlu multikultural modelini nümunə göstərmək olar. Əslində Qərb dövlətləri öz yerli xalqlarının assimliasiyaya məruz qalmasından qorxaraq multikulturalizm siyasətini rədd etdilər.

Cənubi Qafqazda yerləşən üç dövlət arasında multikulturallıq dərəcəsinin göstəriciləri bir-birindən fərqlidir. Əhalisinin milli tərkibinə görə Qafqaz ən mürəkkəb regiondur. Bu regionun əhalisinin 55%-i Cənubi Qafqazda yaşayır. Qafqazdan çoxlu sayda xalqlar keçmiş, lakin onlardan ən güclü olanları özünü, adət-ənənələrini qoru yub saxlaya bilmiş, assimliyasiyaya uğramamışlar. Bu gün Qafqaz ərazisində 60-a yaxın müxtəlif xalq yaşayır. Burada azərbaycanlılar, gürcülər, ermənilər, talışlar, tatlar, ləzgilər, avarlar, udinlər, buduqlar və s. yaşayırlar.

Cənubi Qafqazın ən böyük dövlətlərindən biri olan Azərbaycan nəinki region dövlətlərinə, bütün dünyaya, öz multikulturallığı və tolerant dəyərləri ilə nümunədir. Böyük İpək Yolunun üzərində yerləşən Azərbaycan sivilizasiyaların toqquşduğu ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadığı bir məkandır. Dünyanın bir çox ölkələrində milli və dini zəmində münaqişələrin baş verdiyi, rasizmin, ksenefobiyanın, islamofobiyanın geniş yayıldığı bir dövrdə Azərbaycan dünyanın ən sabit, multikulturalizmi qoruyan, inkişaf etdirən və yaşadan ölkələr sırasında birincilərdəndir. Başqa dinə və millətə mənsub olduğuna görə Azərbaycan ərazisində yaşayan xalqlara tarixən cəmiyyət tərəfindən radikal münasibət göstərilməyib. Ölkəmizdə heç bir zaman milli-dini zəmində qarşıdurma baş verməmiş, tarixən bütün etnoslar həmrəylik və əməkdaşlıq şəraitində qardaş kimi yaşamışlar. Bu hazırda qloballaşma prosesində nümunəvi və çox pozitiv yaşam təcrübəsidir.

Hələ qədim dövrlərdən müxtəlif sivilizasiya və müxtəlif mədəniyyətlərin beşiyi olan Azərbaycanı “etnoqrafik xəzinələr beşiyi” adlandırmaq olar. Əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı Azərbaycanda təxminən otuza qədər xalq, millət və etnik

qrup yaşayır. Ölkədə bu qədər xalq, millət və etnik qrupun olması bir o qədər də psixologiya, etnik şüur, həyat və davranış tərzi, etnomədəniyyət, mentalitetin olması deməkdir. Bu müxtəlifliklərin öyrənilməsi, azsaylı xalqların xüsusiyyətlərini qoruyub saxlamışdır.

Azərbaycanda yaşayan etnik azlıqlar ölkə ərazisində heç bir milli-dini ayrı seçkiliyə, hər hansı bir zorakılığa məruz qalmadan sülh və qardaşlıq şəraitində rahat həyat yaşayırlar. Xalqımızın digər millətləri özündən ayırmaması, tolerantlığı, dözümlülüyü, onlara Azərbaycana həqiqi vətən məhəbbəti bəxş etmişdir. Təsadüfi deyil ki, Qarabağ uğrunda döyüşlərdə azərbaycanlılarla yanaşı digər xalqların da övladları erməni işğalçılarına qarşı qəhrəmanlıqla döyüşmüşlər. Aydındır ki, onlar Azərbaycanı Vətən seçdikləri üçün onun uğrunda vuruşaraq, şəhid olmuşlar. Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti ölkə mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir.

Onlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Beynəlxalq "İudaika" Cəmiyyəti, Məhsəti Türklərinin Vətən Cəmiyyətini göstərmək olar.

Milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının keçmişinə aid olan tikililər "tarix və mədəniyyət abidələri" kimi siyahıya alınaraq dövlət tərəfindən qorunur və bərpa olunur. Misal olaraq Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndindəki kilsələri göstərmək olar. Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi bərpa olunmuşdur. Dövlət tərəfindən Qax rayonu ərazisində yerləşən Allahverdi kilsəsində "Milli azlıqların mədəniyyəti və etnoqrafiyası" adlı muzeyin yaradılması ideyası əsasında layihə hazırlanmış və həmin layihə Avropa Şurası tərəfindən müsbət qiymətləndirilmişdir. Qeyd olunan etnik qrupların nümayəndələri özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlamışdır. Azərbaycan dövləti də çalışır ki, ölkəmizdə yaşayan milli azlıqlar öz ənənələrini yaşatsınlar və Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan bu xalqların mədəniyyətləri qorunaraq nəsildən-nəsilə ötürülsün. 2012-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda Azsaylı xalqların folkloru bölməsi yaradılıb. Bu da Azərbaycanda yaşayan azsaylı xalqların folklor nümunələrinin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində mühüm əhəmiyyət kəsb edir. Elə folklor ənənələri var ki, birgə yaşayış prinsipindən irəli gələrək ümumi formaya çevrilmişdir.

Azərbaycan daxili və xarici siyasətində multikultural prinsiplərə əsaslanan dövlətlərdən biridir. Əsrlərdən bəri Azərbaycanda həyat tərzi kimi təşəkkül tapan multikulturallıq Azərbaycanın dövlət siyasətində də öz əksini tapmışdır.

Azərbaycanın multikultural siyasəti 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrində öz əksini tapmışdır:

-“ Din və dövlət” Maddə 18, bənd 1: Azərbaycan Respublikasında din dövlətdən ayrıdır.[1,s.8]

- "Dövlət dili" Maddə 21, bənd 2: "Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir. [1,s.9]

- "Bərabərlik hüququ" Maddə 25, bənd 3: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən,

siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır"; [1,s.10]

Azərbaycan Respublikası multikulturalizm siyasətinin həyata keçirilməsində nüfuzlu beynəlxaq təşkilatlarla – BMT, Avropa Şurası, Avropa İtifaqı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digərləri ilə əməkdaşlığa üstünlük vermişdir. Azərbaycan insan haqları və milli azlıqların müdafiəsi ilə bağlı bir neçə beynəlxalq konvensiyalara da qoşulmuşdur. Belə konvensiyalardan Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"nı göstərmək olar. Bu konvensiya Azərbaycan hökuməti tərəfindən 1995-ci il fevralın 1-də imzalanmış və 2000-ci il 16 iyun tarixli Qanunla ratifikasiya edilmişdir. Azərbaycan Respublikası hər 5 ildən bir "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası" üzrə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bağlı Avropa Şurasına hesabat təqdim edir.

Dünyada etnik və dini ayrıseçkiliyin gücləndiyi, etnik və dini zəmində qarşıdurmaların artdığı bir dövrdə tolerantlıq Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Fəxrlə deyə bilərik ki, bu gün bütün dünyada demokratik dəyərlərdən biri kimi təbliğ olunan dini dözümlülük xalqımızın əsrlər boyu formalaşan və bir çoxlarına örnək olan xarakterik xüsusiyyətidir və bu, inkaredilməz həqiqətdir.

Polietnik və polikonfessiyalı bir dövlət olan Azərbaycanda heç vaxt etnik və dini zəmində qarşıdurma olmamışdır. Ölkə ərazisində yaşayan azsaylı xalqların nümayəndələri, o cümlədən digər konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində azərbaycançılıq ideologiyası ətrafında birləşərək uzun illərdir yaşayırlar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası Bakı: Hüquq Yayın Evi, 2017. 92s.
2. "Multiculturalism in Canada". Pch.gc.ca. 9 April 2009. Retrieved 10 December 2010.
3. Jeffrey Lehman, ed. Gale Encyclopedia of Multicultural America (3rd edition; 6 vol. 2014)
4. Reynolds, Cecil R.; Fletcher-Janzen, Elaine, eds. (2008). "Pluralism, Cultural". Encyclopedia of Special Education.
5. https://www.thoughtco.com/what-is-multiculturalism-4689285

# MULTİKULTURALİZM SOSİAL SİYASƏTİN PRİORİTETİ KİMİ

***Babayeva Nigar***

## XÜLASƏ

Azərbaycan polietnik və polikonfessional bir dövlətdir. Azərbaycan əhalisinin 9,2%-ni ölkə ərazisində yaşayan etnik azlıqlar təşkil edir. Azərbaycan Respublikası daxili və xarici siyasətində multikultural prinsiplərə əsaslanır.

# МУЛЬТИКУЛЬТУРАЛИЗМ КАК ПРИОРИТЕТ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ

***Бабаева Нигяр***

## АННОТАЦИЯ

Азербайджан – многонациональное и многоконфессиональное государство. 9,2% населения Азербайджана составляют этнические меньшинства, проживающие в стране. Он основан на принципах мультикультурности во внутренней и внешней политике Азербайджанской Республики.

## MULTICULTURALISM AS A PRIORITY OF SOCIAL POLICY

***Babayeva Nigar***

## SUMMARY

Azerbaijan is a multi-ethnic and multi-confessional state. Ethnic minorities living in the country make up 9.2% of Azerbaijan’s population. It is based on multicultural principles in the domestic and foreign policy of the Republic of Azerbaijan.

# AİLƏ ZORAKILIĞINA MƏRUZ QALMIŞ UŞAQLARLA SOSİAL İŞ

***Həsənova Zeynəb Elçin qızı***
***ADMİU-nun II kurs magistrantı***
***mail:zeyneb@mail.ru***

***Açar sözlər:*** uşaq istismarı, sosial reabilitasiya, zorakılığın əsas növləri, fiziki zorakılıq, cinsi zorakılıq, psixi (emosional) zorakılıq,müalicə modelləri, təhlükəsizlik planı
***Ключевые слова:*** жестокое обращение с детьми, социальная реабилитация, основные виды насилия, физическое насилие, сексуальное насилие, психическое (эмоциональное) насилие, модели лечения, план безопасности
***Keywords****:* child abuse, social rehabilitation, main types of violence, physical violence, sexual violence, mental (emotional) violence, treatment models, safety plan.

Dünyanın hər yerində uşaqlara qayğı və onların qorunması xüsusi əhəmiyyət kəsb edir. Hər bir ölkə uşaqları qorumağı, uşaqları müdafiə etməyi özünün əsas vəzifəsi hesab edir. Hər bir təbəqənin inkişafı Ailə siyasətinin düzgün həyata keçirilməsi ilə sıx bağlıdır. Ailə İnstitutunun möhkəmliyi həmin cəmiyyətin və dövlətin güclənməsi və inkişafına gətirib çıxarır. Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, onlarla birgə yaşamaq hüququna malikdir. Uşaq öz valideynləri tərəfindən tərbiyə olunmaq, öz maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir. Uşaq öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi hüququna malikdir. Uşağın hüquqlarının və qanuni mənafelərinin müdafiəsi valideynlər (onları əvəz edən şəxslər) Ailə Məcəllə ilə nəzərdə tutulmuş hallarda isə müvafiq icra hakimiyyəti orqanı və məhkəmə tərəfindən həyata keçirilir. Qanunvericiliyə uyğun olaraq yetkinlik yaşına çatana qədər tam fəaliyyət qabiliyyətli hesab edilən şəxslər öz hüquq və vəzifələrini, o cümlədən müdafiə hüququnu müstəqil həyata keçirirlər. Uşağın valideynləri (onları əvəz edən şəxslər) tərəfindən sui-istifadə etmə hallarından müdafiə olunmaq hüququ vardır.

Ailə və məişət zorakılığı böyük sosial və sosial-psixoloji problemdir. Təəsüf ki, bu fenomen bütün dünyada və əhalinin bütün təbəqələrində olduqca yayğındır. Ailə zorakılığı ailə üzvlərinin bir-birinə qarşı göstərdiyi məcburedici və nəzarətedici davranışlar kimi müəyyən edilir. Bu davranışlar tez-tez təkrarlanan davranış nümunələri kimi görülür.

Zorakılıq hadisələrinin nə qədərinin uşaqların gözü qarşısında baş verdiyi dəqiq bilinməsə də, uşaqlar bu prosesin görünməz qurbanları hesab olunurlar (Osofsky 1995). 900.000 əhalisi olan və cinayət nisbətinin ölkə ortalamasının altında olan Pensilvaniya ştatının Şimal-şərq bölgəsində aparılan araşdırmada, bir il ərzində polis bölmələrinə məişət zorakılığı ilə bağlı daxil olan zənglər qiymətləndirilib. Müvafiq olaraq, məişət zorakılığı hadisələrinin demək olar ki, yarısının uşaqların iştirakı ilə baş verdiyi və bu hadisələrin 81%-nin birbaşa zorakılığa məruz qaldığı müşahidə edilmişdir. UNICEF-in BMT Katibliyinin uşaqlara qarşı zorakılıqla bağlı topladığı məlumatlara əsaslanaraq hazırladığı hesabata görə, dünyada zorakılığa məruz qalan uşaqların sayının 275 milyon təxmin edilib (UNICEF 2006). Eyni hesabata görə, bəzi ölkələrdən məlumatların toplana bilmədiyi, məişət zorakılığı hallarının ümumiyyətlə gizlədilməsi və müvafiq qurumlara məlumat verilməməsi səbəbindən vəziyyət kifayət qədər kritik hesab olunur.

Hazırda ölkəmizdə uşaqlara qarşı zorakılığın profilaktikasının üç səviyyəsi müəyyən edilir: 1. İlkin profilaktika: bütün əhali üçün əlçatan olan müxtəlif xidmətlərin cəlb edilməsi; zorakılığa səbəb olan amillərin qarşısını alınması 2. İkinci dərəcəli profilaktika: zorakılıq baş verməzdən əvvəl yüksək risk qruplarını və aparılacaq tədbirləri müəyyən edən xüsusi tibbi və sosial

xidmətlərin cəlb edilməsi. 3. Üçüncü dərəcəli profilaktika: uşaqlara lazımi qayğı göstərilməyən və ya uşaqlara qarşı zorakılıq faktları məlum olan sosial baxımdan uğurlu olmayan ailələrlə məşğul olacaq xüsusi tibbi və sosial xidmətlərin yaradılması.

Sosial reabilitasiya mərkəzləri uşaq müəssisələrinin sosial müdafiəsinin ümumi sistemində ən perpektivlisidir, çünki onlar islah reabilitasiya işinin problemlərini hərtərəfli həll etməyə imkan verir, onu çətin həyat vəziyyətində olan uşağın özünə yönəldir. Mərkəzlərdə uşaqlara müxtəlif sosial xidmətlər göstərilir: gecə-gündüz qalma, gündüz xəstəxanası, əvəzedici ailəyə yerləşdirmə. Bir qayda olaraq, sosial reabilitasiya mərkəzlərində zorakılıq problemi ilə bağlı araşdırmalar iki sahədə cəmlənir. Birinci istiqamət uşağa qarşı zorakılıq faktının müəyyən edilməsi ilə bağlıdır.( məsələn, cinayət işi başlamaq üçün). Ikinci istiqamət zorakılığa məruz qalmış uşaqların reabilitasiya ilə bağlıdır. Hər iki istiqamət zorakılıq problemi ilə işləmək üçün fənlərarası yanaşmaya əsaslanır. Bu, uşaqlara qarşı zorakılıq faktları ilə işləmək üçün müxtəlif departamentlərə və peşələrə aid mütəxəssislərin peşəkar qarşılıqlı əlaqəsi ideyasına əsaslanır.

Məişət zorakılığı və uşaq istismarı tez-tez birlikdə müşahidə olunur. Bu halda uşaq fiziki zorakılıq və ya digər təhqiramiz davranışların şahidi ola bilər, eləcə də zorakılıq edən həyat yoldaşı və ya partnyoru birbaşa uşağa zərbə vura bilər və ya uşağa fiziki zərər verə biləcək davranışlar göstərə bilər (Davies et al. 1998, Barran 2014). Bundan əlavə, əri tərəfindən zorakılığa məruz qalan qadınlar da uşaqlarına təcavüz edir və buna ədəbiyyatda tez-tez rast gəlinməsə də, məişət zorakılığının nəticəsi olaraq müzakirə edilir. Zorakılığa bilavasitə məruz qalan uşaqlarla yanaşı, zorakılığa birbaşa məruz qalan uşaqlar da bu vəziyyətdən mənfi təsirlənir və onlar üçün peşəkar yardıma müraciət edilməlidir. Zorakılıq anlayışının əsas xüsusiyyətləri onun təkrar, məqsədyönlü xarakter daşıması, uşağın fiziki, əqli, psixososial inkişafına və sağlamlığına mənfi təsir göstərməsidir.

Uşağa qarşı fiziki zorakılıq uşağa təsadüfən xəsarət yetirmə və ya fiziki cəza vermə kimi müəyyən edilir. Fiziki laqeydlik isə uşağın qidalanma, tibbi baxım, geyim və fiziki inkişafı üçün lazım olan qorunma kimi əsas ehtiyaclarından məhrum olması və bunların təmin edilməməsi vəziyyəti olaraq təyin olunur (Ünal 2008). İngiltərədə məişət zorakılığı üzrə ixtisaslaşmış dörd fərqli mərkəzlə əməkdaşlıqda aparılan araşdırmada, 877 uşaqdan ibarət nümunə qrupunun 28%-nin məişət zorakılığına şahidlik etməklə yanaşı, birbaşa fiziki zorakılığa məruz qaldığı aşkar edilmişdir (Barran 2014, CAADA 2014). Digər sui-istifadə növləri ilə müqayisədə fiziki zorakılıq ən çox rast gəlinən sui-istifadə növüdür və müəyyən edilməsi ən asandır (Tıraşçı və Gören 2007, Ünal 2008). Uşağın emosional, sosial və şəxsiyyət inkişafına mane olan bütün davranışların emosional istismar və laqeydlik anlayışı altında müəyyən edildiyi görülür (Ünal 2008). Qışqırmaq, rədd etmək, alçaltmaq, söyüş söymək, uşağı tək buraxmaq, aldatmaq, qorxutmaq, hədələmək, onların emosional ehtiyaclarını ödəməmək, yaş həddi keçmək məsuliyyətini gözləmək, bacı-qardaşlar arasında ayrı-seçkilik etmək, kiçik qiymətləndirmək, görməməzlikdən gəlmək, aşağılama, istehza, həddən artıq ləqəblər, təzyiq və səlahiyyət, onları asılı hala gətirən və həddindən artıq qoruyan emosional istismar olaraq təyin edilə bilər (Tıraşçı və Gören 2007).

Ailə zorakılığına məruz qalan uşaqlara emosional və digər təsirlər və uşaqlarla pis rəftarın digər formaları ilə əlaqə sosial iş siyasətində və praktikasında qeyribərabər olsa da, tanınır. Bu çox alqışlanmalıdır. Bununla belə, məişət zorakılığından təsirlənən uşaqların müdafiəsi ilə bağlı mürəkkəbliklərə həssas olan təcrübəni inkişaf etdirmək üçün bu inkişaf edən siyasət və təcrübənin əsas dəyər perspektivləri haqqında daha kritik müzakirələrə ehtiyac var.

Sosial reabilitasiya mərkəzlərinin mütəxəssislərinin kifayət qədər səmərəli fəaliyyətinə baxmayaraq, bu gün müəssisədə psixoloji və pedaqoji monitorinqin aparılmasına təcili ehtiyac vardır ki, onun əsas məqsədi sağlamlıq və təhsil fəaliyyətini, reabilitasiya mərkəzinin ətraf mühit şəraitini mümkün mənfi halların qarşısını almaq üçün korrektə etməkdir. Psixoloji və pedaqoji

dəstək sosial reabilitasiya fəaliyyətinin mühüm tərkib hissəsidir, çünki sosial reabilitasiya üçün daha rahat şəraitin yaradılması ilə birbaşa bağlıdır.

Zorakılıq hallarında tibbi müayinə zərərçəkmişlə mütləq söhbət aparılmasını tələb edir. Ehtimal olunan zorakılıq halını təyin etmək üçün həmsöhbətin təsirli və müvafiq bacarıqları vasitəsilə çox uzun bir yol qət etməsi vacibdir. Söhbət tibbi nəticələrin, məhkəmə ekspertizasının və şahidlərin ifadələrinin düzgünlüyünə zəmin yaradır. İlkin tibbi sənədlər məhkəmə tibbi ekspertizasının və məhkəmədə ifadələrin hazırlanması üçün sübutların əsas mənbəyidir. Həmsöhbətin səs tonu, danışığı asan və işgüzar olmalıdır. Uşağı daim və israrla göz təması qurmağa məcbur etmək lazım deyil – bu onu qorxuda bilər. Bundan əlavə uşaqla böyüklər arasında uşağa uyğun olan məsafəni saxlamaq lazımdır.

Çətin həyat vəziyyətində olan uşaqlarla iş zamanı psixoloji-pedaqoji monitorinq zamanı aşağıdakı mərhələlər fərqləndirilir: diaqnostik, korreksiyaedici reabilitasiya, reabilitasiyadan sonrakı. Hər mərhələdə aşağıdakıları təmin etməkdən ibarət inteqrasiya olunmuş bir yanaşma həyata keçirilir: hüquqi yardım, tibbi yardım, psixoloji və pedaqoji yardım. Sosial reabilitasiya mərkəzinin işində ailənin sosial dəstəyinin effektivliyinin monitorinqi sistemindən istifadə reabilitasiya kurslarının müvəffəqiyyətini qiymətləndirməyə, fərdi proqramların icrasını əlaqələndirməyə, risk qrupuna daxil olan uşaqların sosial xüsusiyyətlərində dəyişiklikləri izləməyə imkan verəcəkdir.

Məişət zorakılığının uşaqlara çoxlu mənfi təsirləri var və bu təsirlər ağır və uzunmüddətli ola bilər (UNICEF 2006). İngiltərədə məişət zorakılığı ilə bağlı xidmət göstərən 4 mərkəzin köməyi ilə aparılan araşdırmaya görə, məişət zorakılığına şahid olan uşaqların %52-də davranış problemi, 39%-də məktəbə uyğunlaşma problemi, 25%-də isə təhqiramiz davranışlar göstərməyə cəhd, %60-da isə davranış problemi yaranıb (Barran 2014). Funzotto və Fusco (2007) 6 yaşdan kiçik uşaqların məişət zorakılığının şahidi olma riskinin daha yüksək olduğunu bildirdi. Ailədaxili zorakılığa şahid olan kiçik uşaqlarda emosional stress, yuxu pozğunluğu, tək qalmaq qorxusu, inkişaf səviyyəsindən aşağı yetkinlik, somatik şikayətlər, tualet təhsili və dil inkişafında geriləmə müşahidə edilmişdir (Osofsky 1995, 1999, 2005). Başqa bir araşdırmada isə uşaqlarda bağlılıq problemləri, ayrılıq narahatlığı və hisslərini ifadə edə biləcək şifahi ifadələr olduğu aşkar edilmişdir.

Qeyd edək ki, uşaq hüquqları sahəsində qanunvericilik bazası ildən-ilə daha da təkmilləşdirilir və bu baxımdan əlamətdar olmuşdur. Belə ki, Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014 -2020-ci illər üçün), İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqramlar qəbul edilmişdir. Bildiyiniz kimi, 2012-ci il mayın 8-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ―Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası təsdiq edilmişdir. Hər bir uşağın fiziki, əqli, ruhi, mənəvi və sosial inkişafı üçün zəruri olan yaşayış səviyyəsinə malik olmağa hüququ var (maddə 27). Uşaq cinsi istismarın bütün növlərindən qorunmalıdır (maddə 34). Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirlyinin "Tədbirlər Planı"nada zorakılıqla mübarizənin gücləndirilməsi, zorakılıq qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, bu sahədə geniş maarifləndirmə işinin təşkili nəzərdə tutulmuşdur. Zorakılığa məruz qalmış uşağın aşkarlanması uşağın göndərildiyi bütün müəssisələrdə, o cümlədən kənd və şəhər məktəblərində, tibb müəssisələrində, ixtisaslaşmış uşaq tibb müəssisələrində və rayon polis bölmələrində həyata keçirilməlidir. Səhiyyə mütəxəssisləri uşaqlara qarşı kobud davranışın və laqeydliyin erkən edilməsində əsas rol oynayırlar. Onlar çox vaxt valideynlərin uşaqla hansı münasibətdə olmalarının yeganə şahidi olurlar. Uşağa istənilən səbəbdən baxışın keçirilməsi (valideynlərin müraciəti zamanı, profilaktik müayinə və s.) həkimin müzakirə edilən problemə dair diqqətli olmasını tələb edir, çünki hətta şikayətlər olmadıqda belə, zorakılığın ilk əlamətlərini görməyə

real imkan yaranır. Baxış zamanı alınan bütün məlumatların tibbi kartaya qeyd olunması zəruridir, çünki bu məlumatlar məhkəmə zamanı əsas sübut kimi istifadə oluna bilər.

**Zorakılığa məruz qalan uşaqlar üçün müxtəlif müalicə modelləri**

Uşaq valideyn psixoterapiyası, valideyn-uşaq qarşılıqlı terapiyası və travmaya əsaslanan koqnitiv-davranışçı terapiya, bir çox tədqiqatlarda effektivliyi nümayiş etdirilən bu modellər arasında qısaca yer alır. Bu müalicə üsullarından ilk ikisi daha kiçik uşaqlara yönəlib və xüsusilə valideynlik bacarıqlarını təkmilləşdirməyə yönəlib. Sonuncusu daha çox travma əlamətlərinin aradan qaldırılmasına yönəlmişdir. Uşaq Valideyn Psixoterapiyası Fraibergin (1980) yeni doğulmuş-valideyn psixoterapiyası və Bowlby-nin (1969) bağlanma nəzəriyyəsi əsasında hazırlanmışdır. Uşaqların beş yaşına qədər zorakılığa və ya travmaya məruz qalması nəticəsində yaranan pozulma və ya mənfi valideyn-övlad münasibətləri zamanı istifadə olunur. Adətən həftədə bir dəfə tətbiq olunan bu üsul, seanslar zamanı uşağın sərbəst oyununa, bu oyunlar zamanı uşaqla valideynin kortəbii qarşılıqlı əlaqəsinə diqqət yetirilir, terapevt uşağın reaksiyalarını, uşağın uyğun olmayan davranışlarını ailəyə vurğulayır.Uşaq və valideynlərin uyğun olmayan davranışları və valideynlərə inkişafda dəstək verir. Məsələlər üzrə təlimat verir, uşaqları və valideynləri travmatik təcrübə haqqında danışmağa təşviq edir və travma tarixi yaratmağa çalışır. Bu şəkildə müalicə edilməmiş qorxulu hadisələr terapiyada idarə olunur (David and Schiff 2015). Uşaq-valideyn terapiyası-məişət zorakılığı proqramı 12 saatlıq seansdan ibarətdir, bu seanslarda terapevtin rəhbərliyi ilə ana uşaqla effektiv oynayır, ana isə təsirli qoruyucu davranışlar öyrənir. Bu üsul ananın uşağın emosional vəziyyətlərini anlamasına və normallaşmasına, emosional dəstəyin göstərilməsinə və oyun vasitəsilə sağlam ana-uşaq münasibətlərinin inkişafına yönəlib (Borrego et al. 2008).

Valideyn-Uşaq Qarşılıqlı Müalicə Terapiyası sosial öyrənmə və bağlanma nəzəriyyəsinə əsaslanan və müddəti 14-20 həftə arasında dəyişən, davranış problemi olan 2-7 yaşlı uşaqlarda istifadə edilən bir modeldir (Timmer et al. 2010). Dəyişiklik üçün valideyn təhsili proqramlarından və müsbət valideynlik strategiyalarından istifadə edən bu üsulda terapevt uşaqla seanslarda fərdi fərqləri nəzərə alaraq, valideynlərə uşaqla valideyn arasındakı disfunksional əlaqəni dəyişməyə istiqamət verir (Borrego et al. 2008). . Müalicə modelinin birinci mərhələsi uşağın rəhbərlik etdiyi ünsiyyət adlanır. Burada məqsəd uşaq və valideynlər arasında ünsiyyəti yaxşılaşdırmaqdır və ikinci mərhələ valideyn rəhbərliyi ilə ünsiyyət adlanır. Burada məqsəd uşağın harmoniyasını yaxşılaşdırmaqdır. Hər bir mərhələ məlumatlandırıcı bir saatlıq seansla başlayır və tətbiq zamanı ikitərəfli güzgü ilə otağın görünməz tərəfində olan terapevt qulaqcıqla valideynlərə rəy verir (Tim mer et al. 2010) ).

Travmaya Fokuslu Koqnitiv Davranış Terapiyası Modeli tədricən məruz qalma prinsiplərinə əsaslanır. Sessiyalar terapevt və uşaq, valideyn və terapevt və valideyn-uşaq-terapevt seansları şəklində təşkil olunur (Cohen və Mannario 2008). Müalicə travma və sui-istifadə ilə bağlı ümumi psixotəhsillə başlayır, ardınca stressə nəzarət üsulları və istirahət təlimi, emosiyaların ifadəsi və tənzimlənməsi, koqnitiv mübarizə, travma tarixinin yaradılması, koqnitiv emal, davranış tənzimlənməsi və valideyn-uşaq seansı kimi davam edir(TF-CBT). Veb 2005). Müalicənin hər bir komponenti uşağın travmatik təcrübəsinə məruz qalmağı tələb edir və uşaq və valideyn müalicədə yüksəldikcə məruz qalma intensivliyi artır (Cohen and Mannario 2008). Müalicənin əsas məqsədi travmatik hadisəni yaşayan şəxsin travma sonrası stress pozğunluğunun əlamətlərinin travmaya təbii reaksiya olduğunu bilməsidir.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasının 19-cu maddəsi uşaqların hər cür pis rəftardan, zorakılıqdan və etinasızlıqdan qorunması üçün əvvəlcə valideynləri, sonra isə iştirakçı dövlətləri məsuliyyət daşıyır. Unutmaq olmaz ki, uşaqlar məişət zorakılığının görünməz qurbanlarıdır və onlar tez-tez zorakılığa şahid olmaqla yanaşı, həm də zorakılığa məruz qalırlar.

Məişət zorakılığının şahidi olan və birbaşa zorakılığın qurbanı olan uşaqlarda müxtəlif kəskin və ya xroniki emosional-davranış problemləri olur.

Ailədaxili zorakılıq uşaqların ən əsas ehtiyaclarından biri olan təhlükəsiz mühit əvəzinə etibarsız və qeyri-müəyyən bir mühitdə böyüməsinə səbəb olur. Uşağın özünü təhlükəsiz hiss etməsi müalicə prosesinin ən mühüm mərhələlərindən biridir. Buna görə də, bu işdə təhlükəsizlik planının hazırlanması texnikası ətraflı müzakirə olunur. Bu texnika məişət zorakılığına məruz qalan uşaqlarla işləyən psixoterapevt və məsləhətçilər tərəfindən asanlıqla tətbiq oluna bilər. Demək olar ki, təhlükəsizlik planının yaradılması prosesi bütün ailəni və zəruri sosial şəbəkəni əhatə edən ibrətamiz, uzunmüddətli və müsbət prosesdir. Lakin prosesin effektiv və müsbət şəkildə keçməsi üçün həmin xidmət təminatçılarının lazımi təlim keçmələri və bununla bağlı mütəxəssis olması lazımdır. Eyni zamanda etibarlı ailə üzvləri sıralanmalı və onların fəal iştirakı müsbət yanaşma ilə dəstəklənməlidir. Bu təhlükəsizlik planının öyrənilməsi prosesində ilk növbədə uşağın psixi sağlamlığı nəzərə alınmalı, məlumat uşağın inkişafına uyğun və özünü təhlükəsiz hiss edəcək şəkildə verilməlidir.

Təhlükəsizlik planının hazırlanması ilə yanaşı, psixi sağlamlıq sahəsində üç aparıcı müxtəlif müalicə modeli təqdim edildi. Bu yanaşmalar effektivliyi araşdırmalarla sübut edilmiş müalicə yanaşmalarıdır və bu yanaşmaların sosial xidmətlər və psixi sağlamlıq mütəxəssisləri tərəfindən istifadəsi məişət zorakılığı və ya zorakılıq qurbanı olan uşaqların psixi sağlamlığının qorunması baxımından əhəmiyyətli görünür. Bundan əlavə, bu yanaşmaların tətbiqini artırmaq üçün müvafiq qurumların ekspert kadrların işinə dəstək verməsinin və müxtəlif təcrübə sahələri arasında əməkdaşlığın zəruri olduğu düşünülür.

Bir sözlə, ailə zorakılığının uşaqlara mənfi təsirləri ilə məşğul olarkən, uşaqla yanaşı, zorakılığın qurbanı və icraçısı da daxil olmaqla bütün ailə sistemi üzərində fənlərarası bir yanaşma ilə işləməyin böyük əhəmiyyət kəsb etdiyi düşünülür.

## ƏDƏBİYYAT

1. Məişət Zorakılığı ilə Mübarizə Layihəsi (2013) Məişət zorakılığı ilə mübarizə layihəsi. http://www.sadetlemucadele.net/ (27.02.2016 çatdı).
2. Bowlby J (1969) Attachment and Loss. Cild. 1: Qoşma. New York, NY, Basic Books. CAADA (2014) Açıqcasına: məişət zorakılığına məruz qalan uşaqlar üçün effektiv yardım hesabatı. www.caada.org.uk (09.01.2015)
3. Cohen JA, Mannario AP, Murray LK (2011) Davam edən travmalar yaşayan gənclər üçün travmaya yönəlmiş CBT. Uşaq Zorakılığı Neg, 35:637-646.
4. Fraiberg S (1980) Körpənin Psixi Sağlamlığında Klinik Tədqiqatlar: Həyatın İlk İli. ABŞ, Əsas Kitablar.
5. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları, Bakı-2019, səh. 10
6. Qadın Hüquqları üzrə Bələdçi, Bakı — 2012, səh.29,30
7. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması üzrə metodik vəsait. Bakı, 2017 səh. 44
8. Məişət zorakılığına məruz qalmış şəxslərə tibbi xidmət göstərən mütəxəssislər üçün metodik vəsait. Bakı – 2014 səh. 33.

# AİLƏ ZORAKILIĞINA MƏRUZ QALMIŞ UŞAQLARLA SOSİAL İŞ

***Həsənova Zeynəb***

## XÜLASƏ

Ailə zorakılığı bir ailə üzvünün bir-birinə qarşı həyata keçirdiyi aqressiv və nəzarətedici davranışlar toplusu kimi müəyyən edilir və bu davranışlar çox vaxt təkrarlanan davranış nümunələri kimi görünür. Araşdırmalar göstərir ki, zorakılıq ən çox uşaqların gözü qarşısında yaşanır. Məişət zorakılığına birbaşa məruz qalma və ya şahidi olmaq uşaqlarda oxşar emosional-davranış problemləri ilə nəticələnir. Məqalədə uşaqlara qarşı ailə daxili zorakılıq problemindən bəhs edilir, ailə zorakılığının yayılmasının səbəbləri və miqyasının öyrənilməsinə həsr olunmuş sosioloji tədqiqatın nəticələri təsvir olunur, yetkinlik yaşına çatmayanlar üçün sosial reabilitasiya mərkəzinin yardım göstərilməsində rolu öyrənilir. Bu yazıda ailə zorakılığının uşaqlara emosional və digər təsirləri, ailə zorakılığının uşaqlarla pis rəftarın digər formaları ilə birgə baş verməsi ilə bağlı araşdırmaların qısa icmalı verilmişdir.

# СОЦИАЛЬНАЯ РАБОТА С ДЕТЯМИ, ПОДВЕРЖЕННЫМИ НАСИЛИЮ В СЕМЬЕ

***Гасанова Зейнаб***

## АННОТАЦИЯ

Насилие в семье определяется как набор агрессивного и контролирующего поведения одного члена семьи по отношению друг к другу, часто проявляющегося в виде повторяющихся моделей поведения. Исследования показывают, что насилие чаще всего происходит в присутствии детей. Непосредственное воздействие домашнего насилия или наблюдение за ним приводит к аналогичным эмоционально-поведенческим проблемам у детей. В статье рассматривается проблема домашнего насилия в отношении детей, описываются результаты социологического исследования, посвященного изучению причин и масштабов семейного насилия, изучается роль социально-реабилитационного центра для несовершеннолетних в оказании помощи. В этой статье представлен краткий обзор исследований эмоционального и иного воздействия семейного насилия на детей, а также сочетания семейного насили с другими формами жестокого обращения с детьми.

# SOCIAL WORK WITH CHILDREN EXPOSED TO FAMILY VIOLENCE

***Hasanova Zeinab***

## SUMMARY

Family violence is defined as a set of aggressive and controlling behaviors by one family member toward one another, often appearing as repetitive patterns of behavior. Research shows that violence is most often experienced in front of children. Direct exposure to or witnessing domestic violence results in similar emotional-behavioral problems in children. The article discusses the problem of domestic violence against children, describes the results of a sociological study dedicated to the study of the causes and extent of family violence, and studies the role of the social rehabilitation center for minors in providing assistance. This article provides a brief overview of research on the emotional and other effects of family violence on children, and the co-occurrence of family violence with other forms of child maltreatment.

## İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

# HEYDƏR ƏLİYEVİN İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ (1923-2003)

***Dos. Eyyubov İsmayıl Əhməd oğlu.***
***Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrası, Azərbaycan jurnalistlər birliyinin üzvü.***
***Qafarlı Ədalət İnqlab oğlu***
***BDU-nun II magistrantı***

Ulu öndər Heydər Əliyevin anadan oluşunun 100 illiyi ərəfəsində
**II məqalə**

***Açar sözlər:*** Dövlət xadimi Heydər Əliyevin II dəfə hakimiyyətə gəlməsi. Azərbaycanın parçalanmaqdan qorunması.Müstəqil Azərbaycan dövlətinin inkişaf etdirilməsi.Azərbaycanın xarici dövlətlərlə diplomatik əlaqələri.H.Əliyevin Azərbaycan Respublikasının inkişaf etdirilməsində son fəaliyyəti.
***Ключевые слова:*** Второй приход к власти государственного деятеля Гейдара Алиева. Защита Азербайджана от распада.Развитие независимого Азербайджанского государства.Дипломатические отношения Азербайджана с зарубежными странами.Недавняя деятельность Г.Алиева в развитии Азербайджанской Республики.
***Key words:*** The second coming to power of statesman Heydar Aliyev. Protection of Azerbaijan from disintegration. Development of the independent state of Azerbaijan. Diplomatic relations of Azerbaijan with foreign countries. Recent activity of H. Aliyev in the development of the Republic of Azerbaijan.

1988-1993-cü illərdə Azərbaycanda bir-birinin ardınca bir neçə dəfə hakimiyyət dəyişikliyi baş vermişdir. Bu illərdə Azərbaycan torpaqlarının bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən acınacaqlı şəkildə işğal olunmaqda idi. Azərbaycanda 70 il hakimiyyətdə olan sovet rejimi dağılmaq üzrə idi. Həmin illərdə Azərbaycan Respublikası öz müstəqilliyini elan etdi. 1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyası ləğv olundu. 1991-ci il oktyabr ayının 18-də Azərbaycanda "Müstəqillik haqqında konstitusiya aktı" qəbul olundu.

Bu dövrdə xalqın qarşısında yeni yaranmış dövlət müstəqilliyini möhkəmləndirmək, demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, ölkə əhalisinin təhlükəsizliyi və sosial rifahını təmin etmək respublikanın ərazi bütövlüyünü bərpa etmək kimi əsas vəifələr dururdu.

Lakin, 1993-cü il iyunun 15-nə kimi azərbaycanda baş verən ictimai-siyasi proseslər respublikanı böhran vəziyyətinə, parçalanmaq vəziyyətinə və yenicə təyin olunmuş müstəqilliyinin itirilməsi həddinə gətirib çıxarmışdı.

1992-ci ilin ilk günlərindən Azərbaycanda siyasi gərginlik artmağa başlamışdır. Xalq Cəbhəsinin səriştəsiz liderləri ilə Ayaz Mütəllibov qrupu arasında hakimiyyət uğrunda gedən mübarizə ölkəni xaos və anarxiya vəziyyətinə salmışdır. Prezident Ayaz Mütəllibov artıq respublikanı idarə edə bilmirdi. Azərbaycan torpaqlarının 20 faizi ermənilər tərəfindən işğal olunmuşdu. Respublikanın Dağlıq Qarabağ zonası ilə yanaşı bir sıra rayonlarının əhalisi qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü. Müharibə davam edirdi.

A.Mütəllibov nəhayət hakimiyyətdən əl çəkməli oldu. 1992-ci ilin iyun ayında Ə.Elçibəy Azərbaycan Espublikasının prezidenti seçildi. Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra onun bəzi liderləri məsul vəzifələrə təyin edilirdi. 1993-cü ilin əvvəlindən başlayaraq Azərbaycanda

ictimai-siyasi vəziyyət getdikcə pisləşməyə başladı. Ölkədə iqtisadi böhran dərinləşdi. Xalqın həyat səviyyəsi xeyli aşağı düşdü. Bu dövrdəki Xalq Cəbhəsi – Müsavat rejiminin ölkədə baş verən təhlükəli proseslərin qarşısını almağa qüvvəsi çatmırdı. Ümumiyyətlə vahid komandanlıq yox idi. Respublikada ordunun əsas hissəsi könüllülərdən ibarət olduğuna görə nizam-intizama tabe olmurdular. Ordu içərisində təxribat genişlənirdi. Fərarilik mİqyası artmışdı. Bundan istifadə edən ermənilər Dağlıq Qarabağla birlikdə ətraf yeddi rayonu da işğal etməyə nail olmuşdular.

Bu dövrlərdə Azərbaycanın ayrı-ayrı bölgələrində separatçılığın güclənməsi genişlənmişdi. Eyni zamanda Milli və dini zəmində siyasi partiyaların yaranması güclənməyə başlamışdı. Bunun nəticəsi kimi cəmiyyətdə qatı Millətçilik və Azərbaycanda yaşayan ayrı-ayrı xalqlara qarşı hücumlar baş qaldırmışdı. “Xalq Cəbhəsi” – Müsavat” hakimiyyətinin iyun ayında Gəncədə qiyamı Sürət Hüseynova qarşı hərbi əməliyyatın uğursuz nəticələnməsi onun səriştəsizliyini bir daha göstərmişdi.

Hakimiyyətin Xalq tərəfindən müdafiə edilmədiyini görən Sürət Hüseynovun dəstələri Gəncədən Bakı üzərinə hücum etməyə başladı. Yölüstü rayonlarda hakimiyyəti ələ keçirdilər. Yəni rayonları işğal edirdilər. Xalq cəbhəsi hakimiyyətinin istefasını tələb edirdilər.

Respublikanın cənub bölgəsində isə Əlikram Hümbətov bir neçə rayonu ələ keçirmişdi. O bu ərazilərdə “Talış- muğan respublikası” elan edərək separatçı quldur dəstələrini öz ətrafına toplayıb regionda hakimlik edirdi. Beləliklə, ölkə parçalanmaq və vətəndaş müharibəsi təhlükəsi altında qalmışdı.

Bu dövrdə xarici ölkələr və Azərbaycanın qonşu dövlətləri azərbaycanı müstəqil subyekt kimi qəbul etmirdilər. Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən qurtaran bir qüvvə, səriştəli cəsarətli etibarlı bir başçıya, liderə ehtiyyac vardı. 1-ci məqalədə qeyd etdiyimiz kimi, Azərbaycanda gedən mürəkkəb proseslərə biganə qala bilməyən Heydər Əliyev 1990-cı ilin iyulun 20-də Moskvadan Bakıya gəlmişdi. Halbuki, Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov onun Bakıda yaşamasına imkan verməmişdi. Dövlət mətbuatında onun haqqında iftira dolu məlumatlar dərc etdirmişdi.

Heydər Əliyev 1990-cı il iyulun 22-də Naxçıvana doğma vətəninə gedir. Naxçıvan Muxtar Respublikasının əhalisi onu böyük təmtəraqla qarşılayır. 1990-cı ildə Heydər Əliyev qısa bir müddətdə Naxçıvan Muxtar Respublikasının Xalq deputatı, Naxçıvan Ali Sovetinin sədri seçilir.

Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikasının Ali qanunverici orqanının təklifi ilə Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının bayrağı kimi qəbul edilir. Bununla da ötən əsrin sonunda ikinci dəfə Azərbaycanın müstəqilliyinin sanki ikinci dəfə əsası qoyulur.

Heydər Əliyev 1992-ci ildə “Yeni Azərbaycan Partiyasını” təsis edir. Eyni zamanda yeni yaradılan partiyanın sədri seçilir. Qısa bir müddətdə Naxçıvanda sürətlə müstəqil dövlət quruculuğu və demokratikləşmə prosesləri həyata keçirilir. Heydər Əliyev 1992-ci ilin martında Türkiyə Respubikasının baş naziri Süleyman Dəmirəlin dəvəti ilə bu ölkəyə səfər edir. Səfər zamanı Prezident Turqut Ozalla da görüşür. Bundan sonra Türkiyə və Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlıq daha da genişlənir. Hətta Türkiyə dövləti Naxçıvana 100 milyon dollar məbləğində kredit ayırır.

Həmin dövrdən başlayaraq Naxçıvanın sosial iqtisai problemlərinin həllində İran İslam Respublikasının da rolu böyük olmuşdur. Bu dövrdə Azərbaycan Respublikasına başçılıq edən Ə.Vəzirov A.Mütəllibov, Ə.Elçibəy kimi liderlər və onların əlaltıları Heydər Əliyevi siyasi cəhətdən müxtəlif yollarla sıxışdırıb ardan çıxması üçün əllərindən gələni edirdilər. Lakin, xalqın görkəmli xadimləri Heydər Əliyevin yenidən Azərbaycana rəhbərlik etməsini istəyirdilər. 1992-ci il oktyabr ayının 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı – alimlər, müəllimlər,

jurnalistlər, hüquqşünaslar, həkimlər, əmək adamları, siyasətçilər, "SƏS" qəzeti vasitəsilə Heydər Əliyevin Azərbaycan hakimiyyətinə qayıtması üçün ona rəsmi müraciət etdilər.

Heydər Əliyev 1993-cü ilin iyunun 9-da Bakıya gəlir. O, respublika rəhbərliyinin ona təklif etdiyi yüksək vəzifələrdən imtina edərək Gəncəyə qardaş qanının töküldüyü məkana gedir. Gəncədəki vəziyyəti yerində öyrənməyə səy göstərir. O, Gəncədə Sürət Hüseynovla görüşür. Xeyli danışıqlardan sonra onu Bakıya dəvət edir. Ona vəzifə veriləcəyini bildirilir. Sonra Bakıya qayıdır. Heydər Əliyev 1993-cü ilin iyunun 15-də Azərbaycan Ali sovetinin sədri seçilir. İyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirir. O vaxtdan 15 iyun 1993-cu il Azərbaycan tarixinə "Qurtuluş Günü" kimi daxil olmuşdur. Azərbaycan Respublikasının 1997-ci il 27 iyul tarixli iclasında deputatların təklifi ilə Azərbaycan dövlətinin müqəddəratı tarxində taleyüklü əhəmiyyəti olan həmin günü Milli Qurtuluş günü kimi qəbul edən Milli Məclisin qərarını nəzərə alan xalq indi hər il bu günü bayram kimi qeyd edir.

Heydər Əliyev 1993 – cü il oktyabrın 3-də Azərbaycanda keçirilən prezident seçkilərinin qalibi olaraq Azərbayan Respublikasının prezidenti seçilmişdir. O bu fəaliyyətinin ilk günündən Azərbaycanda yenicə əldə olunmuş müstəqilliyi möhkəmləndirmək, demokratik, hüquqi, dünyəvi dövlət yaratmaq, respublikanın ərazi bütövlüyünü qoruyub saxlamaq prinsiplərini əldə rəhbər tutmuşdur. O, suveren Azərbaycan dövlətinin daxili və xarici siyasəti sayəsində qüdrətli dövlətə çevrilməsi üçün qətiyyətli addımlar atmağa başlayır.

Heydər Əliyev ilk növbədə keçmiş sələflərinin dövlətin idarə olunmasında buraxdıqları səhvləri aradan qaldırmağa hər an səy göstərir. 1993-cu ilin yayında Azərbaycan respublikasının cənub rayonlarında Əlikram Hümbətovun başçılığı ilə həyata keçirilən separatçı hadisələrin qarşısını almaq üçün avqustun 23-də Milliteleviziya ilə Azərbaycan xalqına müraciət edir. Müraciətdə deyilir ki, Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad, Yardımlı, Biləsuvar rayonlarında baş verən hadisələr qanuna, konstitusiyaya zidd hərəkətlərdir. Əhali üçün onların çox ağır nəticələri ola bilər. Həmin rayonlarda yaşayan əhali ayağa qalxaraq Əlikram Hümbətovu bu çirkin hərəkətlərinə qarşı çıxmalıdırlar. Həmin rayonların dinc əhalisi ulu öndərin bu çağırışına biganə qalmadı. Əhalinin dəstəyi ilə Əlikram Hümbətovun və quldur dəstəsi tutduğu əməllərdən əl çəkir. Bununla da Azərbaycan parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən uzaqlaşmış olur.

Heydər Əliyev ermənistanla müharibə şəraitini dayandırmaq üçün ciddi tədbirlər görür. O qısa bir müddətdə güclü, nizam-intizama tabe olan ordu yaratmaq fikrini irəli sürür. Bu dövrdə Azərbaycanın nizami ordusu yox idi. Eyni zamanda müharibə davam edirdi.

H.Əliyev Erməsintan - Azərbayan münaqişəsində atəşkəsin elan edilməsi üçün ordu qurulucuğunda köklü islahatların aparılması üçün əlverişli imkanlar yaratmış oldu. Qısa bir müddətdə vahid komandanlığa tabe olan nizami ordu yaradıldı. 1994-cu ildə Ermənistanla - Azərbaycan arasında atəşkəs imzalandı.

H.Əliyev qısa bir müddətdə ölkədə milli ideologiyanın yaradılmasına böyük səy göstərdi. Bütün bacarıq və istedadı ilə Azərbaycan vətəndaşlarının dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarını dövlətçilik ideyaları ətrafında birləşdirməyə nail oldu. Ümumiyyətlə H.Əliyev qısa bir zaman kəsiyində Azərbaycanı düşdüyü böyük bəlalardan, dağılmaqdan xilas etdi.

İlk gündən görkəmli siyasətçi, mahir diplomat kimi ölkədə ictimai siyasi sabitliyin təmin edilməsi istiqamətində fəaliyyətə başladı. O, təcrübəli dövlət xadimi kimi çox gözəl bilirdi ki, sabitlik olmayan yerdə nizami ordu qurmaq, demokratik islahatlar aparmağı iqtisadi inkişafa nail olmaq mümkün deyil. Həmin dövrdə Azərbaycanın silahlı qüvvələrinin böyük bir hissəsi ayr-ayrı cinayətkar əllərdə cəmləşmişdi. Siyasi məqsədlərə hakimiyyət uğrunda mübarizəyə cəlb edilmişdi, Azərbaycan torpağı müdafiəsiz qalmışdı. Azərbaycan əraziləri xeyli işğal olunmuşdu.

İlk növbədə bu qeyri-qanuni silahlı dəstələri ləğv etmək, siyasi təxribatların, dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə almaq lazım idi. Heydər Əliyev bu çətinliklərin qarşisını qətiyyətlə almağa çalışırdi. O bu sahədə də qalib gələrək müstəqil Azərbaycan dövlətinin inkişaf etdirilməsinə başladı.

Bu dövrdə Ermənistan-Azərbaycan müqaviləsinin ATƏT-in Minsk qrupu çərçivəsində dinc danışıqlar yolu ilə nizama salınması prinsipi ön plana çəkilir. Ermənistan - Azərbaycan arasında atəşkəs müqaviləsi bağlansa da, ermənilər çirkin iddialarından əl çəkməyərək Azərbaycan torpaqlarına hücumlarını davam etdirirdilər.

Azərbaycanın Şərq və Qərb arasında əlverişli dəhliz rolunu və geostrateji mövqeyni nəzərə alaraq H.Əliyev yeni yaranmış müstəqil respublikada iqtisadiyyatın müxtəlif sektorlarının inkişafına xüsusi diqqət yetirir. Heydər Əliyev Azərbaycan Respublikasının qonşu dövlətlərlə sıx əməkdaşlıq xəttinə sadiq qalmaqla yanaşı, dünyanın aparıcı nüfuzlu dövlətləri ilə də geniş əlaqələr yaradılmasına böyük əhəmiyyət verirdi. O, uzaqgörən siyasəti sayəsində Azərbaycanın strateji milli maraqlarını nəzərə alaraq, düşünülmüş, müdrik siyasi xəttin işlənib hazırlanmasına və həyata keçirilməsinə çalışırdı. H.Əliyev ölkəmizin məruz qaldığı çoxsaylı problemlərinin müvəffəqiyyətli həlli üçün dünyanın inkişaf etmiş böyük dövlətləri ilə əlaqələrin yaranmasına diqqəti daha da artırdı. İlk növbədə keçmiş sələflərinin daxili və xarici siyasət sahəsində buraxdıqları səhflərini aradan qaldıraraq, təkrar etməmək üçün uzaqgörənliklə gələcək üçün səmərəli fikirlər, ideyalar irəli sürdü. Müstəqilliyimizi möhkəmlətmək naminə planlar, konsepsiyalar işləyib hazırladı. Bu konsepsiya və planlar Azərbaycan dövlətinin strateji maraqlarına xidmət edirdi. O, xarici dövlətlərlə yeni beynəlxalq münasibətlərin yaradılmasına diqqət yetirdi. Ümumilli Lider H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə müstəqil demokratik hüquqi dövlət quruculuğu prosesi başlandı. Ulu öndər demokratik hüquqi dövlət quruculuğu yolunda ardıcıl siyasət yeridərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradılmasını təmin etdi. H.Əliyev daim ölkənin və onun əhalisinin təhlükəsiz, əmin amanlıq şəraitində və rifah halında yaşaması sosial-siyasi və milli sağlam mühitin birgəyaşayış norma və qayğılarının mövcudluğunu özündə ehtiva edir ki, bu da güclü dövlət amalını verir. Onun rəhbərliyi ilə yaranan müasir demokratik, hüquqi, dünyəvi sosial Azərbaycan dövləti məhz bu paramentlərə malik olmuşdur. O respublikanın sosial iqtisadi inkişafının təmin edilməsini neft sektorundan başladı. Bu onun işləyib hazırladığı dəyərli neft strategiyası idi. Bu strategiya həyata keçirildi .

Nəhayət 1994-cu il sentyabrın 20-də Azərbaycan Dövlət neft şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Bakıda "Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri-Çıraq" və "Günəşli" yataqlarından birgə neft çıxarılması haqqında ilk neft müqaviləsi imzalandı. Bu müqavilə dünyada böyük əks-səda doğurdu. Ona "Əsrin Müqaviləsi" adı verildi. Müqaviləni imzalayan şirkətlər Amerika Birləşmiş Ştatlarının "Amako" "Yunokat" "Petroyl" "Ekson", Böyük Britaniyanın "British Petrolium" , "Remko", Rusiyanın "Lukoyl", Norveçin "Statoyl", Türkiyənin "Türk petrolları", Səudiyyə Ərəbistanın "Delta", Yaponiyanın "İtocu" şirkətləri idi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac Neft boru kəmərinin çəkilişini o zaman çoxları əfsanə hesab etdikləri halda ümumimilli lider Onun mümkünlüyünü sübuta yetirdi. Heydər Əliyev Azərbaycanın hərtərəfli neft ixracı sahəsinə böyük diqqət yetirmişdir. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması mərasiminin açılışında demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Bu müqavilə Azərbaycan Respublikasının dünya birliyində layiqli yer tutmasına kömək edəcək. Ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı, sərbəst bazar iqtisadiyyatı ilə sıx bağlayacaqdır. Ən diqqətə layiqi ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük

mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün zəmin yaradacaqdır". H.Əliyev XX əsrdə ikinci dəfə yenicə müstəqilliyə qədəm qoymuş Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılması, onun dünya dövlətləri sırasında tanınması üçün çox böyük işlər görmüşdür. O, çıxışlarının birində qeyd etmişdir ki, «Azərbaycan dövlət müstəqilliyi tarixi hadisədir. Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycan dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı qoruyub saxlamaqdır. Bizim vəzifəmiz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil qüdrətli, çiçəklənən Azərbaycan dövləti çatdırmaqdan ibarətdir». H.Əliyevin 12 noyabr 1995-ci ildə qəbul edilmiş «Azərbaycan Respublikasının Konstitutsiyası»nın hazırlanmasında böyük xidməti olmuşdur. O, özü Konstitutsiya komissiyasının sədri olmuşdur. H.Əliyev çıxışlarının birində demişdir ki, «Biz hümanistik, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışırıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına riayət etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşnalığa, hərc-mərcliyə yol verə bilmərik. Bu müddətdə keçdiyimiz dövrdə, təəssüf ki, belə hallara yol verilmişdir.

Oktyabr hadisələri göstərdi ki, bunlara yol vermək mümkün deyildir. Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adından-sanından asılı olmayaraq hər kəs qanuna tabe olmalıdır. Qanunun aliliyi hamı üçün eyni olmalıdır. - «Adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, prezident üçün də, Mən də qanun aliliyi keşiyində duracağam»>. Heydər Əliyev uğurlu fəaliyyətinə və xidmətlərinə görə bir sıra beynəlxalq mükafatlara, müxtəlif Ölkə Universitetlərinin Fəxri Doktoru adına, 2 dəfə Sovet Dövlətinin ən böyük mükafatı sayılan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. 30 ildən artıq Azərbaycana Rəhbərlik edən bu şəxsiyyət, xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində yaxından iştirak etmişdir.H.Əliyev dünya Azərbaycanlılarının ümumiliyi, birləşməsi ideyasını ilk dəfə irəli sürmüşdür. Onun 2-ci dəfə hakimiyyətə gəlişi ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi hərc-mərclikdən xilas etmişdir. O, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdıra bilmişdir. Onun sayəsində Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymusdur.

Ulu öndər daim Xalqla təmasda olmuşdur. Azərbaycanda elə bir görkəmli ad-sanlı dövlət tədbiri onsuz keçirilməmişdir. H.Əliyev daim Azərbaycanda keçirilən qurultayların, konfransların, elm, təhsil, ədəbiyyat, incəsənət xadimlərinin yubileylərində yaxında iştirak etmişdir. O, bu təntənəli mərasimlərdə məruzələr etmiş, nitq söyləmiş, çıxışlar etmişdir. Əhali ilə daim yaxından ünsiyyətdə olmuşdur. Heydər Əliyev 2003-cü il Prezident seçkisindən imtina edərək öncə xalqa müraciətini xatırlamağı zərurətə çevirir. "İlham Əliyev yüksək intellektli praqmatik düşüncəli, müasir düdnya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də yeni Azərbaycan partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbayan dövlətinin inkişafı və xalqın firavanlığı yolunda çox işlər görəcəklər, inanıram ki mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri, sizin köməkliyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

Beləliklə, 2003-cü ilin 15 oktyabrında İlham Əliyev ölkə seçicilərinin 77 faizinin səsini qazanaraq Müstəqil Azərbaycan Respublikasının prezidenti seçilmişdir.

İlham Əliyev andiçmə mərasimində demişdir ki, Prezident kimi fəaliyyətə başladığım ilk gündən Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasətini davam etdirməkdir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm".

Bəli, illərlə İlham Əliyev Heydər Əliyevin həyata keçirə bilmədiyi arzu kimi qalmış fikirləri həyata keçirməyə başladı. Ermənilər 1988-ci ildən başlayaraq Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirərək Azərbaycan ərazilərini işğal etmişdirlər. Minlərlə azərbaycanlı öz dədə baba yurdlarından didərgin düşmüşdür. Eyni zamanda ermənilər işğal etdikləri Azərbycan ərazilərini 30 ilə yaxın işğal altında saxlamışdırlar. Bu yerlərdə daşı-daş üstündə qoymamışdılar. Lakin, yenidən 2020-ci il sentyabr ayının 27-də Ermənilər Azərbaycana hücum etdilər.

Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali baş Komandanı İlham Əliyevin başçılığı ilə Azərbaycan ordusu hər gün yeni kəndləri, şəhərəri, qəsəbələri, yüksəklikləri, azad edərək 44 gün ərzində ermənilər üzərində tarixi qələbə çaldı. Düşmən tapdağı altında olan bütün torpaqlar azad olundu. Ulu Öndərin arzularını Prezidentin rəhbərliyi ilə azərbaycan ordusu var qüvvəsi ilə həyata keçirdi. Müstəqil Azərbaycan Respublikası bərpa olundu.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı 1995
2. Heydər Əliyev "Müstəqilliyimiz Əbədidir", 1-ci kitab Bakı, 1997
3. Heydər Əliyev "Müstəqilliyimiz Əbədidir", 2-ci kitab Bakı, 1997
4. Heydər Əliyev "Müstəqilliyimiz Əbədidir", 5-ci kitab Bakı, 2009
5. Heydər Əliyev "Müstəqilliyimiz Əbədidir", 43-45-ci cildlər Bakı, 2013
6. Abbasov V.M Liderlik fəlsəfəsi, Bakı Təhsil, 2004
7. Hüseynova İ.M "Müstəqil Azərbaycan Dövlətinin qurucusu", BakıTəhsil, 2004
8. Həbilli İ.Ə Heydər Əliyev dövlətçilik təlimi və Müasir dövr, Naxçıvan Əcəmi, 2013
9. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər, Bakı Çinar-Çap, 2010
10. Həsənov Ə.M "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" Bakı Azərbaycan. 2005
11. Məmmədov Ə.V "Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə" Bakı , 1999


## HEYDƏR ƏLİYEVİN İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ (1923-2003)

***Eyyubov İsmayıl, Qafarlı Ədalət***

## XÜLASƏ

Azərbaycanın hərtərəfli inkişafı sahəsində böyük xidmət göstərən dövlət xadimi Heydər Əliyev 1993-2003-cü illər ərzində Azərbaycanda sağlam, mənəvi mühiti bərqərar etmiş, ömrünün sonuna kimi Azərbaycanın hərtərəfli inkişafı sahəsində böyük tarixi qələbələr qazanmağa səy göstərmişdir. Azərbaycanı parçalanmaqdan dağılmaqdan qorumuşdur. Heydər Əliyev 2-ci dəfə hakimiyyətə gələrək 1993-cü ildən başlayaraq Respublikada yeni quruculuq işlərinin həyata keçirilməsi sahəsində əlindən gələni etmişdir. O, azərbaycanı bütün sahələrdə olduğu kimi neft sənayesinin inkişafına da böyük töhfələr vermiş, müxtəlif ölkələrlə əlaqələrin genişlənməsinə xüsusi şərait yaratmışdır. Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasının hərtərəfli inkişaf etməsi üçün ömrünün sonuna kimi yorulmadan var gücü ilə çalışmışdır. Daim xalqla təmasda olmuş, xalqın sosial vəziyyətinin yaxşılaşması sahəsində əlindən gələni əsirgəməmişdir. Azərbaycan xalqı bunu daim onu yad edir.

# ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВСТРЕЧИ ГЕЙДАРА АЛИЕВА (1923-2003 ГГ.)

***Эйюбов Исмаил, Гафарлы Адалат***

**АННОТАЦИЯ**

Государственный деятель, внесший большой вклад во всестороннее развитие Азербайджана, Гейдар Алиев создал в Азербайджане в 1993-2003 годах здоровую, нравственную среду и до конца своей жизни пытался добиться больших исторических побед во всестороннем развитии Азербайджана. Он защитил Азербайджан от распада. Гейдар Алиев пришел к власти во второй раз и с 1993 года сделал все возможное для осуществления новой созидательной работы в республике. Он внес большой вклад в развитие нефтяной промышленности Азербайджана, как и во всех областях, и создал особые условия для расширения связей с различными странами. До конца своей жизни Гейдар Алиев неустанно трудился во имя всестороннего развития Независимой Азербайджанской Республики. Он всегда был на передовой и делал все возможное для улучшения социального положения народа. Азербайджанский народ всегда помнит об этом.

## SOCIO-POLITICAL MEETINGS OF HEYDAR ALIYEV (1923-2003)

***Eyyubov Ismail, Gafarli Adalat***

**SUMMARY**

A statesman who made a great contribution to the comprehensive development of Azerbaijan, Heydar Aliyev established a healthy, moral environment in Azerbaijan during 1993-2003, and until the end of his life tried to achieve great historical victories in the comprehensive development of Azerbaijan. He protected Azerbaijan from disintegration. Heydar Aliyev came to power for the second time and since 1993 he has done his best in the implementation of new creative work in the Republic. He made great contributions to the development of Azerbaijan's oil industry, as well as in all areas, and created special conditions for the expansion of relations with various countries. Until the end of his life, Heydar Aliyev worked tirelessly for the comprehensive development of the Independent Republic of Azerbaijan. He was always in the forefront and did his best to improve the social situation of the people. The Azerbaijani people always remember this.

# TURİZM SEKTORUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***İqtisad üzrə fəlsəfə doktoru., dosent Vidadi Axundov***
***Qabılov Yadulla Kazım oğlu***
***BDU-nun II kurs magistrantı***
***ygabilov@gmail.com***

***Açar sözlər:*** turizmin dinamik inkişafı, turizm sektoru, ölkə iqtisadiiyatı, infrastruktur, əhali, turist, mehmanxana.
***Ключевые слова:*** динамичное развитие туризма, туристическая отрасль, экономика страны, инфраструктура, население, турист, гостиница.
***Keywords:*** dynamic development of tourism, tourism sector, country's economy, infrastructure, population, tourist, hotel**.**

1918-1920-ci illər müasir turizmin başlanğıcı hesab olunur. Bu dövrdə turizm; otellər, motellər, çimərlikləri, əyləncə və idman sahələri, yerləşdirmə obyektləri və bütün infrastrukturu ilə böyük bir sektora çevrilmişdir. Bu gün qloballaşmanın gətirdiyi texnoloji tərəqqi, həyat standartlarının yaxşılaşması, səyahət azadlığı turizm fəaliyyətlərində iştirak edən insanların sayının sürətlə artmasına səbəb olmuşdur. Bunun təbii nəticəsi olaraq turizm sektoru dünyada ən sürətlə inkişaf edən sektorlardan birinə çevrilmişdir.

Araşdırma aparılan zaman hansı metodlardan istifadə edilməsi ən vacib faktorlardandır. Beləki, araşdırma aparılan zaman induksiya, deduksiya, müqayisəli analiz, statistik iqtisadi metodlardan geniş istifadə olunmuşdur.

Dünya turizmi 1980-90-cı illərdə 60%, 1990-2000-ci illərdə isə 52% artıb. Turizm sektoru bəzi dövrlərdə böyük sürətlə inkişaf etsə də, terrorizm və iqtisadi konyukturaya görə cuzi enişlər yaşasa da, ümumilikdə böyümə tendensiyasını davam etdirmişdir. 2021- ci ilin statistikasında 450 milyon turist səyahət edib [1].

Turizmin xüsusiyyətinə baxdıqda, sosial iqtisadi statistikası və dinamik təhlilinin nəticələri ilə izah edilir. Turizmin mövcud olan vəziyyəti dedikdə ölkəyə gələn və gedən xarici turistlərin sayı, əhalisinin ölkə daxili turizm marşrutlarından istifadəsi, habelə turizm komplekslərinin və onların keyfiyyəti ilə qiymətləndirilir.

Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafi sahəsində və ərazi quruluşu, təbii, tarixi və coğrafi resuslarin səmərəli istifadə edilməsi, habelə azad sahibkarlıq və bazar münasibətini qorunmaqla investisyyaların cəlb edilməsi və lahiyyələrin həyata keçirilməsi ölkə iqtisadiiyatının əsaslarından olacaqdır. Sosial-iqtisadi amil kimi turizmin mövcud vəziyyəti qlobal məqsədlərin həyata keçirməklə inkişafın tənzimlənməsi iqtisadi inkişaf və strateji planlaşmanın bir hissəsi kimi nəzərə çarpır.

Turizmin iqtisadi inkişafı və istifadə istiqamətləri hər ölkənin inkişaf planına və resusların növü, habelə idarəetmə strukturlarının fəaliyyəti və səmərəliliyi ilə ehvita edir. Bu səbəbdən turizm sahəsinin amilləri çərçivəsində yanaşma, nəzəri və metodik prinsipləri müəyyənləşdirilir. Turizm sahəsinin amilləri dedikdə: torpaq, ekoloji mühit, məşğulluq və əmək haqqının təşkilinə əlavə olaraq kommersiyya mənfəəti, inteqraliyya tələbi və digər dövlət və şirkətlərlə əlaqəsi həmçinin təhlükəsizlik amilləri əsas təşkil edir. İnkişafın əsas istiqamətləri isə Azərbaycan iqtisadi potensialı, iqtisadi dövriyyənin əsas istiqamətləri, istehlak növlərinin sosial demaqrafik xüsusiyyətləri müəyyənləşdirilir.

Turizm dünya iqtisadiyyatının dinamik inkişaf edən sahələrindən biridir və başqa sahələrə təsir göstərdiyindən beynalxalq miqyasda turizm sənayesi hər il genişlənir. Sahə olaraq formalaşması və inkişaf stratergiyası mikro və makro səviyyəli iqtisadi problemlerin nəzərdən

keçirməklə inkişaf və proqramların funksiya və məqsədlərinin bunlara diqqət edərək hazırlanması əsas prioritetdir. Bu sahədə Azərbaycan Respublikasında turizm inkişafı üçün vacib olan amillərin həyata keçirilməsi üçün addımlar atılmışdır.

Turizm məhsulunun seçimində əhalinin milli-etnik tərkibi, yaş tərkibi və başqa amillər onların istehlak davranışlarını təsiri vardır. Belə ki, əhalinin təminat səviyyəsi və demoqrafik tərkibi onların seçimləridə xüsusi rol oynayır. Belə ki, Avropa əhalisi ilə azərbaycan əhalisi arasında turizm məhsulunun seçimində fərqliliklər göstərə bilər. Bunun əsas səbəbi bir nefərə düşən ÜDM-ə(ümumi daxili məhsula), gəlirə və eyni ailədə olan fərdlərin sayı təsir etməkdədir. Bu göstərilən nəticələrdən başa düşülür ki, turizm inkişafinda bu sadalanan xüsusiyyətləri nəzərə almaqla proqramlar və layihələr reallaşdırmaq lazımdır.

Turizm inkişafı rekreasiya tərkib hissəsi olmaqla birlikdə özünün daxili strukturu və formaları üzrə təsnifləşməkdədir. Turizmin təşkili quruluşu, əhali, məqsəd və biznes fəaliyyətlərinin müxtəlifliyinə, həmçinin her bir dövlətin idarə formasına görə müxtəliflik göstərir. Azərbaycan Respublikasinda olan əsas amillər ise ərazi, sahə, məhsul və məqsəddir. Ölkələrdə makrosəviyyədə iqtisadi artım tendensiyası və ümumdaxili məhsul bölgüsü kimi müxtəlif özünü uyğun qanuna uyğunluqları vardır.

Azərbaycanda turizm göstəricilərinə nəzər salsaq əhali sayısı, turizm xidmətindən istifadə etməyə malik olan şəxslərin sayı, turizmin maddi-texniki bazasının maliyyə mənbələrinin miqradı ilə müəyyənləşdirilə bilər. Turizm sahəsində inkişafın həyata keçirilməsi mərkəzləşdirilmiş qaydada olmamalıdır buna əsas olaraq dünya təcrübəsidə bunu təsdiqləyir ki, qeyri-dövlət təşkilatları və mənbələri hesabına baş verməsi daha xarakteristikdir. Turizm inkişafında olan risklərin bölüşdürülməsi üçün sahibkarlara bu mühitlərin yaradılması və müxtəlif kontijent turist növləri üçün bazarın təskil edilməsinə köməklik göstərilməlidir. Turizm növlərini, formalarının və baş verən struktur dəyişiklikləri qiymətləndirilməsi hazırlanan planlar üçün əsas ola bilər. Turizmin inkişafinda bəlli təsiri olan istiqamətlərdən biri də əhalinin yoxsuluq səviyyəsinin hansı faiz miqdarında olmasıdır, çünki əhalinin əmək qabiliyyətli olan hissəsinin gəlirləri onlarin minimum yaşayış şərtlərini çətinliklə ödəyirsə bu əhalinin yoxsulluq həddində yaşayan hissəsinin turizm fəaliyyətini həyata keçirməsi mümkünsüzdür. Bu səsbəbdən turizm inkisafı əhalini yaşayış səviyyəsi, gəlirləri, ərzaq və qeyri-ərzaq məhsularına xərclədiyi məbləğ, həmçinin turizm məhsuluna ehtiyacı da bir başa təsir göstərir.

Turizmin inkişaf dinamikası, əsas istiqamətləri, ölkə iqtisadiyyatında ictimai-siyasi, mədəni quruculuqda baş verən keyfiyyət dəyişimləri və dünya standartlarına uyğun təşkilatı və iqtisadi tədbirlərin həyata keçirilməsi əhəmiyyət kəsb etməkdədir. Ölkədə turizmin inkişaf etdirilməsi, infrastrukturunun yaradılması əsasən də mehmanxana və mehmanxana tipli obyektlərin inşası sürətlə həyata keşirilməsidə əsasdır. Fəaliyyətini dayandirmiş turizm müəssələrinin yenidən qurulmasına, habelə bu tipli yeni obyektlərin inşasına yerli və xarici sahibkarların celb edilməsi üçün lazımı şəraitin və güzəştlər yaradılmalıdır. Turimz inkişafi üçün dövlət tərəfindən dəstəklənərək "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu" vasitəsi ilə turizm infrastrukturunun inkişafı maliyyələşdirilməsi baxımından bu istiqamətdə güzəştli kreditlər verilmiş və verilməkdədir. Fondun vəsaiti hesasbina regionun və turizm infrastrukturunun inkişafı istiqamətində turizm obyektlərinin genişləndirilməsi və yenilərinin inşa edilməsinə müvəkkil banklar tərəfindən güzəştli kreditlər ayrilmişdir.

Ölkədə turizmi inkişaf etdirmək, turizm imkanlarından istifadə etmək məqsədi ilə ölkənin sosial-iqtisadi inkişafını təmin etmək vasitələrdən biri kimi təbii və insan resuslarından məqsədə uyğun istifadə olunması istiqamətində Azərbaycan Respublikasının Prezdentinin Sərancamıyla "Azərbaycan Respublikasının 2002-2005- ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının əasa məqsədi normatiq hüquqi bazanın təkminləşdirilməsi,

turizm fəaliyyətinin təşkili, inkişafının idarə olunmasına, marketinq işlərini aparılmasına, xidmət keyyfiyyətinin beynəlxalq standartlar səviyyəsinə çatdirilması, turizm infrastrukturunun təkmilləşdirilməsi, bu sahədə elmi təminatı və daxili turizmi təşkili üçün tədbirlərin həyata keçirilməsi əsas priortet seçilmişdir. Belə ki, turizm infrastrukturunun inkişaf etdirilməsi üçün Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qərari ilə "Mehmanxana və mehmanxana tipli obyektlərin təsnifatı, ulduz kateqoriyalarının müəyyənləşdirilməsi və qiymətləndirmədə meyarlarının tətbiq edilməsi" nin təsdiq edilməsi bu sahədə mehmanxana və mehmanxana tipli obyektırin beynəlxalq standartlara uyğun qurulmasına və yüksək xidmət imkanlarının əldə edilməsi, həmçinin dünyada qəbul olunmuş "ulduz" dərəcələrinin müəyyən edərək beynalxalq turizm xidmət dərəcəsinin əldə edilməsi istiqamətində həyata keçirilir.

Azərbaycanın turizm sferasında beynəlxalq arenaya çıxması üçün 1975-ci ildən yaradılmış və bu gun 130-dan çox üzvü olan Ümumdünya Turizm Təşkilatında ölkəmizi də təmsil olunması inkişaf etmiş və geniş təcrubəyə sahib olan ölkələrin təcrübələrindən istifadə etmək imkanı yaratmışdır. Hazırda dünya xalqları arasında əlaqələrin inkişafına xidmət edən turizm sahəsi ölkəmizdə geniş inkişaf etməkdədir və 140-dan çox turizm şirkəti daxili və xarici turizmi xidmətini həyata keçirmək məqsədi ilə ölkəmizi beynəlxalq arenada uğurla təmsil edir. Aparılan məqsəd yönlü inkişaf tempi yaxın gələcəkdə Azərbaycan gözəl turizm məkanina çevirəcək və qabaqcıl turizm ölkələrinin sirasında öz layiqli yerini əldə edəcək və bununlada ölkəyə gələn turist sayinda artimda bunun əsas bəhrəsi olacaqdır.

Sosial turizm son dövlərin ən aktual mövsudur. Burda əsas məqsəd istirahət edə bilməyən aztəminatlı insanların bu xidmətlərdən istifadəsi üçün lazımı addımların edilməsidir. 1980-ci ildə keçirilən Ümümdünya konfransda sosial turizm mövzusu diqqətə çatdirilmış və bunula bağlı fikirlər səsləndirilmişdir. Sovetlər birliyi dövründə sosial turizm yalnız həmkarlar ittifaqı xətti ilə qabaqcıl işçilərin istirahəti və sağlamlıqlarının bərpası məqsədi ilə həyata keçirilirdi. İnkişaf etmiş ölkələrə nəzər yetirdikdə isə müxtəlifliklər diqqəti cəlb edir. Məsələn, ABŞ və Almanya kimi ölkələrdə bu istiqamətdə xidmət yoxdur. Sosial turizmin formalaşmasında əsas problemlərdən bir maliyyələşdirilməsidir, çünki sosial turizm əylancə sənayessini inkişafinda kömək göstərmək iqtidarında deyil. Sosial turizmin maliyyəsinin formalaşdıran orqanlar dedikdə; Dövlət müəssələri, Dövlət fondları, Qeyri-hökümət fondları və Xeyriyyə təşkilatlarıdır.

Dünyada baş verən hadisələrin turizm sektorundanda yan keçmir. Bu amillər onu göstərirki turizm inkisafı dünyada baş verən proseslərin təsirindən neqativ yada positiv təsirlərinə məcbur qalır. 2020-ci ildə dünyayı bürüyən Covid-19 epidemiyası dünya əhalisinin sağlamlığına və ölkə iqsadiyyatınında geriləməni hiss etdirdi. Bu epidemiyanın ən çox təsir etdiyi sahələrdən biridə turizm sahəsi oldu və bu da inkişaf dinamikasına mənfi təsirlərini göstərdi. Azərbaycanda turizm müəssələri bu müddətdə zor günlər keçirirdilər amma Azərbaycan Dövləti bu problemləri həllində sahibkarlara yardımlar göstərərək həm müəssələrin bağlanmasını qarşısını aldı həmdə əmək fəaliyyəti ilə məşğul olan əhalinin işlərinin itirməsinin qarşısını almaq üçün lazımı imkanlarından istifadə etdi. 2022-ci ildən başlayaraq epidemiyanın təsirlərinin azalması dunya iqtisadiyyatında müsbət dinamikanın bərpasi ilə birlikdə turizm iknişafida qaldığı yerdən davam edir.

| | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid | 621 | 670 | 684 | 712 |
| Birdəfəlik tutum, yer | 46 693 | 49 980 | 50 687 | 53 049 |
| Nömrələrin sayı, vahid | 22 192 | 23 865 | 24 195 | 25 445 |
| Yerləşdirilmiş şəxslərin sayı, nəfər | 1 749 475 | 1 919 765 | 668 813 | 1 172 123 |

| | | | | |
|---|---|---|---|---|
| o cümlədən: | | | | |
| ölkə vətəndaşları | 515 083 | 603 026 | 401 430 | 900 560 |
| əcnəbilər və vətəndaşlığı olmayan şəxslər | 1 234 392 | 1 316 739 | 267 383 | 271 563 |
| Gecələmələr üçün çarpayı-sutka təqdim edilmişdir, vahid | 3 002 959 | 3 345 285 | 999 786 | 1 788 716 |
| o cümlədən: | | | | |
| ölkə vətəndaşları | 952 949 | 1 104 412 | 583 057 | 1 374 312 |
| əcnəbilər və vətəndaşlığı olmayan şəxslər | 2 050 010 | 2 240 873 | 416 729 | 414 404 |
| İşçilərin sayı, nəfər | 11 407 | 12 481 | 10 731 | 11 143 |
| Müəssisələrin əldə etdiyi gəlir, min manatla | 359 453,0 | 450 188,5 | 116 798,0 | 209 687,3 |
| Məhsul və xidmətlərin istehsalına çəkilən xərclər, min manatla | 277 680,5 | 308 342,5 | 171 805,1 | 231 468,0 |
| Büdcəyə ödənilmiş vergilər, min manatla | 33 323,1 | 42 252,5 | 15 018,2 | 12 819,6 |

*Cədvəl 1. Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid [2].*

Azərbaycanda turizmin inkişafı dövlətin əsas məqsədlərindən biridir, çünki ölkənin qeyri-neft sektorunu payının azaldılması və ölkə iqtisadiyyatının neft sektorundan asılılığının ən aşağı səviyyəyə çəkərək iqtisadiyyatın daimi inkişaf meyarlarını deyişməyə çalışır. Bunun üçündə Turizm inkişafı üçün Azərbaycan Respublikasının Prezdentini Sərancamıyla "Azərbaycan Respublikasında 2010 — 2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında və Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezdentini Fərmanlarında turizmin inkişafi üçün görülməli olan işlər diqqətə çatdırılmışdır. Bunun nəticəsi olaraq ölkə iqtisadiyyatının inkişaf meyarlarının biri də turizmin inkişafı olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi rəsmi internet saytı. Turizm statistikası. https://sta.gov.az/page/statistics
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı.Turizm. Mehmanxana (hotel) və mehmanxana tipli obyektlər. https://stat.gov.az/source/tourism/
3. İlqar Hüseynov, Nigar Əfəndiyeva. Turizmin əsasları. Bakı 2007.
4. Prof.Dr.Kurban Ünlüönen, Doç.Dr.Ahmet Tayfun, Doç.Dr.Arzu Kılıçlar. **Turizm ekonomisi. Ankara 2015.**
5. **Əli Cabbarov. Turizmin iqtisadiyyat əsasları. Bakı 2015**
6. Metin Kozak, Nazmi Kozak, Meryem Akoğlan Kozak. Genel turizm ilkeleri. Ankara 2014.


## TURİZM SEKTORUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Qabılov Yadulla***

**XÜLASƏ**

Turizm inkişafı üçün lazim olan meyarların dəqiqləsdirilməsi, ölkə iqtisadiyyatında tutduğu yer və əhalinin turizm xidmətlərindən istifadəsi üçün lazım olan şəraitin və infrastrukturun yaradilması diqqətə çatdırılır. Habelə Azərbaycan Respublikasinda turizmin inkişaf dinamikası və onunla əlaqəli həyata keçirilən və keçirilməli olan inkişaf addımları haqqında izzah olunur.

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ТУРИСТИЧЕСКОЙ СФЕРЫ

***Габылов Ядулла***

**АННОТАЦИЯ**

Также разъясняется динамика развития туризма в Азербайджанской Республике и шаги по развитию, которые осуществляются и должны быть реализованы в связи с этим. Обращается внимание на уточнение критериев, необходимых для развития туризма, его места в экономике страны и создание необходимых условий и инфраструктуры для использования туристских услуг населением. Также разъясняется динамика развития туризма в Азербайджанской Республике и шаги по развитию, которые осуществляются и должны быть реализованы в связи с этим.

## DEVELOPMENT ASPECTS OF THE TOURISM SECTOR

***Gabilov Yadulla***

**SUMMARY**

Attention was drawn to the clarification of the criteria required for the development of tourism, the place of this sector in the country's economy, and the creation of the necessary conditions and infrastructure for the population to benefit from tourism services. In addition, the development dynamics of tourism in the Republic of Azerbaijan and the development steps applied and to be implemented in this regard are explained.

# MİLLİ İQTİSADİYYATIN TƏŞƏKKÜLÜ ŞƏRAİTİNDƏ XARİCİ TİCARƏTİN QEYRİ-TARİF TƏNZİMLƏNMƏ METODLARI VƏ QANUNVERİCİLİK BAZASI

***Yadulla Mehriban Yadulla qızı***
***BDU-nun İqtisadiyyat kafedrasının dosenti***
***Əsədova Fidan Samir qızı***
***BDU-nun II kurs magistrantı***
***asadovaa_fidan@mail.ru***

***Açar sözlər***: xarici ticarət, dövlət tənzimlənməsi, qeyri-tarif tədbirlər.
***Ключевые слова***: внешняя торговля, государственное регулирование, нетарифные меры.
***Key words***: foreign trade, state regulation, non-tariff measures.

Dünya ölkələri arasında mövcud olan ticarətin dövlət tənzimlənməsi dedikdə, başqa ölkələrlə iqtisadi münasibətlərin inkişafına və tənzimlənməsinə yönəldilmiş tədbirlər başa düşülür. Dövlətin beynəlxalq ticarəti proteksionist və sərbəst ticarət siyasətinə ayırırlar. Ölkədə xarici iqtisadi siyasətin həyata keçirilməsi xarici iqtisadi münasibətlərdə ayrı-ayrı dövlətlərlə və qrup ölkələrlə strateji münasibətlərinin müəyyənləşdirməyi qarşıya qoyur. Belə ki, uğurların əldə edilməsinə çatmaq və əldə edilmiş nailiyyətlərin qorunub saxlanılması üçün metod və vasitələrin işlənilməsini qarşıda durur.

Tədqiqatlar göstərir ki, proteksionizm özündə dövlətlərin daxili bazalarnı xarici rəqabətdən qorumağa, bəzi hallarda xarici bazarın zəbt edilməsinə yönəldilmiş siyasətdir. Liberallaşma isə onun əksinə xarici iqtisadi əlaqələrin inkişafına təsir göstərən rüsumların azaldılması və digər maneələrin aradan qaldırılmasına yönəldilmiş siyasətdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkənin yerli sənayesinin inkişafına şərait yaradan proteksionizm daha çox üstünlüyə malikdir. Dünyada uzun dövr ərzində xarici ticarət təcrübəsində gah bu tərəfə, gah da digər tərəfə meyllər olmuşdur. Müasir proteksionizm çox kiçik sahələrdə əsasən kənd təsərrüfatı, toxuculuq, ayaqqabı, paltar və polad istehsalı sahələrində tətbiq edilir [3, 22].

Qeyd etmək lazımdır ki, xarici ticarət əməliyyatlarının dövlət tənzimlənməsinin əsas səbəbi ölkələrin iqtisadi səviyyələrinin aşağı olması nəticəsində proteksionizmin nisbətən geniş tətbiqinə imkanlar yaradır. Belə ki, ölkənin daxili bazarına həddindən artıq xarici əmtəə axınının qarşısını almaq üçün müdafiə tədbiridir. Hətta dünyanın iqtisadi cəhətdən bir qədər inkişaf etmiş ölkələrin də müəyyən sahə və müəssisələrinin müdafiə tədbirlərinə ehtiyacları vardır.

Belə ki, hazırda respublikanın xarici ticarət əməliyyatlarına nəzarəti və məhdudiyyətləri bu və digər əmtəəyə qarşı müəyyən fəsillərdən asılı olaraq dəyişir.

Buna görə də ticarət-siyasəti maraqlarına qarşı işlədilən alətlər hədsiz müxtəlifdir.

Xarici iqtisadi fəaliyyətinin dövlət tənzimlənməsinin aşağıdakı sxem şəklində vermək olar [4, 37].

| Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənmə vasitələri: | |
|---|---|
| tarif | qeyritarif |

Ticarət siyasəti iqtisadi, siyasi, inzibati, təşkilatı, hüquqi və digər məsələlərlə sıx bağlıdır. Belə ki, xarici iqtisadi fəaliyyət gömrük tarif tənzimlənmələri ticarət siyasətinin həyata keçirilməsində hüquqi, təşkilatı məsələləri bir kənara qoyaraq əsasən iqtisadi məsələləri öyrənir.

Belə ki, digər məsələləri elmin xüsusiləşmiş sahələrinin, beynəlxalq ticarət hüququ, beynəlxalq marketinqin öyrənilməsinə həvalə edir.

Dünya iqtisadi ədəbiyyatında və normativ aktlarda xarici ticarət əməliyyatlarının tənzimlənməsinin “Qeyri tarif tədbirləri” termini geniş yayılmışdır. Burada bütün əmtəələrin idxalı və ixracı zamanı həyata keçirilən nəzarət və məhdudiyyət tədbirləri, gömrük tarifi müstəsnalıq təşkil etməklə öz əksini tapır.

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi vasitələri özünün xarakterinə görə gömrük tarifinə əsaslanan tarif və qeyri tarif metodlarına bölünür.

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin tarif və qeyri tarif metodlarına bölünməsi təsnifatını ilk dəfə 60-cı illərdə tarif və ticarət üzrə razılaşmaların (QATT) Baş katibliyi tərəfindən təklif edilmişdir. Bu razılaşma Qeyri tarif məhdudiyyətləri beynəlxalq ticarətin sərbəst axınına mane olan hər cür fəaliyyəti, tariflərdən başqa qeyri tarif məhdudiyyətlər kimi müəyyən etmişdir.

Bütün dünya ölkələri üçün qeyri tarif maneələrinin vahid beynəlxalq təsnifatı müəyyən edilmişdir. Mövcud təsnifat haqqında öz fikirlərini QATT/UTT ,Beynəlxalq ticarət palatası, ticarət və inkişaf üzrə BMT (ÖNKTAD) konfransı, Beynəlxalq yenidənqurma və inkişaf bankı, Amerika Birləşmiş ştatları tarif komissiyası, bir sıra alimlər təsnifat variantlarını irəli sürürlər. Təsnifat sxemi QATT Katibliyi tərəfindən 70-ci illərin əvvəlində işlənmiş və hazırkı vaxta kimi 800-dən artıq qeyri tarif növlərinin olduğu hesablanır və bunlar qeyri tarif məhdudiyyətlərində beş əsas amildə birləşir.

1. Beynəlxalq ticarət əməliyyatlarında dövlətin iştiraki ilə əlaqədar məhdudiyyətlər: icracatçılara və ya idxalı əvəz edən sahələrə subsidiyalar və dotasiyalar, dövlət sifarişlərinə yerləşdirilməsinə üstünlük verməklə yerli xammaldan istifadə xarici əmtəələrin və xarici daşıyıcılara və digərlərinə qarşı diskriminasiya tədbirləri.

2. Ölkədə idxal və ixraja qarşı gömrük və digər inzibati formalar, gömrük qeydiyyatının çətinləşdirilməsi, həmçinin gömrük dəyərinin və malın mənşə ölkəsinin müəyyənləşdirilmə metodlarının; sənədlərin qeydiyyatlarına yüksək tələbkarlığın tətbiq edilməsi.

3. Daxili ticarətdə texniki maneələr, ekoloji, sanitar, veterenar, normalara qablama və malların kodlaşdırılması, malların sertifikasiyası qaydaları ilə əlaqədar standartlar və tələblər.

4. İnzibati tədbirlər, xüsusən idxal kvotaları, ixrac məhdudiyyətləri, lisenziyalaşdırma, ixraca əlavə məhdudiyyətlər, qadağalar, həmçinin valyuta məhdudiyyətləri və s.

5.Ödəmələrə uyğun məhdudiyyətlər, xüsusən: vergilər, idxal yığımlar, depozitləri, sürüşkən vergilər, antidenpinq, kompensasiya rüsumları, sərhəd vergi yığımları və s.

Göstərmək lazımdır ki, qeyri tarif məhdudiyyətlərin mövcud təsnifatı, onun əsasında tərtib edilmiş kataloq beynəlxalq ticarət danışıqlarının gedişində geniş tətbiq edilir. Burada qeyri tarif məhdudyyətlərin təsnifləşdirmə sxemi də nəzəri baza kimi iştirak edir.

Birləşmiş Millətlər Təşkilatının ticarət və inkişaf konfransı beynəlxalq ticarətə maneçilik göstərə bilən hər cür hökuməti prosedurlarını qeyri tarif məhdudiyyətləri kimi qəbul edir.

Birləşmiş Millətlər Təşkilatının ticarət və inkişaf katibliyi tərəfindən qeyri tarif tədbirlərə bütün ticarətə maneçilik göstərən informasiyaları toplayaraq iki təsnifləndirmə sxemi təklif edir.

Burada konkret əmtəələrə qarşı tətbiq edilən qeyri tarif məhdudiyyətlərini nəzərə alaraq (birinci hissə göstəricilərin bazası), ikinci isə ümumi xarakteri qeyri tarif məhdudiyyətlər. Bütövlükdə isə, 200-dən artıq qeyri tarif tədbiri göstərilmişdir.

Mövcud təsnifatda konkret əmtəələrə qarşı tətbiq olunan tədbirlər 5 kateqoriyada birləşməklə o da öz növbəsində II yarımkateqoriya, 33 bölmə, 34 yarım bölmə və 25 maddəyə təsnifləşdirilmişdir. Təsnifləşdirmədə aşağıdakılar öz əksini tapır:

I kateqoriya – fiskal tədbirlər (müxtəlif növ tariflər, rüsumlar, vergilər).

II kateqoriya – həmçinin məhdudiyyət təsnifləşdirilməsi tədbirləri. Burada qadağalar, kvotalar, ixracdan "könüllü" imtina, Xarici ticarətə dövlət inhisarı və s. öz əksini tapır.

III kateqoriya – idxala icazə. Burada qeyri avtomatik, seçmə icazələr, lissenziyalaşma, təsdiq edilmiş bəyannamə, xüsusi alıjılara ijazə; şərti icazə – ixracdan asılı olaraq, milli göndərmələrin həyata keçirilməsi, yerli məhsulların alınması göstərilir. Avtomatik icazə nəzarət məqsədilə lisenziya, bəyannamənin avtomatik təsdiq edilmədən lisenziyalaşdırılması məsələlərini əhatə edir.

IV kateqoriya – qiymət üzərində nəzarət. Burada minimum qiymət sistemi, kompensasion, antidempinq tədqiqat qiymətlər üzərində nəzarət və s.daxildir.

V kateqoriya – digər tədbirlər. Buraya texniki tədbirlər, sanitar-gigenik və veterinar normalar, texniki standartlar, markalaşma və bağlanmaya tələbkarlıq, idxala rəqabət aparan sahələrə kömək, əmtəələrin subsidləşdirilməsi, kapital, vergi güzəştləri, əlavə gömrük formallıqları, idxal depozitləri daxildir.

Birləşmiş Millətlər təşkilatının təsnifatına hazırda kateqoriyalarla xarici ticarətin qeyri-tarif məhdudiyyətləri aşağıdakı kimi tətbiq edilir.

- Paratarif məhdudiyyətlər.
- Qiymət üzərində nəzarət tədbirləri.
- Maliyyə.
- Avtomatik lisenziyalaşdırma. - Miqdar nəzarəti tədbirləri.
- İnhisarçı tədbirlər. - Texniki tədbirlər.

Dünya ölkələri arasında aparılan ticarət dövlət tənzimlənməsinin tətbiqinin genişlənməsindən aydın olur ki, iqtisadçılar qarşısında bu istiqamətdə tədqiqat işləri aparmaq üçün geniş şərait yaradılıb. Hal-hazırda xarici ticarət siyasəti formalaşdıran respublikamız üçün daxili bazarın qorunmasına yönəldilmiş elmi tədqiqatların aparılması olduqca vacibdir. Bu baxımdan respublikamızda qeyritarif tənzimləmə tədbirləri bu xarici ticarət siyasətinin dövlət tənzimləmə mexanizmi olub özündə iqtisadi və qeyri iqtisadi, inzibati və texniki, dövlətlərarasında sərbəst ticarəti məhdudlaşdıran və ya çətinləşdirən şərtləri cəmləşdirir.

## ƏDƏBİYYAT

1. Gömrük tarifi haqqında AR-nın 687 saylı Qanunu. 2013-cü il. Bakı. Qanun. 2022-ci il
2. Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında AR-nın 261 saylı Qanun. 2016-cı il. Bakı. Qanun.2022-ci il
3. Abdullayev S.H., Dadaşova G.F., Feyzullayev C.Ə. Azərbaycan Respublikasının xarici ticarət sahəsində qanunvericiliyinin təhlili. Bakı: Adiloğlu, 2006, 86 s.
4. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasi, 2002, 447 s.

## MİLLİ İQTISADİYYATIN TƏŞƏKKÜLÜ ŞƏRAİTİNDƏ XARİCİ TİCARƏTİN QEYRİ-TARİF TƏNZİMLƏNMƏ METODLARI VƏ QANUNVERİCİLİK BAZASI

***Yadulla Mehriban, Əsədova Fidan***

## XÜLASƏ

Müstəqil dövlətin iqtisadi mənafelərinin qorunması onun qarşısında duran ən vacib məsələlərdəndir. İqtisadi mənafelər məhz iqtisadi təhlükəsizlik amilləri vasitəsilə qorunur.

İqtisadi təhlükəsizlik ənənəvi olaraq iqtisadi sistemin əhalinin normal həyat fəaliyyətini lazımi səviyyədə saxlamaq, iqtisadiyyatı resurslarla dayanıqlı təmin etmək qabiliyyətini, milli-dövlət maraqlarını ardıcıl həyata keçirməsini müəyyənləşdirən ən mühüm xarakteristikası kimi nəzərdən keçirilir.

## МЕТОДЫ НЕТАРИФНОГО РЕГУЛИРОВАНИЯ ВНЕШНЕЙ ТОРГОВЛИ В УСЛОВИЯХ СТАНОВЛЕНИЯ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ И ПРАВОВЫЕ ОСНОВЫ

***Ядулла Мехрибан, Асадова Фидан***

### АННОТАЦИЯ

Защита экономических интересов независимого государства является одной из важнейших задач, стоящих перед ним. Экономические интересы защищаются именно через факторы экономической безопасности. Экономическая безопасность традиционно рассматривается как важнейшая характеристика экономической системы, определяющая способность поддерживать на должном уровне нормальную жизнедеятельность населения, устойчиво обеспечивать экономику ресурсами, последовательно реализовывать интересы нации. -государство.

## METHODS OF NON-TARIFF REGULATION OF FOREIGN TRADE IN THE CONDITIONS OF THE FORMATION OF THE NATIONAL ECONOMY AND THE LEGAL BASIS

***Yadulla Mehriban, Asadova Fidan***

### SUMMARY

Protection of the economic interests of an independent state is one of the most important issues facing it. Economic interests are protected precisely through economic security factors. Economic security is traditionally viewed as the most important characteristic of the economic system, which determines the ability to maintain the normal life activity of the population at an appropriate level, to sustainably provide the economy with resources, and to consistently realize the interests of the nation-state.

# SİYASİ SABİTLİK: MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

***Ziyalı Leyla Ziya qızı***
***BDU-nun II kurs magistrantı***
***ziyalileyla@mail.ru***

***Açar sözlər:*** siyasi model, siyasi sabitlik, siyasi sistem
***Ключевые слова:*** политическая модель, политическая стабильность, политическая система
***Keywords:*** political model, political stability, political system

Siyasi sabitlik- müxtəlif sosial aktorların və siyasi qüvvələrin mənafelərinin tarazlığına nail olmaq əsasında cəmiyyətin özünə məxsusluğunun vətəndaş sülhünün harmoniyasının qounmasını təmin edən zəruri şərait və amillərin mövcudluğu ilə xarakterizə olunan siyasi sistemin vəziyyəti vaxtında siyasət sahəsində yaranan problemlərin və zidiyyətlərin qanunla nəzərdə tutulmuş vasitələrin köməyilə qanuni həllidir. Siyasi sferaya fərdlər arasında həyata keçirilən münasibətlər kompleksi daxildir. Siyasi sferanın məqsədi, bir qayda olaraq iki növdən ibarətdir.Siyasi sabitlik çox vaxt sosial sabitliyin əsas amili kimi qəbul edilir.

Təhlil göstərdi ki, sosial sabitliyi təhdid edən ən mühüm amillər bunlardır: işsizlik, yoxsulluq, sosial bərabərsizlik, yaşlı əhalinin sayının artması və miqrasiya. Siyasi sabitlik sosial sabitliklə əlaqələndirilir. Belə ki, vaxtilə B.Q.Pauel-in fikrincə, siyasi sabitlik və iqtisadi inkişaf üzrə təsir edən ən mühüm amillər aşağıdakılardır: sosial bərabərsizlik, pay iqtisadiyyatda dövlətin olması, sinfi qarşıdurmaların intensivliyi, solçuların elektoratının qorunub saxlanması. C.Ştayner qeyd edir ki, demokratik cəmiyyətdə siyasi sabitlik ondan qaynaqlanır ki, bu da öz növbəsində əsas qərarların qəbul edilməsi üsulunu müəyyən edir. Bir növ cəmiyyət mədəni olaraq parçalanır, ondan sonra demokratik sabitlik bərqərar olur. M.Q.Anoxin isə siyasi sabitliyi belə başa düşür ki, siyasi sistemin sabit vəziyyəti, onun səmərəli fəaliyyət göstərməsinə və inkişafına imkan verir.

Siyasi sistem konkret strukturunu təşkil edən elementlərdən ibarətdir. Siyasi quruluş anlayışı altında biz siyasətin fərdi və kollektiv subyektləri arasında bütün əlaqələri nəzərdə tuturuq. Onların arasında aşağıdakı əlaqələr ola bilər: əməkdaşlıq, rəqabət, düşmənçilik, neytrallıq və s. Siyasi sistemin ən mühüm elementləri dövlət orqanları, partiyalar, generallar təbii hərəkatlar və maraq qruplarıdır. Biz siyasi sistemin elementləri arasında münasibətlərin konfiqurasiyasını əsasən onun formal strukturu ilə müəyyənləşirik. Optimal strukturlaşdırılmış siyasi sistem nisbətən sabit və proqnozlaşdırıla biləndir. Belə bir sistemdə siyasi məqsədlər, proqramlar, hərəkətlər maraq qruplarının təsiri cəmiyyətin müxtəlif maraqlarını effektiv şəkildə təkrar istehsal edir və buna görə də inqilaba əl atmadan sosial ehtiyacların ödənilməsi yolu ilə ifadə olunmalı və həyata keçirilməlidir. Beləliklə, daxili amillər qrupdaxili və qruplararası əlaqələrlə əlaqələndirilir,iqtisadi bərabərsizliyin mövcudluğunun nəticəsidir, lakin onların forması qəti deyil əvvəlcədən müəyyən edilmiş, dəyişkəndir.İstehsalçıların və istehlakçıların maraqları arasında obyektiv fərqlər ölkənin siyasi sisteminin konfiqurasiyasından asılı olaraq müxtəlif davranış növlərinə səbəb ola bilər.

Siyasi sistemin fərdi və kollektiv elementləri arasında əlaqənin nəzərə alınması siyasi yadlaşma səviyyəsinin qiymətləndirilməsinə əsaslanır. Aşağıdakı şərtlərdə mümkündür:

-fərdlərin maraqları kollektiv səviyyədə mövcud olan faiz qrupları ilə təmsil olunmur

-hökümətin səriştəsi aşağıdır və ictimaiyyətin gözləntilərinə uyğun gəlmir;

-siyasi sistemin formal strukturunun konfiqurasiyası onun təsirini qeyri-kafi edir

-dövlət orqanları tərəfindən mühüm qərarların qəbul edilməsi

Uyğunluq formal konfiqurasiya ilə müəyyən edilir: siyasi sistemin strukturu və siyasi elitanın adekvat maraq dərəcəsi və sosial reallığın cəmiyyətin bütün üzvləri tərəfindən qəbul edilməsi. Qrup maraqlarının fərqlilik səviyyəsi və onların siyasi sabitliyə təsiri qiymətləndirilir. Kollektiv maraqlar siyasi coğrafiyanın nailiyyətləri və tapıntıları əsasında araşdırılmalıdır

Maraqların öyrənilməsi legitimlik və yaxud siyasi və iqtisadi fəaliyyətlərə meydan oxumaqla əlaqələndirilir. Təhlil üçün meyarlar aşağıdakı şəxsiyyət xüsusiyyətlərinə əsaslana bilər: millətçilik, din, əqidə möhkəmliyi, liberalizmə münasibət, demokratiyanı qəbul etmə dərəcəsi və qeyriləri. Fikrimizcə, orta təbəqə cəmiyyətin əsas qrupu kimi tədqiqat üçün əlverişlidir Siyasi sistemin sabit parametrləri, onun strukturunu qorumaq şərti ilə, xarici və daxili təsiri altında onun fəaliyyətinin və inkişafının səmərəliliyinin müəyyən edilməsi amillər təsirləri siyasi sabitliyi formalaşdırır. Siyasi sabitliyin spesifikliyi, sosial tarazlıqdan və cəmiyyətə inteqrasiyadan, müxtəlif dəyərlərdən, ənənələrdən və maraqlardan asılıdır. Müasir şəraitdə siyasi sferanın sabitləşməsinə nail olmağın əsas mexanizmləri siyasi dərəcəsinin azaldılması, siyasət subyektlərinin gələcək fəaliyyətlərinin öyrənilməsidir;yadlaşma, maraq qruplarının təsirlərinin koordinasiyası, siyasətdə yeniliyin tətbiqi. Sonuncular arasında Rusiya üçün aşağıdakıları aktual adlandırmaq olar: seçki sisteminin işləməsi şərtlərindəki dəyişikliklər,vətəndaşlıq almaq qaydalarının zəifləməsi, resurs iqtisadiyyatından uzaqlaşma, yüksək texnologiyaların inkişafı istehsallar və s. Müəllif hesab edir ki, yalnız vətəndaş cəmiyyətinin birgə səyləri və dövlətlər siyasi sistemin səmərəli fəaliyyət göstərməsinə və onun sabitliyinə səbəb olur. Ümumiyyətlə dövlət rus ənənələrini nəzərə alaraq, bir qayda olaraq, yenilikçiliyi stimullaşdırır, idarə edir və tənzimləyir, proseslər və cəmiyyət isə onların məqsəd və vəzifələrinin formalaşmasında iştirak edir, bununla da ideologiya formalaşır.

Müasir dövrdə hakimiyyət bölgüsü ilə bağlı həlledici model müxtəlif siyasi qüvvələr arasında tarazlığa nail olmaqla, onlar arasında tarazlıq modeli olmuşdur. Müasir cəmiyyətin siyasi sisteminin diferensiallaşması, onun siyasi qüvvələrinin plüralizmi sosial inteqrasiyaya nail olmağı xeyli çətinləşdirir. İndiki vaxtda dəyişkənliyə məruz qalan və sistemli yanaşma və özünütəşkilat ideyalarına əsaslanan siyasi sabitliyin nisbi mahiyyəti getdikcə daha çox tanınır. Siyasi sabitlik cəmiyyətin siyasi sistemi (onun əsas elementi dövlətdir) və onun funksiyalarının həyata keçirilməsinin səmərəliliyi ilə təmin edilir ki, bu da öz növbəsində vətəndaşların kütləvi dəstəyindən asılıdır:

1)**“situasiya dəstəyi”** adlanan sistemdən, dövlət orqanlarının qəbul etdiyi konkret qərarlara, hakimiyyətə malik siyasi liderlərin ictimai bəyanatlarına, siyasi hərəkətlərin effektivliyinə ictimai rəyin verdiyi qiymətdir.

2)**“sistemli dəstək”**dən, yəni bütövlükdə güc strukturlarının fəaliyyətinin, dövlətin daxili və xarici siyasətinin cəmiyyət tərəfindən bəyənilməsinə dəlalət edən müsbət qiymətləndirmə və rəylərin sabitliyindən. “Sistemli” dəstəyin mühüm amili siyasi liderlərə və siyasi rejimə inam, müxtəlif sosial qrupların öz maraqlarını qanun, hüquqi və əxlaqi normalar əsasında və onlara uyğun şəkildə müdafiə etməyə hazır olmasıdır. Siyasi rejimə kütləvi dəstək həm də əsas siyasi dəyərlərin bütün toplusunun (hakimiyyətlərin bölünməsi prinsipi, qlasnost, çoxpartiyalı sistem, fikir plüralizmi, söz azadlığı, müstəqillik) əhalinin əksəriyyəti tərəfindən qəbul edilməsində ifadə olunur. Bu siyasi sistemin mahiyyətini və fəaliyyət üsullarını müəyyən edir. Mövcud siyasi rejimə kütləvi dəstək səviyyəsinə təsir edən əsas şərtlərə həmçinin aşağıdakılar daxildir: vətəndaşların maddi və sosial müdafiə səviyyəsi; əhalinin siyasi proseslərdə iştirakını təmin edən demokratik təsisatların və mexanizmlərin mövcudluğu; şəxsin təhlükəsizliyi və hüquqi təminatları.

İstənilən sosial münasibətlər sisteminin sabitliyi onların öz mənafelərinin təmin edilməsinə can atan iştirakçılarının qarşılıqlı fəaliyyətinin, qarşıdurmasının və əməkdaşlığının nəticəsidir. Q. Morgentau yazırdı ki, ictimai münasibətlərdə sabitlik də tarazlıq kimi aydın siyasi mənaya

malikdir: tarazlığa nəzarət edən qüvvələr balansı sistemində aparıcı mövqe tutur, çünki hökmranlıq uğrunda mübarizənin nəticəsi ondan asılıdır. Belə dəyərləndirmə siyasi münaqişənin və sabitliyin əlaqəsini, bəzən isə onların yerinə yetirdikləri funksiyanın üst - üstə düşdüyünü göstərir. Bu zaman həm qarşıdurma, həm də əməkdaşlıq sabit və ya qeyri - sabit xarakterə malik ola, bu və ya digər siyasi münasibətlər sisteminə sabitləşdirici, yaxud sabitliyi pozucu təsir göstərə bilər. Aydındır ki, cinayətkar, yaxud terrorçu qruplaşmaların hətta ən möhkəm, uzunmüddətli, sabit beynəlxalq əməkdaşlığı belə heç də cəmiyyətdəki siyasi şəraitin sabitləşməsinə aparmır.Beynəlxalq siyasi sistemin sabitliyi onun dinamik sabitliyi meyarı, onun qoruma qabiliyyətinin qarşılıqlı fəaliyyətdə olan sosial birliklərin konkret məqsəd və mənafelərinin uzlaşması ilə müəyyən edilən xarakteristikası kimi başa düşülə bilər. Vurğulamaq vacibdir ki, siyasi sabitlik heç də açıq surətdə siyasi münaqişəyə qarşı durmur və onunla qarşılıqlı nəzərdə tutma və qarşılıqlı inkar vəziyyətində deyildir. O, həm qarşıdurma , həm də əməkdaşlıq əsasında əldə oluna bilər. Tarix və müasir dövr onların iştirakçılarının istər sabit dostluq siyasi münasibətlərinə, həm də sabit düşmənçilik münasibətlərinə dair çoxlu nümunələrlə zəngindir.

Bu gün siyas sabitlik axtarışının ən məhsuldar yollarından birini onun siyasi prosesin digər halları, ilk növbədə, münaqişə ilə şərtlənən bir halı kimi nəzərdən keçirilməsi təşkil edir. Bu yol onların qarşılıqlı əlaqəsinin, onlara xas olan funksiyaların üst - üstə düşməsinin və özünəməxsusluğunun aşkara çıxarılmasını, cəmiyyətin həyatında siyasi münaqişənin və siyasi sabitliyin rolunun təhlilini nəzərdə tutur. Burada ən azı iki imkan meydana çıxır. Birinci imkan sabitliyin ali bəşəri dəyərlər dərəcəsinə qaldırılması və ona ən azı siyasi fəaliyyətdə prioritet verilməsi ilə bağlıdırBelə cəhdlər tədqiqatçılar tərəfindən göstərilərək, sabitlik müstəqil dəyər kimi nəzərdən keçirilmişdir. Lakin siyasi sabitliyi diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, reallıqda sabitlik və münaqişəlilik dəyərlər iyerarxiyası vasitəsilə deyil,daha çox özlərinin funksional xarakteristikalarına görə bağlıdır. Belə bir fikir heç də təsadüfən yaranmamışdır ki, Avropa Birliyi kimi birliyin sabitliyi bir çox cəhətdən son onilliklərdə iki ideoloji əks hərbi - siyasi birliyin münaqişəli sabitliyi şəraitində təmin olunmuşdur.

Siyasi sabitlik konsepsiyasının işlənib hazırlanmasına ikinci mümkün yanaşma variantı sabitliyin sosial sistemin obyektiv funksional xarakteristikası kimi nəzərdən keçirilməsi ilə bağlıdır. Politoloqlar arasında belə bir fikir geniş yayılmaqdadır ki , siyasi sabitliyin tədqiqatçılarının siyasətin sosial - sinfi və geniş mənada sosial əsaslarının qiymətləndirilməsinin aktuallığını tam dərk etmələri zəruridir. Bu əsaslar latent surətdə cəmiyyət üçün məhvedici sarsıntılara transformasiya edə biləcək bütün münaqişə və gərginlikləri ehtiva edirlər. Fikrimizcə, belə yanaşma yalnız münaqişə və sabitliyin funksional təzahürlərinin deyil, həm də siyasi həyatın bütün mümkün hal və təzahürlərinin təhlilinə tətbiq oluna bilər. Aydınlaşdırmaq vacibdir ki, siyasi sabitlik və siyasi münaqişə heç də qeyd - şərtsiz bir birinə qarşı yönəlmədikləri kimi, dialektik bir - birini nəzərdə tutma və qarşılıqlı inkar vəziyyətində də deyildir. Sosial tələbat və mənafelərin təzahürü olaraq, ictimai münasibətlərin iştirakçılarının dəyişən qüvvələr nisbətini əks etdirərək, həm siyasi münaqişə, həm də siyasi sabitlik sosial prosesləri qiymətləndirməyə, münaqişəlilik və sabitlik şkalası qurmağa imkan verir.

Kütləvi siyasi dəstək bütövlükdə cəmiyyət və onun siyasi sistemi, xüsusən də bir dövlətdən digər dövlətə keçid zamanı müəyyən müddət balanssızdır deməli, daha az stabil olduğu zaman islahatlar kontekstində xüsusi əhəmiyyət kəsb edir. Bu vəziyyətdə hakimiyyət tərəfindən təsdiqlənən sosial norma dəyərlərlə kütləvi şüurda hökm sürən sosial norma və dəyərlər arasında ziddiyyət və hətta uçurum yaranır. Kütləvi şüurda bir sıra səbəblərə görə - ətalət, fundamental dəyərlərə daha davamlı bağlılıq - hakim qrupların norma və dəyərlərindən imtina, kütlə ilə hakimiyyət arasında gərginlik və hətta qarşıdurma ola bilər. Nəzərə almaq lazımdır ki, cəmiyyətdə həmişə liderlik uğrunda qrupların rəqabəti, daha görkəmli siyasi rola və daha mühüm

siyasi statusa iddialı qrupların dəyişməsi olur.Siyasi hərəkatlar və partiyalar şəklində təşkil olunan bu qruplar müxtəlif formalarda müxalifətin mitinqləri keçirə bilər.

Onlar nə qədər uğurlu olsalar, bir o qədər milli maraq və məqsədləri, mədəni dəyərləri və mentaliteti əks etdirirlər. Müxalifət kütlələri ideoloji şüarlarla, proqramlarla birləşdirərək, onları hərəkətə gətirə və liderlik edə bilsə, hakimiyyətə gələ bilər. Siyasi cəhətdən nüfuzlu liderdən çox şey asılıdır. Cəmiyyətdə bərqərar olmuş, hüquqi qanunlarla təsbit olunmuş və qanuniləşdirilmiş hakimiyyət uğrunda mübarizə üsulları siyasi sabitliyin qorunması üçün xüsusi əhəmiyyət kəsb edir. Siyasi qətllərdən tutmuş siyasi inqilablara qədər qeyri-qanuni siyasi mübarizənin tarixi təcrübəsi göstərir ki, bu, siyasi sabitliyə dağıdıcı təsir göstərir və cəmiyyətin dağılması ilə nəticələnir.

Qeyri-qanuni hakimiyyət mübarizələri açıq və gizli ola bilir. Qeyri-qanuni hakimiyyət mübarizələrinin latent formaları hakim rejimin sabitliyini ciddi şəkildə poza, onun daxili konsolidasiyasını məhv edə və son nəticədə ictimai həyatdan kənara çıxmadan ciddi siyasi iğtişaşlara səbəb ola bilər. Siyasi sabitlik siyasi fəaliyyətin səviyyəsindən və xarakterindən, siyasi liderlərin mövqelərindən, onların milli maraqları ifadə etmək və vətəndaşların siyasi iradəsini birləşdirmək bacarığından, öz fəaliyyətlərini tənqidi təhlil etmək bacarığından, mənəvi və hüquqi normalara riayət etmələrindən asılıdır. İslahatlar dövründə cəmiyyətin siyasi sabitliyinin vacib şərti konstitusiyanın əsas qanunun, federal və yerli qanunvericiliyin vəhdəti əsasında əldə edilən hüquqi təhlükəsizliyidir. Cəmiyyətdə mövcud olan qanunlar sistemi dövrün yeni şərtlərinə, yeni çağırışlarına uyğun dəyişməlidir.

Konstitusiya normalarının və mövcud qanunvericiliyin vaxtında dəyişdirilməməsi, təkmilləşməsinin geridə qalması və ya gecikdirilməsi siyasi proseslərə, siyasi subyektlərin və hakimiyyət qollarının qarşılıqlı fəaliyyətinə sabitliyi pozan təsir göstərir. Cəmiyyətin siyasi sabitliyinin göstəricisi onun xarici mənfi təsirləri (təxribat, beynəlxalq terrorizm, iqtisadi blokada, siyasi təzyiq, şantaj, dezinformasiya, güc tətbiqi təhlükəsi və s.) neytrallaşdırmaq qabiliyyətidir. Bu cür mənfi təsirlər siyasi sistemi ifrat qeyri-sabitlik vəziyyətinə gətirib çıxara, hətta onu məhv edə bilər. Bu baxımdan, mövcud sistemin həm tərəfdarları, həm də əleyhdarları tərəfindən vətəndaş müharibəsi və ya genişmiqyaslı siyasi zorakılıq aktlarının başlanması xüsusilə təhlükəlidir. Ona görə də dövlətin öz suverenliyinə, sosial maraqlarına və vətəndaşlarının təhlükəsizliyinə təhlükəyə adekvat reaksiya verməsi çox vacibdir.

Azərbaycanın sosial-iqtisadi inkişafını, insanların rifah halının yaxşılaşmasını, hüquq və azadlıqlarının daha dolğun ödənilməsini, beynəlxalq aləmdə qazanılan uğurlarını ölkəmizdəki sosial mühit və ictimai-siyasi sabitliklə əlaqələdirənlər haqlıdırlar. Çünki birlik, həmrəylik, sabitlik qazanılan nailiyyətlərin əsası olmaqla, həm də gələcək fəaliyyətin səmərəliliyi, ahəngdarlığı üçün zəmanətdir.

Dövlət başçısı cənab İlham Əliyev də çıxışlarında bu amilləri daim diqqətə çatdırmaqla gücümüzü, qüdrətimizi, uğurlarımızı birliyimizdə görür və hər yerdə, hər zaman qayda-qanunları gözləməyi, nizam-intizamlı olmağı, sabitliyi qorumağı tövsiyə edir.

İkinci dəfə müstəqillik əldə etdiyimiz 1990-cı illərin əvvəlinin acı təcrübəsi bunu deməyə əsas verir. İtirilən torpaqlarımız, əsir qalan yurdlarımız, düşmən tərəfindən dağılan, viran qalan kəndlərimiz, şəhərlərimiz erməni faşistlərinin vəhşi əməllərinin nəticəsi olmaqla bərabər, həm də daxili çəkişmələrin, özbaşınalıqların qurbanıdır. Bir milyondan artıq qaçqın və köçkünün acı taleyi, məşəqqətli həyatı buna sübutdur. Sözsüz ki, o illərdə ölkədə baş verən qarşıdurmaların, hərc-mərcliyin, məsuliyyətsizliyin qarşısı vaxtında alınsaydı, vəzifə sahibləri qətiyyət, iradə nümayiş etdirib uzaqgörən olsaydılar, təsirli tədbirlər həyata keçirilsəydi, birləşə bilsəydik dəhşətli fəlakətlərə yol verilməz, ölkə vətəndaş müharibəsi səviyyəsinə çatdırılmazdı.

Bu bir həqiqətdir ki, əgər o dövrdə Azərbaycana Heydər Əliyev kimi müdrik bir insan rəhbərlik etsəydi, biz torpaqlarımızı itirməzdik, görünməmiş faciələri yaşamazdıq. Ulu Öndərin

çətin bir vaxtda, 1993-cü ilin iyun ayında hakimiyyətə gəldiyi ilk gündən həyata keçirdiyi qətiyyətli tədbirlər, siyasi gedişlər, ictimai sabitliyin bərpa edilməsi, özbaşınalıqların, qarşıdurmaların aradan qaldırılması, silahlı dəstələrin ləğv edilməsi, iqtisadiyyatın, sosial həyatın inkişafı üçün atılan addımlar, görülən işlər bunu deməyə əsas verir. Topla, tüfənglə, zorla qarşısı alına bilinməyən silahlı qruplaşmaların, hərc-mərcliyin qarşısını Heydər Əliyev öz təfəkkürü, ağlı, uzaqgörənliyi, təşkilatçılığı, prinsipiallığı və ən başlıcası, xalqına qayğısı, inamı, xalqın rəhbərinə olan hörməti, etimadı sayəsində ala bildi və tez bir zamanda ölkədə əmin-amanlıq, sabitlik yaratdı.

Heydər Əliyev qətiyyətlə deyirdi: "Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir". Ulu Öndər bunun üçün vətəndaş həmrəyliyinin, birliyin, vətənə, dövlətə sədaqətin çox vacib olduğunu xatırladır, anarxiyanın, özbaşınalığın, xaosun, təkəbbürlülüyün qəbuledilməz-liyini bildirir və yerini, hərəkətini, sözünü bilməyənlərə, ölkənin imicinə kölgə salanlara, vəzifəsini bacarmayanlara, şəxsi mənafeyi ictimai mənafedən üstün tutanlara, xalqın rifahı naminə mövqe bildirməyənlərə qarşı ciddi tədbirlər görürdü. O, nizam-intizamlı, qayda-qanunlara əməl edən insanları sevir və qiymətləndirirdi.

Bu gün regional inkişafda, iqtisadiyyatın sürətləndirilməsində və şaxələndirilməsində aqrar sektor aparıcı rol oynayır və bu sahədə həyata keçirilən tədbirlər çoxşaxəlidir, diqqət qarşıda duran vacib məsələlərin həllinə yönəldilmişdir.Bilavasitə ərzaq təhlükəsizliyinin təmin olunmasına, işsizliyin aradan qaldırılmasına, insanların maddi vəziyyətinin yaxşılaşdırılmasına, kəndin inkişafına xidmət edir.Azərbaycan vətəndaşı bu gün ölkəsini sabit, inkişaf edən, tanınan, ailəsini dinc, xoşbəxt, süfrəsini çörəkli, özünü vüqarlı, alnıaçıq, torpağını bollu-bərəkətli, azad görmək arzusundadır. Məhz bu arzu, inam vətəndaşlarımızı Prezidentimizin ətrafında sıx birləşdirir, sosial-iqtisadi inkişafımızı sürətləndirir və ölkəmizi daha xoşbəxt gələcəyə aparır.

## ƏDƏBİYYAT

1. Г. О. Евгеньевич Политическая Стабильность: Понятие, Факторы, Инновации. 2015
2. https://azertag.az/xeber/Azerbaycan_dovletchiliyinin_islahatlar_ve_zefer_merhelesi-1654347
3. The Effects of Political Stability/Unstability on Economic Growth an Application on the World's Largest First Twenty Economies (1996-2015)
4. Abbasbəyli A.N. Ə.G. İbrahimov, P.Q. Darabadi Konfliktologiya Bakı: BDU Nəşriyyatı, - 2006
5. Ильин м.В. Политическая теория и политическая практика.1994

# SİYASİ SABİTLİK: MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

***Ziyalı Leyla***

## XÜLASƏ

Beləliklə, siyasi sabitlik elə modelləşdirilmiş kateqoriyadır ki siyasi münasibətlərin arzu olunan vəziyyətini müəyyənləşdirir və düzəldir. Siyasət təhlilində tədqiqatçılar onların sabitliyi üçün müxtəlif reytinq və indekslərdən istifadə edir. Siyasi sabitlik,

cəmiyyətin sabitliyi kimi, cəmiyyətin fəaliyyət və inkişaf qanunları, onun alt sistemlərinin qarşılıqlı əlaqəsinin xarakteri və üsulları ilə müəyyən edilir, dəyişiklikləri və təkamülü strukturun funksional vəhdətinin pozulmasına səbəb olmur.

## ПОЛИТИЧЕСКАЯ СТАБИЛЬНОСТЬ: СУЩНОСТЬ И ЗНАЧЕНИЕ

***Зиялы Лейла***

**АННОТАЦИЯ**

Таким образом, политическая стабильность представляет собой моделируемую категорию, определяющую и корректирующую желаемое состояние политических отношений, в политическом анализе исследователи используют различные рейтинги и индексы их устойчивости. Политическая стабильность, как и стабильность общества, определяется законами деятельности и развития общества, характер и способы взаимодействия его подсистем, его изменения и эволюция не вызывают нарушения функционального единства структуры.

## POLITICAL STABILITY: ESSENCE AND IMPORTANCE

***Ziyali Leyla***

**SUMMARY**

So, political stability is a modeled category that defines and corrects the desired state of political relations. In political analysis, researchers use various ratings and indices for their stability. Political stability, like the stability of society, is determined by the laws of activity and development of society, the nature and methods of interaction of its sub-systems, its changes and evolution do not cause a violation of the functional unity of the structure.

# AZƏRBAYCANDA QEYRİ-NEFT İQTİSADİYYATININ FORMALAŞDIRILMASINDA TURİZM SEKTORUNUN YERİ

***Pəri Əmirəhməd qızı Həsənova***
***BDU-nun İqtisadiyyat kafedrasının professoru,***
***Hacıyev Məhəbbət Məmmədağa oğlu***
***BDU-nun II kurs magistrantı***
***haciyev.mehebbet.1999@gmail.com***

***Açar sözlər:*** turizm sektoru, qeyri-neft sektoru, iqtisadiyyat, neft sektoru, inkişaf.
***Ключевые слова:*** туристический сектор, ненефтяной сектор, экономика, нефтяной сектор, развитие.
***Keywords:*** tourism sector, non-oil sector, economy, oil sector, development.

Ölkəmiz öz müstəqilliyini elan etdikdən sonra XX əsrin sonlarında müstəqil bir dövlət kimi tarix səhnəsində, beynəlxalq, iqtisadi və siyasi münasibətlərdə tənzimləyici rola malik bir ölkə statusunu qazandı. Bu mövqe, Azərbaycanın malik olduğu zəngin təbii sərvətləri və geosiyasi mövqeyi ilə şərtlənir.

Azərbaycanın yerləşdiyi əlverişli coğrafi mövqeyi və təbii şərait, malik olduğu zəngin yeraltı və yerüstü sərvətlər burada xalq təsərrüfatının istənilən sahəsinin formalaşdırılması və inkişafı üçün əlverişli şərait yaradır. Bu gün, ekspertlər tərəfindən Azərbaycanın inkişafına daha çox diqqət yetirilməsi, sənaye, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət və xidmət, inşaat, nəqliyyat, rabitə sahələri kimi prioritet sahələrin təsnifləşdirilməsi heç də təsadüfi deyil. Azərbaycanda turizm sahəsinin inkişafı üçün lazımi iqlim, təbii gözəlliklər, tarixi və arxeoloji potensial və mədəni sərvətlər mövcuddur. Əksər ərazisi subtropik iqlim qurşağında, yalnız Böyük Qafqaz dağlarının şimal-şərq hissəsi mülayim iqlim qurşağında olmaqla 2 iqlim qurşağı və 9-iqlim tipinin mövcud olması, Xəzər dənizinin sahilləri, Xaçmaz-Lənkəran-Astara zonasındakı meşəlik sahələr və müalicə məqsədi ilə yararlanması mümkün olan qaynaq suları Azərbaycanda təbii imkanlar arasında əsas diqqəti cəlb edən üstünlüklərdir.

Aqrar sektor, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr kimi qiymətləndirilir. Beynəlxalq maliyyə institutları tərəfindən bu sektorlar arasında aqrar sahə və turizmin əhəmiyyəti xüsusi qeyd edilir. Azərbaycanla sıx tərəfdaşlıq edən Asiya İnkişaf Bankı tərəfindən də aqrar sahə və turizm ölkədə qeyri-neft sektorunun inkişafının əsas istiqamətləri kimi qiymətləndirilir. Bankın hesablamalarına əsasən, ölkədə turizm imkanlarından tam istifadə qeyri-neft ÜDM-nin artımına öz töhvəsini verəcək. Çünki, Azərbaycanın zəngin turizm potensialına malik olması və ölkədə turizm infrastrukturunun son zamanlar dinamik inkişafı qeyri-neft sektorunun bu istiqaməti üzrə ölkəyə əhəmiyyətli gəlirlər vəd edir [1, s.87].

Yeni tikilən Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara və Tovuz-Qazax turizm yollarının müasir standartlara uyğunlaşdırılması məqsədi ilə, Azərbaycan Turizm Nazirliyi beynəlxalq turizm şirkətlərinə dəyəri 100 min dollar – 50 milyon dollar civarında olan layihələr təqdim etmişdir.

2018-ci ilin statistikasına müvafiq olaraq, Azərbaycanda turizm sektorunun yaratdığı əlavə dəyər 3 milyard manatı üstələyir və ÜDM-nin 5%-ə yaxın bir dəyərini təşkil edir. Sektorda 40 minə yaxın əməkçi qüvvə çalışır. Həmçinin, Azərbaycanda 400-ə yaxın tur agentliyində 2 minə yaxın əməkdaş çalışır [6].

2004-2019-cu illəri əhatə edən region üzrə inkişaf proqramlarında inkişaf etdirilməsi lazım olan ilk hədəflər arasında olan turizm sferası ilə bağlı olaraq, regionlarda ekoloji turizmin

inkişafı məqsədi ilə tərtib edilən layihələr və iş planları, bu sektora maraq göstərən xarici sərmayəçilərə təqdim edilmişdir.

Müxtəlif proqram, layihə və mədəniyyət tədbirləri ilə Azərbaycan turizmin inkişaf perspektivinə təkan verəcək, infrastrukturun tənzimlənməsi ilə geniş bir turizm potensialına sahib olacaqdır. Hələ kifayət qədər tanınmayan və turizm sərmayəçilərini gözləyən Quba, Nabran, Şəki, İsmayıllı kimi region və şəhərlərdəki təbii gözəlliklərlə bərabər, hər bir nöqtədə yerləşən mədəniyyət və sənət mərkəzləri ilə Bakı inkişaf etməkdə olan turizm sektorunda əvəz edilməz yeri zəbt edəcəkdir.

2023-cü ili hədəfləyən proqnozlara əsasən, Azərbaycana səyahət edəcək xarici turistlərin sayının 4 milyondan artıq olması gözlənilir. Bundan başqa, yaxın gələcəkdə 100 min yataq yerinin yaradılması planlaşdırılır. Bu proqram müvəffəqiyyətlə başa çatdırılacağı təqdirdə, 2023-cü elədək Azərbaycanda turizm şirkətlərinin sayı 350, mehmanxanaların sayı 1500, yerləşdirmə obyektlərinin sayı 95 min, turizm sektorunda fəaliyyət göstərənlərin sayı 75 min, Azərbaycana səfər edən xaricilərin sayı 5 milyon, turizimdən qazanılan gəlirin 3 milyard dollardan artıq olacağı proqnozlaşdırılır. Ümumilikdə, Azərbaycanın müxtəlif regionlarında turist bazalarının yaradılması üçün ideal imkanlar mövcuddur. Turizmin inkişafı həmçinin regionların sosial-iqtisadi inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu, eyni zamanda 10 minlərlə iş yerinin açılması, aqrar təsərrüfat mallarının rahat satışı, region əhalisinin sosial məişət rifahının yaxşılaşması anlamına gəlir. Belə olan halda, region sakinlərinin iş üçün paytaxta və xarici ölkələrə axınının qarşısı nəzərəçarpacaq dərəcədə azala bilər [2, s.42].

Dünyanın bir sıra ölkələrində turizm insanların sağlamlığında, asudə vaxtlarının səmərəli istifadəsində, iqtisadiyyatda önəmli yerə malikdir, regionların sosial inkişafına töhvəsini verir, büdcəyə əlavə vəsaitlərin cəlb edilməsi üçün əlverişli imkan yaradır. Hazırda, dünya üzrə milli məhsulun, dünya investisiyalarının, iş yerlərinin və dünya istehlak xərclərinin 10%-ni turizm qarşılayır. Qeyri-neft sektorunun yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi hazırki dövrdə ölkə qarşısında duran prioritet məsələdir. Çoxsaylı tədqiqatlara əsasən söyləyə bilərik ki, turizm öz perspektivliyinə görə qeyri-neft sektoru arasında qabaqcıl mövqelərdən birini tutur.

Bununla bərabər, turizmin inkişafı və turizm sahəsinin ölkə iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilməsi hazırda Azərbaycanda ən başlıca vəzifə olaraq qarşıda dayanır. Azərbaycanda 2015-ci ildə ümumi daxili məhsulun 4,5 %-i, ölkə üzrə investisiyaların 5,3 %-i turizmin payına düşür, iqtisadi fəaliyyətlə məşğul olan əhalinin 1,1%-i turizm sektorunda çalışır. Gördüyümüz kimi, son zamanlar Azərbaycanın nail olduğu sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlarına adekvat surətdə cavab verərək, həlli üçün imkanlar yaradır [3, s.40].

Azərbaycan Respublikasında turizm sektorunun dayanıqlı inkişafının təmin edilməsi və turizmin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2010-cu il 6 aprel tarixində "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamın başlıca məqsədi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə uyğun müasir turizm sferasının formalaşdırılması və onun ölkə iqtisadiyyatının başlıca inkişaf sütunlarından birinə çevrilməsini təmin etməklə bərabər, turizmin fəaliyyətinin genişləndirilməsinə imkanın yaradılmasıdır. Bu gün, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektoru üzrə strateji yol xəritəsi"nin əsaslarından biri olan turizm sektorunun günbəgün inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq turizmə inteqrasiya etməsi ilə şərtlənir.

Son zamanların statistikasına nəzər saldıqda, turizm və aidiyyatı sahələrdə çalışan işçilərin sayının 42 min nəfər, turizm sektorunun ölkənin ÜDM-dəki xüsusi çəkisinin isə 4,1% təşkil etdiyini görürük. İstirahət və əyləncə məqsədilə Bakı, Naxçıvan, Quba, Şamaxı, Şəki, Masallı, Qəbələ, Mingəçevir, Abşeron, İsmayıllı, Qusar, Lənkəran və Qaxa səfər edən turistlərin sayı üstünlük təşkil edib. Turizm məqsədilə xarici ölkələrə səfər edən ölkə vətəndaşlarının 34,7%-i

Bakı sakinlərindən ibarət olub. Davamlı olaraq, 2015-2018-cı illərdə Azərbaycana axın edən turistlərin sayında artım müşahidə olunub. Hər il ölkəyə səfər edən turistlər arasında Rusiya, Gürcüstan, Türkiyə, İran və digər ölkələrdən gələnlər üstünlük təşkil etmişdir. 2015-ci illə müqayisədə, 2018-ci ildə ölkəyə İordaniyadan 2, Küveytdən 3,2, Qətərdən 5,5, Səudiyyə Ərəbistanı və Omandan 10, Birləşmiş Ərəb Əmirliklərindən 22 və İraqdan 30 dəfə çox turist axın etmişdir [5].

Bütün bu artımlar Azərbaycanda yaranmış turizm mühitinin təkmilləşməsinə əyani sübutdur.

Bütün bu qeyd etdiklərimiz əsasında söyləyə bilərik ki, hazırda Azərbaycan dövlətinin turizm sahəsinə yatırdığı investisiya öz qatqısını göstərir. İnşa edilən yeni və müasir otellər, dünya standartlarına uyğun çəkilən yollar, bir sözlə yaradılan şərait və infrastruktur Azərbaycanı daha da cəlbedici edib. Bu baxımdan, xalqımızın özünəməxsus qonaqpərvərliyini və zəngin qida rasionalını da nəzərə alsaq, ölkəmizə üz tutanların və səfər edənlərin sayının ilbəil daha da artacağını gözləmək olar. Yeni yaranan Azərbaycan Dövlət Turizm Agentliyinin son illər gördüyü və planlaşdırdığı işləri, layihələri də hesaba alsaq əminliklə deyə bilərik ki, yaxın gələcəkdə Azərbaycan yalnız Cənubi Qafqazın deyil, eyni zamanda dünyanın ən çox turist axınına səbəb olan ölkələrindən birinə çevriləcək.

Yekun olaraq onu deyə bilərik ki, qeyri-neft sektorunun inkişafında turizm sektorunun aparıcı yerlərdən birini tutmasında ölkə rəhbərinin təşəbbüsü ilə hazırlanan “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektoru üzrə strateji yol xəritəsi” də öz əhəmiyyətli təsirini göstərəcək. Belə ki, xidmət sektoru yol xəritəsində müəyyən edilən prioritet istiqamətlərdən birini təşkil edir. Xidmət sektorunun əsasını təşkil edən turizm fəaliyyətinin formalaşması və inkişafı üçün aşağıdakılar təklif olunur:

- Turizmin inkişafı üçün məqsədyönlü büdcə fondunun yaradılması;
- Turistlərin ölkə ərazisində maneəsiz hərəkətinin təmin edilməsi;
- Xaricə gedən Azərbaycan turistlərinin hüquqlarının və qanuni maraqlarının qorunmasının təmin edilməsi;
- Turizm fəaliyyətinin tənzimlənməsində hüquqi-normativ aktların təkmilləşdirilməsi;
- Ekoloji turizm fəaliyyəti üçün xüsusi qoruqların yaradılmasının təmin edilməsi;
- Turizm bazarının xüsusiyyətləri nəzərə alınmaqla vahid qaydalar sisteminin işlənib hazırlanması;
- Ölkəyə səfər edən turistlər üçün viza rejiminin sadələşdirilməsi;
- Turizmin infrastruktrunun yaxşılaşdırılmasının təmin edilməsi;
- Turizm məhsullarının ixracına üstünlük verilməsi;
- Turizm sənayesinin daha da formalaşması üçün şəraitin yaradılması;
- Turizm fəaliyyətində sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması;
- Turizm sahəsində beynəlxalq əməkdaşlığın və işgüzar əlaqələrin genişlənməsinə nail olunması.

Ümumiyyətlə, xidmət sektorunun əsasını təşkil edən turizm fəaliyyətinin formalaşması, inkişafı və rəqabətə davamlılığı ölkənin gələcək stabil inkişafında, beynəlxalq iqtisadiyyata inteqrasiyasında və dünya iqtisadiyyatında önəmli mövqe tutmasında tam təminatçı qismində çıxış edəcəkdir.

Turizm potensialının tam reallaşdırılması məqsədilə həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Azərbaycana maraq göstərən turistlərin sayı ilbəil artır.

## ƏDƏBİYYAT

1. Aras, O.N. Süleymanov, E., Azərbaycan iqtisadiyyatı. Bakı. 2016.

2. Böyükkişi, Nəriman. "Qeyri-neft sektorunun inkişafının dövlət tərəfindən stimullaşdırılması istiqamətləri". Azərbaycan Universiteti (2018): 42.
3. Bayramlı, Qadir. "Azərbaycanda turizmin dayanıqlı inkişaf perspektivləri". Azərbaycan Universiteti (2018): 40.
4. Hasanlı, Yadulla, Sailau Baizakov and Sudabe Salihova. "Assessment of the impact of tourism sector on the economy of Azerbaijan, Kazakhstan and Iran using input-output models". Economic and Social Development: Book of Proceedings (2019): 671-680.
5. https://www.stat.gov.az/source/tourism/
6.https://www.academia.edu/37188085/Milli_iqtisadiyyatin_inkisafinda_turizm_sektorunun_rolu_v%C9%99_bu_sektorun_dovl%C9%99t_t%C9%99nziml%C9%99nm%C9%99si_istiqam%C9%99tl

## AZƏRBAYCANDA QEYRİ-NEFT İQTİSADİYYATININ FORMALAŞDIRILMASINDA TURİZM SEKTORUNUN YERİ

***Pəri Həsənova, Hacıyev Məhəbbət***

### XÜLASƏ

Məqalədə Azərbaycanda qeyri–neft sektorunun inkişafında turizm sektorunun yeri və rolu işıqlandırılmışdır. Sözsüz ki, iqtisadiyyatının böyük bir qismini neft sektoru təşkil edən ölkənin qeyri – neft sektorunun inkişaf etməsi üçün fasiləsiz olaraq çalışması lazım gəlir. Azərbaycan bu sahənin inkişafı üçün əlverişli coğrafi mövqeyə, dərin tarixə, əvəzolunmaz tarixi məkanlara, zəngin yeraltı və yerüstü təbiətə sahibdir.

Məqalənin statistik məlumatları ölkəmiz müstəqillik əldə etdiyi vaxtdan bu günə qədər turizm sahəsindəki dəyişmələrin faiz nisbəti və göstəricilərlə əks etdirilməsindən ibarətdir. Məqalə Azərbaycanda turizmə dair məlumatların əldə edilməsi üçün elmi mənbə kimi istifadə oluna bilməsi baxımından aktuallıq kəsb edir.

## МЕСТО ТУРИСТИЧЕСКОГО СЕКТОРА В ФОРМИРОВАНИИ НЕНЕФТЯНОЙ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

***Пари Гасанова, Гаджиев Махаббат***

### АННОТАЦИЯ

В статье освещены место и роль туристического сектора в развитии ненефтяного сектора Азербайджана. Конечно, стране с большой долей экономики в нефтяном секторе необходимо постоянно работать над развитием ненефтяного сектора. Азербайджан имеет выгодное географическое положение, глубокую историю, незаменимые исторические памятники, богатую подземную и наземную природу для разработки этого месторождения.

Статистические данные статьи состоят из процентов и показателей изменений в сфере туризма с момента обретения независимости нашей страной. Статья актуальна с точки зрения использования в качестве научного источника для получения информации о туризме в Азербайджане.

# THE PLACE OF TOURISM SECTOR IN THE FORMATION OF NON-OIL ECONOMY IN AZERBAIJAN

***Pari Hasanova, Hajiyev Mahabbat***

**SUMMARY**

The place and role of the tourism sector in the development of the non-oil sector in Azerbaijan was highlighted in the article. Of course, a country with a large share of its economy in the oil sector needs to work continuously to develop the non-oil sector. Azerbaijan has a favorable geographical position, deep history, irreplaceable historical sites, rich underground and surface nature for the development of this field.

The statistical data of the article consist of the percentage and indicators of changes in the field of tourism since the independence of our country. The article is relevant in terms of its use as a scientific source for obtaining information on tourism in Azerbaijan.

# VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASINDA QEYRİ-HÖKÜMƏT TƏŞKİLATLARININ ROLU

***Həsənzadə Hicran Mircəmaləddin qızı***
***BDU-nun I kurs magistrantı***
***mircemaleddin14@gmail.com***

***Açar sözlər:*** qeyri-hökümət təşkilatları, vətəndaş cəmiyyəti, dövlət siyasəti
***Ключевые слова:*** неправительственные организации, гражданское общество, публичная политика
***Key words:*** non-governmental organizations, civil society, public policy

Vətəndaş cəmiyyəti, sözün əsl mənasında, dövlətin nəzarəti altında olmayan, öz qərarlarını müstəqil qəbul edən və ictimai fəaliyyətlə məşğul olan insanların birliyi kimi müəyyən edilir.[1]

Qeyri-hökumət təşkilatları ilk dəfə 1945-ci ildə yeni yaradılmış Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 71-ci maddəsində belə adlandırılmışdır. QHT-lərin sabit və ya formal tərifi olmasa da, onlar ümumiyyətlə hökumətin təsirindən asılı olmayaraq qeyri-kommersiya təşkilatları kimi müəyyən edilirlər (baxmayaraq ki, onlar dövlət tərəfindən maliyyələşdirilə bilər). QHT fəaliyyətlərinə ətraf mühit, sosial, vəkillik və insan hüquqları sahəsində fəaliyyət daxildir, lakin bunlarla məhdudlaşmır. Onlar geniş miqyasda və ya çox yerli olaraq sosial və ya siyasi dəyişikliyi təşviq etmək üçün işləyə bilərlər. QHT-lər cəmiyyətin inkişafında, icmaların təkmilləşdirilməsində və vətəndaş iştirakının təşviqində mühüm rol oynayırlar.

Demokratik ölkənin əsas göstəricilərindən biri də onun açıq siyasət aparmasıdır. Azərbaycan Respublikasını açıq siyasət aparan ölkələrə nümunə olaraq göstərmək olar. Ölkəmizdə demokratiyanın inkişafı nəticəsində müxtəlif siyasi birliklər, qeyri-hökümət təşkilatları fəaliyyət göstərir və yenilərıdə yaranmaqda davam edir. Vətəndaşların bu istiqamətdə təşəbbüskarlıqları dövlət tərəfindən də dəstəklənir. Bu da öz növbəsində ölkəmizdə inkişaf etməkdə olan vətəndaş cəmiyyətinin əsas priotetlərindən biridir. Onuda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müstəqil şəkildə öz açıq siyasətini həyata keçirmək üçün çox keşməkeşli yollar keçmişdir. SSRİ dağıldıqdan sonra ondan qalan problemləri həll etmək gənc dövlət üçün heç də asan olmamışdır. Həmçinin, bu istiqamətdə çətinliklər yaratmağa çalışanlarda olmuşdur. Buna nümunə olaraq Azərbaycana qarşı Azadlığın Müdafiəsi Aktına ABŞ-ın 907-ci düzəlişinin Konqres tərəfindən qəbul edilməsi suveren respublikamızın müstəqilliyinin ilk illərində çox təhlükəli problemlərlə qarşılaşmasına səbəb olmuşdur.

Azərbaycan xalqı bu çətin vəziyyətlərdən çıxış yolunu ümummilli lider Heydər Əliyevin prezident seçilməsində və dövlətin onun siyasətilə daha uğurlu gələcəyə addımlayacağını düşündülər. Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da keçirilən AR Prezident andiçmə mərasimində çıxışında demişdir: Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, dəfələrlə bunu bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir.

Qeyri-hökümət təşkilatları ictimai birliklərə və fondlara bölünürlər. İctimai birlik - ictimai əhəmiyyəti olan konkret mənfəətsiz məqsədləri həyata keçirmək məqsədi ilə fərdi şəxslər tərəfindən yaradılan qurumlardır. Gənclər Təşkilatları, Hərəkatlar bu qəbildən olan təşkilatlar

hesab olunur. Fondlar - əsasən yardım və hansısa layihələri maliyyələşdirmək məqsədi ilə yaradılır. Qeyri-Hökumət Təşkilatları (QHT) siyasətlə məşğul ola bilməzlər. Onların sabit maliyyə bazası olmur, aldıqları qrant hesabına fəaliyyət göstərirlər. Hazırda Azərbaycanda 3000-dən çox QHT-lər var, bu da vətəndaş cəmiyyətinin təzahürüdür. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qeyri-hökumət təşkilatlarının yaradılması və fəaliyyəti qadağandır. Ölkəmizdə Azərbaycan Milli QHT Forumu (MQF) 1999-cu il iyun ayının 11-də 95 QHT tərəfindən təsis edilmişdir. Milli Qeyri-Hökumət Təşkilatlarının hərəkatının genişlənməsi, onların fəaliyyət dairəsinin beynəlxalq təcrübəyə və hazırki qanunvericiliyə tam uyğun qurulması, koordinasiya edilməsi, QHT-lərin dövlət orqanları, bələdiyyələr, milli və beynəlxalq donorlar, həmçinin, media və özəl sektorla qarşılıqlı faydalı əməkdaşlığının təmin olunması, üçüncü sektorun və vətəndaş cəmiyyətinin inkişafı və onların qarşılaşdığı problemli situasiyaların həllinə yardım etmək məqsədilə yaradılmışdır. Hal-hazırda MQF 648 təşkilatı birləşdirən ictimai koalisiyadır.

2000-ci ilin ortalarında MQF yeni bir dövrə keçid etdi. BMT İP və Dünya bankının maliyyə dəstəyilə həyata keçirilən “Yerli QHT-lərin inkişaf proqramı” layihəsi çərçivəsində MQF nümayəndələri ölkənin bütün şəhər və rayonlarında fəaliyyət göstərən yerli QHT-lər barədə məlumat toplamağa və eləcə də, QHT hərəkatını Bakıdan bu ərazilərə yaymağa başladılar. Azərbaycanın regionlarında fəaliyyət dairələrinin tənzimlənməsi məqsədilə layihənin sonunda ölkənin beş regionunda (Şəmkir, Mingəçevir, Qəbələ, Quba və Şirvan) Regional Resurs və Təlim Mərkəzləri yaradıldı. Hal-hazırda da Respublikamızın 66 rayonunda MQF-in koordinasiya mərkəzləri fəaliyyət göstərməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 27 iyul 2007-ci il tarixdə “Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası”nın təsdiq edilməsi haqqında sərəncam imzalamış və bununla da ölkəmizdə QHT-lərin və vətəndaş cəmiyyətinin inkişafına böyük təkan vermişdir. Bunun nəticəsidir ki, MQF “QHT-lər (İctimai birliklər və Fondlar) haqqında” , “Hüquqi şəxslərin Dövlət Qeydiyyatı və Reyestri haqqında” bir sıra mühüm qanunların qəbulunda yaxından iştirak etmişdir. Həmçinin ictimai nəzarətin təmin olunması, şəffaflığın artırılması və QHT sektorunun davamlı inkişafı istiqamətində AR Ədliyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kimi bir sıra dövlət qurumları ilə sıx əməkdaşlıq edərək birgə layihələr həyata keçirir.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 dekabr 2011-ci il tarixli sərəncamı ilə Azərbaycan Mili QHT Forumu Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının üzvü təyin edilmişdir.

MQF-nin əsas məqsədlərindən biri də QHT-lərlə dövlət orqanları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə şərait yaratmaqdır. Digər tərəfdən Milli QHT-lərin işini yönləndirmək və istənilən fövqəladə hallara qarşı onlara yardım etməkdir. Onları beynəlxalq və milli forumlarda təmsil etmək də MQF-başlıca məqsədlərindən biridir.

Vətəndaş cəmiyyəti institutlarının yaradılması da, inkişafı da Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Onun bu siyasi xəttini cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Bu sahədə 27 iyul 2007-ci il tarixli “Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında” sərəncam bu uğurlu addımın parlaq nümunəsidir.

## ƏDƏBİYYAT

1. Azərbaycanın Milli-Qeyri Hökümət Təşkilatlarının Forumu. Bakı, 2 mart 2005-ci il.

2. Qeyri-hökümət təşkilatlarının cəmiyyətdə rolu-Bakı, İnam, 1998-ci il.
3. Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar.-Bakı, 2006-cı il.
4. https://e-qanun.az/framework/39479
5. http://www.millikitabxana.az/dissertations/daxili-siyaset

## VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASINDA QEYRİ-HÖKÜMƏT TƏŞKİLATLARININ ROLU

***Həsənzadə Hicran***

### XÜLASƏ

Məlum olduğu kimi, Azərbaycan Respublikasında ictimai-siyasi həyatın demokratik göstəricilərindən biri olan vətəndaş cəmiyyəti institutlarının təkmilləşdirilməsi istiqamətində bir çox işlər görülməkdədir. Bu institutlardan biri olan qeyri-hökümət təşkilatlarıda həmin mərhələdən keçir. Ölkəmizdə iqtisadi və sosial aspektlər sürətlə inkişaf etməklə vətəndaş cəmiyyətinin fəaliyyətinə kömək edir və qeyri-hökümət təşkilatlarınında uğurlu gələcəyinə zəmin yaradır.

## РОЛЬ НЕПРАВИТЕЛЬСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В ФОРМИРОВАНИИ ГРАЖДАНСКОГО ОБЩЕСТВА

***Гасанзаде Хиджран***

### АННОТАЦИЯ

Как известно, в Азербайджанской Республике проводится большая работа в направлении совершенствования институтов гражданского общества, являющихся одним из демократических показателей общественно-политической жизни. Один из этих институтов, неправительственные организации, проходит этот этап. Экономические и социальные аспекты в нашей стране быстро развиваются, помогая гражданскому обществу и создавая основу для успешного будущего неправительственных организаций.

## THE ROLE OF NON-GOVERNMENTAL ORGANIZATIONS IN THE FORMATION OF CIVIL SOCIETY

***Hijran Hasanzade***

### SUMMARY

As it is known, a lot of work is being done in the direction of improving civil society institutions, which are one of the democratic indicators of social and political life in the Republic of Azerbaijan. One of these institutions, non-governmental organizations, is going through that stage. Economic and social aspects in our country are developing rapidly, helping the civil society and creating a foundation for the successful future of non-governmental organizations.

# SİYASİ SABİTLİYİN TƏMİN OLUNMASINDA İSLAHATLARIN YERİ VƏ ROLU

***Əfəndiyeva Nərgiz Kamran qızı***
***BDU-nun II kurs magistrantı***
***nrgzmmdvvv@gmail.com***

***Açar sözlər:*** islahatlar, siyasi sabitlik, siyasi sistem
***Ключевые слова:*** реформы, политическая стабильность, политическая система
***Keywords:*** reforms, political stability, political system

İslahatlar mövcud sosial-siyasi sistemi qoruyub saxlamaqla ictimai həyatın ən mühüm sahələrində hakimiyyət orqanlarının təşəbbüsü ilə həyata keçirilən dəyişiklikdir. Dövlətin vaxtında və planlı şəkildə apardığı islahatlar toplanmış mürəkkəb problemləri həll edir və ölkədə inqilabi vəziyyətin yaranmasının qarşısını alır.İslahatlar növünə və miqyasına, əhatə etdiyi sahəyə görə təsnifatlandırılır.

İslahatların cəmiyyət həyatına göstərdiyi təsirə görə iki növü var:

***Mütərəqqi (proqressiv)***- əhatə etdiyi sosial sahə və sistemin bir bütün olaraq fəaliyyətini təkmilləşdirmək və sistemin subyektlərinin rifah səviyyəsini artırmaq məqsədilə həyata keçirilən islahatlardır.

***Reqressiv***- sosial sistemin strukturlarının işinin effektivliyini aşağı salır və insanların yaşayış standartları aşağı düşür (1).

Miqyasına görə islahatların 3 fərqləndirilir:

- İnklüziv islahatlar- ictimai həyatın bütün sferalarını əhatə edir.
- İrimiqyaslı ishalatlar- geniş spektrli problemləri əhatə edir
- Məqsədyönlü islahatlar- sosial həyatın konkret sahələrini əhatə edir.

Xarakterinə görə isə islahatların 3 növü var:

- Radikal (Sistem) islahatlar-dəyişikliklər demək olar ki, cəmiyyətin bütün sahələrini əhatə edir. Bu islahatlar dövlətin təməllərində (sosial və iqtisadi) mərhələli bir dəyişikliyə nail olmağı hədəfləyir. Məsələn, 1985-1991-ci illərdə SSRİ-də həyata keçirilən “Perestroyka” (SSRİ-də 1980-ci illərdən etibarən reallaşdırılan iqtisadi və siyasi sistemi yenidən konfiqurasiya və islahat hərəkatı ilk olaraq 1979-cu ildə Leonid Brejnev tərəfindən təqdim olunmuş, dövrün dövlət başçısı Mixail Qorbaçov tərəfindən dəstəklənmiş və təşviq edilmişdir).
- Mülayim( struktur) islahatlar- siyasi və iqtisadi bazisə toxunmadan müxtəlif sahələrdə aparılan islahatlar.Məsələn, 1921-1928, Rusiyada YİS-in tətbiqi (Yeni İqtisadi Siyasət) (2). Yeni iqtisadi siyasət milli iqtisadiyyatın bərpası ilə, xüsusi sahibkarlığın tətbiqinə və bazar münasibətlərinin canlandırılmasına yönəlmişdi. YİS-in əsas məzmunu kənddəki əlavə profisitin vergi ilə əvəz olunması bazarın istifadəsi və müxtəlif mülkiyyət formaları, güzəştlər şəklində xarici kapitalın cəlb edilməsi idi.
- Minimalist islahatlar- bu islahatların siyasətin və iqtisadiyyatın sadəcə bəzi aspektlərini əhatə edir. Yalnız tənzimləmə xarakteri daşıyır və siyasətdə, iqtisadiyyatda, idarəetmə sistemində mövcud olan mexanimlərdə cüzi dəyişiklikləri əhatə edir.Bura pul islahatını aid edə bilərik.

Əhatə etdiyi sahəyə görə islahatların aşağıdakı növləri var:

- **İqtisadi islahatlar**- Bu sahədə aparılan islahatlar iqtisadi siyasətin və idarəetmə mexanizmlərinin dəyişdirilməsi və ya təkmilləşdirilməsi məqsədilə aparılır. Bu islahatlar əsasən 2 formada həyata keçirilir:

*“təbii”* –mövcud strukturların əsasında keyfiyyətcə yeni texnoloji idarəetmə sistemlərinin yaradılmasıdır. Məsələn, Rusiyada Sergey Vitte və Stolipinin maliyyə islahatı (Rusiya

*“qeyri-təbii*”- iqtisadiyyatın mövcud texnoloji strukturunu qismən və ya tamamilə yox etmək və köhnənin qalıntıları əsasında yeni bir iqtisadi idarəetmə texnolgiyası yaratmaq. Bu tipin bariz nümunəsi İ.Stalinin SSRİ-də iqtisadi islahatları, “böyük sıçrayış” (Çin)

- **Sosial islahatlar**- Bu islahatlar birbaşa insanlarla bağlı olan və onların rifah səviyyələrini, yaşayış standartlarını əhatə edən dəyişikliklərdir. Sosial islahatlar sosial sistemin əsaslarını dəyişdirməyi hədəfləmir, sosial islahatların formatı olduqca genişdir.

*Məhkəmə islahatı*- ədalətin əsas prinsiplərini təmin edən məhkəmələrdə və məhkəmə prosesində aparılan keyfiyyət dəyişiklikləridir. Bu islahatın ən uğurlu nümunəsi II Aleksandrın 1864-cü ildə apardığı məhkəmə islahatıdır. Bunun təsiri ilə 1866-cı ildə Azərbaycanda da məhkəmə islahatı keçirildi.

*Təhsil islahatı*- Bu islahatlar təhsil sisteminin modernləşməsinə və tədris prosesinin təkmilləşdirilməsinə yönəlmiş dövlət tədbirlərinin məcmusudur. Ən məşhur təhsil islahatı “sovet təhsil islahatı” olmuşdur.

*Pensiya islahatı*- Vətəndaşların pensiya təminatı şərtlərini dəyişdirən və təkmilləşdirən iqtisadi, hüquqi və təşkilati tədbirlərin məcmusudur. Azərbaycan Respublikasının Azərbaycan Respublikasında 2014-cü ildə pensiya təminatı ilə bağlı islahatları nəzərdə tutan konsepsiya qəbul edilmişdir. “2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası” əhatə etdiyi dövrdə pensiya təminatı sahəsində dövlət siyasətinin əsaslarını müəyyənləşdirir (3).

- **Siyasi islahatlar**- dövlətdə mövcud siyasi sistem çərçivəsində və mövcud mexanizmlər vasitəsilə idarəçilik, o cümlədən sosial-siyasi münasibətlərdə köklü (və ya qismən) dəyişiklik və inkişaf prosesidir. Başqa sözlə desək, siyasi sistemin həm daxildə həm də xaricdə effektivliyini və səmərəliliyini artırmaq üçün aparılan dəyişikliklərdir. Siyasi islahat inqilaba qarşı tarazlaşdırıcı bir mexanizmdir. Siyasi islahatlar siyasi sistemin sabitliyinə ən çox təsir göstərən elementdir. Siyasi islahatların aşağıdakı formaları mövcuddur:

*Radikal dəyişikliklər*- bura fundamental islahatlar aid edilir. Bu təkcə hökumət strukturunun deyil, bütün siyasətin transformasiyasıdır. Belə dəyişikliklər təkcə siyasi həyatla məhdudlaşmır, həm də cəmiyyətin bütün sosial quruluşunu, mənəvi təməlini və dəyərlərini dəyişdirir. Müasir dövrün 4 böyük inqilabı- XVII əsrdə İngiltərə inqilabı, Amerika inqilabı, Böyük Fransa inqilabı və Rus inqilabı bunun bariz nümunəsidir.Bu inqilabların nəticələri təkcə aid olduqları cəmiyyətlərdə deyil, həm də onların nümunəsi nəticəsində eyni dərəcədə fundamental xarakterli inqilabların baş verdiyi bir çox başqa siyasi sistemlərdə də hiss olunurdu. Bu inqilabların hər biri dünya inqilabı idi, çünki bütün siyasi sistemlərdəki insanların siyasətin təbiətinə və siyasətin məqsədinə dair baxışlarında əsaslı dəyişikliklərə səbəb oldu. Məsələn, İkinci dünya müharibəsindən sonra müstəmləkə imperatorluqlarındakı azadlıq hərəkatları 18-ci əsr amerikan və fransız inqilabçılarının şüarları olan fərdi azadlıq və nümayəndəli hökumət prinsipləri idi ilə yüksəldi (4).

- ***Struktur islahatlar***- siyasi sistemin strukturundakı dəyişiklikləri nəzərdə tutur. Bu dəyişikliklər rejimin təbiətinin fundamental tranformasiyasını nəzərdə tutmasa da, siyasi proseslərdə ciddi dəyişikliklərə səbəb ola bilir. Bir çox siyasi sistemlərdə struktur islahatlar konstitusion-hüquqi yollarla aparılır. Məsələn, Amerika Birləşmiş Ştatlarında Senatın birbaşa seçilməsi və prezidentin səlahiyyətlərinin məhdudlaşdıırlması kimi böyük struktur islahatlar konstitusiya dəyişikliyi ilə həyata keçirilmişdir . İngiltərədə Parlamentin müxtəlif islahatları qanunla həyata keçirilmişdir. Lakin demokratik olmayan sistemlərdə, struktur dəyişikliklər, əsasən, inqilab və zorakılıq yolu ilə təmin olunur.

Konstitusion dəyişikliklər- Konstitusiyanın müddəalarına hərtərəfli yenidən baxılmasından (yeni maddələrin daxil edilməsindən, mövcud olanların ləğvi və ya dəyişdirilməsi və hüquqi siyasi institutların yenidən qurulması) ibarətdir.

- Qabaqcıl innovasiyalar əsasında hazırlanmış modelin siyasi sistemdə tətbiqi – I Pyotrun islahatları. Pyotr hakimiyyətə gələn kimi Rusiyanı müasirləşdirməyə yönəlmiş islahatları tədbiq etməyə başladı. Avropalı məsləhətçilərinin təsiriylə Pyotr rus ordusunu yenidən tənzimlədi və donanma qurulmasında yolunda mühüm addımlar atdı.

Biz islahatların siyasi sabitiyə təsirindən danışarkən, təbii ki, siyasi sistem və onun sabitliyi məsələsinə də toxunmalıyıq. Siyasi sistem cəmiyyətin siyasi həyatının tarixi təkamülünün qanunauyğun prosesi kimi meydana gəlmiş və inkişaf etmişdir. Siyasi sistem dövlət idarəçilik təşkilatlarının, siyasi və ictimai institutlarının, siyasi rolların, münasibətlərin, proseslərin, cəmiyyətin siyasi idarəçiliyinin prinsiplərinin qaydaya salınmış və bütöv məcmusu kimi xarakterizə olunur. Siyasi sistem xalqın suverenitetinin, tam hakimiyyətinin reallaşdırıldığı zəruri mexanizmdir. İstənilən cəmiyyətin siyasi sistemi, onun sabitliyini, həyat qabiliyyətini və cəmiyyət həyatının şəffaflığını təmin edə biləcək müəyyən mexanizmlərin mövcudluğu ilə səciyyələnir. Bu mexanizmlərin köməyi ilə sosial ziddiyyətlər və münaqişələr təhlil və həll olunur, müxtəlif ictimai hərəkat, siyasi qurum və təsisatların səyləri bir araya gətirilir, ictimai inkişafın əsas məqsədi, istiqaməti və dəyərlərinə münasibətdə ümumi konsensusa nail olunur.

Sosial-siyasi sistemin varlığını şərtləndirən əsas amillərdən biri siyasi sistemin sabitliyi və onun qorunmasıdır. **Siyasi sabitlik** siyasi sistemin daxili və xarici mühitin təsiri altında öz strukturunu, sosial dəyişiklik proseslərinə nəzarət etmək qabiliyyətini saxlamaqla səmərəli fəaliyyətə və inkişafa imkan verən davamlı durumdur.

Siyasi elmdə siyasi sabitlik anlayışı barədə müxtəlif fikirlər olsa da, əksər alimlər siyasi sabitliyi siyasi zorakılığın azalması və ya olmaması, legitimliyin artması və sistemin imkanlarının effektivliyinin və səmərəliliyinin artması kimi xarakterizə edirlər. Siyasi sabitlik siyasi məqsədlər üçün zorakılıqdan istifadə edilməməsi, siyasi qüvvələrin və qrupların münaqişələrin həllində hüquqi-konstitusion üsullara müraciət etməsi və siyasi sistemin institutlarının daxili və xarici tələblərə cavab vermə qabiliyyəti kimi xarakterizə oluna bilər.

Siyasi sabitlik haqqında danışarkən, sabit siyasi sistem anlayışına da toxunmaq lazımdır. Sabit siyasi sistem dedikdə, ən sadə dildə daxili müharibə (vətəndaş müharibəsi) olmadan böhranlardan "sağ" çıxan sistem nəzərdə tutulur. Tarixdə bir sıra despotik monarxiyalar, hərbi rejimlər və digər avtoritar-totalitar sistemlər bunu bacara bilmişdir. 1868-ci ildən sonra imperator Meycinin (Mutsixito) restavrasiya prosesi buna bariz nümunədir.Meycinin islahatları böyük siyasi böhranlar olmadan sənaye dövləti qurmağa və ənənəvi yapon cəmiyyətini dəyişdirən kommersiya strukturlarını inkişaf etdirməyə səbəb oldu. Bu nailiyyət siyasi nəzarətin mərkəzləşdirilmiş modelinin inkişafına və hərbi elitanın avtoritetinin artmasına əsaslanırdı. Meycinin islahatları nəticəsində Yaponiyanın sürətlə sənayeləşməsi və modernləşməsi müşahidə olunurdu. Yaponiyada gəmiqayırma zavodları, dəmirtökmə zavodları, iplik fabrikləri kimi sənaye sahələri yaradıldı və xarici investorlara satılıdı.Bununla yanaşı, sənaye bölgələri yüksək səviyyədə inkişaf etdi və kənd yerlərindən sənayeləşmiş mərkəzlərə intensiv miqrasiya başlandı.

Meyci restavrasiyası Yaponiyada sənayeləşməni sürətləndirmiş və 1905-ci ildən etibarən "ölkəni zənginləşdir, ordunu gücləndir" şüarı ilə Yaponiyanın həm də hərbi güc olaraq yüksəlməsini təmin etmişdir. Bütün ölkədə tətbiq olunan məcburi hərbi xidmət və "samuray ordusu ruhu"nun təsiri ilə Yaponiya həm çin-yapon, həm də rus-yapon müüharibəsində qələbə qazandıqdan sonra dünyada böyüyən güc mərkəzlərindən birinə çevrilmişdir. İslahatlar "sağ qalmaq" istəyən siyasi sistemlər üçün sabitlik baxımından çox böyük əhəmiyyət kəsb edir. İslahatlar sistemdə tıxanmaların qarşısını alır, toplanmış problemlərin, ziddiyətlərin daha da kəskinləşməsinə imkan vermir. Təcrübə göstərir ki, cəmiyyət həyatının istənilən sahəsində inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığının təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 18 ildə respublikamızın nail olduğu və daim yüksələn

xətlə artan inkişaf göstəriciləri aparılmış islahatların labüdlüyünün və uğurlu nəticəsinin ən gözəl nümunələri kimi beynəlxalq səviyyədə təqdir olunur. Belə ki, siyasi, sosial-iqtisadi, mədəni-humanitar nailiyyətlərimizin hər biri məhz ardıcıl və sistemli islahatların nəticəsində mümkün olmuşdur.

Ulu Öndərin başladığı quruculuq, inkişaf, beynəlxalq birliyə açılma, ümummilli hədəflər naminə cəmiyyətin bütün sosial və siyasi kəsimlərini əhatə edən həmrəylik kursu onun siyasi varisi, 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sadəcə zahiri modernləşmə, infrastruktur yenilənməsi baş verməyib, eyni zamanda, dövlət aparatının müasir standartlara uyğunlaşdırılması, optimallaşdırılması, sistem xarakterli fundamental islahatlar aparılması istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyev 2018-ci il aprelin 18-də andiçmə mərasimində islahatların yeni dalğasını anons etmiş, ölkənin ictimai-siyasi-mədəni həyatının hər bir sahəsini əhatə edən çoxşaxəli islahatların yeni mərhələsi başlanmışdır. Dövlət başçısı islahatlar modelini yığcam olaraq belə ifadə etmişdir: "Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik" (5).

Son illərin reallıqları göstərir ki, İlham Əliyevin son prezident seçkilərindən sonra bəyan etdiyi proqram icra olunur, islahatlar uğurlu nəticələr verir. Azərbaycan dövləti ardıcıllıqla və sürətlə öz hədəflərinə çatır. Ümumilikdə isə islahatlar həm makroiqtisadi vəziyyətə, həm vətəndaşların rifahının gücləndirilməsinə, həm də idarəçiliyin təkmilləşdirilməsinə, şəffaflaşdırılmasına xidmət edir. Bütün bunlar vətəndaş məmnuniyyətini və sosial həmrəyliyi və ən əsası siyasi sabitliyi təmin edən əsas amillərdir.

## ƏDƏBİYYAT


1. “The impact of political reform on the stability of the state of Kuwait since 2010”. Enaam Abdullah Mohamed
2. https://www.emerald.com/insight/content/doi/10.1108/JHASS-06-2019-0001/full/html The impact of political reform on the stability of the state of Kuwait since 2010
3. https://www.britannica.com/topic/political-system/Stable-political-systems. Radical revolution
4. https://www.britannica.com/topic/political-system/Development-and-change-in-political-systems
5. https://histerl.ru/slovar/reforma-i-kontrreforma.htm#i-3 Реформа и контрреформа преобразования и регресс
6. https://azertag.az/xeber/Azerbaycan_dovletchiliyinin_islahatlar_ve_zefer_merhelesi-1654347


## SİYASİ SABİTLİYİN TƏMİN OLUNMASINDA İSLAHATLARIN YERİ VƏ ROLU

***Əfəndiyeva Nərgiz***

## XÜLASƏ

İslahatlar sistemdə tıxanmaların qarşısını alır, toplanmış problemlərin, ziddiyyətlərin daha da kəskinləşməsinə imkan vermir. Təcrübə göstərir ki, cəmiyyət həyatının istənilən sahəsində

inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığının təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir.

## МЕСТО И РОЛЬ РЕФОРМ В ОБЕСПЕЧЕНИИ ПОЛИТИЧЕСКОЙ СТАБИЛЬНОСТИ

***Эфендиева Наргиз***

### АННОТАЦИЯ

Реформы предотвращают торможение в системе, не дают обостряться накопившимся проблемам и конфликтам. Опыт показывает, что обеспечение развития, динамизма деятельности и гармонии в любой сфере общественной жизни требует применения новых подходов, а точнее, проведения реформ, улавливающих пульс времени.

## THE PLACE AND ROLE OF REFORMS IN ENSURING POLITICAL STABILITY

***Afandiyeva Nargiz***

### SUMMARY

Reforms prevent braking in the system, do not allow accumulated problems and conflicts to escalate. Experience shows that ensuring development, dynamism and harmony in any sphere of public life requires the use of new approaches, or rather, reforms that capture the pulse of the times.

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN MÜASİR PROBLEMLƏRİ

***Ağayeva Şəbnəm Əhməd qızı***
***ADNSU-nun II kurs magistrantı***
**Sbnmagayeva53@gmail.com**

***Açar sözlər:*** informasiya texnologiyaları, İnformasiya təhlükəsizliyi, əməliyyat sisteminə hücumlar, verilənlər bazasına hücumlar, şəbəkə hücumları, aparat və proqram təminatı
***Ключевые слова:*** Информационные технологии, информационная безопасность, атаки на операционные системы, атаки на базы данных, сетевые атаки, аппаратное и программное обеспечение
***Keywords:*** Information technology, Information security, operating system attacks, database attacks, network attacks, hardware and software.

Hazırda müasir informasiya texnologiyalarının (İT) inkişafı və istifadəsində aşağıdakı tendensiyalar müşahidə olunur:

- kompüter sisteminin proqram təminatının mürəkkəbləşməsi;
- elektron daşıyıcılarda böyük informasiya bazalarının toplanması və saxlanması;
- müxtəlif kateqoriyalı və sistemdə müxtəlif giriş hüquqları olan çoxlu sayda istifadəçinin kompüter sisteminin resurslarına birbaşa çıxış;
- müxtəlif giriş üsullarının ümumi məlumat massivində birləşdirilməsi;
- kompüter sistemi resurslarının qiymətinin artması;
- əksər dövlət və özəl təşkilatlar tərəfindən xüsusi antivirus proqramlarının təhlükəsizlik alətləri kimi istifadəsi;
- internetdən geniş istifadə edilməsi və s.

Таким образом, «гибридная война» - многомерное явление, интегрирующее сразу несколько увязанных в единый замысел направлений - военное, информационное, экономическое, политическое, социокультурное [2, С.18].

В «цветных революциях» фактор военной силы задействуется как сервисная функция, к которой организаторы прибегают лишь при необходимости. Военная сила для «цветных революций» не является основным инструментом, ее использование носит скорее вынужденный и побочный характер. Однако в ряде случаев современные «цветные революции» создают условия и поводы для последующей военной интервенции.

Почва для успешной реализации деструктивных политических технологий «цветных революций» готовится заблаговременно. Для этого внешней силой проводится активная работа по множеству направлений с целью всестороннего ослабления государства и дестабилизации общественно-политической обстановки – это и экономические санкции, политико-дипломатическое, культурно-информационное, психологическое и военное давление.

Аналитический исследовательский центр RAND Corporation, имеющий давнюю связь с американским разведсообществом, подготовил доклад «Сила принуждать» о перспективных «невоенных» стратегиях воздействия на противников и конкурентов США с пометкой - «Подготовлено для армии США» [6]. Следует указание на конкретный спектр возможных действий: «Для принуждения могут использоваться следующие инструменты управления государствами: экономические санкции, карательные политические меры, кибероперации, скрытые разведывательные операции, военная помощь, пропаганда, ограничение или манипулирование торговлей, запрет перемещения товаров и движения людей, поддержка политической оппозиции».

На протяжении истории человечества многие государства пытались вывести формулу политического господства для удовлетворения своих национальных интересов, при которой победа в любой войне давалась бы бескровно или же с минимальными потерями. Сегодня фактические диверсионно-подрывные мероприятия (тайные операции), рассчитанные на свержение конституционного строя и легитимных политических режимов осуществляются без официального объявления войны и без разрыва дипломатических отношений. Зачастую отношения между «враждующими» сторонами на

официальном уровне декларируются как «нормальные» или даже «дружественные», однако при активной фазе реализации технологий по демонтажу политического режима в информационном пространстве «дружественная» риторика быстро сменяется на «воинствующую» и «осуждающую» [1].

Скрытое противоборство между основными глобальными игроками ведется постоянно и не ограничено определенным театром военных действий. Один из основоположников концепции «гибридной войны», «мятеж-войны», как он ее называл, военный теоретик Е.Э.Месснер предлагал отказаться от устоявшихся понятий о классической войне. В частности он говорил: «Надо перестать думать, что война — это когда воюют, а мир — когда не воюют» [3].

В условиях малой вероятности возникновения крупномасштабного военного столкновения могущественных держав, наиболее приемлемым инструментом невоенного разрешения геополитических и геоэкономических противоречий остаются «гибридные» технологии. С их помощью достигаются не только принципиальные цели, например, капитуляция противника в результате его поражения или свержения деструктивными силами оппозиции, но и иные тактические задачи регионального масштаба.

Таким образом, противодействие угрозам, исходящим от «гибридной войны», может быть достигнуто лишь за счет выстроенной системы эшелонированной обороны, где будут учитываться все направления - начиная от информационных атак и экономических санкций, заканчивая попытками деструктивных политических сил при помощи протестных масс осуществить государственный переворот. Кроме того, для выстраивания эффективной системы противодействия необходимо, прежде всего, понимать сами угрозы.

## ЛИТЕРАТУРА

1. Данюк Н.С. «Цветные революции» как инструмент «гибридных войн». [Электронный ресурс]. – Режим доступа: URL: https://antimaidan.ru/article/9961
2. Филимонов Г.Ю., Данюк Н.С. «Гибридная война»: интерпретация и реальность // Свободная мысль. – №3 (1663). – 2017. – С.17-24.
3. Хочешь мира, победи мятежевойну! Творческое наследие Е.Э.Месснера / Под ред. В.И. Марченкова. Москва: Военный университет, Русский Путь, 2005. – 696 с.
4. Arquilla, John and David Ronfeldt, Swarming and the Future of Conflict. / RAND Corporation, 2000. – 98 p.
5. Cebrowski, Arthur K. and John J. Garstka. Network-Centric Warfare: Its Origins and Future,Proceedings of the Naval Institute, 1998. – P.28–35.
6. Gompert David C., Binnendijk Hans. The Power to Coerce Countering Adversaries Without Going to War / RAND Corporation, 2016. – 42 p.

# «ЦВЕТНЫЕ РЕВОЛЮЦИИ» И «ГИБРИДНЫЕ ВОЙНЫ» КАК ИНСТРУМЕНТЫ МЕЖДУНАРОДНОЙ ПОЛИТИКИ

***Севиндж Алиева***

## АННОТАЦИЯ

В статье рассматривается феномен «цветных революций» и «гибридных войн», которые выступают инструментами международной политики и все чаще задействуются при реализации военно-политических стратегий, направленных на дестабилизацию

общественно-политической обстановки в странах-мишенях с целью демонтажа неугодного политического режима. Выявляются характерные черты и технологические аспекты «цветных революций» и «гибридных войн» на современном этапе развития международных отношений.

## “RƏNGLI İNQILABLAR” VƏ “HİBRİD MÜHARİBƏLƏR” BEYNƏLXALQ SİYASƏTİN ALƏTLƏRİ KİMİ

***Əliyeva Sevinc***

### XÜLASƏ

Məqalədə beynəlxalq siyasətin aləti kimi çıxış edən və hədəf ölkələrdə ictimai-siyasi sabitliyin pozulmasına yönəlmiş hərbi-siyasi strategiyaların həyata keçirilməsində getdikcə daha çox iştirak edən “rəngli inqilablar” və “hibrid müharibələr” fenomenindən bəhs edilir. Beynəlxalq münasibətlərin müasir inkişafı mərhələsində “rəngli inqilablar” və “hibrid müharibələr”in xarakterik xüsusiyyətləri və texnoloji aspektləri üzə çıxarılır.

## "COLOR REVOLUTIONS" AND "HYBRID WARS" AS INSTRUMENTS OF INTERNATIONAL POLICY

***Aliyeva Sevinj***

### SUMMARY

The article gives an insight into the phenomena of "color revolutions" and "hybrid wars" which are used as a foreign policy tool and have been increasingly applied as part of military and political strategies to destabilize social and political situations in target states with a view to dismantling "inconvenient" political regimes. The author explores aspects and technological peculiarities of "color revolutions" and "hybrid wars" which are characteristic of modern international relations.

# AZƏRBAYCANIN BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİ VƏ ONLARIN REALLAŞDIRILMASI

***Məmmədova Təranə Şəmistan qızı***
***BDU-nun II kurs magistrantı***
***taranamammadova0518@gmail.com***

***Açar sözlər:*** beynəlxalq əməkdaşlıq, xarici iqtisadi əlaqələr, milli iqtisadiyyat, iqtisadi inteqarsiya, xarici ticarət
***Ключевые слова*:** международное сотрудничество, внешнеэкономические связи, национальная экономика, экономическая интеграция, внешняя торговля**.**
***Keywords:*** international cooperation, foreign economic relations, national economy, economic integration, foreign trade

Beynəlxalq iqtisadi əlaqələrin inkişaf etdirilməsi və bu əsasda ölkə iqtisadiyyatının dünya təsərrüfatı sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması son dövrlərdə özünün dövlət müstəqilliyini bərpa etmiş ölkələrin, o cümlədən də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri hesab olunur. Azərbaycanın əldə etdiyi siyasi müstəqilliyi möhkəmlətmək üçün xarici ölkələrlə iqtisadi əməkdaşlığı çox vacibdir. Azərbaycan dünya təsərrüfatının tərkib hissəsinə çevrilməklə, iri dövlətlərin maraq dairəsinə daxil olmuşdur. Həmin ölkələr isə öz maraqlarını təmin etmək üçün Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanılmasında da maraqlıdırlar [1, s.16-17].

Makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici ölkələrlə ikitərəfli əlaqələrin inkişafı müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə xidmət edəcək, ölkəmizin dünyada nüfuzunu daha da artıracaqdır.

Azərbaycanın müstəqilliyindən sonra ilk olaraq diqqət göstərdiyi məsələlərdən biri beynəlxalq iqtisadi əlaqələr və beynəlxalq təşkilatlarla əməkdaşlıq olmuşdur. Çünki bu təşkilatlar Azərbaycanın sərbəst bazar iqtisadiyyatı sisteminə keçidini sürətləndirməyə köməklik etməkdə və keçid dövrü və müharibə şəraitinin ortaya çıxardığı problemlərin aradan qaldırılmasında əhəmiyyətli rol oynamaqdadırlar. Son 15 ildə Azərbaycanın iqtisadi potensialının güclənməsi, reallaşdırılan diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması təbii ki, ölkəmizin xarici iqtisadi əlaqələrində də müsbət meyillərə təkan verib. Belə ki, xarici iqtisadi əlaqələrin coğrafiyası genişlənib, ticarətin əmtəə strukturu təkmilləşib. Bunun nəticəsidir ki, sözügedən dövrdə Azərbaycan iqtisadiyyatına 230 milyard ABŞ dollarından artıq investisiya qoyulub, xarici investisiyanın həcmi isə 107,2 milyard ABŞ dolları təşkil edib.

Azərbaycan hazırda dünyanın 122 ölkəsi ilə qarşılıqlı iqtisadi-ticarət əlaqələrinə malikdir. Ölkənin iqtisadi potensialı, xammal və mineral ehtiyatlarla zənginliyi, təbii şəraiti və əlverişli iqtisadi-coğrafi mövqeyi əməkdaşlıq imkanlarını artırır. Göstərilən faktlar son illər xarici iqtisadi fəaliyyət sahəsində baş verən struktur və keyfiyyət dəyişikliklərinə əyani sübutdur və eyni zamanda, Azərbaycan dövlətinin beynəlxalq iqtisadi inteqrasiya əlaqələrinə qoşulmasının nümunəsidir. Xarici ölkələrlə iqtisadi əməkdaşlıq Azərbaycanın milli iqtisadiyyatının çoxşaxəli inkişafının təmin etmək üçün böyük üstünlüklər verir. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının formalaşması şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr və bu əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının xarici iqtisadi münasibətlərinin əsas xüsusiyyəti beynəlxalq, regional və yerli xarakterli iqtisadi təşkilatlara

daxil olmaq və bununla da ictimai həyatın bütün sahələrində bu təşkilatlara inteqrasiya olunmaqdır.

Hazırki dövrdə beynəlxalq və regional təşkilatlarla aparılan ardıcıl iş Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsinə müsbət təsir göstərib. Nəticədə ötən müddət ərzində Azərbaycanın BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da möhkəmlənib.

Beynəlxalq iqtisadi əlaqələrin inkişafına təkan verən amillərdən biri də xarici iqtisadi siyasətdir. Xarici iqtisadi siyasət ölkənin dünya bazarlarında müəyyən üstünlüklər qazanması və eyni zamanda daxili bazarın xarici rəqabətindən qorunmasına yönəlmiş tədbirlər sistemidir. Buradan belə nəticə çıxarmaq olar ki, xarici iqtisadi siyasət iqtisadi siyasətinin səmərəliliyini müəyyən edən əsas amillərdən biridir [2, s.193].

Ölkənin xarici siyasət sahəsində, dünya dövlətləri arasında qazanacağı uğurlar, beynəlxalq münasibətlər sistemində tutacağı yer haqqında eyforik deyil, real, praqmatik düşüncə olmalı, dövlətin mövcud xarici siyasət resursları, dünya dövlətləri üçün kəsb etdiyi iqtisadi, siyasi və mədəni əhəmiyyəti düzgün dərk edilməli, beynəlxalq münasibətlərin axarı, tendensiyaları, ölkələrin real maraqları nəzərə alınmalıdır [3, s.89].

Respublikamızın xarici iqtisadi əlaqələrinin mühüm tərkib hissəsi olan ticarət fəaliyyətini tənzimləyən qanunvericilik də təkmilləşdirilib, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanan yeni Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında", "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktlar qəbul edilib.

Qeyd etdiyimiz kimi, xarici ticarətə müdaxilə etmək üçün istifadə edilən ən mühüm vasitələrdən biri gömrük tarifləridir. 10 iyun 1997-ci ildə Azərbaycan Respublikasında «Gömrük Məcəlləsi» qəbul edildikdən sonra 20 iyun 1995-ci ildə qəbul edilmiş "Gömrük tarifi" haqqında Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bu qanun, əsasən, daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən etmişdir. Həyata keçirilən tədbirlərin nəticəsində bu ilin yanvar-may aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 160 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 95 ölkəyə məhsul ixrac edilib, 150 ölkədən idxal olunub.

İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın iyul sayında göstərilir ki, bu ilin yanvar-iyun ayları ərzində qeyri-neft sektoru üzrə ixrac 846,5 milyon ABŞ dolları təşkil edib. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında qeyri-neft sektoru üzrə ixrac 110,5 milyon ABŞ dolları və ya 15 faiz artıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin ilk 6 ayı ərzində Rusiyaya 319,9 milyon, Türkiyəyə 180,1 milyon, Gürcüstana 74,1 milyon, İsveçrəyə 69,3 milyon və Çinə 23,9 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

İxracla bağlı bir məqama da diqqət yetirmək istərdik. Bu da "Azərkosmos" ASC tərəfindən dünyanın 19 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilməsi ilə bağlıdır. Belə ki, cari ilin ilk 6 ayında adıçəkilən ASC peyk və telekommunikasiya xidmətlərinin ixracından 12,7 milyon ABŞ dolları məbləğində gəlir əldə edib. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizini təşkil edib. Bu ilin iyun ayında isə ASC-nin xidmət ixracının dəyəri 1,6 milyon ABŞ dolları olub. "Azərkosmos"un 2020-ci ilin ilk 6 ayı ərzində xidmət ixracının həyata keçirdiyi əsas ölkələr sırasında Fransa, Malayziya, BƏƏ, Almaniya, Gürcüstan xüsusi yer tutub.

Hazırda respublikamızda mövcud siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün ən cəlbedici ölkələrdən birinə çevirib. Bugünədək Azərbaycan Respublikası hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 48 saziş imzalanıb. Həmin sazişlərin imzalanması xarici investorlara bir çox hüquqlar verir. Bu hüquqların düzgün tənzimlənməsi investisiya mühitini daha da yaxşılaşdırır. Azərbaycanın model sazişləri BMT Ticarət və İnkişaf Komissiyası ilə birlikdə hazırlanıb və müvafiq təkmilləşdirmələr aparılıb. Bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatına 110 milyard ABŞ dollarından çox investisiya cəlb edilib. Eyni zamanda, ölkəmiz indiyədək böyük həcmli investisiya mübahisələrinə, bundan qaynaqlanan cərimələrlə qarşılanmayıb.

Bu, Azərbaycanın etibarlı tərəfdaş olduğunun göstəricisidir. Həmçinin bu, Azərbaycanda yaradılmış investisiya mühitinin bugünkü tələblərə cavab verməsinin bir sübutudur. Son zamanlar xarici ticarətin tənzimlənməsi istiqamətində dövlətin müvafiq orqanları ikitərəfli və çoxtərəfli sazişlər imzalamış, layihələr həyata keçirmişlər. Belə layihələrin əsasını respublikanın mikro-makro səviyyəsində iqtisadiyyatın inkişaf etdirilməsi və idarə edilməsi, onun sosial-iqtisadi səmərəliliyinin yüksəldilməsi, ETTnin tətbiqinin sürətləndirilməsi, əmək məhsuldarlığının yüksəlməsi və s. təşkil edir. Azərbaycanın iqtisadiyyatında, mədəni inkişafında, əhalinin sosial-mədəni rifahnın yaxşılaşdırılmasında neft-qaz ehtiyatları başlıca amillərdən biri kimi təzahür edir. Azərbaycana investisiya yatıran xarici ölkələr siyahısının ilk beşliyində Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya kimi ölkələr qərarlaşıb. Ölkə iqtisadiyyatının qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkələrin ilk beşliyində isə Türkiyə, Böyük Britaniya, ABŞ, Niderland və BƏƏ-ni qeyd etmək olar.

İndiyədək Azərbaycanda xarici ölkələrin müxtəlif sahələri əhatə edən 8 mindən çox şirkəti qeydiyyatdan keçib. Xarici şirkətlər respublikada dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı və subpodratçı qismində də fəal iştirak edirlər. Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı, eyni zamanda, investisiya ixracatçısına çevirib. Ötən müddət ərzində Türkiyə, Gürcüstan, Rusiya, ABŞ, Yaponiya, Çin, İsveçrə, Serbiya, Monteneqro, Ukrayna və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılıb. Azərbaycan şirkətlərinin potensialı və peşəkarlığı yüksəlib, bir sıra ölkələrdə, o cümlədən Avropada mühüm infrastruktur layihələrinin icrasında özəl şirkətlərimiz fəal fəaliyyət göstərməyə başlayıb. Bununla yanaşı, Yaxın Şərq, ABŞ və Asiya ölkələri ilə də əməkdaşlığımız genişlənir və bu regionlarla iqtisadi əlaqələrin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Azərbaycan hazırda beynəlxalq təşkilatlar, o cümlədən BMT, Avropa İttifaqı (Aİ), İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digərləri ilə sıx əməkdaşlıq edir. Dövlət başçısı tərəfindən müəyyən olunan Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri Avropa İttifaqı ilə səmərəli və davamlı əməkdaşlığın inkişaf etdirilməsidir. Xatırladaq ki, Aİ ölkələri Azərbaycanın əsas xarici ticarət tərəfdaşıdır. Son 10 ildə Azərbaycanda əsas kapitala yönələn xarici investisiyaların yarıdan çoxu, qeyri-neft sektoruna birbaşa xarici investisiyaların isə 35,3 faizi bu təşkilatın üzv dövlətlərinin payına düşüb. Yeri gəlmişkən, Aİ Azərbaycanın əsas xarici ticarət tərəfdaşıdır. 2019-cu ildə Aİ-nin Azərbaycanın xarici ticarətindəki payı 35 faiz, 2020-ci ilin 4 ayında isə 38 faiz təşkil edib. Son 10 ildə Avropa İttifaqı Azərbaycanda əsas kapitala təqribən 20 milyard ABŞ dolları investisiya yatırıb. Azərbaycanda hazırda 1300-dən çox Aİ ölkələrinin şirkəti var. Bu qurumun 23 üzv ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 17 üzv ölkə ilə sərmayələrin təşviqi və qorunması sazişləri, 7 üzv ölkə ilə Strateji Tərəfdaşlıq bəyannamələri imzalanıb, 13 üzv ölkə ilə Hökumətlərarası Komissiya fəaliyyət göstərir. Aİ-nin bir sıra ölkələri ilə Azərbaycan

arasında ticarət palataları mövcuddur. Son 5 ildə Aİ-yə üzv ölkələrlə 123 biznes forum və digər tədbirlər keçirilib.

Göründüyü kimi, Azərbaycanın xarici ticarət əlaqələrinin inkişafı daim diqqətdə olan məsələlərdəndir. Belə ki, yerli məhsulların xaricə, o cümlədən qeyri-ənənəvi bazarlara ixracının genişləndirilməsi məqsədilə zəruri tədbirlər görülür. Dövlət başçısının bu istiqamətdə tapşırıqlarına uyğun olaraq, dövlət dəstəyi ilə potensial ixrac ölkələrində logistik mərkəzlərin yaradılması üzrə tədbirlər reallaşdırılır. Bununla yanaşı, qarşılıqlı investisiya fəaliyyətinin təşviq edilməsi istiqamətində işlər daha da gücləndiriləcəkdir. Bu, ilk növbədə, investorlar üçün mühüm əhəmiyyət kəsb edən investisiyaların qarşılıqlı qorunmasını, təşviqini, eləcə də ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan hüquq-müqavilə bazasının yaradılması işlərini əhatə edəcək.

Azərbaycan dövləti üçün dünyanın ayrı-ayrı ölkələrində, regionlarda və bütövlükdə beynəlxalq aləmdə baş verən hadisələrə təsir etmək anlamında xarici siyasət resursu kimi çıxış edir. Bu resursu qorumaq, imkanlarını artırmaq, həm azərbaycanlıların öz hüquqlarının dolğun təmin olunmasında, həm də Vətənin mənafelərinin qorunmasında onlardan istifadə etmək xarici siyasətdə ən vacib prioritetlərdən biridir. Azərbaycanın xarici prioritetləri sırasına region maraqlarının sistemləşdirilməsi və reallaşması istiqamətində görülən vacib işləri də aid etmək olar. Məsələn, Azərbaycan İran, Türkmənistan və Rusiya ilə kəsişən və toqquşan maraqların ortaq nöqtəsini tapmaq və əlaqələri yaxşılaşdırmaq, Türkiyə, Ukrayna, Gürcüstanla və strateji maraqları ölkəmizlə üst-üstə düşən digər region ölkələri ilə müttəfiqlik əlaqələrini daha da inkişaf etdirmək, Xəzər dənizinin statusu, TRASEKA, Şərq-Qərb enerji-nəqliyyat-kommunikasiya layihələrinin həllində müttəfiqlərlə birlikdə səy göstərmək kimi vəzifələri də həll etməlidir.

Azərbaycanın dünya iqtisadiyyatına daha müvəffəqiyyətli və sabit inteqrasiyası və dünyada bir brend kimi tanınması üçün onun xarici ticarət dövriyyəsinin həcminin artması ilə yanaşı, həm də rəqabətədavamlı məhsulların istehsalının genişlənməsi ilə xarici ticarət dövriyyəsinin strukturunun diversifikasiya olunması diqqəti çəkən məqamlardandır. Xarici ticarətin diversifikasiya olunmasıölkənin bir iqtisadi inkişaf mərhələsindən digərinə keçməsi, yəni xammal ixrac edən ölkədən sənayeləşmiş ölkəyə çevrilməsi üçün də vacibdir. Bu baxımdan, artıq qeyri-neft sektorunun inkişafı və tədricən iqtisadiyyatın bütün sferalarında neft sektorunu əvəz etməsi prosesinin başlanması mütərəqqi haldır. Qeyri-neft sektorunun tərkibində, xüsusilə kənd təsərrüfatının payının artırılması vacibdir.

Bunun üçün isə kənd təsərrüfatı sahəsində yeni texnologiyaların tətbiqi ilə əmək məhsuldarlığının artırılması lazımdır. Digər tərəfdən, bu sahədə yaxşı təcrübəyə malik olan ölkələrlə sıx əməkdaşlıq etmək, həmçinin bu ölkələrdə mövcud olan modellərdən Azərbaycan reallığına daha yaxın olanını seçib onu ölkədə tətbiq etmək olduqca vacibdir. Çünki kənd təsərrüfatı məhsulları arasında elə məhsullar var ki, Azərbaycan bu məhsullar üzrə həm də, dünya bazarında müqayisəli üstünlüyə malikdir. Bu isə o deməkdir ki, bu məhsullar rəqabətədavamlıdır, sadəcə yeni texnologiyaların tətbiqi ilə onların istehsalını artırmaq lazımdır.

Azərbaycanda xidmət sektorunun da liberallaşdırılması və bu sektora xarici sərmayənin cəlbi ilə yeni texnologiyanın gətirilməsi və məhsuldarlığın artırılmasına prosesi müşahidə edilir. Bu, bank və maliyyə sektorlarında yeni məhsulların tətbiqi həm bu sektorların özünün maliyyə vəziyyətinin yaxşılaşmasına, həm də onların təqdim etdiyi məhsullar vasitəsilə kiçik və orta sahibkarlığın maliyyə mənbələrinin genişlənməsini şərtləndirir.

Azərbaycanın Avropa Birliyi ölkələri ilə ticarət əlaqələrinin genişləndirilməsi ölkəmizin xarici iqtisadi münasibətlərini daha dayanıqlı edir. Buna görə də, Qərb ölkələri ilə xarici iqtisadi əlaqələrinin genişləndirilməsi dövlət gəlirlərinin artması deyil, həmçinin iqtisadi və siyasi

müstəqilliyimizin gücləndirilməsi və regionda ölkəmizin rolunun artması baxımdan əhəmiyyətlidir.

Xarici ölkələrlə iqtisadi əməkdaşlıq Azərbaycanın milli iqtisadiyyatının çoxşaxəli inkişafını təmin etmək üçün böyük üstünlüklər verə bilər. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının formalaşması şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr və bu əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir. Azərbaycan bir çox həyati əhəmiyyətə malik siyasi və iqtisadi məsələlər baxımından dünyanın yaxın və uzaq, böyük və kiçik dövlətlərinin, beynəlxalq və regional təşkilatların diqqətini özünə cəlb edən bir qütbdür.

Göründüyü kimi, Azərbaycanın xarici ticarət əlaqələrinin inkişafı daim diqqətdə olan məsələlərdəndir. Belə ki, yerli məhsulların xaricə, o cümlədən qeyri-ənənəvi bazarlara ixracının genişləndirilməsi məqsədilə zəruri tədbirlər görülür. Dövlət başçısının bu istiqamətdə tapşırıqlarına uyğun olaraq, dövlət dəstəyi ilə potensial ixrac ölkələrində logistik mərkəzlərin yaradılması üzrə tədbirlər reallaşdırılır. Bununla yanaşı, qarşılıqlı investisiya fəaliyyətinin təşviq edilməsi istiqamətində işlər daha da gücləndiriləcəkdir. Bu, ilk növbədə, investorlar üçün mühüm əhəmiyyət kəsb edən investisiyaların qarşılıqlı qorunmasını, təşviqini, eləcə də ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan hüquq-müqavilə bazasının yaradılması işlərini əhatə edəcəkdir.

Makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici ölkələrlə ikitərəfli əlaqələrin inkişafı müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə xidmət edəcək, ölkəmizin dünyada nüfuzunu daha da artıracaqdır.

## ƏDƏBİYYAT

1. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Dərs vəsaiti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, səh.185.
2. Kərimli İ.A. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Dərs vəsaiti. Bakı: “Çaşıoğlu” nəşriyyatı 2006, 304 s.
3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: “İqtisad Universiteti” 2009
4. Vəliyev D.Ə. Beynəlxalq iqtisadiyyat. Dərslik. "Avropa" nəşriyyatı, Bakı 2012
5. http://xalqqazeti.com/az/news/289

# AZƏRBAYCANIN BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİ VƏ ONLARIN REALLAŞDIRILMASI

***Təranə Məmmədova***

## XÜLASƏ

Bu məqalədə Azərbaycanın xarici ölkələrlə beynəlxalq iqtisadi əməkdaşlığının milli iqtisadiyyatın çoxşaxəli inkişafına verdiyi böyük üstünlüklər vurğulanılıb. Respublikamızın müxtəlif layihələr çərçivəsində beynəlxalq təşkilatlarla əməkdaşlıqları, davamlı və səmərəli inkişafı qeyd olunub. Eyni zamanda dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsinin müxtəlif perspektivləri araşdırılıb.

# МЕЖДУНАРОДНЫЕ ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА И ИХ РЕАЛИЗАЦИЯ

***Тарана Мамедова***

## АННОТАЦИЯ

В этой статье освещаются огромные преимущества международного экономического сотрудничества Азербайджана с зарубежными странами в диверсификации национальной экономики. Было отмечено сотрудничество, устойчивое и эффективное развитие нашей республики с международными организациями в рамках различных проектов. В то же время изучались различные перспективы ускорения интеграции в мировую экономическую систему и расширения внешнеэкономических связей.

# INTERNATIONAL ECONOMIC RELATIONS OF AZERBAIJAN AND THEIR REALIZATION

***Tarana Mammadova***

## SUMMARY

This article highlights the great benefits of Azerbaijan's international economic cooperation with foreign countries in the diversification of the national economy.It was noted cooperation, sustainable and effective development of our republic with international organizations within various projects.At the same time, different perspectives of acceleration of integration into the world economic system and expansion of foreign economic relations were studied.

# ENERJİ DİPLOMATİYASINDA UĞURA GEDƏN YOL

***Əliyeva Aytən Miroğlan qızı***
***BDU-nun II kurs magistrantı***
***aliyeva1291@gmail.com***

***Açar sözlər:*** Cənub Qaz Dəhlizi, TANAP, enerji strategiyası, milli təhlükəsizlik, Xəzər regionu, Şahdəniz qaz yatağı
***Ключевые слова:*** Южный газовый коридор, TANAP, энергетическая стратегия, национальная безопасность, Каспийский регион, газовое месторождение Шах-Дениз.
***Keywords:*** Southern Gas Corridor, TANAP, energy strategy, national security, Caspian region, Shah Deniz gas field.

Karbohidrogen erasının ilkin sivilizasyon iki əsas mərkəzindən biri kimi ölkəmiz planetar şöhrət zirvəsinə yüksəlmişdir. Bakı nefti öncə Rusiyanın, daha sonra Sovetlər İttifaqının əsas enerji mənbəyi olaraq yeni neftli-qazlı rayonların aşkarlanmasına stimul vermişdir [1,s.6]. Respublikamız həmçinin ilkin qaz hasilatında da paralel məmləkətlər sırasında öncül yer tutmuşdur. XX yüzilliyin sonlarında formalaşmağa başlayan yeni geosiyasi düzüm Azərbaycanı Xəzərin yeni zəngin ehtiyatları konfiqurasiyasında təkrar beynəlxalq siyasətin strateji maraqlar mərkəzinə çevirmişdir. Gənc, müstəqil Azərbaycan Heydər Əliyevin təşəbbüsçüsü və təminatçısı olduğu neft strategiyası ilə sosial-iqtisadi oriyentasiyasında uğurlu istiqamət əldə etmişdir. Demək olar, artıq iki yüz ildir ki, Azərbaycan fəal şəkildə neft və qaz sənayesi ilə məşğuldur. Qərb ekspertlərinin ən optimist təxminlərinə əsasən Azərbaycanın ehtiyatları ümumdünya neft ehtiyatlarının 0.6 %-ini, qaz ehtiyatlarının isə 0.8%-ini əhatə edir [2, s.94]. “Qara qızıl”ın vətəni hesab olunan ölkəmiz 2016-cı ilin statistik məlumatlarına əsasən bir günə 800.000 barel neft, bir ilə təxminən otuz milyard kub metr təbii qaz istehsal edir. Bu Cənubi Qafqazın cəmi 10 milyon əhalisi olan kiçik bir dövləti üçün kifayət qədər böyük göstəricidir.

Dünyanın ən zəngin qaz yataqlarından biri olan Şahdəniz keçən əsrin ortalarında Azərbaycanlı geoloqlar tərəfindən kəşf edilib, lakin müvafiq texnologiyaların olmaması səbəbindən istismarı dayandırılıb. Potensial imkanları isə müəyyən edilməyib. 1996-cıildə ARDNŞ-in beynəlxalq neft şirkətləri ilə yaratdığı konsorsium yatağın qazla zəngin olmasını aşkar edib. 1999-cu ildən rəsmi olaraq qeydə alınan yatağın təbii ehtiyatları 1.2 trilyon kub metr təxmin edilir. Yataqda gözləniləndən də çox-1.2 trilyon kub metr qaz ehtiyatının olması ehtimal edilirdi. Sonrakı illərdə Ümid və Abşeron yataqlarının kəşfi Azərbaycanın böyük qaz resurslarına malik olduğunu bir daha təsdiqləyib.Ümumilikdə, Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2.6 trilyon kub metrdir. Proqnozlaşdırılan ehtiyatlar isə 3 trilyon kub metrdir. Yalnız Ümid yatağının potensialı 200 milyard kubmetrdən çoxdur. Bu da qarşıdakı 100 ildə də Azərbaycanın karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı kimi tanınmasına imkan verir.

Belə zəngin qaz potensialımızın olması dünya dövlətlərinin ölkəmizə diqqətinin artmasına səbəb olurdu. Xüsusən də Avropa ölkələri getdikcə Azərbaycanın enerji ehtiyatlarına daha çox maraq göstərirdilər. Qərb dövlətləri Rusiyadan enerji asılılığını zəiflətməyə çalışırdılar və bunun üçün onların qarşısında duran birinci dərəcəli vəzifə qaz təchizatı mənbələrinin və marşrutlarının şaxələndirilməsi idi. Bu mənada Xəzər dənizinin Azərbaycana aid hissəsində “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənməsi haqqında 1994-cü ilin 20 sentyabrında bağlanmış və tarixə “Əsrin müqaviləsi” kimi daxil olmuş müqavilə istər Azərbaycana marağı olan ölkələr üçün, istərsə də ölkəmizin öz xarici siyasəti sahəsində atılmış ən həlledici addımlardan biri oldu [3,s.63]. “Əsrin Müqaviləsi”nin imzalanmasından sonra Azərbaycanda iqtisadi tərəqqinin etibarlı bünövrəsi qoyulmuş oldu. Böyük Britaniyanın, Rusiyanın, ABŞ-ın və digər dövlətlərin neft

şirkətləri bu müqavilə ilə Xəzərin karbohidrogen ehtiyatlarının istismarında yaxından iştirak etmək imkanı qazanmış oldular. Heç təsadüfi deyil ki, Əsrin müqaviləsi imzalanandan bu günə qədər Azərbaycan Respublikasında 308 milyon ton neft hasil edilmişdir [4, s.75]. Azərbaycan get-gedə regionda geostrateji əhəmiyyətini artırmaq və hər cür xarici təzyiqlərə davam gətirmək üçün neft və qaz ixracının variantları üzərində düşünməyə başladı. Bakı-Tbilisi-Ceyhan layihəsinin ortaya çıxması da məhz bu arzudan doğan bir reallıq idi. Heç bir təsir altında qalmadan öz müstəqil enerji strategiyasını reallaşdırmaq üçün mübarizə aparan Azərbaycan 1997-1999-cu illərdə ard-arda Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərlərinin çəkilişinə nail oldu. Strateji neftin nəqlini ABŞ və Avropa dövlətlərinə etibar edən ölkəmiz tez bir zamanda BTC (Bakı-Tbilisi-Ceyhan) layihəsini də ortaya qoydu.

Əsrin müqaviləsinin ilk bəhrəsi olan BTC-nin doğurduğu əks-səda Azərbaycana marağı artırmaqla onu Cənubi Qafqazda lider dövlət kimi tanıtdırdı. BTC-nin istismarı ilə Azərbaycanın büdcəsi möhkəmləndi. Neftdən əldə olunan gəlirin xalq arasında ədalətli paylanması, qeyri-neft sektorunun inkişafı naminə sərf olunması üçün yaradılan Dövlət Neft Fondunun aktivlərinin 16 milyard manata çatması uğurlu neft strategiyasının nəticəsidir. Qeyd etmək lazımdır ki, BTC təkcə gəlir mənbəyi olan layihə deyil, həm də iqtisadi cəhətdən ayaqda qalmaq baxımından xarici sərmayəyə ehtiyac duyan Qafqaz və Mərkəzi Asiya dövlətləri üçün əlverişli imkan idi. İlk başda böyük şirkətlər layihənin nə zaman başa çatma ehtimalı ilə bağlı narahatlıq keçirirdilər. Həm də İran və Qazaxıstan alternativ marşrutlar təklifilə çıxış etmişdilər. Maliyyə çətinlikləri bir tərəfdən, ekoloji problemlər də o biri tərəfdən BTC layihəsinin gələcəyini sual altında qoymuşdu. Kəmər Gürcüstan turizmində mühüm rol oynayan mineral su yataqları ilə zəngin Borjomi rayonundan keçirdi. Digər bir maneə isə BTC boru kəmərinin neftlə təmin edilməsi üçün qeyd olunan ərazidə kifayət qədər qara qızıl ehtiyatının olub-olmaması ilə bağlı idi. Və ən nəhayət, bir çox analitiklərin fikrincə, regionda vəziyyətin qeyri-sabit olması, Qafqazda gürcü-osetin münaqişəsi, Türkiyənin Hatay bölgəsində baş vermiş etnik iğtişaşlar, PKK terrorçularının fəaliyyəti, yaxud Əfqanıstan müharibəsi layihəyə ciddi anlamda mənfi təsir göstərə bilərdi. Bütün bu problemlərə baxmayaraq, ABŞ-ın dəstəyilə BTC layihəsi qəbul olundu.

Azəri-Çıraq-Günəşli yataqlarının tammiqyaslı işlənməsinin üçüncü mərhələsinə 2004-cü ilin sentyabrında start verildi. Belə ki, Azəri yatağının mərkəzi və qərb hissəsindən 2005-ci ilin avqustundan etibarən böyük miqdarda neft hasil olunmağa başladı. Baxmayaraq ki dünya mətbuatında "Üç dəniz əfsanəsi" adını almış BTC-nin tikilib istifadəyə veriləcəyinə çoxları şübhə ilə yanaşırdı, lakin rəsmi şəkildə 2006-cı ilin mayından etibarən kəmər istifadəyə verildi. 50-60 milyon ton xam neft Türkiyənin Ceyhan limanına çatdırılacaqdı və bunun üçün 4.9 milyard ABŞ dolları həcmində investisiya yatırılmışdı. Ümumi uzunluğu 1769 km olan BTC kəməri layihəsi SSRİ-nin süqutundan sonra regionda həyata keçirilən ən böyük layihə idi. Məhz bu kəmər açıq dənizlərə çıxışı asanlaşdırmış və Orta Asiyanın neft hasil edən dövlətləri üçün Qara dənizə Rusiya ərazisindən keçməklə çıxan neft kəmərlərinə alternativ marşrut yaratmışdır.

Məlumdur ki, Azərbaycan Respublikası beynəlxalq enerji layihələrinin gerçəkləşməsində Türkiyə ilə ilk dövrlərdən sıx əməkdaşlıq edirdi. Türkiyənin TPAO şirkəti Əsrin müqaviləsində və Şahdəniz qaz yatağı üzrə sazişdə iştirak payına malikdir. Türkiyə ərazisindən keçən və inşasında Botaş şirkətinin mühüm rol oynadığı Bakı- Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Cənubi Qafqaz qaz boru kəməri Azərbaycanın daha geniş Avropa bazarlarına çıxışı üçün zəmin yaratdı.

BTC konsorsiumun səhmdar şirkətləri və onlara düşən pay bölgüsü;

BP-30.1% AzBTC-25.00% Chevron-8.90% Statoil-8.71% TPAO-6.53% ENİ-5.00% Total-5.00% İtoçu-3.40% İNPEKS-2.50% KonokoFillips-2.50% Hess-2.36%

2008-ci il Rusiyanın Gürcüstana müdaxiləsi zamanı Bakı-Tbilisi-Ceyhan Boru kəməri ciddi təhlükəylə üz-üzə qaldı. Belə ki, Rusiyanın havadan atdığı 30-a qədər bomba kəmərin

yaxınlığına düşmüşdü. Rusiya istəsəydi, kəməri heç şübhəsiz tamamilə məhv edə bilərdi. Rəsmi Moskva Saakaşvilini devirmə istəyini açıq şəkildə dilə gətirirdi. Bu isə Avropa enerji bazarının tamamilə Rusiyanın monopoliyasına keçəcəyi qorxusunu yaratmış oldu. Çox maraqlıdır ki, PanArmenian adlı erməni xəbər agentliyinin internet saytında yayımlanmış bir analizdə Türkiyənin şərqindəki son PKK hücümlarının və Rusiyanın Gürcüstandakı bombardmanının BTC Neft Boru Kəmərinin yetərincə yaxşı qorunmadığını sübut etməsi vurğulanır: Bu gün gerçəkləşən və gələcəkdə gerçəkləşməsi ehtimal olunan partlayışlar elə indidən ləğv olunma təhlükəsi ilə üzləşən "Nabukko" layihəsini də risk altında qoyur". Bu məqamda elə Nabukko layihəsindən də bəhs etmək yerinə düşərdi.

"Nabuko" layihəsi 2002-ci ilin fevralında Türkiyə, Bolqarıstan, Rumıniya və Avstriyanın qaz şirkətlərinin danışıqları nəticəsində irəli sürülmüşdü. Əsas qaz təchizatçıları kimi isə İran, İraq və Yaxın Şərq ölkələri nəzərdə tutulurdu. Azərbaycan həmin dövr üçün mavi yanacağa olan daxili tələbatını belə ödəmək iqtidarında deyildi [5, s.244]. 2006-cı ildən etibarən Şahdəniz yatağından qaz hasilatının başlanması və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi ölkəmizi yenidən diqqət mərkəzinə gətirdi. Digər tərəfdən İraqda hərbi-siyasi vəziyyətin gərginləşməsi və İranın nüvə proqramı ilə əlaqədar olaraq ABŞ-la münasibətlərinin kəskin xarakter alması Nabukko layihəsində sözügedən ölkələrin təchzatçı qismində iştirakını əngəlləyirdi. Digər tərəfdən, gələcəkdə reallaşdırılması önə sürülən neft-bu kimi layihələrə bir çox siyasi və beynəlxalq faktorlar öz təsirini göstərmişdir. Xüsusən də Rusiyanın bu sahədə öz monopoliyasını qoruyub saxlama istəyini qeyd etmədən keçmək olmaz. Lakin regionun əsas supergücü olaraq Rusiyaının ənənəvi neft kəmərləri marşrutlarına nəzarəti öz əlində cəmləşdirməyə çalışması bəzi iqtisadi faktorlar, Çeçenistan münaqişəsinin uzanması, Türkiyənin boğazların ekoloji təhlükəsizliyini qabartması və Azərbaycanın bu məsələdəki mövqeyi nəticəsində mümkün olmamışdır [6, s.576].

| Nabukko kəmərinin tikintisi üzrə yaradılmış beynəlxalq konsorsiumun üzvləri (hər biri 16.67 faiz paya malik olmaqla) | |
|---|---|
| Almaniya | RWE |
| Avstriya | OMV |
| Türkiyə | Botaş |
| Bolqarıstan | Bulqarqaz |
| Rumıniya | Transqaz |
| Macarıstan | MOL |

Azərbaycanın Nabukko kəməri vasitəsilə qaz ixrac etməsinə dair mövqeyi qətiləşmədiyinə görə, SOCAR-ın da səhmdarlar sırasına daxil olması hələlik müəmmalı görünürdü. ABŞ hökuməti isə təkcə Azərbaycanın yox, Türkmənistanın da layihəyə qoşulması üçün böyük səy göstərirdi. 2009-cu ildə Rusiya ilə Ukrayna arasında yaranmış qaz böhranı səbəbindən Avropa ölkələrinə mavi yanacaq nəqli dayandırıldı. Nabukko layihəsinin aktuallığı artmış oldu. Həmin dövr üçün Avropa Rusiyadan 150 mlrd kubmetrdən çox qaz idxal edirdi. Beləliklə qaza olan tələbatının 30 %-ini Rusiya vasitəsilə ödəyən Avropa soyuq qış günlərində yanacaq qıtlığı ilə üzləşməli oldu. Böhran Nabukko layihəsi üzrə danışıqların sürətləndirilməsinə təkan verdi. 2009-cu il iyulun 13-də Ankarada hökumətlərarası sazişin imzalanması ilə

Türkiyədən Avropa birliyi ölkələrinə təbii qaz daşımaq məqsədilə həyata keçirilməsi planlaşdırılan Nabukko layihəsinin əsası qoyulmuş oldu. Başlanğıc nöqtəsi Xəzərin Şahdəniz neft yatağı olan kəmərdən Türkmənistan, Qazaxıstan və digər Trans-Xəzər qaynaqlar vasitəsilə uran qazının daşınması planlaşdırılırdı. Türkiyəyə gəlib çatan qaz xətti Rusiya qazını da dövriyyəyə alıb Bolqarıstan, Rumıniya, Macarıstan və Avstriya yolunu izləyəcəkdi. Lakin bəzi

səbəblərə görə layihə 2013-cü ildə uğursuzluğa düçar oldu. Nabukko kəmərinin doldurulması üçün kifayət qədər qaz mənbələrinin olmaması səbəbindən onun maliyyələşməsində də ciddi problemlər yaranırdı. Beləcə boru kəmərinin tikilməsi ilə bağlı qərar da ləngimiş olurdu. Misal üçün qeyd edə bilərik ki, 2011-ci ilin oktyabrında kəmərin istifadəyə verilməsi vaxtının 2017-ci ildən 2018-ci ilə keçirilməsi haqda qərar qəbul olunmuşdu. Bütün bu çətinlikləri gözdən keçirərək ölkəmiz təbii qazın Yunanıstan və Albaniya üzərindən İtaliyaya çatdırlmasını hədəf alan "Trans-Adriatik Boru Xətti" layihəsinə üstünlük verdi. 2019-cu ildə tamamlanmalı olan layihə ilə Türkiyəyə ildə 6 mlrd kub metr, Avropaya isə 10 mlrd kub metr təbii qaz daşınacaqdı.

Bununla da Türkiyənin son dövr üçün ən böyük enerji layihəsi olan Nabukko gündəmdən düşmüş oldu. BP, Statoil və SOCAR əsas səbəb olaraq Yunanıstan və İtaliyada təbii qazın qiymətinin daha yüksək olmasını qeyd edirdilər. Digər tərəfdən bu qərarın verilməsində Nabukkonun daha yüksək maliyyə dəyəri tələb etməsi arqumentini də önə sürürdülər. Paytaxt Afinada layihənin ilk imzaları atılmış oldu. "Nabukko"nun Avstriyalı ortağı "Biz yarışı uduzduq" deyə açıqlama vermişdi.

Mərkəzi Asiyanı Rusiya təsirindən azad etmək üçün düşünülmüş Nabukko boru kəməri sonda necə dəyərlər, özü ovlanan ovçuya çevrildi. Xəzərin enerji ehtiyatları uğrunda gedən gizli enerji savaşı Qərbin biabırçı məğlubiyyəti və Nabukko boru kəmərinin iflası ilə nəticələndi. Layihəyə dair sazişin imzalandığı bir zamanda aparıcı Moskva icmalçılarından biri Avropalıların bu hərəkatını "xaotik nəğmə" adlandırmışdılar. ABŞ-ın Qafqaz regionunda süni olaraq qeyri-sabitlik yaratmaq istəyində məhz Nabukko layihəsi bir vasitəyə çevrilmişdi. Qərb bu yolla Rusiyanı tam təcrid vəziyyətində saxlamağa çalışırdı. Ruslar da bunun əvəzini çıxmağa başladılar. Mərkəzi Asiya və Xəzərdəki bütün mövcud təbii qazı öz əllərində cəmləşdirib Nabukkonu resurssuz qoydular. 2007-ci ildə isə Vladimir Putin "Cənub axını" layihəsini irəli sürdü. Nabukkonun zəifliyi həm kifayət qədər baha olmasında, həm də texniki və siyasi cəhətdən mürəkkəbliyində idi.

Belə bir şəraitdə Azərbaycan təşəbbüsü ələ alaraq əsası hələ 2011-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Xose Mannuel Barrozu tərəfindən imzalanmış bəyannamə ilə qoyulan TANAP boru kəmərinin inşası məsuliyyətini öz üzərinə götürdü. Əgər Azərbaycan vaxtında bu addımı atmasaydı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi yenə də təxirə düşə bilərdi. Azərbaycanın iqtisadi və siyasi mənafelərinə ciddi zərbə dəyə bilərdi. Bu layihə artıq regionda yeni bir enerji xəritəsinin çəkilməsi demək idi. Layihəyə dair anlaşma bölgədə həm də mövcud balansı dəyişəcəkdi. Sazişə görə, Türkiyə "Şahdəniz-2" layihəsindən 6 mlrd kub metr qaz ala bilərdi. Nəql olunacaq qazın 10 mlrd. kub metri isə Avropaya ixrac edilməli idi. Türkiyəyə həmçinin qazı üçüncü ölkələrə satmaq hüququ da verilirdi. 2017-ci ilin sonunadək Türkiyə və Azərbaycan boru kəmərinin inşasını başa vurmalı idilər. Onun inşasına 7-10 mlrd.dollar vəsait sərf oluna bilərdi.

Gəlin bu layihənin necə reallaşmasını bir qədər təfərrüatlı şəkildə nəzərdən keçirək..Əvvəla onu qeyd etmək lazımdır ki, Trans-Anadolu boru kəməri Cənub Qaz Dəhlizi layihəsinin bir qoludur. Bəs bu layihə nə zaman ortaya çıxıb? Məqsədi və perspektivləri nələrdən ibarətdir?

Cənub Qaz Dəhlizi haqqında ümumi məlumatlar:

-2014-cü il sentyabrın 20-də Bakıda təməli qoyulub. Məhz bu tarixin seçilməsi heç də təsadüfi deyil. 20 il öncə bu tarixdə "Əsrin müqaviləsi" imzalanmışdı.

-2018-ci il mayın 29-da rəsmi açılış mərasimi keçirlib.

-Ümumi maliyyə dəyəri 40 milyard dollardır.

-4 hissədən ibarətdir: Şahdəniz-2, Cənub Qaz Boru Kəməri, TANAP və TAP [12]

-7 hökumət, 11 şirkət iştirak edir.

-Ümumi uzunluğu 3500 km-dir.TANAP 1850 km, TAP 878 km, CQBK-691 km

İlkin mərhələdə Türkiyəyə 16 milyard kub metr, Avropaya 10 milyard kub metr qaz nəql ediləcəkdi. Azərbaycan karbohidrogen satışından 30-50 milyard dollar gəlir əldə edəcəkdi. 14 il öncə BTC neft boru kəməri vasitəsiylə 3 dənizi- Xəzər, Qara və Aralıq dənizlərini birləşdirən Azərbaycan 2014-cü ildə Bakıda təməli qoyulan Cənub Qaz Dəhlizi ilə növbəti möhkəm uğura imza atmış oldu. Layihənin icrasında 7 ölkə iştirak edirdi. Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya. Növbəti mərhələdə Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da layihəyə qatılacağı gözlənilirdi. Cənub Qaz Dəhlizi ilə nəql olunan yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulmuşdu.

| | |
|---|---|
| İngiltərə və Hollandiya | Shell |
| Bolqarıstan | Bulgargaz |
| Yunanıstan | DEPA |
| Almaniya | Uniper |
| Fransa | Engie |
| İtaliya | Hora Trading, Edison, Enel |
| İsveçrə | AXPO |

İndi isə gəlin dəhlizin Azərbaycan və Avropa üçün əhəmiyyətini aydınlaşdıraq.

-CQD qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadi inkişafda mühüm amil olacaq

-Azərbaycan Avropada əhəmiyyətinin artmasını və Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək.

-Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən tranzit ölkə kimi əhəmiyyətini artıracaq.

-Avropanın enerji təchizatının şaxələndirilməsində ciddi amilə çevriləcək.

-Region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarması üçün yeni mənbə rolunu oynayacaq.

-Region və Avropa üçün enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayacaq.

-Dövlət və xalqlar arasında qarşılıqlı əməkdaşlıq və işgüzar əlaqələrin inkişafına töhfə verəcək.

-Regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına ciddi təsir göstərəcək.

-Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət əldə edəcək, yeni iş yerləri yaradılacaq və insanların rifahının yüksəlməsinə müsbət təsir göstərəcək.[7,s.60]

Layihə ilə bağlı Rusiya və digər dövlətlərin mövqeyinə nəzər yetirək. Onu qeyd edək ki, Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi 2018-ci il may ayının 29-da Səngəçal terminalında keçirilib. Mərasimdə rəsmi, işgüzar və siyasi dairələri təmsil edən xarici nümayəndələr iştirak ediblər. Layihənin çox mühüm geosiyasi hadisə olduğu etiraf edilib. Rəqabətin böyük olduğu müasir şəraitdə çoxsaylı tərəfdaşla birlikdə nəhəng enerji layhəsini reallaşdırmaq mahir xarici siyasət və enerji strategiyası tələb edir. Layihə Avropanın enerji xəritəsini tam dəyişmək iqtidarındadır. Bəs buna Rusiyanın münasibəti necədir? Çünki əgər biz Avropanın enerji xəritəsinin dəyişməsndən danışırıqsa, bunun Rusiyanın maraqlarına birbaşa aidiyyəti var. Vladimir Putin Cənub Qaz Dəhlizi ilə bağlı müsbət fikirdədir.

O bildirib ki, Moskva bu təşəbbüsü alqışlayır. Dövlət başçısının bu bəyanatı ermənilərdən başqa hamını müsbət mənada təəccübləndirmişdi. Əslində isə Putinin bu mövqedə olması real praqmatik əsaslara və siyasi hesablmalara söykənir. Bildiyimiz kimi, Rusiya Avropaya ildə 193 milyard kubmetr qaz satır. Cənub Qaz Dəhlizi vasitəsilə isə Avropaya cəmi 16 milyard kubmetr qaz nəql olunacaq. Deməli neqativ mənada Rusiyaya bu dəhlizin rəqib olmasından söhbət gedə bilməz. Digər tərəfdən, nəzərə alaq ki, Azərbaycanın özü Rusiyadan qaz almağı nəzərdə tutub,

yəni mövcud imkanları ilə Cənub Qaz Dəhlizini təmin edir, Rusiyadan isə daha sərfəli qiymətlərlə qaz alıb öz daxili tələbatının bir qismini ödəyir. Məsələnin Rusiyanı razı salan başqa bir tərəfi də maraqlıdır. Ekspertlər vurğulayırlar ki, Cənub Qaz Dəhlizi "Nabukko" nu əvəz etdi. Bu kəmər vasitəsilə ildə 60 milyard kubmetr qaz daşına bilərdi ki, bu da ciddi anlamda Rusiyayla rəqabətə girmək demək idi. Beləliklə də, Azərbaycan TANAP layihəsini irəli sürməklə faktiki olaraq həm özünün, həm Türkiyə və Rusiyanın, həm də Avropanın maraqlarını uzlaşdırmağa nail olub.

2018-ci il iyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində TANAP(Trans-Anadolu boru kəməri) qaz kəməri istifadəyə verilib. Açılış mərasimində iştirak edən TANAP-ın baş direktoru Saltuk Düzyol bildirib ki, bu layihə ilə tarixə mühüm bir imza atılmış oldu. Bu layihə Xəzər dənizinin Azərbaycan sektorundakı Şahdəniz-2 yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. TANAP Gürcüstan və Türkiyənin 200 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı anlaşma memorandumu bayaq da qeyd etdiyimiz kimi, hələ 2011-ci il dekabrın 24-də imzalanmışdı. 2012-ci il dekabrın 18-də Bakıda SOCAR ilə BP şirkəti arasında ilkin çərçivə sazişi imzalandı və nəticədə BP 12 % pay əldə edərək layihəyə qoşulmuş oldu. 2015-ci il martın 17-də Türkiyədə imzalanmış yekun sənədə əsasən yalnız "SOCAR"(58%), "BOTAŞ"(30%) və "BP"(12%) layihənin səhmdarları oldular. Təbii ki, bu Azərbaycanın uğurlu enerji diplomatiyasının nəticəsi hesab oluna bilər. Çünki, sözügedən nüfuzlu şirkətlərin layihədə iştirakı həm kəmərin gələcək etibarlılığını artırır, həm də onun uzunmüddətli fəaliyyətinə maliyyə və siyasi dəstəyin qarantı hesab olunur. Bu layihənin gələcəkdə təbii qazın qiymətinə də müsbət təsiri olacağı gözlənilir. TANAP gələcəkdə "hub" adı verilən enerji mərkəzinin yaranmasına ümidləri artırır, hansı ki bunun qiymətdə də müsbət təsir edəcəyi gözlənilir. Uzunluğu 1850 km olan TANAP boru kəməri dəniz səviyyəsindən 2700 m maksimal hündürlükdə yerləşir.

Təməli 2015-ci il martın 17-də Türkiyənin Qars şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə qoyulub. TANAP nədir, hansı əhəmiyyəti daşıyır sualını cavablandırmağa çalışaq. Əvvəla TANAP energetika bazarına inhisarçılığa qarşı atılan addımdır. Azərbaycan bu layihənin reallaşması ilə dünyada təhlükəsizliyin. əməkdaşlığın, qarşılıqlı iqtisadi maraqların təmin olunmasının tərəfdarı kimi özünü sübut edir. Digər tərəfdən Azərbaycan bu kimi irihəcmli beynəlxalq layihələrdə aparıcı olmaqla bölgədəki tranzit dövlətlərin əhəmiyyətini artırır. Onları xaricdən gələn siyasi və iqtisadi təzyiqlərdən qoruyur. Və ən nəhayət TANAP layihəsi Ukrayna kimi "mavi yanacaq" tələbatını ödənilməsində alternativ axtaran dövlət üçün müstəsna əhəmiyyət daşıyır. TANAP Azərbaycan .Gürcüstan və Türkiyə müttəfiqliyinin əhəmiyyətini dünyaya nümayiş etdirir. Bu regional müttəfiqlik bölgədəki problemlərin danışıqlar yolu ilə həllinə də müsbət təsir göstərə bilər. Ölkəmiz TANAP layihəsi ilə ABŞ başda olmaqla Qərb müttəfiqlərinin də enerji təhlükəsizliyinə dəstək verir. Azərbaycanla Türkiyənin bir mövqedən çıxış etməsindən narahat olanlara da əslində TANAP bir növ mesaj vermiş oldu. Bu iki dövlətin yaxınlaşmasından ehtiyat etmək yox, onlarla əməkdaşlıq edib qarşılıqlı şəkildə faydalanmaq lazımdır.

Təbii ki,TANAP layihəsini ABŞ siyasətinin nailiyyəti hesab edə bilərik.Belə ki, Rusiyanın təşəbbüsü olmadan və İranın da kənarda qaldığı daha bir enerji layihəsi gerçəkləşir. Bu layihəni təkcə energetika sahəsində yox, eləcə də siyasi anlamda bir irəliləyiş kimi qeyd edə bilərik. Çünki TANAP layihəsi Xəzər regionundan Avstriyaya qədər uzanan ərazidə regional inteqrasiyaya doğru çox uğurlu bir addımdır. Almaniya və Rusiyanın iştirakı olmadan Avropa Birliyinin Azərbaycan sərhədlərinə yaxınlaşması Türkiyənin regionda iqtisadi və siyasi baxımdan fəallığını artırır. Ona görə də bu layihəyə nə qədər vəsaitin xərclənməsi elə də böyük əhəmiyyət kəsb etmir. Aydındır ki, Türkiyə TANAP-ı təkcə enerji layihəsi kimi deyil, sülh,

demokratiya və inteqrasiya yolunda irəliyə doğru atılmış bir addım kimi qəbul edir. Layihənin əsas üstünlüklərini nəzərdən keçirək:

Azərbaycanın Avropa bazarına inteqrasiyası. Şübhə yoxdur ki, TANAP Azərbaycanın Avropanın enerji bazarlarına inteqrasiyası, eləcə də təhlükəsiz tranzit dövlət kimi öz mövqeyini möhkəmləndirməsi üçün ən böyük imkandır. Layihə uzunmüddətli perspektivdə ölkənin təbii qaz ixracını ildə 8.1 milyard kubmetrdən təqribən 24 milyard kubmetrə kimi artıracaq.

Neft ixracındakı azalmanın tarazlaşdırılması. Son illərdə baş vermiş neft böhranının Azərbaycan hasilatına da zərbə vurduğu məlumdur. Boru kəməri inşa edildikdən sonra yerli bazarlardan Avropa bazarlarına kimi uzanan ixracat büdcəyə əlavə gəlirlər gətirəcək və hökumətin mövcud aktivlərinin həcmini artıracaq.

Azərbaycanın beynəlxalq arenadakı nüfuzuna TANAP-ın töhfəsi. Potensial olaraq boru xətti Avropa dövlətləri və beynəlxalq strukturlarda Azərbaycana qarşı artmaqda olan tənqidi tendensiyanı kökündən dəyişə bilər. Nəzərə alsaq ki, bu layihəyə Amerika Birləşmiş Ştatları və Birləşmiş Krallıq da daxil olmaqla onlarla nüfuzlu dövlət imza atıb, onda Avropa ilə bu cür enerji ticarətinin ölkəmizə Rusiya Federasiyasının himayəsindən azad olmaq imkanını da verəcəyi heç kəsdə şübhə doğurmaz.

Qonşu Türkiyə dövləti ilə əlaqələrin möhkəmlənməsi. Vaxtilə uğurla reallaşdırılmış Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəməri və Bakı-Tbilisi-Ərzurum Qaz Boru Kəməri layihələrindən sonra Türkiyə və Azərbaycan enerji sektorunda birgə inkişafı gücləndirdilər. TANAP layihəsinin köməyilə Türkiyə illik 5 % istehlak həcminə malik olan zəif qaz ehtiyatı problemini həll etməyə bir addım da yaxınlaşacaq. TANAP layihəsi vasitəsilə qaz təchizatının təhlükəsizliyinin möhkəmləndirilməsi həm Türkiyənin iqtisadi artımına müsbət təsir edəcək, həm də Avropa dövlətləri ilə yeni ticarət əlaqələri qurmaqla dünyanın enerji bazarlarında onun nüfuzunu gücləndirəcək. Həmçinin, Türkiyənin beynəlxalq səviyyədə enerji mərkəzi olmaqla bağlı öz ambisiyaları var. O, ərazisindən keçən layihə və infrastrukturlarda pay qazanmağa çalışır ki, bütün iştirakçı aktorlara təsir göstərə bilsin. Aİ-na qoşulma istəyi baxımından da bunu bir perspektiv kimi qiymətləndirmək olar. Digər tərəfdən, Türkiyə Trans-Anadolu kəməri vasitəsilə Azərbaycan qazının 6 milyard kub metrini əlverişli qiymətə əldə etmək istəyir. Qeyd edək ki, TANAP-dan əldə olunacaq mənfəətin 80 %-i Azərbaycana, 20 %-i isə Türkiyəyə aiddir.

Eyni zamanda Türkiyənin bu layihələrdə genişmiqyaslı iştirakı Azərbaycanın da hər anlamda xeyrinədir. Azərbaycan öz artan enerji potensialını Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində istifadə edəcək.

Avropa dövlətləri üçün yüksək şans. Qərbn Azərbaycanı özünün enerji təhlükəsizliyinin əsas təminatçılarından biri kimi hiss etməsi Avropa İttifaqı-Azərbaycan əlaqələrini strateji səviyyəyə yüksəltmişdir. Bunun nəticəsidir ki, 2006-cı il noyabrın 7-də Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair xüsusi Anlaşma Memorandumu imzalanmışdır[8, 221]. Avropa İttifaqına və Azərbaycanın Şahdəniz qaz yatağına milyonlarla investisiya qoymuş Avropa ölkələri üçün bu layihə təbii ki, Rusiyanın və müttəfiqi hesab etdiyimiz İranın Qafqazdakı təsirini məhdudlaşdırmaq üçün bir vasitədir. Başlıca siyasi maraqlar da söz yox ki, Avropanın qaz idxalında Rusiyanın monopoliyasını azaltmaqdır. ABŞ həm də Rusiyanı neytrallaşdırıb İranla onun istənilən ittifaqının qarşısını almağa çalışır. Beynəlxalq Enerji Agentliyinin məlumatına əsasən, 2040-cı ilə kimi Avropanın illik qaz hasilatı 100 milyard kub metrə düşəcək, nəticədə enerjiyə olan tələbatla enerjinin təchizatı arasında yaranacaq fərqi aradan qaldırmaq üçün region böyük həcmli idxallardan asılı olacaq. TANAP belə bir şəraitdə Rusiya Federasiyasının Ukrayna ilə siyasi böhrana başının qarışması səbəbindən kəskin qaz defisiti yaşayan Cənub və Cənub-Şərqi Avropa üçün çıxış yolu olacaq. Avropa İttifaqı Cənub Qaz Dəhlizi vasitəsilə həyata keçiriləcək qaz idxalının həcmini 80-100 milyard kub metrə kimi artıra biləcək.

Xəzər qazını Avropaya nəql edən TANAP Azərbaycanın beynəlxalq satış bazarlarına çıxışına və orada möhkəmlənməsinə şərait yaradır. ABŞ-ın "Forbes" jurnalı isə qeyd edirdi ki, "əlverişli coğrafi mövqeyi və etibarlı bir tərəfdaş olması Azərbaycana öz qaz ehtiyatlarından da uğurla istifadə etməyə kömək göstərdi". Beləliklə keçmiş "Nabukko" layihəsinin Türkiyə-Bolqarıstan sərhədlərindən başlayan yeni "Nabuko West" variantı üzə çıxmış oldu. TANAP möhkəm təmələ əsaslanan kəmərdir. Çünki bu böyük dəhlizin başlanğıcında Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum kimi qaz kəmərləri kimi möhtəşəm layihələrin təcrübəsi dayanır. Cənub Qaz Dəhlizi layihəsinin ən vacib halqası olan TANAP Azərbaycanın Avropa İttifaqı ilə mövcud iqtisadi və siyasi əməkdaşlığının inkişafına daha da çox töhfə verməklə yanaşı, Azərbaycanı Türkiyənin ikinci ən böyük qaz tədarükçüsünə çevirib.

Azərbaycanın 2020-ci ilin son günlərindən etibarən Şahdəniz-2 yatağından çıxardığı təbii qazın Türkiyə-Yunanıstan sərhədindən TAP-a qoşularaq Avropaya çatdırılmasına başlandı. Boru kəməri həmçinin tikinti və mühəndislik kimi sahələrdə də Türkiyə iqtisadiyyatına böyük töhfələr vermiş oldu. Onun keçdiyi bölgələrdə ətraf mühit, səhiyyə, heyvandarlıq və təhsil kimi sahələrdə də əhəmiyyətli investisiyalar reallaşdırılıb [11]. Avropa İttifaqı TANAP layihəsinə "CEF Energy" proqramı çərçivəsində 48.4 milyon avro dəyərində qrant ayırıb. Layihənin reallaşmasında digər maraqlı qurumlardan biri kimi Avropa Komissiyası da sözügedən tikintiyə 5 milyon avro məbləğində qrant ayırıb. Dünya Bankı TANAP üçün 800 milyon ABŞ dolları, Asiya İnfrastruktura İnvestisiya Bankı isə 600 milyon ABŞ dolları həcmində maliyyə vəsaiti ayırmağı öhdəsinə götürmüşdür. Bütün bu tədbirlərin görülməsi heç də təsadüfi xarakter daşımır. Ümumiyyətlə, TANAP və TAP layihələri Avropanın enerji sektorunda Rusiyadan asılılığa qarşı alternativ olmaq baxımından strateji əhəmiyyətə malikdir. [9, s.224]

TANAP səhmlərinin 51 faizi "CQD QSC"-yə, 7 faizi "SOCAR Turkey Energy A.Ş- yə, 30 faizi "BOTAŞ"a, 12 faizi isə BP-yə məxsusdur. Layihənin cəmi xərcləri 8.6 milyard ABŞ dolları həcmindədir ki, bunun da 5 milyard dolları Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyətinin payına düşür. Ümumi uzunluğu 1850 km olan kəmərin ilkin ötürmə gücü illik 16.2 mlrd m 3-dir. 2020-ci ildə boru kəmərinin ötürücülük qabiliyyəti 23 milyard kub metr olmuşdur, 2026-cı ildə isə 31 milyard kub metrə qədər artırılması planlaşdırılır. Ərdəhanın Posof qəsəbəsindən başlayaraq Türkiyə ərazisi boyunca 20 şəhərdən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan boru xətti 1 iyul 2019-cu il tarixindən etibarən Türkiyə-Yunanıstan sərhədində Trans-Adriatik Boru Kəməri vasitəsilə Azərbaycan qazını Avropaya nəql etmək üçün hazır vəziyyətə gətirilib. 2019-cu il noyabrın 30-da Prezident İlham Əliyevin iştirakı ilə Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Boru kəmərinin və kompressor stansiyaların tikintisi üzrə hazırda 9445 nəfərdən ibarət işçi heyəti fəaliyyət göstərir. Yerli məşğulluqdan istifadə də maksimallaşdırılır və bacarıqların ötürülməsini təmin etmək məqsədilə güclü təlimlər keçirilir.

Ümumiyyətlə son illərin statistik göstəricilərinə nəzər yetirsək, haqqında danışdığımız bu enerji layihəsi ilə ölkəmizin hansı uğura imza atdığını daha yaxşı aydınlaşdıra bilərik. Belə ki, Energetika nazirliyinin 2021-ci ilin nəticəsinə həsr olunmuş hesabata istinadən verdiyi məlumata görə, ölkəmizin xaricə qaz satışı 18.9 milyard kub metr olub ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 39.8% çoxdur. Ötən il ərzində TANAP vasitəsilə Türkiyəyə 5.6 milyard kub metr qaz ixrac olunub və bu 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 20.1 % çoxdur [18]. Azərbaycandan Gürcüstana isə 2.2 milyard kub metr, (2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3.9 % az) ümumilikdə Avropaya isə 8.2.milyard kub metr qaz ixrac olunub. Bunlarla yanaşı BTC neft boru kəməri sisteminə 0.1 milyard kub metr (2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 6.6 % az) qaz ehtiyatı göndərilib.

Bir tərəfi Cənubi Qafqaz Boru Kəmərinə, digər tərəfi TAP-a bağlanan TANAP Cənub Qaz Dəhlizinin ən böyük hissəsidir. Bu kəmərin istifadəyə verilməsi Azərbaycan-Türkiyə

qardaşlığının bariz nümunəsidir. Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında bunu bir daha vurğulamışdır: "TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir. Bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layhələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".Bir sözlə, TANAP özü ilə gətirdiyi enerji təhlükəsizliyi perspektivindən hər kəsin faydalana biləcəyi bir layihədir.

## ƏDƏBİYYAT


1. Hacızadə E.M. Azərbaycanın təbii qaz potensialı: Reallıqlar və virtual cizgilər. Bakı: Elm, 2001
2. Крылов А. "Южнокафказский энергетический транзит": проблемы и перспективы // Кавказ и глобализация Том 6. Выпуск 1, 2012
3. Atakişiyev Müşfiq. Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş-Bakı 2004.
4. Nəsirov E. Azərbaycanın neft və qaz sənayesi: nailiyyətlər və perspektivlər // Azerbaijan focus: beynəlxalq münasibətlərə dair jurnal, Bakı 2010,
5. Ərəstun Mehdiyev: Enerji resurslarının nəqlində Azərbaycan-Türkiyə əməkdaşlığı: "Nabukko"dan "Cənub Qaz Dəhlizi"nə-Atatürk Araştırma Merkezi Dergisi 2018.
6. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005
7. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası-Məqalələr toplusu. III Fəsil: Azərbaycan neftinin dünya bazarlarına nəqli.
8. Hüseynova H., Miriyeva A. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin enerji strategiyası və onun perspektivləri // Qloballaşma şəraitində diplomatik münasibətlərin iqtisadi və siyasi xüsusiyyətləri mövzusunda elmi-praktiki konfransın materialları. Bakı 2014
9. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi. Azərbaycanın enerji siyasəti qərb mətbuatında. Bakı: 2015
10. Alıyev İ.H., Məmmədov Y.Ə. Azərbaycan 2020: "Gələcəyə baxış" inkişaf konsepsiyasının nəzəri-metodoloji əsasları. Bakı: 2012.
11. https://xalqqazeti.com/mobile/az/news/1348
12. https://minenergy.gov.az/az/layiheler/cenub-qaz-dehlizi_2196
13. https://president.az/az/articles/view/14566
14. https://www.tuicakademi.org/nabucco-projesi/
15. https://www.ntv.com.tr/amp/ekonomi/nabucco-projesi-iptal-oldu,
16. https://www.unectf.org/tanap-
17. http://ikisahil.az/post/99576-news-99576
18. https://apa.az/az/senaye-ve-energetika
19. https://republic.preslib.az/az_c4.html
20. https://www.sgc.az/az/layihe/tanap


## ENERJİ DİPLOMATİYASINDA UĞURA GEDƏN YOL

***Əliyeva Aytən***

## XÜLASƏ

TANAP Azərbaycan Respublikasının ən böyük enerji layihəsi ola bilmək imkanına malikdir. Beynəlxalq arenada, təqribən 2000 km uzunluğa malik boru xətti istər Avropanın enerji təhlükəsizliyi sahəsindəki siyasi gedişatlarına, istərsə də Cənubi Qafqaz regionundakı qərar qəbulu proseslərinə, regional münaqişələrin həlli istiqamətindəki fəaliyyətə müsbət mənada öz

təsirini göstərəcək. TANAP ilk günlərdən başlayaraq böyük müzakirə obyektinə çevrilmişdir. Belə demək mümkündürsə, layihədən ən çox kimlərin mənfəət qazanacağını zaman göstərəcək. Lakin bir şeyi əminliklə deyə bilərik ki, əgər hadisələr bu istiqamətdə inkişaf etməyə davam edərsə, Azərbaycan regional səviyyədəki bütün məqsədlərinə nail ola biləcək.

## ПУТЬ К УСПЕХУ В ЭНЕРГЕТИЧЕСКОЙ ДИПЛОМАТИИ

***Алиева Айтан***

### АННОТАЦИЯ

TANAP имеет возможность стать крупнейшим энергетическим проектом Азербайджанской Республики. На международной арене газопровод протяженностью около 2000 км окажет положительное влияние на политические события в области энергетической безопасности в Европе, а также на процессы принятия решений в регионе Южного Кавказа и на деятельность по разрешение региональных конфликтов. TANAP с первых дней своего существования стал предметом горячих споров. Время покажет, кто больше всего выиграет от проекта, так сказать. Однако одно можно сказать точно: если события будут развиваться в этом направлении, Азербайджан сможет добиться всех поставленных целей на региональном уровне.

## THE ROAD TO SUCCESS IN ENERGY DIPLOMACY

***Aliyeva Aytan***

### SUMMARY

TANAP has the opportunity to become the largest energy project of the Republic of Azerbaijan. In the international arena, the approximately 2,000 km long pipeline will have a positive impact on the political developments in the field of energy security in Europe, as well as on the decision-making processes in the South Caucasus region, and on the activities towards the resolution of regional conflicts. TANAP has become an object of great debate since its early days. Time will tell who will benefit the most from the project, so to speak. However, we can say one thing for sure that if events continue to develop in this direction, Azerbaijan will be able to achieve all its goals at the regional level.

# TÜRK DÖVLƏTLƏRİ BİRLİYİNİN YARANMASI YOLUNDA İLK ADDIM: ANKARA VƏ İSTANBUL SAMMİTLƏRİ

***Dosent Xəyyam Ismayilzadə***
***ekonika22@yahoo.com***
***Aytən Həsənova***
***BDU-nun II kurs magistrantı***
***aytenhesenova343@gmail.com***

***Açar sözlər:*** Türk Dövləri Birliyi, Türkiyə Respublikası, Azərbaycan Respublikası, Orta Asiya, Sammit, enerji layihələri, beynəlxalq münasibətlər, iqtisadi- siyasi münasibətlər, mədəniyyət, inteqrasiya.
***Ключевые слова:*** Союз тюркских эпох, Турецкая Республика, Азербайджанская Республика, Центральная Азия, Саммит, энергетические проекты, международные отношения, экономико-политические отношения, культура, интеграция.
***Keywords:*** Union of Turkic States, Republic of Turkey, Republic of Azerbaijan, Central Asia, Summit, energy projects, international relations, economic-political relations, culture, integration.

Türk birliyi ideyasının tarixi təkammülü öz qanunauyğunluqları ilə səciyyələnir. Bu proses əski türk boylarının etnik birliyə ilk çağırışlarından başlayaraq müasir dövrümüzdə özlərinin beynəlxalq birlik yaratmaq səylərini əhatə edir. Bu dövr ərzində Türk birliyi ideyası getdikcə daha dolgun məzmun kəsb etməyə, yeni tarixi dövrün və ya dövrlərin reallıqların özündə əks etdirərək yad ideologiyalara qarşı müdafiə gücünü artırmışdır. Türk birliyi ideyası tarixən hər zaman aktual bir məsələ olmuşdur. Türklər məğlub olduqları zaman isə məğlubiyyətlərinə əsas səbəb kimi aralarında birliyin olmamasını görmüş buna görə də daim birliyə can atmışlar. Xüsusilə XIX əsr - XX əsrin ortalarında türklük özünün ulusal dayaqlarını daha böyük əzmkarlıqla, yenilməz milli yaddaş arsenalı ilə yarada və təşəkkül tapa bilmişdir (1 səh.56-68). Bu isə artıq klassik türkçülüyün bütün türk dünyasında tədricən unversallaşma prosesini meydana gətirmişdir. Lakin tarixən baş verən bəzi proseslər Türk birliyinin yaranmasına maneə törətmiş bu prosesi çətinləşdirmişdir.

1944-1991 - ci illərdə Türk dilində danışan ölkələrin qarşı bloklarda yer alması səbəbinə görə, həmin dövrün əsas aparıcı gücləri olan (ABŞ və SSRİ ) müstəqil olaraq bir -biriləri ilə siyasi, iqtisadi, mədəni əlaqələri inkişaf etdirmək imkanları yox idi.Soyuq müharibə dövründə Orta Asiya və Cənubi Qafqaz SSRİ -nin tərkibində idi və bütün əlaqələrin SSRİ-nin istəyinə uyğun aparırdılar.Türkiyə isə SSRİ təhdidindən qorunmaq üçün NATO-nun tərkibinə daxil oldu. Soyuq müharibənin başa çatması və SSRİ -nin dağılması ilə dəyişən dünya düzənində yenicə yaranmış türk dövlətlərin tanıyan ilk dövlət məhz Türkiyə Respublikası oldu.

Türkiyə türk dövlətlərinin müstəqilliklərini tanıyaraq, 1990- cı illərin əvvələrindən etibarən imzalanan müqavilələrlə SSRİ -dən qalan sistemdən çıxaraq öz milli idarəçilik, müstəqillik, hərbi siyasətlərinin formalaşmasında mühüm rol oynamışdır. Lakin 70 illik sosialist təsir ilə bu ölkələrin iqtisadi, sənayə, nəqliyyat, və təhsil sistemləri SSRİ -nin ideoloji əsaslarına görə inkişaf etdirilmişdi və Rusiyadan asılı hala gətirilmişdi. Türk dili danışan ölkələrin sosialist keçmişin təsiri ilə yaranan asılılığın aradan qaldırmadan və birbaşa öz aralarında ikitərəfli və çoxtərəfli əlaqələr qurulmadan güclü bir inteqrasiya mühiti yaradılması mümkün deyildi. Buna görədə 1990 - cı illərin əvvəllərindən etibarən Türk dili danışan ölkələrin inteqrasiyasının əsas təməlləri yəni bir-biriləri arasında mədəni, iqtisadi və ticarət, əlaqələri inkişaf etdirilməyə başlandı.

Ankarada görüşün keçirilməsi 1992-ci ilin mart ayında o zamankı Türkiyə prezidenti Süleyman Dəmirəlin Orta Asiya ölkələrinə səfəri zamanı razılaşdırılmışdır (2 səh.37).

Türk dilli ölkələr arasındakı əlaqələrin rəsmi əsası isə 1992- ci il 30 -31 oktyabr tarixlərində Ankarada keçirilən Ankara sammiti ilə atıldı. Ankara sammitində iştirak edən ölkələrin gözləntisi yüksək idi. Hətta sammitin sonunda imzalanması üçün xüsusi sənəd də hazırlanmışdı. Həmin sənəddə Türk cumhuriyyətləri arasında eyni icmaya, soy kökə mənsubluq hissini gücləndirmək, bir icma halında işləməyin qarşılıqlı faydalarının vurğulanması və birgə layihələrin müzakirəsi yer almışdı. Təsadüfi deyil ki, Sammitin açılış çıxışını edən Turqut Özal Türk dili danışan xalqların birləşməsi üçün böyük potensialın olduğunu və həmin xalqların birləşdikdə birlikdə inkişaf etdikdə xxı əsrin türklərin güclənəcəyi əsr olacağını vurğuladı. Bunun üçün ortaq bazara əsaslanan güclü bir birliyin qurulması və Türk ölkələri arasında iqtisadi əlaqələrin inkişafına maneə törədən əngəllərin aradan qaldırılması ilə gömrük rejimlərinin sadələşdirilməsi təkliflərini irəli sürdü. Buna əlavə olaraq Turqut Özal regional və inkişaf bankının yaradılması təşəbbüsü ilə də çıxış etdi (3).

Təssüfki Orta Asiyada yerləşən türk dövlətləri Türkiyənin hazırladığı ilk bəyannaməni imzalamadılar. Sammitin sonunda regionda təhlükəsizliyin artırılması, neft qaz sahəsində birgə araşdırmalar aparılması, istehsal, emal və rabitə sahəsində əməkdaşlıq, fikir ayrılıqlarının sülh yolu ilə aradan qaldırılması kimi maddələri olan Ankara Bəyannaməsini imzaladılar. Türkiyə tərəfi bu bəyannaməni hazırlayarkən digər respublikalar ilə məsləhətləşmələr aparmamışdı. Digər tərəfdən Türkiyənin hazırladığı bəyannamənin imzalanmaması səbəbi kimi Qazaxıstanın təhlükəsizlik əsaslı narahatlığı göstərilə bilər. Qazaxıstan prezidenti Nursultan Nazarbayevin “Əsrlərin qovşağında” adlı kitabında digər türk dövlətləri və Türkiyə ilə əlaqələri digər xalqların və dövlətlərlə olan münasibətlərə zərə vermədən inkişaf etdirmək siyasətini əsas tutaraq Türkiyənin təklif etdiyi bəyannaməni imzalamadığını bildirmişdir (4 səh. 201). Burada digər xalqlar dedikdə Qazaxıstanda yaşayan rus azlığı nəzərdə tutulur. Çünki SSRİ dağıldıqdan sonra Qazaxıstanda 6milyona yaxın rus etnik azliği yaşayırdıki,bu da ölkə əhalisinin 40 faizdən çoxunu təşkil edirdi. Eyni zamanda rusların yaddaşlarında Türklər və Türkiyə hər zaman kənar kimlik, xalq, ölkə olaraq yer tuturdu. Buna görədə rus akademik və ekspertləri Türkdili danışan ölkələr birliyi ideyasını və Türkiyənin xarici siyasətini pantürkçülük ilə əlaqələndirirlər (5).

Ankara zirvəsinin Türk dövlətlər birliyinin yaradılmasında mühüm rolu oldu. İlk növbədə qeyd etmək lazımdır ki, bu zirvə toplantısı dövlət başçıları səviyyəsində keçirilən ilk zirvə toplantısı idi. Mətbuata bağlı şəkildə keçirilməsinə baxmayaraq bu zirvə toplantısı ölkələr arasında siyasi iradə və əməkdaşlıq baxımından harmoniya olduğunu və ölkələrin iqtisadi sahədə başqa alternativləridə dəyərləndirməyə meyilli olduğunu göstərdi. Sammitin əsas məqsədi Türk cumhuriyyətləri arasında əməkdaşlığı inkişaf etdirmək idi. Sammitdə Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Türkiyə nümayəndə heyəti iştirak etdi. Turqut Özalın öz nitqində qeyd etdiyi kimi “Türk Cumhuriyyətləri arasında əlaqələrin ikitərəfli formada inkişaf etdiyini və çoxtərəfli əməkdaşlığın inkişafı üçün zirvə toplantılarının keçirilməsinin vacibliyini vurğulayırdı”. Çoxtərəfli əlaqələrin inkişafı üçün irəli sürülən təklifləri aşağıdakı kimi sıralaya bilərik.

1) İqtisadi maneələrin aradan qaldırılması, sərbəst ticarətin təmin edilməsi, gömrük şərtlərinin sadələşdirilməsi.

2)İnkişaf bankının yaradılması eyni zamanda nəqliyyat və telekomminuka-siya əlaqələrinin inkişaf etdirilməsi.

3)Azərbaycan, Qazaxıstan, Özbəkistan və Türkmənistan neftinin Türkiyə vasitəçiliyi ilə Avropa bazarlarına çıxarılması.

Yüzillərlə birbirindən uzaq qalmış, birbiriləri əleyhinə siyasətə təhrik edilmiş Türkləri, uzun müddət sonra bir araya gətirməsinə görə Türk dövlətlər birliyi yaradılması yolunda keçirilən

sammitlər içərisində Ankara sammitinin özünə məxsus və müstəsna bir rolu var. Ankara sammitinin sonunda Ankara bəyanatı iştirakçı ölkələr tərəfindən imzalandı. Ankara bəyantının məzmununu aşağıdakı kimi qeyd etmək olar :

1) Ortaq tarix,dil və mədəniyyətə görə xalqlar arasındakı xüsusi əlaqələri qeyd edərək münasibətlərdə qardaşlıq, həmrəylik və əməkdaşlıq ruhunun hököm sürdüyünü qeyd etmişlər.

2) İştirakçı ölkələr arasında müstəqillik,suverenlik və bir -birilərinin ərazi bütövlüyünə hörmət, eyni zamanda bir -birilərinin daxili işlərinə qarışmamaq və bərabərlik prinsipləri əsasında əlaqələri və əməkdaşlığı daha da gücləndirmək qərarına gəldilər.

3) Birləşmiş Millətlər Təşkilatının Qanununu, Helsinki yekun Aktı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi zamanı qəbul edilmiş digər sənədlərin məqsəd və prinsipləri çərçivəsində Avrasiyada sülh, sabitlik və inkişafa töhvə vermək arzusu ilə əməkdaşlıq və sabitlik üçün birgə səy göstərməyin vacibliyini vurğulandı.

30-31 oktyabr 1992 - ci il tarixlərində Ankarada keçirilən zirvə toplantısından sonra bir çox qiymətləndirmələr oldu. Bəziləri bunu sadecə “zirvə” olaraq qiymətləndirsələrdə bəzi araşdırmacılar “çox gözəl və faydalı” olaraq adlan-dırdılar. Samittin əsas məqsədlərindən biri kimi müxtəlif mövzularda fikir mübadiləsi aparmaq və eyni zamanda zirvələrin keçirilməsinin davamlı bir hal almasını təşkil etmək idi. “Fikir mübadiləsi” kimi təşkil olunan sammitdə hər dövlət öz problemini ortaya qoydu. Nazarbayev və Niyazov qonşuları ilə münasibətlərinin “qardaşlıq aktı” kimi nəzərə alınacağını gözlədiklərini və beləliklə gəlcək ikitərəfli və çoxtərəfli münasibətlərin əsasını qoyacaqlarını bildirdilər. Elçibəy türk dilinin Birləşmiş millətlər dilləri içərisinə salınmasını təklif etmiş digər iştirakçılar isə bunu dəstəkləmişlər. Ortaq maraqlara əsaslanan ümumi siyasət ənənəsinin uzun müddət Rusiya müstəmləkəsi olan qardaş dövlətlər arasında formalaşması üçün zaman tələb olunduğu vurğulanmışdır.Bu ənənənin formalaşmasında əsas rol ilk dövrlərdə Türkiyə üzərinə düşürdü. Eyni zamanda zirvə toplantısında Türkiyə tərəfi “illərdir Rusiya, indi isə Türkiyə” fikrini azaltmaq üçün çox diqqətli davranmışdır ki bunu Türkiyə Başbaknının “Onlar bizim qardaşlarımızdır, bizim onları idarə etmək kimi bir məqsədimiz yoxdur. Onlar özləri özlərini idarə edərlər. Bizim əsas məqsədimiz onların köməyə ehtiyacı olduğu zaman onlara kömək etməkdir. Ankara zirvəsi yenicə müstəqillik qazanmış, demokratikləşmə yolunda irəliləyən türk dövlətləri arasında əlaqələrin qüvvətlənməsində uğurlu rol oynadı”.

Sammitdə zirvə toplantılarının mütəmadi olaraq keçirilməsi qərara alındı. Bu çərçivədə 1993-cu ildəki sammitin Bakıda keçirilməsi, eyni zamanda Xarici İşlər Nazirləri arasında ildə ən az bir dəfə olmaq şərti ilə mütəmadi məsləhətləşmə görüşlərinin keçirilməsi qərara alındı. Azərbaycan və Ermənistan arasında baş verən Dağlıq Qarabağ problemi və Birləşmiş Millətlər təşkilatının o zaman keçirilən görüşünə görə zirvə toplantısı 1994-cü ildə İstanbulda keçirildi (6).

Görüşün gecikməsinin digər səbəbi kimi isə həmin dövr üçün görüşün keçirilməsinin Mərkəzi Asiya dövlətləri üçün prioritet olmaması göstərilə bilər. Eyni zamanda Rusiyanın təsiridə gözardı edilə bilməz. Görüş keçirilməmişdən əvvəl Rusiya Xarici İşlər Nazirliyi mətbuat katibi görüşdə iştirak edən dövlətlərin pantürkçülük ideyalarına qatılmalarından nararhat olduqların bəyan etdi. Süleyman Demirel isə Rusyanın narahatlığının əsassız olduğunu vurğuladı. Təsadüfi deyilki toplantıdan sonra keçirilən mətbuat konfransında jurnalistlərin bununla bağlı sualına Süleyman Dəmirəl belə cavab vermişdir "Əgər Rusiya İstanbulda keçirilən və birlik, bərabərlik, sülh, istiqlal, məqsədi daşıyan bu toplantını özlərinə qarşı düşmənçilik kimi başa düşürlərsə bu səhvdir. Toplantının qəbul etdiyi bəyannamədə pantürkizimdən əsər əlamət yoxdur. Biz ayrı-ayrılıqda, yaxud birlikdə kimisə təkləmək fikrində deyilik... Biz müştərək mədəniyyətə, müştərək taleyə, keçmişə, müştərək dinə malik olan xalqlarıq. Bunu tarix belə yetirmişdir (7 səh.538). İstanbul sammitində Azərbaycan, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Türkiyə dövlət başçıları iştirak edirdi. İstanbul zirvə toplantısında çıxış edən Heydər Əliyev Ankara

zirvəsində alınan qərarların mühümlüyünə diqqət çəkərkən, eyni zamanda qərarların tam olaraq həyata keçirilməməsini də itiraf edilməli olduğunu vurğulamışdır (8). Süleyman Dəmirəl isə Mərkəzi Asiya ölkələri başçılarının görüşünü "İstanbul sammitinin əsas məqsədi türk xalqlarının mədəni və tarixi ortaqlığı əsasında işgüzar ticari əlaqələr qurmaqdır" sözləri ilə açmışdır. Qeyd etmək lazımdır ki, həmin dövrdə artıq dəyəri 3,5 milyard dollar olan 178 birgə layihə həyata keçirilirdi. Eyni zamanda 1992-ci ildə Türkiyə ilə digər Sovet dövlətləri arasında ticarət dövriyyəsi 276 milyon dollar təşkil edirdisə artiq 1993 cü ildə bu rəqəm 640 milyon dolları ötüb keçmişdi (9). Bunu isə Ankara sammitinin uğuru kimi adlandırmaq olar.

İstanbul zirvəsində əsasən dövlətlərin ərazi bütövlüyünə hörmət, bir -birilərinin daxili işlərinə qarışmamaq, suverenlik və bərabərlik prinsipləri vurğulanmışdır. İstanbul Sammitinin bəyannaməsinə əsasən qəbul edilən qərarları aşağıdakı kimi sıralaya bilərik.

1) Zirvə toplantısında iştirak edən ölkələrin liderləri öz ölkələrindəki təbii ehtiyatların xüsusilə isə neft və təbii qazın istismarının ən qənaətcil şəkildə və qısa müddətdə dünya bazarına çıxarılmasının vacibliyini vurğulamışlar. Bu istiqamətdə birgə layihələrin hazırlanması və həyata keçirilməsi ilə bağlı öz təkliflərin irəli sürdülər. Bunun üçün təbii qaz və neftin Türkiyə vasitəçiliyi ilə Avropa və Aralıq dənizinə nəqli kimi təkliflər yer almışdır.

2) Azərbaycan Ermənistan arasındakı münaqişənin BMT TŞ qəbul etdiyi qətnamələr əsasında sülh yolu ilə həll olunmasının zəruriliyin qeyd etdilər.

3) Sammitdə iştirak edən ölkələrin beynəlxalq təşkilatlarda, xüsusilə Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında iştirakının vacibliyi vurğulandı (10).

Eyni zamanda ölkələr arasında ticarətin inkişafı üçün tarixi İpək yolunun canlandırılması, ölkələr arasında hava, quru, dəniz əlaqələrinin inkişaf etdirilə bilməsi üçün yeni əlaqələrin yaradılması da nəzərdə tutulurdu.

Dəfələrlə təxirə salınmasına çətin bir dövrdə keçirilməsinə baxmayaraq İstanbul sammiti Ankara sammitindən daha uğurlu oldu. Görüş zamanı "qardaşlıq ruhu" kimi ifadələrin istifadə olunması Ankara sammitinin uğurlarından biri kimi hesab etmək olar. Xüsusilə suverenliyə və dövlətlərin ərazi bütövlüyünə hörmət kimi müddəalar İstanbul sammitinin daha uğurlu olmasının göstərgəsidir. Birinci sammitdən fərqli olaraq İstanbul sammitində dövlət başçıları fəallıq nümayiş etdirdilər. Sammitdə Qazaxıstan prezidenti N.Nazarbayev Avrasiya iqtisasiyyatının təşkili ideyası ilə çıxış etdi. Xəzər hövzəsi karbohidrogen ehtiyyatlarının Türkiyə vasitəsilə ixracının müzakirəsi isə Türkiyə diplomatiyasının uğuru kimi qiymətləndirmək olar. Həmçinin Xəzərin hüquqi statusu məsələsidə ayrıca olaraq müzakirə olundu. Türk dövlətlərində olan resursların istifadəsi üçün iştirakçı dövlətlər əməkdaşlıq etməkdə maraqlı olduqlarını bəyan etdilər. İstanbul sammitinin yekun bəyannaməsinin 20-ci maddəsində türk dövlətləri qeyd edirdilər ki əməkdaşlığın qurulmasında maraqlı olan digər ölkələrin iştirakı ilə tarixi "İpək yolu" -nun dirçəlməsinə səbəb ola bilər.Bu isə türk dövlətləri və türk xalqları arasında iqtisadi, siyasi, və mədəni əlaqələrin inkişafına səbəb olar. Ümumiyyətlə 1992 -1995- ci illərdə türkdilli dövlətlər arasında əlaqələr əsasən ikitərəfli qaydada yəni Azərbaycan - Türkiyə, Türkiyə - Orta Asiya ölkələri konteksində inkişaf etdirilirdi.

Bu dövrün özünəməxsus səciyyəvi cəhəti kimi region ölkələrinin sovet təsirindən qurtulmaq üçün Türkiyənin köməyi ilə yerli kadrlar yetişdirmələrini göstərmək olar. Türkiyə ilə bağlanmış təqaüdlü tələbə mübadiləsi proqramına görə yeni mütəxəsislər hazırlanması layihəsi qəbul edilmişdir. Türkiyə cumhuriyyəti isə öz növbəsində "Böyük Tələbə Layihəsi" -ni həyata keçirmiş və region dövlətlərinin hərəsinə iki min olmaqla toplamda 10000 tələbəyə təqaüdlü təhsil imkanı vermişdir. Həmin dövrdə ölkələr əsasən Türkiyənin köməyi ilə gənc kadrların yetişdirilməsinə və müstəqilliklərinin möhkəmləndirilməsinə əsaslanan xarici siyasət yeridirdilər.

Göründüyü kimi müasir türkçülüyün klassik türkçülükdə olduğu kimi əsas məqsədi müstəqil türk dövlətlərinin bir fövqəldövlətə və ya konfederasiyaya çevrilməsi yox, beynəlxalq sistemin suveren subyektlərinin birliyi kimi təşəkkül tapmasıdır.Bu prosesi isə rəsmi olaraq başladan Ankara və İstanbul sammitləri oldu. Türk birliyi ideyasını reallığa çevirən sammitlər arasında hər iki zirvə görüşü özünə məxsus yer tutur.

Ümümiyyətlə türk birliyi ideyası dedikdə - özünün rasional ideoloji əsasları olan və daim inkişaf edən yeni - yeni yanaşmalarla öz quruluşunu təkmilləşdirən, məzmununu inkişaf etdirən canlı və dinamik bir sistem nəzərdə tutulur.

## ƏDƏBİYYAT


1. Cavanşir Feyziyev . Türk Dövlətlər Birliyi. Bakı 2013 səh 313 .
2. Türk Yurdu 2014 oktyabr. Nömrə 326. Türk Keneşi, Türk Devletleri Arasında Birlik Kurmanın Somut Adımıdır ( səh.100) .
3. Türkdili danışan ölkələr işbirliyi Şurası.http://www.turkkon.org .
4. Nursultan Nazarbayev "Yüzyılların kavşağı" Ankara 1997.səh.302.
5. Pantürkçülük - Rus lüğətlərində Ruslar tərəfindən mənfi rəf ifadə edən söz olub D.N.Uşakovun lüğətində isə Türkiyənin rəhbərliyi ilə bütün türk dilində danışan xalqların birləşməsi olaraq tərif edilmişdir. Pravda qəzeti isə Pan Türkçülüyün əvvəlki SSRİ tərkibində olan türk dövlətlərinin Rusyanın strateji və ticari məqsədlərinə, eyni zamanda Rusyanın torpaq bütünlüyünə təhdit kimi qiymətləndirilmişdir. Buna görə də ikinci sammitin keçirilməsi bir il gecikmə ilə mümkün olmuşdur.
6. https://turkkon.org .tr Türk devletleri birliği zirveler tarihçesi.
7. Əli Həsənov.Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.Bakı 2005. " Azərbaycan " nəşriyyatı..Səh .637.
8. https://lib.aliyevheritage.org ÇALIŞMALARI / DIŞ POLİTİKA / Azerbaycan - Türk Dünyası Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı Haydar Aliyev`in Türk Cumhuriyetleri Devlet Başkanları 2. Zirvesi`nin açılışında yaptığı konuşma - 18 Ekim 1994.
9. https://www.kommersant.ru Стамбульский форум: у подножия тюркского колосса 20.10.1994.Газета «Коммерсантъ» №199.
10. “İstanbul Bildirisi”,Türk keneşi http: //turkkon.org “İstanbul Bildirisi”, TürkKeneşi, http://www.turkkon.org/Assets/dokuman/10_istanbul Bildirisi. Devlet Baskanlari Zirve Bildirisi .


## TÜRK DÖVLƏTLƏRİ BİRLİYİNİN YARANMASI YOLUNDA İLK ADDIM: ANKARA VƏ İSTANBUL SAMMİTLƏRİ

***Xəyyam İsmaylzadə, Aytən Həsənova***

## XÜLASƏ

Məqalədə Türk Dövlətləri Birliyi çərçivəsində Azərbaycan- Türkiyə arasında dostluq-qardaşlıq əlaqələri, eyni zamanda, türk dövlət başçılarını bir araya gətirən və onlar arasında bütün əlaqələrin inkişafına təkan verən Ankara və İstanbul Sammitlərində qəbul olunan qərarlar və onların beynəlxalq nəticələri haqqında bəhs olunur.

## ПЕРВЫЙ ШАГ К СОЗДАНИЮ СОЮЗА ТУРЕЦКИХ ГОСУДАРСТВ: САММИТЫ В АНКАРЕ И СТАМБУЛЕ

***Хайям Исмаилзаде, Айтен Гасанова***

### АННОТАЦИЯ

В статье рассказывается о дружественно-братских отношениях между Азербайджаном и Турцией в рамках Союза тюркских государств, а также о решениях, принятых на саммитах в Анкаре и Стамбуле, собравших вместе глав турецких государств и стимулировавших развитие всех отношения между ними и их международные последствия.

## THE FIRST STEP IN THE CREATION OF THE UNION OF TURKISH STATES: ANKARA AND ISTANBUL SUMMITS

***Khayyam Ismailzadeh, Ayten Hasanova***

### SUMMARY

The article talks about the friendly-fraternal relations between Azerbaijan and Turkey within the framework of the Union of Turkic States, as well as the decisions made at the Ankara and Istanbul Summits, which brought together the Turkish heads of state and encouraged the development of all relations between them, and their international consequences.

# AZƏRBAYCAN-FRANSA MƏDƏNİ ƏLAQƏLƏRİ

***dosent İsmayılzadə Xəyyam,***
***ekonika22@yahoo.com***
***Abbaszadə Elmira Fərəc qızı***
***BDU-nun II kurs magistrantı***
***elmira.abbaszade5@gmail.com***

***Açar sözlər:*** Azərbaycan Respublikası, Fransa Respublikası, UNESCO, Heydər Əliyev Fondu, Şərq, Qərb, mədəniyyət, incəsənət, mədəni əlaqələr, ipək yolu.
***Ключевые слова*:** Азербайджанская Республика, Французская Республика, ЮНЕСКО, Фонд Гейдара Алиева, Восток, Запад, культура, искусство, культурные связи, Шелковый путь.
**Keywords:** Republic of Azerbaijan, Republic of France, UNESCO, Heydar Aliyev Foundation, East, West, culture, art, cultural relations, silk road.

Məqalədə müstəqil Azərbaycan Respublikasının Avropanın aparıcı dövləti olan Fransa Respublikası ilə mədəni əlaqələrinin geniş izahı verilir. Bu əlaqələr 300 ildən artıq tarixə malik olsa da, xüsusilə, Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra daha da inkişaf etmişdir. Fransa Dağlıq Qarabağ münaqişəsinin həllində fəal rol oynayaraq ATƏT-in Minsk Qrupunun həmsədri kimi Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləmişdir ki, bütün bunlar da məqalədə hərtərəfli əks olunmuşdur.

Tarixən Şərqlə Qərb arasında "qızıl körpü" rolunu oynayan Azərbaycan dünyada mədəni miras baxımından dəyərli ölkələrdən biri olaraq tanınmışdır. Bu fakt beynəlxalq mədəni əlaqələrin yaranmasında və genişlənməsində əhəmiyyətli təsirə malikdir. Mütərəqqi düşüncəli ziyalılarımız daim Azərbaycan mədəniyyətini dünyaya tanıtmaq sahəsində geniş təbliğat işləri həyata keçirmişlər.

Azərbaycan mədəniyyəti tarixin bütün zamanlarında dünya sivilizasiyasının qabaqcıl dövlətlərinin, o cümlədən Qərbin mədəniyyət beşiyi hesab olunan Fransanın diqqət mərkəzində olmuşdur. Nizami Gəncəvinin "Xəmsə"sinin əlyazması hələ XIV əsrdən (1362-1366) Parisdə milli xalq kitabxanasında saxlanılır. "Xəmsə"ni ilk dəfə fransız dilinə Nizamişünas alim Klerambol tərcümə etmişdir (1741) [3, səh.211]. Bundan başqa, "Avesta"nın ilk tərcüməçisi Fransız alimi Anketil de Perron idi (1771). Onun tərcüməsi ədəbiyyat sahəsində böyük əks-səda doğurmuş, Fransa-Azərbaycan ədəbi əlaqələrinin əsasının qoyulmasında müstəsna rol oynamışdır. Fransanın mədəniyyət və incəsənət tarixinin qabaqcıl ziyalıları da Azərbaycan mədəniyyətinə biganə qalmamış, Azərbaycanın tarixi ənənələri, təbiəti, incəsənəti, dəyərli mütəfəkkirləri ilə yaxından tanış olmuşlar. Dünya ədəbiyyatı xəzinəsinə dərin töhfələr vermiş, həm də səyyah kimi tanınmış məşhur fransız yazıçısı Aleksandr Dümanın Azərbaycan haqqında xoş xatirələri böyük maraqla qarşılanır. Azərbaycanın təbiəti və insanları yazıçının ürəyində dərin izlər qoymuş, yazıçı "Nə olaydı, mənə bir də o yerlərə getmək qismət olaydı!" – demişdir [3, s.214].

Parisdə İren xanım kimi tanınan Ümmul Banunun Fransa-Azərbaycan mədəni əlaqələrinin formalaşmasında xüsusi rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ticarət naziri Mirzə Əsədullayevin qızı Ümmül Banu hələ 19 yaşında ikən (1924-cü ildə) Fransaya köçmüşdür. Fransızca yazan müəllif Azərbaycan xalqı və mədəniyyəti haqqında avropalıları məlumatlandırırdı. Onun "Qafqaz günləri", "Yad Fransa", "Paris günləri" əsərləri fransızlara çox yaxşı məlumdur [1, s.3].

Məşhur fransız yazıçısı Anri Barbüsün 1927-ci ildə Azərbaycana gəlişi Azərbaycan-Fransa mədəni əlaqələrinin inkişafında mühüm rol oynadı. Bakı haqqında təəssüratlarını görkəmli yazıçı özünün "Neft ölkəsində" adlı məqaləsində bu şəkildə ifadə etmişdir: "Əgər məndən sovet hakimiyyətinin həyata keçirtdiyi, yaratdığı ən təəccüblü, heyranedici işləri haqda soruşsalar, onda mən belə cavab verərdim: Bakıya baxın!" [5].

1919-cu ilin may ayından 1920-ci ilin aprelinə qədər Fransa-Azərbaycan münasibətləri rəsmiləşməyə başladı. 1919-cu il avqustun 9-da Fransa Azərbaycan və Gürcüstan ilə iqtisadi əlaqələri inkişaf etdirmək məqsədilə Paris prefekturası tərəfindən Fransa-Qafqaz komitəsi qeydiyyata alındı. Bu müddət ərzində 3 kitab, Azərbaycanın coğrafi xəritəsi, qəzet məqalələri və 12 xəbər bülleteni nəşr olunması nəzərdə tutulurdu. 1926-cı ildən “Azərbaycan” resenziyası Müsavat partiyası tərəfindən Parisdə çap olunaraq nəşr olunur. Sonrakı illərdə Azərbaycanın sovetləşməsi ilə Fransa ilə münasibətlər bütün Sovet ölkələrini əhatə edən Fransa-Sovet münasibətlərinə çevrildi. 1991-ci ildə SSRİ-nin süqutundan sonra Azərbaycan yenidən müstəqilliyini elan etdi. Fransa həmin ilin dekabrın 31-də ölkənin müstəqilliyini tanıdı [2, s.4].

1993-cü ilin oktyabrında Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti seçilməsi iki ölkə arasında yaxınlaşmanı sürətləndirdi. Prezident H.Əliyev öz ölkəsini beynəlxalq ictimaiyyətə tanıtdırmaq üçün səylər göstərirdi. Onun 1993-cü ilin dekabrında xaricə ilk rəsmi səfəri Fransa oldu və Fransa Respublikasının Prezidenti Fransua Mitteran ilə görüşdü. Bu yaxınlaşmanın nəticəsi olaraq 1993-cü il dekabrın 20-də Fransa ilə Azərbaycan arasında dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalandı, eləcə də 1994-cü ilin sonunda Azərbaycan Respublikasının Parisdə səfirliyi açıldı [1, s.2].

2011-ci il iyunun 16-da Fransanın əməkdaşlıq naziri Henri de Reynkur Qafqaza səfər çərçivəsində Azərbaycana gəldi. O, Azərbaycanın Baş Naziri Artur Rəsizadə ilə görüşmüş və Bakıda fransız məktəbinin layihəsini təsdiqləmişdir. Onu bir neçə həftə sonra, 2011-ci ilin iyulun 6-da Xarici və Avropa İşləri Naziri Alain Juppe əvəzləmişdir. Həmin ilin oktyabrın 6-7-də Fransa Respublikasının Prezidenti Nikola Sarkozi Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur [7].

2012-ci ildən etibarən Azərbaycan Fransanın Luvr Muzeyində İslam İncəsənəti Departamentinin tikinti işlərini dəstəkləyir. Hətta Azərbaycan Prezidenti onun açılışı üçün Fransaya da səfər etmişdir. 2012-ci il dekabrın 6-dan 9-dək Fransa Xarici İşlər Nazirliyinin Kontinental Avropa üzrə direktoru Erik Furnier iki ölkə arasında iqtisadi əlaqələri müzakirə etmək məqsədilə Bakıda rəsmi səfərdə olmuş və səlahiyyətli şəxslərlə görüşlər keçirmişdir [7].

2013-cü ilin fevralın 25-də Azərbaycanın kənd təsərrüfatı naziri Richemonts pendir fabrikləri, Haras milli du Pin və Aigle-dəki IMV şirkətlərinin işi ilə yaxından tanış olmaq üçün Fransanın Orne şəhərinə səfər etmişdir. Bu şəhər bir neçə həftə sonra Bakı şəhəri ilə qardaşlaşan ilk şəhər oldu. Bu görüşün sonunda Azərbaycan tərəfi 1000-2000 Normandiya inəyi almaqda maraqlı olduğunu bildirmişdi.

2014-cü ilin mayında Fransa prezidenti Fransua Olland Qafqaza səfər çərçivəsində ilk olaraq Azərbaycana gəldi. Burada o, azərbaycanlı həmkarı ilə görüşmüş və bir sıra fransız iş adamlarının müşayiəti ilə Bakı İqtisadi Forumunda iştirak etmişdir. Fransanın Azərbaycandakı səfirliyinin əməkdaşlıq və mədəni fəaliyyət şöbəsi hər il bu əməkdaşlıq üçün büdcə ayırır. 2012-ci ildə 385,063 avro vəsait ayıraraq hər il ikitərəfli universitet layihələrinin maliyyələşdirilməsini qarşısına məqsəd qoyur.

Universitetlərarası əməkdaşlıq həqiqətən də Fransa-Azərbaycan təhsil və mədəni əməkdaşlığının əsas istiqamətlərindən biridir. Hətta bütün Cənubi Qafqaz ölkələrində fransız dilini tədris edən çoxlu universitetlər var. 2012-2013-cü illərdə Fransa hökuməti fransız dilini öyrənmək istəyən azərbaycanlı tələbələrə 22 təqaüd ayırmışdır. Azərbaycanın 6 universiteti Azərbaycan Dillər Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Gəncə

Dövlət Universiteti, Lomonosov Universitetinin Bakı filialı və Naxçıvan Universiteti xarici dil kimi fransız dilində dərəcələr təklif edir. Fransanın Strasburq və ya Versaldakı İnstitut universitaire de Formation des Maîtres (IUFM) universitetləri fransız dili müəllimlərinin hazırlanmasına və ya tərcümə şöbələrinin yaradılmasına kömək etmək məqsədilə bu proqramların fəaliyyətini genişləndirirdilər. Azərbaycan da öz növbəsində, Fransa idmanına sərmayə qoyur və Racing Club de Lens -i maliyyələşdirirdi. 2002-ci ildən Bakıda yaradılmış Fransa Anadolu Araşdırmaları İnstitutunun filialı vasitəsilə Fransa ilə Azərbaycan arasında elmi-tədqiqat əməkdaşlığı inkişaf edir [9].

Azərbaycan-Fransa əməkdaşlığında mühüm yer tutan mədəniyyət mübadiləsini də xüsusi qeyd etmək lazımdır. Xüsusilə, 2011 və 2012-ci illərdə Fransada Azərbaycan mədəniyyətinin təbliği istiqamətində müxtəlif tədbirlər təşkil olunmuş, Heydər Əliyev Fondu Bellou-sur-Huisne kilsəsinin vitrajlarının bərpası layihəsinin maliyyələşdirilməsinə kömək etmişdir. Eyni zamanda, 2012-ci ildə Fransanın müxtəlif mədəniyyət departament layihələrinə 60.000 avro sərmayə qoyulmuşdur [8].

2013-cü il sentyabrın 16-da Fransa prezidenti Nikolya Sarkozi ilə İlham Əliyev arasında imzalanmış müqaviləyə əsasən Bakıda Fransız Liseyi öz qapılarını açmışdır. 2014-cü il mayın 12-də Fransa Prezidenti Fransua Ollandın Azərbaycana səfəri zamanı azərbaycanlı həmkarının müşayiəti ilə onun rəsmi açılışı elan olundu. Müəllimlər Fransa Milli Təhsil Nazirliyinin məktəb proqramlarını izləyir və diplomlar istənilən Fransa universitetinə daxil olmaq imkanı verir. Bu diplomun həm də təlimdən sonra azərbaycanlılara milli diplom almağa imkan verəcəyi də nəzərdə tutulurdu.

Azərbaycanda ən tanınmış fransızdilli birlik Bakı Frankofonlarıdır. Bu təşkilat 2012-ci ilin noyabrında Mathilde Nguyen-in sədrliyi ilə paytaxtda yaşayan fransızlardan yaradılmışdır. O, Azərbaycana yeni gələn fransızlara praktiki məlumatlar verir və müxtəlif fəaliyyətlər təklif edir.

Azərbaycanlıların Fransaya miqrasiyası 19-cu əsrin sonlarında başlamış və 1920-ci ildə ölkədə bolşevik ideologiyasının hökm sürməsi ilə daha da güclənmişdir. Azərbaycan Cümhuriyyətinin qurucularının bəziləri Fransada məskunlaşmışdı. Azərbaycanın sovetləşməsi bu prosesə son qoydu və Azərbaycan müstəqillik əldə etdikdən sonra yenidən inkişaf etməyə başladı.

Çoxşaxəli və sıx olan Fransa-Azərbaycan əlaqələri xüsusilə təhsil, mədəniyyət və elm sahələrində parlaq uğurlar qazanmaqdadır. Belə ki, 2003-cü ildən Bakıda Fransız Mədəniyyət Mərkəzi yaradılmış, ilkin olaraq 2011-ci ildə “Le Center George Sand” Fransız İnstitutuna çevrilmişdir. SOCAR tərəfindən maliyyələşdirilən və Fransanın Dünyəvi Missiyasının tərəfdaşlığı ilə idarə olunan Fransız Liseyi 2013-cü ildən istifadəyə verilmişdir [8]. 30-a yaxın universitetlərarası müqavilə əsasında Azərbaycanın təhsil müəssisələri Fransa universitetləri ilə sıx əməkdaşlıq edir və hal-hazırda 697 azərbaycanlı tələbə Fransanın ali təhsil müəssisələrində təhsillərini davam etdirirlər.

Fransa-Azərbaycan Universiteti (UFAZ) təhsil və elm sahəsində ikitərəfli əməkdaşlığımızda xüsusilə seçilir. Strasburq Universiteti ilə bakalavr səviyyəsində 4 sahədə (kimya mühəndisliyi, kompüter elmləri, geofizika/geoloji elmlər, neft və qaz mühəndisliyi) və magistr səviyyəsində 3 sahədə (Məlumat elmləri və süni intellekt, Yer elmləri, Mühəndislik) ikiqat dərəcələr verir. Bu universitetlər 2021-2022-ci tədris ilində 688 tələbə qəbul etmişdir ki, onların 30%-ə yaxını qadınlardır. Müəssisə ölkənin gələcək elmi potensialını yetişdirmək məqsədi daşıyır. Hazırda Fransada magistratura səviyyəsində nüfuzlu müəssisələrdə (École Polytechnique de Paris və IFP School daxil olmaqla) təhsillərini davam etdirən 10 UFAZ məzununa təqaüdlər verilir [4].

2021-2022-ci illərdə II Lyon Universiteti ilə Bakı Dövlət Universiteti arasında əqli mülkiyyət hüququ sahəsində və 2019-cu ildən Montpellier Universiteti ilə UNEC (Azərbaycan İqtisad Universiteti) arasında “biznesin idarə edilməsi” üzrə magistr dərəcəsi səviyyəsində əməkdaşlıq

inkişaf etməkdədir. Azərbaycanda fransız dili müəllimləri həm ölkədə, həm də Fransada fəaliyyət göstərən universitetlər tərəfindən maliyyələşdirilən təlimlərdən faydalanırlar.

Fransanın Avropa və Xarici İşlər Nazirliyi uzun müddətdir ki, Fransanın Azərbaycanda fəaliyyət göstərən üç arxeoloji missiyasına- Lənkəran, Bassin de Araxe və Böyük Kəsikə maliyyə dəstəyi vermişdir. 2019-cu ilin yayında Fransa səfirliyi tərəfindən Bakıdakı Təsviri İncəsənət Muzeyində təşkil olunmuşdur. Fransanın Institut français müəssisəsi mədəni fəaliyyəti artırmağa çalışır. O cümlədən, İnstitut 2021-ci ildə keçirilən 4-cü Azərbaycan Beynəlxalq Animasiya Filmləri Festivalında iştirak etmişdir. Fransız İnstitutunun Azərbaycanda sponsorluq etdiyi mükafatın qalibi 2022-ci ildə Annesi Beynəlxalq Festivalında iştirak edə biləcəkdir.

Son illər Fransa ilə Azərbaycan arasında mədəni-humanitar əlaqələr yeni səviyyəyə yüksəlmişdir. Bu əlaqələrin inkişafında Azərbaycanın tərəqqisi, mədəniyyətinin inkişafı və tarixinin tanıdılması istiqamətində misilsiz fəaliyyət göstərən Heydər Əliyev Fondunun rolu danılmazdır. Məhz yarandığı gündən etibarən Fondun məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan həqiqətləri bu gün dünya ölkələrində yayımlanır, ölkəmizin siyasi, ictimai, mədəni mənzərəsi yüksək səviyyədə təbliğ edilir. Fondun "gerçək Azərbaycan → tarixi Azərbaycan → dünyəvi Azərbaycan" prinsipial təməllərə əsaslanan fəaliyyəti qarşıya qoyulan missiyanın göstəricilərindən biridir.

Çoxşaxəli və keyfiyyətli olan Fransa-Azərbaycan əlaqələri xüsusilə, təhsil, mədəniyyət və elm sahələrində nailiyyətləri ilə əlamətdardır. Bundan başqa, Fransa Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biridir. "Azərbaycan ilə Fransa arasında münasibətlər inkişaf etməkdə davam edəcəkdir." Bunu Fransa Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lemuan Bakıda keçirdiyi brifinqdə demişdir. O, Fransanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin ancaq sülh yolu ilə həll edilməsini vacib saymışdır. Fransa Xarici İşlər Nazirliyinin dövlət katibi koronavirus pandemiyasına baxmayaraq, iki ölkə arasında iqtisadi əlaqələrin səviyyəsinin 20%-ə qədər artdığını da diqqətə çatdırmışdır.

J.B.Lemuan Bakıya səfəri zamanı hökumətdə bir sıra görüşlər keçirmiş, mədəniyyət naziri ilə iki ölkə arasında əlaqələrin 30 illiyinə həsr olunmuş sərginin keçirilməsi, o cümlədən, Azərbaycanda fransız dilinin öyrənilməsinə marağın artırılmasını müzakirə etmişdir. Bundan başqa, dəmir yolları sahəsində və "ağıllı şəhər" layihələri çərçivəsində əməkdaşlıq məsələləri də müzakirə olunmuşdur [10].

Ümumiyyətlə, Azərbaycan-Fransa münasibətləri öz xarakterinə və mahiyyətinə görə sülh və təhlükəsizliyə xidmət etməklə yanaşı, eyni zamanda, Avropada və Cənubi Qafqazda iqtisadi tərəqqiyə geniş imkanlar açır. Strateji tərəfdaşlıq səviyyəsinə yüksələn bu əməkdaşlıq hər iki dövlətin və xalqın qarşılıqlı milli maraqlarına xidmət etməkdədir. Bu gün iki ölkə arasında münasibətlər bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edir və əminliklə demək olar ki, yaxın gələcəkdə də qarşılıqlı münasibətlər yeni zirvələrə yüksələcəkdir.

## ƏDƏBİYYAT

1. Abutalıbov. R. Azərbaycan xaricdə necə təbliğ edilir? [YUNESKO üzrə Azərbaycan Milli Komitəsinin Baş Katibi və Fransa - Azərbaycan Dostluq Assosiasiyasının icraçı katibi ilə müsahibə] //Xalq qəzeti.-1999.-20 may.
2. Abdullayev. M. Azərbaycan-Fransa möhkəm dostluq üçün yaxşı zəmin //Bakı. - 1997.-24 oktyabr.
3. Həsənov. Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı,2005,səh.631.
4. "Report" İqtisadiyyat Nazirliyi - https://report.az/biznes-xeberler

5. İtaliyada qanunvericilik seçkiləri: https://www.lagazetteaz.fr/news/international/7995
6. France Diplomatie - https://www.diplomatie.gouv.fr/fr
7. Azərbaycan Respublikasının Fransa Respublikasındakı Səfirliyi https://paris.mfa.gov.az/fr/content/36/
8. France et l'Azerbaïdjan au regard des objectifs français de développement de la paix et de la démocratie au Sud Caucase (1) - https://www.assemblee-nationale.fr/14/rap-info/i4511-tii.asp
9. Thierry Mariani: ``Je soutiens l'Azerbaïdjan dans le règlement du conflit de Haut Karabakh`` - https://fr.azvision.az/news/116873/
10. Azərbaycanla Fransa arasında münasibətlər -https://ru.frwiki.wiki/wiki/

## AZƏRBAYCAN - FRANSA MƏDƏNİ ƏLAQƏLƏRİ

***İsmayılzadə Xəyyam, Abbaszadə Elmira***

### XÜLASƏ

Məqalədə müstəqil Azərbaycan Respublikası ilə Avropanın aparıcı ölkəsi olan Fransa Respublikası arasında mədəni əlaqələr ətraflı izah olunur. Bu münasibətlər 300 ildən artıq tarixə malik olsa da, xüsusilə Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra daha da inkişaf edib. Fransa Dağlıq Qarabağ münaqişəsinin həllində fəal rol oynayıb, ATƏT-in Minsk qrupunun həmsədri kimi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib, bütün bunlar məqalədə hərtərəfli öz əksini tapıb.

## АЗЕРБАЙДЖАНО-ФРАНЦУЗСКИЕ КУЛЬТУРНЫЕ СВЯЗИ

***Хайям Исмаилзаде, Э.Ф.Аббасзаде***

### АННОТАЦИЯ

В статье подробно разъясняются культурные связи между независимой Азербайджанской Республикой и ведущей европейской страной, Французской Республикой. Хотя эти отношения имеют более чем 300-летнюю историю, они получили дальнейшее развитие, особенно после того, как Азербайджан во второй раз обрел независимость. Франция сыграла активную роль в урегулировании нагорно-карабахского конфликта и поддержала территориальную целостность и суверенитет Азербайджана в качестве сопредседателя Минской группы ОБСЕ, все это всесторонне отражено в статье.

## AZERBAIJAN-FRANCE CULTURAL RELATIONS

***Khayyam Ismayilzadeh, E.F.Abbaszadeh***

### XÜLASƏ

The article provides a detailed explanation of the cultural relations between the independent Republic of Azerbaijan and the leading European country, the Republic of France. Although these relations have more than 300 years of history, they have developed further, especially after Azerbaijan gained its independence for the second time. France played an active role in the resolution of the Nagorno-Karabakh conflict and supported the territorial integrity and sovereignty of Azerbaijan as the co-chairman of the Minsk Group of OSCE, all of which are comprehensively reflected in the article.

# TURİZM BAZARININ MAHİYYƏTİ VƏ İNKİŞAFI

***iqtisad üzrə fəlsəfə doktoru Zöhrab Eyvazov***
***BDU-nun İqtisadiyyat kafedrasının dosenti,***
***İbrəhim Babayev Yaşar***
***BDU-nun II kurs magistrantı:***
***E-mail: babayevibrahim56@gmail.com***

**Açar sözlər:** Turizm bazarı, iqtisadiyyat, dövlət mexanizmi, sənaye
***Ключевые слова:*** туристический рынок, экономика, государственный механизм, промышленность
***Keywords:*** Tourism market, economy, state mechanism, industry.

**Giriş.** Turizm bazarı elə bir iqtisadi münasibətlər sistemidir ki, burada turist və ekskursiya xidmətlərinin pula, pulun isə əksinə olaraq turist və ekskursiya xidmətlərinə dəyişdirilməsi prosesi baş verir.

Başqa sözlə, turizm bazarı turizm məhsulunun istehsalçıları və istehlakçıları arasında iqtisadi əlaqələrin təzahür sferasıdır. Əgər turizm məhsulunun istehsalçısı və istehlakçısının iqtisadi maraqları üst-üstə düşürsə, onda turizm məhsulunun alqı-satqısı aktı baş verir.

Turizm bazarı üç əsas şərtə riayət edildiyi halda səmərəli fəaliyyət göstərir [2]:

- istehsalçıların sərbəst rəqabəti;
- istehlakçıların sərbəst seçimi imkanı;
- göstərilən xidmətlərin keyfiyyəti və təhlükəsizliyi sahəsində hamı üçün eyni qaydaların mövcudluğu.

Turizm bazarının əsas funksiyaları bunlardır:

1. Turizm məhsulunun tərkibində olan dəyərin və istehlak dəyərinin reallaşdırılması.
2. Turist məhsulunun istehlakçıya (turistə) çatdırılması prosesinin təşkili.
3. Əməyə maddi həvəsləndirmənin iqtisadi təminatı.

Turist bazarının birinci funksiyanı yerinə yetirməsi prosesində mübadilə vasitəsilə əks olunan qiymət dinamikası baş verir. Bu mübadilənin başa çatdırılması əmtəə-pul münasibətləri aktının başa çatdırılması, turizm məhsulunda olan dəyərin reallaşması və onun istehlak dəyərinin ictimai tanınması deməkdir. Nəticədə ictimai təkrar istehsalın normal gedişi təmin edilir, turizm sənayesinin inkişafı üçün vəsaitlər yaranır və toplanır.

Turizm məhsulunun istehlakçıya çatdırılması prosesinin təşkili funksiyası turizm agentləri və turoperatorlar şəbəkəsinin yaradılması yolu ilə həyata keçirilir [6].

Əməyin maddi həvəsləndirilməsinin iqtisadi təminatı funksiyası, turizm bazarında mübadilə prosesində təkrar istehsalın zəruri mərhələsi kimi meydana çıxır. İşçilər turizm məhsulunun keyfiyyətinin yaxşılaşdırılması və kəmiyyətinin artırılması, istehlakçıların tələbatına uyğun məhsul istehsalı üçün maddi həvəsləndirici tədbirlərlə təmin edilir(məsələn, əmək haqqı və.s).

İstənilən bazar, istər klassik, istərsə də müasir, öz fəaliyyəti zamanı üç əsas iqtisadi qanunun hərəkətinə əsaslanır: dəyər qanunu, tələb və təklif qanunu, rəqabət qanunu. Eyni zamanda tələb və təklif qanunu bazarda istehlakçıların davranışını formalaşdırır, rəqabət qanunu isə bazarın fəaliyyət mexanizmi kimi çıxış edir.

Turizm bazarı turizm məhsulunun istehsalçısı və istehlakçısı olan subyektlərin, yəni hüquqi və fiziki şəxslərin mövcudluğu ilə xarakterizə olunur. Turizm bazarının üç subyektini ayırd etmək olar: turistlərin özləri (turizm məhsulunun istehlakçıları), turoperatorlar və turagentlər.

Turizm sənayesinin təşəkkülü əsasən dövlətin siyasətindən asılıdır. Düşünülmüş dövlət turizm siyasəti beynəlxalq turizm sahəsində əməkdaşlığın genişlənməsinə imkan yaradır, innovasiyalardan və informasiya texnologiyalarından səmərəli istifadə etməklə turizm sənayesinin rəqabət qabiliyyətini artırır. Azərbaycan yüksək turizm-rekreasiya potensialına malikdir. Bir çox regionlarda potensial cəlbedici turizm obyektlərinin geniş spektri təqdim edilib ki, onların inkişafı bütün növ baza infrastrukturu yaradılmadan mümkün deyil. Lakin ölkənin turizm potensialından heç də tam istifadə olunmur [5].

Azərbaycanda turizm sənayesi beynəlxalq iqtisadi münasibətlərin inkişafında böyük rol oynayır. Ölkələr arasındakı əlaqələrin intensivliyi münaqişələrin yaranması riskini azaldır. Turizmdən əldə olunan gəlirlər əhalinin müxtəlif təbəqələri arasında bölüşdürülür. Turizm sənayesi bir çox iş yerləri yaradır və əhalinin məşğulluğunun təmin edilməsində mühüm rol oynayır. Son zamanlar daxili və xarici turizmin inkişaf səviyyəsi bir-birinə yaxınlaşmışdır.

Turizm sahəsində aparılan siyasət, viza, gömrük və digər rəsmiyyətlərin sadələşdirilməsi turizmin inkişafına kömək edir. Belə ki, Qərbi Avropa ölkələri tərəfindən bağlanmış Şengen razılaşması iştirakçı ölkələr arasında gömrük rəsmiləşdirilməsini sadələşdirib və turistlər maneəsiz olaraq bu ölkələrin ərazisi ilə hərəkət edə bilirlər.

Turizm tarixi abidələrin qorunub saxlanılmasını, şəhər və kəndlərin abadlaşdırılmasını, yolların tikintisini, infrastruktur obyektlərinin inkişafını tələb edir. Turizmin inkişafı çoxlu iş yerləri yaradır, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafını sürətləndirir [4].

Turizm iqtisadi hadisə kimi ciddi diqqətə layiqdir, çünki region iqtisadiyyatına təsir göstərir və eyni zamanda, ondan asılıdır. Bir çox müəlliflər turizmin sosial iqtisadi mühitə təsirinin müsbət amilləri sırasında aşağıdakıları qeyd edirlər [1]:

- İş yerlərinin sayının artması. İnkişaf etmiş ölkələrdə turizm iş yerlərinin 3-5% - ni təşkil edir;
- Turizm inkişafı zamanı dolayı yolla digər sahələrə də təsir göstərir (ümumi və yol, qida sənayesi və s.);
- Müəlliflərin əksəriyyəti tərəfindən qeyd olunan turizmin "çarpma effekti", yəni turizmə yatırılan pullar sürətli dövriyyəyə meyllidir;
- Turizm sənayesi yüksək dinamikaya malikdir, turizmdən valyuta daxilolmalarının məbləği hər il 8-12% artır;
- Malların və xidmətlərin milli istehsalında struktur dəyişiklikləri;
- Xarici kapitalın cəlb edilməsi və valyuta ilə gəlir əldə edilməsi;
- Xaricdə ölkənin iqtisadi imicinin yaradılması;
- Milli parkların və qoruqların yaradılması;
- İncəsənət əsərlərinin və ənənələrinin qorunması.

Mənfi amillərə aiddir:

- Aşağı maaşlı iş və iş həftəsinin böyük müddəti nəticəsində kadrların axıcılığı;
- Bir sıra rayonlarda turizm işçi qüvvəsinin azlığı;
- məhsuldar sahələrin sıxışdırılması;
- Turizm sənayesinin inkişafı böyük investisiyalar tələb edir, inkişaf etməkdə olan ölkələrin əksəriyyəti isə kapital çatışmazlığını yaşayır, buna görə də təbii ehtiyatlar olsa belə, turizm sənayesini inkişaf etdirmək çətindir.

Azərbaycanda turizmin inkişaf meyillərinin təhlili göstərir ki, turizm yüksək reklam-informasiya texnologiyaları səviyyəsinə malik ölkələrdə təbii-iqlim, iqtisadi, sosial və siyasi amillərlə yanaşı, daha sürətli templərlə inkişaf edir [3].

Turizmin cəlbediciliyi qoyulan vəsaitlərin tez bir zamanda geri qaytarılmasından və qısa müddət ərzində gəlir əldə etməkdən ibarətdir. Əsas xüsusiyyətlərinə görə turizm onu təsərrüfat

fəaliyyətinin digər formalarından fərqləndirən bir sıra prinsipial spesifik xüsusiyyətlərə malikdir. Nəzərə almaq lazımdır ki, bu spesifiklik bilavasitə qeyri-əlaqəsizlikdə, keyfiyyətin qeyri-sabitliyində, xəbərin saxlanmasının mümkünsüzlüyündə və xəbərin mənbə ilə qırılmamasında ifadə olunan turizm xüsusiyyətləri ilə bağlıdır.

Turizmdə fəaliyyətin nəticəsi turizm məhsullarının istehsalına düşür. Turizm məhsulu-səyahət zamanı turistlərin müəyyən tələbatlarını ödəyən və turistlər tərəfindən ödənilən məhsulların, işlərin və xidmətlərin məcmusudur. Bu komponentlərə mehmanxana, nəqliyyat, ekskursiya, tərcümə, məişət, kommunal, vasitəçilik və digər xidmətlər daxildir. Turizm məhsulu məhsul kimi istehlak dəyəri, yəni turistlərin rekreasiya, istirahət, əyləncə və s. müəyyən tələbatlarını ödəmək üçün faydalılığı və qabiliyyəti ilə xarakterizə olunur.

Turist xidmətlərini səyahət zamanı turistlərin təlabatının ödənilməsində rolundan asılı olaraq əsas, əlavə və müşayiətedici turist xidmətlərinə ayırmaq olar.

Əsas turist xidmətləri bilavasitə turist məhsulunu formlaşdırır, onsuz turları təşkil etmək qeyri-mümkündür. Onlara aşağıdakıları aid etmək olar:

- nəqliyyat xidmətləri;
- yerləşdirmə xidmətləri;
- bələdçilik xidmətləri;
- ekskursiyaların baza dəsti

**Şəkil 1.1. Turist xidmətlərinin təsnifatı**




Azərbaycanda turizm xidmətlərinin çeşidinin genişlənməsi ilə əhalinin təkcə sektorun özündə deyil, həm də əlaqəli sektorlarda (ticarət, məişət xidməti, qidalanma, nəqliyyat, rabitə, kənd təsərrüfatı, xalq istehlakı mallarının istehsalı və s.) məşğulluğu təmin edilir. Qeyd etmək lazımdır ki, turizm müasir inkişaf şəraitində məşğulluğun təmin edilməsində əlaqələndirici bənd rolunu oynayır [2].

Son illər Azərbaycanda beynəlxalq turizm sürətlə inkişaf edir, orta illik iqtisadi artımın 4,3%-ni təmin edir. Hazırda beynəlxalq turizm dünya iqtisadiyyatında aparıcı fəaliyyət növlərindən biridir (göstərilən xidmətlərin 1/3-i turizmin payına düşür). Qeyd etmək lazımdır ki, bəzi ölkələrdə dövlət büdcəsinin 30-40% - i turizm hesabına formalaşır (Meksika, Sinqapur, Tailand və s. ölkələrin milli gəlirinin 80%-i turizm hesabına təmin olunur). Belə ki, UNWTO-nun

proqnozlarına görə, 2019-cu ildə turizmdən əldə olunan gəlirlər 1,5-2 mlrd. dollar təşkil etmişdir. Bu onu göstərir ki, dünyada gedən turizm proseslərində insanların fəallığı 2-3 dəfə artmışdır.

Turizmin dünyaca ən çox yayılmış növləri: rekreasiya, istirahət, əyləncə, işgüzar səfərlər və idrak turizmidir. Bu turizm növlərinin istehlakçıları turistlərin ümumi sayının 70% - ni təşkil edir. Beynəlxalq turizmin inkişaf meyillərinin təhlili göstərir ki, turizm axınında kəskin regional fərqlər vardır. Son illər turistlərin əksəriyyəti öz regionları üzrə səyahətə üstünlük verirlər.

Sosial amillər ən vacib amillərdən biridir, onlar turizmin inkişafını sürətləndirir, turizm sənayesinin inkişafı isə öz növbəsində sosial problemlərin həllinə müsbət təsir göstərir. Məsələn, bölgələrdə yeni iş yerləri açılır, mədəniyyət mübadiləsi güclənir, kommunikasiyalar, infrastruktur inkişaf edir, mədəni tədbirlər keçirilir, regionlardan ölkənin iri şəhərlərinə miqrasiya axını azalır. Daxili turizmin inkişafı ölkə iqtisadiyyatının və yerli infrastrukturun inkişafında mühüm rol oynayır, xarici turistlərin axınının artmasına səbəb olur.

Turizm sahəsində bazar münasibətlərinin inkişafı Azərbaycanda turizm bazarını tədricən dolduran çoxlu sayda turizm firmalarının yaranmasına gətirib çıxardı. Onların fəaliyyəti nəticəsində istehsal olunan turizm məhsullarının həcmi, əhalinin gəlirləri, büdcəyə daxilolmalar artır, yeni iş yerləri yaradılır, məşğulluq problemi həll olunur, infrastruktur inkişaf edir, rəqabətqabiliyyətli milli turizm sənayesi formalaşır. Beləliklə, turizmin inkişafı respublikanın sosial-iqtisadi inkişafında mühüm rol oynayır.

**Nəticə.** Turizmin inkişafı və təkmilləşdirilməsi, müasir idarəetmə sisteminin formalaşması, ölkədə, xüsusilə bazar iqtisadiyyatı şəraitində turizm sənayesinin rolunun müəyyən edilməsi tədqiqatın aktual mövzusudur.

Turizm sənayesi müəssisələrinin artırılması istiqamətində regionlarda sahə strukturu dəyişdirilməli, turizmin inkişafı üçün yeni metodoloji yanaşmalar işlənib hazırlanmalıdır.

Region səviyyəsində turizmin idarə edilməsi sisteminin təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirilməli, turizm bazarında tələb və təkliflər nəzərə alınmaqla turizmin inkişafının ən effektiv formaları müəyyənləşdirilməlidir.

Turizm iqtisadi fəaliyyət sahəsi kimi böyük əhəmiyyət kəsb edir və bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir. Turizm ayrıca insanın, bütövlükdə cəmiyyətin maraqlarına xidmət edir və həm mikro, həm də makroiqtisadi səviyyələrdə gəlir mənbəyidir. Turizm əlavə iş yerlərinin yaradılmasının əsas amillərindən birinə çevrilir, yol və mehmanxana tikintisinin inkişafını sürətləndirir, bütün növ nəqliyyat vasitələrinin istehsalını stimullaşdırır, regionların və ölkələrin xalq sənətkarlığının və milli mədəniyyətinin qorunmasına kömək edir.

## ƏDƏBİYYAT

1. Araz O. N., Süleymanov, Ə. B. Məmmədov, E. K.. Azərbaycan İqtisadiyyatı. Şərq-Qərb Mətbəəsi. – Bakı 2016 . 412 S.
2. Hilman H., Kaliappen N. Market Orientation Practices and Effects on Organiza- tional Performance // Empirical Insight from Malaysian Hotel Industry. — 2014. — 4 (4). p.49.
3. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, jurnal, 2021-ci il.
4. Rəhimov S.H. Turizm -ekskursiya işinin təşkili, Bakı, Nurlan, 2004, 217 səh.
5. Zeynallı Y.Q. "Azərbaycanda turizm sistemi fəaliyyətinin və idarə olunmasının 10. iqtisadi-coğrafi problemləri". 2000, Bakı, Elm, 442 səh.
6.Dellaert B., Arentze T., Horeni O. Tourists' Mental Representations of Complex Travel Decision Problems, Journal of Travel Research, 2014, 53 p.

# TURİZM BAZARININ MAHİYYƏTİ VƏ İNKİŞAFI

*Zöhrab Eyvazov, İbrəhim Babayev*

## XÜLASƏ

Artan rəqabət, regionlarda sahə strukturunun dəyişməsi ilə səciyyələnən müasir iqtisadi şəraitdə turizm iqtisadi fəaliyyət sferası kimi böyük əhəmiyyət kəsb edir və bir sıra xarakterik xüsusiyyətlərə malikdir. Bu sənayenin effektiv tənzimlənməsi sistemi yaradılarsa, turizm region iqtisadiyyatının yüksəlişini təmin edə bilər. Ümumdünya Turizm Təşkilatının proqnozlarına görə, 2019-cu ilə qədər gələn turistlərin sayı 1,6 milyard nəfər təşkil edib və dünya turizm gəlirləri 2 trilyon dollara yüksəlmişdi.

Turizm Azərbaycanın dövlət aktları ilə ölkə iqtisadiyyatının prioritet sahələrindən biri kimi tanınır. Eyni zamanda, regional səviyyədə turizm bazarının formalaşması və inkişafı üçün real mexanizmlər mövcud deyil: turizm obyektlərinə investisiyaların cəlb edilməsi mexanizmləri, resurslardan, o cümlədən işçi qüvvəsindən istifadənin geniş üsulları qalmaqdadır. Turizm marketinqi və reklamının bir çox nəzəri və praktiki əhəmiyyətli məsələləri hələ də işlənməmiş qalır.

Turizmin təşkili, inkişafı və kompleks iqtisadi idarə edilməsi müasir şəraitdə ərazi problemlərinin həllində və inkişafında böyük əhəmiyyətə malikdir. Qloballaşma və inteqrasiya proseslərinin güclənməsi şəraitində turizm davamlı inkişafın mühüm amili və fəaliyyət sahəsi olmaqla bir sıra kompleks problemli vəziyyətlərin və idarəetmə mexanizmlərinin məcmusu ilə qarşılıqlı əlaqədə formalaşır və dəyişir.

# ПРИРОДА И РАЗВИТИЕ ТУРИСТИЧЕСКОГО РЫНКА

*Зограб Эйвазов, Ибрагим Бабаев*

## АННОТАЦИЯ

Повышение конкуренции имеет большое значение в современных экономических условиях, которые характеризуются изменением структуры отрасли в регионах как сферы экономической деятельности туризма и имеют ряд особенностей. При создании эффективной системы регулирования этой отрасли туризм может обеспечить рост экономики региона. По данным Всемирной туристской организации, количество туристов, посетивших страну в 2019 году, составило 1,6 млрд человек, а мировые доходы от туризма увеличились на 2 трлн долларов.

Туризм признан государственными актами Азербайджана одной из приоритетных отраслей экономики страны. При этом отсутствуют реальные механизмы формирования и развития туристского рынка на региональном уровне: механизмы привлечения инвестиций в объекты туризма, широкий спектр способов использования ресурсов, в том числе трудовых. Многие теоретические и практические вопросы туристического маркетинга и рекламы остаются нерешенными.

Организация, развитие и комплексное хозяйственное ведение туризма имеют большое значение в решении и развитии территориальных проблем в современных условиях. В условиях интенсификации процессов глобализации и интеграции туризм формируется и

изменяется во взаимодействии с комплексом сложных проблемных ситуаций и механизмов управления, что является важным фактором и направлением устойчивого развития.

## THE NATURE AND DEVELOPMENT OF THE TOURISM MARKET

***Zohrab Eyvazov, Ibrahim Babayev***



### SUMMARY

Increasing competition is of great importance in the modern economic environment, which is characterized by changes in the structure of the sector in the regions, as a sphere of economic activity of tourism and has a number of characteristics. If they create an effective system of regulation of this industry, tourism can ensure the growth of the region's economy. According to the World Tourism Organization, the number of tourists visiting 2019 amounted to 1.6 billion people, and world tourism revenues increased by $ 2 trillion.

Tourism is recognized by state acts of Azerbaijan as one of the priority sectors of the country's economy. At the same time, there are no real mechanisms for the formation and development of the tourism market at the regional level: mechanisms to attract investment in tourism facilities, a wide range of ways to use resources, including manpower. Many theoretical and practical issues of tourism marketing and advertising remain unresolved.

The organization, development and integrated economic management of tourism are of great importance in solving and developing territorial problems in modern conditions. In the context of intensification of globalization and integration processes, tourism is being formed and changed in interaction with a set of complex problem situations and management mechanisms, which is an important factor and area of sustainable development.

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ

***Babayev Əli, Ağayev Çingiz***
***BDU, İslamşünaslıq ETM-in əməkdaşları:***
***ali76@bk.ru***

***Açar sözlər*:** Qarabağ; Azərbaycançılıq ideologiyası; milli kimlik; milli-mənəvi dəyərlər; tolerantlıq
***Ключевые слова*:** Карабах; Идеология азербайджанства; национальная идентичность; национально-нравственные ценности; толерантность
***Keywords*:** Karabakh; The ideology of Azerbaijanism; national identity; national-moral values; tolerance

20-ci əsrin əvvəlləri Azərbaycan tarixinin dönüş nöqtəsi kimi bir millətin formalaşaraq öz dövlətini qurmasına şahidlik etmişdir. Bu milli özünüdərkin gedişində yazıçılarımızın xüsusi rolu olmuşdur. Bir millətin varlığını davam etdirə bilməsi onun milli mənliyinə və dilinə sahib çıxması ilə yaxından bağlıdır. Millətin milli kimliyindən uzaqlaşması və dilimizin arxa plana atılması dövrün əksər yazıçıları kimi Üzeyir Hacıbəylini də narahat edirdi. Bu haqda o, “Dil” məqaləsində yazıdı:

“Bir ərəbdən soruşursan ki, sən kimsən?
Deyir: — Ərəb!
— Sən nə dindəsən?
— İslam.
— Nə dildə danışırsan?
— Ərəb.

İslam olmayan ərəbdən də bu sualları etsən, cavabında deyər ki, mən ərəbəm, dinim xristian dinidir, dilim ərəb dilidir. Bir farsdan da bu əhvalatı soruşsan, deyər ki, mən farsam, dinim islam dinidir, dilim fars dilidir. Bir ləzgidən də bunu soruşsan, deyər ki, özüm ləzgiyəm, dinim əlhəmdölüllah, islamdır, dilim də ya alaz, ya əmdi, ya qumuk, ya çərkəz və s. dilidir. Həmçinin rus, erməni və sairə. Amma bizim bir nəfərimizdən sor ki,

— Sən kimsən? Deyər müsəlmanam.
— Hankı millətdənsən?
— Müsəlman millətindən.
— Nə dinindəsən?.— Müsəlman dinindən.
— Nə dili danışırsan?
— Müsəlman dili.

Halbuki özü türkdür, dini islam dinidir, dili də türk dilidir. Daha burasını düşünən yoxdur ki, müsəlman adında millət yoxdur, müsəlman adında dil yoxdur, müsələman - yəni islam dinini qəbul etmiş bir adam deməkdir. Din başqa, dil başqa. Din başqa, milliyyət başqa. Dində dil yoxdur, dində milliyyət də yoxdur. Əgər bu gün yaponlar islam dinini qəbul etsələr, onlar ancaq din cəhətincə müsəlman olarlar, amma dil və milliyyətcə yapon qalırlar”. Üzeyir Hacıbəyli dilimizin öz varlığını qoruması və islahatı üçün çalışmağın lazım olduğunu qeyd edirdi. Bu bir faktdır ki, Şah İsmayıl Xətainin fəaliyyətlərinin bugünkü Azərbaycan milli kimliyinin formalaşmasında xüsusi rolu vardır. Çünki tarixdə ilk dəfə olaraq məhz həmin dövrdə Azərbaycanda tarix, dil və dəyərlər birbirinə təsir edərək üzvi bir şəkildə birləşmiş və beləcə bizə yaxın olan digər millətlərin kimliklərindən öz səciyyəvi xüsusiyyətləri ilə seçilən Azərbaycan milli kimliyi yaranmışdır. Belə ki, Şah İsmayıla qədər Azərbaycan milli kimliyi ümumtürk və

ümummüsəlman kimlikləri kontekstində özünəməxsus çalarları ilə digər türk və müsəlman xalqlarından, xüsusilə Anadolu türkmüsəlman kimliyindən o qədər də seçilmirdi.

Məhz Şah İsmayılın fəaliyyətləri nəticəsində Azərbaycan kimliyi onu digər kimliklərdən ayıran kəskin xətləri ilə ortaya çıxmağa başaldı. Əgər əsrin əvvəllərində Həsən bəy Zərdabi, Əhməd bəy Ağaoğlu, Üzeyir Hacıbəyli və digər mütəfəkirlərimiz milli kimlik məsələmizin formalaşması, milli-mənəvi dəyərlərimiz olan dilimizin, dinimizin qorunması uğrunda mücadilələr edirdilərsə, əsrin sonunda, xüsusən də, ikinci dəfə əldə etdiyimiz müstəqillik illərində, dövlətçiliyimizin, kimliyimizin ağır dönəmində bu vacib sahələr Ümummilli lider Heydər Əliyevin gərgin əməyi sayəsində qorundu və daha da inkişaf etdirildi. Çünki XX əsrin əvvəllərində yuxarıda adlarının qeyd etdiyimiz dühaların dedikləri etnik millətçilik idisə, XXI əsrin əvvəllərində H.Əliyevin üstünlük verdiyi istiqamət vətəndaş millətçiliyi idi. Belə ki, ikinci dəfə əldə etdiyimiz müstəqilliyimizin ilk illərində ictimai həyatın əsas sferaları olan iqtisadi, siyasi, sosial, mədəni-idoloji sahələrdə bir boşluq, böhran var idi. Əsasən cəmiyyətimiz idoloji boşluğun girdabında ilişib qalmışdı. Ard-arda rayonların erməni vandallar tərəfindən işğalı, siyasi çaxnaşmalar, etnik qarşıdurmalar fonunda təlatümlər yaşayan xalqımızı milli birliyə yönəldən ideoloji bağlantı lazım idi.

Xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev ümumbəşəri dəyərlərə sadiq qalmaqla yanaşı, Azərbaycançılıq ideologiyası altında bu ideloji bağlantının təməlini qoydu. Bu, etnik kimliyi məhdudlaşdırmadan, ancaq vətəndaşlıq istiqamətində Azərbaycançılığı inkişaf etdirən, milli birliyi yaradan bir ideologiyadır. Yəni, bu ideologiyanın əsas komponentlərindən biri xalqımıza məxsus olan etnik adət və ənənələrin qorunması əsasında milli ruhlu gənc nəslin yetişdirilməsinin düzgün təşkil edilməsidir. Mövcud reallığı, şəraiti nəzərə alaraq milli kimliyimizn Azərbaycançılıq ideologiyası üzərindən formalaşdırmaq xətti Heydər Əliyevin uzaqgörən, müdrik dövlət başçısı kimi müstəsna xidmətlərindən biridir. “Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”, deyən Ümummilli Liderimiz Azərbaycanın dini və etnik zənginliyini nəzərə alaraq xalqımızın tarixin dərinliklərindən gələn tolerantlıq ənənələrinin dövlətimizin multikulturalizm siyasətinə uğurlu keçidinin əsasını qoyub. Ümumiyyətlə, Azərbaycan xalqının bir millət kimi formalaşması və milli dövlət qurmasının əsas amillərindən biri zəngin mənəvi dəyərlər sisteminə malik olmasıdır, başqa sözlə, zəngin mənəvi dəyərlər sisteminə malik xalq olmağımızdır. Milli ideologiyamızın missiyası həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur.

Azərbaycançılıq dinindən, dilindən, millətindən, sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edir. Yəni onun mühüm elementlərindən biri də vətənpərvərlikdir. Tarixən öz vətənpərvərliyi ilə seçilən xalqımız bunu 44 günlük Vətən müharibəsində bir daha sübut etdi. Bu yanaşmanın məntiqi nəticəsi kimi biz Vətən müharibəsində həm də multikulturalizm siyasətinin dövlətimiz üçün nə qədər gərəkli olduğunu canlı şahidi olduq. Vətən müharibəsi Azərbaycanda formalaşmış milli həmrəyliyin təcəssümü idi. Xalqımızın milli-mənəvi dəyərlərini qorumaq və inkişaf etdirmək, eyni zamanda, müasir dünyanın addımları ilə ayaqlaşa bilən, mənəvi köklərinə bağlı gənc nəslin yetişdirilməsinə, dövlətlə vətəndaşların mənafeyini sistemli şəkildə birləşdirən Azərbaycançılıq ideologiyasi ölkədə vətəndaş birliyi üçün uğurlu bünövrədir. Vətən müharibəsi göstərdi ki, lazım gəldikdə bütün ölkə vətəndaşları dinindən, məzhəbindən, inancından asılı olmayaraq bir yumruq kimi birləşə bilir.

Cəmiyyətin mühüm yarımsistemləri olan, iqtisadi, siyasi, sosial və mədəni-ideoloji sferaları bir vəhdət altında özündə birləşdirən Azərbaycançılıq ideologiyasının və milli düşüncəyə məxsus gənclərin yetişdirilməsi işinin həyata keçirilməsi Prezident İlham Əliyevin hakimiyyətə gəlişi və

Ümummilli Liderin siyasi irsini davam etdirməsi ilə daha da inkişaf etdirildi. Müharibənin ilk günündən Ali Baş Komandanın qətiyyəti, zəfərə inamlı çağırışı böyük ruh yüksəkliyi yaratdı və dinindən, etnik mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq bütün vətəndaşlarımızın güc və enerjisini qələbəyə yönəltdi. Məhz Azərbaycançılıq idologiyası ilə formalaşan gənclər düşmənin "keçilməz" hesab etdiyi müdafiə xəttlərini, istehkamlarını göz qırpımında məhv etdi, Şuşanın sərt sıldırım qayalarına dırmaşaraq yalın əl və bıçaqlarla erməni ordusunu darmadağın edərək Qarabağımızı azad etdi.

Prezident İlham Əliyevin 2021-ci ildə şanlı qələbəmizdən sonra Şuşada ilk bayram tonqalını yandırarkən sölədiyi nitqində vurğuladığı kimi: "Vətən müharibəsində bütün nəsllərin nümayəndələri qəhrəmanlıq göstərdi. Lakin etiraf etməliyik ki, onların böyük əksəriyyəti 18-25 yaşlı gənclərdir. Yəni 2003-cü ildə mənim hakimiyyətə gəlişim vaxtı hələ uşaq olan və hakimiyyətim dövrümdə formalaşan gənclərdir".

## ƏDƏBİYYAT

1.Heydər Əliyev. Müstəqilliyimiz Əbədidir. Bakı 1997
2.A.Şirinov. Azərbaycan milli kimliyi. Bakı 2014
3. Heydər Əliyev siyasəti: Tolerantlıq. Bakı 2015
4. Aghoglu, Ahmed. *Üç Medeniyet*. Üçüncü nəşr. Doğu Kitabevi, 2013

## AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ

***Babayev Əli, Ağayev Çingiz***

## XÜLASƏ

Bu məqalə Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycançılıq ideologiyasına və bu ideologiyanın formalaşdırdığı milli kimliyimizə həsr olunub. Məqalədə həmçinin Ümummilli Liderin siyasi irsini layiqli davam etdirən Prezident İlham Əliyevin Azərbaycançılıq ideologiyasının ruhunda yetişdirdiyi, Vətən müharibəsində xalqımıza qələbə qazandıran gənc nəsildən bəhs olunub.

## ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА И 44-ДНЕВНАЯ ОТЕЧЕСТВЕННАЯ ВОЙНА

***Бабаев Али, Агаев Чингиз***

## АННОТАЦИЯ

Эта статья посвящена идеологии азербайджанства, основанной общенациональным лидером Гейдаром Алиевым, и нашей национальной идентичности, сформированной этой идеологией. В статье также говорится о молодом поколении, которое Президент Ильхам Алиев, продолживший политическое наследие общенационального лидера, воспитал в духе идеологии азербайджанства и принес нашему народу победу в Отечественной войне.

## THE IDEOLOGY OF AZERBAIJANISM AND THE 44-DAY PATRIOTIC WAR

***Babayev Ali, Aghayev Chingiz***

## SUMMARY

This article is dedicated to the ideology of Azerbaijanism founded by national leader Heydar Aliyev and our national identity formed by this ideology. The article also talks about the young generation that President Ilham Aliyev, who continued the political legacy of the National Leader, brought up in the spirit of the ideology of Azerbaijanism and brought victory to our people in the Patriotic War.

# MƏDƏNİYYƏT ANLAYIŞININ TƏZAHÜR FORMALARI: ELMİ YANAŞMALAR VƏ ƏSASLANDIRMALAR

***Elmanlı Elbəy Elşən oğlu***
***BDU-nun II kurs magistrantı***
***eelmanli26@gmail.com***
***Elmi rəhbər : Dos. Ümmühəbibə Qələndərova***

***Açar sözlər:*** *tarixi abidələr, mədəniyyət nümunələri, xalqların keçmiş ənənələri, əmək vərdişləri, fəaliyyət sferaları və s.*
***Ключевые слова:*** исторические памятники, образцы культуры, прошлые традиции народов, трудовые привычки, сферы деятельности и др.
***Key words:*** historical monuments, cultural examples, past traditions of peoples, labor habits, spheres of activity, etc.

Tarixin bütün mərhələlərində insanların, xalqların və millətlərin əldə etmiş və toplamış olduqları sərvətlər onların qürurlu miraslarını təşkil etməkdədir. Uzun əsrlər boyunca bu irslər milli adət ənənələrin, tarixi keçmişin, çox müxtəlif fəaliyyət sahələrinin mövcudluğu, sənətkarlığın, ipəkçiliyin, əkinçiliyin, sosial həyatın bir çox sahələrində insan fəaliyyətinin bütün istiqamətlərinə aid olan təzahürlərin mövcudluğu həm də etibarlı mədəniyyət nümunələri olaraq təşəkkül tapmışdır. Ümumiyyətlə, mədəniyyət, hansısa bir ölkəni, bir milləti, başqa millətlərdən, ölkələrdən və cəmiyyətlərdən, fərqləndirən çox zəruri ifadə edən anlayış olaraq qəbul olunur. Mədəniyyətin xalqlar üzərindəki təsirinin və önəminin böyüklüyünə diqqətsiz qalmaq olmaz. Həmin təsirin yox olmaması və bütün millətlərin özünəxas mədəniyyətini mühafizə edə bilməsi və kənarlaşmaması məqsədilə mədəniyyətinə maddi və qeyri-maddi mədəni dəyərlərinə sahib çıxması, həmçinin həmin dəyərlərini nəsildən nəsilə ərmağan edə bilməsi zəruridir.

Hazırkı şəraitdə sosial fəaliyyətin tərkib hissəsi olan və yalnız cəmiyyətin mövcudluğu ilə var olan mədəniyyət anlayışı ilə bağlı çoxsayda təqdimata nail olmaq zəruridir. Müxtəlif təqdimatlar olsa da, mədəni təqdimatların hər biri üçün mərkəz olacaq müəyyənləşmə, mədəniyyətin üzvi bağlı olduğu bir məna vardır.

Qeyd olunanlarla birlikdə tarixi keçmişin izləri ilə bu günlərə gəlib çıxmış olan mədəni irs insanların minillik həyat tərzinin, düşüncəsinin və kreativliyinin müasir dövrə çatdırılmasının isbatıdır. Tarixi keçmişin izləri deyərkən, düşüncəmizdə əvvəlcə arxeologiya və tarix ilə bağlılığı olan maddi və qeyri-maddi varlıqların, həmçinin dəyərlərin məcmusu başa düşülür. Burada qalalar, malikanələr kimi abidə əsərləri, arxeologiya sahələri, tarixi mərkəzlər və toxumalar, mədəni mənzərələr qədər dil, ənənə, dans, musiqi, mərasimlər kimi yaşayan, amma qeyri-maddi dəyərlər də mədəni irslərə aid olunur. Mədəni irs olaraq, qəbul olunan hiss oluna bilən (insanların istehsal etdiyi alətlər, texnoloji məhsullar və binalar) dəyərlər maddi irs, hiss oluna bilməyən (hərəkətlər, dəyərlər və qaydalar) dəyərlər isə mücərrəd irs şəklində olmaqla, iki bölmədə araşdırılır.

Bu sahədə ərazilərin dəyərləndirilməsi, bunlarla yanaşı, digər dəyərlər müstəvisində eyni zamanda, kənd meydanları da mühüm əhəmiyyətə malikdir. Araşdırmalarda kənd meydanı anlayışında adətən, kəndlərin ortasında yerləşir və kəndarası daxili yolların çoxu burada qovuşurdu. Məscid, bazar, xırdavat və qəssab dükanları həmin meydanın ətrafında yerləşirdi. Göründüyü kimi, yaşayış məskənlərinin daxili quruluşu, onların tərkib hissələri təkcə məhəllə və fərdi həyətlərdən ibarət olmayıb, həmçinin, əhalinin sosial-iqtisadi həyatı ilə bağlı bir sıra ictimai yerlər də əhatə edirdi (3, s. 111).

Mədəniyyətlərin maddi olmayan sahələrinə dillər, dinlər, ənənələr, mərasimlər, şifahi xalq ədəbiyyatının sözlü məhsulları, tamaşa oyunları, ayinlər, miflər və s. daxil olmaqdadır. Digər mənada, mənəvi mədəni, dini inancları, əxlaqi, dəyərləri, insan münasibətlərini tənzimləyən yazılı və yazısız mənbələri, hüquq sistemini, insan davranışının arxasındakı duyğu və yanaşmaları və s. əhatəsinə almaqdadır. Mədəni irsin maddi və qeyri-maddi ünsürləri ölkələrin hüdudlarında və xaricində müxtəlif razılaşmalarla etibarlılıq qazanmışdır. Razılaşmalarla etibarlılıq qazanan həmin mədəni irs ünsürlərinin gələcək nəsillərə ərmağan olunması və onların qorunması müddəti ərzində həmin razılaşmalar final məqsədinə çata bilər.

Mədəniyyət anlayışının ilk şəffaf və əhatəli tamamlanması ingilis antropologu Edvard Burnett Tylor tərəfindən XIX əsrdə yerinə yetirilmişdir. E.B. Tylor 1871-ci ildəki araşdırmalarında mədəniyyəti:

- məlumat – tarix boyunca davamlı inkişaf üzrə xroniki inkişaf hadisələrinin məcmusundan ibarət olan bilgilər;
- inanc – milli mənəvi dəyərlərin ünsürləri olaraq müqəddəs düşüncə tərzinə xas olan varlıqlar;
- sənət – ta qədimdən üzü bəri mədəni irs olaraq qəbul olunan keyfiyyətlərin məcmundan ibarət olan keyfiyyətlər;
- hüquq – tarixən formalaşan proseslər içərisində tarixi, mədəni nümunələrinə yanaşma tərzi;
- əxlaq - hadisələrin davamlı xarakterə malik olması və onlara münasibətin necəliyinin qəbulu ilə nəticələnən davranışların ifadə forması;
- adət – tarixi, mədəni irsin qorunması sahəsindəki milli fəaliyyətin məcmusu və mühafizəsindən ibarət olan keyfiyyətlərin məcmusu;
- ənənə - tarixi, mədəni irsin qorunması sahəsində cəmiyyət üzvlərinin fəallığının davamlı xarakter daşıması;
- cəmiyyətin bir üzvü olaraq insanların yaşayaraq əldə etmiş olduqları xasiyyətlər və keyfiyyətlər məcmusu olaraq mənalandırmışdır. Mədəniyyət, cəmiyyət, insanlıq, təhsil müddəti və mədəni məzmun olaraq dəyişənlərin və bunlar arasındakı qarışıq bağlılıqların bir funksiyasıdır (5, s. 16).

Mədəniyyət keçmişdən qazanılan, gələcəyə ərmağan olunan bir faktlar, aşkar olunanlar tamı olması ilə birlikdə, təkmilləşdirilən və dəyişdirilə bilən bir görüntüyə malikdir. Məhz bu mənada, mədəniyyət:

- davamlı olan və mühafizə olunan, bununla da, bütün dövrlərin reallıqlarını ifadə edən mədəniyyət;
- təkmilləşdirilən və mühafizə olunan, bununla da, tarixi, mədəni nümunələrin etibarlılığını gücləndirən mədəniyyət;
- dayanıqlı mənbə olmaq etibarı ilə arxada buraxılan və uyğunsuz reallıqlarla əlaqəliliyinə görə imtina olunmuş arqumentlərdən ibarət olmaqla, üç müxtəlif yanaşma ilə izah oluna bilər. Müxtəlif yanaşmalarla sahib olunan mədəniyyət, yaşayan, inkişaf edən, dəyişən və hətta unutdurulan dəyərlər, mexanzimlər və həyat tərzidir. Eyni zamanda, mədəniyyət insanın içindəki özünü və bilavasitə cəmiyyəti ifadə formasıdır. Həmin ifadə forması dinamik bir xarakterə malik olmaqdadır. İnsan sosial istehsal tərzi və münasibətlərində (özünü istehsal şəklində) təşkil etmiş olduğu dəyişikliklə yaşam tərzini, həmin formanın ifadəsini və bilavasitə mədəniyyətini də dəyişdirir. Digər bir ifadə ilə mədəniyyətin dəyişməsini ancaq yaşam tərzinin ifadə formalarının dəyişməsi ilə yaratmış olurlar.

Burada folklor nümunəsinin də önəmini qeyd etmək lazımdır. Bu anlayışda xalqın, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, xalqın ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq

sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olan və olmayanlar), eləcə də digər xalq yaradıcılığı nümunələri olaraq ifadə olunur (2, s. 14).

Mədəniyyət, insanların düşündüyü (münasibət, inanc, düşüncə və dəyərlər), etdiyi (hərəkət və yaşayış formaları) və təmin etmiş olduğu (sənət əsərləri, əl işləri və başqa mədəni məhsullar) hissələri əhatə etməkdədir. Bilavasitə, mədəniyyət, müddətlər (cəmiyyət üzvlərinin baxışları və həyat tərzləri) və bu müddətlər nəticədə yaranan məhsulları (tikililər, əl işləri, sənət və ənənələr) əhatəsindədir.

Adətən, mədəniyyət dedikdə ictimai qrup, fərdi varlıq və şüurun vəziyyəti, həmçinin həmin vəziyyətin dəyişilməsi sahəsində fəaliyyət başa düşülür. Varlığın vəziyyəti, onun dəyişilməsindəki fəaliyyət adətən maddi vəziyyət adlanır. Varlıq haqqında təsəvvürlərin dəyişilməsinə aid fəaliyyəti və həmin fəaliyyətin nəticələri çox vaxt mənəvi mədəniyyət adlanır. Maddi və mənəvi mədəniyyət bir-birilə sıx surətdə əlaqədardır (1, s. 26).

Mədəniyyətin öz məzmunu, təcrübədəki nəticələrinə yanaşması, insanı əhatə edən böyük bir mühit olaraq qəbul oluna bilər, özünü hər addımda biruzə verə bilər. Təqdimatlardan açıq aşkar göründüyü kimi mədəniyyət insan həyatındakı bütün sahələri əhatə edən fikir, qənaət, hərəkət, məhsul, qısacası həyat tərzinin özüdür. Elə bu baxımdan da, həmin həyat tərzi bir millətə spesifik ola biləcəyi kimi, ölkə sərhədlərini keçən mədəniyyət və ya bir-birindən çox müxtəlif ərazilərdə oxşar mədəniyyətlər ola bilər. Nəticə etibarı ilə mədəniyyətlərin qovuşması və inteqrasiyası anlayışları elə irsi inteqrasiyasının da təməl prinsipləri olaraq çıxış etməkdədir.

Bir sözlə, qeyd olunanları ümumiləşdirməklə, göstərmək olar mədəniyyət elə bir sistemdir ki, burada hər şey qarşılıqlı əlaqədədir, həm də hər şey qarşılıqlı formada müəyyən olunmuşdur (4, s. 157).

Bəşər tarixində yer üzündə mədəniyyət hüdudları siyasi sərhədlərlə əlaqəli qalmadan minlərlə illərdən üzü bəri inkişaf edib böyüməkdə və xüsusilə, XX əsrin ikinci yarısına nisbətlə mədəni daha məşğul bir formada bir-birinə təsir etməkdədir. Xüsusilə, elm və kütləvi əlaqələrdə son illərdə yaşanan qarmaqarışıq proseslər bu müddəti daha da sürətləndirmişdir. Mədəniyyət anlayışının tarixi inkişaf müddətində proqnoz olunan ən aydın, dəyişim, anlayışın maddi məzmunlu istifadəsinin zamanla insanın fikir inkişafına paralel bir şəkildə mücərrəd məzmun qazanması olmuşdur.

## ƏDƏBİYYAT


1. Abbasov N. Ə. Mədəniyyət siyasəti və mədəni dəyərlər. Kulturoloji təhlil. Bakı: Təknur, 2009, 444 s.
2. Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları. Dərslik. Bakı: Mars-Print, 2007, 442 s.
3. Manafova. M.J., Əfəndiyeva N.T. və S.A.Şahhüseynovanın ümumi redaktəsilə. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik Bakı: Sabah nəşriyyatı (2008), 2010, 876 səh.
4. Культура на пороге III тысячелетия. Тезисы. Докладов международного семинара в г. Санкт-Петербурге (25-26 апреля 1994 года). Санкт-Петербург: 1994, 224 с., səh 157
5. Səfərli H.Y. Əlincəçay mahalının epiqrafik abidələri. Naxçıvan: Əcəmi, 2020, 200 s.

# MƏDƏNİYYƏT ANLAYIŞININ TƏZAHÜR FORMALARI: ELMİ YANAŞMALAR VƏ ƏSASLANDIRMALAR

***Elmanlı Elbəy***

**XÜLASƏ**

Məqalədə göstərilmişdir ki, hər bir millətin tarixi keçmişi, bu günü və gələcəyi onun mövcudluğunun sarsılmaz ifadəsi olmaq etibarı ilə çox zəruri bir amil olaraq təşəkkül tapmaqdadır. Göstərilmişdir ki, onlar hər bir ölkələrin və xalqların milli varlığını yaşatmaqda, onun bu günün fəxrinə çevirməkdə və gələcək üçün olduqca dəyərli bir miras formalaşdırmaqdadır. İctimai-siyasi sabitliyin, sosial-iqtisadi inkişafın və mədəni dəyərlərin məcmusunu özündə yaşadan tarix və mədəniyyət nümunələri Naxçıvan Muxtar Respublikasının bütün dövrlər üzrə üstün potensialını ortaya qoymuşdur. Qeyd etmək olar ki, tarix mədəniyyət nümunələri ölkələrin və xalqların keçmişdə gündəlik fəaliyyət nəticəsində yaratmış olduqları təsərrüfat ənənələri, yaşam tərzi, sosial həyatın müxtəlif sahələri, eyni zamanda, əmək vərdişləri nəticəsində təşəkkül tapan göstəricilər nəzərdə tutulmuşdur. Burada, həmçinin əhalinin tarixi inkişaf xronikası, iqtisadi fəaliyyət sferaları üzrə ixtisaslaşma, mədəni keyfiyyətlərin inkişafı üzrə göstəricilər, İlahi hikmət dəyərləri olaraq mövcud olan varlıqlar və başqa məsələlər aid olmaqdadır.

## ФОРМЫ ПРОЯВЛЕНИЯ КУЛЬТУРОПОНОМАНИЯ: НАУЧНЫЕ ПОДХОДЫ И ОБОСНОВАНИЯ

***Эльбей Эльманлы***

**АННОТАЦИЯ**

В статье показано, что историческое прошлое, настоящее и будущее каждого народа формируется как очень необходимый фактор, так как является незыблемым выражением его существования. Было показано, что они поддерживают национальное существование каждой страны и народа, делают его гордостью сегодняшнего дня и формируют очень ценное наследие для будущего. Исторические и культурные примеры общественно-политической стабильности, социально-экономического развития и культурных ценностей выявили превосходящий потенциал Нахчыванской Автономной Республики во все эпохи. Можно отметить, что исторические и культурные образцы стран и народов создавались в результате повседневной деятельности в прошлом, хозяйственных традиций, образа жизни, различных сфер общественной жизни, а также показателей, сформированных в результате трудовых привычек. Здесь актуальна хроника исторического развития населения, специализация по сферам экономической деятельности, показатели развития культурных качеств, существовавшие как ценности божественной мудрости и другие вопросы.

## MANIFESTATION FORMS OF CULTURAL UNDERSTANDING: SCIENTIFIC APPROACHES AND JUSTIFICATIONS

***Elbey Elmanli***

**SUMMARY**

It is shown in the article that the historical past, present and future of each nation is being formed as a very necessary factor, as it is an unshakable expression of its existence. It has been shown that they keep the national existence of each country and people alive, make it the pride of today and form a very valuable heritage for the future. Historical and cultural examples of socio-political stability, socio-economic development and cultural values have revealed the superior potential of Nakhchivan Autonomous Republic in all eras. It can be noted that historical and cultural examples of countries and peoples have been created as a result of daily activities in the past, economic traditions, lifestyle, various areas of social life, as well as indicators formed as a result of work habits. Here, the chronicle of the historical development of the population, specialization in spheres of economic activity, indicators of the development of cultural qualities, beings existing as values of divine wisdom and other issues are relevant.

# QLOBAL İINTEQRASİYA PROSESİNİN İNKİŞAF DİNAMİKASINA DAİR BAXIŞLAR

***Məmmədova Könül***
***elmi tədqiqqatcı, politoloq***
***etibar76_esedov@hotmail.com***

***Acar sözlər***: qloballaşma, tarix, inteqrasiya, bəşər sivilizasiyası, böyük corafi kəşflər, sənayeləşmə.
***Ключевые слова***: глобализация, история, интеграция, человеческая цивилизация, великие географические открытия, индустриализация.
***Keywords***: Keywords: globalization, history, integration, human civilization, great geographical discoveries, industrialization.

Qloballaşma prosesinin mahiyyəti ilə bağlı mövcud nəzəriyyələrin, yanaşmaların böyük əksəriyyəti bu prosesin meydana gəlmə və inişaf səbəblərini ortaya çıxarmaq üçün ümumbəşəri inteqrasiya proseslərinin tarixinin araşdırımasına üstünlük verirlər. Bu mənada qlobalistika elmində qloballaşmanın tarixi spektrdən təhlili ənənəyə çevrilmişdir. Bəşər tarixinin inkişaf mərhələlərində qloballaşma prosesinin izlərinin axtarışı təsadüfən ortaya çıxmamışdır. Belə ki, qloballaşma sırf sosiumların həyatın bütün sferalarında təmas və inteqrasiyası deməkdir. Bu prosesi yalnız iqtisadi inteqrasiya prosesi adlandıranlar belə onun sonradan siyasi, kulturoloji, texnoloji sferaya keçidiyini qəbul edirlər. Qloballaşma ilə bağlı tarixə müraciəti aktual və zəruri edən prosesin səbəblərini və dəqiq formulunu izah etməyindən irəli gəlir. Xüsusən qloballaşmanın bifurkasiya nöqtasinin axtarışı qloballaşma tarixi ilə bağlı saysız hesabsız elmi müzakirələrə yol açmışdır.

Ümumiyyətlə qloballaşma ilə bağlı tarixi baxışlar bu prosesi bəşər sivilizasiyasının inkişafının mxtəlif mərhələlərində baş verən inteqrasiya xarakterli iqtisadi, siyasi, mədəni kontekstli hadisələrlə bağlayır. Burada söhbət erkən orta əsrlərdə səlib yürüşlərindən, daha sonra böyük coğrafi kəşflərdən, Qərbi Avropa ölkələrinin müstəmləkə istilasından, XVIII-XIX əsrin sənaye inqilablarından gedir. Dünya miqyasında bütün xalqların və ölkələrin qarşılıqlı təmas prosesinin bəşəriyyətin inkişaf tarixi ilə üst-üstə düşməsi heç kimə sirr deyil. Bu prosesi Monteskye "Qanunların ruhu" əsərində belə ifadə edir: "İki xalqın təması zamanı biri satmağa, digəri isə almağa ehtiyac duyursa onların ittifaqı qarşılıqlı zərurətdən irəli gəlir" [7, s.129].

Bəzi yanaşmalara görə qloballaşmanın kökləri antik dövrlərə qədər gedib çıxır. Bu dövrün başlıca inteqrasiya prosesləri Yunan şəhər dövlətlərinin və Roma imperiyasının Asiya və Şimali Afrikada istila və müstəmləkəçilik siyasəti çərçivəsində nəzərdən keçirilir. Eyni zamanda belə bir müddəa da səsləndirilir ki, ilk regional inteqrasiya və etnoslararası əlaqələr eramızın III və IV əsrlərində Xalqların Böyük Köçü zamanında baş vermişdir. Belə ki, bu prosesin miqyası Avropa və Asiyanın faktiki olaraq bütün sivilizasiyalarının tarixində dərin iz buraxmış və qitələrarası regionların etnoslarını bir-biri ilə tanış etmişdir. [9, s.36]Qlobal inteqrasiya prosesləri tarixində böyük səlib yürüşləri də diqqət mərkəzində saxlanılır. Bu proses Yaxın Şərqin Avrpa ilə ideloji təması kimi qiymətləndirilir [3, s.8].

Qloballaşmanın proses olaraq başlanğıcını XV-XVI əsrlərdə Böyük coğrafi kəşflər zamanına bağlayan nəzəriyyələr də bu disskussiyalarda mühim yer tutur. Hesab edilir ki, adı çəkilən kəşflərdən sonra planetin müxtəlif regionlarında yerləşən ən müxtəlif mədəniyyətlər, xalqlar və sivilizasiyalar arasında əlaqələrin qurulması prosesi başa çatır və bəşəriyyətə məlum olmayan sivilizasiya qalmır. Bu isə ümumbəşəri inteqrasiya proseslərini qlobal miqyasa gətirib çıxarır.

Başqa bir istiqamətə görə qloballaşma prosesləri Qərbi Avropada feodalizmin ictimai formasiya kimi sona yetməsi kapitalizmin bərqərar olması və bununla da beynəlxalq inteqrasiyanın intensifikasiyası nəticəsində ortaya çıxmışdır.

Şərti olaraq qloballaşmanın meydana gəlməsi haqqında baxışları bir neçə qrupda birlədirmək olar:

Qloballaşmanın inkişaf tarixini bəşər sivlizasiyasının inkişaf tarixi ilə paralelləşdirən nəzəriyyələr. Bu nəzəriyyələr sırasında Vallerstaynın "dünya-sistem" paradiqması əsas hesab olunur. Qeyd edilən nəzəriyyə qloballaşmanı sosiumların qarşıqlıqlı əlaqəsinin vəhdətindən təşkil olunmuş vahid sistemlə eyniləşdirir. XX əsrin 70-ci illərində meydana gələn "dünya-sistem" nəzəriyyəsinin mərkəzi tədqiqat mövzusunu sistemi təşkil edən sosiumların birgə inkişaf tarixi təşkil edir. Qloballaşmanın tədqiqi sahəsində elmə mühim tövhələr vermiş F. Brodel, A. Frank, İ. Vallerstayn, S. Amin, C. Arriqi, T.dus. Santus kimi sosioloqlar məhz bu nəzəriyyənin təmsilçiləridir.

Qloballaşmanı dünya-sistemi təqdim edən Vallerstaynın fikrincə bu proses başlanğıcını XVI əsrdən götürmüş və tədricən bütün planeti əhatə etmişdir. XVI əsrə qədər planetin müxtəlif regionlarında mövcud olan sivilizasiyaları siyasi baxımdan təkamül yaşayan iqtisadi sistemlər adlandıran Vallerstayn qeyd edir ki, siyasi inkişaf fazası başa çatan kimi bu iqtisadi sistemlər imperiyalara çevrilmişdir. Bu proses Avropa istisna olmaqla planetin bütün iqtisadi sistemlərinda analoji ssenari ilə getmişdir. Avropada iqtisadi inteqrasiya prosesləri bütün sistemdaxili sosiumlarda eyni inkişaf yolu keçsə də siyasi inkişaf xəttlərində fərqlə çox olmuşdur. Bu səbəbdən Avropa imperiyaya deyil, ümumdünya kapitalizminin mərkəzinə çevrilmişdir. [4, s.101]

Alman sosioloqu A. Qunder Frank. Vallerstayndan XVI əsrə qədər bir neçə iqtisadi sistemin olması fikrini qəbul etmir. Onun fikrincə bəşər sivilizasiyasının tarixi planetar miqyaslı bir dünya sistemin yaranması tarixidir. Bu vahid dünya sistemin yaşı 5000 ilə yaxındır. O tədricən özünün tərkib hissəsi olan kiçik iqtisadi sistemləri zaman-zaman ətrafında birləşdirmişdir. Bu dünya-sistemin sepsifik xüsusiyyəti onun vaxtaşırı yerini dəyişən mərkəzinin olmasıdır. XIX əsrdə bu mərkəz Avropaya, daha sonra isə Amerikaya köçmüşdür. Bu yerdəyişməyə qədər dünya – sistemin mərkəzi Çin olmuşdur. Bu baxımdan son bir neçə onillikdə Çinin inkişafının başlıca səbəbi dünya-sistemin mərkəzinin yenidən Çinə qayıtmasıdır. [10, 120]

İtaliyalı sosioloq C. Arriqi də Vallerstayn kimi müasir dünya sistemini tarixən Avropa kapitalizminin XVI əsrdən başlayaraq qloballaşmış forması adlandırır. Arriqinin fikrincə inkişafında tarixi kapitalizm dörd mühim mərhələdən keçmişdir. Hər mərhələdə yeni kapital mərkəzləri formalaşmışdır. Bu mərkəzlər kimi Arrteqi XVI əsrdə Genua respublikasını, XVII əsrdə Hollandiyanı, XVIII-XIX əsrlərdə Böyük Britaniyanı, XX əsrdə isə ABŞ-ı təqdim edir. [1, s.56] Bununla da mütəfəkkir hesab edir ki, qloballaşma məhz Aqvropada meydana gələn kapitalizm tədricən bütün dünyaya yayılmış və onu daha sıx birləşmiş vahid sistemə çevirmişdir. Bu proses boyunca bir neçə dəfə öz mərkəzini dəyişən kapital son nəticədə öz mədəni arealını tərk etməmişdir.[2, s.57]

Qloballaşmanın tarixi inkişaf xüsusiyyətlərinin tədqiqində dünya sistemi nəzəriyyəsinin tərəfdarlarının rolu əvəzəsizdir. Bu prosesin tarixi təkamülünün araşdırılmasında adı çəkilən nəzəriyyənin nümayəndələrinin br sıra müddəaları üst-üstə düşür. Prakiki olaraq bütün dünya sistemi nümayəndələrinə görə qloballaşma prosesi öz başlanğıcını XVI əsrdən götürür. Digər bir tərəfdən Brodeldən başlayaraq, Vallerstayn daxil bütün dünya sisem nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, bütün dünya vahid sistem olaraq bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif elementlərdən ibarətdir və bu qarşılıqlı təmas daim müxtəlif sosial strukturlar (dövlət, millət, xalq) yaradır. Nəhayət bütün dünya sistemi nəzəriyyəsinin tərəfdarları vahid dünya sistemini qloballaşma prosesinin təzahüri kimi təqdim edir.

Qloballaşma prosesini arxaikləşdirən görkəmli qlobalistlərdən biri T. Fridman qloballaşma prosesinin təqribən XV əsrdən başlandığını qeyd edərək bütün bu prosesi ümumi 3 hissəyə bölür: qloballaşma 1 (1491-1800), qloballaşma 2 (1800-2000) və qloballaşma 3 (2000-müasir dönəm). [10, s.146] Fridmana görə qloballaşmanın birinci mərhələsində dünyanın 4 əsas kontinentinin bir-birini tanıması prosesi başa çatır. İkinci mərhələ kontinentlər arası təmas münasibətlərinin formatı müəyyən olunur. Burada "dominant" kontinent olaraq Avropa və Amerika irəliyə keçir və qlobal inteqrasiyanın təminatçısına çevrilir. Nəhayət 3-cü mərhələdə digər kontinentlərin Qərbə yaxınlaşması prosesi başlanır. ETT-nin və İKT-nin inkişafı dünya dövlətləri arasında zaman və məkan məhdudiyyətlərini aradan qaldırır

Qlobalist M. Vaters qloballaşmanın inkişaf tarixini fərqli dövlərlə əhatə edərək 3 hissəyə bölüür:

1. XI-XIV əsrlər. Şərq və Qərb arasında ilkin təmas dövrü. .
2. XV-XVIII əsrlər. Böyük coğrafi kəşflər, kontinentlərin tanınması, Qərbi Avropa ölkələrinin okeanlar üzərindən müstəmləkəçilik siyasətini uğurla nbaşa çatdırması
3. XIX əsrindən müasir dövrə qədər. Beynəlxalq inteqrasiyanın pik həddinə çatması, Sənayeləşmə, Kapitalizmin dünya hegemonluğu və qərb dəyərlərinin dünyaya yayılması. [12, s.83]

R. Robertsonun qloballaşmanın inkişaf tarixi ilə bağlı irəli sürdüyü yanaşma bu prosesi bütövlükdə 5 mühüm mərhələyə bölür və bu mərhələlər çərçivəsində bəşər sivilizasiyasının sıxlaşmasına səbəb olan prosesləri açıqlayır

1. Meydana gəlmə mərhələsi (Avropa 1400-1750)

. Xristianlıqlda parçalanma

. Fərd və cəmiyyət haqqında ictimai fikirlərin inkişafı

. Planetin ilk xəritələrinin çəkilişi

. Kayinatın günəş sistemi kimi təqdim olunması

.Planetin tədqiqi ilə bağlı dəniz səfərləri

.Müstəmləkəçilik

2. Başlanğıc mərhələ (Avropa 1750-1875)

. Milli dövlətlərin formalaşması

. İlk diplomatik münasibətlərin qurulması və sistem halına gəlməsi

. Vətəndaşlıq və passport sisteminin tətbiqi

. İlk rəsmi beynəlxalq müzakirələr

. ilk internasional və universal ideyaların formalaşması

3. Genişlənmə mərhələsi (1875-1925)

. Dünyanın dörd əsas kateqoriyada konsepsiyalaşması: milli dövlət, milli mənlik, vahid beynəlxalq sistem, vahid bəşəriyyət

. Hegemonluq uğrunda mübarizə və ilk dünya müharibəsi

. İlk beynəlxalq miqrasiya prosesləri.

4. Hegemonluq uğrunda mübarizə (1925-1969)

. Millətlər cəmiyyəti və BMT

. İkinci dünya müharibəsi və soyuq müharibə

. Ümumdünya nüvə müharibəsi təhlükəsi

. Üçüncü dünyanın formalaşması

5. Qeyri-müəyyənlik mərhələsi ( 1969-1992)

. Kosmosun tədqiqi

. Qeyri maddi dəyərlər və hüquqlar haqqında müzakirələr.

. Mürəkkəb beynəlxalq münasibətlər sistermi və yeni aktorlar

Qlobal kütləvi informasiya vasitələrinin meydana gəlməsi

Transmilli koroporasiyaların formalaşması və hegemonluq uğurnda mübarizəsi [11, s.374].

Qloballaşmanın formalaşması tarixi ilə bağlı təkamülçü nəzəriyyələr də oxşar mülahizələrlə çıxış edir. Rusiyada qlobalistika elminin aparıcı alimlərindən olan A. Çumakov qloballaşmanın inkişaf mərhələlərini aşağıdakı kimi təsnifləndirir: [7]

Birinci qlobal inteqrasiya mərhələsi XIX əsrin ortalarından 1914-cü ilə qədər olan dövrü əhatə edir və Britaniya imperiyasının adı ilə bağlıdır. Qloballaşmanın birinci dalğası zamanı dünya iqtisadiyyatı vahid sistem forması almağa başlayır. Bu dövr yeni formalaşan transmilli korporasiyaların (OST HİND, STANDART OİL, SİMENS) və dövlətlərin yeni istehlak bazarları uğrunda mübarizəsi ilə xarakterizə olunur.

II dünya müharibəsi və onun nəticələri qloballaşmanın ikinci dalğasını sürətləndirir. Bu dalğa sırf siyasi sferada qlobal siyasi tendensiyaların güclənməsi ilə yadda qalır.Yeni qlobal institutlar (BMT) ortaya çıxır. 1945-ci ilin avqustunda ABŞ tərəfindən Yaponiyaya atılan atom bombası qloballaşmanın inkişafında bifurkasiya nöqtəsinə çevrilir və proses indiki mərhələsinə qədəm qoyur.

II dünya müharibəsindən sonra qloballaşma prosesi tərkibində dualizm ortaya çıxır. Belə ki, dünya birinin başında ABŞ, digərinin başında Sovetlər Birliyi olmaqla iki qütb ətrafında birləşir. Yalnız Sovetlər Birliyinin süqutundan sonra qloballaşmanın üçüncü fazası başlaylır. Bu fazanın başlamasını şərtləndirən amillər aşağıdakılardır:

1. Demoqrafik-ekoloji amil (artım həddi mövzusunu aktual edən demoqrafik partlayışlar)
2. Texnosferin qloballaşması (elmi texniki tərəqqi postsənaye dcəmiyyətinin formalaşması üçün əsas oldu).
3. İqtisadi qloballaşma
4. Geosiyasi qloballaşma
5. Sosial mədəni qloballaşma [8].

Bəzi mütəxəssislər qlobal proseslərin XX əsrin ikinci yarısında başladığını iddia edirlər. Bu zaman onların rəhbər tutduqları fikir bundan ibarətdir ki, İkinci Dünya müharibəsi bu və ya digər dərəcədə bütün qitələrin qoşulduğu ilk qlobal müharibə olmuşdur. Müharibədən dərhal sonra qlobal beynəlxalq təşkilat olan BMT yaradılmışdır. Elə bu illərdə də müstəmləkə sisteminin dağılmağa başlaması ilə inkişaf etməkdə olan müstəqil dövlətlərin sosial-iqtisadi problemləri kompleks şəkildə üzə çıxmışdı. Məhz həmin illərdə Elmi-Texniki İnqilab (ETİ), rabitə və informasiya prosesləri təşəkkül taparaq tədricən nüfuzlu siyasi və iqtisadi amilə çevrilmişdi.

İkinci mərhələni, yəni 1970-1990-cı illərin qlobal proseslərini dünya birliyi tərəfindən formal cəhətdən təsdiq olunmuş bir durum kimi səciyyələndirmək olar: bəşəriyyət kompleks qlobal problemlərlə üzləşmiş, onların təsnifatını vermiş və beynəlxalq iqtisadi və humanitar əməkdaşlıq, inkişaf etməkdə olan ölkələrə yardım kimi sahələrdə onların həllinə cəhd edilmişdir.

Qloballaşmanın üçüncü mərhələsi 90-cı illərin sonunda başlamışdır. Bu mərhələ özünəməxsusluğu ilə səciyyələnir. Bu fərqli xüsusiyyətlər aşağıdakılardır:

1) ETİ-nin informatika və rabitə sahələrindəki nailiyyətləri, beynəlxalq əlaqələrin, xüsusən də İnternetin durmadan inkişaf etməsi qlobal dünya birliyinin yaranmasına gətirib çıxarmış, milli sərhədlər şərti əhəmiyyət kəsb etməyə başlamışdır;

2) ABŞ-ın siyasi, iqtisadi, maliyyə, informasiya və texnologiya sahələrində nüfuzunun artması və bundan Birləşmiş Ştatların öz milli maraq və dəyərlərinə uyğun istifadə etmək cəhdləri bütün qlobal problemlərə spesifiklik gətirir. Bu ölkənin qlobal problemlərin həllində rolu bir sıra hallarda nəinki mühüm, hətta həlledici əhəmiyyət kəsb etməyə başlayır;

3) Bəzi ölkələrdə qloballaşma proseslərindən hakim elitanın narahat olduğu üzə çıxmış, bu proseslərə əks-təsir göstərmək məqsədilə sosial qruplar formalaşmışdır.

Ümumiyyətlə qloballaşmanın məhz XX əsrin 60-cı illərində ortaya çıxması ilə bağlı fikir irəli sürənlər çoxdur. Təkamülçü yanaşmadan başqa bir çoxları qloballaşmanın startaplarını baş verən

hər hansı qlobal bir hadisə ilə bağlayırlar. Adətən prosesi XX əsrin 60-cı illərinə bağlayanlar qloballaşmanı postmodernizm kimi qələmə verməyə çalışırlardır. XX əsrin 60-cı illərində soyuq müharibənin kəskinləşməsi ötəsindən ABŞ və Sovetlər Birliyinin razılaşmasını, Kosmosun fəthini, Afrika qitəsində 32 dövlətin müstəqillik əldə etməsini, Nüvə silahının yayaılmaması haqqında müqavilələri, ilk hesablama maşınlarının oryata çıxmasını və iki kompyuter arasında ilk dəfə əlaqənin qurulmasını qloballaşmanın başlanğıcı kimi qələmə verənlər çoxdur.

Qeyd etmək lazımdır ki, qloballaşmanın meydana gəlməsini şərtləndirən şərait olmasaydı, o xüsusi bir fenomen kimi təşəkkül tapa bilməzdi.

Qloballaşmanın birinci ilkin şərti bir sıra ölkələrin sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçməsi olmuşdur. Aydındır ki, informasiya cəmiyyətinin strukturları formalaşmasaydı, İnternet yaranmasaydı, kütləvi informasiya vasitələri olan televiziya, radio geniş yayılmasaydı qloballaşma mümkün ola bilməzdi.

Qloballaşmanın ikinci ilkin şərti müharibədən sonrakı dövrdə təşəkkül tapmış yeni qarşılıqlı iqtisadi münasibətlər sisteminin formalaşması olmuşdur. 1944-cü ilin Bretton-Vuds razılaşmalarından sonra dünya bazarında dolların əsas hesablaşma vasitəsi kimi təsdiq edilməsi, ticarət və tariflər haqqında bir sıra beynəlxalq müqavilələrin bağlanması bir qaydalı dünya iqtisadiyyatının meydana gəlməsinə səbəb olmuşdur.

Qloballaşmanın bir fenomen kimi meydana gəlməsinin üçüncü ilkin şərti müharibədən sonrakı yeni iqtisadi qaydaları qoruyub saxlamaq məqsədilə bir sıra beynəlxalq təşkilat və institutların yaradılması olmuşdur. Onların arasında ilk növbədə BVF, Dünya Bankı və Ümumdünya Ticarət Təşkilatını göstərmək olar. Beynəlxalq iqtisadi sistemdə özünəməxsus rol oynayan digər təşkilatları, regional bankları, BMT-nin İnkişaf Proqramını, Ticarət və İnkişaf üzrə Konfransını da buraya əlavə etmək olar. Məsələn, son 20 ildə BVF və DB-nin fəaliyyətində əsas iqtisadi problemlər, maliyyə böhranları, keçmiş kommunist ölkələrinin bazar iqtisadiyyatına keçməsi ilə bağlı mühüm qərarların qəbul edilməsi mərkəzi yeri tutmuş və bu gün də belə qalmaqdadır.

Qloballaşmanın dördüncü ilkin şərti nəhəng transmilli korporasiyaların (TMK) meydana gəlməsi olmuşdur. Bu gün onlar təkcə iqtisadi sahədə deyil, həm də siyasi səhnədə baş rolları ifa edir. Mobil, Maykrosoft, Britiş Petrolium, İtoçi, Fiat, Filipp Morris, Folksvagen, Soni, Şevron, Nestle kimi TMK-lar bu gün müxtəlif ölkələrdə iqtisadiyyatın bütün bölmələrini real nəzarət altında saxlayır. Ən müxtəlif iqtisadi və siyasi təzyiq vasitələrini istifadə etməklə onlar milli hökumətləri investisiya, vergilər, dövlət sifarişləri, özəlləşdirmə və s. ilə bağlı mühüm qərarları TMK-nın mənafelərinə uyğun qəbul etməyə məcbur edirlər. BMT ekspertlərinin hesablamalarına görə, bu gün dünya bazarında "oyun qaydalarını" müəyyən edən və beynəlxalq münasibətlərdə baş verən proseslərə çox güclü təsir göstərən 40 minə yaxın TMK var.

Qloballaşmanın iqtisadi və siyasi inkişafın aparıcı amilinə çevrilməsinin beşinci ilkin şərti SSRİ-nin dağılması və Şərqi Avropanın bir sıra dövlətlərinin kapitalist inkişaf yoluna keçməsi olmuşdur. Bir sıra keçmiş sovet respublikaları və sosialist birliyi ölkələrində hakimiyyətə neoliberalizm ehkamlarına inanan siyasi elita nümayəndələrinin gəlməsi qısa bir müddətdə Qərb istehsalçılarının məhsullarının bu ölkələrin daxili bazarlarını ələ keçirməsinə yol açdı.

Göründüyü kimi qlobal inteqrasiya prosesinin başlanğıc nöqtəsi haqqında mülahizələr çoxdur. Şərti olaraq bu mülahizələr və yanaşmaları nəzərdən keçirirək iki əsas qrupda birləşdirmək olar. Birincisi, qloballaşmanın yaşının sivilizasiyanın inkişaf tarixinə bərabər tutuanlar və ikinci qrup qloballaşmanı sırf iqtisadi xarakterli inteqrasiya prosesi kimi izah edib, onun yaşını yeni və ən yeni dövrə bağlayanlar.

Sezilən odur ki, istənilən halda qloballaşmanın tarixi ilə bağlı istənilən tədqiqat sinergetik xarakterə malik olub, prosesin bifurkasiya nöqtəsinin axtarışına əsaslanır. Burada ortaya qoyulan

başlıca məqsəd prosesin başlanmasına start verən hər hansı qlobal hadisənin ortaya çıxarılmasıdır.

**Nəticə.** Bizim fikrimizcə proses kimi qloballaşma yalnız iqtisadi prizmadan nəzərdən keçirilə bilməz. Qloballaşmanın mahiyyəti dünya sivilizasiyasının bütün yaşam sferalarında unifikasiyasını təmin etməkdən ibarətdir. Məsələyə məhz bu prizmadan baxaraq hesab edirik ki, qloballaşma prosesinin başlanğıc nöqtələrini insanlıq tarixinin istənilən nöqtəsində ümumbəşəri əhəmiyyət daşıyan və nəticələrinin bütün qlobal sosiumların həyatının ayrılmaz hissəinə çevrilən hadisələrin tarixində axtarmaq lazımdır. Belə hadisələr isə dünən, bu gün baş verməmişdir. Ona görə də prosesin tarixini sivlizasiyanın yaranma dövrlərində axtaranlar haqlıdır. Məsələyə belə baxış bucağı prosesin inkişaf mərhələlərinin axtarışını sual altına qoyur. Sivilizasiyalar yarandığı gündən onların inteqrasiyası ali qanuna çevrilmişdir. Odun ixtirası, yığıcılıq və ovçuluqdan əkinçilik və maldarlığa keçid, dəmirin kəşfi, dini ideologiyanın meydana gəlməsi kimi qlobal proseslər vardır ki, onlar qlobal səviyyədə bütün sivilizasiyaların həyatında eyni xarakterli transformasiyalara səbəb olmuşdur. Eyni zamanda əldə edilən bu qlobal nailiyyətlər insan həyatının yarılmaz hissəsinə çevrilmişdir. Zaman zaman insanların dünyəvi biliklərinin həcmi böyüdükcə belə yeni açılışların intensivliyi artmış və xarakteri dəyişmişdir. Hər bir yenilik özünün nəticələri ilə gəlmişdir. Başqa sözlə bəşəriyyətin tarixi sivil toplumların inteqrasiyasının, qloballaşmanın tarixidir. Qloballaşma bəşəriyyətin inkişaf məqsədlərindən biridir.

## ƏDƏBİYYAT

1 Mehdiyev R. Azərbaycan: Qlobbalaşma Dövrünün tələbləri. Bakı: 21 YNE 2005
2 Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. dərslik. Bakı: Azərnəşr 2005
3 Ələkbərova N. Siyasi elmin tarixi. Bakı: 2010
4 Məmmədov K. Milli dövlətlər Bakı: Azərnəşr, 2008
5 Tagıyev Ə. Müasir siyasi elm. Bakı: Azərnəşr, 2000
6 Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi. Bakı: Azərnəşr, 1999
7 Babaoglu H. Politologoya. Ali məktəblər ücün dərslik. Bakı: Azərnəşr, 2012
8 Əfəndiyev M. Siyasi elmin problemləri. Bakı: 2011.

# QLOBAL İINTEQRASİYA PROSESİNİN İNKİŞAF DİNAMİKASINA DAİR BAXIŞLAR

***Məmmədova Könül***

## XÜLASƏ

Məqalədə qloballaşmanın ümumbəşəri inteqrasiya prosesi kimi tarixi inkişaf mərhələləri ilə bağlı yanaşmalar təhlil olunur. əsas məqsəd bu prosesi tarixi rakursdan nəzərdən keçirmək və bu yolla prosesin obyektiv ofrmalaşma səbəblərini müəyyən etməkdir. Araşdırma zamanı qlobal inteqrasiya prosesinin formalaşma və inkişaf mərhələləri ilə ilə bağlı aparıcı yanaşmalar nəzərdən keçirilir və bu yanaşmalarda qloballaşmanın proses olaraq ortaya çıxmasına təkan vermiş qlobal miqyaslı proseslərin şərhi verilmişdir. Ümumiyyətlə qloballaşma ilə bağlı tarixi baxışlar bu prosesi bəşər sivilizasiyasının inkişafının mxtəlif mərhələlərində baş verən inteqrasiya xarakterli iqtisadi, siyasi, mədəni hadisələr siyasi baxımdan təhlil edilmişdi Burada söhbət erkən orta əsrlərdə səlib yürüşlərindən, daha sonra böyük coğrafi kəşflərdən, Qərbi Avropa ölkələrinin müstəmləkə istilasından, XVIII-XIX əsrin sənaye inqilablarından dövüründə

başverən dəyişliklər elmi cəhətdən şərh edilmişdir burada Dünya miqyasında bütün xalqların və ölkələrin qarşılıqlı təmas prosesinin bəşəriyyətin inkişaf tarixi ilə üst-üstə düşməsi mərhəllələr göstərilmişdir bununla yanaşı Bu prosesi Monteskye “Qanunların ruhu” əsərində “İki xalqın təması zamanı biri satmağa, digəri isə almağa ehtiyac duyursa onların ittifaqı qarşılıqlı zərurətdən irəli gəlir fikirləri elmi baxımdan əsaslandırılmışdır Bəzi yanaşmalara görə qloballaşmanın kökləri antik dövrlərə qədər gedib çıxsada məqalədə bu prosesi tarixi mərhəllərlə təhlilini vermişik.

## ВЗГЛЯДЫ НА ДИНАМИКУ РАЗВИТИЯ ГЛОБАЛЬНОГО ИНТЕГРАЦИОННОГО ПРОЦЕССА

***Мамедова Конуль***

## АННОТАЦИЯ

В статье анализируются подходы к этапам исторического развития как процесса глобальной интеграции глобализации. Основная цель состоит в том, чтобы посмотреть на этот процесс с исторической точки зрения и тем самым определить причины объективного формирования процесса. В исследовании рассматриваются ведущие подходы к этапам становления и развития глобального интеграционного процесса, дается обзор глобальных процессов, приведших к возникновению глобализации как процесса. В целом исторические взгляды на глобализацию анализировали с политической точки зрения интеграцию экономических, политических, культурных событий, происходивших на разных этапах развития человеческой цивилизации. получили научное объяснение.Согласно некоторым подходам, корни глобализации уходят в глубокую древность, но в статье этот процесс анализируется по историческим этапам.

## VIEWS ON THE DYNAMICS OF DEVELOPMENT OF THE GLOBAL INTEGRATION PROCESS

***Mammadova Konul***

## SUMMARY

The article analyzes the approaches to the stages of historical development as a process of global integration of globalization. The main purpose is to look at this process from a historical perspective and thus determine the reasons for the objective formation of the process. The study examines the leading approaches to the formation and development stages of the global integration process, and provides an overview of the global processes that led to the emergence of globalization as a process. In general, historical views on globalization analyzed the integration of economic, political, cultural events that took place at different stages of development of human civilization from a political point of view. The changes that have taken place during the industrial revolutions of the twentieth century have been scientifically explained. According to some approaches, the roots of globalization go back to antiquity, but the article analyzes this process in historical stages.

## PSİXOLOGİYA

# ALKOQOLİZM XƏSTƏLƏRİNDƏ MOTİVASİYA SAHƏSİNİN DƏYİŞİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

***İgidova Emiliya***
***BDU-nun Psixologiya kafedrasının müəllimi***
***emiliya1468@mail.ru***

***Açar sözlər:*** Alkoqolizm, etiologiya, davranış,motiv.
***Ключевые слова:*** Алкоголизм, этиология, поведение,мотивация.
***Keywords:***Alcohol, etiology, behavior, motivation.

Son illərdə Respublikamızın siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən dəyişiklikər cəmiyyətimizdə bir sıra problemlərin əmələ gəlməsinə səbəb olmuşdur. Müasir dövrdə insanların daim gərgin və stress vəziyyətində olması bir sıra xəstəliklərin inkişaf tezliyinə də təsir göstərməkdədir. Həmin xəstəliklərdən biri də alkoqollu içkilərdən sui-istifadə nəticəsində əmələ gələn xroniki alkoqolizm xəstəliyidir. Xroniki alkoqolikə çevrilən insanların böyük bir qismi məhz stressli və gərgin vəziyyətdən çıxmaq, gündəlik qayğılardan azad olmaq üçün alkoqol kimi vasitələrə müraciət edirlər.

Alkoqolizm hazırda klinik psixologiyaya daxil olan ən mühüm nozoloji vahidlərdən biridir. Müstəqil xəstəlik olmaqla etiologiyaya, patogeneza və çoxcəhətli klinik gedişə malikdir. Bundan başqa digər xəstəliklərin əmələ gəlməsində, inkişafında “əlavə amil” kimi daim iştirak edir. Müasir dövrdə ruhi əsəb xəstəliklərinin formalaşmasından, ağırlaşmasından və profilaktik tədbirlərdən danışarkən alkoqolizm, narkomaniya və taksikomaniyanın adını çəkmədən keçmək olmur.

Spirtli içkilərə meyilliliyin daxili üzvlərə və ümumiyyətlə, somatik xəstəliklərin əmələ gəlməsinə necə ağır təsir göstərdiyi də məlumdur. Bütün bunlar nəzəri və təcrübi təbabətin uzunmüddətli tədqiqat materiallarına əsaslanmışdır. Tədqiqatlar nəticəsində alkoqolizmin bütün xəstəliklərlə qarşılıqlı əlaqəsi aşkar olunmuşdur.

Alkoqolizmin sosial tərəflərinə gəldikdə isə bu xəstəliyin sosial bəla olduğu aydın olur. Bir xəstəlik kimi ayrı-ayrı şəxsləri həyatdan vaxtsız aparmaqla, bəzən hətta istedadlı və lazımlı mütəxəsisləri yaradıcı əməkdən məhrum etməklə kifayətlənmir. Sərxoşluqdan alkoqolizmə gedən yol boyu orqanizmin funksional və orqanik pozğunluqları ilə yanaşı əmək fəaliyyəti də məhvə sarı gedir. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki,alkoqolizmin birinci mərhələsində üzürsüz işdən qalmalar 17,1 gündürsə, ikinci mərhələdə bu 32,4 günə çatır. Əgər xəstəlikləri və “üzürlü səbəbləri” də bura əlavə etsək onlar ilin yarısından çoxunu istehsalatdan kanar vəziyyətdə qalırlar. Bir sözlə alkoqoldan sui-istifadə edən şəxslər düşünməyən, xarici aləmlə əlaqəsi azalan, utanma hissi zəifləmiş olan, əməyə və zəhmətə qarşı marağı iton va motivasiya təlabatlar sisteminin dəyişkənliyi ilə seçilən şəxslərə çevrilirlər [6, səh. 33].

Alkoqolizm yalnız tibbi bioloji deyil, həmçinin sosial və klinik psixoloji məzmuna da malikdir. Buna görədir ki, indiyə kimi alkoqolizmi ifadə edəcək yeganə bir nəzəriyyə yoxdur. Əksinə, dolaşıq və biri digərinə zidd olan nəzəriyyələr silsiləsi əmələ gəlmişdir. Tarixi sənədlərdə və tibbi ədəbiyyatlarda alkoqolizm spirtli içkilərə meyillilik kimi qiymətləndirilir. Ancaq bu sözün əsl mənasını anlamaq üçün keçmiş mənbələrə qayıtmaq lazımdır. Hipokratın və Qalenin əsərlərində sərxoşluq ictimai zidd hərəkət və xəstəlik kimi xarakterizə edilir.

Ancaq alkoqolizmin klinikasına elmi münasibət yalnız 19 cu əsrin əvvələrində başlanır. 1804 cü ildə ingilis hakimi Tomas Trotterin “Sərxoşluq və onun insan orqanizminə təsiri” kitabı nəşr

olundu.Kitabda ilk dəfə olaraq “sərxoşluq” sözü ənənəvi mənasını itirdi. Burada sərxoşluğa sadəcə sosioloji deyil, həm də bioloji problem kimi baxılırdı [5, səh. 122].

Rus alimlərindən alkoqolizmin klinikasını ilk dəfə geniş şərh edən moskvalı həkim K.M.Bril Kramer olmuşdur. “Sərxoşluq və onun müalicəsi” kitabında spirtli içkilərə patoloji meylin məişət sərxoşluğundan fərqli xüsusiyyətlərini göstərmiş, onu patoloji qanunlarla izah edərək xəstəlik kimi müəyyənləşdirmişdir. Başqa bir moskvalı həkim A. M. Salvatori 1817 ci ildə spirtli içkilərə meyilliliyi “oynomoniya” (oyno-yunanca şərab deməkdir) adlandırmağı təklif etmişdir. Oynomoniya xroniki alkoqolizm deyil, məişət sərxoşluğu ilə əlaqədar baş verən patoloji hallardan biridir. Digər bir müəllif X.Eskiral da sərxoşluğa cəhdin xəstəlik olduğuna tərəfdar çıxır təklif etdiyi sistemi alkoqolmaniya adlandırırdı.

Alman Hüfelyand öz əsərində spirtli içki düşgünlərinin diaqnozunu “dipsomaniya” adlandırmışdır. Dipsomaniya yuxarıdakılardan fərqli olaraq ikincili sərxoşluqdur. Yəni müxtəlif ruhi- əsəb xəstəliklərindən (epileptik tutmalar, nevrozlar, depresiyalar, orqanik pozuntular) sonra, yaxud müxtəlif etiologiyalı hər hansı psixoz nəticəsində əmələ gəlir [1, səh. 222].

Alkoqolizmin nozoloji vahid kimi nəzəri və təcrübi cəhətdən yerini möhkəmləndirməsində M.Qussun böyük xidməti olmuşdur. O, 1849-cu ildə Stokholmda özünün klassik “Xroniki alkoqolizm” yaxud “Alkoqolizm xəstəliyi” monoqrafiyasını nəşr etdirmişdir. Quss bu xəstəliyə spirtli içkilərdən hərisliklə istifadənin yekunu kimi baxmış, bununla əlaqədar sinir sistemində müvafiq dəyişiklərin getdiyini göstərmişdir. Alimin bu müddəası yarım əsrdən çox psixiatriyaya aid dərsliklərin səhifələrində nüfuzunu itirməmişdir.Müəllif kitabının sonrakı nəşrində adını bir qədər də dəyişdirərək “Alkoqola xroniki meyillilik” qoymuşdur.

Bununla belə alkoqolizmin klinikasına maraq azalmamışdır.A.A.Portnov “Alkoqolizm”, I.V.Strelçuk “Xroniki alkoqol intoksikasiyası”, A.N.Zimin “Alkoqol narkomaniyası”, Lekod “Alkoqol xəstəliyi”, bəzi fransız müəllifləri isə "etilizm " terminlərinə üstünlük vermişlər [5, səh. 11].

S.S.Korsakov 1913-cü ildə nəşr etdirdiyi kitabında xroniki alkoqolizmin spirtli işkilərdən uzun müddətli istifadə nəticəsində orqanizmdə əmələ gələn pozğunluqlar məcmuəsi olduğunu yazırdı.

E.Kreplinə görə “xroniki alkoqolizm” içilən alkoqolun təsiri keçməmiş yeni dozanın qəbul edilməsidir. Əslində deyilənlərin hamısı alkoqolizm xəstəliyinin klinik mənzərəsinin səciyyəsini müəyyənləşdirən əlamətlərdir.

Biz gündəlik həyatımızda alkoqolizm xəstəliyindan əziyyət çəkən insanların həyatına nəzər salsaq heç bir təcrübəmiz va psixoloji biliyimiz olmasa belə həmin insanlarda ətrafdakılara qarşı laqeyd münasibəti öz qohum və yaxınları ilə əvvəlki münasibətlər sisteminin pozulmasını, ictimai həyatda fəal iştirak etməmələrini asanlıqla müşahidə etmiş olarıq.Xəstəliyə qədər aktiv və çox gərgin həyat tərzi keçirən insanları heç bir şey maraqlandırmır. Onlar sadə əməksevar insandan qayğısız davranışlarının qeyri tənqidiliyi ilə seçilən insanlara çevrilirlər. Bu baxımdan alkoqolizm xəstələrinin və onların motivasiya sferasında baş verən dəyişikliklərin öyrənilməsi əhəmiyyət kəsb edir.

Bizim gündəlik həyatımızda belə xroniki alkoqolizm xəstəliyinə doğru gedən insanları tanımağımıza köməkçi olacaq əlamətlərdən biri də odur ki, həmin insan tərəfindən içkiyə daha çox vaxt ayrılmağa başlayır.lçkiyə sərf olunan vaxtın çoxalması onda əks olunur ki, insan alkoqol qəbul etməyə həftədə bir dəfədən çox vaxt ayırır [4, səh. 322].

Onlar kompaniyadan kənarda da əlavə içki qəbul etməyə çalışırlar. Spirtin bu əlavə dozası çox vaxt cəmiyyətdən kənarda qəbul edilir. Beləliklə bir tərəfdən cəmiyyətdə alkoqol qəbul etmək üçün fəallıq göstərilir,digər tərəfdən isə cəmiyyətdən kənarda gizlənərək içmək cəhdi olur. Motivlərin alkoqolu qəbul etmək yaxud ondan imtina etmək arasında olan mübarizəsi gedir. Xəstə qonaq gedərkən orada içki olmayacağını bilirsə əvvəlcədən içib gedir. O həmçinin özü ilə

də alkoqol apara bilər. Oxşar davranışlar inkişaf edən alkoqolizmin mövcudluğunu göstərir. Bu dövrdə içki yüngüllük gətirir. Onlar ünsiyyətcil, cəsarətli olur, insanlarla asanlıqla danışmağı bacarırlar. Beləliklə alkoqoldan psixoloji asılılıq formalaşmağa başlayır. Bu asılılıq nəticsində alkoqolik içkidən daha ardıcıl ifadə edir. Eyni zamanda orqanizmin alkoqoldan sui-istifadəyə reaksiyası dəyişir. Içkinin başlanğıcında alkoqol istənilən nəticəni almaq üçün böyük miqdarda qəbul edilir. Alkoqoliklərdə əvvəlcə içki ilə bağlı peşimançılıq olsa da onlar mənəvi əzab çəkməmək, gərginliyi va daxili narahatlığı çıxartmaq üçün yenidən içirlər. Adətən xəstələrlə bu mövzu ilə bağlı söhbətin aparılması müsbət nəticə vermir. Alkoqoliklər özlərinə qarşı avvəlki hörmətin itdiyini hiss etdikləri üçün köhna tanışları ilə əlaqələri kəsib özləri kimi içənlərlə əlaqəyə girmaya çalışırlar. Əvvəlcə Lanqidləri özləri üçün ağır gələn yaxın dostlarla əlagə kəsilir. Onların taleyinə bir qədər etinasız yanaşan dostlarla olan əlaqələr isə saxlanmış qalır. Xəstə dostlarına qonaq getməməyə, onları isə qonaq çağırmamağa çalışır. Bütün bunlara baxmayaraq onlar daxildən əzab çəkir. Ancaq bu əzab alkoqoldan qaçmaq yerinə ondan dana çox istifadə etməyə gətirir. Sonralar isə xəstənin davranışında alkoqoldan fiziki asılılığın formalaşmasının əlamətləri özünü göstəməyə başlayır [1, səh. 222].

Alkoqoldan fiziki asılılıq bir sıra əlamətlərlə xarakterizə olunur. Onlara alkoqola dözümlülüyün artması, alkoqollu içkiləri qəbul etməkdən uzaq dura bilməmək, nəzarətin itməsi, alkoqol abstinensiyasının formalaşması və s. aiddir.

Dözümlülüyün artması onda təzahür edir ki, əvvəlki nəticəyə çatmaq üçün böyük dozada alkoqol qəbul etmək lazım gəlir. Məsələn: əgər əvvəllər əhvalın yüksəlməsi ilə gedən alkoqol sərxoşluğu 50 qram içkidən sonra əmələ gəlirdisə dözümlük artdıqda isə bu cür effekt üçün 100-150 qram doza lazım gəlir. Alkoqollu içkiləri qəbul etməkdən uzaq dura bilməmək onda əks olunur ki, xəstə alkoqoldan mütamadi olaraq gündə bir neçə dəfə istifadə edir [5, səh. 45].

Nəzarətin itməsi zamanı isə ilkin doza qəbul edildikdən sonra növbəti dozaları qəbul etməyi dayandıra bilmir. Bir qədəh içdikdən sonra növbəti dozaları da qəbul etmək üçün güclü cəhd yaranır. Bu heç bir məqsədə uyğun hərəkətin mümkün olmadığı dərin sərxoşluq vəziyyəti yaranana qədər davam edir. Özünə nəzarətin itməsi simptomu çox vaxt dərhal deyil, tədricən inkişaf edir. Bu simptomun mövcudluğu zamanı alkoqollu içkiləri qəbul etməyə olan qeyri-müəyyən cəhd onunla əlaqədardır ki, alkoqolun birinci dozasını qəbul etdikdən sonra klinikasına görə ağır alkoqol kefliliyinə çox oxşar olan təzahürlər inkişaf edir. Narahatçılıq, diskomfort vəziyyəti əmələ gəlir, əllər və dodaqlar titrəmərya başlayır. Bütün bu pozulmalar alkoqolun növbəti dozasını qəbul etdikdən sonra yaxşı aradan götürülür. Ancaq yüngülləşmə son dərəcə qısa müddətli olur və bir müddət sonra xoşa gəlməz əlamətlər yenidən özünü göstərir. Şəxs yenidən içkiya müraciət edir. Proses çox ağır sərxoşluq vəziyyəti əmələ gələnə qədər davam edir.

Styuart nəzarətin itməsinə “müstəqilliyin itməsi” adını vermişdir. Oraqnizmin alkoqola dözümlülüyünün artması alkoqoldan uzun müddətli istifadə dövründə inkişaf edir.

Alkoqol abstinensiyasının təzahürləri alkoqol sərxoşluğundan çıxarkən inkişaf edir. Abstinensiya əsasən xəstələrin fiziki vəziyyətində ümumi zəiflik, ürək bulanması, mədə ağrısı, ürək döyüntüsü formasında təzahür edir. Xəstələr möhkəm baş ağrısından əziyyət çəkir, parlaq işıq, güclü səs, yemək iyi onlara pis təsir edir. Əhvalları aşağı, həyacanlı və qəzəbli olurlar. Abstinensiya simptomları daha çox alkoqollu işkiləri qəbul etməyi qəflətən dayandırdıqda yaxud onun vərdiş olunmuş həmişəki miqdarını azaltdıqda baş verir [7, səh. 221].

Bütün bunlarla yanaşı xəstələrdə ciddi halusinasiyalar əmələ gəlməyə başlayır. Halusinasiyaların mövcudluğu zamanı isə yuxuda kəskin dəyişikliklər baş verir. Yuxuları narahat, xoşagəlməz və çox vaxt qorxulu olur. Xəstələr reallıqdan çətinliklə ayıra bildikləri yuxular görmələrindən şikayət edirlər.Dözümlülüyün artması,nəzarətin itməsi abstinensiya sindromunun formalaşması və s. kimi adı çəkilən təzahürlərin əlamətlərini göstərməkdəki əsas məqsəd ondan ibarətdir ki, adı çəkilən təzahürlər özü ilə xəstələrin motivasiya sferasının

dəyişməsini gətirir. Bütün bu əlamətlər formalaşmamışdan öncə belə alkoqol qəbul edən şəxslərdə müəyyən dəyişikliklərin getdiyini müşahidə etmək olar. Ancaq alkoqoldan psixi və fiziki asılılıq formalaşdıqdan sonra dəyişikliklər dərinləşməyə və daha parlaq olmağa başlayır. Alkoqolizm formalaşdığı zaman xəstələrin nümayiş etdirdiyi davranışlar olduqca müxtəlifdir. Xəstələr bəzən gümrah vəziyyətində özlərinə xas olmayan hərəkətlər yerinə yetirirlər. Onlara xəstənin şəsxi aila sirlarini yerli-yersiz açıqlamasını, çox danışmasını, özünə məxsus olmayan tərzdə aqresivlik göstərməsinin və s. aid etmək olar. Xəstə alkoqollu içkiləri qəbul etdiyi, onlar haqqında çox fikirləşdiyi üçün maraq dairəsi tədrican daralır və əvvəlki maraqları xastani cəlb etmir. Əməyin məhsuldarlığı aşağı düşür, işdəki səhvlərin miqdarı artır, qərar qəbul edərkən tələsik və düzgün olmayan qərarlar qəbul edilir, işə gecikmələr isə çoxalır. Bütün bu mənfi təzahürlər avvəllər özünü daha çox bayramlardan və bazar günündən sonra göstərir. Alkoqolizmin inkişafı gələcəkdə əlavə əlamətlərin qoşulması ilə xarakterizə olunur. Bu gündəlik iş zamanı yaxud qadağa qoyulmuş yerlərdə içki içməkdir. Xəstənin belə davranışının tanışlar, əməkdaşlar, qohumlar tərəfindən kəskin tənqidlə qarşılanması çox təbiidir.

Eşidilən sosial təzyiqlər təəssüf ki, çox vaxt xəstəni inkişaf edən xəstəlik dairəsindən kənara çıxarda bilmir. Alkoqolik özünü təmizə çıxartmaq məqsədi ilə ailə üzvlərinə əvvəlki uğurlarını dəyişdirərək, şişirdərək danışırlar.

Alkoqolikin həyat tərzi onun ailəsində münaqişələrin yaranmasına gətirir. Ailədəki gərginlik və qəzəb artır. Ailə üzvləri xüsusilə də faciənin şahidi olan uşaqlar əziyyət çəkirlər. Bu dövrdə alkoqolik başa düşmür ki, bütün bu bədbəxtliklər onun alkoqola olan meyli ilə bağlıdır. Bundan əlavə əgər alkoqolizmin başlanğıcında xəstə tədricən dostlarını itirirdisə, indi isə o ailə üzvlərini itirməyə başlayır. Haqiqatin qiymətləndirilməsi tamamilə qeyrireal xarakter daşıyır. Xəstə özunu qurban kimi qiymətləndirir və bunda öz yaxın qohumlarını günahlandırır.

İnsan tərəfindən spirtli içkiləri axtararkən və istifadə edərkən həyata keçirən davranış toplusu fəaliyyətin bütün formal atributlarını daşıdığı üçün fəaliyyət adlandırıla bilər. Yalnız bu fəaliyyətin əsasında alkoqola olan tələbat, motiv kimi spirtli içkilər axtarmaq, məqsədi isə sərxoşluq vəziyyətinə nail olmaq çıxış edir.

Beləliklə alkoqol əldə etməyə yönəlmiş fəaliyyəti spirtli içkiləri axtarmağa, qazanmağa və qəbul etməyə yönəlmiş fəaliyyət kimi qiymətləndirmək olar. Fəaliyyətin subyekti olan fərd öz fəallığını fəaliyyət anının özündə deyil, ona başlamamışdan öncə planlaşdırır.

Insanın fəaliyyəti bir deyil bir neçə tələbata cavab verdiyi üçün insan fəaliyyətini bir neçə motiv oyada bilər. Ancaq konkret insan fəaliyyətində xüsusi məzmuna malik olan aparıcı motivlər vardır. Məhz həmin aparıcı motivlər davranışa müəyyən məna verir. Onların dəyişməsi şəxsiyyət maraqlarının, dəyərlərinin, iddia səviyyəsinin və s. dəyişməsinə gətirir. Alkoqola olan güclü tələbat ictimai şərtlər çərçivəsində ödənilə bilmədiyi üçün xəstələr alkoqola olan güclü tələbatlarını ödəmək üçün əvvəlkindən fərqlənən yeni vasitə və üsullara əl atırlar.Alkoqol davranışın aparıcı motivi olmağa başlayır [8, səh 110].

Yeni tələbatların əmələ gəlməsi və inkişafı müvafiq motivlərin aktuallaşması ilə müşayət olunur. Şəxsiyyətin strukturunda qorunmuş motiv və tələbatlar öz emosional çalarlarını itirərək maraqsız olmağa başlayır. Deyilənlər onu göstərmir ki, insan qazancını içkiyə sərf edən kimi dərhal işə olan marağını itirir və iş birdəfəlik olaraq davranışın müstəqil motivi olmaqdan dayanır. Bu dərhal deyil, əvvəlcə fəaliyyətin özünün gedişində tələbatları ödəmək üçün baş verir. Hərdən xəstələrdə əvvəlki motivlər ardıcıllığına əsaslanaraq işləmək, dostları ilə ünsiyyətə girmək istəyi əmələ gəlsə də bu oyanmalar müvəqqəti xarakter daşıyır. Alkoqolizm xəstələrinda motivlərin oyandırıcı gücü və məna təşkil etmə funksiyasında da ciddi dəyişikliklərin getdiyi aşkar olunmuşdur.

Motivlətin oyandırıcı gücünün aşağı enməsinə maraqlar dairəsinin daralması, eyni tipli fəaliyyət növlərinə meyillilik,fəaliyyətin məcbur edici xarakter qazanması aiddir. Belə ki, burada

şəxsiyyətin əsas motivlərinin oyandırıcı gücü aşağı enir va alkoqol motivlərinin oyandırıcı gücü onlar üzərində üstünlük təşkil edir. Alkoqolizm xəstələrinin motivasiya sferasının oyandırıcı gücünün aşağı enməsi daha çox maraqlar dairəsinin xüsusilə ali etik maraqlar dairəsinin daralmasında təzahür edir. Sonradan isə bu proses şəxsiyyətin başqa maraqlarına, dərk etmə,öyrənmə, əməyə olan marağa təsir edir. Maraqlar dairəsinin daralması müxtəlif fəaliyyət növlərindən imtina edilməsi, onların kaşıblaşması ilə müşayyət olunur. Fəaliyyət vaxtın azlığına görə deyil,ona olan tələbatın aşağı enməsinə görə məhdudlaşır.O darıxdırıcı və zövq verməyən formada olur. Kitab, qəzet oxumaq, kinoya va teatra getmək, evdə qalıb ailə üzvləri ilə vaxt keçirmək xəstələrə maraqsız gəlir. Bəzən onlar kinoya, teatra getsə də bu başqalarının təzyiqi ilə olur. O orada darıxır. Azaldılmış tələbatalrın həyata keçməsi ilə əlaqədar olan fəaliyyətlər daha məcburi olur.

## ƏDƏBİYYAT

1. İsmayılov.N.V.Tibbi psixologiya və psixoterapiya.Bakı 2002.375 s
2. Şəfiyeva E.İ "Anomal inkişafın psixologiyası" Bakı-2012.400s
3. Şəfiyeva E.İ. "Klinik psixoloji diaqnostika metodları" Bakı 2013.142 s
4. Братусь.Б.С.Аномалия личности.М.1998.434 с
5. Братусь Б.С., Розовский И.Я., Цапкин В.Н. Психологические проблемы изучения и коррекции аномалий личности. М.,1988. 332 с
6. Зейгарник Б.В. «Патопсихология"»М.МГ:2014.340 с
7. Старшенбаум.Г.В. «Аддиктология»М.2017 .443 с
8. Шувалов А.В. Духовно психологические аспекты здоровья человека– М., 2017. 227с

## ALKOQOLİZM XƏSTƏLƏRİNDƏ MOTİVASİYA SAHƏSİNİN DƏYİŞİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

***Emiliya İgidova***

### XÜLASƏ

Alkoqolizm müasir dövrdə klinik psixologiyaya daxil olan ən mühüm nazoloji vahidlərdən biridir.Müstəqil xəstəlik olmaqla etiologiyaya,patogenezə və çox cəhətli klinik gedişə malikdir. Alkoqola olan güclü tələbat ictimai şərtlər çərçivəsində ödənilə bilmədiyi üçün xəstələr alkoqola olan güclü tələbatını ödəmək üçün əvvəlkindən fərqlənən yeni vasitə və üsullara əl atırlar.Beləliklə də alkoqol davranışın aparıcı motivi olmağa başlayır.

## ХАРАКТЕРИСТИКА ИЗМЕНЕНИЙ МОТИВАЦИОННОГО ПОЛЯ У БОЛЬНЫХ АЛКОГОЛИКОМ

***Эмилия Игидова***

### АННОТАЦИЯ

В настоящее время, одним из самых важных нозологических единиц, входящих в состав клинической психологии является алкоголизм. Наряду с тем,что является самостятельным заболеванием имеет разнообразную этиологию, патогенез и клиническое

течение. Из-за того,что сильная потребность в алкоголе не может удовлетвориться в рамках общественных условий,больные для удовлетворения сильной потребности в алкоголе прибегают к новым средствам и способам, отличающимся от предидущих.

## CHARACTERISTICS OF CHANGES IN THE MOTIVATION FIELD IN ALCOHOLICS PATIENTS

***Emiliya Igidhova***

### SUMMARY

Alcoholism is one of tehe most important nosological units of clinical psychology.As an independent disease ithas itsoün etiology,pathogenesis and versatile clinical picture. Because strong need of alcohol cannot be satisfied within socially accepted ways,patients start usingnew ways and methods to satisfy their stronge urge. Alcohol becomes the leading motivation of ones behavior.

# TƏLİM FƏALİYYƏTİNDƏ KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN MÜSTƏQİLLİYİNİN FORMALAŞMASININ PEDAQOJİ ŞƏRTLƏRİ

***p.ü.f.d. Nuriyyeva Məlahət Rafiq qızı***
***BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının müəllimi***
***nuruyeva.malahat@bsu.edu.az***

***Açar sözlər:*** təlim fəaliyyəti, müstəqillik, pedaqoji şərtlər, idrak fəaliyyəti, maraqlar, idrak motivləri
***Ключевые слова:*** учебная деятельность, самостоятельность, педагоги- ческие условия, познавательная деятельность, интересы, познавательные мотивы
***Keywords:*** educational activity, independence, pedagogical conditions, cognitive activity, interests, cognitive motives

Müasir cəmiyyətdə məktəb gənc nəslin tərbiyəsi üçün aparıcı qurumlardan biridir. Məktəb cəmiyyətdə sosial-iqtisadi münasibətlərin humanistləşdirilməsində ən mühüm amilə, fərdin yeni həyat münasibətlərinin formalaşması vasitəsinə çevrilməlidir. Məktəblilərin təhsili üçün konseptual bazanın işlənib hazırlanması pedaqogikanın prioritet vəzifələrindən biridir. Müasir pedaqoji və psixologiya elmində məktəblilərin təhsil fəaliyyətində müstəqilliyinin tərbiyəsi ilə bağlı problemləri formalaşdırmaq və həll etmək üçün zəruri biliklər toplusu mövcuddur.

Şagirdlərin fərdi inkişafında aparıcı amil, o cümlədən sinifdə şəxsiyyət keyfiyyəti kimi müstəqillik tərbiyəsi idrakın subyektiv hərəkətləridir. Məcburiy- yətə, müəllimə tabe olmağa, müəllim tərəfindən şagirdin zəhmətsevərliyindən istifadəyə əsaslanan təlim fəaliyyəti həyata keçirilən hərəkətlərin keyfiyyət tərəfi kimi müstəqillikdən danışmağa imkan vermir.

Müstəqillik insanın keyfiyyəti kimi yüksək səviyyədə formalaşmış təhsilin son məhsulu deyildir. Söhbət müstəqilliyin inkişaf tendensiyasından, öyrənilən keyfiyyətin formalaşmasında kəmiyyət və keyfiyyət dəyişikliklərindən gedir.

Sinifdə tədris prosesində şagirdlərin müstəqilliyinin tərbiyəsini şərtləndirən aşağıdakı aspektlər və şərtlər fərqləndirilir:

- təhsil biliyinin keyfiyyətini xarakterizə edən meyarlar;
- müstəqilliyin formalaşma səviyyəsi nöqteyi-nəzərindən meyarlar;
- dərsdə tərbiyəvi hərəkətlərin yerinə yetirilməsi motivləri;
- müəllim tərəfindən müstəqillik tərbiyəsinin təşkili nöqteyi-nəzərindən - sinifdə yüksək peşəkarlıqlı pedaqoji fəaliyyətin meyarları.

Fəaliyyət insanın həyat tərzi və inkişafıdır. Fəaliyyət canlı varlığa xas olan müstəqil reaksiya qüvvəsi qabiliyyətidir. O xarici dünya ilə müəyyən əlaqələrin saxlanmasını təmin edir. Fəaliyyət məqsədyönlü hərəkətdir.Yəni fəaliyyət fenomeni hərəkətdən daha genişdir və yalnız ehtiyacların deyil, həm də xarici motivlərin təsiri altında müstəsna obyektiv yönümlü hərəkətlərlə xarakterizə edilə bilər. Fəaliyyət fərdin şəxsiyyət kimi inkişafını müəyyən edir. Uşağın fəaliyyətinin təşkili psixi neoplazmaların formalaşmasına həlledici təsir göstərir.

Deməli, fəaliyyət şəxsiyyəti, onun keyfiyyətlərini, psixoloji hallarını, münasibətini, düşüncəsini, hisslərini, iradəsini müəyyən edir. Müstəqilliyi dəyərli idrak motivlərinin inkişafı, fəaliyyət subyektinə emosional müsbət münasibət, qrupda və fərdi şəkildə müstəqil fəaliyyət göstərmək bacarığı ilə xarakterizə olunan şəxsiyyətin xüsusiyyətini kiçik yaşlı məktəblilərin şəxsiyyətinin keyfiyyəti kimi də müəyyən edirik.

Fəaliyyət xarakteristikası kimi müstəqilliyin tərbiyəsində əsas amil pedaqoji məharətdir, o cümlədən: situasiya tapşırıqları; koqnitiv təşəbbüs; qnostik dəyərli motivlərdən təhsil biliyinə ehtiyaca keçidin asanlaşdırılmasıdır. Kiçik yaşlı məktəblilərin müstəqilliyinin tərbiyəsi prosesi

zahiri və daxili təzahürlərdə özünü büruzə verir. Xarici təzahürlərin təhlili əsasında sinifdə idrak prosesinin keyfiyyətini xarakterizə edən meyarlar hazırlana bilər (təlim fəaliyyəti və şagirdlərin öyrənmə fəaliyyəti). Daxili təzahürlər isə məktəblilərin müstəqilliyi və ya onun olmamasını xarakterizə edən təhsil fəaliyyətinin motivləri və sinifdə təhsil məkanında kiçik məktəblilərin fəaliyyətidir.

Təqdim olunan meyar qrupları sinifdə idrakın keyfiyyətini xarakterizə edən xarici, görünən, müşahidə olunan meyarlardır ki, onların köməyi ilə müşahidə olunan sinifdə fəaliyyət prosesində şagirdlərdə müstəqilliyin inkişafı tenden- siyasını və potensialını ölçmək mümkün olur. Ancaq xarici təzahürlər baxımından fəaliyyət və fəaliyyət üst-üstə düşə bilər, buna görə də yalnız sinifdə idrak fəallığının motivləri müstəqilliyin inkişafı fenomenini anlamağa imkan verir.

İdrak fəaliyyətində şagirdlərin müstəqilliyinin formalaşması prosesinin motivlər səviyyəsində öyrənildiyi gün biz təhsil fəaliyyətinin və məktəblilərin fəaliyyətinin aşağıdakı motivlərini nəzərdən keçirdik. Kiçik yaşlı məktəblilərin müstəqilliyinin formalaşması təlim fəaliyyətinin özünün təşkilinin məzmununu nəzərə almağı tələb edir, bu da aşağıdakıları nəzərdə tutur:

- kiçik yaşlı şagirdlərin təlim fəaliyyətinin təşkilini təmin edən bacarıqların təsviri;
- təlim fəaliyyətinin təşkilinin komponentləri kimi özünütəşkiletmə bacarıq- ları arasında struktur-funksional qarşılıqlı əlaqənin müəyyən edilməsi;
- təlim fəaliyyətinin təşkili üçün indikativ əsasın ayrılması.

Tədris fəaliyyətində müstəqillik insan fəaliyyətinin spesifik növü kimi qəbul edilməlidir. A.N. Leontiev tərəfindən müəyyən edilən fəaliyyətlərin strukturunun daxili keçidləri və inkişafı olan bir sistemdir. Təlim fəaliyyətinin özünütəşkilinin predmeti onun məzmunu və onun subyektin şüurunda əks olunmasıdır.

Fəaliyyət hərəkətlərdən ibarətdir. Çevrilmə aktları elementar çevrilmə aktlarından ibarətdir, nəticələri subyekt tərəfindən müstəqil məqsəd kimi tanınmır. Təlim fəaliyyətində müstəqilliyin formalaşmasını eyni strukturla təsvir etmək qanunauyğundur: fəaliyyət - hərəkətlər - əməliyyatlar, nəzarət, qiymətləndirmə) və hər bir hərəkət müəyyən əməliyyatlar toplusu (istiqamətləndirmə, planlaşdırma, icra, nəzarət) ilə həyata keçirilir.

Deməli, bütün hərəkətlər tək əməliyyatların köməyi ilə həyata keçirilir və müxtəlif hərəkətlərdə onların məzmunu da eyni deyildir. Bütün hərəkətlərin əməliyyat strukturu eynidir. Şagirdin təlim fəaliyyətində müstəqilliyin formalaş- masının psixoloji strukturuna hər biri dörd konkret əməliyyat məcmusundan ibarət olan beş hərəkət daxildir.

Müstəqillik pedaqoji və psixoloji bir fenomen kimi şəxsiyyətin bütün strukturunu (könüllü, emosional, ehtiyac-motivasiya, idrak) əhatə edir, özünütəhsil xarakteri daşıyır. Müstəqilliyin aparıcı xüsusiyyətləri fəaliyyətin mənasını və məqsədini dərk etmək, hərəkətləri şüurlu motivasiyaya, davranışı baxış və inanclara tabe etməkdir. Kiçik yaşlı məktəblilərin təlim fəaliyyətində müstəqilliyin uğurlu inkişafının ən vacib şərti pedaqoji fəaliyyətin fərdi üslubudur ki, biz bunu pedaqoji və qarşılıqlı təsir metodlarının unikal sabit birləşməsi kimi başa düşürük, onların məcmusunda fərdi strategiya və taktikaları xarakterizə edirik.

Təlim məktəbdə aparılan pedaqoji prosesin əsasını təşkil edir. Təlim şagirdin əsas fəaliyyət növlərindən biridir. Məktəb yaşı dövründə təlim aparıcı fəaliyyətə çevrilir. Təlim yeniyetmələrin xarici və daxili aktivliyini stimullaşdırıb tənzim edərək onlarda müəyyən bilik, bacarıq və vərdişlər sisteminin formalaşmasına səbəb olan mürəkkəb prosesdir. Təlimin məqsədi kiçik yaşlı məktəblilərin şüurunda dünyanın düzgün, dolğun mənzərəsini yaratmaqdan,onların intellektual inkişafını və tərbiyəsini təmin etməkdən ibarətdir.

Aparılan eksperimentlərin gedişində təlim prosesində idrakın motivləri ilə müstəqillik səviyyələri arasında əlaqə qurulur. Müstəqilliyin daha yüksək səviyyəsi daha yüksək səviyyəli motivlərə uyğun gəlir. Təlimin motivasiya sahəsinin keyfiyyət xüsusiyyətləri və məktəblilərin

müstəqilliyinin formalaşması müəllimlərin sinifdəki pedaqoji fəaliyyətinin keyfiyyətindən çox asılıdır.

T.İ.Şamovun sözlərinə görə, bilik və fəaliyyət üsullarının kiçik yaşlı məktəblilər tərəfindən mənimsənilməsində aktiv, lakin onun fəallıq səviyyəsi aşağı olan məqsədyönlü reproduktiv fəaliyyət baş verir [7, s.112].

İdrak fəaliyyətinə aşağıdakı motivlər səbəb olur: maraq; idrak prosesindən və ya onun nəticələrindən alınan həzz, insanların əməli fəaliyyəti, problem və ehtiyacları onları inkişaf və təkmilləşmə zamanı yaranan aktual problemlərin həlli yollarını axtarmağa məcbur edir. İdrak fəallığı yaradılır və o idrak fəaliyyətinin keyfiyyətinə təsir göstərir. Məktəblilər idrakda müxtəlif fəallıq intensivliyi ilə xarakterizə olunurlar. Nəzəri biliklərin mənimsənilməsi yalnız fəallıq prosesində məna kəsb edən idrak fəaliyyətinin nəticəsi olur [5, s.176].

Kiçik yaşlı məktəblilər təlim fəaliyyətinin mənasını idrak tələbatlarının təmin olunmasına doğru yönəlmiş özünütəhsil fəaliyyəti kimi dərk etməyə başlayırlar ki, bu da öz əksini onun müstəqillik sahəsinin genişlənməsində tapır.

Şagirdlərin təlim fəaliyyəti sahəsində onların müstəqilliyinin genişlənməsi qanunauyğun prosesdir ki, bu zaman təlimə münasibəti tədricən dəyişir. Təlim motivlərində ictimai idrak və şəxsi motivlər üzvi surətdə vəhdət təşkil edir.

Şagirdlərin idrak motivlərinin dinamikasının öyrənilməsi məktəblilərin idrak fəaliyyətində müstəqilliyinin artmasına uyğun gələn motivlərin üstünlük təşkil etmə meylini göstərir. Eksperimentin vəzifələri müəllimlərin, valideynlərin və uşaqların birgə fəaliyyəti ilə həll edildi. Müəllimin sinifdə pedaqoji fəaliyyətinin keyfiyyəti, məktəblilərin müstəqilliyinin inkişaf səviyyəsi və ev tapşırıqlarını yerinə yetirərkən bu istiqamətdə əməkdaşlıq əlaqəsi qurulur və inkişaf edir.

Sinifdə tədris prosesində təlim fəaliyyətinin öyrənmə fəaliyyətinə çevrilməsi tendensiyası məktəblilərin müstəqilliyinin formalaşması prosesinin başlanğıcını və gedişatını göstərir. Kiçik yaşlı məktəblilərin müstəqilliyinin formalaşması prosesi zahiri və daxili təzahürlərdə özünü büruzə verir. Xarici təzahürlər sinifdə idrak fəaliyyətinin keyfiyyətini (təlim fəaliyyəti və məktəblilərin öyrənmə fəaliyyəti) xarakterizə edən meyarlar kimi formalaşdırıla bilər. Daxili təzahürlər öyrənmə fəaliyyətinin motivləri və sinifdə məktəblilərin idrak fəaliyyətidir.

## ƏDƏBİYYAT


1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti. Bakı: Renessans, 2000, 202 s.
2. Ağayev Ə.A., Talıbov Y.P., İsayev İ.N., Eminov A.İ. Pedaqogika. Dərs vəsaiti. Bakı: Adiloğlu, 2006, 184 s.
3. Ишков, А. Д. Учебная деятельность студента: психологические факторы успешности : монография / А. Д. Ишков. М. : Издательство АСВ, 2004.-224 с.
4. Чаканова С. Д. Роль социального фактора в формировании мотивации учебной деятельности / С. Д. Чаканова // Научный прогресс. – 2017. – № 2. – С. 21-22.
5. Рысева А. С. Формирование и развитие мотивации учебной деятельности / А. С. Рысева // Научные исследования. – 2019. – № 3. – С. 40-42.
6. Сахарова С. П. Проблемы формирования учебной мотивации / С. П. Сахарова // Символ науки. – 2019. – № 4. – С. 126-127.
7. Шамова Т. И. Активизация учения школьников. М.: Педагогика, -2000. -208 с.

# TƏLİM FƏALİYYƏTİNDƏ KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN MÜSTƏQİLLİYİNİN FORMALAŞMASININ PEDAQOJİ ŞƏRTLƏRİ

***Nuriyeva Məlahət***

## XÜLASƏ

Elmi məqalədə təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin müstəqilliyinin formalaşmasının pedaqoji şərtlərindən bəhs edilir. Müəllif haqlı olaraq qeyd edir ki, təlimin motivasiya sahəsinin keyfiyyət xüsusiyyətləri və məktəblilərin müstəqilliyinin formalaşması müəllimlərin sinifdəki pedaqoji fəaliyyətinin keyfiyyətindən çox asılıdır. Məqalədə sinifdə tədris prosesində şagirdlərin müstəqilliyinin tərbiyəsini şərtləndirən aspektlər müəllif tərəfindən ardıcıllıqla fərqləndirilir, onların şərhi verilir. Bir sözlə, kiçik yaşlı məktəblilərin müstəqilliyinin formalaşması təlim fəaliyyətinin özünün təşkilinin məzmununu nəzərə almağı tələb edir.

# ПЕДАГОГИЧЕСКИЕ УСЛОВИЯ ФОРМИРОВАНИЯ САМОСТОЯТЕЛЬНОСТИ МЛАДШИХ ШКОЛЬНИКОВ В ОБРАЗОВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

***Нуриева Малахат***

## АННОТАЦИЯ

В научной статье говорится о педагогических условиях формирования самостоятельности младших школьников в учебной деятельности. Автор справедливо отмечает, что качественные характеристики мотивационного поля обучения и формирование самостоятельности школьников во многом зависят от качества педагогической деятельности учителей на уроке. В статье последовательно выделяются автором аспекты, определяющие воспитание самостоятельности учащихся в учебном процессе на уроке, и дается их интерпретация. Одним словом, формирование самостоятельности младших школьников требует учета содержания самой организации учебной деятельности.

# PEDAGOGICAL CONDITIONS FOR THE FORMATION OF INDEPENDENCE OF YOUNGER SCHOOLCHILDREN IN EDUCATIONAL ACTIVITIES

***Nuriyeva Malahat***

## SUMMARY

The scientific article deals with the pedagogical conditions for the formation of independence of younger students in educational activities. The author rightly notes that the qualitative characteristics of the motivational field of learning and the formation of schoolchildren's independence largely depend on the quality of teachers' pedagogical activity in the classroom. In the article, the author consistently singles out the aspects that determine the upbringing of students' independence in the educational process in the classroom, and gives their interpretation. In a word, the formation of the independence of younger students requires taking into account the content of the very organization of educational activities.

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN TƏDQİQİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR

***Prof. Qədirova Rəna,***
***Dos. Babayeva Təranə,***
***baş müəllim Mirzəyeva Aida,***
***BDU-nun Psixologiya kafedrası***

***Açar sözlər***: mədəniyyət, şəxsiyyət, sosialozasiya, dəyərlər
***Ключевые слова:*** культура, личность, социализация, ценности.
***Keywords***: culture, personality, socialization, values

Hər bir tarixi dövr öz şəxsiyyət tipini yetişdirir. Heç şübhəsiz, bu  və ya digər mədəniyyətə mənsub insanların davranışı daimi olmayıb müxtəlif tarixi dövrlərdə konkret sosial - iqtisadi şəraitlə əlaqədar nəzərə çarpacaq dərəcədə dəyişə bilir. Və zamanla istənilən konkret tarixi dövrdə mövcud ictimai-iqtisadi, sosial-siyasi, elmi – texniki inkişaf səviyyəsinin formalaşmaqda olan şəxsiyyətə təsirini izləmək mümkündür. Bu zaman şəxsiyyətin psixi siması zamanın tələblərinə uyğun konkret mədəniyyət çərçivəsində istinad olunan təlim və tərbiyə üslubu, qrupda qarşılıqlı münasibətlərin xarakteri və s. kimi mədəniyyətin bilavasitə nəzarəti altında olan amilillərlə müəyyən edilir.

Belə ki, sosializasiya prosesində insan konkret mədəni mühitlə identifikasiya vasitəsilə mövcud davranış qaydalarını, norma və dəyərlər sistemini mənimsəyib, özününküləşdirməklə bir şəxsiyyət kimi inkişaf edir. İstənilən şəxsiyyətin inkişafı və formalaşması prosesi onun doğulub, tərbiyə aldığı mədəniyyətin məcrasında gedir. Yenidoğulmuşa qulluq, sonrakı tərbiyə, ailədaxili münasibətlərin strukturu, müxtəlif həyat mərhələlərinin keçirilməsi, bir sözlə şəxsiyyətin inkişafını xarakterizə edən hər bir şey mədəniyyətlə sıx bağlıdır. Bu təsəvvürlərin əsasında insanın özünə münasibəti, başqa sözlə desək, şəxsiyyət kimi özünüqiymətləndirməsi formalaşır. Əgər şəxsin fərdi keyfiyyətləri mədəniyyətin qoyduğu tələbləri ödəyərsə, onun özünün qiymətləndirməsi yüksək, əks təqdirdə isə aşağı olur. İnsanın şəxsiyyət kimi inkişafında mədəniyyətin rolu birmənalı şəkildə qəbul edilir. Nəzərə alsaq ki, insanın davranışının bəzi formaları bioloji cəhətdən şərtləndirilmiş və universaldır, amma onlar belə mədəniyyətin təsiri altında müxtəlif cür özünü biruzə verir. Bir mədəniyyətdə təbliğ olunmayan və hətta cəzalandırıla bilən davranış digər mədəniyyət çərçivəsində neytral qəbul edilə, üçüncüsündə isə hətta təqdirəlayiq hesab oluna bilər. Davranışın kultural formaları həyat və məişətin bütün sahələrində mövcud olub, konkret dövrdə yeganə mümkün və düzgün qaydalar kimi qəbul olunur.

Beləliklə, mədəniyyət təkcə hansısa bir davranışın düzgün olub-olmamasını müəyyən etmir. O, həmçinin insan davranışının formalaşmasında bilavasitə iştirak edir. Etika qaydalarına, adət-ənənələrə, eləcə də gündəlik davranış normalarına (məsələn, qidanın hazırlanması, asudə vaxtın keçirilməsi, yaşayış yerinin abadlaşdırılması və s.) kultural baxımdan ciddi nəzarət olunur. Moda, stil, saç düzümü və geyim, eyni zamanda müxtəlif sosial qrupların nümayəndələri arasında ünsiyyət formaları, müəyyən ölçü vahidləri (məsələn, çəki, uzunluq, zaman) sistemlə rindən istifadə fərdi mədəni ənənələrdən və xarici təsirlərdən asılıdır. Dünyada tam izolyasiya şəraitində yaşayan çox az xalq tapmaq olar. Odur ki, etnoslararası əlaqələr nəticəsində mədəniyyətlərin qarşılıqlı şəkildə bir-birinə nüfuz etməsi baş verir. Müasir dövrdə də müxtəlif mədəniyyətlərin toqquşması, mədəniyyətlərarası münasibətlərin intensiv xarakter kəsb etdiyini müşahidə etməkdəyik. Mədəniyyətlərarası münasibətlərə digər mədəniyyət nümayəndələri ilə, onların mədəni irsi ilə yaxından tanışlıq, KİV-də verilən məlumatlar ciddi təsir göstərir.

Bu qarşılıqlı tanışlıq, qarşılıqlı təsir və toqquşma bir neçə cəhətdən diqqəti cəlb edir.

Əvvəla, bu tanışlıq mədəniyyətlərarası münasibətlərin təkmilləşməsi, tolerantlıq, təcrübəyə açıqlıq, digər mədəniyyət nümayəndələrinin həyat tərzi və həyat keyfiyyəti və onları təmin edən amillərlə tanışlıq şəxsiyyətin inkişafı istiqamətində atılan addım kimi qiymətləndirilə bilər.

Digər tərəfdən, bu toqquşma tədricən dəyərlərin universlizasiyası, başqa sözlə desək, bir mədəniyyətə məxsus olan dəyərlərin digər mədəniyyətlərdə mövcud olan milli-mənəvi dəyərləri sıxışdırıb əvəz etməsi müşahidə edilə bilər. Çünki bu tendensiya, istər - istəməz, daha güclü mədəniyyətlərin daha zəifləri öz təsiri altına alması və ya assimilyasiya etməsi kimi nəticələrə gətirib çıxarır ki, bu da bəzən əsrlər boyu yığılmış bir mədəniyyətin yer üzündən tamamilə silinməsi deməkdir.

Zənnimizcə, zamanla ayaqlaşmaq və zamanın tələblərinə uyğun fəal, yaradıcı, cəmiyyətin həyatında iştirak edə biləcək müstəqil, sağlam şəxsiyyət yetişdirməklə yanaşı, eyni zamanda öz etnik-milli, maddi-mənəvi dəyərlərini qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək vacib məqamlardan biri kimi diqqət mərkəzində durmalıdır. Və bu prosesdə mədəniyyətlərarası münasibətləri adekvat şəkildə inkişaf etdirmək qarşıda duran əsas vəzifələrdən biri kimi qiymətləndirilə bilər.

Beləliklə, müasir qloballaşma dövründə digər mədəniyyətlə tanışlıq mədəniyyətlərarası münasibətlərin daha adekvat tənzimlənməsi, gənclərdə tolerantlıq hissinin inkişaf etdirilməsi baxımından müsbət qiymətləndirilsə də, hər bir gənc öz milli – mənəvi, maddi dəyərlərini mənimsəməli, hifz edib və gələcək nəsillərə ötürmədə məsuliyyəti hiss etməlidir.

## ƏDƏBİYYAT

1. Əliyev B.H. Ekologiya və etnopsixologiya // Dirçəliş-XXI jurnalı, 2001, N1-2, səh. 181-184
2. Əliyev B.H., Mustafayev M.H. Psixoloji tədqiqatlarda mədəniyyət anlayşının təhlili // Psixologiya jurnalı, 2009, N3, səh. 3-13
3. Bayramov Ə.S. Etnik psixologiya. Bakı, 2001
4. Васильева О.С., Филатов Ф.Р. Психология здоровья человека. М.: Академия, 2001
5. Уайт Л.А. Понятие культуры // Антология исследований культуры. Т.1. интерпретации культуры – СПб., 1997
6. Фрейд З. Психоанализ. Религия. Культура. – М., 1992

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN TƏDQİQİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR

***Qədirova Rəna, Babayeva Təranə, Mirzəyeva Aida***

## XÜLASƏ

Məqalədə qloballaşma şəraitində müxtəlif mədəniyyətlərin toqquşması, mədəniyyətlərarası münasibətlərin bir mədəniyyət çərçivəsində mədəniyyət nümunələrinin, xüsusən də milli, mənəvi dəyərlərin dəyişilməsinə təsiri məsələləri əks olunmuşdur.

## О НЕКОТОРЫХ ВОПРОСАХ ИЗУЧЕНИЯ ИНТЕРКУЛЬТУРНЫХ ОТНОШЕНИЯ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

***Гадирова Рана, Бабаева Тарана, Мирзаева Аида***

### АННОТАЦИЯ

В статье отражено столкновение разных культур в условиях глобализации, влияние межкультурных отношений на смену культурных моделей, особенно национальных и духовных ценностей внутри культуры.

## ON SOME ISSUES OF THE STUDY OF INTERCULTURAL RELATIONS IN THE CONTEXT OF GLOBALIZATION

***Gadirova Rana, Babayeva Tarana, Mirzayeva Aida***

### SUMMARY

The article reflects the clash of different cultures in the context of globalization, the impact of intercultural relations on the change of cultural patterns, especially national and spiritual values within a culture.

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARLA TƏLİM PROSESİNDƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİN NƏZƏRƏ ALINMASI

***Cəfərova Laləzar Elşad qızı***
***ADPU-nun Şəki filialının***
***Ümumielmi fənlər kafedrasının müəllimi***
***lale_psixoloq@mail.ru***

***Açar sözlər:***xüsusi qayğıya ehtiyacı olan uşaqlar, təhsil, fərdi yanaşma, psixoloji pedaqoji dəstək, təlim metodları, ümumitəhsil müəssəsi.
***Ключевые слова:*** дети с особыми потребностями, образование, индивидуальный подход, психо-педагогическая поддержка, методы обучения, учреждение общего образования
***Key worlds:*** children in need of special care, education, individual approach, psychological pedagogical support, training methods, general education institution.

Düzgün qurulmayan təhsil mühiti xüsusi qayğıya ehtiyacı olan uşağın vəziyyətinin ağırlaşmasına gətirib çıxara bilər. İnklüziv təhsil komponentli qruplarda təhsilalanlarda aşağıdakı keyfiyyətlərin inkişaf etdirilməsinə xüsusi fikir verilməlidir:

• Emosional sahənin inkişafı;
• Koqnitiv sahənin inkişafı;
• Stressə qarşı dözümlülüyün inkişafı;
• Özünə inamın inkişafı;
• Real aləmə pozitiv münasibət və başqalarını qəbul etmə bacarıqlarının inkişafı;
• Müstəqilliyin inkişafı;
• Özünü müəyyənləşdirmə, özünü inkişaf etdirmə və həvəsləndirmənin inkişafı.

Tədqiqatlar göstərir ki, zəruri dəstək verilməklə xüsusi qayğıya ehtiyacı olan
uşaqlar adi qruplara daxil edildikdə tədris-təlim prosesində kollektivi hiss edir və kollektivə mənsub olma hissini keçirdikləri üçün onlara pozitiv münasibətdə çoxlu imkanlara malik olurlar.

Tərbiyəçi-müəllimi təlim prosesini qurarkən aşağıdakıları nəzərə almalıdır:

1. Uşaqlara müxtəlif tapşırıqlar verməklə, xüsusi təlimə ehtiyacı olan uşaqları da eyni fəaliyyət növlərinə daxil etmək;
2. Tapşırıqları qrupla birlikdə yerinə yetirmək;
3. Kollektivdə iştirakın digər strateji yollarından - oyun, çöl tədqiqatlarından və s. istifadə etmək.

Xüsusi təlimə ehtiyacı olan uşaqların inklüziv təliminin konsepsiyası aşağıdakılardan ibarətdir:

1. Hər hansı bir uşaq səhhətindən, fiziki və intellektual pozulmasından asılı olmayaraq təhsil almaq hüququna malikdir;
2. Xüsusi təlimə ehtiyacı olan uşaqların ən vacib inkişaf dövrləri körpəlik, məktəbəqədər və məktəb yaş dövrləridir. Uşağın bu inkişaf dövrlərində ona qarşı daha diqqətli olmaq lazımdır, çünki məhz bu dövrlər sensor və ya intellektual
defektin qarşısını almaq üçün optimal dövr hesab olunur. Bunun üçün xüsusi təlim sisteminə erkən aşkarlanma, diaqnostika və erkən kompleks kömək sistemini daxil etmək lazımdır;
3. Tibbi, sosial və təlim müəssisələri reabilitasiyanın müxtəlif yolları haqqında valideynlərə məlumat verməlidir;
4. İnklüziv təlimin müvəffəqiyyətlə tətbiq edilməsi üçün yeni tipli məktəbəqədər müəsissələr açılmalı, mövcud müəssisələrdə inklüziv təlimi həyata keçirmək üçün adekvat şərait

yaradılmalıdır (xüsusu avadanlıq, defektə uyğun xüsusi təchizat, dayaq-hərəkət aparatı pozulmuş uşaqlar üçün xüsusi avadanlıq və s.);

5. Xüsusi təlimə ehtiyacı olan uşaqlara bilavasitə təlim zamanı, həm də fərdi məşğələlərdə əlavə kömək göstərilir;

6. İnklüziv təlim tədricən həyata keçirilməlidir;

7. Uşaqlarla bu inkişaf dövrlərində daha çox diqqətli olmaq lazımdır.

Erkən yaş dövrünün proqramları qüsurlu uşaqlar üçün fərdiləşdirilməlidir. Xüsusi qayğıya möhtac uşaqlar üçün fərdiləşdirilmiş proqramlara dair qərarlar qəbul edilərkən pedaqoji kollektivlər uşağın ətraf mühitlə erkən yaş dövrü üçün hazırlanmış proqram və başqa mühitlərə olan münasibətlərini başa düşməlidirlər. Bilikləri uşaqları vaxtaşırı həmin şəraitdə müşahidə edən və onlarla təmasda olan şəxslərlə söhbətlərindən əldə etmək olar. Həmin qarşılıqlı münasibətlərin təbiəti (məsələn, uşaqlar tapşırıqlara necə yanaşırlar, necə fəaliyyət göstərir və ətraf mühit onlara necə reaksiya göstərir) qüsurlu uşaqlara faydalı proqramların planlaşdırılması üçün lazım olan informasiyanın mühüm hissəsidir.Uşaqların uyğun şəkildə qidalanması istəkləri və fəaliyyətləri tənzimlənməklə, uşağın sağlamlığının möhkəmləndirilməsi üçün oyunc oyuncaq, əşya, fəaliyyət və yaşlılarla qarşılıqlı münasibətlər düzgün müəyyənləşdirilməlidir.

Müasir bir müəllimin fəaliyyəti  tədris prosesində və təhsil işində müasir təhsil texnologiyaları və metodlarından istifadə etmədən mümkün deyildir.Pedaqoji elm və təcrübə müəllimə tədris metod və texnikasının zəngin bir arsenalını təqdim edir. Müəllimin yaradıcı fəaliyyəti məqsədə ən yaxşı şəkildə nail olmağı təmin edən tədris prosesində səmərəli istifadə etməkdir.

Müxtəlif metod və üsullar uşaqları tədris və idrak fəaliyyətinin özü ilə maraqlanmağa məcbur edir ki, bu da təhsil fəaliyyətinə həvəsləndirilmiş münasibətin inkişafı üçün son dərəcə vacibdir.

Son onilliklərdə şagirdlərin müstəqil bilik əldə etmələrini, idrak fəaliyyətlərini aktivləşdirmələrini, düşüncə tərzini və praktik bacarıqlarını inkişaf etdirmələrini təşviq edən fəal tədris metodları geniş yayılmışdır. Problem axtarışının və yaradıcı şəkildə çoxalma üsullarının hədəf aldığı məhz bu problemlərin həllidir.

Şagirdlərin idrak fəaliyyətini intensivləşdirmək üçün ənənəvi tədris metodları materialın təqdimatında sualın qaldırılması, o cümlədən fərdi praktiki məşğələlər, situasiya tapşırıqları, vizual və texniki tədris vasitələrinə istinad etmək, qeydlər aparmağa təşviq etmək, dəstəkləyici abstraktlar yaratmaq, oyun oynamaq kimi metodlardan istifadə olunur.

Pedaqoji yaradıcılıq ən çox müəllimin başqalarının sınaqdan keçirdiyini, lakin müəyyən bir şagird komandasının və hər bir şagirdin xüsusiyyətlərini nəzərə alaraq fəaliyyətinin şərtlərinə münasibətdə baş verməsidir. Elmlə yığılan hər şeyi diqqətlə "ələ keçirir", ən yaxşı nəticələr əldə etməyə kömək edənini seçir, öz düzəlişlərini və nailiyyətlərini edir.Və bu tədris ilində müəllimlər tərəfindən differensiallaşdırılmış tədris metodik eksperimental şöbəsinin işi çərçivəsində (Alekseeva L.V., Antonova I.V., Govorova V.V., Kolotilina L.A., Kalugina M.S., Kukhtina G.M. Loganova TS, Postnikova N.N., Soshkina OV və Tyamisova EV) "Fort Boyard" idman - intellektual oyunu keçirildi.

Oyun prinsipi məşhur bir televiziya şousundan götürülmüş, lakin tədris prosesinin şərtlərinə uyğunlaşdırılmışdır.Oyunun məqsədi sağlamlıq imkanları məhdud uşaqlarla oyuna fərqli bir yanaşma tətbiq etməkdir.

Fərdi və fərqli yanaşma tətbiq etmək mürəkkəb bir məsələdir, xüsusən sağlamlıq imkanları məhdud olan  uşaqlarla işləmək və müəyyən iş təcrübəsi tələb etmək lazımdır, buna görə diqqətli planlaşdırma ilə başlamaq və ən çətin uşaqlarla işləmək lazımdır.

Məlumdur ki, tədris prosesini təşkil edərkən uşağın imkanlarından başlamaq lazımdır - vəzifə orta çətinlik zonasında olmalıdır, lakin  fərdi imkanlarından asılı olaraq mövcud olmalıdır. Düzəltmə işlərinin ilk mərhələlərində şagirdə müəyyən səy sərf etməsi fonunda müvəffəqiyyətin subyektiv təcrübəsini təqdim etmək lazımdır. Gələcəkdə tapşırıqların çətinliyi uşağın artan

imkanlarına nisbətdə artırılmalıdır. Bu baxımdan, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün təhsil almaq üçün xüsusi şəraitin yaradılmasını əsas vəzifə hesab edirik. Bir ümumi təhsil təşkilatında SİM-li uşaqlar ilə işləmək üçün əsas şərtlər aşağıdakılardır.

1. Maddi-texniki baza - xüsusi avadanlıqla təchiz etmək; distant təhsilin təşkili imkanı.
2. Təhsil prosesinin təşkilati təminatı - hüquqi bazanı, maliyyə və iqtisadi şərtləri; təşkilatda inklüziv mədəniyyət, xarici təşkilatlar və valideynlərlə qarşılıqlı əlaqə; maarifləndirmə.
3. Təşkilati və pedaqoji dəstək - psixofiziki inkişafın xüsusiyyətləri və uşaqların imkanları nəzərə alınmaqla təhsil proqramlarının icrası; fərdi tədris planının bir hissəsi kimi təhsil proqramlarını mənimsəmək imkanı təmin etmək.
4. Təhsil prosesinin proqram və metodik təminatı, tədris və məktəbdənkənar tədbirlərin təşkili üçün dəyişkən forma və metodların yaradılması və tətbiqi.
5. Müxtəlif təhsil növlərindən istifadə.
6. Müasir təhsil texnologiyalarından istifadə və psixoloji-pedaqoji dəstək.
7. Tədris və tərbiyə metodlarının xüsusi ehtiyacları olan tələbələrin xüsusi təhsil ehtiyaclarına uyğunlaşdırılması.
8. Hərtərəfli psixoloji və pedaqoji dəstək - islah işlərinin təşkili.
9. İşçi heyəti - əlilliyi olan uşaqlarla (əlil uşaqlar da daxil olmaqla) işləmək üçün müəllim heyətinin xüsusi təlimi.

Psixofiziki inkişafa xüsusi ehtiyacı olan uşaqlar üçün uyğunlaşma inkişaf edən bir mühitin qurulmasının əsas prinsipləri aşağıdakı prinsiplərdir: qarşılıqlı əlaqə zamanı məsafə; fəaliyyət, müstəqillik, yaradıcılıq; kompensasiya və düzəliş; çevik rayonlaşma; emosional mühit; ətraf mühitin estetik təşkili; açıqlıq-bağlanma; cins və yaş fərqlərini nəzərə almaq; ictimailəşmə.

İnklüziv təhsildə bir uşağı müşayiət etməyin səmərəliliyini, eləcə də SİM-li uşaqlarla işləyərkən psixoloji və pedaqoji şərtləri təyin edən parametrlərin olacağına inanmaq üçün əsas var.

- uşağın inkişafının xüsusiyyətlərini, ilk növbədə onun resurs imkanlarını nəzərə almaq;
- fərdi yanaşma;
- Uşaqla işləmək üçün düzgün mütəxəssisin seçilməsi;
- bütün mütəxəssislərin fəaliyyətlərinin əlaqələndirilməsi və fənlərarası fəaliyyət texnologiyalarından istifadə;
- yorğunluğun qarşısını almaq;
- emosional sahənin sabitliyini dəstəkləyin.

Bir ümumi təhsil müəssisəsində adaptiv təhsil mühitinin təşkili təhsil ehtiyacı olan uşaqlara və onların ailələrinə aşağıdakı istiqamətlərdə yardımın həyata keçirilməsini əhatə edir:

- tədris prosesinin yenidən təşkili;
- uşağın inkişafındakı problemlərin psixoloji və pedaqoji diaqnozu;
- uzunmüddətli və məqsədyönlü məsləhət;
- ixtisaslaşdırılmış dəstək və yardımın göstərilməsi, müalicə, istirahət və s. üçün müxtəlif xidmətlər və təşkilatlarla əlaqəli qarşılıqlı fəaliyyətin həyata keçirilməsi.

## ƏDƏBİYYAT


1. “Azərbaycanda Sağlamlıq İmkanları Məhdud olan Uşaqlara Təhsil Xidmətlərinin Göstərilməsi Haqqında Tədqiqat” Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi, 2009
2. Bayramov. Ə.S, Əlizadə Ə.Ə Psixologiya. Bakı-2003
3. Hüseynova N.T., Rüstəmova L.H. –“Xüsusi pedaqogika” Bakı-2007
4. “Xüsusi qayğıya ehtiyacı olan uşaqlar: Yanaşmaların siyasətlərin və praktikaların təkminləşdirilməsi. Qiymətləndirmə hesabatı”, Leyla İsmayılova və dig. 2005

5. Xüsusi bir uşaq və onun mühiti: tibbi, sosial və psixoloji aspektlər. Beynəlxalq konfransın materialları.
6. "İnklüziv təhsil" Dərs vəsaiti Bakı-2014
7. Алямовская В.Г., Петрова С.Н. Профилактика психоэмоционального стресса у дошкольников. М., Скрипториум, 2002.
8. 12.Абелева И. Ю. Коммуникативные речевые механизмы: учебник.-монография. - М .: Парадигма, 2012 .
9. 13. Акатов Л. И. Психологические основы социальной реабилитации детей с ограниченными возможностями жизнедеятельности. — М., 2002.

## XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARLA TƏLİM PROSESİNDƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİN NƏZƏRƏ ALINMASI

***Cəfərova Laləzar***

### XÜLASƏ

Yazdığımız məqalədə günümüzün aktual problemi olan xüsusi qayğıya ehtiyacı olan uşaqlarla təlim prosesində psixoloji amillərin nəzərə alınması məsələsini araşdırdıq. Bundan əlavə məqalədə xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləyən müəllimlər üçün bir sıra tövsiyə və metodlar verilmişdir.

## УЧЕТ ПСИХОЛОГИЧЕСКИХ ОСОБЕННОСТЕЙ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ С ДЕТЯМИ, НУЖДАЮЩИМСЯ В СПЕЦИАЛЬНОМ УХОДЕ

***Джафарова Лалазар***

### АННОТАЦИЯ

В написанной нами статье мы исследовали вопрос учета психологических факторов в учебном процесе с детьми, нуждающимися в особом уходе, что является актуальной проблемой на сегодняшний день. Кроме того, в статье приводится ряд рекомендаций и методик для педагогов, работающих с детьми с особыми потребностями.

## CONSIDERING PSYCHOLOGICAL CHARACTERISTICS IN THE EDUCATIONAL PROCESS WITH CHILDREN IN NEED OF SPECIAL CARE

***Jafarova Lalazar***

### SUMMARY

In this article, we highlighted the issue of taking psychological factors into account in the training process with children who need special care, which is an actual problem today. In addition, the acticle provides a number of recommendations and methods for teachers working with children with special needs.

# ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN KIÇİK YAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNİN MOTİVASİYASINA PSİXOLOJİ TƏSİRİ

***Hacıyeva İlahə Dilxoş qızı***
***BDU-nun Psixologiya kafedrasının müəllimi***
***ilahe.haciyeva92@mail.ru***

***Açar sözlər:*** təlim fəaliyyəti, motivasiya, özünüqiymətləndirmə, emosional rifah, şəxsiyyətlərarası münasibətlər
***Ключевые слова:*** учебная деятельность, мотивация, самооценка, эмоциональное благополучие, межличностные отношения
***Keywords:*** learning activities, motivation, self-esteem, emotional well-being, interpersonal relationships

Kiçik məktəb yaşı dostluq əlaqələrinin intensiv qurulması ilə xarakterizə olunur. Odur ki, bu yaş mərhələsində mühüm vəzifə uşaqda öz həmyaşıdları ilə sosial qarşılıqlı təsir vərdişlərini formalaşdırmaqdır. Əgər 9 - 10 yaşlı uşaq sinifdə həmyaşıdları ilə dostluq münasibəti qurursa, deməli,uşaq həmyaşıdları ilə möhkəm sosial əlaqə yaratmağı bacarır, həm də bu münasibətlər də uzun müddət davam edə bilər. Ardıcıl olaraq kiçik yaşlı məktəblidə şəxsiyyət təşəkkül tapır.

Şəxsi keyfiyyətlərin inkişafının əsas şərtlərindən biri emosional rifahdır. Psixoloqlardan: A.N.Leontyev, A.R.Luriya qeyd edirdilər ki, uşağın psixi inkişafı ona yaxın böyüklərlə emosional münasibəti, həmçinin onlarla əməkdaşlıq xüsusiyyətləri, hər şeydən əvvəl ətrafdakıların müsbət qiymətləri ilə müəyyən edilir. B.A.Suxomlinski yazırdı ki, kollektivin tərbiyəvi gücü ondan ibarətdir ki, insan haqqında düşünsünlər və yaxşı danışsınlar.

Şəxsiyyətin inkişafının göstəricisi onun özünüqiymətləndirməsidir. Ona insanın özünə, öz fəaliyyətinə, kollektivdəki mövqeyinə qiymət verməsidir. İnsanın özünə münasibəti ətrafdakıların ona necə münasibət göstərməsindən çox asılıdır. Şəxsiyyətin fəallığı, kollektivin fəaliyyətində iştirakı, eləcə də özünü- tərbiyəyə cəhdi özünüqiymətləndirmənin səviyyəsindən asılıdır.

İnsanın özü-özünə hissləri formalaşır və həmin hisslər başqalarının reaksiyaları nəticəsində daha da möhkəmlənir. Əgər ətrafdakılar uşağa həmişə hörmətlə yanaşsalar, o zaman uşaq özünü həmin hörməti qazanmış hesab edir. Əgər əksinə, uşağa həmişə hörmətsizlik göstərilirsə, onun çatışmazlıqlarını tez - tez nəzərinə çatdırırlarsa, o zaman uşaq belə nəticəyə gəlir ki, o, hörmətə layiq deyil. Bu reaksiya apatiya, aqressiya formasında təzahür edir [3, səh.18].

Beləliklə, emosional rifah ətrafdakıların müsbət qiyməti ilə müəyyən edilir. Onun yoxluğu nevrozun mənbəyinə çevrilir. Nevroz qeyri-sabit özünüqiymət- ləndirmə və şəxsiyyətin həyəcanlılığı ilə müşayiət olunur. Odur ki, psixoloji mühit uşaqların nevrotik həyəcanlarını stimullaşdırdığı kimi qabağını da ala bilər. Əgər şəxsiyyət kollektivdə emosional rifahı hiss edirsə, o zaman onun dəyərləri və sosial normaları onun öz şəxsi, aktiv mövqeyində əhəmiyyətli və cəlbedici olur. Yalnız xeyirxah münasibətlər uşaqların aktivliyini oyadır. Şagirdin özünüqiymətlən- dirməsinin formalaşmasına kollektivin ona müsbət rəyinin formalaşmasından başlamaq lazımdır ki, bu da şəxsiyyətin özünü xeyirxah qiymətləndirməsinə yönəldilmiş keyfiyyətləri ilə şərtlənir.

Psixoloqların apardıqları tədqiqatlar göstərir ki, şagirdin şəxsiyyətlərarası münasibətlər sistemində tutduğu mövqe ilə onun təlim aktivliyi arasında qarşılıqlı əlaqə mövcuddur. I sinifdə bu qarşılıqlı əlaqə çox zəif olur, lakin III sinifdə bu əlaqə daha da genişlənir. Kiçik yaşlı məktəblinin şəxsiyyətlərarası münasibətlər sistemində mövqeyi təkcə həmyaşıdlar arasındakı münasibətlərlə deyil, həm də onun təlim fəaliyyətinə münasibəti ilə müəyyən edilir.

Sinfin ictimai rəyi davranışın tənzimedicisinə çevrilir. Əgər sinifdə təlim fəaliyyətinə müsbət münasibət varsa, o zaman zəif şagird belə yaxşı oxumağa başlayır. Yaxud əksinə, sinifdə təlimə qarşı neqativ münasibət varsa o zaman əlaçı şagird tədricən digərləri ilə eyni səviyyədə olur. Odur ki, müəllimin mühüm vəzifəsi şəxsiyyətlərarası münasibətləri, sinfin ictimai rəyini düzgün formalaş- dırmaqdır.

Kiçik məktəb yaşının sonunda uşaq üçün həmyaşıdlarının rəyi, ona münasibəti mühüm əhəmiyyət kəsb etməyə başlayır. Bu da sosial motivlərin formalaşmasına öz təsirini göstərir. Belə ki, I sinif şagirdlərini oxumağa təhrik edən səbəbləri araşdıranda onlar tez - tez bu tipdə cavablar verirlər: “Müəllim xoşuma gəlir”, “Valideynlərimi sevindirmək istəyirəm” və s. II sinif şagirdləri öz təlim fəallıqlarını belə motivləşdirirlər: “Oxuyuram ki, həmyaşıdlarımdan geri qalmayım”. Bu onu göstərir ki, III sinif şagirdlərini həmyaşıdlarının fikri narahat edir. Onların böyüklərə münasibəti dəyişir. İlk günlər məktəbə gələrkən uşaqlar məktəbin bütün qaydalarını tələb kimi yerinə yetirirlər.

Bu qaydaların icrasında şagirdlərin müəllimə münasibəti də ifadə olunur. Sinif kollektivinin formalaşması üçün ilk növbədə qaydaların icrasında təkcə müəllimə deyil, həm də uşağın öz sinif yoldaşlarına münasibəti öz ifadəsini tapmalıdır. Əgər uşaq tələbləri yerinə yetirmirsə, o zaman bunu müəllimin tələblərinin pozulması kimi qiymətləndirmək olmaz.

Şəxsiyyətlərarası xeyirxah münasibətlərin yaranması, sinif kollektivində ictimai rəyin formalaşması üçün müəllim zəruri olaraq korrektə formasında qeydlərini aparmalıdır. Məsələn, “səs salma!” demək əvəzinə “uşaqlar, gözləyək, Tofiq sakitləşsin və bizə işləməyə imkan versin”. Belə münasibət uşaqların və sinfin münasibətlərini tənzimləməyə imkan verir. Təlim motivasiyasının formalaş- ması prosesində müəyyənedici rolu sosial-psixoloji şərait, birgə fəaliyyət də qrup yekdillikliyi oynayır.

Bu kiçik yaşlı məktəblinin müstəqil şəkildə biliklərə yiyələnmək arzusunu yüksəldir ki, nəticədə şagird öz sinif yoldaşları ilə arzu və istəklərini bölüşür. Dərsdə işgüzar ünsiyyətin və kollektiv fəaliyyətin müxtəlif formalarının təşkili mühüm əhəmiyyət kəsb edir ki, buna səbəb qarşılıqlı qiymət, qarşılıqlı nəzarət, ardıcıl hərəkətlərin birgə planlaşdırılması ola bilər. İbtidai sinifdə yazılı müstəqil işlərin birgə yoxlanılmasından, uşaqların yaradıcı işlərinin redaktə olunmasından da istifadə etmək olar.

Dərsdə kollektiv fəaliyyəti təşkil etməklə müəllim nəzarət etməlidir ki, bütün uşaqlar davamiyyətdən və intizamdan asılı olmayaraq onlar “yoxlanılan” və “yoxlayan” rollarında özlərini göstərsinlər. Məhz belə fəaliyyət şəxsiyyətlərarası ünsiyyətin yeni növünü formalaşdırır. İşgüzar əşyavi ünsiyyət məktəblilərin müstəqil mühakimələrinə imkan verir. Birgə fəaliyyət prosesində, dərsdə kiçik məktəblilər öz işlərinin nəticələrini sinif yoldaşlarının işləri ilə müqayisə edirlər ki, nəticədə onlarda başqalarının işinə maraq daha da artır. Deməli, idraki tələbatların təmin edilməsi və müəyyən sosial münasibətlərə tələbat kiçik məktəb yaşında, müsbət təlim motivasiyalarını orta sinifə keçiddə təmin edir.

***N.A.Şkuriçeva*** şəxsiyyətlərarası münasibətlərin dörd əsas meyarını müəyyən etmişdir ki, bu da şəxsiyyətlərarası münasibətlərin təlim motivasiyası ilə qarşılıqlı əlaqəsini göstərir:

**1)** ***Birgə fəaliyyətdə mübət emosional münasibətlər.*** Buraya birgə işdə iştirak etmək arzusu, dərsdə həmyaşıdlarla qarşılıqlı təsirə hazırlıq motivasiyasının formalaşması aid edilir. Dərsdə həmyaşıdlarla birgə fəaliyyət kiçik məktəbli üçün o zaman şəxsi əhəmiyyət daşıyır ki, şagird uğurlu əməkdaşlıqdan pozitiv emosiya duyur, uğurlarına inam artır. Birgə fəaliyyət prosesində müsbət həyəcanlar uğurlu didaktik prosesin yaranmasına zəmin yaradır.

Müəllim uşaqların birlikdə işləmək bacarıqlarının inkişafı üçün sinifdə uğurlu şəraiti təmin edir. Həyəcanlanma, kiçik yaşlı məktəblilərdə düzgün özünüqiymət- ləndirmənin formalaşması adekvat emosional reaksiyaları, həmçinin fəaliyyətdə uğursuzluğu formalaşdırır. Sinifdə emosional müsbət münasibətlərin əlamətləri nəticəsində birgə fəaliyyətdə “simpatik”

əməkdaşlıqdan "faydalılıq" əməkdaş- lılığına keçid baş verir ki, o kiçik yaşlı məktəblilərin işgüzar şəxsiyyətlərarası münasibətlərinin inkişafını əks etdirir. Başqalarından köməyi qəbul etmək arzusu şagirddə öz həmyaşıdını birgə fəaliyyətdə tərəfdaş kimi qəbul etməyi, ümumi iş situasiyasında özünün çətinliklərini başa düşməyi göstərir.

**2)** ***Dərsdə işgüzar münasibətlər.*** Kiçik məktəb yaşlıların birgə fəaliyyətdə qəbul etdikləri məqsəddə işgüzar münasibətlər ifadə olunur. Bu onu göstərir ki, uşaq fəaliyyətin məqsədini onun nəticəsi kimi başa düşür, təlim tapşırıqlarını qəbul edir ki, bu da onu birgə praktiki tapşırıqların icrasına aparır. Uğurlu birgə fəaliyyətdə planlaşdırma, ümumi işin müzakirəsi, həmçinin tapşırıqların yerinə yetirilməsində sinfin rəyinə tabe olmaq, ümumi nəticənin alınmasına marağın təzahürü kimi bacarıqlar həyata keçir.

**3)** ***Yeni sosial rolların mövcudluğu.*** Sosial rollar şəxsiyyətlərarası münasibət- lərin reallaşması ilə bağlıdır. Odur ki, uşaq özü və başqaları üçün kollektiv özünüdərkin mühümlüyünü başa düşməlidir. Şagird dərk etməlidir ki, o, daha maraqlı və səmərəli olanı öyrənməklə özünü şagird kollektivinin fəal üzvi kimi hiss edə bilər.

**4)** ***Şəxsiyyətlərarası münasibətlərin statuslu xarakteristikası***. Belə xarak- teristika kiçik yaşlı məktəblilərin özünə bir çox bacarıqları aid edir: özü və imkanları haqqında danışmaq, onları obyektiv şəkildə qiymətləndirmək, öz işi ilə bağlı həmyaşıdlarının fikirlərini dinləmək, yoldaşlarının tənqidinə adekvat reaksiya göstərmək.İbtidai məktəbdə şagirdlərin təlim motivasiyasına müəllimə qarşılıqlı münasibət də güclü təsir göstərir.

Müəllim və şagirdlər təhsil prosesinin subyektləri kimi biri digərindən asılıdır. Sinifdə qarşılıqlı münasibətlərin xarakteri məktəbli şəxsiyyətinin uğurlu inkişafından, təlim fəaliyyətinin motivasiyasından asılıdır. Uşağın məktəbə gedərkən onun ətrafdakı insanlarla qarşılıqlı münasibətləri dəyişir. I sinifdə uşaqlar həmyaşıdlarına nisbətən müəllimə böyük maraq göstərirlər. Sinfdə həmin şagirdlərin davranışı bütünlükdə müəllim tərəfindən tənzimlənir.

Artıq II-III sinifdə şagirdlər başa düşürlər ki, müəllim hansı motivə əsasən bu və ya digər tələbləri irəli sürür. Tədricən şagirdlərin özündə şəxsi fikirlər yaranır ki, onlar hətta sosial münasibətlərə də rəy bildirirlər. Kiçik yaşlı məktəblilər şəxsiyyətlərarası münasibətlərdə müəllim tərəfindən təsiri hiss edirlər. Müəllim sinifdə şəxsiyyətlərarası münasibətlərin, statusun formalaşmasını şərtləndirir. Müəllim şagirdlərin emosional sferasına öz təsirini göstərir.

Kiçik yaşlı məktəblilərin şəxsiyyətlərarası münasibətlər sistemində təkcə həmyaşıdları arasında münasibətlər deyil, həm də fəaliyyətə münasibətləri də müəyyən edilir. Kiçik yaşlı məktəblilərin təlim fəaliyyəti motivlərin çoxsəviyyəli sistemini tənzimləyir. Şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin təlim fəaliyyətinin motivasiyası ilə əlaqəsi mövcud olub biri digərini şərtləndirir.

## ƏDƏBİYYAT


1. Əliyev B.H., Əliyeva K. R., Cabbarov R.V.Pedaqoji psixologiya.B.: Təhsil, 2011,-256s.
2. Əliyev R.İ. Psixologiya. dərs vəsaiti. Bakı.: Qamma-serviz, 2003, -176s.
3. Əzimli Q. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Dərs vəsaiti. B.: ADPU, 2006, -516s.
4. Bağırlı L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı.: Nərgiz, 2003, 116s.
5. Аникеев Н.П. Психологический климат в коллективе. - М.: Просвещение. - 2009. – 319 с.
6. Иванова М. П. Особенности мотивации учения в подростковом возрасте / М. П. Иванова, Н. Г. Абрамян // Вестник Владимирского государственного университета им. Александра Григорьевича и Николая Григорьевича

7. Столетовых. Серия: Педагогические и психологические науки. – 2015. – № 22. – С. 103-109.
8. Зимняя И. А. Педагогическая психология / И. А.Зимняя. М: Логос,2000. -384с
9. Рысева А. С. Формирование и развитие мотивации учебной деятельности / А. С. Рысева // Научные исследования. – 2019. – № 3. – С. 40-42.
10.Сахарова С. П. Проблемы формирования учебной мотивации / С. П. Сахарова // Символ науки. – 2019. – № 4. – С. 126-127.

## ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN KIÇİK YAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNİN MOTİVASİYASINA PSİXOLOJİ TƏSİRİ

***Hacıyeva İlahə***

**XÜLASƏ**

Elmi məqalədə şəxsiyyətlərarası münasibətlərin kiçik yaşlı məktəblilərin təlim fəaliyyətinin motivasiyasına psixoloji təsiri müəllif tərəfindən araşdırılmışdır. Müəllif qeyd edir ki, şagirdin şəxsiyyətlərarası münasibətlər sistemində tutduğu mövqe ilə onun təlim aktivliyi arasında qarşılıqlı əlaqə mövcuddur.Məqalədə şəxsiyyətlərarası münasibətlərin təlim motivasiyası ilə qarşılıqlı əlaqəsi göstərilir. İddiaçının fikrincə, emosional rifah ətrafdakıların müsbət qiyməti ilə müəyyən edilir. Kiçik yaşlı məktəblilərin şəxsiyyətlərarası münasibətlər sistemində təkcə həmyaşıdları arasında münasibətlər deyil, həm də fəaliyyətə münasibətləri də müəyyən edilir. Kiçik yaşlı məktəblilərin təlim fəaliyyəti motivlərin çoxsəviyyəli sistemini tənzimləyir.

## ПСИХОЛОГИЧЕСКОЕ ВЛИЯНИЕ МЕЖЛИЧНОСТНЫХ ОТНОШЕНИЙ НА МОТИВАЦИЮ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ МЛАДШИХ ШКОЛЬНИКОВ

***Гаджиева Илаха***

**АННОТАЦИЯ**

В научной статье автор исследовал психологическое влияние межличностных отношений на мотивацию учебной деятельности младших школьников. Автор отмечает, что существует взаимосвязь между положением студента в системе межличностных отношений и его учебной деятельностью. В статье показано взаимодействие межличностных отношений с учебной мотивацией. По мнению истца, эмоциональное благополучие определяется положительной оценкой окружающих. В системе межличностных отношений младших школьников определяются не только отношения между сверстниками, но и их отношение к деятельности. Учебная деятельность младших школьников регулирует многоуровневую систему мотивов.

## PSYCHOLOGICAL INFLUENCE OF INTERPERSONAL RELATIONS ON THE MOTIVATION OF EDUCATIONAL ACTIVITY OF YOUNGER SCHOOLCHILDREN

***Hajiyeva Ilaha***

**SUMMARY**

In a scientific article, the author investigated the psychological impact of interpersonal relationships on the motivation of educational activities of younger students. The author notes that there is a relationship between the student's position in the system of interpersonal relations and his educational activities. The article shows the interaction of interpersonal relationships with educational motivation. According to the plaintiff, emotional well-being is determined by the positive assessment of others. In the system of interpersonal relations of younger schoolchildren, not only relations between peers are determined, but also their attitude to activity. The educational activity of younger schoolchildren regulates a multi-level system of motives.

# FİLOLOGİYA

# ОБУЧЕНИЕ ЧТЕНИЮ И ПИСЬМУ

***Санани Гюляр, старший преподаватель кафедры русского языка естественных факультетов, Бакинский Государственный Университет***

***Ключевые слова:*** устная речь, чтение, произношение, понимание.

***Açar sözlər:*** şifahi nitq, oxuma, tələffüz, anlama.
***Keywords:*** oral speech, reading, pronunciation, understanding.

В общий объём понятия «развитие речи» включается выработка навыков чтения и письменной речи. Чтение печатного текста присутствует уже с первых шагов и сопровождает изучение языка на любом занятии.

Но нельзя всё же забывает, что умение читать и писать основывается на иных навыках, чем умение говорить и понимать на слух. Преподаватель должен строго различать говорение и чтение как разные виды речевой деятельности.

Устная речь и чтение взаимосвязаны. Практика преподавания свидетельствует, что обучение устной речи способствует успеху при обучении чтению, особенно, если тематическим источником как чтения, так и устной речи является один и тот же текст – одно и то же «содержание».

Чтение, как вид речевой деятельности, может выступать и в качестве самостоятельной цели обучения.

Умение читать складывается из техники чтения (правильного озвучивания, произношения слов, словосочетаний, предложений и уяснения их значении) и понимания прочитанного.

На начальном этапе обучения внимание студента приковано именно к технике чтения; связи между словами, значение отдельных слов и предложений, а тем более содержание всего читаемого отрывка часто не улавливаются. Читая, студенты не знают, что читают, так как, поглощены самим процессом, а не содержанием.

Выработка навыков адекватного произношения, умение правильно и осмысленно читать текст с соблюдением смысловых пауз и ударений имеют важное значение, но главная задача всё – таки – с первых же занятий русским языком прививать студентам навык понимать, осмысливать читаемое уже в процессе первичного чтения.

Опытные преподаватели тщательно подготавливают первичное чтение, особенно на начальном этапе, разъясняя значение заглавия, которое часто отражает содержание читаемого, объясняя незнакомые слова, и словосочетания, записывая их на доске, а студент – в словарных тетрадях.

Практика показывает, что удобнее читать по частям или по абзацам. Закончив чтение первого абзаца, предлагаем студентам передать главное содержание прочитанного; потом читаем второй абзац третий и т.д. После того как вес текст прочитан студентом, переходим к проверке того, как, насколько они поняли текст, к его обсуждению.

Для проверки понимания прочитанного полезна беседа по содержанию в форме вопросов и ответов, пересказ некоторых наиболее ярких эпизотов текста, нахождение и прочтение вслух описаний внешности героя, его характера. Можно составить план текста, пересказать его по опорным словам, продолжить текс и др.

Привитие навыка самостоятельного чтения предварительно не проработанных в аудитории текстов на русском языке – нужная и важная задача обучения, решаемая на начальном этапе при участии и под руководством преподавателя.

Но нельзя забывать, что цель дополнительного чтения – развитие навыка понимания незнакомого текста и накопление словаря. Полезно дать список слов, подлежащих усвоению, вместе с текстом (или подчеркнуть их в тексте); список этот должен быть минимальным.

В дальнейшем и в аудитории, и дома читаются тексты одинаковой трудности с близкой тематикой и лексикой, а в конце обучения на дом даются более трудные тексты.

По прочитанным материалам естественно возникает вопросо – ответная беседа, обсуждение, в которое вовлекается вся группа.

Проводя работу по обучению чтению, мы должны воспитывать у студентов мнения, что к словарю следует обращаться лишь тогда, когда без понимания значения часто повторяющегося слова непонятен смысл читаемого.

Поиск в словаре всех незнакомых слов – ненужная трата времени, так как таких слов может сказаться слишком много, но обычно лишь некоторые из них неоднократно встречающиеся в тексте, существенны для понимания. Их и следует выписывать.

Для работы со словарём очень существенно прежде всего отличное знание алфавита: ведь твёрдое знание алфавита нужно и для установления порядка следования букв внутри слов. Поэтому для выработки навыка быстрого нахождения слова нужны упражнения на закрепление алфавита и умения определять последовательность расположения в словаре ряда слов с одинаковой начальной буквой. Например: записываем на доске ряд слов, в которых первые две буквы общие, а третьи разные, и предлагаем указать последовательность этих слов в словаре: **кошка, кочка, косить, кормить, кофе** и т. д.

В общий объём понятия «развитие речи» включается выработка навыков не только устной, но и письменной речи.

